**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASİ**

**A.A.BAKİXANOV adına TARİX İNSTİTUT**

---

TOFİQ MUSTAFAZADƏ
(*professor, tarix elmləri doktoru*)

# XVIII YÜZİLLİK – XIX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ OSMANLI – AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ

Bakı - «Elm» - 2002

*Azərbaycan MEA Redaksiya Nəşriyyat*
*Şurasının qərarı ilə çap olunur*

Elmi redaktor: *akademik* **İqrar ƏLİYEV**

İxtisas redaktorları: *prof., t.e.d.* **Süleyman MƏMMƏDOV**
*t.e.n.* **Hüsaməddin MƏMMƏDOV**

*Kitaba t.e.d., prof.* ***Oktay Sultanov****, t.e.d., prof.* ***Məhəd Sofiyev****, t.e.d.* ***Şahin Fərzəlibəyli*** *müsbət rəy vermişlər.*

**Mustafazadə T.T.**, XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri: monoqrafiya. – Bakı; Elm; 2002¸ - s.372

İSBN 5-8066-1423-9

Monoqrafiya Osmanlı-Azərbaycan münasibətləri tarixinin XVIII yüzillik – XIX yüzilliyin əvvəlləri dövrünü işıqlandıran, müəllifin həm Rusiya, həm də Türkiyə arxivlərində uzunmüddətli axtarışlar nəticəsində aşkar edib sistemləşdirdiyi qiymətli fakt və materialların tədqiqinə həsr olunmuşdur. Kitabda Osmanlı imperiyasının Azərbaycanla bağlı siyasətinin mahiyyəti açılmış, qarşılıqlı münasibətlərdəki mərhələlər müəyyənləşdirilmiş, onların ozamankı düşmənə – çar Rusiyası və onun əlaltısı Kartli-Kaxeti çarlığına qarşı öz qüvvələrini birləşdirmək cəhdləri, Azərbaycan dövlət qurumlarının Osmanlı-Rusiya qarşidurmasında rolu və təsiri araşdırılmışdır.

Nəşr tarixçi tədqiqatçılar, tələbələr və müəllimlər üçün nəzərdə tutulmuşdur, Vətən tarixini öyrənən geniş oxucu kütləsi üçün də faydalıdır.

0503020907
655(07) - 2002

© Elm nəşriyyatı, 2002

# G İ R İ Ş

Məlumdur ki, 1071-ci il Malazgirt döyüşündən sonra Anadolu yarımadasının türkləşməsi sürətləndi və beləliklə, yeni bir türk ölkəsi meydana çıxdı. Artıq XII əsrin sonlarında Avropa mənbələrində bu ölkə Türkiyə adlanırdı.

Azərbaycanla qardaş Türkiyə arasında münasibətlər zəngin tarixə malikdir və kökləri oğuz, səlcuq, qıpçaq tayfalarının şərqdən gələrək Anadoluda qədimlərdən məskun olan türk və qeyri-türk tayfalarla konsolidasiya və etnik birlik yaratmağa başladığı XI-XII əsrlərə gedib çıxır. XIII əsrin sonunda, bir müddət sonra üç qitədə çox böyük bir ərazini əhatə edəcək Osmanlı dövlətinin meydana çıxması ilə Türkiyənin digər ölkələrlə, o cümlədən Azərbaycanla münasibətləri daha da genişlənirdi. İki ölkə arasında intensiv ticari-iqtisadi əlaqələr olmuş, onların mədəniyyətləri bir-biri ilə vəhdətdə, ümumtürk mədəniyyətinin tərkib hissələri kimi inkişaf etmiş, siyasi münasibətləri isə heç də həmişə eyni səciyyə daşımamışdı.

Osmanlı imperiyasının Azərbaycana qarşı yeritdiyi siyasət XVII-XVIII əsrlərdə ciddi dəyişikliyə uğramışdı. Məlumdur ki, Osmanlı imperiyası çox qüdrətli olduğu XIV-XVI əsrlərdə Avropada daha fəal siyasət yeridir və əsas səylərini orada möhkəmlənməyə yönəldirdi. Yalnız Səfəvi dövləti ilə müharibəyə başladığı zaman Osmanlı imperiyası müəyyən müddətdə öz qüvvələrini Azərbaycana və İrana qarşı göndərməli olmuşdu. Bununla belə, bu regionda möhkəmlənmək məqsədi o zaman Osmanlı sarayı üçün Avropa işləri qədər vacib əhəmiyyət kəsb etmirdi və bunun nəticəsi idi ki, Osmanlı imperiyası müvəqqəti ələ keçirdiyi Azərbaycan torpaqlarını XVII əsrin əvvəllərində özündən zəif Səfəvi dövlətinə qaytarmışdı.

XVIII əsrin əvvəllərinə yaxın vəziyyət əsaslı şəkildə dəyişdi. Daxilən zəifləmiş Osmanlı imperiyası XVII yüzilliyin sonlarında Avropa dövlətlərinin blokuna qarşı mübarizədə məğlub oldu və xeyli ərazi itirdi. Avropada fəal xarici siyasət yeritmək imkanını itirən Osmanlı dövləti nəzərlərini Azərbaycana və İrana qarşı yönəltdi. Bu zaman həmin ölkələrin daxil olduğu Səfəvi dövləti faktiki olaraq dağıldığından onları tutmaq çətin iş deyildi. Rus çarı I Pyotrun Cənubi Qafqazı və İranı zəbt etməyə və bununla da Osmanlı imperiyasının şərq cinahını təhlükə altına almağa yönəldilmiş siyasəti də osmanlıları bu rayonu ələ keçirməyə təhrik edirdi.

XVIII yüzilliyin II yarısında Osmanlı imperiyasının Azərbaycana münasibətdə siyasəti yenidən dəyişikliyə uğrayır. Bu zaman bu dövlət artıq tamamilə zəifləmiş və fəal xarici siyasətdən özünümüdafiəyə keçmiş, artıq Azərbaycan və Dağıstan hakimlərinə müttəfiq kimi baxmağa başlamışdı. İstanbulda dərk etdilər ki, Rusiyanın ikibaşlı qartalına qarşı yalnız türk-müsəlman xalqlarının birgə qüvvələri ilə mane olmaq olar və nəhayət ki, Sultan bütün müsəlmanların xəlifəsi kimi boynuna düşən vəzifələri həyata keçirməyə cəhd etdi. Lakin Osmanlı imperiyasının bu istiqamətdə fəaliyyəti ardıcıl olmadı və heç bir əməli sonuc vermədi.

Bu gün Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra onu ilk tanıyan, hərtərəfli siyasi, iqtisadi və mədəni yardım göstərən Türkiyə olmuşdur. Bu iki qardaş ölkə arasındakı dostluq münasibətləri tarixini öyrənməyin zəruriliyini sübut etməyə ehtiyac yoxdur. Keçmişsiz gələcək yoxdur.

Təəssüf ki, keçmiş sovetlər dövründə mərkəz Azərbaycanın Türkiyə ilə yaxınlaşmasından qorxub ehtiyat etdiyi üçün Azərbaycan tarixinin bir sıra problemlərini, o cümlədən Türkiyə ilə qarşılıqlı münasibətləri öyrənməyə qadağa qoymuşdu. İstər mərkəzdə, istərsə də respublikamızda tarixçilərin diqqəti başlıca olaraq Rusiya ilə münasibətlərin araşdırılmasına yönəldilir və bu münasibətlərin bəzi müsbət məqamları hədsiz şişirdilir, Rusiyanın Azərbaycanda yeritdiyi müstəmləkəçi siyasəti pərdələnərək dostluq və qardaşlıq faktları kimi verilir, əslində təbliğ edilirdi. Türkiyə ilə Azərbaycan arasında siyasi, ticari-iqtisadi və mədəni əlaqələr «unudulur» , yalnız Osmanlı imperiyasının bir sıra dövrlərdə Azərbaycanda mövcud olmuş dövlətlərlə apardığı müharibələr təsvir edilir, bununla da Türkiyə Azərbaycan xalqının daimi düşməni kimi qələmə verilirdi[1].

Yalnız ölkəmiz müstəqillik qazandıqdan sonra Azərbaycan-Türkiyə münasibətlərinin orta əsrlər tarixi obyektiv surətdə tədqiq olunmağa başlamış və həmin istiqamətdə bir sıra mühüm addımlar atılmışdır. Bu baxımdan Ş.Fərzəlibəylinin 1995-ci ildə çap olunmuş «Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər)» adlı əsərini xüsusi qeyd etmək lazımdır. Bizi maraqlandıran «XVIII yüzillikdə və XIX əsrin əvvəllərində Azərbaycan-Türkiyə münasibətləri» mövzusu isə hələlik ciddi və kompleks tədqiqat obyekti olmamışdır. Ədalət naminə qeyd etmək lazımdır ki, F.Əliyevin, A.Əbdürrəhmanovun, Z.Bünyadovun, H.Məmmədovun, S.Məmmədovun, O.Markovanın, H.Sadıqovun və bir çox başqa müəlliflərin əsərlərində bizi maraqlandıran mövzunun bir sıra məsələlərinə toxunulmuşdur. N.Sotavovun doktorluq dissertasiyası XVIII əsrdə Şimali Qafqazın Rusiya-İran və Rusiya-Türkiyə münasibətlərində

yerini öyrənməyə həsr edilmişdir. Müəllif düzgün olaraq XVIII əsrin 20-ci illərinin əvvəllərindən Rusiya və Türkiyənin Qafqaz siyasətində Dağıstan və Azərbaycanın ön plana çıxdığını qeyd edir[2]. Lakin N.Sotavov hadisələrin təhlilində qərəzli mövqedə - ruspərəst və antitürk mövqedə durur. O, iddia edir ki, «Osmanlı əsarəti altına düşmək istəməyən dənizsahili zonanın sakinləri dağlara qaçır, rus hakimiyyət orqanlarına yardım üçün müraciət edirdilər» və rus hakimiyyət orqanları onları himayə edirdi. Bu iddianı əsaslandırmaq üçün müəllif az inandırıcı görünən belə bir sübut gətirir: 1726-cı ilin noyabrında general Levaşov Müşkür sakinlərini müdafiə üçün mayor Qatmanın rəhbərliyi ilə 300 və 400 kazak ayırmışdı[3] (?). G.Quliyevanın XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqlarının Türkiyə ilə münasibətlərinə həsr etdiyi namizədlik dissertasiyasında isə əsasən nəşr olunmuş Osmanlı sənədlərindən və müxtəlif arxiv mənbələrinin Azərbaycan MEA Tarix İnstitutunun Elmi arxivindəki surətlərindən istifadə etməklə kifayətlənilmiş, müəllif orijinal arxiv materiallarını tədqiqata cəlb edə bilməmişdir.

Qardaş Türkiyə tarixçiləri də bizi maraqlandıran mövzunun öyrənilməsi ilə bağlı bir sıra işlər görmüşlər. Professor, d-r Münir Aktəpə Kəmani Mustafa əfəndinin «Revan fəthnaməsi»ni latın qrafikasına çevirərək nəşr etmiş və nəşrə çox geniş – 35 səhifə həcmində müqəddimə yazaraq 1720-1724-cü illərdə Osmanlı hökumətinin dağılmaqda olan Səfəvi dövlətinə münasibətini, Azərbaycan və İranı ilhaq etməyə yönəlmiş siyasətini ilk mənbələr əsasında təhlil etmişdir.[4] Mehmet Əli Çakmakın xanlıqlar dövründə Azərbaycan-Türkiyə münasibətlərinə həsr olunmuş doktorluq dissertasiyasının tezislərində Azərbaycan xanlıqları ilə Türkiyə arasında münasibətlərin ümumi cizgiləri təsvir edilmişdir. Professor, d-r Mehmet Saray və bir çox başqa Türkiyə tarixçiləri Qafqazda XVIII-XIX yüzilliklərdə baş verən hadisələr və bu hadisələrə Türkiyənin münasibəti barədə məqalələr yazaraq, istifadə etdikləri qaynaqların transkripsiyasını vermiş və toplu halda nəşr etdirmişlər.[5]

Camal Gökçənin Osmanlı imperiyasının 1774-1829-cu illərdə Qafqazda yürütdüyü siyasətin öyrənilməsinə həsr edilmiş[6] məlum doktorluq tezislərində Şimali və Qərbi Qafqaz xalqları ilə münasibətlərin işıqlandırılmasına daha çox diqqət yetirilmişdir. Müəllifin Azərbaycan tarixi haqqında məlumatının səthiliyi aşkar hiss edilir və əsərdə çoxlu yanlışlıqlara yol verilmişdir.

Türkiyə tarixçilərinin bir qismi məsələyə ümumən düzgün yanaşsa da, fakt və problemlərə ciddi münasibət göstərməməklə fərqlənir. Məsələn, İbrahim Yüksel heç bir mənbəyə əsaslanmadan 1722-ci ildə Hacı Davudun Osmanlı qüvvələrinin köməyi ilə rusların silahlı dəstələrini Bakı önündə dayandırdığını iddia edir.[7]

Beləliklə, tarixşünaslığımızda yaranmış müəyyən boşluğu aradan qaldırmaq üçün XVIII əsrdə Azərbaycan-Türkiyə münasibətlərini əhatə edən ümumiləşdirici əsərə ehtiyac olduğu aydın görünür. Həmin boşluğu islah etmək və ehtiyacı ödəmək məqsədilə oxuculara təqdim olunan bu əsəri yazarkən biz mövzuyla bağlı Osmanlı və Azərbaycan türkcələrində, həmçinin rus dilində çap olunmuş və olunmamış sənədləri imkan daxilində tədqiqata cəlb etmiş, onları müqayisəli şəkildə öyrənərək, XVIII əsr Azərbaycan-Türkiyə münasibətlərinin dolğun mənzərəsini obyektiv şəkildə bərpa etməyə çalışmışıq. Bu zaman «tarixçi tarixi istədiyi kimi yox, olduğu kimi yazmalıdır» məhşur kəlamını rəhbər tutmuşuq.

Tədqiq etdiyimiz mövzuyla bağlı daha çox və daha qiymətli sənədlərin saxlandığı Rusiya arxivi Rusiya İmperiyasının Xarici Siyasəti Arxividir (Arxiv Vneşney Politiki Rossiyskoy İmperii - AVPRİ). Bu arxivin Rusiyanın Türkiyə ilə münasibətləri (Snoşeniya Rossii s Tursiyey - SRT) adlı 89 saylı fondunda Azərbaycan-Türkiyə münasibətləri tarixinə dair çox maraqlı məlumatlar 4 siyahı üzrə (1,2,7,8) cəmi 3314 qovluq var. 1 saylı siyahıda 947 qovluqda olan sənədlər 1720-1771-ci illərə aiddir. Osmanlı Sultanlarının fərmanları, vəzirlərin məktubları, Rusiya və Osmanlı imperiyaları arasında bağlanmış müqavilələrin surətləri, Rusiyanın Türkiyədəki səfirlərinin hesabatları və Türkiyənin Rusiyaya göndərdiyi elçiliklər barədə məlumatlar bu sənədlərdəndir. 89 saylı fondda ən çox sənəd (2304 qovluq) 8 saylı siyahı ilə hifz olunur. Xronoloji çərçivəsi 1723-1819-cu illəri əhatə edən bu siyahı üzrə sənədlərdə XVIII yüzillik və XIX yüzilliyin əvvəlində Türkiyə-Azərbaycan münasibətlərinin tarixinin bir çox tərəflərini işıqlandıran xeyli məlumat tapmaq mümkündür. AVPRİ-nin Rusiyanın İranla münasibətləri (Snoşeniya Rossii s Persiyey - SRP) adlı 77 saylı fondunda da (1131 qovluq) bizi maraqlandıran mövzuyla bağlı xeyli məlumat olan sənədlər vardır. Onların içərisində Rusiya Xarici İşlər Kollegiyasının Xəzəryanı ölkələrlə (o cümlədən Azərbaycanla) bağlı sənədləri xüsusilə diqqəti cəlb edir. 1 saylı siyahı üzrə toplanmış sənədlər sayca ən çox (894 qovluq), elmi dəyərinə görə daha sanballıdır.

Moskva şəhərindəki daha iki arxivdə - Rusiya Dövlət Qədim Aktlar Arxivi (Rossiyskiy Qosudarstvennıy arxiv Drevnix Aktov -RQADA) və Rusiya Dövlət Hərb-Tarix Arxivində (Rossiyskiy Qosudarstvennıy Voenno-İstoriçeskiy Arxiv - RQVIA) XVIII-XIX əsrlərdə Türkiyənin Azərbaycanla

bağlı siyasəti, Azərbaycanda daxili və xarici siyasi vəziyyət haqqında aşkarlanmamış məlumatlarla zəngin çoxlu mötəbər mənbələr var.

RQADA-nın «Böyük Pyotrun Kabineti» (Kabinet Petra Velikoqo - KPV) adlı 9 saylı fondunda XVIII yüzilliyin birinci rübündə Azərbaycan və Türkiyə tarixi ilə bağlı materiallar çoxdur. Adı keçən arxivin «II Yekaterinanın Kabineti və onun davamı» (Kabinet Ekaterinı Vtoroy i eqo prodoljenie) adlı 1725-1843-cü illəri əhatə edən 3 siyahıdan ibarət 10 saylı, «Qafqaz işləri» (Kavkazskiye dela) adlı 23 saylı, «Diplomatik şöbə» (Diplomatiçeskiy otdel) adlı 15 saylı fondlarında tədqiq etdiyimiz problemlə bağlı mühüm materiallar tapmaq mümkündür.

RQVIA-nın 52 saylı «Potyomkin fondu»nda və 41 saylı «Hərbi-Elmi Arxiv (Voenno-Uçenıy Arxiv) fondu»nda mövzu ilə bağlı məlumatlar seyrək olsa da, ciddi elmi dəyərə malikdir. Sonuncu fond XVIII yüzilliyin sonu - XIX yüzilliyin İ yarısına aid sənədləri əhatə edir və tam adı belədir: «Gürcüstanın Rusiyaya birləşdirilməsi tarixinə dair materiallar» (Materialı k istorii prisoedineniya Qruzii k Rossii).

Adlarını çəkdiyimiz Rusiya arxivlərindən savayı Sankt-Peterburqdakı Rusiya Dövlət Tarix arxivi (Qosudarstvennıy İstoriçeskiy arxiv Rossii - QİAR), Rusiya Mərkəzi Dövlət Hərbi-Dəniz Donanması arxivində (Rossiyskiy Sentralnıy Qosudarstvennıy arxiv Voenno-Morskoqo Flota - RSQAVMF) və Həştərxan şəhərindəki Həştərxan Vilayəti Dövlət Arxivində (Qosudarstvennıy Arxiv Astraxanskoy Oblasti - QAAO) də Türkiyə və Azərbaycan tarixinə, bu dövlətlərlə Rusiyanın münasibətlərinə dair çoxlu material var.

Rusiya arxivlərindəki sənədlər narrativ (təsviri) mənbələrə nisbətən daha etibarlıdırlar. Əvvəla, onların bir qismi rəsmi dövlət sənədləridir, yaxud diplomatik yazışmalardır. O ki qaldı müxtəlif təhriratlara, raportlara və informasiyalara, onların tərtibçilərindən obyektiv və dolğun informasiya tələb olunurdu. Tərtibçilər də bu tələbi yerinə yetirməyə çalışırdılar. Bir sıra hallarda məxfi məlumatları əldə etmək üçün pul, yaxud qiymətli hədiyyələr verilirdi. İstanbuldakı rus diplomatik nümayəndələri hər ilin sonunda lazımi informasiya almaq üçün verdikləri pul-para və hədiyyələr haqqında mərkəzi hökumətə hesabatlar göndərirdilər. Təəssüf ki, yüksək rütbəli bəzi Osmanlı məmurları bu «hədiyyə»lərə şirnikir, məxfi məlumatları öz dövlətinin zərərinə olaraq bəxşişlərə əvəz verib qarşı tərəfə açıqlayırdılar.

Onu da qeyd etmək lazımdır ki, Rusiya arxiv qaynaqlarını araşdıran tədqiqatçılar bir sıra çətinliklərlə üzləşir. Əvvəla rus dilində olan sənədlərin dili və xətti müasir rus dili və qrafikasından xeyli fərqlidir. Digər tərəfdən, bu sənədlərin qərəzli xarakter daşıdığını da xatırlatmaq lazımdır, rus dilindəki sənədləri tərtib edənlər öz xidmətlərini şişirtməyə, öz dindaşlarının - xristianların hər cür hərəkətlərinə haqq qazandırmağa çalışmışlar. Bir çox hallarda məlumat toplamaq işi yerli ermənilərə həvalə olunurdu. Onlar isə müəyyən pis niyyətlərlə yanlış, yerlərdə ermənilərin sayı və fəaliyyəti barədə şişirtmə, bəzən tamamilə uydurma məlumat verirdilər. Çox təəssüflər ki, rus tarixçiləri çox vaxt bu sənədlərə tənqidi yanaşmır, onlardakı məlumatları kor-koranə doğru məlumat kimi təqdim edirlər. Məsələn, V.Lısçovun «Persidskiy poxod Petra İ. 1722-1723» (I Pyotrun İran yürüşü. 1722-1723) adlı əsərində belə bir yanlış iddiaya rast gəlirik ki, guya 1723-cü ildə Azərbaycan şəhəri Gəncəni Osmanlı qoşunlarının hücumundan ermənilər qoruyub saxlamışlar(?!).

Lakin adı keçən qüsurları araşdırma prosesində nəzərə almaqla rus arxiv sənədlərində Azərbaycan və qonşu ölkələrin tarixinə aid çoxlu qiymətli məlumatlar əldə etmək mümkündür. Burada bunu da qeyd etmək lazımdır ki, 1918-ci ilin martına kimi Rusiyada indi dünyanın əksər ölkələrində istifadə olunan qriqoryan miladi təqvimindən fərqli olan yulian miladi təqvimindən istifadə olunmuşdur. Buna görə də o dövrün rus qaynaqlarında göstərilən tarixlər qriqoryan təqvimindən 11 gün geri qalır. Sovet dövründəki tədqiqatlarda bu fərq nəzərə alınmamışdır. Biz isə bunu nəzərə almışıq. Buna görə də bir çox hallarda kitabımızda göstərilən bir çox hadisə tarixləri əvvəlki kitablarda göstərilən tarixlərdən 11 gün irəlidədir.

Türkiyə Respublikasının İstanbuldakı Başbakanlıq Osmanlı Arxivi (BOA) XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Azərbaycan-Türkiyə münasibətlərinə, Osmanlı imperiyasının Qafqaz siyasətinə dair çox dəyərli sənədlərlə zəngindir. Həmin arxivdəki mənbələrdən danışılarkən mövzuyla bağlı «dəftər»ləri xüsusi qeyd etmək lazımdır. Onlar Osmanlı bürokratiyasının qəbul etdiyi qərarların, Divan və Maliyyə qələmlərində aparılan qeydlərin çoxcildli seriyalarıdır. Bu seriyalar içərisində 32 saylı «Divan-i Humayun», 17 saylı «Mühimmə» və 22 saylı «Namə-i Humayun» dəftərləri bizim mövzu ilə sıx əlaqəli olduğu üçün xüsusi əhəmiyyət kəsb edir. Divan qələmlərinin rəhbərləri olan rəis-ül-kittab fərman və hökmləri ayrıca dəftərlərə qeyd etdirirdi. «Mühimmə dəftərləri» adlandırılan dəftərlər əhatə etdiyi sənədlərə görə müxtəlif başlıqlar altında verilmişdir: «Mühimmə-i Asakir» , «Mühimmə-i Mektümi» və s. Mühimmə Dəftərləri külliyyatının «Mühimmə» adlı birinci seriyası hicri 961-1313-ci illəri (miladı 1553-1905) əhatə edir.

«Name-i Humayun Dəftərləri» Sultanlar tərəfindən digər hökmdarlara və asılı hakimlərə göndərilən, «Name-i Humayun» (ali məktub) deyilən məktublar toplusudur. Onların bir surəti gələn cavabları ilə «Name-i Humayun» adlanan dəftərlərə yazılır və Divan sicillərindən sayılırdı. 9 və 10 saylı «Name-i Humayun» dəftərlərində Azərbaycan tarixi ilə bağlı qiymətli materiallar vardır.

Divan dəftərləri kateqoriyası ilə yanaşı, «Ru»üs Dəftərləri» də mövcuddur. Ru»üs vəzir, bəylərbəyi, sancaqbəyi, timar, zeamət sahibləri istisna olmaqla bütün dövlət xidmətləri ilə övkaf və xəzinədən maaş alan hər təbəqədən olan dövlət məmurlarının vəzifəyə təyin olunmasını əks etdirən qeydə verilən addır. Bu qeydlər «Divan-i Humayun Ru»üs» qələmində «Ru»üs Dəftər» deyilən dəftərlərə edilirdi. Hicri 1116-1326-cı (miladi 1704-1908) illəri əhatə edən bu seriya 261 dəftərdən ibarətdir.

«C» kateqoriyasından olan dəftərlər «Divan-i Hümayün Təhvil nişan) kalemi defterleri» adlanır. Təhvil ümumi şəkildə hər hansı bir məmurun bir mahaldan başqasına nəqlinə deyilirdi. Müxtəlif təhvil qeydlərini əhatə edən bu seriya hicri 1024-1335-ci (miladi 1615-1916) illər arasında tərtib olunmuşdur. BOA-dakı təhvil dəftərlərinin mühüm bir qismi «Kepeçi Təsnifi» ində toplanmışdır. Kamil Kepeçi təsnifinin A hissəsində hicri 921-1317 (miladi 1515-1899) tarixləri arasında 400 dəftər, B hissəsində isə hicri 904-1189-ci (miladi 1498-1782) illərə aid 6 dəftər vardır. 253/532 saylı «Gəncə əyaləti timar icmalı» da onların arasındadır.

«D» kateqoriyasına «Divani Hümayün Amedi kalemi» (yəni əcnəbi dəftərləri) daxildir. Rəis-ül-küttabın xüsusi qələmi olan amedi qələminin başçısına amedçi, amedi əfəndi və ya amədi divani humayun deyərdilər. Divani əcnəbiyyə dəftərləri hər cür əhdnamə və andlaşma mətnlərini, görüşlər barədə hesabat və protokolları, xarici ölkələrin elçilərinə, konsullara və tacirlərə aid yazıları əks etdirirdi. Amedi qələmində tərtib edilən dəftərlərin bir qismi «Əcnəbi (Divanı Ecneviyye) Dəftərləri» adlanır və 111 dəftərdən ibarətdir. Onların içərisində Rusiya ilə münasibətlərə aid sənədlərin toplandığı dəftərlər aşağıdakılardır:

Rusya Ahidnamə Dəftəri:

N- 83/1-266 (1701-1803- cü illər).

Rusya Ahkam Defteri:

N- 84/2-54 (1721-1776-cı illər);

N- 85/3-188 (1776-1785-ci illər);

N- 86/4-195 (1785-1797-ci illər);

N- 87/5-197 (1797-1800-cü illər);

N- 88/6-403 (1800-1806-cı illər);

N- 89/7-278 (1806-1817-ci illər);

N- 90/8-349 (1822-1829-cu illər).

Rusya Nişan Dəfteri:

N- 92/10-364 (1779-1903-cü illər).

Dəftərlərin üçüncü külliyyatı (seriyası) «Defterhane Defterləri» adlanır. Onlara Dövlət xəzinəsinə aid dəftər və qeydlər daxildir. Dəftərxana başçısına «Dəftərxana Emini» və ya «Dəftər Emini» deyilirdi. Bu dəftərlərin içərisində «Təhrir Dəftərləri»nin özünəməxsus yeri vardır. Osmanlı dövlətində lazım gəldikdə əhali və ərazi qeydiyyatı keçirilirdi. Bu qeydlər bütün vilayətə və ya ayrı-ayrı livalara aid ola bilərdi. Siyahıyaalmalar müəyyən fasilələrlə təkrar edilmişdir.

Osmanlı imperiyasında yeni bir ərazi fəth edildikdə ilk iş olaraq ərazi təhriri aparılırdı. Bu yolla hasilat və vergi gəlirlərinin bilinməsi ilə timar sisteminin təsis və tətbiqinə keçirilərək, o ölkə Osmanlı dövlətinin vilayəti halına gətirilirdi. Sultanın əmri ilə, bir liva və ya vilayətin təhririnə təyin edilən amirlər müdrik, qanunu bilən, elmli şəxslər içərisindən seçilirdi. «İlyaziçi» adı verilən bu şəxslərə təhrir katibləri və təhririn keçirildiyi livanın qazısı kömək edirdi. Heyət kəndin kəndxudası ilə sorğu apararaq qeydlər götürürdü. Uyğun yaşdakı hər təbəənin adı və atasının adı, vergi ödənilməli hər nə varsa adı və vergi tutarları da göstərilərək dəftərdəki hasil hissəsinə ayrıca qeyd edilirdi. Bu yolla kəndlər və şəhərlərdə kişilərin siyahısı tutulmuş, torpaqlı və torpaqsız, evli, subay, sənət sahibi, əlil, dul, çox qoca, imam, müəzzin, keşiş, meyvə ağaclarının, arı pətəklərinin gətirdikləri illik vergi hasilatının ağça ilə miqdarı, nəhayət əkin yeri, yaylaq, qışlaq, arxlar və sairə haqqında məlumat verilmişdir. Təhrir bitdikdən sonra iki növ dəftər tərtib olunurdu. İlyaziçi bir dəftər tərtib edərək nişançıya verirdi. Nişançının sədrəzəmin icazəsiylə lazımi düzəlişlər apardığı bu dəftərə müfəssəl dəftər deyilirdi. Ayrıca yalnız idari təşkilata görə vilayət, qəza, nahiyə, kənd adlarını əhatə edən dəftərə isə «icmal» adı verilmişdir. Bundan başqa iki təhrir arasındakı dəyişiklikləri əks etdirən «ruznamçe» və «derdest» adlı dəftərlər hazırlanırdı. İki nüsxə olan müfəssəl dəftərlərdən bir nüsxəsi mərkəzdə qalır, o birisi isə aid olduğu mahala və ya

vilayətə göndərilirdi. Müfəssəl dəftərin başında o elin qanunnaməsi verilirdi. Təhririn təkrarında «cedid» adlı yeni dəftərlər hazırlanır, o zaman əvvəlkinə «atik» adı verilirdi. Təhrir yenə təkrar edildikdə isə «cedid»lər «atik»lər, «atik»lər isə «köhne» adını alırdı.

Tapu-təhrir dəftərlərindən Azərbaycanın ayrı-ayrı mahal və şəhərlərinə aid olan aşağıdakılardır:

N- 606 (h.991)- «Şirvan»

Şirvan mühafizi Osman paşanın tərtib etdirdiyi 5 ildən bəri Səfəvilərə qarşı müharibədə iştirak edən 74 nəfərə zeamət və 69 nəfərə timar verilməsi haqqında «Timar dəftəri» adlanan bu dəftər cəmi 15 səhifədən ibarətdir.

N- 668. Təbriz, Dizmar livalarının icmal dəftərləri. IV Murad dövrünə aiddir.

N- 895. İrəvan əyalətinə bağlı Makı sancağının təhrir dəftəri (h.1139). Maliyyə dəftərinə aid edilən bu dəftər cəmi 40 böyük səhifədən ibarətdir.

N- 896. «İrandakı bəzi övkafın müfəssəl təhrir dəftəri» (h.1139). Təbriz və Ərdəbil əyalətlərinə aiddir.

N- 898. İrəvan əyalətinin livalarındakı xas, timar və zeamətlərin siyahısı (h.1140). Timar dəftəri sayılır.

N- 901. İrəvan livasının əhali və gəlirlərinə aid müfəssəl dəftər. Maliyyə dəftəri adlanır.

N- 902. Ərdəbil livasının Ərdəbil, Sərab, Miyanə, Pərvanə, Kendvan, Gərmurd, Həştrud, Tabtab nahiyələrinin əhalisi və gəlirlərinin müfəssəl dəftəri (h.1140). Maliyyə dəftəri adlanan bu dəftər 29 səhifədən ibarətdir.

N- 903. Gəncə əyalətinin qanunnaməsi və Gəncə, Bərdə, Arazbar, Lori livaları nahiyələrinin əhali və gəlirlərinə aid maliyyə dəftəri (h.1140). 690 vərəqdən ibarətdir.

N- 904. Təbriz livasının əhali və gəlirlərinə aid birinci maliyyə dəftəri.

N- 905. Naxçıvan livasının əhali və gəlirlərinə aid müfəssəl dəftər.

N- 907. Həmədan əyalətinin əhali və hasilatına aid maliyyə dəftəri. III Əhməd dövrünə aiddir.

N- 908. Təbriz livasının ikinci cild təhrir maliyyə dəftəri. III Əhməd dövrünə aiddir. 326 səhifədən ibarətdir.

N- 909. Marağa livasının əhali və gəlirlərinə aid müfəssəl maliyyə dəftəri. 527 səhifədən ibarətdir.

N- 910. Xalxal və Urmiya livaları nahiyələrinin əhali və gəlirlərinə aid müfəssəl dəftər. III Əhməd dövrünə aid bu maliyyə dəftəri 409 səhifədən ibarətdir.

N- 911. Xoy livasının Xoy, ×ors, Kərkər, Səkmanabad, Süleyman Saray, Pəpəcik, ×aldıran nahiyələrinin əhali və gəlirlərinə aid müfəssəl maliyyə dəftəri. III Əhməd (1703-1730) dövrünə aiddir.

N- 913. İrəvan valisi vəzir İbahim paşa tərəfindən Gəncə, Bərdə və Xılxına sancaqlarında verilən timarların siyahısı (h.1145). Bu timar dəftəri 298 səhifədən ibarətdir.

N- 914. Gəncə əyalətinin mühafizi Hacı İbrahim və Hacı Əli paşalar tərəfindən verilən timar dəftəri (h.1145).

BOA-da ən böyük təsniflərdən biri «Xətt-i Humayun»dur. 37 mindən çox sənədi əhatə edir. Onlara müxtəlif sərhəd paşalarının qonşu ölkələrdə, o cümlədən Azərbaycanda baş verən hadisələrə dair məlumatları, vəzirin Sultana hər hansı hadisə ilə bağlı məktubları və s. daxildir. Sultanlar tərəfindən Sədrəzəmə ünvanlanmış vacib dövlət işlərinə dair bəzi «Xətt-i Humayunlar», müahidənamələr, təsdiqnamələr kimi sənədlərin surətləri də bu dəftərlərə qeyd olunmuşdur. 3, 4, 5, 10, 15, 18/1, 30, 37, 61, 67-ci və daha yüzlərlə sənədlərdə XVIII əsr Azərbaycan tarixinə aid qiymətli məlumatlar vardır.

XVIII yüzillikdə və XIX yüzilliyin əvvəllərində Osmanlı dövlətinin Azərbaycan siyasəti və Azərbaycanla əlaqələri tarixinə dair bir sıra Osmanlı və Rusiya xronikalarında, digər tipli narrativ mənbələrdə də müəyyən faktlar və məlumatlar vardır. Osmanlı mənbələrindən ilk növbədə saray tarixçisi İsmayıl Asim Çələbizadənin (Kiçik Çələbizadə) 1740-cı ildə İstanbulda basma üsulu ilə çap olunmuş əsərini, Cövdət paşanın «Tarix-i Cövdət» əsərini qeyd etmək lazımdır. Bu qəbildən olan rus mənbələrindən isə ilk növbədə F.Soymonovun, professor S.Q.Qmelinin, İ.Y.Lerxin və başqalarının səyahətnamələrini qeyd etmək lazımdır. P.Q.Butkovun məlum əsəri də qismən ilk mənbə səciyyəsi daşıyır.

Monoqrafiya üzrə tədqiqat apararkən biz başlıca olaraq arxiv sənədlərinə və ilk mənbələrə istinad etməklə yanaşı, müəyyən dərəcədə bizdən əvvəlki tədqiqatçıların əsərlərinə də müraciət etmiş, onlardakı müsbət fikirlərdən bəhrələnmişik.

Sonda biz, monoqrafiyanı hazırlayarkən elmi-təşkilati işlərdə göstərdikləri qayğı və diqqətə görə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvləri İqrar Əliyevə və Cəmil Quliyevə, kitabın

meydana çıxmasında bu və ya digər dərəcədə əməyi olmuş bütün şəxslərə səmimi təşəkkürümüzü bildiririk.

# XVIII YÜZİLLİYİN 20-ci İLLƏRİNDƏ OSMANLI İMPERİYASİ VƏ AZƏRBAYCAN

## *1. Səfəvi dövlətinin süqutu və Osmanlı imperiyasının Cənubi Qafqaz siyasəti*

Azərbaycan XVIII əsrin əvvəllərində Səfəvi imperiyasının tərkib hissəsi idi. XVI yüzilliyin başlanğıcında ilk vahid Azərbaycan dövləti kimi yaranmış bu dövlət sonradan öz hüdudlarını genişləndirərək, ərazisi 3 milyon kv. km-ə yaxın olan bir imperiyaya çevrilmişdi. XVI yüzilliyin sonu - XVII yüzilliyin əvvəllərində Azərbaycan Səfəvi dövləti bir sıra tarixi amillərlə bağlı tənəzzülə uğradı. Bunun əsas səbəbi iri feodal torpaq mülkiyyətinin inkişafı nəticəsində imperiya daxilində mərkəzdənqaçma qüvvələrinin güclənməsi idi. İ Şah Təhmasibin vəfatından (1576-ci il) sonra qızılbaş əyanlarının çəkişmə meydanına çevrilən Səfəvi dövləti getdikcə zəifləmiş, mərkəzi hakimiyyət qətiyyətsiz Şah Məhəmməd Xudabəndinin dövründə (1578-1587) iflic vəziyyətinə düşmüşdü.

Azərbaycan Səfəvi dövlətinin tənəzzülündə onunla Osmanlı dövləti arasındakı rəqabət də az rol oynamırdı. İki qonşu imperiyanın hakim dairələrinin iqtisadi və siyasi mənafelərindəki ziddiyyətlərdən qaynaqlanan bu rəqabət siyasi məqsədlərlə şiddətləndirilən sünni-şiə ədavəti və Avropa dövlətlərinin təhrikçiliyi ilə daha da kəskinləşirdi.

1590-cı il İstanbul müqaviləsinə görə Səfəvilər Gürcüstan və Azərbaycanı (Talış və Ərdəbil istisna olmaqla) Osmanlılara güzəştə getdilər. XVII yüzilliyin əvvəllərində İ Şah Abbasın uğurlu müharibələri nəticəsində bu ölkələr yenidən Səfəvi imperiyasının tərkibinə qatılsa da, artıq müharibələrdə viran qalmış Azərbaycan dövlət daxilində aparıcı mövqeyini bərpa edə bilmədi. İ Şah Abbas (1587-1629) müharibələrin gedişində mərkəzləşdirmə siyasəti yeridir və bu zaman dikbaş qızılbaş əmirləri və tayfalarına ardıcıl divan tuturdu. Bunun nəticəsində isə Azərbaycan-türk feodallarının hakimiyyətdəki aparıcı mövqeləri xeyli zəifləyir, fars feodallarının əlinə keçirdi. Bununla belə, Səfəvi dövlətinin fars dövlətinə çevrildiyini demək də tamamilə yalnış olardı, çünki indi bu dövlət Azərbaycan-türk və fars feodallarının ortaq hakimiyyət dövlətinə çevrilmişdi. Təsadüfi deyil ki, o rəsmi sənədlərdə, əvvəlkitək - Səfəvi, yaxud Qızılbaş dövləti adlanır, yalnız avropalılar tərəfindən onların siyasi niyyətlərinə uyğun olaraq, qəsdən «İran» adı ilə göstərilirdi.

XVIII yüzilliyin əvvəllərində Azərbaycan torpaqları inzibati cəhətdən dörd vahidə - Azərbaycan və ya Təbriz, Qarabağ (Gəncə), Şirvan və ×uxursəd (İrəvan) bəylərbəyliklərinə bölünmüşdü. Ərdəbil mahalı heç bir bəylərbəyliyin ərazisinə daxil edilməyərək, Səfəvi nəslinin müqəddəs xanəgahı kimi, şah xanədanı hesab olunur və şah tərəfindən təyin olunan vəqf mütəvəllisi tərəfindən idarə edilirdi.[1] Xalxal mahalını da adətən şah tərəfindən təyin olunmuş hakimlər idarə edirdilər. Bəylərbəyliklər mahallara və nahiyələrə bölünürdü, lakin bu bölgü heç də həmişə gözlənilmir, çox vaxt xırda inzibati dairələr irsi mülklər -»ölkələr"  kimi mövcud olurdu.

XVIII yüzilliyin əvvəlində Səfəvi dövləti yenidən, həm də daha dərin və hərtərəfli tənəzzül keçirirdi. Dövlətin gəlirləri azalmışdı, onun boşalmış xəzinəsini doldurmaq məqsədilə 1698-1701-ci illərdə əhalinin ümumi siyahıya alınması keçirildi və yaşı 15-dən yuxarı bütün kişiləri vergi siyahılarına yazdılar. Eyni zamanda bəzi yeni vergilər də tətbiq olundu.[2]

Səfəvi dövlətinin tənəzzülünün digər əlaməti XVII yüzilliyin sonu - XVIII yüzilliyin əvvəllərində bütün hakimiyyətin mürtəce saray əyanları və ruhani dairələrinin əlinə keçməsi idi. Zəif iradəli və həddsiz mülayim təbiətli Şah Sultan Hüseyn (1694-1722) əslində onların əlində bir alətə çevrilmişdi. Sələmçi kapitalla bağlı olan həmin dairələrin hökmranlığı bir yandan zəhmətkeş kütlələrin istismarının kəskin artmasına, digər yandan dövlət aparatının pozulmasına səbəb oldu.[3] Şiə üləmalarının təlqini ilə Sultan Hüseyn dini ayrıseçkilik siyasəti yeridirdi ki, bu da özünü sünni əhalinin sıxışdırılmasında göstərirdi. Hətta Məkkə ziyarətinə gedənlərdən böyük məbləğdə rüsum alınmağa başlanmışdı. Bu, adətən Məkkəyə daha çox gedən sünnilərə (şiələr Kərbəla və Məşhədi daha çox ziyarət edirdi) nisbətən xeyli maddi zərər yetirirdi.

Dövrün müasiri alban katalikosu Yesai Həsən Cəlal (Cəlalyan) yazırdı ki, acgöz şah və onun vəzirləri rüşvət alaraq vəzifəli şəxsləri tez-tez dəyişir, bir yerə daha çox hakim təyin edir, pul verib

hakimiyyət əldə edən şəxslər idarəsi ona həvalə olunan yerə gəlib çıxan kimi ədaləti bir yana qoyaraq, təbəələri soyur və qarət edirdilər.[4]

Ağır vergi və mükəlləfiyyətlər, feodal zülmü və özbaşınalığının güclənməsi Səfəvi dövlətinin hər yerində hökumətə qarşı çıxışların baş verməsinə səbəb olurdu. İqtisadi istismara və sosial-siyasi zülmə dini ayrı-seçkiliyin də əlavə olunduğu Əfqanıstanda və Azərbaycanın şimalında (Şirvanda) xalq çıxışları daha kəskin və inadcıl səciyyə daşıyırdı.

Hələ 1707-1709-cu illərdə Təbriz, Şirvan və Carda xalq kütlələrinin silahlı çıxışları baş vermişdi.[5] 1711-ci ildə carlılar yenidən ayağa qalxdılar. Tam müstəqil olmağa və yeni torpaqlar ələ keçirməyə can atan İlisu hakimi Əli Sultan carlılarla birləşərək hərəkata rəhbərliyi öz əlinə ala bildi. Carlılar Şəki, Qəbələ, Ağstafa, Şəmşəddin, Gəncəbasar, Kürəkbasar və Zəyəmə hücumlar etdilər, Şamaxının ətrafına kimi gedib çatdılar. Yalnız Gəncə və İrəvan xanlarının birləşmiş hərbi qüvvələri 1721-ci ilin payızında Bərdə ətrafında üsyançıların öhdəsindən gəldi.[6] Ancaq hökumət qoşunları onları tamamilə darmadağın edə bilməmişdi. Yenidən qüvvə toplayan üsyançılar 1722-ci ilin aprelində Gəncəni mühasirəyə aldılar və yalnız Kartli çarı VI Vaxtanqın şəhərdəki Səfəvi qarnizonuna yardıma gəldiyini görüb geri çəkildilər.[7]

Göstərilən dövrdə ən mütəşəkkil və kütləvi üsyan əhalinin vəziyyətinin Azərbaycanın digər vilayətlərinə nisbətən daha ağır olduğu Şirvanda baş vermişdi. Qeyd olunduğu kimi, saray-ruhani dairələrinin hökmranlığı Səfəvi dövlətinin rəsmi şiəlik dini məzhəbinə mənsub olmayan əhaliyə münasibətdə dini və siyasi ayrı-seçkiliyi gücləndirməsi ilə müşayiət olunurdu. Şirvan əhalisinin çox hissəsini isə sünnilər təşkil edirdi. Ona görə təsadüfi deyil ki, Şirvanda İrana qarşı mübarizə sünnilərin şiələrə qarşı dini mübarizə şüarları altında keçirilirdi.

Şirvanda baş vermiş həmin üsyana Müşkür mahalı Dədəli kəndinin sakini Hacı Davud başçılıq edirdi. O, silahlı kəndli dəstələrini öz ətrafına toplayaraq, Qazıkumuk hakimi Surxay xanla ittifaqda 1720-ci ildə Şabran şəhəri və Xudat qalasını tutdu. 1721-ci ilin avqustunda Hacı Davud, Surxay xan və Əli Sultanın birləşmiş dəstələri şəhər əhalisindən də kömək alaraq Şamaxını tutdu. Şəhər tutulan zaman qarət və talanlar baş verdi; məsələn, o vaxt Şamaxıda olan rus tacirləri qarət edildi və öldürüldü.[8]

Bütün Qızılbaş dövlətini bürümüş çoxsaylı qiyamlardan biri - Qəndəhar vilayətindəki gilzay (qəlcayı) əfqan tayfasının üsyanı Səfəvi imperiyası üçün daha faciəli oldu. Əfqanların şah zülmünə qarşı azadlıq mübarizəsinə tayfa başçısı Mir Veys rəhbərlik edirdi. Bu hərəkat 1709-cu ildə qalib gəldi və Qəndəharda İran hökmranlığına son qoydu.[9] Sonralar - Mir Veysin oğlu Mir Mahmudun dövründə (1716-1725) gilzay tayfasının feodal təbəqəsi öz hakimiyyətindən qonşu ölkələrə talançı yürüşlər üçün istifadə etməyə başladı. Şah hakimiyyətinin zəif müqaviməti və yürüşlər zamanı qarət edilmiş zəngin qənimət gilzay tayfasının yuxarı təbəqəsini 1722-ci ilin əvvəlində Qəndəharda yaşayan digər tayfaların iştirakı ilə İranın paytaxtı İsfahana böyük yürüş təşkil etməyə sövq etdi.[10]

Ciddi müqavimətə rast gəlməyərək, İsfahana yaxınlaşan əfqan dəstələri 1722-ci il martın 8-də Gülnabad (İsfahan yaxınlığında) ətrafında şah qoşununu darmadağın etdi[11] və İsfahanı mühasirəyə aldı. Uzun müddət mühasirədə qalan İsfahan 1722-ci il oktyabrın 22-də təslim oldu və şah taxt-tacı Mahmudun əlinə keçdi.[12]

Beləliklə, Səfəvi imperiyası faktiki olaraq dağıldı və Azərbaycanda yenidən sırf milli xarakterli dövlətin yaradılması üçün əlverişli şərait yaratdı. Ancaq bunun üçün müəyyən vaxt tələb olunurdu. Bununla bərabər, ölkənin ayrı-ayrı vilayətləri arasında möhkəm iqtisadi əlaqələrin olmaması və iri qonşu dövlətlərin müdaxiləsi bu vəzifənin həyata keçməsinə mane olurdu.

T.Boçvadzenin tamamilə düzgün qeyd etdiyi kimi, Dağıstanda və Şimali Azərbaycanda İrana qarşı hərəkatın qələbəsi nəticəsində «bir növ vakuum» yarandı ki, Rusiya və Osmanlı imperiyaları bu «vakuumu» doldurmağa can atır və bir-birini qabaqlamağa çalışırdılar.[13]

Azərbaycan qonşu dövlətlərin diqqətini öz təbii sərvətləri və xammal ehtiyatları ilə, həmçinin mühüm strateji mövqeyi ilə cəlb edirdi. Azərbaycanda yetişdirilən xam ipək, pambıq, zəfəran və s. kimi texniki bitki məhsullarına qonşu ölkələrdə daha çox tələbat var idi. Rusiyada və Avropa ölkələrində Azərbaycanın ipək parçaları, pambıq parça məmulatları, meyvə qurusu daha çox məhşur idi. Qonşu dövlətlərin hakim dairələrini ipək xüsusilə cəlb edirdi. 1716-cı ildə Niyazabadda olan rus elçisi A.P.Volınski yerli tacirlərdən öyrənmişdi ki, Osmanlı Sultanı «bütün ipək ticarətinin Türkiyə vasitəsilə aparılması»[14] üçün Şah Sultan Hüseynə təzyiq göstərir.

Rusiya və Türkiyədə işıqlandırıcı yanacaq kimi istifadə edilən Bakı nefti onların diqqətini qiymətli hərbi-strateji material kimi də cəlb edirdi. Çünki neft o dövrdə dəniz döyüşləri zamanı düşmən gəmilərini yandırmaq üçün çox əlverişli vasitə idi. Belə ki, 1738-ci ildə İrandakı rus konsulu S.Arapov həyəcanla

yazırdı ki, osmanlılar Bakıdan 40 dəvədə 4 dəfə neft daşıyıb apardılar ki, ondan rus gəmilərini yandırmaq üçün istifadə etsinlər.[15]

Azərbaycan təsərrüfat-iqtisadi əhəmiyyəti ilə yanaşı, qonşu dövlətlər və beynəlxalq aləm üçün də olduqca vacib olan bir geosiyasi regionda yerləşdiyindən, birinci dərəcəli strateji əhəmiyyət daşıyan və çox mühüm ticarət yollarının da keçdiyi bir ölkə idi.

Böyük iqtisadi potensialına və hərbi-strateji əhəmiyyətinə görə Azərbaycan Osmanlı imperiyasının hakim dairələrinin diqqətini cəlb edirdi. Vaxtilə dünyanın, demək olar ki, ən qüdrətli dövləti olan Osmanlı imperiyası XVIII yüzilliyin əvvəllərində böhran keçirirdi. Bu ilk növbədə ölkədə hökmran olan feodal torpaq sisteminin böhranı ilə bağlı idi.

Qərb və Şərqin ayrıcında yerləşən Osmanlı imperiyası uzun müddət ərzində Qərb və Şərq arasındakı çarpışmada mühüm rol oynamış və bu onun hərbi cəhətdən üstün inkişafını müəyyən etmişdi. Lakin XVII-XVIII əsrlər onun üçün mövcud feodal istehsal üsulunun dağılması, mərkəzi hakimiyyətin zəifləməsi, əyalətlərdə daxili hərc-mərcliyin və separatçılığın güclənməsi ilə müşayiət olunan, amma daha yetkin feodal dayaqlarının möhkəmlənməsi dövrüdür[16]. Bu üzücü və sürəkli dəyişikliklər nəticəsində zəifləyən Osmanlı imperiyası 1683-1698-ci illərdə Avropa ölkələrinin koalisiyası ilə müharibədə məğlubiyyətə uğradı. Ancaq bu, Osmanlı hərbi qüdrətinin hələ tam süqutu demək deyildi və o, Avropa ölkələri arasındakı ziddiyyətlər sayəsində məğlubiyyətin nəticələrini nisbətən asanlıqla aradan qaldırmağa nail oldu.[17]

Mərkəzi Macarıstanı, Transilvaniyanı, Sloveniyanı, Bucakı, Sağsahil Ukraynasının cənub hissəsini, Moreyanı və Avropadakı digər əraziləri itirən Osmanlı imperiyası öz itkilərinin yerini başqa istiqamətdə ərazilər fəth etməklə doldurmağa can atırdı. Onun hakim dairələrinin işğalçılıq planlarında Qafqazın şimal və cənub hissələri xüsusi yer tuturdu. I Pyotrun (1682-1725) 1711-ci ildə uğursuz Prut yürüşündən sonra osmanlılar yenidən Azovu geri almağa müvəffəq oldu və Şərqdə daha fəal hərəkət etmək imkanı qazandılar.

Hərbi uğursuzluqlar gəlirlərin azalması və xəzinənin yoxsullaşması ilə nəticələnmişdi. Hökumət ağır maliyyə problemlərinin həllinə nail olmaq üçün geniş müqatiə sistemi tətbiq edir, yəni dövlət vergisi qoyulmuş torpaq sahəsini və ya hər hansı digər gəlir obyektini müəyyən şəxsə icarəyə verməklə kompensasiya etməyə çalışırdı. Lakin müqatiə tədbiri yalnız müvəqqəti səmərə verdi. Belə ki, icarəçilər maksimum faydalanmağa can ataraq, gəlir mənbələrini qısa bir vaxtda tükədirdilər; rentanın ölçülərinin kəndlilər və icarəçilər arasında xüsusi razılaşma əsasında müəyyən olunması buna şərait yaradırdı.[18]

Dövlət gəlirlərinin azalması ilə əlaqədar, hökumət daimi ordunu - yeniçəri korpusunu ixtisara salmağa çalışırdı.[19] Lakin yeni müharibələr onun sayının artırılmasını tələb edirdi və 1727-1728-ci illərin maaş cədvəllərində 81 min yenıçəri qeyd olunmuşdu.[20] Gümüş pul çatışmazlığı ucbatından əsgərlərə məvacibi qeyri-müntəzəm verirdilər. Bununla əlaqədar olaraq, yeniçərilər əlavə qazanc xatirinə sənət və ticarətlə məşğul olmağa məcbur olurdular və bu onların döyüş qabiliyyətinin aşağı düşməsinə gətirib çıxarırdı. Eyni zamanda XVIII yüzilliyin əvvəllərində timar çəriklərinin sayı kəskin surətdə azalmışdı. Əgər Sultan Süleyman Qanuni (1520-1566) dövründə timarlar və zeamətlər 200 min döyüşçü verirdilərsə, XVIII yüzilliyin əvvəllərində bu rəqəm 20 min nəfərə enmişdi.[21]

Osmanlı dövlətinin tənəzzülündə bacarıqsız baş vəzirlərin də müəyyən dərəcədə rolu olmuşdu. Əgər imperiyanın yüksəlişi dövrünün vəzirləri öz bacarıq və yüksək idrakları ilə fərqlənirdilərsə[22], bunu durğunluq dövrünün vəzirləri haqqında söyləmək mümkün deyildi. Sultanlar baş vəzir təyin edərkən hər şeydən əvvəl şəxsin dövlət rəhbərliyi qabiliyyətlərini yox, onun şəxsən Sultana sədaqətini və münasibətini nəzərə alırdılar. Bunun nəticəsi idi ki, onlar baş vəzir vəzifələrinin öhdəsindən gələ bilmir və tez-tez dəyişdirilirdi. Sultan III Əhmədin (1703-1730) 27 illik hakimiyyəti dövründə 14 nəfər sədrəzəm vəzifəsində olmuşdu.[23]

1706-cı ildə hakimiyyətə gələn Çorlulu (Silahdar) Əli paşa dövlət idarəçiliyini təkmilləşdirmək yolunda bir sıra tədbirlər gördü. Lakin 1709-cu ildə İsveç kralı XİI Karlın Türkiyəyə gəlməsi vəziyyəti dəyişdi. XII Karl osmanlıları Rusiyaya qarşı mübarizəyə cəlb etməyə can atırdı. Əli paşa isə buna mane olurdu. XİI Karlın nümayəndəsi Stanislav Ponyatovskinin fitnələri və saraydakı müharibə tərəfdarlarının təzyiqi altında Sultan 1710-cu ilin iyun ayında Çorçulu Əli paşanı baş vəzirlikdən kənarlaşdırdı və Baltaçı Mehmet paşanı təkrar sədrəzəm təyin etdi.[24]

Belə bir şəraitdə Osmanlı imperiyasının daha uzaqgörən dövlət xadimləri yaranmış vəziyyəti islahatlar yolu ilə dəyişməyə təşəbbüs göstərməyə başladılar. Buna nümunə kimi Damad Əli paşanın fəaliyyətini göstərmək olar. Əli paşa 1713-cü ildə Rusiya ilə əsasən 1711-ci il Prut sülh müqaviləsinin şərtlərini təkrar edən Ədirnə sülh müqaviləsini bağlayıb, öz fəaliyyətini ölkənin iqtisadiyyatının qaydaya

salınmasına və müxtəlif sui-istifadə hallarının kökünü kəsməyə yönəltdi. 1715-ci ildə uzunmüddətli müqatiə sistemini qadağan edən Sultan fərmanının elan edilməsinə nail oldu. Vergilərin mültəzimlərə (icarəçilərə) 1-3 illiyə icarəyə verilməsi kimi ənənəvi sistemə qayıdıldı.[32] Əli paşanın göstərişi ilə Anadolunun maliyyə idarəsinin hesabatları yoxlanıldı, hər hansı işin həllində məmurlara hədiyyələr verilməsi qadağan edildi.[25]

Ancaq məşhur Köprülü Mehmet paşa ilə müqayisə olunan Əli paşanın aktiv fəaliyyətinin nəticələri Avstriya ilə uğursuz müharibədə heçə endirildi. Prutdakı uğurdan sonra İstanbulda hakimiyyət başına fəal xarici siyasət tərəfdarları gəlmişdilər. Osmanlı hökuməti 1714-cü ildə Venesiya ilə Moreya uğrunda yeni müharibəyə başladı. Avstriyanın müharibəyə qoşulması Osmanlı hökumətinin vəziyyətini ağırlaşdırdı. Osmanlı ordusu bir neçə ağır məğlubiyyətə uğradı və Balkan yarımadasındakı iki mühüm dayaq məntəqəsini - Belqrad və Temeşvarı tərk etməli oldu.[26]

Petrvəradin döyüşündə baş vəzir Əli paşa həlak oldu.[27] Yeni baş vəzir Damad İbrahim paşa Nevşehirli[27] (1718-1730) həm beynəlxalq, həm də ölkədaxili məsələlərdən yaxşı baş çıxarırdı. O, Avstriya ilə münasibətləri normallaşdırmaq üçün çox iş gördü.[28] İstanbuldakı Rusiya nümayəndəsi İ.Neplyuyevin «rahatlıq həvəskarı»[29a] adlandırdığı İbrahim paşa Rusiya ilə münasibətlərdə də çox ehtiyatlı mövqe tutur, müsəlman ruhanilərinin və hakim dairələrin bir hissəsinin açıq müxalifətinə baxmayaraq, ölkəsini onunla münaqişədən yayındırırdı.[29]

Mütaliəni və elmi mövzuda söhbətləri sevən İbrahim paşa alimlərə himayədarlıq edir, ölkəsinin Avropa sivilizasiyasına qoşulmasını dəstəkləyirdi. Məsələn, o, 1721-ci ildə diplomatik missiya ilə Fransaya göndərilən Mehmet Çələbiyə sivilizasiya vasitələri və Fransa təhsili haqqında məlumat əldə etməsini və Osmanlı imperiyasında tətbiq olunması mümkün olanlar barədə məlumat verməsini tapşırmışdı.[30] Damad İbrahim paşa idarəçiliyi dövrü Osmanlı tarixinə yeniçəri anarxiyası ilə mübarizə və üləmaların nüfuzunu sarsıtmaq üçün göstərilən ilk cəhdlərlə səciyyələnən dövr kimi daxil oldu.

Nevşehirli İbrahim paşanın dəyişikliklər keçirilməsinə yönəlmiş bütün səyləri mühafizəkar qüvvələrin, ilk növbədə ruhanilərin inadkar müqavimətinə rast gəldi və onun «lalə dövrü» adı almış idarəçiliyi illərində dövlətdaxili həyatın kökündən dəyişdirilməsinə yönəlmiş cəhdləri lalələrlə (zanbaqlarla) bağlı olan Paris dəbinin sadəcə yamsılanması, fransız nümunəsində çoxsaylı sarayların və köşklərin tikilməsi, Avropa cah-cəlalının yayılması ilə nəticələndi. Şəhərin ətrafında mərmər hovuz və fəvvarələri olan parklar və bağlar salındı. Sultanın Versal və Fonteneblo saraylarının planları üzrə tikilmiş yeni şəhərkənarı iqamətgahı - Səadabad meydana gəldi.[31]

Səfəvi dövlətinin parçalanması Osmanlı imperiyası hakim dairələrinin onun irsinə sahib olub ərazilərini ələ keçirmək planını reallaşdırması üçün təbü-tarixi zəmin oldu. 1716-cı il oktyabrın 27-də iingilis tacirlərinin Şamaxıdakı nümayəndəsi Berns Bulqar Volınskinin qəbulunda olmuş, onu Sultan elçisinin İsfahana gəlib şahdan Tiflis və İrəvan şəhərlərini osmanlılara verməyi tələb etməsi barədə məlumatlandırmışdı. B.Bulqarın Volınskiyə verdiyi məlumata görə, Osmanlı sarayının ipək parçaları və xammalının həm Volqa-Xəzər, həm də Fars körfəzi yolu ilə ixracının artmasından son dərəcə narazı olduğunu bildirən Osmanlı elçisi onun ölkəsinin müharibə vəziyyətində olduğu xristian dövlətləri ilə ticarət etməmək, bütün tranzit ticarətini Osmanlı ərazisindən keçirmək tələblərini, həmçinin Sultanın şahdan hər il hədiyyə kimi gələn 40 tay ipək xammalını almadığından gileyli olduğunu qarşı tərəfin diqqətinə çatdırmışdı.[32]

B.Bulqar Osmanlı imperiyasının Balkanlardakı müharibədə məğlubiyyəti və hazırkı anda çox zəiflədiyindən xəbərdar olan Şah sarayının Sultanın bütün tələblərinə qəti rədd cavabı verdiyini də Volınskiyə çatdırmışdı. Onun dediyinə görə, Şah bildirmişdi ki, tələb olunan şəhərlər (Tiflis,İrəvan) onun ölkəsinə lazımdır və Sultan xristianlarla müharibə vəziyyətində olsa da, Şah onların işlərinə qarışmayacaq.[33]

Şamaxı bəylərbəyisi Volınski ilə söhbətində Sultanın elçisinin İsfahanda olmasını, Şahdan xristianlara qarşı müharibəyə qoşulmağı tələb etməsini, onun isə rədd cavabı bildirməsi məlumatını təsdiqləmişdi.[34]

Qonşu dövlətin böhranlı vəziyyəti haqqında müxtəlif mənbələrdən məlumat alan Osmanlı hökuməti dəqiqləşdirmələr aparıb həqiqi təsəvvürə malik olmaq üçün 1720-ci ildə başda Dürri Əhməd əfəndi olmaqla Şahın yanına elçi heyəti göndərdi.[35] Osmanlı sarayı öz elçisinə Avropa ilə ticarətin Osmanlı şəhərləri vasitəsilə aparılması tələbini, İrəvan vilayətinə iddiaları bir daha Şaha təqdim etməyi, onu Rusiya ilə lüzumsuz dostluğa, xüsusilə də ona öz torpağında Nizovaya (Niyazabad) qalasını tikrməyə razılıq verdiyinə görə töhmətləndirməyi tapşırmışdı.[36]

Ancaq Şahın vəzirləri Osmanlı elçilərinə aşağıdakıları söyləmişdilər: «Onlar tacirləri güclə bir yol seçməyə məcbur edə bilməzlər, tacirlər malları satmaq sərfəli olmayan yerlərə getmirlər, rusların tikdiyi qalaya gəldikdə isə, Niyazabad qala yox, gəmilər üçün sığınacaq yeridir və həm də münbit olmayan düzənlikdə, ticarət məqsədilə tikilmişdir».[37]

Bir neçə ay İsfahanda İran hökuməti ilə bəzi sərhəd məsələlərini müzakirə edən elçi heyəti 1721-ci ildə geri qayıdıb, dekabrda İstanbula gəldi. Dürri Əhməd əfəndi öz hökmdarına Səfəvi dövlətinin acınacaqlı vəziyyəti haqqında məlumat vermiş və qeyd etmişdi ki, bu dövlət uzun müddət davam gətirməz.[38]

1721-ci ilin yazında isə İran səfiri Murtuza Qulu xan İstanbula gəldi. İstanbuldakı ingilis səfiri A.Stenyanın məlumatına görə, Murtuza Qulu xan ölkəsinin hökuməti əleyhinə yönələn və geniş əraziləri əhatə edən çıxışların qarşısını almaq üçün Osmanlı sarayından kömək göstərməyi xahiş etmiş, lakin müsbət cavab almamışdı.[39]

Elə bu dövrdə əfqan üsyançılarının İsfahan yaxınlığında şah Sultan Hüseynin qoşunlarını ağır məğlubiyyətə uğratması Sultan hökumətini qəti tədbirlər görməyə sövq etdi. Baş vəzir İbrahim paşanın 1721-ci ilin mayında çağırdığı divan sərhəd qarnizonlarını gücləndirmək barədə qərar qəbul etdi və sərhəd paşalarına Səfəvi dövlətinin sərhədyanı vilayətlərinin hakimiyyəti müraciət etdiyi təqdirdə onları himayəyə qəbul etməyi tapşırdı.[40]

Cənubi Qafqazın ələ keçirilməsini asanlaşdırmaq üçün Osmanlı hakim dairələri Şimali Azərbaycan əhalisinin mühüm hissəsinin sünni təriqətinə mənsub olmasından istifadə eməyə çalışırdı. Tezliklə Cənubi Qafqazda dinc yolla möhkəmlənmək üçün fürsət düşdü. Yuxarıda xatırlandığı kimi, 1721-ci ilin avqustunda Şirvan üsyançıları Şamaxını ələ keçirdiyi zaman orada olan rus tacirləri qarət edilmiş və öldürülmüşdü. Bunun nəticəsində, Rusiyanın da düşmənçiliyini qazanmış üsyançılar xarici qüvvəyə - Osmanlı hökumətinə kömək üçün müraciət etməyi qərara aldılar.

Şamaxı hadisələrindən dərhal sonra, 1721-ci ilin payızında Hacı Davud Qazıkumuklu Surxay xanla birlikdə Krım xanı vasitəsilə Sultana məktub göndərib onları öz himayəsinə almağı və öz qoşunlarını Şirvanı qorumaq üçün göndərməyi xahiş etdilər.[41]

Bundan az sonra Hacı Davud öz nümayəndələrini İstanbula göndərdi. İstanbuldakı rus rezidenti (səfirdən aşağı dərəcəli elçi) İ.Neplyuyev 1722-ci ilin fevralında yazırdı ki, Hacı Davud və Şirvan üsyançılarının digər rəhbərləri Şamaxının tutulmasından sonra öz adamlarını Osmanlı təbəəliyinə qəbul etmək xahişi ilə gizlincə Sultan sarayına göndərmiş və ona sədaqətlərinin təsdiqi kimi Osmanlı Sultanı III Əhmədin adı ilə sikkə kəsməyə başlamışlar. Daha sonra Neplyuyev qeyd edirdi ki, cümə günləri onların məscidlərində Sultanın adına xütbə oxunur.[42] İstanbuldakı holland rezidenti də Osmanlı sarayının «üsyançılarla birləşərək, bütün İrana sahib olmaqdan ötrü» guya ora qoşun göndərmək fikrində olduğunu xəbər verirdi.[43]

İran elçisi sədrəzəmin (baş vəzirin) qəbuluna nail olmağa, İranın təkliflərində maraqlı olmayan Osmanlı hökuməti isə onu başdan edib tezliklə geri göndərməyə çalışırdı. Lakin səfir nəhayət qəbula düşüb qiyamçılara qarşı kömək xahiş edəndə vəzir müsbət cavab verməyib və demişdi ki, qiyamçılar da müsəlmandırlar, onlar (yəni osmanlılar) müsəlmanlara qarşı çıxış edə bilməzlər, Osmanlı tərəfi heç bir tərəfə kömək etməyəcək.[44]

Cənubi Qafqazda böyük maraqları olan və Şirvan üsyançılarına düşmən münasibət bəsləyən Rusiyanın əks tədbirlər görəcəyindən ehtiyatlanan Osmanlı imperiyası eyni zamanda Hacı Davudu da rəsmi himayəyə qəbul etməkdən çəkinirdi. O, şirvanlılardan Şamaxıda rus tacirləri ilə baş verən faciəli hadisənin izahını tələb etmişdi. Üsyançıların rəhbərləri bu sorğuya belə cavab vermişdilər: «Tacirlərə əmr olunmuşdu ki, onlar öz malları və əmlakları ilə bir yerə yığışsınlar, onlara toxunulmayacaq, onlar isə acgözlükdən və mənfəətləri üçün şəhərdə olan bütün bahalı əmlakı və İran tacirlərinin mallarını da götürüb gizlətmişdilər; üsyançılar bütün sərvətin onlardan gizlədildiyini görüb rusları «döymüş» və əmlaklarını qarət etmişlər».[45]

Qeyd etmək lazımdır ki, Hacı Davudun Osmanlı imperiyasının himayəsinə keçmək üçün göstərdiyi səylər Rusiya hökumətini həqiqətən çox narahat edirdi. 1722-ci il martın 7-də Olenetskidə müalicədə olan I Pyotr kansler Q.Qolovkinə İstanbuldakı rus rezidentinin yanına kuryer göndərmək zəruriyyəti haqqında yazmış və göstəriş vermişdi ki, şirvanlıların Osmanlı himayəsinə qəbul olunmasına müqavimət göstərilməli və onların Rusiya dövlətinə vurduğu ziyan diqqət mərkəzinə çəkilməlidir.[46] Avropa diplomatları da osmanlıların Şirvan üsyançılarını himayəyə almasına Rusiyanın biganə qalmayacağını qeyd edirdilər. Fransanın Rusiyadakı səfiri de Kamperdon Dübuaya 1722-ci il aprelin 14-də yazırdı ki,

çar heç vaxt dözməz ki, Sultan Şirvan üsyançılarını himayəyə qəbul etsin və beləliklə onun sərhədləri yaxınlığında möhkəmlənsin.[47]

Rusiyanın inadcıllığı osmanlılara müəyyən təsir göstərdi. 1722-ci il fevralın 19-da keçirilən divanda şirvanlılara Osmanlı sarayının indi onları himayəyə qəbul etməyə imkan görmədiyini bildirmək qərara alındı.[48] Rusiya rezidenti İ.Neplyuyev çarın göstərişini yerinə yetirmiş, mayın 2-də qəbul vaxtı üsyançılar Şamaxını tutarkən rus tacirlərini qarət edib öldürmələrini və bununla əlaqədar Rusiyanın Şahdan ödənc tələb etməsini bilib-bilmədiyini baş vəzirdən soruşmuşdu. Vəzir cavabında bu haqda məlumatı olduğunu, lakin qiyamçıların Şah tərəfindən cəzalandırılacağına şübhə etdiyini bildirmişdi.[49] Daha sonra Neplyuyev vəzirdən İstanbulda Şirvan nümayəndələrinin olub-olmadığını bildirməyi xahiş etmişdi. Vəzir Krım xanı ilə bərabər hüquqlarla Osmanlı təbəəliyinə qəbul olunmaq xahişi ilə müraciət etmiş Şirvan nümayəndələrinin İstanbulda olmasını təsdiq etmiş və bildirmişdi ki, onlar yazılı ərizə gətirməmişlər, guya onu yolda quldurlar onların əlindən almışlar. Vəzirin dediyinə görə, Osmanlı sarayı nümayəndələrə bildiribmiş ki, şirvanlılar rəsmi ərizə göndərsələr, divan çağırar və lazım gələrsə, onları öz himayəsinə alar. Neplyuyev Osmanlı sarayının Şirvan üsyançılarını öz himayəsinə qəbul etmək istədiyini, lakin Rusiya ilə münasibətləri kəskinləşdirməmək üçün qılığa girib vaxtı uzatdığını söyləyirdi.[50]

## *2. I Pyotrun Xəzəryanı yürüşünə (1722-1723) Osmanlı imperiyasının münasibəti*

Məlum olduğu kimi, Rusiya çarı I Pyotr coşğun işğalçılıq fəaliyyəti göstərirdi. Artıq XVIII əsrin ikinci onilliyinin əvvəlində I Pyotrun Xəzəryanı regiona yürüşünün planı qəti surətdə formalaşmışdı. Doğrudur, Şimal müharibəsinin davam etməsi və Prut yürüşündəki məğlubiyyət bu niyyəti o vaxt həyata keçirilməyə imkan verməmişdi. Amma hər halda çar İsveçlə müharibə qurtaran kimi cənuba yürüş etmək üçün qabaqcadan bir sıra hazırlıq tədbirləri görmüşdü.

Elə həmin dövrdə I Pyotr Xəzərin cənub-qərb sahilini və bu regionda hərbi-siyasi şəraiti öyrənmək üçün sərəncam vermişdi. A.P.Volınskinin 1716-1718-ci illərdə İranda səfirliyi məhz bu məqsədi güdürdü.

Rəsmən A.P.Volınskiyə Səfəvi hökuməti ilə ticarət müqaviləsi bağlamaq səlahiyyəti verilmiş, İranın və Azərbaycanın ən mühüm ticarət məntəqələrində rus konsulluq və vitse-konsulluqları açılmasına razılıq almaq  tapşırılmışdı. Lakin ona keçdiyi yerləri diqqətlə öyrənmək, Xəzər dənizinə hansı çayların axdığını, hansı yerlərə qədər onlarda gəmi ilə üzməyin mümkünlüyünü, öz başlanğıcını Hindistandan götürüb Xəzər dənizinə tökülən çayların olub-olmadığını dəqiqləşdirmək barədə gizli tapşırıqlar da verilmişdi.[1]

1716-cı ilin iyulunda A.P.Volınskinin səfirliyi Həştərxandan yola düşdü, sentyabrın 6-da Niyazabad limanına, oktyabrın 7-də Şamaxıya  çatdı.[2] İki aydan çox Şamaxıda qalan A.P.Volınski dekabrın ortalarında oradan yola düşdü və 1717-ci ilin əvvəlində İsfahana gəldi.

1717-ci il iyulun 30-da A.P.Volınski ilə şahın baş vəziri - etimadüd-dövlət Fətəli xan arasında ticarətə aid «assekurasiya»[3] müqaviləsi bağlandı. Onun şərtlərinə görə, şah İrana gələn rus tacirlərinə maneələr törətməmək, onları yubatmamaq, onların taylarını açmamaq, limanlardan (Niyazabad, Bakı və s.) gediş-gəlişinini çətinləşdirməmək haqqında sərəncam verməli, həm rus, həm də yerli erməni tacirlərindən aparılan xammal üçün vahid rüsum alınması müəyyən olunmalı idi.[4]

Böyük ticarət əhəmiyyəti olan Şamaxı bazarına rus tacirlərinin marağını nəzərə alan A.P.Volınskinin səyləri şahın Şamaxıda rus vitse-konsulluğunun açılmasına icazə alınması ilə nəticələndi.[5]

Öz missiyasını yerinə yetirmiş Rusiya səfiri 1717-ci il sentyabrın 12-də İsfahandan öz vətəninə yola düşdü və Gilyandan keçib dekabrın sonunda Şamaxıya çatdı.

A.P.Volınski 1718-ci ilin iyulunda Şamaxıdan çıxdı, Niyazabada gəldi, orada gəmiyə minib Azərbaycanı tərk etdi və avqustda Həştərxana qayıtdı.[7]

Rusiyaya qayıdandan sonra Səfəvi dövlətinin acınacaqlı vəziyyətini təsvir edən Volınski I Pyotra Xəzəryanı regiona sahib olmaq məqsədilə yubanmadan hərbi əməliyyatlara başlamağı təklif etdi. Onun fikrincə, Səfəvi dövləti parçalandığı üçün Rusiya az qüvvə ilə onun ərazisinin bir hissəsini ələ keçirə bilərdi.[8]

Şimal müharibəsi başa çatan kimi I Pyotr Cənubi Qafqaz istiqamətində Xəzər boyu yürüşə hazırlıq işini sürətləndirdi. Hərbi əməliyyatları 1723-cü ilin yayında başlamaq nəzərdə tutulurdu.[9]

Yürüş nəzərdə tutulmuş müddətdən bir il tez başladı. Səbəb o idi ki, Peterburqda 1722-ci ilin martında Şah qoşunlarının İsfahan yaxınlığında Mir Mahmudun başçılığı altında əfqan üsyançıları tərəfindən məğlub edildiyi haqqında məlumat alınmışdı. I Pyotr ehtiyat edirdi ki, bundan xəbər tutan Osmanlı imperiyası Səfəvi mirasını ələ keçirmək üçün hərbi əməliyyatlara başlayıb Rusiyanı qabaqlaya bilər.

I Pyotrun ehtiyatlanması əsassız deyildi. Rus hökumətinin Xəzəryanı yürüşə hazırlığı və Səfəvi sülaləsinin süqutundan xəbər tutmuş Osmanlı sarayı doğrudan da Rusiyanı qabaqlamaq üçün hərbi əməliyyatlara başlamağa tələsirdi. Rus rezidenti İ.Neplyuyevin məlumatlarına görə, 1722-ci il mayın 15-də vəzirlərin əksəriyyətinin yürüşə razılıq verdiyi divan olmuş, «bu yürüşlə əlaqədar Səfəvi dövlətinin onların sərhədləri ilə həmhüdud əyalətlərini öz mülklərinə qatmaq» qərara alınmışdı.[10] Sultan paytaxtından qovulmuş hökmdara qarşı müharibə etməyi qeyri-alicənablıq saysa da, qorxurdu ki, Mir Mahmud İranın həmsərhəd olan osmanlı ərazilərini - «Midiya» və «Arabiyanı» da ələ keçirsin, çünki bu torpaqların sakinləri Sultana o qədər də sadiq deyildilər.

Bununla əlaqədar olaraq Sultan sərhəd paşalarının öz qoşunlarını hazır vəziyyətə gətirmələri haqqında göstəriş verdi.[11] Tiflis və İrəvan şəhərləri imperiyanın ərazisinə qatılmalı idi.[12]

Hələ lazımi hazırlıqlar tamamilə başa çatdırılmadığına baxmayaraq, I Pyotr və arvadı Yekaterina 1722-ci ilin mayında qvardiyanın müşayəti ilə Moskvadan yola düşdü və iyunun 26-də Həştərxana çatdılar.[13] Çar ora gələn kimi knyaz Boris Türkestanovu (Türkestanişvili - T.M.) xüsusi tapşırıqla Kartli çarı VI Vaxtanqın yanına göndərdi.[14] Onun vasitəsi ilə özünün Dərbənd və Bakıya tərəf hərəkət etdiyini Vaxtanqa çatdıran I Pyotr göstəriş verirdi ki, dostluq nümayiş etdirib dəstələri ilə onun qarşısına çıxsın.

Böyük ordu ilə Xəzəryanı regionda Osmanlı imperiyasının sərhədləri yaxınlığında görünməsinin sonuncuların təbii narazılığına səbəb olacağını nəzərə alan I Pyotr Ukraynadakı qoşunların döyüş hazırlığının artırılması, Dneprdən Saritsına qədər bəsit xəbərdarlıq sistemi qurulması barədə qabaqcadan sərəncam verilmişdi. Məqsəd Krım tatarlarının qəfil hücumlarından xəbərdar olub onların qarşısını almaq idi.[15]

Rus qoşunlarının hərəkəti yerli əhalinin etirazlarına səbəb olub müqavimətlə rastlaşmasın deyə, I Pyotr tarixi ədəbiyyatda «Manifest» adı ilə məlum olan müraciətnamə yaymağı əmr etmişdi.[25] Həmin müraciətnamə Azərbaycan əhalisinə, həmçinin başqa Qafqaz xalqlarına çatdırılmaq üçün Azəri türkcəsində də nəşr olunmuşdu.[16]

I Pyotr yürüşün əsl səbəb və məqsədlərini gizlədərək elan edirdi ki, guya onun bu tədbiri 1721-ci ildə Şamaxıda rus tacirlərinin qarət və qətlinin başlıca günahkarları, eyni zamanda «dost» Şahın[17] düşmənləri olan Hacı Davud və Surxay xanın cəzalandırılması üçün təşkil olunmuşdur.

Rus qoşunlarının Xəzər sahili boyu cənuba yürüşü 1722-ci il iyulun 29-də başlandı. Həmin gün imperatorun özü başda olmaqla göyərtəsində piyada hissələri olan rus donanması Həştərxandan yola düşdü.[18] Briqadir Veteraninin komandanlığı altında süvari dəstə bir qədər tez quru yolla Saritsından Qrebenə göndərildi. Yürüşdə iştirak edən qoşunların ümumi sayı, bəzi məlumatlara görə, 106 min nəfərdən çox idi.[19]

Avqustun 7-də rus donanması Aqraxan burnuna çatdı, orada piyada qoşunlar sahilə çıxdı və bir həftəyə yaxın süvari dəstələrin gəlib çatmasını gözlədi.[20] Süvarilər su və yem çatışmazlığı ucbatından, həmçininn Əndəri kənd sakinlərinin müqaviməti ilə rastlaşdıqları üçün gecikdilər. Veterani bu kəndə yaxınlaşan zaman kəndlilərin gözlənilməz hücumuna məruz qalmış, qisas alaraq bütün sakinlərini qovub cəzalandırmış, 3 min həyətdən ibarət olan kəndi tamamilə məhv etmişdi.[21]

Dərbənd yolunda rus ordusu yerli feodalların - Qaytaq usmisi Əhməd xan və Sultan Mahmud Utemışlinin müqaviməti ilə üzləşdi. Onlar təqribən 10 min döyüşçü yığaraq, Buynak yaxınlığında ruslara hücum etmiş, lakin 1000 nəfərə yaxın itki verərək məğlub olmuşdular. Əhməd xan Yuxarı Qaytağa qaçdı. Yerli əhalinin gözünü qorxutmaq üçün qəddarlıq nümayiş etdirən ruslar Utemış qəsəbəsi və yol üstündəki hər birində 500 ev olan 6 kəndi yandırmış, danışıq üçün Əhməd xanın yanına göndərilən kazakların öldürülməsinə cavab olaraq əsirləri öldürmüşdülər.[22] I Pyotr özü də bu məsələni admiral Kryüsə yazdığı məktubunda xatırlamışdı.[23]

Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisinə daxil olan rus ordusu nə 1722-ci ildə, nə də sonrakı illərdə şah qoşunları tərəfindən heç bir ciddi müqavimətə rast gəlmədi. Yalnız ayrı-ayrı qarnizonlar hərdən müqavimət göstərməyə cəhd edir, bəzi hərbi başçılar isə qat-qat üstün olan düşmənə təslim olmağı daha ağıllı hərəkət saydıqlarını gizlətmirdilər.

Rus qoşunları Dərbəndə yaxınlaşanda şəhər sakini, nüfuzlu feodal Arslan bəyin rəhbərlik etdiyi birinci dəstə Qaytaq usmisi və Hacı Davudun dəstələrini şəhərə buraxmağı və onlarla birlikdə müdafiə

olunmağı təklif etdi. Şəhərin naibi İmamqulu bəyin (həmin dövrdə o, şəhərin hakimi vəzifəsini yerinə yetirirdi, çünki Sultan bir neçə ay öncə İrana qaçmışdı) başçılıq etdiyi ikinci dəstə rus himayəsinə keçməyi düzgün sayır və ümid edirdi ki, bu yolla şəhəri dağlı və Şirvan feodallarının saysız-hesabsız hücumlarından qorumaq olar.[24]

Sentyabrın 3-də bir çox şəhər sakinlərinin müşayiət etdiyi İmamqulu bəy rus imperatorunu şəhərin girəcəyində qarşıladı və şəhər darvazalarının açarını ona təqdim etdi.[25] Rus ordusu Dərbəndə daxil oldu[26] və cənub-şərqdə, şəhərlə dəniz arasında düşərgə saldı.[27] Dərbənd qalasında rus qarnizonu və artilleriyası yerləşdirildi, polkovnik Yunger şəhərin komendantı, İmamqulu bəy isə naib vəzifəsinə təsdiq olundular.[28] I Pyotr senata yazırdı: «Allahın köməyi ilə bu diyarlarda bir fut yer almağımız münasibətilə sizi təbrik edirəm».[29]

Sentyabrın 5-də I Pyotr podporuçik F.Lunini rus ordusunun tezliklə ora gələcəyini bildirən fərmanla Bakıya göndərdi.[30]

Ancaq Lunini Bakıya buraxmadılar və özgə köməyinə ehtiyacı olmadıqlarını çara çatdırmağı ona tapşırdılar.[31]

Dərbənddə bir həftə istirahətdən sonra, yəni sentyabrın 10-da I Pyotr öz ordusu ilə Bakıya tərəf hərəkət etdi.[32] Əldə olunan məlumata görə, Hacı Davud rus qoşunlarına müqavimət təşkil etməyə cəhd göstərmiş və kömək üçün usmiyə və Surxay xana müraciət etmişdi. Şəmsəddin bəyə Şamaxının idarəsini tapşıran Hacı Davud, özü döyüşçü yığmaq üçün dağlara getmişdi.[33]

Sentyabrın 14-də Hacı Davudun Zeyxurda (Samur çayının cənub tərəfində kənd) 10 min nəfərlik qoşunla durması və usmi ilə ittifaqda rus ordusuna hücum etmək niyyətində olması haqqında xəbər alındı.

I Pyotr bakılıların rusları şəhərə buraxmayıb onların təkliflərindən imtina etmələrindən Mollakənd çayı yaxınlığında düşərgədə xəbər tutdu, bununla belə, çar Bakını döyüş və hücumla almaq üçün yürüşü davam etdirmək qərarından dönmədi.[35]

Lakin ordu üçün ərzaq daşıyan gəmilər dənizdə şiddətlənən fırtınadan zərər çəkdi, olan ehtiyatlar isə bir aya çata bilərdi. Uzun və çətin yürüş, cüzi yem, üzücü bürkü atların kütləvi qırılmasına səbəb olurdu.[36] Yeni şəraitə uyğunlaşa bilməyən əsgərlər arasında xəstəlik halları artmışdı. Həm də yürüş üçün əlverişli olan yay mövsümü başa çatmaqda idi. Elə bu vaxtlar Peterburqun saray əyanları arasında başlanan ixtilaflar haqqında məlumat gəldi. Qeyd etmək lazımdır ki, Osmanlı imperiyası tərəfindən əks-təsir də I Pyotrun əsas ordu qüvvələrini Xəzəryanı regiondan çıxarmasının səbəblərindən biri oldu.[37] Çar sentyabrın 18-də, polkovnik Yungerin rəisliyi ilə Dərbənddə qarnizon saxlayaraq, geriyə - Rusiyaya döndü.[38]

Ancaq Rusiyaya qayıdan I Pyotr Xəzəryanı əyalətləri işğal etmək planından əl çəkməmişdi. Ötən hərbi səfərin dərslərini, ilk növbədə isə çoxsaylı quru qoşunlarının təchizatındakı çətinlikləri nəzərə alıb, öz işğalçılıq məqsədlərini həyata keçirmək üçün hərbi-dəniz ekspedisiyasından istifadə etmək qərarına gəlmişdi.

1722-ci ilin noyabrında I Pyotr Həştərxanda olarkən Gilanın Rəşt şəhərini tutmaq üçün polkovnik Şipovun komandanlığı altında iki batalyondan ibarət ekspedisiya təşkil olundu. Şipovun dəstəsi dekabr ayında Rəşti döyüşsüz ələ keçirdi.[39]

Bakının alınması I Pyotrun planlarında mühüm yer tuturdu. Bu onun Həştərxanda olarkən general Matyuşkinə verdiyi əmrdən də aşkar görünür: «Yazda buzlar açılan kimi Bakıya yaxınlaş və Allahın köməyi ilə o şəhəri almağa çalış, çünki bizim bütün işlərimizin açarı bu diyarlardadır».[40]

I Pyotrun Xəzəryanı yürüşü Cənubi Qafqazda Osmanlı-Rusiya ziddiyyətlərini kəskin surətdə gərginləşdirdi. Qabaqcadan bunu görən I Pyotr İ.Neplyuyev vasitəsilə Osmanlı sarayını inandırmağa çalışırdı ki, guya ruslar «işğal üçün yox, qiyamçıları cəzalandırmaq üçün» gəlirlər.[41] 1722-ci ildə I Pyotr cənuba yürüşə yollanan zaman dövlət işlərini idarə edən kansler Q.Qolovkinə tapşırmışdı ki, Rusiya hökuməti və Şirvan üsyançıları arasında münaqişəni həll etmək üçün Osmanlı sarayından vasitəçilik haqqında təklif alınsa, bu haqda I Pyotra məlumat versin.

Rusiyadan gələn Osmanlı nümayəndəsi Mustafa ağaya bildirildi ki, guya yürüş Sultanla vuruşmaq üçün, Şahla müharibə üçün yox, yalnız və yalnız Şamaxını ələ keçirmiş qiyamçılardan «haqsızlıqlarına görə qisas almaq» və «layiqli öc almaq» üçün həyata keçirilir.[42]

I Pyotr qarşıdakı yürüş vaxtı Osmanlı sarayı ilə münasibətlərdə rus diplomatiyasının taktikasını yürüşdən əvvəl artıq Həştərxanda olarkən belə müəyyənləşdirmişdi: Ona (Osmanlı imperiyasına - T.M.) «O, İrandan özünə ərazi götürmək istəyirmi?» sualı verilsin, lakin əgər Osmanlı tərəfindən rus

rezidentinə Səfəvi torpaqlarının bölgüsü təklif olunarsa, rus imperatorunun bu məsələ üzrə saziş bağlamağa razılığı yalnız şifahi bildirilməli, verilən heç bir vəd heç bir vəchlə yazılı olmamalı idi.[43]

1722-ci ildə yürüş başlayan kimi xarici işlər kollegiyasından Neplyuyevə Osmanlı hökumətinə rus qoşunlarının yürüşü və «öc almaq» niyyətini bəyan etmək göstərişi verildi. İ.Neplyuyevə bildirildi ki, I Pyotr «Şirvan və Gilan əyalətlərinin, habelə həmin əyalətlər arasında bir əyalətin» (söhbət Təbriz əyalətindən gedir) Rusiyaya birləşdirilməsini istə-yir.[44]

Osmanlı hökuməti rus çarının dəlillərinə inandı və həqiqətən yalnız məruz qaldığı zərər üçün öc almaq istədiyini düşünərək, əvvəlcə rus qoşunlarının Xəzəryanı əyalətlərə daxil olmasına mane olmadı. Ancaq tezliklə Xəzəryanı regionda başda I Pyotrun özü olmaqla böyük rus ordusunun görünməsi Osmanlı hökumətinə şübhə üçün əsas verdi. Ж.F.Hammer yazır ki, Rusiya çarının Xəzər dənizi ətrafında irəliləməsi Osmanlı sarayında təlaş və çaxnaşmaya səbəb olmuşdu. Qars bəylərbəyisi Mustafa paşaya Şamaxıya yola düşmək əmr olunmuşdu.[45] Bəzi Avropa diplomatları da Osmanlı hakim dairələrinin hiddətini qızışdıraraq Rusiyanın Trabzona yaxın Gürcüstanı da zəbt etmək niyyətində olduğunu bildirirdilər.

İngilis diplomatiyası daha çox canfəşanlıq edirdi. İngiltərənin dövlət katibi Karteret I Pyotrun planlarının həyata keçməsinin Hindistandakı ingilis mülklərini təhlükəyə qoyacağından ehtiyatlanırdı. İngiltərənin hakim dairələri qorxurdu ki, bu halda Hindistanla ticarət bütünlüklə Rusiyadan keçəcək və o, ipək ticarətində inhisarı öz əlinə alacaq. İngilislərin gümanına görə, Rusiya qüvvətlənərək, özündən asılı «Yunan imperiyası»[46] yaradacaqdı. Karteretin göstərişi ilə İstanbuldakı ingilis səfiri S.Stenyan Osmanlı-Rusiya münaqişəsinin kəskinləşməsi üçün hər cür imkandan istifadə edirdi. Karteret özünün Stenyana yazdığı 1723-cü il 5 yanvar tarixli məktubunda bütün vasitələrdən istifadə etməyi, Osmanlı imperiyasının tacirlərinə, əgər rus çarı nəzərdə tutduğu ölkələri ələ keçirərsə, ticarətdə öz mövqelərini itirəcəkləri, Rusiyanın ipək ticarətində inhisarçı olacağı fikirlərini təlqin edib qorxutmağı məsləhət görürdü.[47]

Rus hökumətinə çatan məlumatlara görə, Polşa kralı da özünün İstanbuldakı diplomatik elçisi vasitəsilə Osmanlı hökumətini Rusiyaya qarşı müharibəyə başlamağa təhrik edirdi.[48]

I Pyotrun yürüşündən qəzəblənən və Qərbi Avropa diplomatları tərəfindən qızışdırılan Osmanlı sarayı İ.Neplyuyevə bildirdi ki, o, gürcülərin rus təbəəliyinə keçməsinə yol verməyəcək və müharibəyə başlayacaq, «qoy əlahəzrət İran ölkələrindən öz imperiyasına yola düşsün».[49]

Qeyd edək ki, hələ I Pyotrun yürüşü ərəfəsində Osmanlı hökuməti Şərq məsələsi ilə ciddi məşğul olmağa başlamışdı. 1722-ci ilin mayında olmuş divanda xüsusi fəallıq göstərən müfti divan üzvlərini inandırmağa çalışırdı ki, sərhədyanı paşalara Təbrizi tutmaq üçün göstəriş göndərmək, Bağdadlı Həsən paşaya İsfahanı tutmaq üçün hücuma keçməyi əmr etmək lazımdır. Divanda Bağdad və Bəsrə paşalarına qoşunları və hərbi təchizatı döyüş hazırlığına gətirmək haqqında göstərişlər göndərilməsi qərara alındı.[50] Divanın qərarında deyilirdi ki, əfqanların üsyanının Osmanlı sərhədlərinə sirayət etməsi ehtimalı olduğundan, Osmanlı sərhədləri üçün də böyük təhlükə yaranır. Bu səbəbdən də əvvəllər bir müddət Osmanlı dövlətinin tərkibində olub sonralar İranın xeyrinə tərk edilmiş İrəvan, Təbriz, Gəncə və Tiflis şəhərləri təkrar zəbt edilməli, şərq sərhədlərinin təhlükəsizliyi təmin olunmalıdur. Həm də, Osmanlı hökumətinin fikrincə, müsəlman türklərlə məskun bu şəhərləri «şiələrin zülmündən qurtarmaq üçün» İranla müharibəyə başlamaq ədalətli işdir.[50a] Lakin Sultan hələ Səfəvilərə münasibətdə ehtiyatlı hərəkət edir, tələsməməyi məsləhət görürdü. Ərzurum valisi Silahdar İbrahim paşa dərhal hərəkətə keçmək üçün icazə istədikdə III Əhməd bildirmişdi ki, İsfahan süqut edincəyə qədər hərbi əməliyyatlara başlamağa icazə vermir. Az sonra şərq valilərinə göndərilən digər bir fərmanda isə deyilirdi ki, İsfahan Mir Mahmud tərəfindən zəbt edilsə belə, onun məqsədi anlaşılmayınca heç bir fəal hərəkət edilməməlidir.[50b]

Avqustda baş vəzir Neplyuyevi öz yanına dəvət edib ona demişdi: «Sizin hökmdarınız, düşmənlərini təqib edərək, Portadan (Osmanlı dövlətindən-T.M.) asılı olan vilayətlərə daxil olur. Məgər bu əbədi sülhün pozulması deyilmi?... dağıstanlılara qarşı belə xırda işdən ötrü sənin hökmdarının şəxsən özünün böyük qoşunla getməsi lazım deyildi, bizim vasitəmizlə iddiası təmin oluna bilərdi».[51] Bu görüşdən sonra Neplyuyev öz hökumətinə xəbər verdi ki, o, zəngin hədiyyələrlə kahyanı (vəzirin yaxın köməkçisi) və rəis-ül-kittabı (xarici işlər nazirini) Rusiya ilə sülhün saxlanmasına dəstək vermələri üçün ələ almağa çalışacaq.[52]

1722--ci il sentyabrın 14-də xarici işlər kollegiyasında İ.Neplyuyevə belə bir buyruq göndərmək qərara alındı: əgər Osmanlı hökuməti Səfəvi dövlətinin bölünməsini təklif edərsə, Rusiyaya da «öz sərhədlərinin təhlükəsizliyi üçün bəzi əyalətlərin» zəruriliyi nəzərə alınmaqla razılıq versin.[53] Əgər Osmanlı tərəfi Rusiyanın Səfəvi dövlətinin məhz hansı torpaqlarını tutmağa hazırlaşdığını daha konkret göstərməyi tələb edərdisə, Neplyuyev cavab verməli idi ki, onun dövləti «Osmanlı sərhədləri

yaxınlığında yerləşən İran əyalətlərindən heç birini öz ərazisinə qatmağı arzulamır və özündə saxlamaq üçün Xəzər dənizi yanında yerləşənlərdən başqa heç bir yeri istəmir».[54] Rus hökuməti İstanbuldakı Fransa səfiri de Bonakı Neplyuyevə verdiyi qiymətli məlumat və məsləhətə görə layiqincə mükafatlandıraraq, ona dəyəri 1000 rubl olan müxtəlif qiymətli xəz bəxşiş verdi. Həmçinin rəis-ül-kittab və digər yüksək vəzifəli Osmanlı məmurları üçün 3 min manat məbləğində hədiyyə göndərmək qərarı qəbul olundu.[55]

1722-ci ilin sentyabrında İstanbulda rus qoşunlarının Gürcüstanda görünməsi, Şirvana soxulması, həm də onların yerli sakinlər tərəfindən sıxışdırılması, gürcülərin guya çara itaət etməmələri, həmçininn rusların Dağıstanı da zəbt etməyə hazırlaşmaları haqqında da şayiələr gəzirdi. Bu cür xəbərlərin alınması yenidən divan keçirilməsini labüd etdi.[56]

İrana göndərilmiş diplomatik kuryerlərdən biri - Əhməd ağa oktyabrda İstanbula qayıtdı. Vəzir onun Səfəvi ərazilərində siyasi şərait haqqında məlumatını dinləyəndən sonra bu vaxt Belqradda olan İ.Neplyuyevi[57] öz yanına çağırtdırıb Rusiya çarını həyata keçirdiyi hərbi əməliyyatlarla Osmanlı imperiyasının mənafeyinə zərər vurmaqda ittiham etdi. Neplyuyev vəziri inandırmağa çalışırdı ki, I Pyotr yalnız cəza məqsədi güdür və tutulmuş ərazilərdə möhkəmlənmək fikrində deyil. O buna əmin olmaq üçün Rusiyaya nümayəndə göndərməyi təklif etdi. Vəzir bu təklifi qəbul etdi və əyanlardan biri - Nişli Mehmet ağa Rusiyaya göndərildi. Eyni zamanda Krım xanına Rusiyaya qarşı hər bir düşmən hərəkətindən çəkinməsi barədə ciddi göstəriş verildi.[58] Elə həmin vaxt qərara alındı ki, yeni xəbərləri gözləməyərək, İbrahim paşaya Ərzurumda cəmləşmiş ordu ilə Gürcüstana daxil olmaq, Kartli çarını itaətə gətirmək haqqında fərman göndərilsin, Trabzon və Azova qoşun və ərzaq yola salınsın.

1722-ci ilin sentyabrında Neplyuyev İstanbuldan xəbər verirdi ki, Osmanlı sarayı əvvəlcə Şərqi Gürcüstana sahib olmağı, sonra isə rus qoşunlarını Xəzəryanı bölgələrdən sıxışdırmağı planlaşdırır, «bütün qüvvə ilə İrana qarşı hərəkət etməyə» hazırlaşır, ona görə də Azova və Ərzuruma aramsız olaraq hərbi sursat və artilleriya göndərilir. Vəziyyəti böhranlı hesab edən İ.Neplyuyev özünün bütün qeyd və məktublarını şifrələyib, əlyazmalarını yandırdı, oğlunu isə Fransa səfiri de Bonaka tapşırdı. De Bonak Neplyuyevin oğlunu Hollandiyaya göndərdi.[59]

Cənubi Qafqazda hərbi əməliyyatlara hazırlaşan Osmanlı hökuməti bir ilə yaxın idi ki Osmanlı himayəsinə nail olmağa çalışan Hacı Davuddan istifadə etməyi qərara aldı. 1722-ci ilin sentyabrında İstanbula Şirvan ruhaniləri və feodalları tərəfindən göndərilmiş üç nəfərdən ibarət nümayəndəlik gəldi. Hacı Davudun artıq üç ildir ki, onları iranlılardan qoruduğunu bildirən şirvanlılar buna görə onu Osmanlı imperiyasının himayəsi altında Şirvan xanı təyin etməyi xahiş etdilər.[60] V.P.Lısçov bunu dağlıların səfirliyi adlandırır, hətta güman edir ki, o təkcə Surxay xanı yox, digər dağlı hakimlərini[61] təmsil edə bilərdi, əslində isə ərizəni bir neçə ruhani şəxs, o cümlədən Hacı Davud özü imzalamışdı, Surxay xanın imzası isə ərizədə yox idi.[62] Şirvanlıların müraciəti Osmanlı sarayının ürəyincə idi, lakin qəti qərar qəbul etməkdə hələlik tərəddüd edirdi. Çağırılan divanda əksəriyyət şirvanlılara kömək göstərilməsinə tərəfdar olsa da, baş vəzir Osmanlı dövlətinin Şirvana görə Rusiya ilə müharibəyə cəlb oluna biləcəyindən narahatçılığını bildirirdi. Ona görə də yarımçıq qərar qəbul edildi: İran Şirvana qarşı hər hansı hərəkət edərsə, hərbi əməliyyata başlansın, Hacı Davud isə hələlik rəsmən himayəyə götürülməsin.[63]

Son nəticədə Osmanlı hökumətinin daha qətiyyətli dairələri üstünlük qazandı. Oktyabrın 13-də Neplyuyevin yanına göndərilmiş tərcüməçi Osmanlı hökumətinin adından Neplyuyevə elan etdi ki, divan keçirilmiş və üsyan etmiş gürcü çarı Osmanlı təbəələrinə - dağıstanlılara və şirvanlılara qarşı çıxdığı üçün Ərzurum paşasının 50 min nəfərlik qoşunla Şərqi Gürcüstana daxil olması barədə qərar qəbul edilmişdir.[64]

Osmanlı imperiyasının Qafqazda başladığı hərbi əməliyyatlar həm də rusları Xəzər sahillərinə buraxmamaq məqsədi daşıyırdı. Ürkənc xanı casusunun məlumatına görə, Osmanlı sarayı imperiyanın Asiya hissəsindəki paşalarına fərmanlar göndərmiş və onlara öz hərbi dəstələri ilə Ərzuruma toplaşmağı, «irəliləyən rus qoşunlarının qarşısını almaqdan ötrü»[65] Ərzurum paşasının komandanlığı altında cənuba doğru hərəkət etməyi tapşırmışdı.

Rusiya-Osmanlı münasibətləri günü-gündən daha çox kəskinləşirdi. Neplyuyev 1722-ci il 15 noyabr tarixli relyasiyasında yazırdı ki, o, bütün vasitələrlə osmanlıları Rusiya ilə münasibətlərini açıq şəkildə kəsməkdən çəkindirməyə cəhd edir və bu məsələdə ona kömək göstərən vəzir kahyasına və rəis-ul-kittaba hərəsinə ayrılıqda min çervon vəd etmişdir.[66]

1722-ci ilin noyabrında dəftər-əmini[67] Hacı Mustafa Osmanlı sarayının Rusiya çarının Səfəvi torpaqlarını tərk etməsi haqqında tələbini Neplyuyevə bəyan etdi və onu öz hökumətinə bildirməyi tapşırdı.[68] Sultan sarayının bu tələbi Rusiya hökumətinə çatdırıldı.

Eyni zamanda Krım xanının nümayəndələri Rusiya çarının öz hərəkətləri ilə Osmanlı hökumətinin mənafeyinə ziyan vurduğunu, baş vəzirin isə həqiqəti gizlətdiyini Sultana xəbər verdilər. Qəzəblənmiş Sultan vəziri edam etdirmək istədi. Lakin baş vəzir öz həyatını və vəzifəsini saxlamaq üçün qoşunu tələsik Gürcüstana tərəf hərəkət etdirdi.[69] 1722-ci ilin dekabrında İ.Neplyuyev öz hökumətinə yazırdı ki, osmanlılar müharibəyə hazırlaşırlar, ancaq tamamilə aydındır ki, qış vaxtı hərbi əməliyyatlara başlamazlar.[70]

İsveçlə uzun illər davam edən qanlı Şimal müharibəsini yenicə qurtarmış Rusiya əldə etdiyi nailiyyətləri möhkəmləndirmək niyyətində idi, dərhal, özü də Osmanlı imperiyası kimi güclü düşmənlə yeni müharibəyə girmək istəmirdi. Fransanın Moskvadakı səfiri de Kampredon özünün 1723-cü il 29 yanvar tarixli raportunda kardinal Dübuaya yazırdı: «Məncə, çar müharibəyə başlamağa hədsiz ehtiyat edir, çünki yaxşı sonluqda belə onun qüvvəsi xeyli azalacaq. Çarın Həştərxandan özü ilə götürdüyü kavaleriya tamamilə pozulmuşdur və maliyyə vəziyyəti də həmçininn çox pisdir».[71] Bu səbəbdən rus hökuməti Osmanlı imperiyası ilə münaqişənin sırf sülh yolu ilə həll olunması üçün maksimum səy sərf etdi. Kansler Q.Qolovkin dekabrda I Pyotra bildirdi ki, Neplyuyevə Osmanlı imperiyası ilə münasibətlərin kəsilməsinin qarşısını almaq üçün zəruri olan tədbirlər haqqında göstərişlər verilmişdir. Kampredon rus hökumətinin inadlı xahişi ilə İstanbuldakı Fransa səfirinə yazırdı: «o, hər cür vasitələrdən keçərək, Sultan sarayını əlaqələrin kəsilməsindən saxlasın».[72]

Yalnız I Pyotrun əsas qüvvələri Xəzəryanı regiondan çıxartması Osmanlı hökumətini sakitləşdirdi, bununla da münasibətlərdəki gərginliyi aradan qaldırdı. I Pyotrun Rusiyaya qayıtması haqqında ilin sonunda, İstanbulda səhih məlumat alınandan sonra baş vəzir Neplyuyevə bəyan etdi ki, indi şübhələr yox olmuşdur və Osmanlı hökuməti Rusiya ilə dostluğun saxlanması və möhkəmlənməsini arzu edir.[73]

Osmanlı imperiyası I Pyotrun Xəzəryanı regionu tərk etməsindən istifadə etməyə tələsdi. Lakin qış girdiyi üçün Cənubi Qafqazda dərhal hücuma keçmək mümkün olmadı. 1722-ci ilin noyabrında Ərzurumlu İbrahim paşa hökumətə yazmışdı ki, 50 min nəfərlik ordu ilə Gürcüstana tərəf hərəkət etmək əmrini icra etmək çətindir, həm də o, artilleriyaya malik deyil. Bundan başqa, İbrahim paşa gürcülərin Rusiya himayəsinə qəbul edildiyini eşitdiyini və bununla əlaqədar yeni Sultan fərmanı olmadan Gürcüstana hərəkət edə bilmədiyini də yazmışdı. Bundan xəbər tutan Neplyuyev Gürcüstana qoşun göndərilməməsinə özünün Osmanlı əyanları içərisindəki «dostları» vasitəsi ilə nail olmağa çalışırdı.[74]

Hələlik Cənubi Qafqazda açıq hərbi əməliyyatlara başlamaq imkanına malik olmayan Osmanlı imperiyası həmin bölgədə möhkəmlənmək üçün digər vasitələrdən istifadə edırdı. Belə ki, Hacı Davud oktyabrın sonunda yenə öz nümayəndəliyini İstanbula himayədarlıq haqqında xahişlə göndərəndə Osmanlı hökuməti onun xahişini rəsmi surətdə qəbul etməyi qərara aldı.[75] 1723-cü il yanvarın 11-də Sultan sarayından qapıçıbaşı Dərviş Mehmet ağa[76] Sultanın fərmanı ilə Hacı Davudun yanına göndərildi. O, Hacı Davuda Krım xanına aid edilən şərtlərlə Osmanlı imperiyasının himayəsinə qəbul olunduğunu bildirdi. Sultan Hacı Davuda mərhəmət nişanəsi olaraq samur kürkü və qılınc, həmçinin məvacib göndərmiş, həm də real kömək, o cümlədən, hərbi yardım vəd edilmişdi. Bundan başqa, Hacı Davuda «bütün vasitələrlə rus qarnizonunu Dərbənddən və oradakı digər diyarlardan qovmaq»[77] barədə məxfi əmr də verilmişdi.

Neplyuyev Hacı Davudun adına Sultan fərmanı və baratın[78], həmçininn Dərviş Mehmet ağaya verilən təlimatın surətini əldə etmişdi. İ.H.Uzunçarşılı yazır ki, Hacı Davuda «barat», «hilat», «sancak»[79] göndərilmişdi. Bu haqda S.M.Solovyov da xəbər verir, ancaq göndərilmiş sənədlərin məzmununu göstərmir.[80]

Osmanlı arxiv sənədlərində qapıçıbaşı Dərviş Mehmet ağanın «barat», «namə», «tuğ», «ələm» və «xələt»lə Şirvana göndərildiyi yazılır.[81] Rusiyanın Xarici Siyasət Arxivində bizə Sultan fərmanı və Mehmet paşaya təlimatın surətlərini də aşkar etmək müyəssər olmuşdur. Onlar orijinalın özü deyil , amma bizi maraqlandıran məsələnin tədqiqi üçün əhəmiyyətə malikdir.

Sultan baratında deyilir ki, Sultan ondan «sığınacaq» xahiş edən və onun himayəsi altında olmağı arzulayan adamlara böyük mərhəmət göstərir, ona görə Hacı Davuda elan olunur: o, Sultanın hökmü ilə «həmin ölkələrin hamisi və hökmdarı»[82] rütbəsinə qaldırılmışdır. Hacı Davud xan titulu alır və ona müntəzəm surətdə Osmanlı hökumətinə məlumat vermək və diyarın təhlükəsizliyi haqqında qayğı göstərmək vəzifəsi də həvalə olunurdu.[83]

Sultan fərmanı Hacı Davuda müraciətlə başlanır, özü də o, artıq xan titulu ilə - «Şirvan və digər Dağıstan əyalətlərinin möhtərəm ali xanı» adlanırdı. Fərmanda xatırlanırdı ki, Hacı Davud dəfələrlə Sultana onun himayəsini xahiş edərək məktub yazmış və bununla yanaşı İran dövlətindən qopardığı Şirvanı və digər əyalətlərin torpaq və şəhərlərini Türkiyənin hakimiyyəti altına verməyi vəd etmişdir.[84]

Fərmanın sonunda bildirilirdi ki, Hacı Davudun «iltifat, sədaqət və səyi» nəzərə alınaraq o, «Krım xanı kimi bu cür yüksək xanlıq ləyaqətinə» qaldırılmışdır. Dərviş Mehmet ağaya verilmiş məxfi təlimatda ona Şirvana çatan kimi Sultan fərmanı, baratı, vəzirin məktubunu, hədiyyələri Hacı Davuda təqdim etmək tapşırılmışdı.[85] 1732-ci il yanvarın 8-də Hacı Davuda göndərilmiş Sultan fərmanının surəti Osmanlı dövlətinin Azərbaycan xanlıqları ilə münasibətlərinə dair arxiv sənədləri külliyyatında nəşr olunmuşdur. Fərman Hacı Davuda müraciətlə aşağıdakı sözlərlə başlayır: «Rikab-i Hümayün tarafından Şirvan Hanına Name-i Hümayündur, Cenab-i eyalet-me» ab hükümetnisab devlet... Ferman-rani bil-fil Şirvan Hanı olan el-hac Davud han».[86]

Fərmanda deyilirdi ki, Qızılbaş məmləkətinin dağılmasından sonra Şirvan və onun ətrafını qızılbaş fəsadından qorumaq Hacı Davud xana tapşırılır, bunun müqabilində Şirvan paşa rütbəsi almaqla Hacı Davuda «yurtluk ve ocaklık» verilir.[87]

Fərmanda daha sonra deyilirdi ki, Şirvan xanlığının Hacı Davuda verilməsi müqabilində, o, Dövləti-Aliyəyə müvafiq xidmət etməlidir. Sultan Krım xanına göstərdiyi qayğını Hacı Davud xana da göstərəcəkdir. Daha sonra fərmanda deyilirdi ki, qapıçıbaşılarından olub hal-hazırda «mir-alem» olan Dərviş Mehmet ağa Sultan hilətini tuğla gətirib təntənəli şəkildə Hacı Davuda təqdim edəcəkdir, ən nəhayətdə Sultan Hacı Davuda Ərzurum paşası ilə sıx əlaqə saxlayıb birgə hərəkət etməyi məsləhət görürdü:

«... Eyalet-i Şirvanın vesair mazbut-i kabza-i zabt u teshir olunan biladin tensik-i umurunda ve düstur-i mukarram müsir-i müfahham nizamü lalem hala erzurum valisi olup ol tarafta bazi umur ve hususlarin temsiyet ü çerasına memur olan vezirim İbrahim paşa edamallahı teala celalevu ile iktiza edin sair umur ve suumu dahi femsiyet u icrasına bezl-i cell-i himmet eylesiz».[88]

Elçi Hacı Davuda çatdırmalı idi ki, o, Ərzurum hakimi və digər paşalarla yazışmanı davam etdirməlidir, onlara zəruriyyət olanda artileriya və qoşunla Hacı Davuda kömək etmək əmr olunmuşdur.[89] Mehmet ağa həmçininn Hacı Davuda Kartli çarı VI Vaxtanqla barışmağı və onu Osmanlı imperiyasının himayəsini qəbul etməyə təşviq etməyi məsləhət görürdü. Sultan VI Vaxtanqa öz mərhəmətini, onu bütün gürcü knyazlarından fərqləndirməyi vəd edirdi. Osmanlı sarayı Rus dövlətinin müdaxiləsindən ehtiyat edərək, Şərqi Gürcüstanda dinc yolla möhkəmlənmək istəyirdi. Hacı Davuda digər azərbaycanlı feodalları da Osmanlı imperiyasının tərəfinə çəkmək tövsiyə olunurdu.[90]

Şirvanın Osmanlı himayəsinə rəsmən qəbulundan sonra İstanbulda Sultanın «Dərbənd xanlığının, qədimdən ona məxsus olduğu üçün, Osmanlı imperiyasına könüllü birləşməsi» haqqında manifesti bəyan olundu və xarici ölkələrin səfirlərinə təqdim edildi.[91]

Ancaq Hacı Davudun dünənki müttəfiqləri - Qazıkumlu Surxay xan və Qaytaq usmisi Əhməd xan onun Şirvana xan təyin olunmasından incidilər. İ.Neplyuyev kansler Q.Qolovkinə məktubunda bu məsələ ilə əlaqədar aşağıdakıları yazırdı: Dərviş Mehmet Şamaxıya gələndə və Hacı Davudun Şirvan xanı təyin olunması haqqında Sultanın fərmanını oxuyanda onun digər müttəfiqləri bundan narazı qaldılar, çünki «onlar Şamaxını birlikdə tutmuşdular».[92] Ona görə Osmanlı sarayı Qara Mustafa paşanı 1000 süvaridən ibarət atlı dəstə ilə Hacı Davudun hakimiyyətini möhkəmlətmək üçün Şamaxıya göndərir.[93]

Osmanlı hökuməti Şirvanı himayəyə aldıqdan sonra Çar sarayına göndərdiyi qapıçıbaşı Nişli Mehmet ağa[94] vasitəsi ilə bildirdi ki, rusların Türkiyə himayəsi altında olan Şirvana qarşı yürüşü iki dövlət arasındakı sülhə ziddir.[95] Osmanlı elçisi rusların Xəzəryanı əyalətləri tərk etməsi tələbini də çatdırıb, çara şirvanlılarla münaqişəsində Sultanın vasitəçiliyini təklif etdi.[96] Osmanlı hökuməti bildirirdi ki, Hacı Davud Osmanlı imperiyasına tabedir. Buna görə, Dərbəndin Rusiya tərəfindən tərk edilməsi dostluğun saxlanılması üçün yeganə vasitədir, Rusiya ordusu heç bir bəhanə altında Səfəvi ərazisinə daxil olmamalıdır, çar daha bu işlərə qarışmamalı, həmçininn gürcülərə silah verilməsinə son qoyulmalıdır.[97]

Osmanlı imperiyası keçmiş Səfəvi dövlətinin digər əyalətlərində də özünə dayaq yaratmağa çalışırdı. 1723-cü il fevralın 9-da keçirilmiş divanda Ərzurumlu İbrahim paşanın məktubu oxundu. Məktubda o, xəbər verirdi ki, İrəvan naibi, İrəvan xanından və şəhər əhalisinin böyük əksəriyyətini təşkil edən azərbaycanlılardan gizli olaraq erməni patriarxı və nümayəndərinin razılığı ilə onları Osmanlı təbəəliyinə qəbul etmək xahişi ilə müraciət etmişdir. Divanda İrəvan əyalətini himayəyə götürmək, naibə və İrəvanın digər nüfuzlu şəxslərinə 250 ədəd xələt göndərmək qərarı qəbul olundu. Həmçinin qərara alındı ki, əgər İrəvan naibi müsəlmanlığı qəbul etməyi arzu edərsə, onu paşa təyin etsinlər, əgər o bunu istəmirsə, ona məvacib müəyyən olunsun.[98]

Bu vaxt ingilis diplomatiyası Rusiya-Osmanlı ziddiyyətlərini kəskinləşdirmək və bu ölkələrin münasibətlərini müharibə həddinə çatdırmaq üçün əlindən gələni edirdi. İngiltərənin dövlət katibi

Karteretin göstərişinə görə, A.Stenyan Osmanlı vəzirinə təlqin etməli idi ki, rus çarının Xəzəryanı regiondan geri qayıtması onun bu ölkədə işğalçılıq niyyətlərindən imtina etməsi demək deyil; gələcəkdə o, daha böyük qüvvə ilə Xəzəryanı regiona qayıdacaq.[99] Stenyan maksimum qüvvə sərf etməli idi ki, osmanlı tacirlərini rusların yürüşü münasibətilə etirazlara sövq etsin.[100] Onun 1723-cü ilin əvvəlində Osmanlı hökumətinə təqdim etdiyi memorandumda çarın Xəzəryanına yeni yürüş məqsədilə böyük qoşun topladığı və öz torpaqlarını Qara dənizə qədər genişləndirmək istəyində olduğu vurğulanırdı. Stenyan rus çarı «Avropa ölkələrinin heç biri ilə dostluq etmədiyinə» görə ona qarşı mübarizənin asan olduğu fikrini təlqin edirdi.[101]

İngiltərənin qızışdırıcı mövqeyi müəyyən təsir göstərdi. Nəhayət fevralın 9-da divan qət etdi ki, əgər rus çarı cari ildə İran və Cənubi Qafqaza hərbi müdaxilə edərsə, onda Osmanlı imperiyası da buna mane olmaq üçün hərbi xarakterli tədbirlər görəcək, himayəyə qəbul edilmiş Şeyx Davudu müdafiə edəcək və onun vasitəsilə Rusiya ilə müharibəyə girəcək.[102]

1723-cü il fevralın 21-də Neplyuyevi qəbul edən vəzir öz hökuməti adından ona aşağıdakıları bildirdi: bu yaxınlarda Səfəvi irsinin iki imperiya arasında bölünməsinə razılıq verilsə də, indi bölməyə heç nə yoxdur, çünki əfqanların başçısı Mir Mahmud artıq Səfəvi dövlətinin paytaxtı İsfahanı tutmuş və hətta Qəzvinə çatmışdır. Hacı Davud isə Şirvanı ələ keçirmişdir. Sonuncu Osmanlı imperiyasının himayəsini qəbul etmişdir, Mir Mahmud da Sultanın himayəsini qəbul etməyə hazırdır. Rus monarxı ehtiyat etməyə bilər, çünki Osmanlı hökuməti onların hər ikisini öz tabeliyində saxlayacaq və Rusiya tacirləri göstərilən ərazilərdə əvvəlki kimi azad ticarət edə biləcəklər.[103] Çarın Hacı Davuddan və onun tərəfdarlarından hələ qisas almadığını xatırladan İ.Neplyuyevə vəzir cavab olaraq demişdi ki, artıq Rusiya qoşunları Dərbəndə qədər keçmiş, yolu üstündəki yerləri viran etmişdir. Neplyuyev Sultanın Şirvan üsyançılarını himayə etməyəcəyi barədə verdiyi sözə əməl etmədiyini xatırladanda vəzir hədəyə keçərək bildirdi ki, əgər rus monarxı qoşunla Xəzəryanı bölgələrə gedərsə, Hacı Davud, Mir Veys və digər hakimlər birləşərək ona qarşı çıxacaq və Sultan da müsəlman xalqlarının - həmməzhəblərinin müdafiəçisi kimi müharibəyə girməyə məcbur olacaq. Sonra vəzir elan etdi ki, Rusiya güclə bəzi əraziləri müvəqqəti ələ keçirə bilər, lakin onları özündə saxlamamalıdır, çünki bu torpaqların əhalisi müsəlmandır.[104]

1723-cü il fevralın 22-də Sultanın yanında keçirilən növbəti divanda Krım xanının I Pyotrun gələn yazda Şirvanda hərbi kampaniyanı davam etdirmək niyyəti haqqında xəbər verən məktubu oxundu. Qərara alındı ki, Rusiyaya aşağıdakı məzmunda tələb elan olunsun: əgər çarın şirvanlılara və Mir Mahmuda iddiası varsa, qoy bunun Sultan vasitəsilə ödənilməsini tələb etsin, özünün bütün qoşunlarını isə Cənubi Qafqazdan çıxartsın və bundan sonra «İran işlərinə» müdaxilə etməsin. Əks halda, «əbədi sülh pozulacaq və Sultan Səfəvi mirası uğrunda onunla müharibəyə girməyə məcbur olacaq».[105]

Osmanlı hökuməti Rusiya ilə müharibəyə tələsirdi və qoşunlara yürüşə hazırlaşmaq əmri verilmişdi.[106] Rusiya və Osmanlı imperiyaları arasında qarşılıqlı münasibətləri və ümumi şəraiti qiymətləndirən fransız naziri kardinal Dübua 1723-cü ilin yazında müharibə olacağını labüd hesab edərək, öz ölkəsinin Peterburqakı səfiri de Kampredona yazırdı: «Öz torpaqlarını eyni tərəfdə genişləndirməyə can atan işğalçılar arasında toqquşma zəruridir».[107]

Yuxarıda göstərildiyi kimi, osmanlılarla müharibə İ Pyo-trun planlarına daxil deyildi, amma o, yenicə işğal etdiyi Xəzəryanı əyalətləri də əldən buraxmağa hazırlaşmırdı. Ona görə də Rusiya hökuməti diplomatik manevr etmək yoluna keçdi. 1723-cü il aprelin 13-də Neplyuyevin yanına gələn kuryerin gətirdiyi çar əmrində Osmanlı hökumətinə elan olunurdu ki, I Pyotr razılığa gəlmək istəyir və bu münasibətlə bütün səlahiyyətlər Neplyuyevə verilir. Eyni məzmunlu məktub Rusiyadakı Osmanlı nümayəndəsi Nişli Mehmet ağadan[108] da gəldi. Mehmet ağa bildirirdi ki, I Pyotr «əbədi dostluq sarsılmaz olsun» deyə Neplyuyevə Osmanlı hökuməti ilə razılaşmaq barədə sərəncam verdiyini, Hacı Davuda qarşı hərbi əməliyyatların dayandırılması haqqında Osmanlı hökmdarının xahişini yerinə yetirəcəyini ona söyləmiş, bunun əvəzində Osmanlı imperiyasının da Səfəvi ərazilərinə öz qoşunlarını göndərməməsini və Hacı Davuda Rusiya himayəsində olan şəhərlərə hücum etməyi qadağan etməsini xahiş etmişdir.[109] Çar bunu da bildirmişdi ki, Sultan məsuliyyəti öz üzərinə götürdüyü üçün Xəzəryanı regiona yürüşlə bağlı Çarın xərc və ziyanlarının ödənilməsinə kömək etməlidir.

Beləliklə, göründüyü kimi, I Pyotr Dərbənddən imtina etmirdi və işğalları davam etdirmək niyyətində idi, yalnız Səfəvi mirasının bölünməsinə dair danışıqlara başlamaq üçün şərait yaratmaq üçün hər iki tərəfin qoşunlarının Səfəvi ərazilərinə göndərilməsinin müvəqqəti dayandırılmasını təklif edirdi. I Pyotr Xəzər dənizində bəzi limanları işğal etmək niyyətini gizlətməyərək qeyd etdi ki, o, bu regionda nə Osmanlı imperiyası, nə də hər hansı bir digər ölkə ilə vuruşmağa hazırlaşmır. Gürcüstana gəldikdə isə o

nə Osmanlı Sultanından, nə də Rusiyadan asılıdır, buna görə Çar onun taleyi haqqında danışıq aparmaq niyyətində deyil. Bundan başqa, I Pyotr krımlı Dəli Sultan[110] tərəfindən köləliyə aparılmış 30000 adamın qaytarılmasını tələb edirdi.

I Pyotr 1723-cü il 27 fevral tarixli buyruğunda İ.Neplyuyevin qarşısında aşağıdakı vəzifələri qoydu: Xəzəryanı əyalətlər istisna olmaqla, başqa Cənubi Qafqaz əyalətlərinin Osmanlı imperiyasına verilməsinə bu şərtlə razılaşmaq olar ki, gərək o öz ordularını bu torpaqlara daxil etməsin. Hər iki tərəf Gürcüstana qoşun göndərməkdən imtina etməlidir.[111]

Beləliklə, I Pyotr Xəzəryanı əyalətləri şərti olaraq iki zonaya bölürdü: 1. Dənizindən nisbətən uzaq ərazilər. Rusiya bu ərazilərə iddiasından imtina edir və hərbi əməliyyatları dayandırmağa hazır olduğunu bildirirdi. Ancaq Osmanlı imperiyası bu zonaya qoşun göndərməməli idi.

2. Dənizin bilavasitə yaxınlığında yerləşən ərazilər. Rusiya bu torpaqları heç bir şərtlə güzəştə getmək istəmirdi. Dənizkənarı torpaqlarda yaşayan, əksəriyyəti sünni müsəlman olan sakinlərə gəldikdə isə, onlar Rusiya təbəəliyini qəbul etməkdən imtina etdikləri halda Osmanlı imperiyasına məxsus olan torpaqlara köçürülməli idilər.[112]

Osmanlılarla sonrakı danışıqlarda Rusiya tərəfi sərt və inadkar mövqeyindən çəkinmir, I Pyotrun 27 fevral 1723-cü il tarixli buyruğundakı şərtləri dönmədən müdafiə edirdi. Çünki I Pyotr Osmanlı imperiyasının Xəzər dənizinə çıxacağından və Bakını tutacağından qorxurdu. O, General Matyuşkinə məktubunda özünün bu xüsusda keçirdiyi təşviş və qorxusunu açıq ifadə etmişdir.[113]

20 aprel 1723-cü ildə İ.Neplyuyevə məktubunda kansler Q.Qolovkin yazırdı ki, Rusiya dövlətinin mənafeyi osmanlıları Xəzər dənizinə buraxmamağı tələb edir, əgər Osmanlı hökuməti bundan ötrü sülhü pozacaqsa, onda Rusiya da müdafiə olunmağa hazırdır, «rus qoşunlarına sərhədlərdə toplaşmaq və hazır olmaq əmri verilmişdir».[114] Rusiya hökuməti diplomatik tədbirlərini həyata keçirdiyi vaxt Osmanlı imperiyası ilə müharibəyə hərbi hazırlıq tədbirləri də görürdü. Artıq aprelin 4-də I Pyotr knyaz M.Qolıçinin baş komandan təyin edilməsi və Ukrayna ordusunun döyüş hazırlığına gətirilməsi haqqında əmr vermişdi.[115]

Rusiya hökuməti öz mövqelərini həmçininn Cənubi Qafqazın mərkəzi vilayətlərində möhkəmləndirməyə də çalışırdı. I Pyotr A.Baskakovun komandanlığı altında 2 min nəfərlik dəstəni çar Vaxtanqa kömək üçün Gürcüstana göndərtmişdi.[116] Ancaq 1723-cü ilin iyununda yolda Kartlidən qayıdan İvan Tolstoyla rastlaşan Baskakov Vaxtanqın Məhəmməd Qulu xan (Konstantin) tərəfindən məğlub edildiyini və Tiflisin osmanlılara təslim edildiyini öyrəndikdən sonra, ona verilmiş əmrin yerinə yetirilməsini qeyri-mümkün hesab edərək, Həştərxana qayıtdı.[117]

Rus hökumətinin diplomatik və digər tədbirləri öz təsirini göstərdi. Neplyuyevin sözlərinə görə, «dinclik həvəskarı olan» Osmanlı baş vəziri həm Rusiyanın sövdələşmə təklifindən, həm də I Pyotrun Peterburqa qayıtmasından xəbər tutan kimi Osmanlı imperiyasının döyüşkən əhvali-ruhiyyəli dairələrini sakitləşdirməyə başladı, Rusiya hökumətinin Xəzəryanı regionda yeni ələ keçirdiyi bütün ərazilərdən çıxdığını elan etdi. Bundan sonra Osmanlı ordusunun hərbi hazırlıqları dayandırıldı.[118]

1723-cü il iyunun 9-da İ.Neplyuyev yazırdı ki, əgər Rusiya hökuməti Səfəvi mirasına olan iddialarından imtina edərsə, Osmanlı Qızılbaş dövlətinin bütün torpaqlarını götürər, Dərbəndi, Dərbəndlə Terek arasındakı ərazini və Xəzər dənizi sahilini isə Rusiyaya güzəştə gedər.[119]

Lakin çox tezliklə Osmanlı hökuməti yanıldığını anladı. İyunun 5-də geri qayıdan Nişli Mehmet ağa I Pyotrun Xəzəryanına yeni yürüşünün gözlənildiyi haqqında məlumat verdi.[120] Nişli Mehmet ağanın apardığı danışıqların nəticələrini və rus kanslerinin fransız diplomatik kuryeri vasitəsilə əldə olunmuş məktubunu öyrənən vəzir rus çarının Xəzər dənizinin bütün sahilini ələ keçirmək niyyətində olduğu barədə qəti qənaətə gəldi.[121] Bundan bərk hiddətlənən vəzir vəziyyəti Sultana necə çatdıracağını təsəvvür edə bilmir, başa düşürdü ki, məhz onu «vaxt itirməkdə və səhlənkarlıq etməkdə günahlandıracaqlar».[134] Neplyuyev güman edirdi ki, Nişli Mehmet ağanın danışıqlarının nəticələri divanda məlum olsa, çox mümkündür ki, vəzir hakimiyyəti itirəcək və Osmanlının Rusiya ilə diplomatik münasibətləri kəsiləcək.[122]

Rus diplomatiyası Osmanlı ilə müharibə təhlükəsini tamamilə ləğv edə bilməsə də, onu müəyyən müddətə hərbi əməliyyatlardan çəkindirməyə və və osmanlıların yay kampaniyasına hazırlıq vaxtını əldən buraxıb gecikdirməyə müvəffəq oldu.

Təsadüfi deyil ki, Neplyuyev 29 may (9 iyun) 1723-cü il tarixli diplomatik məruzəsində yazırdı: o hesab edir ki, Osmanlı, hətta Rusiyaya müharibə elan etsə də, yaz və yay kampaniyalarında Rusiyaya qarşı ciddi təhlükə törətməyə qadir deyil, yalnız Kartlini və İrəvan bəylərbəyiliyini ələ keçirə bilər. Daha sonra Neplyuyev bildirirdi ki, əgər rus qoşunları Cənubi Qafqazın içərilərinə doğru hərəkət etməsə, iki

imperiyanın hərbi toqquşması ehtimalı istisna olunur.[123] Beləliklə, rus və fransız diplomatiyasının səyləri sayəsində Osmanlı imperiyası və Rusiya arasında diplomatik əlaqələrin kəsilməsinə yol verilmədi.

### *3. 1724-cü il İstanbul Rusiya-Osmanlı müqaviləsi və Azərbaycan*

Osmanlılar Avropada Rusiyaya qarşı yay kampaniyasına hazırlıq üçün yaz vaxtını əldən qaçırıb, yalnız Cənubi Qafqazda hərbi əməliyyatların fəallaşdırılması ilə kifayətlənməyə məcbur oldular. Osmanlı ordusunun vəzifəsi Mir Mahmudu qabaqlayaraq, Qərbi İranı və cənub-şərqi Qafqazı ələ keçirmək, başlıcası isə ruslardan əvvəl Bakıya yaxınlaşıb onu tutmaq idi.[1]

Əldə olunan məlumatlara görə, 1722-ci ilin yayında İstanbuldan Trabzona hərbi sursat və artilleriya ilə dolu 13 gəmi gəlmiş, 7 paşa öz qoşunu ilə oradan Səfəvi torpaqlarına yola düşmüşdü. Döyüş sursatı və artilleriya Ərzuruma ötürülmüş, ancaq paşalar Sultanın müvafiq göstərişini gözləyərək, Ərzurumdan o yana yürüşə getməmiş[2], yalnız kəşfiyyat xarakterli basqın və həmlələrlə kifayətlənmişdilər.[3]

Açıq silahlı müdaxiləyə hazırlaşan Osmanlı sarayı eyni zamanda öz hərəkətlərinə diplomatik yolla hüquqi don geyindərməyə yönəldilmiş tədbirlər də görürdü. 1722-ci il avqust ayının əvvəllərində Osmanlı vəziri Bəkir ağa adlı bir şəxs vasitəsi ilə Səfəvi sarayına məktub göndərdi. Həmin məktubda Mir Mahmud «İranda böyük əngəllər törədərsə», onda Osmanlı sarayının yardım edəcəyi vəd olunur, qoşunların sərhəd yaxınlığında bunun üçün toplandığı bildirilirdi.[4] Lakin Səfəvi dövlətinin sərhədyanı ərazisinin sakinləri Bəkir ağanı Şah sarayına getməyə buraxmadılar və o geri qayıtmağa məcbur oldu.[5]

1723-cü il iyunun 23-24-də osmanlı ordusu Tiflisi döyüşsüz tutdu.[6] Məlum olduğu kimi, ona tabe olmadığı üçün hələ 1723-cü ilin yanvarında şah Kartli çarı VI Vaxtanqın hakimiyyətdən kənarlaşdırıldığını elan etmişdi. Vaxtanqın yerinə Kartli çarlığına həmin vaxt İrəvan bəylərbəyiliyini idarə edən Kaxetiya çarı Konstantin (Məhəmməd Qulu xan) təyin olunmuşdu.[7] Məhəmməd Qulu xan Osmanlı ordusu yaxınlaşdığı zaman qalanın açarlarını və iri məbləğdə pul verib, İrəvan və Gəncəni də Osmanlıya tabe edəcəyinə söz verdi. İbrahim paşa Tiflisə daxil olaraq,[9] orada Osmanlı qarnizonunu yerləşdirdi.[10]

Osmanlı qoşunlarının Cənubi Qafqazda hərbi əməliyyatlara başlaması bir yandan və ingilis diplomatiyasının nəyin bahasına olursa- olsun, işi müharibəyə gətirib çıxarmağa can ataraq, Rusiya-Osmanlı münaqişəsini qızışdırmaqda davam etməsi də digər yandan vəziyyəti çox gərginləşdirirdi. İ.Neplyuyev 25 iyul (5 avqust) 1722-ci il tarixli məruzəsində yazırdı: «Stenyan Osmanlı sarayını inandırır ki, ingilis kralı Danimarka kralı ilə ittifaqda Rusiyaya qarşı qanlı müharibəyə başlamaq niyyətindədir, o, Osmanlı sarayını rus sarayı ilə vuruşdurmaq üçün bütün vasitələrə əl atır».[11] İngilis səfiri Osmanlı hökumətini inandırır ki, Rusiyadakı mürəkkəb daxili şərait onunla müharibəni risksiz edir. Stenyan Rusiya ilə müharibə vəziyyəti yaranarsa, Ukrayna kazaklarını ona qarşı qaldırmağı vəd edən keçmiş Ukrayna getmanı Orliklə də əlaqələr yaratdı.[12]

İngilislərin əksinə olaraq, fransız diplomatiyası Osmanlı imperiyası ilə Rusiya arasında müharibə olmasında maraqlı deyildi, qorxurdu ki, belə müharibə Osmanlı dövlətini zəiflədər və onun Fransanın daimi düşməni Avstriyaya qarşı uğurla müharibə aparmasına mane olar. Fransa həm də Rusiya ilə ittifaq bağlamağa çalışırdı. Buna görə də Fransanın Rusiyadakı səfiri de Kampredon fikirləşirdi ki, Fransa Rusiya-Osmanlı münaqişəsini nizamlamağa yardım edərsə, bu Rusiya hökuməti ilə danışıqların gedişinə müsbət təsir edər. De Kampredon öz hökumətinə Rusiya-Osmanlı münaqişəsində vasitəçiliklə məşğul olmağı təklif etdi və bu təşəbbüs Parisdə bəyənildi. İstanbuldakı Fransa səfiri de Bonaka Rusiya-Osmanlı münaqişəsinin dinc yolla nizama salınması üçün bütün qüvvələri sərf etməyi tövsiyə edən təlimat göndərildi.[13]

Nəticədə, ingilis diplomatiyasının əks-təsirinə baxmayaraq, Rusiya hökuməti İstanbuldakı fransız nümayəndəsi de Bonakın vasitəçiliyi ilə Osmanlı hökumətini münasibətləri kəsməkdən saxladı və yenidən danışıqlara başlamasına nail oldu. İyulun 25-i, 29-u və avqustun 19-da de Bonak, Neplyuyev, rəis-ül-kittab Mehmet və dəftərxana əmini Hacı Mustafanın iştirakı ilə üç konfrans oldu. Danışıqlar xeyli gərgin keçirdi. Bu konfranslar zamanı İ.Neplyuyev bəyan etdi ki, hələ aprelin əvvəlində Osmanlı hökumətinə «armistisiya» (hərbi əməliyyatların dayandırılması) təklif edilmişdir.[14] Osmanlıların istəyini nəzərə alan rus çarı Hacı Davuda qarşı əməliyyatları dayandırmışdı. Ancaq bunun əksinə olaraq osmanlılar özləri hərbi əməliyyatlara ara verməmişlər. Neplyuyev bəyan etdi ki, osmanlılar da qarşılıqlı surətdə hərbi əməliyyatları dayandırmasalar, o, danışıqlara başlaya bilməz.[15] Osmanlı nümayəndələri

bunun cavabında bildirdilər ki, osmanlıların hərbi əməliyyatları dayandırması üçün heç bir səbəb yoxdur, çünki onlar yad torpaqlarını işğal etmir, tarixən onlara məxsus olan torpaqları geri qaytarırlar: Osmanlı imperiyasının Şirvana və Azərbaycanın qalan hissəsinə, Gürcüstana və Gilana da hüququ var, çünki bu ölkələr və vilayətlər əvvəllər onun tərkibində olmuşlar. Bundan başqa, Osmanlı nümayəndələri bildirdilər ki, Osmanlı imperiyası Həştərxan ərazisində də öz hakimiyyətini bərpa etmək niyyətindədir, belə ki, əvvəllər orada müsəlman Həştərxan xanlığı mövcud olmuşdur. De Bonak etiraz edərək dedi ki, əgər tələblər bu qədər son həddə çatırsa, o, vasitəçi olmaqdan imtina edir.[16]

Osmanlı tərəfi tələb edirdi ki, Rusiya Dərbənd və Bakı, həmçininn Dağıstan torpaqlarından əl çəksin, belə ki, onun Xəzər dənizi sahilinə heç bir hüququ yoxdur. Neplyuyev qeyd etdi ki, bu cür tələbi o, çara çatdıra bilməz, çünki artıq mərkəzdən ona bildirmişlər ki, Rusiya Dərbənddən, Bakı və Dağıstandan heç vəhclə əl çəkməyəcək;[17] buna görə də, əgər Osmanlı sarayı rus imperatorunun niyyətini bilə-bilə öz qoşunlarına Xəzər dənizinə yaxınlaşmağı əmr edərsə, onda müharibə arzuladığını bildirəcək.[18]

Osmanlı tərəfi cavab verdi ki, onların qoşunları, əgər Xəzər dənizi sahilində rus qoşunlarına rast gəlsə və ruslar özləri heç nə etməsə, onlara hücum etməyəcək.[19]

Rus rezidenti Osmanlı tərəfinin Dağıstan, Gürcüstan, Azərbaycan və Gilana olan tarixi hüququ haqqında iddiaları ilə razılaşmayaraq aşağıdakıları bildirdi: əgər bu prinsipə uyğun hərəkət edilərsə, onda ruslar da qədim zamanlarda qoşunlarının İstanbulda olduğunu əsas götürüb bu şəhərə iddia edə bilər; sonuncu müqavilələri əsas götürmək lazımdır; Rusiya hökuməti xatırladılan torpaqların Osmanlıya məxsus olduğunu qəbul edə bilməz, çünki Osmanlı və Səfəvi arasında bağlanmış sonuncu müqaviləyə əsasən, həmin torpaqlar sonunculara məxsusdur.[20]

Beləliklə, Osmanlı nümayəndələri Neplyuyevin Cənubi Qafqaz və İranda hərbi əməliyyatların ikitərəfli dayandırılması təklifini qəbul etmədilər. Rusiya səfiri isə bildirdi ki, bu şərt yerinə yetirilməsə, o, danışıqları davam etdirmək hüququna malik deyil. De Bonakın təklifinə əsasən avqustun 19-da danışıqlara 3 ay müddətində ara verilməsi haqqında qərar qəbul olundu: bu müddət ərzində Neplyuyev öz hökumətindən yeni təlimat almalı idi. Həmin müddətə Xəzər dənizi sahillərində hərbi əməliyyatları dayandırmaq qərara alındı.[21]

Eyni zamanda Osmanlı sarayı öz əməliyyatlarını genişləndirməyi və Azərbaycanın ruslar tərəfindən hələ işğal edilməmiş Xəzəryanı torpaqlarını ələ keçirməyi qərara aldı. Qeyd etmək lazımdır ki, Osmanlı imperiyasının hakim dairələri arasında heç də hamısı dağılmaqda olan Qızılbaş dövlətinə qarşı müharibəyə razı deyildi. Divanda müfti Abdulla əfəndinin şiələrə qarşı müharibə etməsi barədə fitvası oxunanda (fitvada şi-ələr kafir elan olunur, onların kişilərini öldürməyə, arvad və uşaqlarını isə əsir götürməyə icazə verilirdi) Sultan sarayının keçmiş hakimi Kamal Əfəndi qeyd etdi ki, qibləyə üzünü tutan adam təhqirə məruz qalmamalıdır. (Əhli Qiblə təkfir olunmaz). Kamal Əfəndi bu sözlərə görə Lemnos adasına sürgün edildi.[22]

1723-cü il avqustun 17-18-də Sultanın iştirakı ilə keçirilən divanda danışıqların başlanmasınadək rus qoşunlarının hələ tutmadığı torpaqları, o cümlədən Xəzər dənizi sahilindəki torpaqları zəbt etmək qərara alındı. Bu qərara uyğun olaraq Ərzurumlu İbrahim paşa Tiflis istiqamətində, Trabzon canişini Qara Mustafa isə Bakı istiqamətində hərəkət etməli idilər.[23] Neplyu-yevin avqustun 30-da kansler Q.Qolovkinə yazdığına görə, Os-manlı hökuməti qarşıdakı kampaniyada Səfəvi mülklərinin əhəmiyyətli hissəsində möhkəmlənə biləcəyinə» ümid edirdi.[24]

Osmanlı imperiyasının hərbi hazırlıqlarını fəallaşdırması və onun Xəzər dənizinə çıxmağa can atması Rusiyanın Xəzəryanı regiondakı vəziyyətini mürəkkəbləşdirdi. Cənubi Qafqazda şərait o vaxt Rusiya üçün Osmanlı imperiyasına nisbətən daha az əlverişli idi. Bunu nəzərə alan rus hökuməti 1723-cü il kampaniyasının planında mühüm dəyişikliklər etdi. Əvvəllər nəzərdə tutulmuş 20 min nəfərlik ordu ilə Müqəddəs Xaç (Svyatoy Krest) qalasından Bakıya qədər və Bakıdan Şamaxı vasitəsilə Gürcüstana yürüş ləğv edildi, hərbi əməliyyatları dəniz ekspedisiyaları göndərməklə Şirvanın və Gilanın sahilyanı qurşağında genişləndirmək qərara alındı;[25] ilk növbədə Salyan şəhəri tutulmalı idi.[26]

I Pyotr Kür çayının mənsəbini tez tutmaq və burada qoşunların cəmləşdirilməsi və gələcək hərbi ekspansiyanın genişləndirilməsi üçün meydan yaratmaq istəyirdi. Leviatovun tamamilə düzgün qeyd etdiyi kimi, I Pyotr hər vəhclə Osmanlı imperiyasını Xəzər dənizi sahillərinə buraxmamağa can atırdı və ona görə müharibəyə başlamağa hazır idi.[27] 1723-cü ilin yazında Həştərxanda Bakıya üzmək üçün ekspedisiya artıq hazırlanmışdı, lakin onun göndərilməsini ləngitmək və Gilana eskadra göndərmək lazım gəldi, belə ki, əfqan qoşunlarının ora yaxınlaşması haqqında xəbər alınmışdı. Aprelin sonunda Gilana general Levaşovun komandanlığı altında 2 min nəfərlik dəstə göndərildi.[28] Osmanlı qoşunlarının Xəzər dənizi isiqamətində irəliləməsi haqqında xəbər I Pyotru tələsməyə məcbur etdi. O, general Matyuşkindən

Bakıya ekspedisiyanın hazırlığının sürətləndirilməsini tələb etdi: «Gürcüstandan xəbər alınmışdır ki, türklər onları artıq təbəəliyə məcbur etmişlər və paşa Şamaxıya gəlir, onun Bakını tutması təhlükəsi var, mümkün qədər tələs».[29]

1723-cü il iyulun 1-də rus donanması Həştərxandan çıxdı, iyulun 28-də öndə üzən gəmilərdə Bakıya yan alan general Matyuşkin mayor Neçayevlə Bakı Sultanı Məhəmməd Hüseyn bəyə öz məktubunu və İran səfiri İsmayıl bəyin imzaladığı məktubu göndərdi. Məktublarda şəhərin könüllü surətdə ruslara təslim edilməsi məsləhət görülürdü.[30]

Lakin Neçyayev şəhərə buraxılmadı və ona cavab verildi ki, Bakı sakinlərinin özgə köməyinə ehtiyacı yoxdur.[31] Bundan sonra rus qoşunu şəhər qalasını mühasirəyə aldı.[32]

Bakı qarnizonu müdafiə olunmaq üçün uğursuz cəhd etdi. O zaman şəhər artilleriya atəşinə məruz qaldı. Öz vəziyyətinin çıxılmaz olduğunu dərk edən qarnizon təslim oldu və avqustun 8-də rus hərbi dəstələri Bakıya daxil oldu.[33]

Yüzbaşı Dərgahqulu bəy həm şəhərin sultanı, həm də Rusiya xidmətinə qəbul olunmuş yerli qarnizonun komandiri təyin olundu. Əvvəlki sultan Məhəmməd Hüseyn bəy Həştərxana, oradan isə Roqoçevskə sürgünə göndərildi və orada da öldü.[34]

I Pyotr Bakının tutulmasından çox razı qaldı, Matyuşkinə general-leytenant rütbəsi verdi.[35] Çar xarici elçilərə bəyan etdi ki, bu şəhərin ələ keçirilməsi onu «bütün Xəzər dənizinin hökmdarı»[36] edir. Bakının tutulması şərəfinə Peterburqda toplardan yaylım atəşləri ilə bayram atəşfəşanlığı icra edildi.[37] Bakı ruslar tərəfindən zəbt edildikdən sonra Salyan naibi Məhəmməd Həsən bəy də görünür Bakı sultanının faciəli aqibətindən «dərs alaraq», rusların himayəsinə keçmək arzusunu bildirdi.[38]

Polkovnik-leytenant Zimbulatovun komandanlığı altında 50 nəfərdən ibarət rus dəstəsi Salyan yanında, Kür çayında adaların birində yerləşdirildi.[39]

Bakının ruslar tərəfindən zəbti Osmanlı hakim dairələrinin qəzəbinə səbəb oldu. Osmanlı imperiyasının Şirvandakı nümayəndəsi Osman paşa 1723-cü il avqustun 17-da qasid Mahmud ağa adlı bir şəxsi məktubla Bakıdakı rus komandanlığının yanına göndərərək rus qoşunlarının bu şəhəri tutmasına Osmanlı hökumətinin narazılığını bildirdi.[40]

Bakının ruslar tərəfindən tutulmasından sonra Osmanlı hökuməti əldən buraxdıqlarının əvəzini çıxmağı qərara aldı və digər Azərbaycan torpaqlarını ələ keçirmək üçün maksimum qüvvə sərf etdi. Birinci zərbə Gəncəyə qarşı yönəldi, belə ki, onun ələ keçirilməsi mühüm hərbi-strateji və siyasi əhəmiyyətə malik idi. Gəncə şəhəri Qarabağ bəylərbəyliyinin mərkəzi və Xəzəryanı istiqamətdə mühüm məntəqə idi. Osmanlı ordusu Gəncəni tutmaqla artıq Osmanlı himayəsini qəbul etmiş Hacı Davudun qüvvələri ilə birləşmək imkanı əldə edərdi.

1723-cü ilin oktyabrında Ərzurumlu İbrahim paşanın komandanlığı, Mustafa, İshaq və daha dörd digər paşanın qoşunlarının iştirakı ilə Ərzurumdan Tiflis yolu ilə hərəkət edən osmanlı ordusu Gəncəyə lap yaxınlaşdı və şəhərin qarşısındakı Səlim təpəsində düşərgə saldı. Şəhərdə gəncəli və şəmşədinlilərdən ibarət cəmi 10-12 min nəfərlik müdafiə qüvvəsi var idi. Artilleriyası və qala divarları olmayan şəhərin yalnız ətrafında xəndək var idi. Müdafiəyə naib Mufraz adlı şəxs komandanlıq edirdi.[41] Yayda osmanlılar tərəfindən həbs olunmuş, sonralar həbsdən qaçmış bəylərbəyi Məhəmmədqulu xan bu vaxt Kaxetiyada qoşun toplamaqda idi. Gəncə uğrunda amansız döyüşlər qızışdı. Osmanlı ordusunun ön dəstələri şəhərə girsə də, məğlubiyyətə uğradı.[42] Osmanlılardan təxminən 4 min nəfər öldürülmüş və 1000 nəfər yaralanmışdı.[43] Birnəfəsə Gəncəni tutmağa müvəffəq olmayan osmanlılar şəhər yaxınlığında düşərgə qurdu. Şəhərliləri susuz saxlamaq məqsədilə Gəncəbasar çayı üzərində bənd tikildi. Osmanlı hücumundan 12 gün sonra Məhəmmədqulu xan Gəncəyə qayıtdı. Onunla birlikdə gürcülərdən və azərbaycanlılardan ibarət yeni qüvvələr də gəldi. Bundan xəbər tutan osmanlı qoşunları geri çəkildi. İshaq paşa, Məhəmməd paşa və Mustafa paşa 10 min nəfərlik döyüşçü ilə Tiflisə tərəf, qalan qoşunlar Ərzuruma tərəf çəkildilər. Müvəffəqiyyətsizliyinə görə İbrahim paşaya qəzəblənmiş Sultan onun yerinə Diyarbəkirli Arifi Əhməd paşanı sərəsgər təyin etdi, sonuncuya artıq başqa vəzifə - İrəvan şəhərini almaq tapşırıldı.[44]

Türkiyə tarixçisi İ.H.Danişmədin yazdığına görə, Sultan, döyüşsüz təslim olan Tiflisdə 132 gün ləngidiyinə və ruslara Bakını ələ keçirmək imkanı verdiyinə görə İbrahim paşaya qəzəblənmişdi.[45] Bəzi müəlliflərin məlumatlarına görə, Sultan İbrahim paşanı hətta edam etdirmək istədi, yalnız baş vəzir Sultanı bundan çəkindirdi.[46]

Osmanlıların 1723-cü ildə az ərazi ələ keçirmələrinin səbəbini İ.Neplyuyev onların hərbi əməliyyatlara kifayət qədər hazırlıq olmadan, artilleriyasız, «şahın oğlunun və təbəələrinin qorxub onlardan himayə xahiş edəcəklərinə» ümid edərək başlamalarında görürdü.[47]

1723-cü il noyabrın 22-da danışıqlara verilmiş üçaylıq fasilə möhləti qurtardı. Rus hökuməti İ.Neplyuyevə göstəriş verdi ki, «əvvəlcə Porta ilə ümumi armistisiya (yəni hər iki tərəfin bütün istiqamətlərdə hərbi əməliyyatları dayandırması – T.M.) barəsində razılığa gəlsin, sonra isə danışığa başlasın».[48] Əgər osmanlılar hərbi əməliyyatları dayandırmağa razılaşsa idilər, onda İ.Neplyuyevə öz növbəsində Xəzəryanındakı rus komandirlərindən hərbi əməliyyatları dayndırmağı tələb etmək hüququ verilirdi.[49]

V.P.Lısçov iddia edir ki, «1722-1723-cü illər Rusiya-Osmanlı danışıqlarında əsas rolu» Gürcüstan və «dağlıların torpaqları» haqqında məsələ oynayırmış.[50] Ancaq qeyd olunan danışıqlara aid materialların müfəssəl öyrənilməsi Azərbaycan torpaqlarının statusu məsələsinin danışıqlarda əsas mövzu olduğunu göstərir.

Rusiya-Osmanlı danışıqları dekabrın 20-də yenidən başlandı. Neplyuyev, de Bonak, Mehmet və Hacı Mustafanın iştirakı ilə növbəti (sayca dördüncü) konfrans oldu. Neplyuyev və de Bonak ümumi armistisiya barədə tələb irəli sürdülər.[51] Səhəri gün Osmanlı vəziri İ.Neplyuyevə bildirdi ki, Səfəvi torpaqlarında hərbi əməliyyatları dayandırmaqdan imtina edir, çünki onlar «türk torpaqlarıdır».[52]

De Bonak gərginliyi azaltmağa çalışaraq, Neplyuyevə qismən, nisbi armistisiya təklif etməyi məsləhət gördü. Onun məsləhətinə əməl edən, Neplyuyev dekabrın 23-də olmuş konfransda Qafqazda iki imperiyanın qoşunları arasında toqquşmaya səbəb ola biləcək hərbi əməliyyatların dayandırılmasını təklif etdi. Osmanlı nümayəndələri bu təklifi də rədd etdilər, öz qoşunlarının Cənubi Qafqaza doğru irəliləyişini dayandırmasalar da Xəzər dənizinin özünə çıxmayacaqlarını vəd etdilər. Osmanlı tərəfi də öz növbəsində tələb edirdi ki, rus qoşunları Xəzər sahilində öz əməliyyatlarını dayandırsınlar. Neplyuyev əvvəlcə bu təklifi qəbul etməkdən imtina etdi, ancaq sonra sülh münasibətlərinin saxlanılması naminə qəbul etdiyini bildirdi.[53]

Dekabrın 29-də İ.Neplyuyevi Bağdadlı Əhməd paşaya və Vanlı Abdulla paşaya göndəriləcək sərəncamların surətləri ilə tanış etdilər, bu sərəncamlarda sonunculara Xəzər dənizi sahillərinə yaxınlaşmamaq əmri verilirdi.[54] Neplyuyev öz növbəsində general Matyuşkinə Xəzərin qərb və cənubundakı ərazilərdə heç bir yeni işğallar aparmamaq barədə məktub göndərdi.[55] Beləliklə, ilkin sülh bağlandı və tərəflər hərbi əməliyyatları bütün istiqamətlərdə dayandırmasalar da, barışıq haqqında razılığa gəldilər.

Ancaq çox tezliklə Rusiya-Osmanlı münasibətləri ifrat dərəcədə kəskinləşdi. Bu dəfə Peterburqda rus hökuməti ilə şah elçisi arasında separat müqavilə bağlanması xəbəri aranı daha da qızışdırdı. Əvvəllər qeyd edildiyi kimi, II Təhmasib Rusiyaya elçi göndərmək haqqında qərarını dəyişmiş, ancaq onun iradəsinin əksinə olaraq, İran nümayəndəsi İsmayıl bəy Peterburqa gəlmiş və 1723-cü il sentyabrın 23 (oktyabrın 4)-də I Pyotr hökuməti özü üçün əlverişli olan müqavilə bağlamışdı. Müqavilədə Rusiyanın Xəzəryanı əyalətləri tutması qanuniləşdirilir, ona Astrabadla birlikdə qalan bütün məntəqələri işğal etmək hüququ verilirdi. Lakin II Təhmasib İsmayıl bəyin rus hökuməti ilə bağladığı müqaviləni təsdiq etmədi və hətta müqavilənin mətnini gətirmiş Rusiya nümayəndəsini qəbul etməyərək, «həqarətlə və heç bir həqiqi cavab vermədən Ərdəbildən qovdu».[56]

Əldə olunan məlumatlara görə, İstanbuldakı Avstriya rezidenti Osmanlı hökumətini 1723-cü ildə Peterburqda bağlanmış Rusiya-İran «müqavilə»sinin məzmunu ilə tanış edəndə, bu, sonuncunun hiddətinə səbəb olmuşdu. Müqavilə osmanlılar tərəfindən etibarsız elan edildi, çünki hesab edilirdi ki, Təhmasib şah oğlu olsa da, özü hələ şah deyil və buna görə də müqavilə bağlamaq hüququ yoxdur.[57] Divanın bəzi üzvləri təxirə salmadan Rusiyaya müharibə elan etməyi təklif etdi, ancaq baş vəzir belə müharibənin sərfəli olmadığını başa düşərək, bu təklifə qarşı çıxdı.[58]

Elə bu arada İran kömək üçün Osmanlı imperiyasına müraciət etməyi qərara aldı. Ancaq Təhmasibin göndərdiyi birinci elçi Bərxudar Ərzurumda ləngidildi, ikinci elçiyə - Murtuzaqulu bəyə isə açıqcasına dedilər ki, Dərbənd və Bakı artıq rus çarının, İsfahan - Mahmudun, Qəndəhar isə Mir Qasımın əlinə keçdiyindən Osmanlı imperiyası da Təbriz və İrəvan ətrafındakı torpaqları, nə qədər ki onlar düşmən əlində deyil, tutmaq qərarına gəlib. Osmanlı hökuməti Təhmasibə bu torpaqları könüllü Osmanlı imperiyasına güzəştə getməyi təklif edib, əvəzində isə İranın qalan torpaqları üzərində onun hakimiyyətini tanıyacağını vəd etdi.[59]

2 yanvar 1724-cü il tarixli məlumatında Neplyuyev yazırdı ki, Osmanlı təkcə İrana yox, Rusiyaya da qarşı müharibəyə hazırlaşır və hərbi əməliyyatları martda başlamaq niyyətindədir.[60] İ.Neplyuyev Ukraynada və Xəzəryanı əyalətlərdə də osmanlıların hücumunu dəf etməyə hazır olmağı zəruri sayırdı.[61]

1724-cü il yanvarın 7-də daha bir konfrans keçirildi. Osmanlı nümayəndələri Neplyuyevin əvvəlki təkliflərini qəbul etmədiklərini açıqlayıb, ondan yeni təkliflər təqdim etməsini tələb etdilər. Neplyuyev

bildirdi ki, yeni təkliflər təqdim edə bilməz, çünki ayrı cür hərəkət etmək üçün göstəriş almamışdır.[62] İki gündən sonra Neplyuyevə elan olundu ki, əgər onun yeni təklifləri yoxdursa, danışıqlar dayandırılır.[63]

Neplyuyev kansler Qolovkinə 1724-cü il 13 yanvar tarixli məktubunda müharibəni labüd hesab edərək yazırdı: «Bu gün və ya sabah sülh pozulacaq».[64]

İstanbuldakı ingilis səfiri Stenyan əlverişli şəraitdən yararlanır, Rusiya ilə Osmanlı imperiyası arasında müharibə başlaması üçün canfəşanlıq edirdi. O, israr edirdi ki, rus hökumətinin İsmayıl bəylə bağladığı müqavilə Osmanlı-İran ticarətinin nüfuzdan düşməsinə gətirib çıxaracaq, ola bilər ki, gələcəkdə, Rusiya çarı yaranmış şəraitdən istifadə edərək şah taxt-tacını da ələ keçirəcək.[65] İngilis səfiri Hacı Mustafanı inandırdı ki, Rusiya İranda yeni torpaqların işğalını gələcəkdə Avropa və Şərq ölkələri arasında bütün Şərq tranzit ticarətini də öz əlinə almaq məqsədilə müvəqqəti dayandırmışdır. Stenyanın fikrincə, o zaman ingilislər Türkiyədən çıxıb getməyə məcbur olacaqlar ki, bu da Osmanlı xəzinəsinə böyük ziyan vuracaq.[66]

İngilis səfirindən fərqli olaraq, fransız səfiri de Bonak 1723-cü il Peterburq müqaviləsi ilə əlaqədar gələcək perespektivləri tamamilə başqa cür şərh edir və Osmanlı vəzirini inandırırdı ki, müqavilə onun ölkəsinə heç nə ilə təhlükə törətmir.[67]

Neplyuyevin 1724-cü il 20 yanvar tarixli məlumatında yazdığına görə, Rusiyaya müharibə elan edilməsi məsələsi üzrə geniş tərkibdə keçirilən divanda vəzir iki imperiya arasında sülhün pozulmaması üçün çox çalışmış, lakin divan Rusiyaya müharibə elan olunması haqqında qərar qəbul etmişdi.[68] Cənubi Qafqazdakı Osmanlı sərkərdələrinə Xəzər dənizinə tərəf hərəkəti sürətləndirmək barədə göstəriş verildi. 1724-cü il fevralın 10-da Şirvan hakimi Hacı Davud xana göndərilən hökmdə ondan «Gəncə fəthinə məmur edilmiş sərəsgər paşaya» yardım etməsi tələb olunurdu.[69] Ancaq de Bonak və vəzir İbrahim paşa tezliklə Osmanlı dövlətinin Rusiya ilə müharibəyə başlamaq haqqında qərarını ləğv etlməsinə nail oldular.[70] İbrahim paşanın simasında Osmanlı imperiyasının ən ehtiyatlı siyasətçiləri Qafqazda və İranda davam edən hərbi əməliyyatlar şəraitində Rusiya ilə müharibəyə girməyi təhlükəli və əlverişsiz hesab edirdilər. Türkiyə tarixçisi İsmayıl Hami Danişməndin yazdığı kimi, İbrahim paşanın belə mövqeyi xeyli dərəcədə yeniçərilər arasında narazılıqla əlaqədar onun orduya inamsızlığı ilə diktə edilirdi.[71] Vəzirin cəhdləri sayəsində İ.Neplyuyevə öz hökumətindən yeni təkliflər almaq üçün vaxt vermək qərara alındı. Razılaşdırıldı ki, 100-110 günə Rusiyadan yeni təkliflər daxil olmasa, ona müharibə elan olunsun.[72] Fransız səfirinin qohumu Dusyo Dalyon yeni göstərişlər üçün Peterburqa göndərildi.[73] Osmanlı sarayından ordu komandanlarına onlar «danışıqlar tamamilə dayandırılmayınca rus komandirləri ilə dostcasına davransınlar»[74] göstərişi verildi. Dalyon İstanbuldan çıxandan 47 gün sonra Moskvaya çatdı. Bu zaman I Pyotr paytaxtda deyildi, Olenetskdə müalicə olunurdu.[75] Rus kansleri de Bonaka məktub göndərib ondan Dalyonun gecikməsinin obyektiv səbəblərdən olduğunu Osmanlı sarayına anlatmasını xahiş etdi.[76]

Nəhayət, 1724-cü il aprelin 13-də I Pyotr Neplyuyevin Dalyonla göndərdiyi məktubunu oxudu və Osmanlı təklifləri ilə əsasən razılaşdı. Onun bəyəndiyi müqavilə layihəsi tərtib olunub İ.Neplyuyevə göndərildi.[77]

De Kampredon aprel ayında de Bonaka yazırdı ki, I Pyotr Osmanlı və Rusiya sərhədləri arasındakı məsafəni artırmaq üçün Təbrizi Təhmasib üçün saxlamağı arzu edir. Çar çox israrla de Bonakdan xahiş edirdi ki, osmanlıları bu təklifi qəbul etməyə razı salmaq üçün bütün vasitələrə əl atsın. Lakin I Pyotr Ərdəbil İrana qalması şərti ilə Təbrizin osmanlılara keçməsinə də razı idi, çünki o, osmanlıların işğal etdiyi əraziləri ayıran yeganə şəhər olacaqdı. Şamaxı ilə Xəzər dənizi arasındakı torpaqlara gəldikdə isə I Pyotr heç olmasa, bu ərazilərin üçdə iki hissəsini özündə saxlamaq istəyirdi.[78]

Dalyonun qayıtmasından sonra danışıqlar yenidən davam etdirildi. 1724-cü il mayın 31-də Neplyuyev, de Bonak, Mehmet və Hacı Mustafanın iştirakı ilə yeni konfrans başlandı. Neplyuyevin təklif etdiyi müqavilə layihəsində Kür çayı osmanlıların işğal etdiyi ərazilərin şimal sərhədi kimi nəzərdə tutulur, Təbrizi İran üçün saxlamaq təklif edilirdi.[79] Lakin Osmanlı tərəfi qəti surətdə bu təklifin əleyhinə çıxaraq bildirdi ki, Kür çayı yeni işğal edilən ərazilərdən deyil, əzəli Osmanlı torpaqlarından keçir, buna görə də Kür iki imperiya arasında sərhəd rolu oynaya bilməz. Osmanlılar Şirvanın da Rusiyaya keçməsinə etiraz edir və deyirdilər: «Rus rezidenti yaddan çıxartmışdır ki, bütün Şirvan Hacı Davuda verilmişdir və rus sarayına bu haqda dəfələrlə məlumat çatdırılmışdır».[80] Osmanlı tərəfi sülhün saxlanması naminə yalnız Şirvanın sahilyanı hissəsini - Dərbənd və Bakını güzəştə getməyə razılaşdı[81], amma Təbrizə olan iddialarından imtina etmədi. Fransız səfiri Təbrizin əvəzinə Xuzistan və ya hər hansı digər əyalətin Osmanlı dövlətinə birləşdirməsini təklif etdi.[82] Ancaq Osmanlı nümayəndələri bu təklifi rədd edib hədələyici tonda bildirdilər ki, «əgər rus tərəfi onların şərtlərini qəbul etməsə, Osmanlı

imperiyası lazım olan əraziləri silah gücünə özünə götürəcək» və «Rusiya monarxına hesabat verməyəcək».[83] Fransız səfiri Neplyuyevə Təbriz haqqında bir daha xatırlatmamağı, həmçininn Şirvandan Rusiyaya eni dənizdən başlayaraq 15 saatlıq yola bərabər olan zolaq keçməsi ilə razılaşmağı məsləhət gördü. Lakin Neplyuyev bu şərtləri qəbul etməkdən imtina etdi.[84] Beləliklə, danışıqların bu mərhələsində razılıq əldə olunmadı. 3 gün sonra Osmanlı nümayəndələri elan etdilər ki, əgər rus rezidenti Təbrizin onlara güzəştə getməsinə razılaşmasa, hər cür sülh danışıqları dayandırılır.[85] Onda de Bonak osmanlı nümayəndələrinə Təbriz haqqında məsələnin onların xeyrinə həll etmək barədə öhdəliyi öz üzərinə götürdüyünü bildirib digər bəndlər haqqında razılığa gəlmələrini xahiş etdi.[86] De Bonak Şirvanda rus işğal zonasında dənizdən Şamaxıya tərəf məsafənin üçdə ikisini saxlamağı, Araz çayı ilə Kür arasındakı torpaqları Osmanlı imperiyasına, Arazdan cənubdakı əraziləri isə İrana verməyi təklif etdi.[87] Konfransı yarımçıq saxlayaraq Osmanlı nümayəndələrindən biri birbaşa baş vəzirin yanına məsləhətləşməyə getdi. Vəzir sülhü saxlamaq naminə Şamaxı yaxınlığında ərazinin yarıdan bir qədər çoxunun Rusiyaya keçməsi ilə razılaşdı.[88]

İ.Neplyuyev elə həmin gün razılaşdırılmış düzəlişlər nəzərə alınmaqla italyan dilində 10 bənddən ibarət müqavilənin layihəsini təqdim etdi. Bu layihəyə uyğun olaraq, Dərbənddən Astrabada qədər bütün sahilyanı zolaq Rusiyaya keçməli, Rusiyaya keçməli olan sahilyanı hissə istisna olmaqla, Şirvanın qalan bütün hissəsi Osmanlı imperiyasının himayəsi altında Hacı Davudun idarəçiliyində qalmalı idi. Burada heç vaxt heç bir istehkam tikilməməli və Osmanlı imperiyasının burada nə qarnizon, nə də komendant saxlamaq hüququ olmamalı idi. Yalnız əhali arasında həyəcanlar vaxtı Osmanlı hökuməti qarışıqlığı yatırmaq üçün lazım olan sayda qoşunu ora göndərmək hüququna malik idi, həm də Osmanlı dəstələri sakitlik yaradan kimi dərhal geri qayıtmalı idi. Daha sonra İ.Neplyuyev Kür və Araz çayları arasındakı torpaqları, habelə Ordubad-Urmiya xəttindən qərbdəki torpaqları Osmanlı imperiyasına verməyi təklif etdi.[90] Rus səfirinin layihəsində həmçininn təklif olunurdu ki, gələcəkdə həm Rusiya, həm də Osmanlı imperiyası İrana qarşı heç bir ərazi iddiası irəli sürməsinlər. Layihədə nəzərdə tutulurdu ki, Rusiya yeni əldə etdiyi Xəzəryanı torpaqlarda istehkam qurmayacaq, Osmanlı tərəfi isə yalnız rus sərhədlərindən 5 saatlıq yol məsafəsində istehkama malik ola bilər. İki imperiya arasında ərazilərin dəqiq müəyyən edilməsi, müqaviləyə görə, hər iki tərəfdən komissarlar göndərilməklə, Fransa nümayəndəsinin iştirakı ilə həyata keçirilməli idi. Osmanlı sarayı II Təhmasibi yeganə qanuni İran şahı kimi tanımağı və Rusiya ilə birlikdə «qəsbkar Mir Mahmudun İrandan qovulmasına kömək etməyi»[91] də öhdəsinə götürməli idi.

Layihənin son bəndində qeyd olunurdu ki, əgər II Təhmasib Rusiya-Osmalı müqaviləsini qəbul etməkdən imtina edərsə, tərəflər öz aralarında razılaşıb birgə hərəkət edərək, «İranın sakitləşdirilməsi naminə» düzgün tədbirlər görməlidir.[92]

İyunun 13 və 15-də Osmanlı və Rusiya nümayəndələrinin daha üç görüşü keçirildi. Sonuncu görüşdə uzun mübahisədən sonra Təbrizin Osmanlı imperiyasına güzəşt edilməsi barədə razılıq əldə edildi.[93] İyunun 4-də Osmanlı sarayından tərcüməçi göndərildi və o, de Bonakın yanında 6 bənddən ibarət müqavilənin layihəsini İ.Neplyuyevə verdi. Müqavilə layihəsi vəzir İbrahim paşanın özü tərəfindən imzalanmışdı.

Osmanlı nümayəndəsinin təqdim etdiyi müqavilənin giriş hissəsində tərəflərin Səfəvi mirasını bölüşdürmələri əsaslandırılırdı. Rus hökumətinin 1723-cü ilin sentyabrında o zaman artıq səlahiyyəti alınmış Səfəvi elçisi İsmayıl bəylə bağladığı saxta Peterburq müqaviləsi tanınır və Osmanlı dövlətinin də İrandan münasib olan məmləkətlərin «Təhmasibdən «ya hüsn-tavassutu ilə, yaxud ale-i-ittifak cəbr tariki ilə» almaq hüququ təsdiqlənirdi.[94]

Şirvanın yarımmüstəqil xanlıq kimi statusu məsələsində osmanlılar rus tərəfi ilə razılaşdılar və orada qoşun saxlamamaq, istehkamlar inşa etməmək barəsində öhdəlik götürdülər.[95] Osmanlılar sərhədçəkməni aşağıdakı şəkildə aparmağı təklif etdilər: Şamaxıdan Xəzər dənizinə qədər olan məsafə üç bərabər hissəyə bölünsün. Dənizə tərəf olan üçdə iki hissəsi Rusiyaya, üçdə bir hissəsi isə Şirvan xanlığına keçsin. Kür və Araz çaylarının qovuşduğu yerin bir tərəfi (yəni çaylararası ərazi) Osmanlıya, dəniz tərəfi Rusiyaya, Arazdan cənubdakı tərəf İrana keçməli idi.[96]

İrana qalan Ərdəbil şəhərinin kənarından Təbriz tərəfə bir saat hərəkət edib orada bir nişan qoymaq, bu nişandan Kürlə Arazın qovuşduğu yerə bir düz xətt çəkmək, xətdən Ordubad və Təbriz tərəfdə olan Azərbaycan mahalları (Ordubad, Təbriz, Mərənd, Marağa, Urmiya, Xoy, Çors, Salmas və digər yerlər, o cümlədən Qarabağ, Naxçıvan, İrəvan, Üçkilsə) Osmanlı dövlətinə keçməli idi; Ərdəbilin bir saatlığındakı nişandan Həmədana doğru Həmədandan Osmanlı imperiyasına keçəcək Kirmanşaha kimi düz xətt çəkməli, bu xəttin daxilinə düşən ərazilər (Ərdəlan, Kürdüstan və s.) osmanlılara qalmalı idi. Ərdəbildən

Kürlə Arazın qovuşduğu yerə kimi çəkilən xətdən dənizə tərəf olan ərazi Rusiyaya keçməli, yerdə qalan ərazilər İranda qalmalı idi.[97]

Rusiya layihəsindən fərqli olaraq, Osmanlı layihəsində tərəflərə onlara ayrılmış torpaqların hər hansı məntəqəsində hərbi istehkam qurmağa icazə verilirdi. Bu layihədə qeyd olunurdu ki, II Təhmasib yuxarıda qeyd olunmuş torpaqları verməkdən imtina etdiyi halda razılığa gələn tərəflər bu torpaqları, o cümlədən bufer kimi qalan torpaqları zorla almalıdırlar. Sonra Səfəvi taxt-tacına digər şəxsi oturtmaq gərəkdir.[98] Əgər Təhmasib nəzərdə tutulmuş əyalətləri Osmanlı imperiyası və Rusiyaya könüllü verərdisə, onda Osmanlı hökuməti onu İran şahı kimi tanımağı və ona İsfahanın əfqanlardan azad edilməsində kömək göstərməyi öhdəsinə götürürdü.[99]

Ancaq Neplyuyev bu layihəni Osmanlının Ərdəbil şəhərinə aid iddialarını nəzərdə tutduğuna və onun qəsbkar Mir Mahmudla əlaqələr saxlamayacağı haqda bənd daxil edilmədiyinə görə qəbul etmədi.[100] De Bonak layihəni Mir Mahmud haqqında bəndsiz qəbul etmək üçün Neplyuyevi inadla dilə tutdu, əks halda vasitəçi rolundan imtina edəcəyi və rezidentin sazişi ağılsızcasına pozduğu, öz hökmdarına fayda arzu etmədiyi haqda Rusiyaya yazacağı ilə onu hədələdi.[101] Neplyuyev De Bonaka cavab verdi ki, əgər bu bənd müqaviləyə daxil edilməzsə, onda Osmanlı Mir Mahmudu, Hacı Davudla münasibətdə etdiyi kimi, himayəyə qəbul edər.[102]

İyunun 11-də daha bir konfrans keçirildi. Osmanlı nüma-yəndələri İ.Neplyuyevə Səfəvi dövlətinin saxlanılması barəsində, həmçininn prinsipcə qəsbkar Mir Mahmuda münasibət haqqında razılaşdılar, lakin hələ müvafiq bəndin mətnə daxil edilməsinə razılıq verməmiş yenidən Ərdəbilə aid iddialarında israr etməyə başladılar. De Bonak da, Neplyuyev də buna etiraz edərək, dedilər ki, «çardan rezidentə ciddi surətdə Ərdəbilin osmanlılara keçməsinə razılıq verməmək tapşırılmışdır, o, «iki imperiya arasında sədd kimi qalacaq yeganə şəhərdir».[103] Ərdəbilin əvəzində Sultaniyyə şəhərini tələb edən Osmanlı tərəfinə bildirildi ki, Ərdəbil də, Sultaniyyə də əzəli Osmanlı torpaqlarından uzaqlarda yerləşir, bundan əlavə, II Təhmasibə cəmi üç iri şəhər - Qəzvin, Ərdəbil və Sultaniyyə qaldığından bunlardan ikisini almaq yolverilməzdir.[104]

1724-cü il iyunun 13 (24)-də keçirilən sonuncu konfransda[105] Ərdəbil haqqında 6 saat səmərəsiz mübahisələr getdi. Osmanlı tərəfi Osmanlı torpaqlarının sərhədlərini Arazın Kürlə birləşməsindən Həmədana qədər elə müəyyən olunmasını tələb edirdi ki, Ərdəbil də Osmanlı zonasına düşsün. De Bonak təklif etdi ki, osmanlılar, Ərdəbili çıxaraq, bu xətti arzu etdikləri kimi aparsınlar. Lakin Neplyuyev bu təkliflə razılaşmırdı. Mübahisələr gecə saat 2-yə kimi çəkdi. Nəhayət, Osmanlı nümayəndələri dedilər ki, sülh arzu etdikləri üçün, onlar Ərdəbil şəhərinin özünü İrana saxlamağa, ancaq ona bitişik bütün torpaqların Osmanlı dövlətinə birləşdirilməsinə razıdırlar. Son nəticədə tərəflər de Bonakın Ərdəbilin və birsaatlıq məsafədə ona bitişik torpaqların II Təhmasibə saxlanmasını nəzərdə tutan təklifi ilə razılaşdılar. Qərara alındı ki, hər bir tərəf sonradan dəyişdirmək üçün müqavilənin mətnini hazırlasın.[106]

Müqavilənin qəti variantı giriş, nəticə və 6 bənddən ibarət idi. Giriş hissəsində deyilirdi ki, Mir Mahmud Səfəvi dövlətinin paytaxtı İsfahan şəhərini tutub şah Sultan Hüseyni uşaqları ilə həbsxanaya saldığına görə Osmanlı imperiyası qoşunlarını həmsərhəd olan torpaqları tutmaq üçün göndərmişdir. Rusiya isə Dərbənd və Bakını tutmuşdur. Rus hökuməti ilə İran səfiri İsmayıl bəy arasında 12 (23) sentyabr 1723-cü ildə Peterburqda bağlanmış müqavilə təsdiq olunurdu.[107]

Kür və Araz çaylarının birləşdiyi ərazidə, yəni üç dövlətin - Rusiya, Osmanlı və İranın sərhədlərinin qovuşduğu yerdə, Osmanlı və Rusiya tərəflərinə hərbi istehkamlar və qarnizonlara malik olmağa icazə verilirdi (sərhəddən üç saatlıq yol məsafəsindən yaxın olmamaqla və mütləq bu barədə digər tərəfə məlumat verməklə), Rusiya və Osmanlı imperiyalarının yeni sərhədlərinin müəyyən olunması üçün tərəflər öz komissarlarını ora göndərməli, komissarlar Fransa nümayəndəsi ilə birlikdə sərhədləri müəyyənləşdirməli idilər.[108]

İkinci maddədə qeyd edilirdi ki, Şirvan xanlığı iqamətgahı Şamaxı olmaqla «xüsusi xanlıq» hesab olunur. Şamaxının özü möhkəmləndirilməməli idi və orada Osmanlı qarnizonu saxlamağa icazə verilmirdi. Yalnız bu xanlığın hakimi Sultana tabe olmaqdan imtina edəndə və ya sakinlər arasında qarışıqlıq başlayanda Osmanlı qoşunları Şamaxıya girə bilər, lakin Osmanlı tərəfi qoşunları Kürü keçənə qədər rus qoşunlarının komandanlığını xəbərdar etməli idi. Qarışıqlığı yatırandan sonra bir osmanlı əsgəri də Şamaxıda qalmamalı idi.[109]

Müqavilənin üçüncü maddəsinə görə bütün Şərqi Gürcüstan, Azərbaycanın əksər ərazisi, o cümlədən İrəvan, Ordubad, Təbriz, Gəncə, Mərənd, Marağa, Urmiya, Çors, Salmas, Qarabağ, Naxçıvan, Həmədan, Qum və Kirmanşah Osmanlı imperiyasına çatdı. Rusiya və Osmanlı imperiyasının yeni sərhədləri arasındakı ərazilər İranın hakimiyyəti altında qaldı; o, iki imperiya arasında bufer rolunu oynamalı idi.[110]

Dördüncü maddədə göstərilirdi ki,Rusiya II Təhmasibi üçüncü maddədə qeyd olunan torpaqları Osmanlı imperiyasına güzəştə getməyə razı salmaq üçün bütün qüvvəsini sərf etməlidir.[111]

Müqavilənin beşinci maddəsində göstərilirdi ki, əgər Təhmasib müqavilədə göstərilən torpaqları könüllü verməyə razılaşarsa, onda Rusiya və Osmanlı imperiyası əfqanların İrandan qovulmasında ona kömək edəcəklər.[112]

Altıncı maddədə deyilirdi ki, Təhmasib müqavilənin şərtlərini qəbul etməkdən imtina edərsə, Osmanlı imperiyası və Rusiya birləşərək onu devirəcək və taxta öz adamlarını çıxaracaqlar.[113]

Beləliklə, 1724-cü il iyunun 13 (24)-də uzun və çətin danışıqlardan sonra, nəhayət ki, Rusiya-Osmanlı müqaviləsi imzalandı.[114]

İstanbul müqaviləsi rus diplomatiyasının müəyyən uğuru idi. Rusiya Cənubi Qafqazın böyük hissəsinin Osmanlı imperiyası tərəfindən ələ keçirilməsinə razılaşdı, amma bununla yanaşı, Xəzəryanı əyalətlərin idarəçiliyini özündə saxlamağa da nail oldu. Yəni özü üçün çox mühüm əhəmiyyətə malik olan Xəzər dəniz ticarət yolunu nəzarət altına aldı. Müqavilə Cənubi Qafqaz xalqları, xüsusilə Azərbaycan xalqı üçün də müəyyən əhəmiyyətə malik idi: Azərbaycan ərazisinin iki imperiya arasında gedən müharibə meydanına çevrilməsi təhlükəsinin qarşısı müvəqqəti alındı.

Bununla yanaşı, İstanbul müqaviləsinin Cənubi Qafqaz, ilk növbədə Azərbaycan üçün mənfi nəticələri də az deyildi. Belə ki, Azərbaycan ərazisi süni surətdə dörd yerə bölünürdü ki, bu da ölkədə siyasi və iqtisadi şəraitin qeyri-sabitliyinə gətirib çıxarırdı. 1724-cü il Rusiya-Osmanlı müqaviləsi ədalətsiz, açıq-aşkar işğalçı xarakter daşıyırdı və əslində iki işğalçı dövlətin yad əraziləri bölüşdürməsi haqqında sövdələşmə idi. Məhz buna görə də o, normal münasibətlərin möhkəm və etibarlı zəmini ola bilməzdi. Ж.F.Hammer bu haqda belə yazır: «Bütün vilayətləri ikiyə parçalayan, dağlar və ya çaylar üzrə təbii sərhədi olmayan bu sərhəd Rusiya və Türkiyə arasında İran dövlətinin bölünməsi haqqında bağlanmış müqavilənin özü kimi etibarsız idi, sonrakı tarixdə Polşanın bölünməsinin sələfi və ona nümunə idi».[115]

1724-cü il Rusiya-Osmanlı müqaviləsi bir də ona görə möhkəm ola bilməzdi ki, onlar arasındakı Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda olan ziddiyyətləri aradan götürmür-dü, yalnız bir qədər yumşaldırdı. Bu müqavilə iki imperiya arasında müharibənin qarşısını almadı, sadəcə olaraq onun başlanmasını on iki il ləngitdi.

Demək lazımdır ki, I Pyotr özü də bu müqaviləni müvəqqəti saziş kimi qiymətləndirirdi. P.Q.Butkov yazır ki, I Pyotr Rusiyanın Azov və Qara dənizə çıxış hüququnu ləğv edən Prut sülhünün şərtlərini dəyişməyə nail olmaqdan ötrü Osmanlı imperiyası ilə müharibəyə başlamaq üçün münasib məqam gözləyirdi.. Donda hərbi sursatlar toplanmış, yürüşün başlanması üçün bütün sərəncamlar verilmişdi, lakin I Pyotrun ölümü onun ideyalarından doğmuş bu planın həyata keçirilməsinə mane oldu.[116]

Beləliklə, tarixi mənbələrin öyrənilməsi göstərir ki, XVIII yüzilin birinci rübündə Osmanlı imperiyası və Azərbaycan arasında geniş ticari və mədəni əlaqələr olmuşdur. 1722-ci ildə Səfəvi dövlətinin faktik dağılması ilə Türkiyə-Azərbaycan münasibətlərində əsaslı dəyişiklik baş verir. Əvvəla, öz müstəqilliyini elan etmiş Şirvan xanlığı ilə siyasi münasibətlər yaranır. İkincisi, Osmanlı dövləti dağılan Səfəvi imperiyasının ərazilərini ilhaq etməyi qərara alır. İlk mənbələrlə yaxından tanışlıq göstərir ki, Rusiya çarı I Pyotrun Dərbənddə qarnizon qoyub, ordunun əsas hissəsi ilə Rusiyaya qayıtmasının əsas səbəblərindən biri Osmanlı imperiyasının rus təcavüzünə qarşı kəskin etirazı olmuşdur.

Osmanlı imperiyası ilə Rusiya arasında Cənubi Qafqaz, ilk növbədə Azərbaycan uğrunda rəqabətin kəskinləşməsi onların arasında müharibə təhlükəsi yaratmışdı. Lakin qüdrətli Osmanlı imperiyası ilə hərbi toqquşmadan çəkinən rus çarı diplomatik manevr və vasitələrlə münaqişənin dinc yolla nizamlanmasına nail oldu.

Sülh danışıqlarının gedişini əks etdirən sənədlərin təhlili göstərir ki, 1723-1724-cü illərdə İstanbulda keçirilən danışıqlarda başlıca mübahisə obyekti Azərbaycan torpaqları idi. Osmanlı tərəfi Rusiyadan heç bir hüququ olmadığı üçün Dərbənd və Bakıdan əl çəkməsini tələb edirdi. Rusiya isə bütün sahilyanı zonanın ona, Ərdəbil, Təbriz və Sultaniyyə şəhərlərinin İrana qalmasını istəyirdi. 1724-cü il iyunun 13 (24)-də bağlanmış müqaviləyə görə Osmanlı imperiyası Azərbaycanın çox hissəsinə nəzarət hüququ əldə etdi, eyni zamanda Bakı, Dərbənd və digər Xəzəryanı məntəqələrin Rusiyaya keçməsinə razılıq verməli oldu. Şirvan vilayətinin mərkəzi hissəsi isə Osmanlı Sultanının himayəsi altında yarımmüstəqil xanlıq elan olundu.

İstanbul müqaviləsi Xəzəryanı regionda Osmanlı-Rusiya ziddiyyətlərini tamamilə aradan qaldırmamış, yalnız bir qədər yumşaltmışdı. Təsadüfi deyildir ki, iki imperiyanın yeni ələ keçirdikləri ərazilərin sərhədlərinin dəqiqləşdirilməsi üç il çəkmişdi.

## II F Ə S İ L

## AZƏRBAYCAN ƏRAZİSİNDƏ MÜVƏQQƏTİ OSMANLI İDARƏÇİLİYİ

### 1. *Azərbaycan torpaqlarının Osmanlı imperiyasına qatılması*

İstanbul müqaviləsi ilə Səfəvi dövlətinin şimal-qərb hissəsini ilhaq etməyə Rusiyanın razılığını alan Osmanlı hökuməti müqavilənin şərtlərini həyata keçirməyə girişdi. Dağılmaqda olan Səfəvi dövləti hücuma keçmiş Osmanlı qoşunlarına müqavimət göstərmək iqtidarında deyildi. Səfəvi qoşunları pərakəndə şəkildə ancaq ayrı-ayrı şəhər və qalalarda müdafiə olunur və düşmənin yolunu kəsməyə cəhd etmirdilər. Ona görə heç bir mühüm vuruşma olmadı. Belə şəraitdə çox şey yerli əhalinin mövqeyindən asılı idi. Kür çayından şimalda yerləşən bütün vilayətlərdə son illərdə şiə ruhaniləri tərəfindən sıxışdırılan sünnilərin çoxluq təşkil etdiyi əhali könüllü olaraq Osmanlı imperiyasının himayəsini qəbul etdi. Əhalisi şiə olan Gəncə, Təbriz, Ərdəbil və digər iri şəhərlərə gəldikdə isə onların sakinləri, müftinin Osmanlı əsgərlərini şiələrlə cihada çağıran fitvasından qorxuya düşərək, qətiyyətlə vuruşmağa hazır idilər.

İstanbul danışıqlarının sonlarına yaxın Osmanlı ordusu Azərbaycanda və dağılmış Səfəvi dövlətinin digər bölgələrində hücum əməliyyatlarını yenidən genişləndirmişdi. Artıq 1724-cü il aprelin əvvəlində Van sərəsgəri Abdulla paşa 60 min nəfərlik ordu ilə Vandan çıxıb Azərbaycana tərəf hərəkət etməyə başladı. O, Osman paşanın komandanlığı altında 3-5 min nəfərlik hərbi birləşməni irəliyə Xoy şəhərini tutmaq üçün göndərdi. Bu dəstə şəhərin müdafiəçilərinin müqavimətini qırıb şəhərə yiyələnməyə nail oldu. Ancaq tezliklə şəhər əhalisi öz qüvvələrini toplayıb Osmanlı qoşunlarını sıxışdıraraq şəhərdən çıxardı. Osman paşaya yardım üçün digər dəstə göndərildi, onlar gəlib çıxandan sonra osmanlılar yenidən şəhəri mühasirəyə aldılar.[1]

1724-cü ilin yazında Arifi Əhməd paşa 60 min nəfərlik ordu ilə Tiflisdən İrəvana doğru hərəkət etdi. İyun ayının ortalarında Osmanlı ordusu Arpaçay vadisinə yetişib burada mövqe tutdu.[2] Ətraf mahalların bəyləri, Üçmüəzzin keşişləri və İrəvan qalasının bayraqdarı Məhəmməd Zaman bəy Osmanlı ordugahına gəlib itaət bildirdilər. Lakin qala qarnizonu təslim olmaqdan imtina etdi. Kürd piyadaları və tüfəngçi dəstələri sərt qayalıq sahili və çayı keçib şəhərə daxil odular. Qarşı tərəfdən də yeniçərilər həmləyə keçdilər və qala müdafiəçiləri on min nəfərə qədər itki verdilər. On beş min nəfərə yaxın qadın və uşaq əsir alındı.[3] İçqalaya çəkilən qızılbaş döyüşçüləri hələ uzun müddət müqaviməti davam etdirdilər. Onlara Əli Qulu xan adlı bir şəxs başçılıq edirdi.[4] Yalnız 1724-cü il avqustun sonunda içqaladakılar təslim oldular. Sultan Anadolu valisi Osman paşanı İrəvan mühafizi təyin etdi.[5]

Bəzi məlumatlara görə, İrəvanın müdafiəsi 24 gün davam etmiş, daxili qəsrin müdafiəçiləri isə daha çox duruş gətirə bilmişdilər.[6] Qaliblərə 79 top, həmçininn Şah Abbas dövründə qala qapılarından asılan 7 qarış uzunluğunda qılınc çatdı. Qılınc Sultan III Əhmədə[7] göndərildi.

Osmanlı qoşunlarının cənub cinahında hərəkət edən Bağdad hakimi Həsən paşa hələ 1723-cü ilin sonu - 1724-cü ilin birinci yarısında Kirmanşahı tutmuş, sonra II Təhmasibin Çava və Əlişparada yerləşən sərkərdəsi Əlimərdan xanın qoşununu darmadağın etmişdi. Ərdəbilli Abbasqulu xan, həmçininn Çavandur və Gersin mahallarının bəzi bəyləri könüllü Osmanlı himayəsini qəbul etdilər. Öz vəziyyətinin ümidsiz olduğunu görən Əlimərdan xan da təslim oldu.[9] Marağa canişini Firudin xan könüllü osmanlıların tərəfinə keçdi və Marağa bəylərbəyi titulunu alaraq öz vəzifəsində qaldı.[10]

Osmanlıların cənub cinahında 1724-cü ildə amansız döyüşlər qızışdı. Burada Həsən paşanı sərəsgər vəzifəsində oğlu Əhməd paşa əvəz etdi.[11] İstanbul müqaviləsi bağlanandan cəmi 5 gün sonra Osmanlı qoşunları Həmədan istiqamətində hərəkət etdilər. Ancaq şəhər yaxşı möhkəmləndirilmişdi, onun ətrafında dərin və enli xəndəklər var idi. İki yüzdən artıq bürcləri ikiqat divarlar müdafiə edirdi, qalanın mərkəzində isə iki qəsr dururdu.[12]

54 gün davam edən hücumlar heç bir nəticə vermədi. 55-ci gün osmanlılar bütün tərəflərdən hücuma keçdilər, ancaq güclü müqavimətə rast gəlib geri çəkildilər.[13] Hücum edənlər müdafiə divarlarından birini partlatdılar və Həmədan qalasına daxil oldular[14], lakin şəhərin müdafiəçiləri bundan sonra da bir neçə gün müqaviməti davam etdirdilər.[15]

Ж.F.Hammer Həmədanın osmanlılar tərəfindən tutulmasını belə təsvir edir: «Üç tərəfdən qumbaralar partladılmağa başlandı, bu vaxt taxta qalxanlarla özlərini qoruyan mühasirəçilər (osmanlılar-T.M.) əmələ gələn yarığa atıldılar. Mühasirədə olanlar qalxanları neft hopdurulmuş əskilərlə yandırmağa cəhd etdilər, lakin hücum edənlər onun alışmasına imkan verməyərək qarmaqlarla əskiləri tez üzərlərindən atırdılar. 25 dirsək hündürlüyündə divar mina ilə partladılandan və daş qalağına çevriləndən sonra hücum başlandı, iki aylıq mühasirə və təpədə qızğın vuruşdan sonra şəhər ələ keçdi».[16] Həmədanın tutulması münasibətilə İstanbulda 7 gün şənlik keçirildi.[17]

Bu zaman isə Abdulla paşanın ordusu Təbrizə doğru hərəkət edirdi və 1724-cü ilin yayında Salmas və Ordubad osmanlıların əlinə keçdi.[18] Osmanlılar Naxçıvanı ələ keçirməzdən əvvəl onun yaxınlığında II Təhmasib tərəfindən İrəvan qalasının müdafiəçilərinə köməyə göndərilən 10 min nəfərlik Səfəvi qoşununu darmadağın etmişdilər.[19]

Osmanlı hökuməti Təbrizin tutulmasına böyük əhəmiyyət verirdi. Bu vəzifəni yerinə yetirməli olan Abdulla paşanın və Arifi Əhməd paşanın orduları Təbriz yaxınlığında birləşməli idilər.[20]

1724-cü il 11 (22) sentyabr tarixli məlumatında İ. Neplyuyev yazırdı ki, Abdulla paşa Təbrizə hərəkəti davam etdirir, amma osmanlılar özləri onun indi Təbrizi tuta biləcəyinə ümid etmirlər, çünki qoşununun bir hissəsi yerlərdə qarnizonlar kimi qoyulduğundan zəifləmişdi.[21] Osmanlıların bu cür pessimizminə Təbriz sakinlərinin sona qədər mübarizə aparmaq qətiyyəti də təsir göstərirdi - şəhərdə gözlənilən mühasirəyə qarşı ciddi hazırlıq gedirdi.[22] Demək lazımdır ki, II Təhmasib şəhərin müdafiəsini təşkil etmək əvəzinə, öz hayına qalıb Təbrizi tərk etmişdi. Şəhər sakinləri isə Şahın şəhərdə qalmasının onlara dəstək olacağını düşünüb ona 30 min manat məbləğində pul da təklif etmişdilər. Şah tezliklə Təbrizə qayıdacağını vəd etmişdi.[23]

A. Əbdürrəhmanova görə, Osmanlı qoşunları Təbrizi tutmaq üçün ilk dəfə 1725-ci ilin fevralında uğursuz cəhd etmişdi.[24] Ancaq tarixi tədqiqatların və mənbələrin diqqətlə öyrənilməsi göstərir ki, bu hadisə 1724-cü ilin avqustunda baş vermişdi. Türkiyə tarixçisi İ.H.Danişməndin yazdığına görə 1724-cü il avqustun 31-də Təbrizin Osmanlı qoşunları tərəfindən ilk mühasirəsi uğursuz nəticələnmişdi.[25] Ж.F.Hammerə görə, vəzir Köprüllü Abdulla paşa Xoy və Çors tutulandan sonra, 1724-cü ilin avqustunda Təbrizə tərəf yola düşdü. O, Tasuca çatanda, Urmiya çayının sahilində Osmanlı qoşunları və Təbrizdən çıxan dəstələr arasında toqquşma baş verdi. Qələbə osmanlılara nəsib oldu, bundan sonra şəhər onlar tərəfindən mühasirəyə alındı.[26] Mühasirənin 16-cı günü mühasirədə olanlar həmlə etdilər, bundan dörd gün sonra isə onlar 2 min nəfərlik qoşun və dəvələr üstündə 70 səhra topları ilə Hələbli İbrahim paşanın qarşısına çıxdılar. O, ərzaq ehtiyatları ilə osmanlı ordusunun əsas qüvvələrinə köməyə gəlirdi. İkdəli kəndi yaxınlığında baş verən döyüşdə osmanlılar məğlubiyyətə yaxın idilər, lakin Abdulla paşanın düşərgəsindən kömək vaxtında çatdı və döyüş onların xeyrinə qurtardı. Nəticədə, osmanlılar 700 əsir və 61 top ələ keçirdi.[27]

Ж.F.Hammer yazır ki, Osmanlı qoşunları, əldə olunmuş qələbəyə baxmayaraq, Təbriz ətrafını guya «ilin fəslinin dəyişməsinə görə» tərk etdilər.[28] Bu, qeyri-inandırıcı görünür, belə ki, sentyabrın axırlarında həmin yerlərdə elə kəskin soyuqlar olmur ki, osmanlı ordusunu öz qələbəsinin bəhrəsindən istifadə etməyib geri çəkilməyə məcbur etsin.

Neplyuyevin gətirdiyi məlumatlardan Osmanlı qoşunlarının birinci qələbədən sonra məğlubiyyətə uğradığı aydınlaşır. O, özünün məlumatında yazırdı ki, Ərdəbildə yerləşən II Təhmasib Təbriz müdafiəçilərinə köməyə dəstə göndərmiş, dəstə gələn kimi Təbriz sakinləri bu dəstə ilə birlikdə Osmanlı qoşununa hücum etmişlər. Neplyuyev osmanlıların çoxlu tələfat verib şəhərdən geri çəkilməyə məcbur olduqlarını yazırdı.[29]

Sultan sarayının salnaməçisi A.Kiçik Çələbizadə də osmanlı qoşunlarının Təbriz yaxınlığında məğlubiyyəti faktını təsdiq edir. O yazır ki, mühasirənin 16-cı günündə Təbrizin müdafiəçiləri həmlə etdilər, lakin onların hücumu dəf edildi. Sonra isə şəhərlilərə kömək gəldi və 2 min nəfərlik Osmanlı dəstəsi qızılbaşların 20 min nəfərlik ordusu tərəfindən darmadağın edildi, bunun nəticəsində Abdulla paşa Təbrizdən aralandı.[30]

Abdulla paşa qışlamaq üçün Təbrizdən 10 saatlıq məsafədə yerləşən Akdiv kəndini seçdi. O, oğlu Əbdürrəhman paşanı qışlamaq üçün Tasuca[31] göndərdi, bitlisli Hadı xan da Mərənddən geri qayıtdı.

Beləliklə, 1724-cü il kampaniyası ərzində Osmanlı imperiyası nisbətən kiçik ərazini tutmağa müvəffəq olmuş, lakin bu zaman böyük ziyan çəkmişdi[32], əldə olan məlumata görə, Xoy, Həmədan, İrəvan və Təbriz yaxınlığında 40000 nəfər döyüşçü itirmişdi.[33]

1725-ci ilin fevralında İrəvandakı qoşunlar Təbriz istiqamətində irəliləməyə başladı. Yolüstü Xoy şəhəri mühasirəyə alındı. Xoylu Şahbaz xanın əmri ilə Osmanlı komandanlığının könüllü təslim olmaq

təklifi gətirən birinci elçinin qulaqları, ikincinin isə başı kəsilmişdi. Mühasirənin 21-ci günündə inadlı hücumdan sonra osmanlılar şəhəri ələ keçirməyə müvəffəq oldular. Lakin daxili qalanın müdafiəçiləri Şahbaz xan başda olmaqla müqaviməti bir neçə həftə - 1725-ci il mayın 1-nə qədər davam etdirdilər.[34]

Xoyu tutan Osmanlı ordusu sonra Təbrizə tərəf hərəkətini davam etdirdi və Tasuc kəndində qışlayan digər ordu ilə birləşdi. Hər iki ordu Abdulla paşanın ümumi komandanlığı altında Təbrizə yaxınlaşdı.[35] Onların 70 minə yaxın təkcə piyada döyüşçüsü var idi.[36]

Osmanlı qoşunları Mərənd mahalında Zunuz qalasını, həmçininn sakinlərin tərk etdiyi Mərəndi ələ keçirdilər.[37] Mayda Əbdürrəhman paşa Təbrizin ətrafına çatdı, ancaq osmanlılar şəhərə girə bilməyərək, geri çəkilməyə məcbur oldular.[38]

İyulun ortalarında Osmanlı qoşunlarının əsas qüvvələri Abdulla paşanın özünün komandanlığı altında Təbriz önündə göründü və şəhərdən 2 saatlıq məsafədə düşərgə saldı.[39] Burada, Dəvab yaxınlığında düşərgədə Xürrəmabad kəndinin nümayəndələri, həmçininn Qaradağın hakimi Əbdürrəzaq xan itaətlərini bildirmək üçün Abdulla paşanın yanına gəldilər.[40]

Təbrizin müdafiəsinə başçılıq edən Allahqulu xan öz dəstəsi ilə osmanlıların qarşısına çıxdı, lakin məğlub edildi və geriyə oturduldu.[41] 1725-ci il 17 iyulda Osmanlı qoşunları Təbrizi mühasirəyə alıb, şəhərə hücuma başladılar. Şəhərin müdafiəçiləri, əksəri silahla rəftarı bacaran, amma hərbi təcrübəsi olmayan sakinlər idi. Onlar şəhərin bütün doqquz məhəlləsini səngər və istehkamlarla möhkəmləndirmişdilər. Ж.F.Hammer yazır ki, dörd gün ərzində osmanlılar yeddi məhəllədə istehkamları dağıtdılar və dördüncü gün mühasirədəkilər təslim olmağı qərara aldılar.[42] İstanbuldakı rus nümayəndəsi İ.Neplyuyevin yazdığına görə, mühasirənin beşinci günü təbrizlilər ümidsiz həmlə etmiş və 5 saata yaxın davam edən, osmanlıların qələbəsi ilə nəticələnən döyüş olmuşdu. Təbrizli döyüşçülər tələsik şəhərə geri çəkilmiş, osmanlı döyüşçüləri isə onları təqib edə-edə şəhərə daxil olmuşdular.[43] Şəhər müdafiəçilərinin bir hissəsi iki möhkəm və sıx məhəllənin içərisində qalmış və müqaviməti davam etdirmişdilər. Nəhayət döyüşən tərəflər razılığa gəlmiş və nahaq qan tökülməməsi üçün mühasirədəkilər arvadları, uşaqları və əmlakları ilə şəhərdən kənara buraxılmışdılar.[44]

Şirvan hakimi Hacı Davud 1725-ci il 21 sentyabrda Dərbəndin rus komendantına məktubunda Təbrizin 1725-ci il avqustun 7-də tutulduğunu yazır.[45] Gördüyümüz kimi, qaynaqların əksəriyyəti osmanlıların mühasirədən dörd gün sonra Təbrizə daxil olduğunu və küçə döyüşlərinin daha bir neçə gün davam etdiyini təsdiq edir.

Təbriz uğrunda döyüşlərdə Osmanlı ordusu böyük itkilər verdi. A.İrəvanlı yazır ki, Təbrizi tutandan sonra Abdulla paşa öz qoşunlarına baxış təşkil etdi və gördü ki, 158 min döyüşçüdən yalnız 42 min qalmışdır.[46] Lakin bu rəqəmlər bizə dəqiq görünmür. Birincisi, 158 min rəqəminin hansı rəsmi mənbədən götürüldüyü məlum deyil; ikincisi, nəzərə almaq lazımdır ki, Osmanlı qoşunlarının yarısını adətən köməkçi dəstələr, yəni hərbi mühəndis birlikləri, azuqənin daşınması, səngərlərin qazılması, çörək bişirilməsi və buna oxşar işlə məşğul olan adamlardan ibarət dəstələr təşkil edirdi. Onlar döyüşlərdə iştirak etmirdilər və demək, sağ qalmalı idilər. Yəqin ki, onlar baxışda da nəzərə alınmırdılar. Belə çıxır ki, bilavasitə döyüşdə iştirak edən Osmanlı döyüşçülərinin sayı təxminən 70-80 min nəfər imiş. Əgər onlardan 42 min adam sağ qalmışsa, demək 30-40 minə yaxın adam həlak olmuşdur. Osmanlı hökumətinin özünün verdiyi məlumata görə onlar Təbriz uğrunda döyüşlərdə 30 min adam itirmişlər.[47] Şəhər müdafiəçilərinin itkiləri daha çox idi və mənbələrin məlumatına görə, onların sayı yaralananlar da daxil olmaqla 70 min nəfərə çatırdı. P.Q.Butkov yazır ki, Təbrizin müdafiəçiləri döyüşlərin gedişində 40 min adam itirdilər.[48] Görünür, o, yalnız öldürülənləri nəzərə alır.

Təbrizin alınması İstanbulda bayram edildi. Hərbi xidmətlərinə görə mükafat olaraq Abdulla paşaya Rakkanın canişinliyi tapşırıldı, oğlu Əbdürrəhmana isə üç buncuğlu paşa rütbəsi verildi.[49]

Osmanlıların Təbrizi tutması ingilis hökumətini də sevindirmişdi. İngiltərə kralı hətta rusları Xəzər dənizinə iddialarından imtina etməyə məcbur etmək məqsədilə Osmanlı ordusunun yürüş planını tərtib etmişdi.[50] İngiltərənin bəzi dövlət xadimləri belə hesab edirdilər ki, osmanlılar mümkün qədər tez Şirvana yürüşə başlamalıdırlar, bu təqdirdə onlar Rusiyanı nəinki onun yeni ələ keçirdiyi Xəzəryanı əyalətlərdən sıxışdırıb çıxara, hətta Həştərxanı da tuta bilərlər. Onlar deyirdilər ki, osmanlılar üçün bundan əlverişli imkan daha heç vaxt ələ düşməyəcək, Rusiyada hakimiyyət qadının əlindədir, rus dövləti zəifləmiş və heç vaxt olmadığı kimi sarsılmışdır. Stenyana tapşırıldı ki, rusları Xəzəryanı əyalətlərdən sıxışdırıb çıxarmaq üçün ən müvafiq məqam olduğuna Osmanlı hökumətini inandırsın, çünki Rusiya Holştin məsələsinə ciddi cəlb olunmuşdur və onun xatirinə, çox ehtimal ki, Xəzəryanı regionda işğal olunmuş əraziləri qurban verər.[51]

Təbrizin ələ keçirilməsi ilə eyni zamanda Arifi Əhməd paşanın ordusu tərəfindən Luristan əyaləti də işğal olundu.[52] 1725-ci ildə Osmanlı ordusunun hücumlarının digər daha mühüm strateji obyekti Gəncə şəhəri idi. Sultan hökuməti Gəncənin ələ keçirilməsi üçün Trabzonlu Sarı Mustafa paşanın komandanlığı altında 20 min döyüşçüdən və o sayda da köməkçi qoşunlardan ibarət yeni bir ordu hazırlayıb təchiz etdi. «Həmin ölkələrin bilicisi» hesab olunan Dərviş Mehmet ağa da Mustafa paşanın yanında idi.[53] Sarı Mustafa paşanın ordusu Krım xanının oğlu və qardaşının Gəncəyə yaxınlaşan qoşunları ilə möhkəmləndirilmişdi.[54] Gəncəlilər öz vəziyyətlərinin çətinliyini başa düşərək, Xəzəryanı regionda olan rus komandanlığına və rus hökumətinə hərbi kömək üçün müraciət etmişdilər.[55]

Əvvəlki fəsildə qeyd olunduğu kimi, Cənubi Qafqazın mərkəzi rayonlarında möhkəmlənmək rus hökumətinin təxirəsalınmaz yox, yalnız perspektiv vəzifəsini təşkil edirdi, ona görə o, Osmanlı imperiyası ilə müharibə etməyə hazırlaşmırdı, həm də gəncəlilərə kömək yenicə bağlanmış Rusiya-Osmanlı müqaviləsini pozmaq demək olardı. Rus hökuməti şifahi vədlərlə Cənubi Qafqaz xalqlarını osmanlılara qarşı mübarizəyə həvəsləndirirdi, bununla Osmanlı imperiyasının Cənubi Qafqazda, xüsusilə də Xəzər dənizi istiqamətində hərəkətlərini ləngitməyə çalışırdı. Məhz bu məqsədlə rus hökuməti öz casusu - XVIII əsrin əvvəllərində Rusiyaya köçmüş və rus xidmətinə daxil olmuş erməni İvan Karapeti[56] Qarabağa göndərmişdi.

Qeyd etmək lazımdır ki, Qarabağda, onun dağlıq hissəsində yığcam şəkildə müəyyən qədər erməni-qriqorian etiqadlı xristian əhali yaşayırdı. Səfəvi dövlətinin dağılmasından istifadə edərək, bu əhali məliklərin və digər feodal hakimlərinin rəhbərliyi altında çətin keçilən dağ bölgələrində «sıqnax» - yəni sığınacaq (azər. sözü «sığnaq»dan) adı altında məlum olan istehkamlar qurur və Qarabağ bəylərbəyinə tabe olmurdu.[57] Osmanlı qoşunlarının yaxınlaşması haqqında xəbər məlikləri bəylərbəyi və digər Gəncə feodallarına qüvvələri birləşdirmək təklifi ilə müraciət etməyə məcbur etdi. Eyni zamanda onlar «türk və ləzgi (dağlı – T.M.) hücumları zamanı Gəncə hakiminin ixtiyarında olmaq və kömək etmək» haqqında öhdəlik götürdülər.[58] İ.Karapet gəncəliləri rus himayəsini qəbul etməyə təşviq edirdi. 1724-cü ilin yazında Gəncə şəhərinin bir neçə azərbaycanlı feodalı və Qarabağ erməni nümayəndələri məktublarla I Pyotra Osmanlı qoşunlarına qarşı mübarizə üçün hərbi yardım haqqında xahişlə müraciət etdilər.[59]

Gəncəlilərin qüvvələri osmanlıların 1723-cü ildə birinci hücumu nəticəsində xeyli zəifləmişdi və indi 1725-ci ildə onlar şəhərin təsirli müdafiəsini təşkil etməyə müvəffəq ola bilmədilər. 1725-ci il sentyabrın 6-da osmanlı Sarı Mustafa paşanın qoşunları Krım tatarları ilə birlikdə ikiaylıq mühasirədən sonra Gəncəni ələ keçirdilər.[60]

1725-ci ilin sonunda osmanlılar 1724-cü il İstanbul müqaviləsinə əsasən İrana qalmalı olan Ərdəbili də tutdular.[61] Artıq Təbriz hakimi olmuş Abdulla paşa 1726-cı ilin əvvəlində general Levaşova məktubunda yazırdı ki, Ərdəbili onlar II Təhmasibin özünü osmanlıların düşməni kimi aparmasına cavab olaraq ələ keçirmişlər.[62]

1725-ci ilin sonu - 1726-cı ilin əvvəllərində Kür çayından cənubdakı rus qoşunlarının komandanı general Levaşov Abdulla paşadan imzalanmış müqaviləyə əməl etməyi və Ərdəbili boşaltmağı tələb etmişdi. Lakin Abdulla paşa bu tələbə məhəl qoymadı.[63] İstanbul müqaviləsinə görə rus zonasına daxil edilmiş Astara və Kərgərud mahallarını da 1726-cı ildə ələ keçirtdi. Bu, rus tərəfinin kəskin etirazına səbəb oldu.[64]

Ərdəbil hakimi Əli paşa Astara və Kərgərudun tutulmasını əsaslandıraraq yazırdı: bu mahallar üç tərəfin heç birinə tabe olmurdu və osmanlıların tutduqları ərazilərdən çoxlu sakinlər qaçıb orada toplaşaraq, osmanlı qoşunlarına həmlələr edirdilər, xatırlanan yerlər buna son qoymaq üçün tutulmuşdu.[65]

General Levaşovun kansler Qolovkinə verdiyi məlumata görə, Astara əyalətinə osmanlılar sakinlərin bir hissəsi tərəfindən dəvət olunmuşdur, onlar müqaviləyə görə Astaranın Rusiyaya keçəcəyini eşidib, dindaş Osmanlı imperiyasını xristian Rusiyadan üstün tutmuşdular.[66]

Beləliklə, 1723-1725-ci illərdə Osmanlı imperiyası eni təqribən 20, uzunu 30-50 coğrafi mil olan, şimali Luristanın dağ silsiləsindən İrəvana, Gəncə və Muğan düzünə qədər ərazini işğal etdi.[67] Bəzi hesablamalara görə, osmanlılar keçmiş Səfəvi mülklərindən 300 min kv. km-ə yaxın bir ərazini tutmuşdular.[68]

İstanbula gəlmiş rus qasidi Senyukovun aldığı məlumata görə, Səfəvilərin Cənubi Qafqaz və Qərbi İran mülklərini işğal etmək üçün Sultan 22 min kisə (660000 rus manatı məbləğində) pul ayırmışdı.[69]

## *2. İstanbul müqaviləsi bağlandıqdan sonra Cənubi Qafqazda Rusiya-Osmanlı münasibətləri*

İstanbul müqaviləsi Cənubi Qafqazda Rusiya-Osmanlı zidiyyətlərini tamamilə aradan qaldırmadı, yalnız bir qədər yumşaltdı. Rusiya Osmanlı dövlətinin Cənubi Qafqazda və İranda irəliləməsinə açıq-açığına mane ola bilməyib, dolayı vasitələrdən istifadə etməyə çalışırdı.

Rusiya regionda öz mövqelərini möhkəmləndirmək üçün bölgədə sərhədlərin İstanbul müqaviləsinə uyğun olaraq müəyyənləşdirilməsini tezləşdirməyə çalışırdı. Məsələ burasındadır ki, rusların 1722-23-cü illərdəki hərbi əməliyyatları nəticəsində yalnız sahilyanı zonadakı Dərbənd, Bakı və Rəşt şəhərləri zəbt olunmuşdu. Dərbənd ilə Bakı arasındakı torpaqları, habelə Kür çayından Rəştə kimi olan dənizsahili ərazini Osmanlı imperiyası ilə münasibətlərdə problem yaranmaması üçün yalnız sərhədlər müəyyənləşdirildikdən sonra işğal etmək nəzərdə tutulurdu. I Pyotrun 28 avqust (8 sentyabr) 1724-cü il tarixli əmrinə görə, Cənubi Qafqazda sərhədləşdirmə üçün rus tərəfindən Rumyansev komissar, polkovnik fon Lukey və artilleriya mayoru İ.Herber onun köməkçiləri təyin olundular. Rumyansevə Bakıdan Gürcüstana qədər yolu öyrənmək və kəşfiyyat aparmaq da tapşırılmışdı. O, qoşunun bu məsafəni neçə günə keçə biləcəyini; burada nə qədər yem əldə etmək mümkün olacağını; Kür çayı ilə, heç olmasa kiçik gəmilərdə Gürcüstana üzmək imkanının olub-olmadığını; ermənilərin Gürcüstandan hansı məsafədə aralı yaşadığını öyrənməli idi.[1] Osmanlı imperiyası ilə müqavilə bağlanmasına baxmayaraq, Rusiyanın bu marağı I Pyotrun Gürcüstana və müəyyən erməni milli azlığının yaşadığı İrəvan bəylərbəyiliyi və Qarabağa ekspansiyadan heç də imtina etmədiyini göstərirdi.

Rumyansev 1725-ci ilin lap əvvəlində İstanbula gəldi, rus rezidenti İ.Neplyuyevlə birlikdə baş vəzirin qəbulunda oldu, orada öz missiyasının məqsədləri haqqında məlumat verdi. Vəzir qış vaxtı belə bir çətin yola çıxmağın, hələ Gəncə tutulmadığından oradan Şirvana getməyin mümkünsüz olduğuna isğtinad edərək səfəri ləngitməyi məsləhət gördü. Səfəri yazacan təxirə salmaq təklif olundu.[2]

1725-ci il yanvarın 16-də Rumyansev ilə Neplyuyev Sultanın qəbulunda oldular. Rumyansev çar fərmanını və İstanbul müqaviləsinin çar tərəfindən təsdiq olunmuş mətnini Sultana təqdim etdi.[3] Yanvarın 30-da isə rus elçisinə müqavilənin Sultan tərəfindən təsdiq olunmuş nüsxəsi təqdim edildi. Osmanlı imperiyası tərəfindən Dərviş Mehmet ağa sərhədləşdirmə üzrə komissar təyin olundu.[4]

Ancaq Osmanlı hökuməti öz nümayəndəsini Xəzəryanı regiona göndərməyə tələsmirdi. Rus əsgər və zabitlərinin Salyanda öldürülməsi və rusların bu əyaləti müvəqqəti tərk etmələri, həmçininn 1725-ci ilin əvvəlində I Pyotrun ölməsi Osmanlı hökumətində Rusiyanın zəifləyəcəyinə ümid yaratmışdı. Hətta şayiə gəzirdi ki, guya rusları artıq Gilandan qovmuşlar. Ona görə də Osmanlı sarayında düşünürdülər ki, sərhədləri müəyyənləşdirməyin mənası yoxdur, rus qoşunları gedəndən sonra osmanlılar özləri Xəzəryanı əyalətləri tuta bilərlər.[5]

I Pyotrun ölümündən sonra mərkəzi hakimiyyətin nəzərə çarpacaq dərəcədə zəiflədiyi şəraitdə Rusiyada ali hakimiyyət üstündə daxili mübarizə başlandı. Y.Şulmanın düzgün qeyd etdiyi kimi «XVIII əsrin ikinci rübündə Rusiyanın xarici siyasəti (adətən «alman komandası» adlanan komandanın hökmranlığı ucbatından) nə məqsəd aydınlığı ilə, nə də ardıcıllığı ilə fərqlənmirdi».[6]

1725-ci ilin sonu - 1726-cı ilin birinci yarısında Rusiya xarici siyasətinin cənub-şərq yönləri ikinci plana çəkildi; İ Yekaterina hökumətinin «Holştin və Kurlandiya işlərinə» şişirdilmiş marağı Rusiyanı Xəzər və Qara dəniz hövzələrində ciddi problemlərdən yayındırır, onun diqqətini Baltikə yönəldirdi. Yalnız Şlezviq məsələsində Holştin hersoquna yardım cəhdində iflasdan sonra, həmçininn davam edən Osmanlı-Səfəvi müharibəsinə görə şərq yönümü 1726-cı ilin ikinci yarısından Rusiya xarici siyasətində yenidən mühüm yer tutmağa başladı.

Şərq problemi Rusiyanın Yaxın Şərqdə Avropa ölkələri ilə münasibətlərinə böyük təsir göstərərək, mühüm beynəlxalq əhəmiyyətə də malik idi. Şərqlə ticarətdə və Xəzəryanı ölkələrin zəngin bazarlarında marağı olan İngiltərə, əvvəllər olduğu kimi, Rusiyanın bu bölgədə irəliləməsinə mane olmağa çalışırdı.

XVIII əsrin 20-ci illərinin ortalarından Rusiyaya münasibətində fransız hökuməti də barışmaz düşmən mövqeyi tutmağa başladı ki, bu da Rusiya və Fransanın Avropada bir-birinə qarşı duran qruplaşmalarda iştirakları ilə bağlı idi.

Məlum olduğu kimi, 1725-ci il yanvarın 30-da Avstriya ilə İspaniya arasında İngiltərə, Hollandiya və Fransaya qarşı Vyana ittifaq müqaviləsi bağlanmışdı. Buna cavab olaraq, 1725-ci il sentyabrın 9-da İngiltərə, Fransa və Prussiya arasında Avstriya və İspaniyaya qarşı Hannover müqaviləsi bağlandı.[7] Sonuncu ittifaqın üç üzvündən ikisi Rusiyanın barışmaz rəqibləri olduğu üçün, o, müəyyən dərəcədə Rusiyaya qarşı da yönəlmişdi. Bu cəhət Avstriya ilə Rusiyanı yaxınlaşdırdı. Onların Osmanlı

imperiyasına qarşı münasibətdə mənafe ümumiliyi var idi. Özü də Avstriya Şlezviqin Holştin hersoqu Karl-Fridrixə (I Pyotr və Yekaterinanın qızının əri) qaytarılmasına yardım göstərilməsinə etiraz etmirdi.[8] İngiltərə və Osmanlı imperiyası hər cür vasitələrlə Rusiya və Avstriyanın yaxınlaşmasına mane olmaq istəyirdilər. Stenyanın təhriki ilə Osmanlı hökuməti İstanbuldakı rus nümayəndəsi Neplyuyevdən və bu vaxt orada olan general Rumyansevdən Rusiyanın Avstriya ilə ittifaqa daxil olmayacağına dair təminat istədi. Bununla əlaqədar 1725-ci il 16 (27) aprel tarixli buyruğunda rus hökuməti Rumyansev və Neplyuyevə tapşırdı ki, osmanlılara Rusiya ilə Avstriya arasında əzəldən dostluq olduğunu, Avstriya imperatorunun İ Yekaterinanın taxta çıxması münasibəti ilə təbriklə elçi göndərdiyini bildirsinlər. Bununla yanaşı Rumyansev və Neplyuyev də Osmanlı sarayının nəzərinə çatdırmalı idilər ki, Osmanlı imperiyasının İranda və Cənubi Qafqazda hərəkətləri Rusiyanı narahat edir. Rus dövləti Avstriya və digər bir dövlətlə ittifaqa girməməyə bir şərtlə söz verir ki, Osmanlı imperiyası bundan sonra İranda və Cənubi Qafqazda «əks» hərəkətlər etməməyi öhdəsinə götürsün.[9]

I Pyotrun ölümündən sonra Xəzəryanı əyalətlər haqqında məsələdə Rusiyanın siyasətini Osterman planı müəyyən etməyə başladı. Bu planın mahiyyəti artıq əldə edilmiş torpaqlarda möhkəmlənməklə eyni vaxtda ehtiyatlı taktikanın həyata keçirilməsi və hərbi əməliyyatların daim məhdudlaşdırılmasından ibarət idi. Osterman real şəraiti, o cümlədən rus qoşunlarının Xəzəryanı bölgədə ağır vəziyyətini nəzərə alaraq, İranla münasibətlərin tezliklə tənzimlənməsini və onun Xəzəryanı əyalətlərinin Rusiyaya birləşdirilməsini qəbul etməsinə nail olmağı məsləhət görürdü. Şah II Təhmasibin müqaviməti təqdirində, o, 1724-cü il Rusiya-Osmanlı müqaviləsinin müvafiq bəndinə əsasən, Osmanlı imperiyası ilə birlikdə Səfəvi taxt-tacına yeni şah çıxartmağı təklif edirdi.[10]

1725-ci ilin yazında general Matyuşkinə bir müddətə digər «İran əyalətlərinin» işğalını təxirə salmaq, artıq tutulmuş əyalətlərdə isə möhkəmlənmək əmri verilmişdi.[11]

Rusiyanın mövqeyinin möhkəmlənməsi üçün Xəzəryanı bölgələrə 1725-ci ildə 4 piyada alayı, 3 draqun alayı daxil olmaqla 10 min yeni toplanmış əsgərdən ibarət kömək gətirildi. Bundan başqa, Həştərxandan Dərbənd və Bakıya silah və hərbi sursatla 54 gəmi göndərildi.[12]

Bu zaman İranın özündə vəziyyət əvvəlkitək mürəkkəb və qeyri-müəyyən idi. Mazandarana sığınan II Təhmasiblə əfqanlar arasında mübarizə davam edirdi, əfqanların başçısı Əşrəf əmisi oğlu Mir Mahmudu öldürüb 1725-ci ildə İsfahanda özünü şah elan etmişdi.

İstanbul müqaviləsinin pozulmasına əsas verməmək üçün Xəzəryanı regionda Osmanlı imperiyasına qarşı açıq çıxış etməyə cürət göstərməyən rus hökuməti eyni zamanda onun regionda möhkəmlənməsinə əlaltından hər vasitə ilə mane olmağa çalışırdı. Kansler İ.Qolovkin erməniləri köməyə çağırmağı və bu məqsədlə keçmiş gürcü çarı Vaxtanqı Xəzəryanı regiona göndərməyi təklif etdi. Rus qoşunlarının Xəzəryanı regionda mövqeyini möhkəmləndirmək üçün təcili olaraq ora əlavə qüvvələr göndərmək də təklif olundu. Qoşunlar əvvəlcə Kür çayının mənsəbinə daxil olmalı və orada əlverişli yerdə gürcü və ermənilərlə su yolu ilə əlaqəni təşkil etmək məqsədilə qala tikməli idilər.[13]

İmperatriçanın əmri ilə Vaxtanq və Xəzəryanı regiondakı rus qoşunlarının komandanı təyin olunmuş general V. V. Dolqoruki də Gilana yola düşdülər.[14]

Tapşırığa görə, əgər osmanlılar hərbi əməliyyatlara başlasa idilər, Dolqoruki Vaxtanqın köməyi ilə təkcə gürcüləri və erməniləri deyil, hətta müsəlmanları da onlara qarşı mübarizəyə cəlb etməyə çalışmalı idi.[15]

Xəzəryanı bölgədə Rusiya-Osmanlı ziddiyyətlərinin kəskinləşməsi, həmçininn İngiltərənin düşmənçiliyi Rusiyanın 1725-ci ildə Vyanada bağlanmış Avstriya-İspaniya ittifaqına qoşulmasını sürətləndirdi. 26 iyun (6 avqust) 1726-cı il tarixdə bağlanmış Avstriya-Rusiya müqaviləsinin gizli bəndinin şərtinə görə, Avstriya və Rusiya Osmanlı imperiyasının onlardan birinə hücum edəcəyi təqdirdə Avropa ərazilərində 30 min nəfərlik qüvvə ilə bir-birinə kömək göstərməyi və ya Osmanlı imperiyasına müharibə elan etməyi öhdələrinə götürdülər.[16] Vyana ittifaqına daxil olan Rusiya hökuməti bununla Osmanlı imperiyasını qorxudacağını güman edirdi.[17] Lakin Avstriya ilə yaxınlaşmaqla Rusiya müstəqil xarici siyasət kursundan uzaqlaşdı və «qüvvələrin tarazlığı» adlanan siyasətin orbitinə düşdü. Nəticədə, Rusiyanın Osmanlı ilə münasibətləri kəskin surətdə gərginləşdi, eyni zamanda Fransa ilə münasibətləri də pisləşdi. Çünki Fransa hökuməti Rusiyanın onun çoxdankı rəqibi - Avstriya ilə yaxınlaşmasına mənfi münasibət bəsləyirdi. Bunun nəticəsi olaraq, yaxınlara kimi Rusiya ilə Osmalı imperiyası arasında münsif rolunda çıxış edən Fransa öz xarici siyasət kursunu 180 dərəcə dəyişərək, Rusiyaya açıqca düşmən mövqe tutdu.

Bu ərəfədə özünü İran şahı elan edən əfqanların başçısı Əşrəf Osmanlı qoşunlarının keçmiş Səfəvi dövlətinin ərazisindən çıxarılması tələbi ilə öz nümayəndəsini - Əbdüləziz xanı İstanbula göndərdi. Osmanlı hökuməti, təbiidir ki, Əşrəfin bu təklifini rədd etdi.[18]

1726-cı il fevralın 12-də keçirilən divandan sonra vəzir Rusiya nümayəndələrinə iki sərkərdənin komandanlığı ilə qüvvə göndərilməsi barədə qərar qəbul edildiyini bildirdi.[19] Osmanlı hökuməti hətta II Təhmasibi öz tərəfinə cəlb etməyə cəhd etdi və bu məqsədlə şah ilə danışıqlar üçün ruznaməçi Mustafa əfəndi Təbrizə göndərildi.[20]

Əşrəf də öz növbəsində, osmanlıları keçmiş Səfəvi ərazilərindən zorla sıxışdırıb çıxarmaq qərarına gəldi. Təbrizdə osmanlı qoşunları arasında xəstəlik epidemiyasının yayılmasından xəbər tutub, o, bu istiqamətdə hücumu genişləndirdi. Yolüstü əfqanlar Həmədan şəhərini tutmaq istədilər, lakin müvəffəqiyyətsizliyə uğradılar. Buna görə Təbrizə getməyə cürət etməyərək, geri çəkildilər və Falxanda dayandılar.[21]

Osmanlı komandanlığı rəqibin uğursuzluğundan istifadə etməyi və yeni ərazilər fəth etməyi qərara aldı. Həkimoğlu Əli paşa keçmiş Marağa hakimi, əfqanlar tərəfindən Qaplankuhdan Marağaya qədər torpaqların hakimi təyin olunan Şahqulu xana qarşı çıxdı.[22] Həmin anda Osmanlı ordusunun 70-80 min nəfərdən ibarət əsas qüvvələri Əhməd paşanın komandanlığı ilə Əşrəfin özünə qarşı yürüşə başladı. Həmədandan 20 saatlıq məsafədə döyüş baş verdi, nəticədə osmanlılar 12 minə yaxın adam itirərək məğlubiyyətə uğradılar.[23] Türkiyə tarixçiləri özləri Əhməd paşanın qoşunlarının Əşrəfin ordusu tərəfindən böyük məğlubiyyətə uğradıldığını qeyd edirlər.[24] Müvəffəqiyyətdən ruhlanan Əşrəf bir dəstəni Ordubadı ələ keçirtmək üçün göndərdi, ancaq Təbriz sərəsgəri Həkimoğlu Əli paşa bu hücumu dəf etməyə nail oldu.[25]

Osmanlı hökuməti Əşrəfə qarşı yürüş üçün tələsik yeni qüvvələr toplayırdı və Rusiyaya birlikdə çıxış etməyi təklif etdi.[26] Ancaq iş əfqan-Osmanlı müharibəsinə çatmadı. Osmanlı hökuməti son nəticədə Əşrəflə sülh danışıqlarına getdi. Rusiya-Avstriya yaxınlaşması ilə əlaqədar, beynəlxalq şəraitdə baş verən dəyişikliklər də onu bu addıma təhrik edirdi. 1726-cı ildə bağlanmış Avstriya-Rusiya ittifaqı Osmanlı imperiyasını Cənubi Qafqaz və İranda daha ehtiyatlı hərəkət etməyə məcbur etdi. Digər tərəfdən, bu vaxtdan başlayaraq, Fransa hökuməti özünün İstanbuldakı nümayəndəsi Andrezola Rusiya-Osmanlı-İran münasibətlərində Rusiyaya hər hansı yardım göstərilməsini dayandırmağı əmr etmişdi. [27]

Əşrəfin nümayəndəsi İsmayıl və Əhməd paşa arasında sülh danışıqları 1727-ci il 22 sentyabrda (3 oktyabr) Həmədanda 12 bənddən ibarət müqavilənin imzalanması ilə qurtardı.[28] Bu müqaviləyə görə, Osmanlı imperiyası Sultaniyyə, Əhər, Zəncan şəhərlərini əfqanlara güzəştə getməyə və onların əlindən aldığı torpaqları qaytarmağa borclu idi.[29] Eyni zamanda, Əşrəf Səfəvi dövlətinə daxil olan Cənubi Qafqaz əraziləri (Xəzəryanı zolaq istisna olmaqla) üzərində, həmçininn Təbriz, Həmədan və Kirmanşah üzərində Osmanlı imperiyasının hakimiyyətini tanıyırdı.[31]

Rusiyanın inadlı tələbləri nəticəsində Osmanlı hökuməti Xəzəryanı əyalətlərdə sərhədlərin müəyyən edilməsinə məcbur oldu. Osmanlı sarayı Fransa vasitəçilikdən imtina etdiyi üçün sərhədlərin vasitəçi olmadan çəkilməsinə razılıq verdi.[31]

1726-cı il avqustun 15-də komissarlar qrupuna başçılıq edən A.Rumyansev Şamaxıya gəldi, ancaq burada Hacı Davudun qohumları və tərəfdarları komissiyaya vəzifəsini yerinə yetirilməkdə maneçilik törətməyə başladılar, çünki sərhədləşmə həyata keçirilsəydi Hacı Davudun qohumlarının torpaqları Rusiyaya keçməli idi.[32] Buna baxmayaraq, Rumyansevin səyləri nəticəsində sentyabrın əvvəllərində sərhədlərin çəkilməsinə başlandı. Şamaxıdan dənizə qədər olan məsafə üç hissəyə bölündü və dənizdən başlayan məsafənin üçdə iki hissəsinin sonunda (atla 7 saat 30 dəqiqəlik məsafə) əsas işarə qoyuldu.[33]

Qeyd etmək lazımdır ki, Hacı Davud hələ uzun müddət sərhədlərin çəkilməsinə müqavimət göstərdi. O, hətta Rusiyaya keçən torpaqlardakı sakinləri öz hakimiyyəti altında qalan torpaqlara güclə köçürürdü.[34]

Bu müddətdə komissarlar dənizlə Şamaxı arasında işarələr qoyaraq, həmin işarədən Dərbəndə və oradan dağlara hərəkət etdilər. Tabasarandan Maysumun torpaqlarından keçdilər və Surxay xanın torpaqlarına girməyə hazırlaşdılar. Lakin sonuncu öz torpaqlarının sərhədində hərbi dəstələr toplayaraq, komissiyaya öz işini davam etdirməkdə mane oldu.[35] Komissarların Dərbənddən usminin torpaqları ilə keçmək cəhdləri də usminin düşmən hərəkətləri ilə qarşılaşdı.[36]

Komissarlar Şamaxıya qayıtdılar. Osmanlı nümayəndəsi Nabur kəndindən Samura qədər düz xətt aparmağı, Samurdan şimala isə yalnız Dərbəndi rus zonasına daxil etməyi təklif etdi. Rumyansev sərhədçəkmə işinin dayandırılmaması üçün, gələcəkdə Surxayı sazişə razı salmağa ümid edərək, bu təklifi qəbul etdi.[37]

Lakin Osmanlı komissarları tezliklə anladılar ki, «Davud bəyin torpaqlarının ən yaxşı yerləri, xüsusilə də Davudun Təngə dağının qarşısında tikdirdiyi Təngə şəhərciyi Rusiya tərəfə çatacaq» və buna mane olmağa çalışdılar. Rusiya tərəfi Təngənin rus zonasına daxil edilməsində israrlı oldu. Onda Hacı Davud onun oğlunun qoşun topladığı və Təngəni müdafiə edəcəyi haqqında şaiyə yaydı. Osmanlı komissarı Dərviş Mehmet ağa sərhədçəkməni dayandırdı və Gəncə paşasına Təngəni Hacı Davud üçün saxlamaq xahişi ilə məktub göndərdi.[38]

Rus komissarlarının sərhədçəkməni başa çatdırmağı tələb etməsinə baxmayaraq, Gəncənin mühafizi Sarı Mustafa paşa Dərviş Mehmet ağaya məktub göndərərək, qışın girməsi ilə əlaqədar işləri hələlik dayandırmağı təklif etdi. Rus komissarları qışlamaq üçün Dərbəndə, Dərviş Mehmet ağa isə Şamaxıya getdi.[39]

Belə xəbərlər yayılmışdı ki, işlərin dayandırılmasına səbəb Hacı Davudun Osmanlı paşasından bu işi hələlik saxlayıb, Sultana məktub yazmağı xahiş etməsi olmuşdur. Məktubda o, Sultandan xahiş edirdi ki, sərhədlər müqavilədə təyin olunduğu kimi yox, yeni saziş əsasında müəyyən olunsun. Deyilənə görə, Hacı Davud guya paşaya 12 min tümən, yəni 120000 rubl vermiş və özü də deyibmiş ki, əgər sərhədlər müqavilədə göstərildiyi kimi müəyyənləşdirilsə, o, Şamaxıdan çıxıb gedəcək, çünki nəinki adamlarını saxlamaq, hətta özü üçün yaşamağa heç nə tapılmayacaq.[40]

1726-cı ilin sonu - 1727-ci ilin əvvəlində Quba xanlığının ərazisi Rusiyaya ilhaq olundu. Rus rəsmi mənbələrində deyilirdi ki, 31 oktyabr 1726-cı ildə Dərbəndə gələn Hüseynəli bəy (1720-ci ildə öldürülmüş qubalı Sultan Əhməd xanın[41] oğlu) rus himayəsini qəbul etmiş və Rus dövlətinə sədaqət andı içmişdir. Onunla bir vaxtda Qubanın və ətraf kəndlərin kəndxudaları da sədaqət andı içdilər.[42]

1727-cı ilin yanvarında ruslar Astaranı[43], bir qədər sonra Lənkəranı da da ilhaq etdilər.[44] 1724-cü il müqaviləsinə görə, Azərbaycanın Kür çayından cənubda rus işğal zonasına daxil olmuş Xəzəryanı əyalətlərinin hakimlərinin əksəriyyəti rus ordusunun üstün qüvvələrinə müqavimətin qeyri-mümkünlüyünü başa düşürdülər. Bu səbəbdən, öz hakimiyyətini saxlamaq üçün Ucarud, Salyan, Qızılağac mahallarının və Muğan, Şahsevən, Mazarıq düzlərinin hakimləri Dolqorukinin yanına gəldilər və rus təbəəliyini qəbul etməyə razı olduqlarını elan etdilər. Muğanlı Ramazan Sultan və onun naibi Əliqulu bəy, salyanlı naib Əli bəy, eyni zamanda ətraf kəndlərin kəndxudaları və digər nümayəndələri Rusiya dövlətinə sədaqət andı içdilər. 1727-ci il martın 29-da qızılağaclı Becan Sultan və onun kəndxudaları V.Dolqorukinin qərərgahına gəldilər və həmin rəsmiyyəti təkrarladılar.[45]

### *3. Azərbaycan torpaqlarında Osmanlı idarəçiliyi*

Osmanlı imperiyası Azərbaycan torpaqlarında özünün hərbi-inzibati, məhkəmə və maliyyə idarəçiliyi sistemini tətbiq etdi. Bu sahələrə müvafiq olaraq bəylərbəyi, qazi və dəftərdar başçılıq edirdi. Amma vəzifələrin bu cür bölünməsinə heç də həmişə ciddi əməl olunmurdu. Məsələn, hərbi rəislər məhkəmə və maliyyə işlərinə qarışa bilərdilər.

Osmanlılar, əsasən Səfəvi zamanı mövcud olan inzibati bölgünü yalnız cüzi dəyişikliklər əlavə edərək saxladılar. Azərbaycan torpaqları hərbi-inzibati vahidlərə - vilayətlərə, əyalətlərə və ya sancaqlara bölünürdü.[1] Əyalətlər və onların sərhədləri müəyyən dərəcədə keçmiş bəylərbəyliklərin sərhədlərinə uyğun idi, amma bəzi hallarda onların ərazisi bir qədər azaldılmışdı. Belə ki, Ucarud, Astara, Lahican, Qızılağac və Muğanın bir hissəsi kimi ölkə və mahallar Təbriz əyalətindən kənarda qaldı.[2] Buna səbəb yuxarıda sayılan yerlərin Rusiya tərəfindən işğal olunması idi.

Keçmiş Qarabağ (Gəncə) bəylərbəyiliyinin ərazisi ilə müqayisədə Gəncə əyalətinin ərazisi xeyli az oldu. Belə ki, Sultanın 1727-ci il tarixli Gəncə əyaləti qanunnaməsində göstərilirdi ki, Gəncə əyalətinin aran hissəsi osmanlılar tərəfindən Tiflis əyalətinə daxil edilmiş Qazax sancağının hüdudlarından başlayıb Kür çayı kənarı ilə şərqə doğru 35 saatlıq məsafədə uzanıb, Kürlə Arazın qovuşduğu yerə çatır, buradan Araz çayı boyunca qərbə doğru 30 saatlıq məsafədə uzanıb Bərguşad və Çavlundura dağlıq zonaya çatınca uzanır, buradan şimala Qazaxa kimi uzanan (təxminən 8-10 saatlıq məsafə boyunca) xətlərin içərisindəki ərazini əhatə edirdi. Qanunnamədə Gəncə əyalətinin aran hissəsinin əsasən firavan bir ölkə olduğu, əhalisinin əcəmlərdən (azərbaycanlı) ibarət olduğu, sakinlərin ipək, çəltik, pambıq, bostan bitkiləri və digər məhsullar yetişdirdikləri qeyd olunur.[3] Qanunnamədə Gəncə əyalətinin dağlıq hissəsinin sakinlərinin buğda, arpa, darı yetişdirdikləri, bu hissədə ipək və meyvə yetişdirilmədiyi göstərilir.[4]

Səfəvi dövründə aran ərazidə məhsuldan 1/4 hissə üşr və yerdə qalan məhsuldan 1/5 hissə bəhrə alınırdı. Bəhrə hər kəndə axan su arxının sahibinə verilən rüsum idi. Osmanlılar bu qaydanı saxlamışdılar. Dağlıq hissədə torpaq daha az məhsuldar olduğu üçün hələ Səfəvi dövründən burada üşr

məhsulun 1/10-ni, bəhrə isə üşr alındıqdan sonra qalan məhsulun 1/15-ni təşkil edirmiş. Osmanlılar bu qaydanı da dəyişməz saxlamışdılar.[5]

Qazax hələ 1723-cü ildə könüllü Osmanlı təbəəliyini qəbul etmişdi. Bu vaxta qədər, o, Qarabağ bəylərbəyiliyinin tərkibində olmuşdu. Sonuncunun torpaqlarının əksəriyyəti hələ Osmanlı imperiyasının tabeliyinə gətirilmədiyi üçün Qazax qonşu Tiflis vilayətinin tərkibinə daxil edildi. Qazax sancağının hakimi vəzifəsində hələ Səfəvi dövründən oranın hakimi olan Mirəli bəy saxlanıldı.[6]

Elə o səbəbdən Göyçə gölündən şimal-şərqdə yerləşən Lori və Pəmbək Gəncə vilayətindən kənarda qaldılar. Türkiyə tarixçisi İ.H.Danişmənd yazır ki, 1724-cü ildə İrəvanı tutandan sonra, Osmanlı sərəsgəri Gəncəyə tərəf hərəkət edərək, yolüstü Lori qəsəbəsini tutmuşdur.[7] İrəvan əyalətinin tərkibinə əvvəllər İrəvan (Çuxur səd) bəylərbəyliyinin tərkibinə daxil olan Naxçıvan və Ordubad daxil edmişdi.[8]

Vilayətlərin (sancaqların) ərazisi keçmiş «ölkə»nin, bəzi hallarda isə mahalların sərhədlərinə uyğun gəlirdi. Sancaqlar isə daha kiçik inzibati vahidlərə - adətən onlarla kəndlərdən ibarət olan nahiyələrə bölünürdü. Məsələn, 205 kəndin (onlardan 95-i təhlil olunan dövrdə boşalmışdı) yerləşdiyi Qazax sancağı ərazisində 4 nahiyə var idi - Astav, İncə, Türk və Cuvar.[9] Nahiyə, öz növbəsində, adətən bir neçə qəriyyəyə bölünürdü.

Əyalətlərdə ali hərbi-inzibati, həmçininn siyasi və maliyyə hakimiyyəti sərəsgərlərin (hərfiyyən «döyüşçülərin başçısı» deməkdir) və mühafizlərin əlində cəmləşirdi. Sərəsgəri Sultan ən çox fərqlənən sərkərdələrdən seçirdi. Daha kiçik idarəçilər - sancaq bəyi (sancaqları idarə edən), naib (nahiyyəni idarə edən) və kəndxudalar həm osmanlı, həm də yerli feodallardan, yerli kəndlilərdən təyin olunurdu.

Osmanlı hakimiyyət orqanları yerli tayfaların yuxarı təbəqəsini, həmçininn orta və bəzi yuxarı vəzifəli məmurları öz tərəfinə çəkməyə çalışaraq, yerlərdə hakimiyyəti yerli feodal əyanlarının əllərində saxlayırdılar. Məsələn, Marağa xanı bəylərbəyi dərəcəsində (rütbəsində) Marağa hakimi olan Firidun bəyin, Qazax sancağı «bəylik» kimi keçmiş hakim Mirəli bə-yin idarəçiliyində saxlanılmışdı.[10]

Kür çayından şimaldakı Azərbaycan torpaqları xüsusi statusa malik idilər. 1724-cü il İstanbul müqaviləsinə görə, osmanlılara bu ərazilərdə hərbi qüvvə və komendant saxlamaq qadağan idi. Bu ərazilər vassal hakimlər tərəfindən idarə olunurdu. Şəki mahalının hakimi ona paşa titulu verilməklə Əli Sultan təsdiq olunmuşdu. O, 1607-ci ildə, Azərbaycan müvəqqəti Osmanlı imperiyasının tərkibində olanda İlisu Sultanı təyin olunmuş, 1616-cı ildə bu vəzifədə artıq Şah Abbas tərəfindən təsdiq edilmiş Sarı Əli bəyin nəvəsi idi.[11]

Sultan III Əhmədin 1723-cü ilin avqustunda verdiyi fərmanla Zahur sancağı ilə birlikdə Şəki vilayətinin bəylərbəyisi təyin olunan Əli Sultan, həmin fərmanın tələbinə görə, Şirvan hakimi Hacı Davudla «həmişə hər iki ölkə əhalisi arasında şəriət qərarlarının möhkəmləndirilməsi üçün» birgə hərəkət etməli idi.[12]

Osmanlı Sultanları dəyişən zaman Azərbaycan vassal feodallarının, o cümlədən Şəki bəylərbəyiliyinin hüquqları yeni Sultan tərəfindən təsdiq olunurdu. Məsələn, 1730-cu ildə İstanbulda taxta çıxan İ Mahmud Əli Sultanın adına onun vəzifəsini təsdiq edən fərman vermiş və Həmzə paşa vasitəsi ilə ona «fəxri kürk» göndərilmişdi.[13] Hicri tarixi ilə 1142-ci ilə (1729-cu il) aid olan Sultan fərmanından görünür ki, osmanlılar Əli Sultanı «bəylərbəyi» titulu ilə adlandırırdılar.[14] O, zərurət olanda Osmanlı qoşunlarına kömək üçün 1500 nəfərlik dəstənin başında Gəncə paşasının yanına getməli idi.[15]

Bəzi daha kiçik feodal mülkləri də Osmanlı imperiyasından vassal asılılığında idi. Belələrindən biri də Ərəş idi ki, Sultan III Əhmədin hicri ilə 1138-ci il (m.1725) tarixli fərmanına görə Məhəmməd Əli Sultanzadəyə (bəzi məlumatlara görə, o, Əli Sultanın oğlu idi) verilirdi. Fərmanda onun Osmanlı imperiyası qarşısındakı xidmətləri vurğulanır və Ərəş torpaqlarının «hərbi əməliyyatlara ehtiyacı olan» Osmanlı paşasının tələbi üzrə 300 seçmə döyüşçü ilə paşanın yanına Gəncə, Şirvan və digər yerlərdə xidmət keçmək üçün gəlməsi şərti ilə verildiyi bildirilirdi.[16]

Daha bir vassal torpağı Qax idi. Osmanlı hökuməti Qaxı idarə etmək hüququnu usmi Məhəmmədin «Qax bəylərbəyi» adlandırılan kiçik oğluna vermişdi. 1723-cü ildə Əli Sultana verilən Zahur da müəyyən müddət onun tabeliyində qaldı.[17] 1731-ci ildə Qax torpaqları da Əli Sultanın idarəçiliyinə verildi.[18]

Keçmiş Şirvan bəylərbəyliyinin mərkəzi hissəsində Osmanlı imperiyasından yarıasılı Şirvan xanlığı mövcud idi. Onun hakimi, yuxarıda xatırlandığı kimi, 1722-ci ilin sonunda Hacı Davud təsdiq olunmuşdu. Ancaq Hacı Davuda öz hakimiyyətini bərqərar etmək üçün uzun müddət mübarizə aparmaq lazım gəlmişdir. Şirvanın idarə edilməsindən kənarlaşdırılan Qazıkumuklu Surxay xan Hacı Davudla münasibətləri kəsərək, onun hakimiyyətini tanımır və onunla hesabı çürütmək üçün əlverişli məqam gözləyirdi. Mənbələrdən Şirvanda gedən ara çəkişmələri aydın müşahidə olunur. Hələ 1722-ci ildə Hacı Davud Çoban Şamxal və Qaytaq usmisinin razılığı ilə Quba xanlığını özünə tabe etmək istəmişdi. Ancaq

onun bu niyyətini bilən və rəqibini qabaqlamağı qərara alan Surxay xan Quba xanlığına gəlmiş və ətraf kəndlərdən vergi yığmağa başlamışdı. Belə olduqda Qaytaq usmisi öz oğlu Xanmuradı Surxaya qarşı göndərmişdi. Baş verən toqquşmada tərəflər 200-ə yaxın adam itirmişdi, lakin usmi və Surxay xan sonra barışmışdılar.[19]

1724-cü ilin əvvəlində Hacı Davudun Şamaxıdan kənarda olmasından istifadə edən Qaytaq usmisinin oğlu şəhərdə hakimiyyəti ələ almış və müvəqqəti orada olan Osman paşa ilə birlikdə şəhəri idarə etməyə başlamışdı.[20] Tezliklə Qəbələdə olan Surxay xan da Şirvanın bir hissəsini idarə etməyə başlamışdı.[21]

Şirvanda hakimiyyət uğrunda mübarizə əhaliyə çoxlu bədbəxtlik gətirirdi. Qarşı duran tərəflərin hər biri təkcə öz rəqibinin tərəfdarlarına deyil, onlara müqavimət göstərən dinc əhaliyə də divan tuturdu. Təsadüfi deyil ki, kənd sakinlərinin çoxu qorxu içində öz daimi yaşayış yerlərini tərk edirdilər.[22] Siyasi çaxnaşmalar, daxili toqquşmalar xalq üçün əsl bəla idi. Müvəqqəti və təsadüfən hakimiyyətə gələn hər hansı bir adam öz xeyrinə vergi yığır, daha dəqiq desək, əhalini soyurdu. Dərbənd naibi İmamqulu xan bu münasibətlə yazırdı: «. . . elə ki torpaqlar sahibsiz qalır, kim istəyirsə öz arzusu ilə sahib durur və yazıq xalqı yeyirlər».[23] Beləliklə, hakim feodallar varlanırdılar. Bir mənbənin məlumatına görə, 1724-cü ildə Surxay Şamaxı, Muğan, Qarabağ və digər yerlərdən öz Dağıstan mülklərinə ipək və digər qiymətli mallardan başqa, 8 dəvə yükü pul və qızıl göndərmişdi.[24]

1725-ci il üçün Hacı Davuda Şirvanda öz hakimiyyətini müəyyən dərəcədə möhkəmləndirmək müəssər oldu. O, artıq rus qoşunlarının Azərbaycan hüdudlarından tamamilə sıxışdırılıb çıxarılması haqqında fikirləşməyə başladı və Gəncə paşasından hərbi kömək istədi. Bizim fikrimizcə, bu zaman o, Bakı və Dərbəndi tutmağı vəd edərək osmanlı qoşunlarının köməyi ilə həm də öz rəqiblərinə divan tutmaq məqsədi güdürdü. Paşa Hacı Davudun xahişini rədd edərək, Sultanın özünə müraciət etməyi məsləhət gördü. Hacı Davud Krım xanına da məktub yazaraq rusların Şirvana hücum edəcəkləri təqdirdə Krım xanının öz qoşunları ilə rus qoşunlarının arxasından gəlib Sulakda onları mühasirəyə almasını xahiş etdi.[25]

Bununla bərabər, Surxay xan Hacı Davuda qarşı öz fitnələrini dayandırmırdı. Surxay və onun müttəfiqləri - dağlı feodallar özlərinin Şirvana basqınları ilə Osmanlı hakimiyyət dairələrini o qədər narahat etdilər ki, osmanlılar dağlıların Şirvana yolunu kəsmək məqsədilə Topkaraqan qalasını tikməyə başladılar. Ancaq Surxay xanın tərəfdarları - çarlılar hücum edərək onu dağıtdılar.[26] Surxay xanı bitərəfləşdirmək üçün osmanlılar 1727-ci ildə ona illik məvaciblə iki buncuqlu paşa titulu, eyni zamanda Qəbələnin idarəçiliyini verdilər. Lakin Surxay bununla kifayətlənməyərək, üstəlik Ağdaşı da tutdu və yalnız bundan sonra Osmanlı imperiyasına sədaqət andı içdi.[27]

Bu, təbii ki, Hacı Davudu bərk narahat etdi və onun Osmanlı dövlətinə münasibətində tərəddüd baş qaldırdı. Hətta paşa Hacı Davudun Osmanlı imperiyasına sədaqətindən şübhələnməyə, Rusiyaya meylli olduğunu güman etməyə başladı. General Rumyansev Şirvana sərhədçəkmə üçün gələndə, Hacı Davud onu hədiyyələrlə qarşılamaq istəmişdi. Ancaq Şamaxıda olan Osmanlı paşası əvvəlcə ona Rumyansevlə görüşməyi qadağan etmişdi.[28] Hacı Davudun II Təhmasibə məktub göndərməsi və ona qulluq etməyə hazır olduğunu ifadə etməsi haqqında da məlumat vardı. Cavab fərmanında II Təhmasib öz düşmənlərini Şabran və Muşkür əyalətlərindən qovduqdan sonra, həmin torpaqları Hacı Davuda «əbədi» verəcəyini vəd edirdi.[29] Qeyd etmək lazımdır ki, Hacı Davud səfəvilərə qarşı mübarizə dövründə xalqa səxavətlə vədlər vermişdi, ancaq hakimiyyətə gələndən sonra onun vəziyyətinin yaxşılaşdırılması üçün mühüm bir iş görə bilməmişdi. Bu səbəbdən Şirvanda siyasi və sosial dayağını itirdiyinə görə o, kənardan kömək axtarmağa məcbur olmuşdu.

Həmin məqamda Hacı Davuddan narazılıq ifadə edən Osmanlı hakimiyyət orqanları da ona yardım etməkdən imtina edirdilər. Belə ki, 19 fevral (1 mart) 1728-ci ildə rəis-ül-kittab Neplyuyevlə danışığında osmanlıların Hacı Davuddan razı olmadığını qeyd etmişdi. Buna səbəb Hacı Davudun Surxay xana müqavimət göstərə bilməməsi, həm də sərhədçəkməyə mane olması idi. Rəisin sözlərinə görə, osmanlılar Hacı Davudu vəzifədən kənarlaşdırmaq niyyətində idilər.[30]

Əlbəttə, yuxarıda ifadə olunmuş fikir Osmanlı sarayının Hacı Davuddan narazılığının əsas səbəbini göstərmir. Əsil həqiqətdə narazılığa səbəb Hacı Davudun Osmanlı hökumətinin göstərişlərinə kifayət qədər danışıqsız tabe olmaması, müstəqilliyə can atması və Şirvanı müstəqil dövlətə çevirmək niyyətində idi. Hacı Davudun sərhədçəkməyə müqavimətinə gəldikdə isə, o, bunu osmanlı hökumət orqanlarının razılığı və təşviqi ilə etmişdi.[31]

Rəis-ül-küttab ilə danışdıqda Neplyuyev başa düşmüşdü ki, osmanlılar Hacı Davudun yerinə Qazıkumuklu Surxay xanı Şirvan xanı təyin etməyə hazırlaşırlar. Neplyuyev buna qarşı etiraz edərək

bildirmişdi ki, Surxay, eləcə də Hacı Davud «fitnəkar adamdırlar» və əgər «Porta (Osmanlı hökuməti-T.M.) onların əvəzinə oradakı camaatdan hansısa bir xeyirxah adamı seçsəydi yaxşı olardı, bu, qonşuluq dostluğunun saxlanılması üçün də çox fayda verərdi».[32] Lakin Osmanlı hökuməti Hacı Davudu Surxayla əvəz etməyi qəti qərara almışdı.

1728-ci il martın sonu - aprelin əvvəllərində general Rumyansev knyaz Dolqorukiyə Surxayın Şamaxı yaxınlığında olduğunu, Hacı Davudun isə onun şəhərə daxil olmasına mane olmaq üçün qüvvə topladığını yazırdı.[33] Rumyansev Dolqorukidən belə bir hal üçün təlimat istəyirdi ki, əgər Hacı Davud və ya onun nümayəndələri birdən rus himayəsini xahiş etsələr, necə hərəkət etsin. Rumyansevə bildirildi ki, Hacı Davudun Rusiya təbəəliyinə qəbulu osmanlılarla münasibətlərə ziyandırsa, bu xahişi rədd etmək lazımdır.[34]

Sarı Mustafa paşa ilə söhbət zamanı rus komandanlığının qasidi Ruseviç ondan Osmanlı imperiyasının mənafeyinə uyğun olmadığı halda Surxay xana Hacı Davudla düşmənçilik etməsinə imkan verilməsinin səbəbini soruşmuşdu. Paşa cavabında demişdi ki, məqsəd budur ki, «onlar aralarında dalaşmaqla adamlarını itirsinlər və bununla öz qüvvələrini zəiflətsinlər».[35] Ruseviç osmanlıların Surxay xana daha böyük rəğbətlə yanaşdığını yazırdı. Belə ki, mübahisələrin kəsilməsi üçün Şamaxıya gələn komissar Dərviş Mehmet ağa Hacı Davuda Ağdaş və Qəbələni Surxay xana verməyi əmr etmiş, ancaq Hacı Davud bu göstərişi yerinə yetirməkdən imtina etmişdi. Surxay xan Ruseviçə bildirmişdi ki, nəyin bahasına olursa-olsun Şamaxıdan imtina etməyəcək. Ruseviç həmçininn xəbər verirdi: «İndi isə onlar hər ikisi paşaya böyük məbləğdə pul göndərirlər: Surxay Şamaxını almaq üçün, Davud isə onu saxlamaq üçün».[36]

Nəhayət, 1728-ci il iyulun 11-da Hacı Davud hakimiyyətdən kənarlaşdırıldı və ailəsi ilə birlikdə Gəncəyə gətirildi.[37] Surxay xan isə bundan sonra Şamaxıya daxil oldu.[38] A.Rumyansevin fikrincə, Osmanlı hökuməti Surxayı dağlı feodalları arasında böyük nüfuzuna, onun torpaqlarının rus işğal zonasına daxil olan ərazilərlə həmsərhəd olmasına görə Şirvan xanı təyin etmişdi.

Osmanlı idarəçiliyi aqrar münasibətlərdə mühüm dəyişikliklər etmədi. Məlumdur ki, Səfəvi dövlətinin bütün ərazisində, o cümlədən Azərbaycanda da torpaqlar dövlət (divan), sülalə (xass və ya xasseyi-şərifə), feodalların xüsusi mülkiyyəti (mülk), dini idarələr və ruhani torpaqları (vəqf) və kənd icmalarının torpaqlarına (camaat torpağı) bölünürdü.[39]

Azərbaycan torpaqları Osmanlı imperiyası tərəfindən tutulandan sonra divani və xass «miri», yəni Sultan torpaqları kateqoriyasına daxil edildi. Xəzinə Osmanlı qoşunlarına müqavimət göstərən yerli feodalların torpaqlarını, özü də təkcə tiyulları yox, mülkləri də öz əlinə alırdı.

Osmanlı imperiyasına loyal münasibət göstərən tiyuldar və mülkədarların hüquqları öz qüvvəsində saxlanırdı. Bundan başqa, Osmanlı xəzinəsinin ixtiyarına keçmiş torpaqların bir hissəsi Osmanlı hökumətinə xidmət göstərmiş yerli feodalların şərti sahibliyinə verilirdi. Osmanlı döyüşçüləri, xüsusilə yeniçərilər işğal olunmuş torpaqlarda mülk və həyətlərin sahibləri olurdular. 1730-cu ildə Osmanlı komandanlığı Təbrizi İran qoşunlarına təslim edəndə, orada yerləşdirilmiş yeniçərilər ələ keçirdikləri mülklərdən məhrum olunduqlarına görə qiyam qaldırmışdılar.[40] Təsadüfi deyil ki, 1734-cü ildə keçirilən divanda Kartli və İrəvan əyalətində, mülkləri və həyətləri ələ keçirmiş döyüşçülərin gözlənilən qiyamı münasibətilə qorxu, ehtiyat ifadə olunurdu.[41]

Osmanlılara xidmət edən yerli feodallara da iri torpaq mülkləri verilirdi. Bəzən belə bəxşişlər irsi səciyyə daşıyırdı. Məsələn, Surxay xanın «Təbriz tərəfindən ortaya çıxan şahsunlu (şahsevən - T.M.) qiyamının ortadan qaldırılması» işində və başqa xidmətlərini nəzərə alan Osmanlı hökuməti 1731-ci ilin mayında Şirvan xanlığının ömürlük olaraq ona «yurdluq və ocaqlıq» verilməsi haqqında barat göndərmişdi.[42]

Osmanlı hakimiyyət orqanları dini idarələrə də torpaq və digər əmlak paylayırdılar. Məsələn, Ordubadda Sulan III Murad məscidinə 150 dükan, bir hamam və bir karvansaraydan ibarət olan əmlak bağışlanmışdı.[43] Məscidin illik gəliri 27,5 min ağçaya çatırdı. Əgər Osmanlı xəzinəsinin Ordubad nahiyəsindən aldığı gəlirin cəmi 64 min ağçadan ibarət olduğunu nəzərə alsaq bu böyük məbləğ idi...[44]

Miri mülkiyyəti elan olunmuş torpaqlar tez-tez satılırdı, alıcı rolunda isə yerli torpaq sahibləri, tacirlər, osmanlı hərbçiləri, məmurlar və ayrı-ayrı ruhani şəxslər çıxış edirdi.[45]

Osmanlı dövlətinin sosial-iqtisadi siyasətinin xarakter və əsas istiqamətləri vergi sistemində daha əyani görünürdü.[46] Osmanlıların Azərbaycanda vergi sistemi keçmiş sovet, o cümlədən Azərbaycan sovet tarixşünaslığında müəyyən dərəcədə işıqlandırıldığı üçün biz təfsilata varmayacaq, XVIII əsrin 20-30-cu illərində Osmanlı vergi sisteminin yalnız ümumi mənzərəsini verməyə çalışacağıq.

Tədqiqatçıların qeyd etdiyi kimi, Osmanlı idarə sisteminin hərbi-feodal xarakteri müəyyən dərəcədə vergi sisteminin sərtliyinə səbəb olurdu.[47] Bu və ya digər ərazini özlərinə tabe edən Osmanlı hökuməti orada əhalinin siyahıya alınmasını keçirir, ətraflı siyahı (dəftəri-müfəssəl) tərtib edirdilər ki, orada əhalinin sayı, əkilən torpaqların sahəsi, gəlirlər qeyd olunurdu. Bu siyahıya alınmaya əsasən hər sancağın (əyalətin) qanunnaməsi tərtib edilirdi. Orada əhalidən alınan bütün vergilər, onların yığılma üsulu və vaxtı, yığılan verginin kimə verilməsi (dövlətə və ya feodal sinifinin hər hansı konkret nümayəndəsinə), əhalinin bu və ya digər qruplarına verilmiş müxtəlif vergi güzəştləri göstərilirdi.[48]

Bu siyahının tərtib olunması nəzarət məqsədi güdürdü. Həddi-buluğa çatmış, sağlamlığının vəziyyətinə görə əmək fəaliyyətinə yararlı bütün kişi əhalisi bu dəftərdə qeyd olunurdu və bununla da bu təbəələrin üzərində dəftərdə göstərilmiş vergiləri ödəmək üçün öhdəlik qoyulurdu.

1727-ci ildə Gəncə vilayətinin, 1728-ci ildə Ərdəbil, Təbriz, Tiflis, Həmədan, İrəvan vilayətlərinin və Naxçıvan san-cağının «ətraflı dəftərlər»inin tərtib edilməsi başa çatdı.[49]

Başbakanlıq Osmanlı Arxivində saxlanan İrəvan əyalətinə daxil edilmiş Maku sancağının 895 saylı təhrir dəftəri - «Maku dəftəri»ndən anlaşılır ki, İrəvan əyalətinə birləşdirildikdən sonra nahiyə statusuna keçirilmiş 85 kənd və 58 qışlaqdan ibarət Maku mahalı Əbdülfəttah bin Mahmud paşaya «yurdluq və ocaqlıq kimi verilmişdi.[50] Nahiyənin 28 kəndində heç kim yaşamırdı. Nahiyədə cəmi 904 nəfər vergi mükəlləfiyyəti daşıyan vardı (bunlardan 825 nəfəri kəndlərdə, 79 nəfəri isə Maku qalasında yaşayırdı). Nahiyənin cəmi 7 kəndində yalnız xristianlar yaşayır, bir kəndində isə xristianlar əhalinin 1/3 hissəsini təşkil edirdi. Nahiyə əhalisi əsasən taxılçılıq və pambıqçılıqla, habelə qoyunçuluqla məşğul olurdu.[51]

BOA-da saxlanılan Xalxal və Urmiya livalarının müfəssəl dəftərindən (N-910) aydın olur ki, Xalxal livasının ancaq Əzdəgin (Kağızkenan) nahiyəsində 101 kənd, 19 məzrə»ə, 1 yaylaq, 2 qışlaq və 1 duz mədəni varmış. Nahiyədə dənli bitkilərdən buğda, darı və mərcimək əkilirmiş. «Dəftər»dən nahiyə sakinlərinin maldarlıqla məşğul olduğu da anlaşılır.[52]

«Naxçıvan dəftəri»nə görə Naxçıvan sancağı aşağıda adları çəkilən 14 nahiyəyə bölünmüşdü: Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürküt, Sisyan və Dərələyəz.[53] Osmanlılar Səfəvi dövründə Naxçıvanın tərkibinə daxil olan Zar, Zəbil və Şərur nahiyələrini Naxçıvanın tərkibindən çıxararaq İrəvan əyalətinə birləşdirmişdilər.[54]

Naxçıvan sancağı 315 yaşayış məntəqəsini, o cümlədən Naxçıvan və Ordubad şəhərlərini əhatə edirdi. İndiki Naxçıvan Muxtar Respublikasının ərazisi Ermənistanın Yexeqnadzor rayonu bütünlüklə, Cermux rayonunun yarısı, Sisyan rayonunun böyük bir hissəsi və Mehri daxil olmaqla rayonun bir neçə yaşayış məntəqəsi Naxçıvan sancağının tərkibinə daxil idi. Bütün Naxçıvan sancağı üzrə 9788 nəfər əmək qabiliyyətli kişi siyahıya alınmışdı.[55] Əhalinin əksəriyyətini türklər (azərbaycanlılar) təşkil edirdi.

1727-ci ildə tərtib olunmuş Gəncə (Qarabağ) əyalətinin müfəssəl dəftərinə görə əyalətə 5 liva (sancaq), iki qəza, Gəncə, Bərdə, Xılxıla şəhərləri və Lori qalası daxil idi. Əyalətin 1.178 kəndindən yalnız 701-də adam yaşayırdı. Bu əyalət Azərbaycan əyalətləri içərisində ən çox gəlir (ildə 32.529.356 ağça) toplandığı əyalətlərdən biri idi. Gəncə (Qarabağ) əyalətində 11818 müsəlman (bunlardan 11.068 nəfəri türk, 750 nəfəri kürd) və cəmi 7.577 qeyri-müsəlman vergi verən qeydə alınmışdı. Tədqiqatçı H.Məmmədovun hesablamalarına görə, həmin dövrdə əyalət əhalisinin sayı 121.975 nəfər olmuş, bunun da 65,9 faizi türklər (azərbaycanlılar), 31 faizi qeyri-müsəlmanlar (37.885 nəfər) və 3,1 faizi kürdlər idi.[56]

1728-ci ildə tərtib olunmuş «İrəvan əyalətinin icmal dəftər»indən bu əyalətdə İrəvan şəhəri, Qırxbulaq, Karbi, Makı, Xınzırək, Karni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrəə, Sürməli, İqdır, Aralıq, Şərur, Sədərək, Zarzəmin nahiyyələrinin və Şürəgəl livasının (sancağının) olduğu aydınlaşır. Mənbəyə görə, bütün əyalətdə yaşayan 71.583 nəfərdən 43.784 nəfəri (61,2 faiz) türk-müsəlman, 27.799 nəfəri (38,8 faiz) isə xristian idi. İrəvan şəhərinin özündə 428 nəfər evli türk-müsəlman, 224 evli və 9 subay xristian qeydə alınmışdı. Həm də bu xristianlardan təxminən 100 ailə ermənilərə deyil, qaraçı xristianlara məxsus idi.[57]

1727-ci ildə tərtib olunmuş Gəncə (Qarabağ) əyalətinin müfəssəl dəftərindən aydın olur ki, o zaman əyalət üzrə iltizam üsulu ilə ildə ipək satışından (nizam-i-hərir) 4.020.000 ağça , gömrük, un qapanı və heyvan yemi üçün 1.200.000 ağça, Gəncə şəhəri və nahiyyələrin boyaqxanalarından 132.000 ağça, Gəncə və nahiyyələrinin mirabiyyə (su bölüşdürülməsi-T.M.) müqatiəsindən 330.000 ağça, at bazarından 60.000 ağça, Gəncə və nahiyyələrinin müqatiəsindən 36.000 ağça, Gəncə şəhərinin şamxanasından 36.000 ağça, dabbaqxanasından 24.000 ağça, balıq ovu və ət vergisindən 30.000 ağça, qəhvə qovurulan və üyüdülən yerlərindən 12.000 ağça vergi toplanırmış.[58]

Qanunnamədən Gəncə ipəyinin iki növ olduğu aydınlaşır: bunlardan birinə qalın ipək növü olan «kənar» deyirdilər. Bu növ ipəyin altı okkadan ibarət hər hunkari batmanı səkkiz quruşdan on iki quruşa qədər olan qiymətə alınıb satılırdı. Zərbaf adlanan incə ipəyin hər batmanı on səkkiz quruşdan iyirmi səkkiz quruşa qədər idi. Gəncədə ən çox «kənar» növ ipək istehlak olunurdu. Səfəvi dövründə hər batman üçün on quruş alındığına görə, osmanlı dövründə bu növün hər batmanına 1.200 ağça qiymət qoyulmuşdu. Pambığın hər batmanına 120 ağça alınırdı.[59]

Çəltik əkilən kəndlərdə ipəkçiliklə az məşğul olurdular, Bərgüşad ətrafının əksər rəncbərləri çəltik əkirdilər.Çəltiyin ölçü vahidi tağar idi. Bir tağar 150 okkaya bərabər idi. Bir tağar çəltik məhsuluna görə 600 ağça vergi alınırdı. Buğdanın da, tağarı 150 okkadan ibarət idi və hər tağarından 200 ağça vergi alınırdı. Digər qaba taxıl məhsullarının hər tağarına görə 100 ağça vergi verilirdi. Bostan tarlasının hər dönümünə görə 60 ağça, bağların hər dönümünə görə 24 ağça, 1 dəyirmana görə 1 quruş, hər sağmal inəyə görə 4 para rəsmi-ruqən (yağ vergisi), xırmana (ding) görə 300 ağça alınırdı. Bennak vergisi 40 ağça, ispəncə vergisi 120 ağça idi, hər qoyuna görə 2 para alınırdı. Arusane (gəlin vergisi), tapu-yi zəmin (əkin yeri üçün tapu) və badi-həva vergilərini hər yerin adətinə görə alırdılar. Osmanlı dövründə ilk vaxtlar bənnak vergisi alınmırdı. Resm-i qovan vergisi 4 para təşkil edirdi (arıçılardan alınırdı).[60] «Dəftər»ə görə Gəncədə aşağıdakı məhəllələr vardı:

Haravi-Zarrabi, Ozanlar, Attaran, Ağalmas, Şahsevən, Sofular, Səfərabad, Toyuqçu, Hacı Saleh, Bağır, İmamlı, Mühtesib, Qarasabalı, Bağbanlar.

«Dəftər»ə görə, Səfəvi dövründə Gəncə və nahiyələrində aşağıdakılar var idi:

Came və məscidlər - 15 ədəd (bəzisi uçuq, bəzisi yaxşı vəziyyətdə), hamam - 20 ədəd (bir neçəsi yaxşı vəziyyətdə), karvansaray - 21 (bəzisi uçuq, bəzisi yaxşı vəziyyətdə), dükanlar - 1200 ədəd (əksəri uçuq), firun və təndirlər - 35 ədəd (bir neçəsi yaxşı vəziyyətdə).

Gəncə şəhərində və kənarında bağlar və üzümlüklər 850 qitə idi.

Tut bağları (şəhər və ətrafında) - 250 qitə (demək olar ki, hamısı bərbad vəziyyətdə idi və tarlaya çevrilmişdilər).

Xan bağı üzümlükləri - 130 ədəd

Şəhərdə 404 sərv, 479 çinar və 3554 meyvə ağacları var idi.

Bundan başqa aşağıdakı arxlar mövcud idi:

Allahdad, Quymaqlı, Arazbar, Topçubaşı, Üçtəpə.[61]

Gəncə vilayətində, qanuna uyğun olaraq, əhalidən aşağıdakı vergilər tutulurdu:

1. Üşr - torpaqdan istifadəyə görə, torpaq sahibinin xeyrinə Səfəvi dövründə də alınırdı, bəzən onu «dəhyek» adlandırırdılar (farsca 1/10 deməkdir). Digər sözlə desək, o, məhsulun onda birini təşkil etməli idi. Üşr natura və pulla yığılırdı. Buğdanın hər tağarından[62] 200 ağça, digər dənli bitkilərin tağarından - 10 ağça, düyünün tağarından - 600 ağça, cod ipəyin batmanından - 1200 ağça alınırdı.[63]
2. Bəhrə - su qurğularının sahiblərinin xeyrinə, sudan istifadə üçün vergi, məhsulun beşdə birini təşkil edirdi. Bəhrə Səfəvi dövründə də alınırdı. Onun başqa adı da var idi – mal-cəhət. Torpağın və suyun sahibi eyni adam olduqda, üşr və bəhrə birləşir və birləşmiş vergi bəhrə adlanırdı.
3. Rəsmi-bağ - bağlardan alınan vergi, Səfəvi dövründə o, «bağbaşı» adlanırdı və məhsulun 1/10-ni təşkil edirdi. Osmanlı işğalı dövründə pulla yığılırdı, onun ölçüsü 1 dönüm[64] üçün 24 ağça müəyyən olunmuşdu.
4. Rəsmi-bostan - bostandan vergi, 1 dönüm üçün - 60 ağça.
5. Rəsmi-qovan[65] - kəndli arıçılardan yığılırdı. Onun ölçüsü 4 para və ya 12 ağça müəyyən edilmişdi.
6. Rəsmi-roqan - hər sağmal inək və camışdan alınırdı, onun ölçüsü 4 para və ya 12 ağça müəyyən edilmişdi.
7. Rəsmi-bənnak - torpaq sahəsi yarım çiftdən ( 1 çift - gün ərzində 1 cüt qoşqulu öküzlə şumlana bilən sahə) az olan adamlardan alınan can vergisi, bəzən də heç əmlakı olmayan, amma əmək qabiliyyətli adamlardan alınırdı. Onun ölçüsü 40 ağça müəyyən olunmuşdu.
8. Rəsmi-əğnam - maldarların xırda buynuzlu heyvanlar üçün ödədiyi vergi. Səfəvi dövründə «çoban-bəyi». Xəzinəyə məxsus yay (yaylaq), qış (qışlaq) otlaqlarından istifadə üçün alınırdı; heyvandarlıqla məşğul olan yarımoturaq kəndlilərdən, maaf hesab olunmayan tayfalardan alınırdı. Qanuna müvafiq məbləği 2 para və ya 8 ağça idi.
9. Rəsmi-ding[66] - dingin sahibi tərəfindən ödənilirdi. Məbləği 300 ağça idi.
10. Rəsmi-asiyab - dəyirman üçün vergi. Dəyirman sahibi feodal hakimin xeyrinə ödəyirdi. Ölçüsü illik 1 quruş (120 ağça) müəyyən olunmuşdu.

11. Rəsmi-ispəncə – qeyri-müsəlmanlardan alınan can vergisi, torpağı olub-olmamasından, subay və ya evli olmasından asılı olmayaraq alınırdı. Bu verginin ölçüsü 120 ağça müəyyən olunurdu, o, Səfəvi dövründə mövcud olan «sərane» - «başpulu»na uyğun gəlirdi.

Gördüyümüz kimi, Gəncə vilayətində Səfəvi dövründə əhalidən alınan əsas vergilər saxlanılmışdı. Eyni zamanda bəzi vergilər, o cümlədən rəsmi-arusane - gəlin üçün vergi, tapuyi-zəmin - üzərində yardımçı qurğu və binaların olduğu torpaq sahəsi üçün badi-hava toplanması dayandırılmışdı. Rəsmi-bənnak da müəyyən müddətə ləğv olunmuşdu.

Osmanlı hökuməti güman edirdi ki, bu və ya digər vergilərin ləğvi əhalinin maliyyə imkanlarını müəyyən dərəcədə artırar. Vergi qoyma zamanı əhalinin bəzi təbəqələrinə güzəşt edilirdi. Naxçıvan sancağının «müfəssəl dəftərindən» göründüyü kimi, Osmanlı hökuməti qadınları və uşaqları, qocaları və əlilləri, xəstələri, həmçininn əqli əmək adamlarını vergi ödəməkdən azad edirdi.[67]

Beləliklə, Gəncə vilayətinin qanunnaməsindən görünür ki, Osmanlı hökuməti Səfəvi dövründə yığılan vergilərin bir hissəsini saxlamış, digər hissəsini isə osmanlı vergiləri ilə əvəz etmişdi.

Qazax sancağında əhali «rəsmi-əgnam», «bənnak», «ispəncə», «badi- hava», «rəsmi-asiyab», «rəsmi-arusane», «rəsmi-bostan», «rəsmi-qovan», «rəsmi-ruğən», «tapuyi-zəmin» və başqaları ilə birlikdə cəmi 16 növ vergi ödəyirdi.[68] Burada ispəncənin aylığı 75-185 ağça, «rəsmi-asiyab»ınkı isə ilboyu fəaliyyətdə olan dəyirman üçün 120 ağça idi; nikaha girən müsəlman qız üçün «rəsmi-arusanə» 60 ağça, dul qadın üçün 30 ağça, əgər nikaha müsəlman olmayan qadın daxil olurdusa, qız idisə 30, dul idisə 15 ağça vergi ödənirdi.[69]

Kəndlilərdən sabit alınan vergi və mükəlləfiyyətlər iki hüquqi kateqoriyaya bölünürdü. Birincisi, şəriət vergilərindən ibarət idi (təkalifi- şəriyyə), ölçü və yığılma qaydaları islam tərəfindən müəyyən olunurdu. Bu isə öz növbəsində xəzinə məmurlarının və yerli feodalların özbaşınalıqlarını məhdudlaşdırırdı. Vergilərin ikinci qrupunu adət və adi hüquq (təkalifi-orfie) əsasında alınan rüsumlar təşkil edirdi. Yerli şəraitdən asılı olaraq ölçüləri dəyişən vergi və rüsumlar da onlara daxil idi.

Ölçüləri dəqiq müəyyən olunan vergilərdən başqa, Azərbaycan Osmanlı imperiyasının tərkibində olduğu müddətdə qeyri-müəyyən, yəni ölçüləri sabit olmayan fövqəladə vergi və mükəlləfiyyətlər də mövcud idi. Səfəvi dövründə qeyri-sabit vergilər «ixracat» adı altında birləşdirilmişdi. Bura qoşun və ya feodal dəstəsinin at və yüklü heyvanları üçün «alafe» (hərfən: yem), həmçininn döyüşçülər üçün azuqə və ərzaq, «konalqa» (hərfiən: könəlgə-gecələmək üçün yer) - rəiyyət evlərində xarici səfirlərin, şah qasidlərinin, məmurların, nüfuzlu adamların və mühüm rütbəli şəxslər üçün «qalmaq hüququ» daxil idi. Bu zaman sonuncular öz kirayənişinlərini, onların məiyyətini, qulluqçularını və atlarını da yedizdirməli idilər. Bəzən buna rəiyyətin onun evində qalan döyüşçülərə «hədiyyə verməsi» də əlavə olunurdu. Sonuncu xalq arasında istehzalı «diş kirəsi» (diş üçün mükafat), yəni müftə özgə çörəyini yeməklə özlərinə əziyyət verdikləri üçün «mükafat» adı almışdı, həmçininn «ulaq» (monqolca və çaqatay - özbəkcə hərfən yük daşımaq üçün ev heyvanı) adlanan vergi də var idi - rəiyyət tərəfindən poçt xidməti rəisinin tələbinə görə bir poçt stansiyasından di-gərinə qədər poçt və qasid atlarının verilməsini nəzərdə tuturdu.[70]

Ticarət rüsumları və yığımına gəldikdə isə, onlar tamamilə əvvəlki formada saxlanmışdı. Gömrük məntəqələrində rüsum (gömrük) və rahdari (hərfən: ticarət yollarının mühafizəsinə görə) alırdılar.

Bazara çıxardılmış mallardan «rəsmi-qapan» (tərəzi rüsumu) və «huddamiyyə» (xidmət üçün rüsum) alınırdı.[71] Əgər satılan ipək 4 batmandan az idisə, ondan hər batman üçün alıcıdan 12 para, əgər 4 batmandan çox idisə, 16 para alınırdı. Əgər tacirin satdığı ipək 1 divani yük (həmlə) 236,4 kq - 32 batman təşkil edirdisə, onun üçün 22 quruş, 32 batmana çatmayıb 1-2 batman əskik olurdusa, hər batman üçün - 32 para alınırdı. Satılan 10 batman ipəyə görə 75 dirhəm ağırlığında 1 kul (23,16 kq) ipək alınırdı. Əgər tacirin satdığı ipək 20 batmana bərabər olurdusa, alıcı satıcıdan 1 kul pulsuz ipək alırdı. Mizan katibləri yükbaşına 24 para ücrəti-kitabət alırdılar.[72]

İnək yağı, şam yağı, balın 1 dəvə yükündən 3 abbası rəsmi-qapan və bir yarım para hüddamiyyə və at yükündən 1,5 abbası qapan, 1 para hüddamiyyə, qatır yükündən 10 para qapan, bir para hüddamiyyə; düyünün dəvə yükündən 14 para qapan, 1,5 para hüddamiyyə, qatır yükündən 3 para qapan, 1 para hüddamiyyə; duzun dəvə yükündən 14 para qapan, at yükündən 3 para qapan, 1 para hüddamiyyə, qatır yükündən 1 para; buğda və darının dəvə yükündən 5 para qapan, 2 para hüddamiyyə, at yükündən 3,5 para qapan, 1,5 para hüddamiyyə; qumaşın dəvə yükündən 14 para qapan, 2 para hüddamiyyə, at yükündən 7 para qapan; mahud və mahud parça, qalay və qurğuşun, nal, mürəkkəb yağı, kətan, yun corablardan, qızıl boyaq, dəri və kişmişin dəvə yükündən 14 para qapan, 1 para hüddamiyyə, at yükündən 7 para qapan, 1 para hüddamiyyə, qatır yükündən 3,5 para qapan, 1 para hüddamiyyə;

Dağıstan şalı və yapıncısının at yükündən 14 para qapan, 2 para hüddamiyyə, qatır yükündən 7 para qapan; qarpız yükündən 1 qarpız, qovundan 1 qovun subaşlıq və hər yükdən iki rəsmi qapan və 1 para subaşılıq alınırdı.[73]

Bəzi hallarda Osmanlı hökumət orqanları vergilərin yığılmasını icarəyə verirdi. Torpağın icarəyə verilməsi üçün açıq hərrac təşkil edilirdi. Müəyyən vergi sahələrində və rayonlarda vergi yığmaq hüququ almış şəxslərə xüsusi sənəd verilirdi, orada icarəçinin xəzinəyə daxil etməli olduğu illik məbləğ göstərilirdi. Müəyyən olunmuş ödəmədən sonra əyalətin qazisi sənədin əks tərəfində («səbəbi-təhrir-i-hökm») müəyyən olunmuş məbləğin ödənildiyini təsdiq edirdi.[74]

Azərbaycanda Osmanlı idarəçiliyi dövründə eyni zamanda həm keçmiş Səfəvi pul vahidləri, həm də Osmanlı pul vahidləri işlənirdi. Gəncədə Osmanlı sikkələrinin kəsilməsi haqqında məlumat var.[75] Sultanın göstərişinə görə «silahdar katibi» Yaşəllizadə Təbriz dəftərdarı təyin olunmuş, zərbxana və onun fəaliyyəti üzərində nəzarətin təşkili üçün ora ezam edilmişdi. «Sultan-altunisi» sikkənin kəsilməsi üçün dinarlar, qiymətli daş-qaş, gümüş alınması qərara alınmışdı.[76]

Osmanlı imperiyasının və Rusiyanın Azərbaycanda hərbi əməliyyatları və ölkənin bu dövlətlər arasında bölünməsi xarici və daxili ticarətə böyük ziyan vurdu. Ölkənin iqtisadiyyatına Azərbaycanın dəniz qapıları sayılan Xəzəryanı əyalətlərin süni surətdə digər torpaqlardan təcrid olunması ölkənin iqtisadiyyatına xüsusilə ağır təsir etdi. Xəzəryanı əyalətlərlə Azərbaycanın digər hissələri arasında ticarət əlaqələrinin əhəmiyyətini başa düşərək, rus hakimiyyət orqanları bu əlaqələri bərpa etmək istəyirdi. 1724-cü ilin əvvəlində Rusiya və Osmanlı nümayəndələri arasındakı danışıqlarda bu məsələyə toxunuldu. İ.Neplyuyev bildirdi ki, rus komendantları Bakı və Dərbənddə Osmanlı imperiyasının Şamaxıdakı nümayəndəsi Əli bəyə təklif etmişdir ki, tacirlər bir işğal zonasından digərinə sərbəst hərəkət edə bilsinlər.[77] Ancaq Osmanlı qoşunlarının Gürcüstandakı sərəsgəri Arifi Əhməd paşa Osmanlı hökumətinə məlumat verirdi ki, indi tacirləri göndərmək təhlükəsiz de-yil, belə ki, Rusiya və Osmanlı imperiyası arasında sərhədlər qəti müəyyən edilməmişdir və çox yerlərin sakinləri bilmirlər ki, hansı dövlətə tabedirlər, ona görə də özbaşınalıq edirlər: həm Şamaxı ətrafındakı rus tacirləri, həm də rus zonasına daxil olan şəhərlərin yaxınlığında şamaxılılar xoşagəlməz hadisələrdən - qarət və buna oxşar şeylərdən sığorta olunmayıblar.[78] Bu fikirlərə əsaslanaraq baş vəzir Neplyuyevə məsləhət görmüşdü ki, Bakıdakı və Dərbənddəki rus komendantlarına bu şəhərlərin sakinlərinə «indiki vaxtda yuxarıda qeyd olunan səbəblərə görə Şamaxı ilə ticarət aparmağa» qadağa qoymağı tövsiyə etsin.[79]

Neplyuyev rus sarayına tacirlərin Şamaxıya getmələrini hələlik dayandırmağı tövsiyə edəcəyini vəd etdi. Bununla yanaşı, o bildirdi ki, rus komendantları ilə Şamaxıdakı Osmanlı komendantı arasında hər iki tərəfdən adamların gedib-gəlməsi üçün şəraitin yaradılması barədə yazışma aparmalarına razılıq vermək olar.[80]

Sonralar ticarətin canlanması üçün Osmanlı hakimiyyət orqanları tərəfindən bəzi tədbirlər görüldü. Məsələn, Arifi Əhməd paşa İrəvanı tutandan sonra hökumətə yazırdı ki, əgər Araz və ona tökülən Zəngi çayları təmizlənib gəmiçilik üçün yararlı edilsə, Xəzər dənizindən İrəvan şəhərinin özünə qədər naviqasiya açmaq olar. Osmanlı hökuməti çayların təmizlənməsi üçün tezliklə bir sıra tədbirlər həyata keçirdi.[81] Artıq 1724-cü ildə Arpaçayın məcrası gəmiçilik üçün yararlı vəziyyətə gətirildi.[82] Ordubadda Araz çayı üstündə körpü inşa edildi. Bu körpü ildə 12 min ağça gəlir gətirirdi.[83]

Osmanlı hökumət orqanları daha az gömrük rüsumları tətbiq edərək, ipəyin tranzit ticarətini genişləndirirdilər. Məsələn, 1729-cu ildə Təbrizdə paşa ilə bir qrup tacir arasında müqavilə bağlanmışdı. Müqaviləyə əsasən, Gilandan Təbrizə, oradan isə Osmanlı imperiyasına gətirilən ipəkdən Ərdəbildə hər dəvə tayından - 4 quruş, Təbrizdə 18 quruş rüsum alınmalı idi. Sərabad, Mərənd, Çors, Marağa, Soyucbulaqda və digər rahdari alınması nəzərdə tutulan yerlərdə rüsum almamaq qərara alındı.[84]

Osmanlı hakimiyyət orqanlarının Azərbaycan torpaqlarından aldığı vergi və mükəlləfiyyətlərin illik həcmi haqqında məlumatlar son dərəcə az və qırıq-qırıqdır. Vergi verənlərin sayının 1417 nəfər olduğu, özü də onların dörddə bir hissəsinin aztorpaqlı kəndlilər təşkil etdiyi Qazax sancağında illik gəlir 1.030.610 ağçadan ibarət idi. Beləliklə, kəndlidən alınan verginin orta məbləği 723 ağçaya bərabər idi. Elatlar təqribən iki dəfə az vergi ödəyirdilər.[85]

Osmanlı xəzinədarlıq məmurunun İstanbula gəlmiş rus kuryeri Senyukova açıqladığı məlumata görə, Təbriz və Təbriz əyalətindən xəzinəyə ildə 700 kisə pul daxil olurmuş[86], hər kisədə 300 manat olduğu nəzərə alınarsa, onda sanballı məbləğ - 210.000 manat pul toplandığı aydınlaşır.

Ancaq qeyd etmək lazımdır ki, Səfəvilərin hökmranlığı dövründə gəlirlərin məbləği xeyli artıq idi. Bu, vergi tariflərinin azalması ilə əlaqədar deyildi, əkinçilik məhsullarının kəskin surətdə azalması, əhalinin müxtəlif təbəqələrinin, hər şeydən əvvəl kənd və şəhər adamlarının vəziyyətinin pisləşməsinin

nəticəsi idi. Əhalinin vergi ödəmək qabiliyyəti dağıdıcı hərbi əməliyyatların, qarət və özbaşınalıqların nəticəsində aşağı düşmüşdü. Bəzi hallarda bütöv kəndlər və mahallar boşalmışdı və vergi ödəməyə adam yox idi, digər hallarda isə əhalinin tabe olmaması ucbatından vergi yığmaq mümkün olmurdu. Bu və ya digər səbəblərdən XVIII əsrin 20-ci illərinin ortalarında Gəncə əyalətində, Bərguşad, Qafan, Caraberd, Dizaq, Çavundur, Yevlax, Bərdə nahiyələrində vergilər yığılmamışdı.[87]

Vergilərlə yanaşı, vilayət hakimləri Sultanlara (xüsusən onlar dəyişəndə) və onların diplomatik nümayəndələrinə qiymətli, bahalı hədiyyələr verməli idi. Məsələn, 1730-cu ilin sonu-1731-ci ilin əvvəllərində Şamaxıya gələn Sultan nüma-yəndəsi Mir Axunbaşiyə Surxay xan gümüş dəhnəli və yüyənli 8 at, 8 tüfəng, 8 qılınc, 5000 manat pul, 8 cavan kölə və 8 kəniz bağışlamışdı.[88] Yeni Sultan Mahmudun taxta çıxması münasibəti ilə Gəncə hakimi İbrahim paşa ona 25000 manat pul göndərmişdi.[89]

Xalq kütlələri vergilərin yığılması işində hökm sürən hərc-mərclikdən də əzab çəkirdi. Elə hallar olurdu ki, eyni yerdən vergi yığmağa iki vergiyığan namizəd olurdu. Məsələn, 1726-cı ilin yazında Həmədanlı Qamad paşa vergi yığmağ üçün Marağaya öz adamlarını göndərmişdi. Təbrizli Abdulla paşa, bu haqda eşidərək, öz növbəsində, öz vergi yığanlarına Marağada vergi yığmağı əmr etmiş və Qamad paşadan tələb etmişdi ki, Təbriz əyalətindən heç bir vergi yığmasın. Qeyd olunan paşalar arasında bu münasibətlə çəkişmə uzun müddət davam etmişdi.[90]

Adətən, yığılan vergilərin xeyli hissəsini vilayət hakimləri məvacib kimi özlərinə saxlayırdılar. Məsələn, Abdulla paşa Təbriz əyalətindən alınmış bütün məbləğin 1/3 hissəsini özünə saxlayırdı.[91]

Əhalidən vergi yığımı hesabına toplanan yerli xəzinə vəsaitinin xeyli hissəsini osmanlı qoşunlarının saxlanması xərcləri udurdu. Bu xərclər hər il artırdı. Məsələn, əgər Gəncə qarnizonunun döyüşçülərinin məvacibi 1725-ci ildə 31075 quruş təşkil edirdisə, sonrakı bir ildə üç dəfədən çox artaraq 100 min quruş olmuşdu.[92]

Strateji cəhətdən mühüm məntəqələrin (xüsusilə Gəncə qalasının) möhkəmlənməsinə də çoxlu vəsait sərf olunurdu. 1726-cı ilin əvvəli üçün Gəncədə xan sarayı ətrafında 4 qülləli qala tikilmişdi. Hər qülləyə 3 və ya 4 mis və çuqun top qo-yulmuşdu, qalanın daxilində isə daha 20 çuğun və mis top var idi.[93]

1725-ci ildəTəbrizi möhkəmləndirmək məqsədilə Uzun Həsən və Mehdi Sahib-əz-Zaman məscidlərinin yaxınlığında uzunluğu 1000 zirai (1 zirai təqr. 0,7m) və eni 800 zirai olan qalanın tikintisinə başlandı.[94] Tikilmiş qala üç bucaq formasında idi. Qalanı daşdan və bişmiş kərpicdən tikilmiş daxili və gildən tikilmiş xarici divar əhatə edirdi. Qalada 8 böyük və 4 kiçik darvaza vardı. Qala divarlarının eni 2 arşın idi. Qalanın tikintisinə artıq 20 il Osmanlı xidmətində olan bir alman rəhbərlik edirdi.[95]

Əldə olunan məlumatlara görə, 1729-cu ildə Ərdəbildə tələsik qalanın tikintisi üzrə işlər aparılırdı və bu məqsədlə Təbrizdən 400 işçi gətirilmişdi.[96]

Azərbaycan əhalisi üçün yeniçərilərin özbaşınalığı əsl bəla idi. Bir mənbənin verdiyi məlumata görə, Təbrizdə Gilana getmək istəyən karvanlar yola çıxmaqdan ehtiyat edirdilər ki, yeniçərilər onları qarət edərlər.[97]

Osmanlı imperiyasının hakim dairələri öz qoşunlarındakı özbaşınalıqlara son qoymaq istəyirdilər. Şiələrin qula çevrilməsi qadağan edilmişdi. Sürməli, Şüragel, Abaran və digər mahallarından qaçmış üç yüz kəndin sakinlərinə öz doğma yerlərinə qayıtmağa icazə verilmişdi.[98]

Lakin hakimiyyət orqanlarına heç də həmişə özlərinin itaətdən çıxmış döyüşçülərini itaətdə saxlamaq müyəssər olmurdu. Məsələn, yeniçərilər Abdulla paşadan iki qəsəbəni - Təbrizi tərk etmiş şəhərlilərin yaşadığı Uskü və Sərdarini qarət etmək üçün icazə tələb edirdilər.[99] Paşadan rədd cavabını alaraq, onlar təbrizli sakinləri qarət etmək istəmiş, lakin paşa buna da maneçilik törətmişdi. Yeniçərilər 1729-cu il sentyabrın əvvəlində Təbrizdə paşanın «iranlıları əsir etməmək və satmamaq» fərmanına etiraz əlaməti olaraq qiyam qaldırmışdılar.[100]

Yeniçərilərin başçıları gecə iki döyüşçünü öldürtdürüb onların cəsədlərini şəhərin mərkəzinə atdırmış, bununla da şəhər sakinlərini günahlandırıb soyğunçuluq etmək üçün bir bəhanə düzəltmişdilər. Təbriz sərəsgəri Hacı Mustafa paşa bu fitnəni anlayaraq, talan və soyğunçuluğa razılıq verməmişdi. Yeniçərilər onu öldürmək istəmişdilər, lakin paşa qəsrdə gizlənib canını qurtarmışdı.[101] Bundan sonra paşa yeniçərilərə sərbəstlik verməyə məcbur olmuş, onlar isə sakinləri qarət etmiş, arvad və uşaqları əsir götürmüşdülər».[102] Yeniçərilərin Təbrizdə azğınlıqları, qətl və qarətləri sonralar da davam etmişdi. Bir arxiv sənədində deyilir ki, 1729-cu ilin sonunda Təbrizdə yeniçərilər sakinləri qarət etmək və öldürmək üçün bəhanə axtarırdılar.[103]

Beləliklə, gördüyümüz kimi, Osmanlı idarəçiliyi dövründə Azərbaycanda yeni vergi və mükəlləfiyyətlər Səfəvi dövründən qalan vergi və mükəlləfiyyətlər ilə paralel mövcud idi. Azərbaycan

feodalları öz hüquqlarından əsasən istifadə etsələr də vergilərin ödənilməsi və qismən hərbi mükəlləfiyyətlərin yerinə yetirilməsi məsələlərində tam asılı vəziyyətdə idilər. Osmanlı hökuməti yarımüstəqil Şirvan xanlığında özünün sosial-iqtisadi qaydalarını tətbiq etmədi.

### *4. Osmanlı idarəçiliyi dövründə Azərbaycanda sosial-siyasi vəziyyət*

Osmanlı hakimiyyət orqanları Azərbaycanda sosial-siyasi vəziyyəti sabitləşdirməyə çalışsalar da, buna tamamilə nail ola bilmirdilər.

Osmanlı idarəçiliyi dövründə ən narahat bölgələrdən biri Qarabağın dağlıq hissəsi idi. 1726-cı ilin yayında həm xristian, həm də müsəlman əhalisinin içərisində iğtişaşlar olduğu haqqında tarixi ədəbiyyatda məlumat var.[1]

1726-cı ildə Gülüstan və Çaraberd dairələrində osmanlı döyüşçüləri və əhali arasında toqquşmalar baş verirdi. Osmanlı paşasının Bərdədə öldürülməsinə cavab olaraq, Sarı Mustafa paşanın qoşunları və Hacı Davudun dəstələri birləşdilər və Şuşa kəndin sıqnağına hücum etdilər.

Osmanlı sarayının rəsmi salnaməçisi A.Çələbizadə yazır ki, Osmanlı silahdarı (yəqin o, Sarı Mustafa paşanı nəzərdə tutur - T.M.) Hacı Davudun min atlısını özü ilə götürüb, Bərdə tərəfə hərəkət etdi. Şuşa kəndi ətrafında bir neçə sıqnağı ələ keçirərək, bütün gün ərzində onu top atəşinə tutdu. Orada gizlənən sakinlər, öz əmlaklarını ataraq, hərə bir tərəfə qaçdı. 400 nəfəri məhv edən Osmanlı sərəsgəri Gəncəyə qayıtdı, buradan isə Qarabağ kürdləri və şahsevənlərə qarşı yollandı.[2]

1726-cı ilin yazında Gəncədən Təbriz və Ərdəbilə qədər geniş bir ərazidə silahlı çıxışlar baş verirdi. 1726-cı ilin mayında Köprülü Abdulla paşanın oğlu vəzir Əbdürrəhman paşa 20 min nəfərlik qoşunu üsyan etmiş şəqqaqi tayfaları və şahsevənlərin üstünə yeritdi və Ərdəbil yaxınlığında onlarla vuruşmalı oldu.[3]

Osmanlı sarayının rəis-ül-kittabı iyunun 27-də İ.Neplyuyevə bu günlərdə Gəncə ilə Təbriz arasında yaşayan əhalinin qiyamı haqqında xəbər alındığını və buna görə də Abdulla paşanın öz oğlunu 15 min nəfərlik qoşunla Ərdəbilə göndərdiyini söyləmişdi. Osmanlı qoşunları Ərdəbil sakinlərini «sakitləşdirmiş və Ərdəbilə gedən digər dəstələri də darmadağın etmişdilər».[4] Bu xəbər A.Çələbizadənin gətirdiyi məlumatlara uyğun gəlir. O yazır ki, şahsevən və şəqqaqi tayfaları hökumətə itaət etməyərək, qarət və quldurluqla məşğul olurdular, ona görə də Təbriz sərəsgəri Abdulla paşa 20 mindən çox döyüşçünü qiyamçı tayfaları itaətə gətirmək üçün başda Van canişini Əbdürrəhman paşa olmaqla Ərdəbil tərəfə göndərdi. Əbdürrəhman paşa Ərdəbilə gələrək itaət etməyən tayfaları darmadağın etmişdi.[5]

Azərbaycanda Osmanlı idarəçiliyindən narazılıq artmaqda idi. Xəzəryanı vilayətlərdəki rus komandanlığı bir nəfər giziri sərhədçəkmə ilə bağlı hansısa bir məqsədlə Gəncədəki osmanlı paşasının yanına göndəribmiş. Gəncədən qayıdan gizirin verdiyi məlumatdan paşanın yanında cəmi 2 min döyüşçü olduğu, onlardan çox hissəsinin azərbaycanlılardan ibarət olduğu aydınlaşırdı. Gizir azərbaycanlı döyüşçülərlə söhbət edərək, onların osmanlı idarə üsulundan narazı olduğunu öyrənmişdi. Rus giziri həmçininn xəbər verirdi ki, Gəncə hakimi Sarı Mustafa paşa əfqan Əşrəfin 20 min nəfərlik ordu ilə hədələdiyi Təbrizə kömək göstərmək haqqında göstəriş almış, amma çətinliklə cəmi 300 adam yığa bilmişdir.[6]

Çələbizadənin məlumatına əsasən, 1727-ci ilin avqustunda Təbriz sərəsgəri Qarabağın Dizaq və Bərguşad mahallarına qaraçorlu kürd tayfalarına və Muğan düzünə şahsevənlərə qarşı 15 min nəfərlik yüngül süvari qoşunu göndərmişdi. Ancaq bu məqsədlə yenicə səfərbərliyə alınmış döyüşçülər, həmçininn Türkiyə əhalisinin geniş təbəqələri müsəlmanlara qarşı silahlı mübarizənin əleyhinə çıxır, öz dindaşlarına qarşı vuruşmaq istəmirdilər.

Bütün bunlara görə Osmanlı komandanlığının məcburən bağladığı sazişə əsasən, qaraçorlu tayfası Osmanlı imperiyasına tabe olmağı və bundan sonra ermənilərlə əlaqə saxlamamağı öhdəsinə götürmüşdü. Sazişin şərtlərinə görə, adı çəkilən tayfalara dövlət fondundan o şərtlə istifadəyə icazə verilirdi ki, onlardan gəlirin yarısı qaraçorlu tayfasının sərəncamına, digər yarısı isə Gəncə xəzinəsinə daxil olsun.[7]

1727-ci ilin sonundan Qaradağda böyük etiraz çıxışı başladı. Qeyd etmək lazımdır ki, üsyanın rəhbəri həmin vaxta qədər könüllü surətdə Osmanlı imperiyasının tərəfinə keçmiş Əbdürrəzaq xan osmanlılara qulluq edirdi və paşa rütbəsi almışdı.[8]

Qaradağda hakimiyyət əleyhinə çıxışlar haqqında ilk məlumat 1728-ci ilin başlanğıcına aiddir. Fevralın 3-də general Levaşovun yanına gəlmiş Rəşt sakinlərinin sözlərinə görə, Məkkədən ziyarətdən geri qayıdarkən, onlar Təbrizdə eşitmişdilər ki, Osmanlı qulluğunda olan və hətta paşa olan Əbdürrəzaq

Qaradaği Muğan düzündə yaşayan şahsevənləri öz yanına dəvət etmiş və onlara Osmanlı hakimiyyətinə qarşı birlikdə çıxış etməyi təklif edibmiş. Şahsevənlər osmanlılara qulluq edən Əbdürrəzaqa əvvəlcə inanmamışlar. Əbdürrəzaq şahsevənlərin etibarını qazanmaq üçün komandasındakı Osmanlı döyüşçülərini qətlə yetirmiş və sonra onlarla Osmanlı hakimiyyətinə qarşı birlikdə mübarizə aparmaq barədə saziş bağlamışdı.[9] Bundan xəbər tutan Təbriz paşasının Əbdürrəzağa qarşı göndərdiyi cəza dəstəsi məğlubiyyətə uğramışdı.[10] Belə olduqda Əbdürrəzaq xana qarşı özü yürüşə hazırlaşan paşa osmanlılar ilə Əfqan hakimi Əşrəf arasında bağlanmış Həmədan sülhünə əsasən İrəvan vasitəsi ilə Krıma qayıdan Krım tatarlarından kömək istəmişdi. Lakin onlardan yardım ala bilməyən paşa Əbdürrəzağa qarşı yürüşünü təxirə salmalı olmuşdu.[13]

Bəzi məlumatlara görə, Əbdürrəzaq xan 1728-ci ilin əvvəlində Təbrizə hücum etmək niyyətində imiş. Təbrizli Əli paşa şəhərin yaxınlığında yerləşən Şəmkaran kəndinin sakinlərini Əbdürrəzaqın adamlarını gizlətməkdə suçlandırıb cəzalandırmaq istəyirmiş. Ancaq yeniçərilərin rəisi və digər Osmanlı zabitlərinin təklifi ilə aparıllan yoxlamadan sonra şəmkaranlılara qarşı irəli sürülən ittihamın əsassız olduğu aydınlaşmış, buna baxmayaraq Əli paşa onları 20 kisə pul məbləğində cərimə ilə cəzalandırmışdı.[11]

Tezliklə öz vədlərini yerinə yetirən şahsevənlər Əbdürrəzaqın qüvvələri ilə birləşdilər və Osmanlı hakimiyyətinə qarşı silahlı mübarizəyə qalxdılar. Mənbələrin məlumatına görə, üsyan etmiş şahsevənlərin başçısı Səfiqulu xan da Əbdürrəzaq xan kimi bir müddət osmanlılara qulluq etmişdi.[12] O zaman şahsevənlər əsasən Xalxal, Qaradağ, Meşkin, Ərdəbil mahallarında və Qızıl Uzən, Kür çayları sahillərində yaşayırdılar. Muğanlılar isə, İ.H.Herberin məlumatlarına görə, Araz çayı boyunca, Muğan düzündə yaşayırdılar ki, buna görə də belə adlanırmışlar. Bu tayfalar yaylaq-qışlaq maldarlığı ilə məşğul olurdular, onların qışlaqları Xəzərsahili zolaqda yerləşirdi, Araz çayı ətrafının düzən sahələrində olan otlaqlar isə Osmanlı zonasına daxil idi.[13] Rusiya-Osmanlı sərhəd çəkilməsindən sonra şahsevən və muğanlıların böyük hissəsi Osmanlı işğal zonasında qalmışdı. Osmanlı hökuməti onların tayfa hakimini - Səfiqulu xanı öz vəzifəsində təsdiq etmiş, ancaq muğanlılar və şahsevənlər üzərinə vergilər qoymaqla onların narazılığına səbəb olmuşdu.

A.Çələbizadəyə görə, Azərbaycanda yaşayan şahsevən, şəqqaqi və başqa tayfaların üzvləri hakimiyyət orqanlarına itaətsizlik göstərir, qonşu mahallara basqınlar edirdilər. Təbriz hakimi Abdulla paşa 1728-ci il martın sonunda vanlı Əbdürrəhman paşaya 20 min nəfərlik qoşuna bu tayfalara qarşı çıxmağı əmr etmişdi. [14]

Osmanlı dəstələri Ərdəbildən çıxıb irəlilədikləri zaman öndə gedən üç min döyüşçü Əhər dairəsində üsyançıların bir dəstəsi ilə qarşılaşmışdı. Osmanlı sərkərdələri onların 500-600 adamdan ibarət olduğunu zənn edərək hücuma keçmiş, lakin 40 minə yaxın üsyançının mühasirəsinə düşmüş, yalnız böyük itki bahasına mühasirədən çıxa bilmişdilər.[15]

Ж.F.Hammer bu hadisələri təsvir edərək, Osmanlı hakimiyyətinə qarşı çıxışların geniş vüsət aldığını qeyd edir. Onun sözlərinə görə, üsyançılar Osmanlı paşasının qoşunlarını darmadağın edərək, Ərdəbili mühasirəyə almışdılar. Çıxışlar tezliklə Xalxal, Marağa və Gərmruda da yayılırdı və üsyançıların sayı çoxalırdı. Üsyanın yatırılması üçün Təbriz paşası Şirvan, Tiflis, İrəvan, Diyarbəkr və digər ərazilərdəki hakimlərdən kömək tələb etdi.[16]

1728-ci ilin iyulunda Əbdürrəhman paşa Əhər çayı sahilində sayı 7 min nəfərə çatan üsyançılarla döyüşə girdi və qələbə qazandı. Osmanlılar Muğan düzündə təqribən 4 saatlıq yol məsafəsində üsyançıları təqib etdilər. 2000 minə qədər adam öldürülmüş, 600 adam əsir götürülmüş, qalanları dağlar və meşələrdə gizlənmişdi.[17]

1728-ci ilin əvvəlində saxta şahzadə «İsmayıl Mirzə»nin[18] də fəallığı güclənirdi. O, Xəzərin cənub sahilində fəaliyyətə başlamış, əvvəlcə Mazandaran hakimi tərəfindən məğlub edilmiş, lakin bundan sonra öz ətrafına daha çox tərəfdar toplayıb rus işğalı zonasında yerləşən Şaft və Qum mahallarında fəaliyyət göstərmişdi. Lakin rus dəstələri tərəfindən məğlub edilən saxta şahzadə Təbrizə tərəf yönəlmiş, öz ətrafına topladığı şahsevən və şəqqaqilərlə Xalxal və Ərdəbilə hücum etmişdi.[19]

Saxta şahzadənin fəallaşması ola bilər, bu vaxt keçmiş şah Sultan Hüseynin müəmmalı şəkildə vəfat etməsi ilə (zəhərləndiyi güman edilir) bağlı olmuşdu.[20] Ona qarşı çıxan Mazandaran qoşununu məğlub edən saxta şahzadə Lahicana keçmişdi. General Levaşov da ona qarşı dəstə təşkil etmək istəmiş, ancaq elə həmin vaxt Gilanlı Məhəmməd Rza xan 12 min nəfərlik qoşunla saxta şahzadənin dəstələri ilə vuruşmuş və onu darmadağın etmişdi.[21] Bundan sonra ««İsmayıl Mirzə»« yenidən rus zonasına keçmiş, General Levaşovun ona qarşı göndərdiyi hərbi dəstə ilə döyüşə girmədən geri çəkilmişdi.[22]

Sonralar ««İsmayıl Mirzə»« partizan mübarizəsini davam etdirərək, daha bir neçə dəfə rus işğal zonasına hücum etmişdi, lakin hər dəfə məğlubiyyətə uğramışdı. Fevral ayında general Levaşov Gilandan Bakıya general Dolqorukiyə yazırdı ki, podpolkovnik Vasiliy Ozerov başda olmaqla rus dəstəsi tərəfindən «saxta şahzadə və qiyamçı dəstədən olan həmfikirləri» üç dəfə darmadağın edilmişlər: əvvəlcə Şaftda, sonra isə Pumində və Kesmədə. Bu zaman saxta şahzadənin tərəfdarlarından 31 nəfər öldürülmüşdür.[23] Rus zonasında möhkəmlənməyə qəti olaraq ümidini itirən saxta şahzadə Osmanlı zonasına keçdi. Burada o, keçmiş Qızılağac sultanı Becanı öz tərəfinə çəkməyə nail oldu.

Rumyansev muğanlı Əliqulu xana Becan sultanı tutub edam etməyi əmr etmiş[24], onun bu əmrini yerinə yetirən kapitan Kozlov və Əliqulu xan onun yüz nəfərdən bir az çox olan dəstəsini darmadağın etmişdilər. Becan isə qaçıb canını qurtarmış və meşədə gizlənmişdi.[25]

Becan sultan onunla birləşəndən sonra saxta şahzadə iki min tərəfdarı ilə yenidən rus işğal zonasına daxil olmuşdu. General Rumyansev ona qarşı 600 əsgər və kazakdan ibarət dəstə göndərmiş və Əliqulu xan da onlara kömək etmişdi. Bu döyüşdə saxta şahzadə məğlub olmuş və qaçmaqla canını qurtarmışdı.[26]

Rus işğal zonasında məğlubiyyətə uğradılan «İsmayıl Mirzə» yenə Osmanlı işğal zonasına - Xalxal və Ərdəbilə getmişdi.

Təbriz hakimi vəzir Əli paşanın sərəncamı ilə Mehmet ağanın komandanlığı altında 400 nəfərdən ibarət dəstə Xalxal hakimi Məhəmməd Qulu xana kömək üçün göndərildi. Ancaq gələnədək saxta şahzadə üstün qüvvələrlə gözlənilmədən Xalxala hücum etdi. Məhəmməd Qulu xan müdafiəni təşkil edə bilmədi və o vaxt bu dairədə olan II Təhmasibin Sultan III Əhmədin yanına yolladığı nümayəndəsi Vəli Məhəmmədlə Gərmrud tərəfə, Maşkul nahiyyəsinə qaçdı. Mehmet ağa bu haqda Əli paşaya məlumat verdi və əlavə kömək xahiş etdi.[27]

«İsmayıl Mirzə» bu vaxta qədər pərakəndə hərəkət edən partizan dəstələrini, o cümlədən qaradağlı Əbdürrəzaq xanın və şahsevənlərin dəstələrini də tezliklə öz ətrafında birləşdirməyə nail oldu və bu qüvvələrlə Ərdəbilə hücuma başladı.

Əbdürrəzaq xan özü Surxay xana yazırdı ki, şənbə günü bütün dəstə ilə Ərdəbil şəhərinə hücum etmiş, Qarasu qəsəbəsində osmanlılarla qısa müddət döyüşmüş, onları məğlub edib geri oturtmuş və bu zaman Səfi xan onları təqib etmişdi. İyulun ilk günlərində üsyançılar ikinci dəfə şəhərə yaxınlaşdı. Əbdürrəzaq xan hətta yazırdı ki, guya üsyançılar artıq Ərdəbili tutmağa nail olmuşlar.[28]

Rumyansev yazırdı ki, Osmanlı paşası Şirvan hakimi Surxaydan təcili 15-20 min nəfərlik qoşun toplamağı tələb etmiş, Surxay isə bu qədər döyüşçü toplamağın mümkün olmadığını bildirmişdi.[29]

Muğanlı Əliqulu xan tərəfindən iyulda Belaqarud məzrəəsində tutulmuş və Bakıya göndərilmiş Cavad qəsəbəsinin sakini Xanmirzə adlı birisi istintaqda bildirmişdi ki, onu keçmiş Salyan naibi Məhəmməd Hüseyn bəy məktubla Savalan dağlarına Səfi xanın yanına göndəribmiş. Xanmirzə demişdi ki, o, Ərdəbildə olanda Əbdürrəzaq xanı görmüş, onun qoşunlarının ümumi sayını isə 15 min nəfər təxmin etmişdi. Daha sonra Xanmirzə davam edərək söyləmişdi ki, onun orada olduğu müddətdə Səfi xanın və Əbdürrəzağın qoşunları qəsəbəyə (Ərdəbilə) girmiş, osmanlılar isə Məhəmmədqulu xanın sarayında möhkəmlənmişdilər. Döyüş olmuş, lakin üsyançılar hələ Ərdəbili tutmamışdılar. Xanmirzə saxta şahzadənin Ərdəbilin yaxınlığında yerləşdiyini, onun qoşununun sayının on min nəfərə çatdığını eşitmişdi.[30]

İran salnaməçisi Məhəmməd Kazım yazır ki, saxta şahzadə «İsmayıl Mirzə» ətrafına 5 minə yaxın tərəfdar toplayıb Xalxalı tutandan sonra təkcə Ərdəbil və Muğanı yox, bütün Azərbaycanı ələ keçirməyi qarşısına məqsəd qoymuşdu. Ərdəbilin keçmiş hakimi Osman paşa saxta şahzadəyə qarşı çıxmış, ancaq şəhər sakinləri «İsmayıl Mirzə»yə qoşulduğundan osmanlı qoşunları məğlubiyyətə uğrayaraq geri çəkilmiş, Təbrizə qayıtmışdı. «İsmayıl Mirzə» təntənəli surətdə Ərdəbilə girmiş və «öz babası» şeyx Səfinin məqbərəsini, həmçininn dağıdılmış evləri bərpa etməyə başlamışdı. Məhəmməd Kazımın sözlərinə görə, camaat onu öz hakimi kimi tanımışdı.[31]

Lakin 1728-ci il avqustunda osmanlılar üsyançıların birləşmiş qoşunlarını Ərdəbildə məğlub etməyə və onları Muğan düzü tərəfə oturtmağa müvəffəq oldular.[32] Bununla əlaqədar mənbədə deyilir ki, üsyançıların sayı kifayət qədər çox olsa da, onlar çox zəif təşkil olunmuşdular və mütəşəkkil rəhbərlik yox idi.[33]

1728-ci ilin sonu - 1729-cu ilin əvvəlində osmanlılara üsyançıları daha bir sarsıdıcı məğlubiyyətə uğratmaq, Muğan düzündə Əbdürrəzaq xanı ələ keçirmək müyəssər oldu. İ.Neplyuyev 1729-ci il 11 aprel tarixdə İstanbuldan yazırdı: «Muğan düzündə ələ keçirilmiş məşhur Əbdürrəzaq xan bura gətirilmiş və möhkəm qaravul altında saxlanılır, güman ki, edam olunacaq».[34]

A.Çələbizadənin bu münasibətlə yazdığına görə, «qara» tayfa hakimi Əbdürrəzaq xan şahsevən və şəqqaqi tayfalarının başında bir neçə dəfə Ərdəbilə hücum etmiş və Təbrizin ətrafını viran qoymuşdu. Onun basqınlarına son qoymaq üçün Surxay xan, diyarbəkirli vali İbrahim paşa, Gəncə və Tiflis mühafizləri, Ərdəlan mühafizi Xanı Mehmet paşa və Mukrin mütəsərrifi Fərrux paşanın komandanlığı altında qoşun səfərbər edilmişdi. Bu haqda məlum olanda, Dünbüllü Əli Sultan, Cəfər xan və Mənsur xanın rəhbərliyi altında Gərmrud və Marağa ətrafında qruplaşmış qızılbaş dəstələri Təbrizdə toplaşan Osmanlı qoşunlarına qarşı çıxmış, ancaq darmadağın edilmişdilər. Cəfər xan və Mənsur xan öldürülmüşdü, Əli xan isə öz döyüşçüləri ilə əsir götürülüb cəzalandırılmışdı.[35]

Rumyansev 1729-cu il 24 yanvar (4 fevral) tarixli məlumatında yazırdı ki, Osmanlı dəstələri tərəfindən məğlub edildikdən sonra Əbdürrəzaq xan və onun bir neçə tərəfdarı Surxay xana müraciət etmişlər və güman etmişlər ki, Surxay xan onları osmanlılara təslim etməz. Surxay xan isə Əbdürrəzağı osmanlılara təslim etmişdi.[36]

Saxta şahzadə «İsmayıl Mirzə», Əbdürrəzaq xan və Səfi xanın rəhbərlik etdikləri hərəkat yatırılandan sonra üsyançı dəstələri səpələndilər, lakin ayrı-ayrı həmlə və hücumları hələ uzun müddət davam etdirdilər. Belə dəstələrdən birinə artıq adı xatırlanan Becan sultan başçılıq edirdi. General Levaşov feldmarşal Dolqorukiyə 1729-cu il 5 (16) fevral taprixli məlumatında sevinclə xəbər verirdi ki, Becan Ərdəbil ətrafında vuruşmada osmanlılar tərəfindən məğlub edilmiş, o, aldığı yaradan ölmüşdür, onun oğlanları və arvadları günahlarını boynuna alaraq rus komandanlığına gəlmişlər.[37] Lakin sonradan Becanın ölümü haqqında xəbər yalan çıxmışdı: 1729-cu ilin aprelinə qədər «o, qiyamçılarla bir yerdən digər yerə keçirdi». 1729-cu ilin yazında Becan sultan II Təhmasibə yazırdı ki, artıq yeddi ildir ki, 600-700 və bəzən 1000 nəfərlik qoşunla osmanlılar, əfqanlar və ruslarla döyüşür.[38] General Levaşov 1729-cu ilin avqustunda Dolqorukiyə xəbər verirdi ki, Becan sultan dağlarda Tarim və Sultaniyyə arasında gizlənir, onun yanında 500 nəfərə yaxın adam var. Eyni zamanda Levaşov gizlicə Becana osmanlılara qarşı mübarizəni davam etdirməyi məsləhət görür. Levaşov hesab edirdi ki, lazım olanda Becan Gilanda da gizlənə bilər, onu orada axtarmaq osmanlıların ağlına gəlməz, belə ki, onlar Becanı Rusiyanın aşkar düşməni hesab edirlər.[39] Levaşovun bu etirafı rus siyasətçiləri və sərkərdələrinin riyakar, məkrli siyasət yeritdiyini göstərir.

Sarsıdıcı məğlubiyyətlərə baxmayaraq «İsmayıl Mirzə» hələ bir müddət də öz fəaliyyətini davam etdirmişdi. 1729-cu ilin mayına aid məlumata görə, o, yenidən Ərdəbilə hücum etmək niyyətində imiş. Bununla əlaqədar paşaya həm Ərdəbildə, həm də «Saravda» (yəqin ki, Təbriz və Ərdəbil arasındakı yolun yarısında yerləşən Sərab nəzərdə tutulur) təcili qala tikmək əmr olunmuşdu.[40]

1729-cu ilin yayında Osmanlı hakimiyyət orqanlarına saxta şahzadənin qüvvələrini qəti olaraq darmadağın etmək müyəssər oldu.[42] Məğlub edilmiş «İsmayıl Mirzə» 2 min tərəfdarı ilə Muğanın rus idarəsi altında yerləşən hissəsinə keçmiş və burada yaşayan şahsevənləri ayağa qaldırmağa cəhd etmiş, ancaq ona inam itdiyindən müdafiə olunmamışdı. General Rumyansev saxta şahzadəyə qarşı 650 nəfər göndərmiş və iyulun 26-da saxta şahzadənin tərəfdarları məğlub edilmiş, o özü isə 10-15 üsyançı ilə qaçmağa müvəffəq olmuşdu.[42] Bundan sonra müəyyən müddət saxta şahzadə üsyançıların sağ qalmış rəhbərlərindən Asan (Həsən) adlı birisi ilə Mosul qəsəbəsində gizlənmişdi. 1729-cu il avqustun 10-da onlar hamama getmiş, orada sakinlər tərəfindən öldürülmüşdülər.[43]

Nadir şahın saray tarixçisi Məhəmməd Kazımın yazdığına görə, saxta şahzadə «İsmayıl Mirzə» şahsevənləri ona qoşulmaq üçün dilə tutmağa cəhd etmiş, ancaq onlar imtina edərək, onu gecəyarısı yuxuda olarkən öldürmüş, başını kəsərək rus hərbi rəisinə göndərmişdilər.[44] Saxta şahzadənin öldürülməsi haqqında general Levaşov xarici işlər kollegiyasına göndərdiyi 1729-cu il 25 sentyabr (6 oktyabr) tarixli raportunda yazmışdı. Onun sözlərinə görə, saxta şahzadə bir neçə tərəfdarı ilə Rəştin yaxınlığında yerləşən Mosulu qəsəbəsində gizlənmişdi[45], ora dağlıq yer idi və keçilməzliyinə görə rus hökumətinə tabe olmurdu. Mosulunun sakinləri, başlıca olaraq dəmirçiliklə məşğul olurdular, taxılı isə digər kəndlərdən gətirirdilər.[46]

General Levaşov bu kəndə taxıl gətirilməsini dayandırmaq üçün tədbir görməyi əmr etmiş və Şaftın nüfuzlu feodalı Səlim xana Mosulu feodalı Mir Fazili saxta şahzadənin ələ keçirilməsi və ya öldürülməsinə razı salmaq tapşırmış, bunun müqabilində ona mükafat və ərzaq vəd etmişdi. [47]

Səlim xana Levaşovun bu tapşırığını yerinə yetirmək müyəssər oldu. Mir Fazil və onun adamları fırıldaqçını və onun daha 20 tərəfdarını hamamda öldürmüş, sonra isə Levaşovun yanına gələrək, rus hökumətinə sədaqət andı içməyə hazır olduqlarını bildirmişdilər. Levaşov Mir Fazili bahalı xalat və digər hədiyyələrlə mükafatlandırmışdı.[48]

1730-cu il 11 (22) iyul tarixdə Rumyansev Dərbənddən xarici işlər kollegiyasına yazırdı ki, saxta şahzadənin qüvvələrinin qalıqları Bədirxan və Əli bəyin rəhbərliyi altında Muğanda rus işğal zonasına basqın etmiş, amma rus hərbi dəstəsi tərəfindən geri oturdulmuşlar.[49] Rumyansev xəbər verirdi ki, bu zaman hücum edənlərdən 100 nəfəri Arazda boğulmuş, 5 nəfəri isə əsir alınmışdır.[50]

Azərbaycanda və Gilanda Osmanlı və Rusiya idarəçiliyinə qarşı xalq çıxışları və partizan müharibəsi Osmanlı imperiyasının vəziyyətini son dərəcə mürəkkəbləşdirdi və onu yeni qoşun bölmələri yaratmaq üçün fövqəladə hərbi səfərbərlik tətbiq etmək məcburiyyəti qarşısında qoydu.[51]

Qaynaqlardan göründüyü kimi, Azərbaycan torpaqlarında müvəqqəti Osmanlı idarəçiliyi dövründə Səfəvilərin inzibati idarəçilik sistemi və aqrar münasibətlər, vergi sistemi cüzi dəyişikliyə uğramışdı. Sancaq adlandırılan yeni inzibati vahidlərin sərhədləri müəyyən dərəcədə keçmiş bəylərbəyiliklərin sərhədlərinə uyğun idi, amma bəzi hallarda onların ərazisi kiçilmişdi. Əyalətlərdə ali hərbi-inzibati, siyasi hakimiyyət osmanlı hərbi rəislərinin əlində cəmlənmişdi. Mahal (nahiyyə) naibləri və kəndxudalar əsasən yerli feodallardan təyin olunurdu. Kür çayından şimaldakı torpaqlar (Zahur, İlisu, Ərəş) vassal hakimlər tərəfindən idarə olunurdu.

Osmanlılar hərbi əməliyyatlar nəticəsində əhalinin ağır vəziyyətə düşdüyünü nəzərə almağa məcbur olmuş, bəzi vergilərin alınmasını müvəqqəti dayandırmış, bəzi vergiləri isə ümumiyyətlə ləğv etmişdilər. Osmanlı idarəçiliyi dövründə vergi və rüsumların yığılması əsasən nizama salınsa da, müəyyən özbaşınalıq halları da müşahidə olunurdu. Qarabağın dağlıq hissəsinin əsasən xristianlardan ibarət sakinləri vergiləri verməkdən boyun qaçırır, silahlı dəstələr təşkil edərək əlçatmaz yerlərdə gizlənirdilər.

Osmanlı idarəçiliyinə qarşı üsyan və çıxışlar baş verirdi ki, bunlardan ən böyüyü 1727-ci ilin sonunda Qaradağda Əbdürrəzzaq xanın rəhbərliyi ilə olmuşdu. Şahsevən tayfasından olanlar və saxta şahzadə «İsmayıl Mirzə» də tezliklə üsyana qoşulmuşdu. Mənbələrdən üsyana rəhbərliyin zəif olması, üsyançıların qeyri-mütəşəkkilliyi aydınlaşır. Amma bu üsyanı Osmanlı hakimiyyət orqanları böyük hərbi qüvvələr sərf etmək hesabına yatıra bildi.

## III FƏSİL

# XVIII ƏSRİN İKİNCİ RÜBÜNDƏ XƏZƏRYANİ REGİONDA RUS-OSMANLI-İRAN RƏQABƏTİ

1726-cı ildə Avstriya-Rusiya müqaviləsi bağlanandan sonra Avstriyanın simasında Osmanlı dövlətinə qarşı müttəfiq qazanan Rusiya yenidən öz təsirini Cənubi Qafqazın içərilərinə yaymağa cəhd etdi. Bu bölgənin bəzi xalqları, xüsusilə xristianlar arasında özünə dayaq axtaran rus hökuməti hər cür vasitə ilə onları Osmanlı imperiyasına qarşı mübarizəyə qaldırmağa çalışırdı. Xəzəryanı regiondakı rus qoşunlarının baş komandanı general-feldmarşal Dolqoruki Osmanlı dövlətinin Əşrəf tərəfindən məğlubiyyətə uğramasından sonra regionda mövqeyinin zəifləməsini nəzərə alaraq, Cənubi Qafqazda ermənilərin mövqeyini möhkəmləndirmək üçün rus ordusunun fəallaşdırılmasını zəruri hesab edirdi. Rus hərbçiləri ermənilərə kömək göstərməyə, o cümlədən onlara pul, barıt, qurğuşun və tüfəng üçün çaxmaq daşları verməyə başladılar.[1] Rus hərbçilərinin Xəzəryanı regionda bu cür hərəkətləri Azərbaycanda Rusiya-Osmanlı münasibətlərini yenidən kəskinləşdirdi. Buna bəzi yaşayış məntəqələri, xüsusən onların Xalxal üstündə ixtilafı da təsir edirdi. 1728-ci il avqustun 2-də Ali Məxfi Şurada qərara alınmışdı ki, Xalxal Xəzər dənizinin yaxınlığında yerləşdiyindən və rus zonasında yerləşən Kərgərudla həmsərhəd olduğundan general Levaşov osmanlıları ora buraxmamalı, bunu, Rusiya-Osmanlı müqaviləsinə görə, Xalxalın İran zonasında yerləşməsi ilə əlaqələndirməlidir.[2]

Osmanlı tərəfi öz iddialarından imtina etmədiyi halda Levaşov Xalxalın bitərəf ərazi sayılmasını təklif etməli idi.[3] Eyni zamanda, əgər osmanlılar Astara və Kərgəruda daxil olmağa cəhd etsə idilər, Levaşov buna yol verməməli, lazım gələrsə, silah işlətməli idi.[4] 1728-ci ilin iyununda Osmanlı hökuməti Neplyuyevdən Levaşova Xalxala qoşun göndərməməsi barədə məktub yazmağı tələb etdi.[5] Neplyuyev bu tələbi yerinə yetirmədi, ancaq onun barəsində öz hökumətinə məlumat verəcəyini bildirdi.[6]

Rusiya-osmanlı münasibətlərində münaqişələr tez-tez sakinlərin bir işğal zonasından digərinə keçməsi ilə bağlı yaranırdı. Osmanlı hakimiyyət orqanlarının etirazına baxmayaraq, Xəzəryanı bölgələrdəki rus zabitləri, Ali Məxvi Şuranın göstərişlərinə əməl edərək, sakinlərin osmanlı zonasından Rusiya zonasına keçməsinə nəinki mane olmur, hətta onları şirnikləndirirdilər. 1729-cu ildə saxta şahzadə «İsmayıl Mirzə»nin keçmiş müttəfiqi Səfi xan «öz çadırları» ilə Rusiya təbəəliyinə keçdi [7] və Beşbarmaq yaxınlığında yerləşdirildi.[8] Ancaq iki ildən sonra onunla rus poruçiki Peterson arasında bizə məlum olmayan səbəblərdən münaqişə baş vermiş və o, Rusiya zonasını tərk etmişdi.[9]

Osmanlı hakimiyyət orqanları da rus işğal zonasındakı yerli feodalları öz tərəflərinə çəkməyə çalışır və bəzi hallarda buna nail olurdu. Məsələn, adlı-sanlı Astara feodalarından olan Veysəl 1727-ci ildə darğa Səlimlə Osmanlı tərəfə keçmişdi.[10] Ondan qabaq Əsgər adlı birisi belə hərəkət etmişdi. General Levaşovun məlumatına görə, ərdəbilli Mustafa paşa dəfələrlə «nəvazişli məktublarla» astaralı Musa xanı öz tərəfinə keçmək üçün razı olmağa çalışırdı.[11]

Osmanlılar Veysəlin və öz tərəflərinə çəkdikləri digər yerli adamların köməyi ilə Xəzər sahilindəki Rusiya hökumət orqanlarına çoxlu zərər yetirirdilər. Adı çəkilən Veysəlin 1728-ci ildə Astara və digər mahallara bir sıra partizan basqınları[12] haqqında İ.Neplyuyevə məlumat verən Levaşov onun özü kimi «xainlərlə» birləşərək, cəmi 600-700 nəfərlə Astara əyalətinə hücum etdiyini yazırdı.[13]

1728-ci ilin yayında Hacı Davudun yerinə Şirvan hakimi təyin olunan Surxay xan ruslara xüsusilə böyük başağrısı verirdi. Həmin il dekabrın son günlərində Surxay öz dəstələri ilə Arazın cənub tayına keçmiş, orada Gəncə və Təbriz paşalarının qüvvələri ilə birləşmişdi. Beləliklə, 15 min döyüşçü yığan[14] Surxay xan general Rumyansevin tərəfindən onun yanına göndərdiyi mayoru belə xəbərdarlıqla buraxmışdı ki, o, itaət göstərməyən şahsevənləri cəzalandırmaq üçün Rusiya işğal zonasına daxil olur.[15] Surxay xan rusların Kür çayı sahilində inşa etdikləri qalaya[16] hücum edib dağıtmış, ətrafda talanlar törətmişdi.[17]

Surxay xanın hərəkətlərindən hiddətlənmiş general Rumyansev Gəncəyə Mustafa paşaya məktubla qasid göndərmişdi. Məktubda vurğunalırdı ki, Osmanlı qoşunları tərəfindən darmadağın edilmiş, Azərbaycanda antiosmanlı çıxışlarının başçıları Səfi xan, saxta şahzadə «İsmayıl Mirzə» və Əbdürrəzaq xan, onların dəstələrinin qalıqları Rusiya zonasına keçmiş, o vaxt rus hakimiyyət orqanları tərəfindən saxta şahzadənin etimad-dövləti (birinci naziri), onun iki oğlu və arvadı, həmçininn Əbdürrəzağın arvadı

həbs edilmişdilər. Rumyansev bununla demək istəyirdi ki, onların hakimiyyət orqanları öz öhdəliklərini yerinə yetirir, qiyamçı və üsyançıların osmanlılara qarşı yönəlmiş hərəkətlərinin qarşısını alır. Eyni zamanda Rumyansev Şirvanın yeni hakmi Surxay xanın hərəkətlərini qeyri-qanuni hesab edir və hədələyirdi ki, əgər o, «heç olmasa bir az sərhəddən içəri girərsə, Surxayın Şamaxıya yaxın torpaqlarındakı camaatı cəzalandıracaq».[18] Cavabında Mustafa paşa Surxaya rus zonasına daxil olmağı qadağan edən əmr göndərəcəyini vəd etdi.[19] Həmin vaxtda osmanlılar İ.Neplyuyevdən rus tərəfinə keçən və Salyan qalasına aparılan «qi-yamçıları» Osmanlı hökumətinə verməyi tələb etdikdə Neplyuyev rusların da bəzi qiyamçılara və saxta şahzadəyə qarşı vuruşmalarını bəhanə edərək rədd cavabı verdi.[20] Yenə də diqqət «İsmayıl Mirzə»nin etimad-dövləti, onun ailəsi, həmçininn Əbdürrəzağın ailəsinin ruslar tərəfindən əsir götürülməsinə yönəldildi. Rəis-ül-kittab qiyamçıların və onların ailələrinin verilməsini tələb etdi, çünki «bu cür qiyamçının, uşaqlarının və onun adqerentlərinin (köməkçilərinin - T.M.) heç bir hüquq əsasında Rusiyanın özündə saxlamağı münasib deyil».[21] 1729-cu il fevralın 19-da İ.Neplyuyevə elan edildi ki, Osmanlı hökuməti rus sarayına Əbdürrəzağın uşaqlarını və onların köməkçilərini[22] vermək tələbi ilə diplomatik nümayəndə göndərəcək.[23]

Amma Osmanlı hakimiyyət orqanları da rus komandanlığının onun işğal zonasına hücum etmiş günahkarların cəzalandırılması və vurulan ziyanın ödənilmməsi haqqında çoxsaylı tələbinə baxmır və bu istiqamətdə heç nə etmirdi.[24]

Osmanlı dəstələrinə və Surxay xanın qoşununa Əbdürrəzaq xan və Səfi xanın dəstələrinin qalıqlarını təqib etmək üçün rus zonasına girməsinə bəhanə verməmək üçün rus qoşunları üsyançıların Xəzərsahili bölgələrə daxil olmasına mane oldular.[25]

Rusiya hökuməti tərəfindən Cənubi Qafqazda Osmanlı imperiyasına qarşı mübarizə aparan müxtəlif qüvvələrə kömək göstərilməsi onların münasibətlərini kəskin surətdə gərginləşdirdi. İ.Neplyuyev Vyanadakı rus səfiri Lançinskiyə 1729-cu il 23 fevral (6 mart) tarixli məxfi məktubunda Osmanlı imperiyasının Rusiya və Avstriyaya qarşı hərbi əməliyyatlara hazırlaşması haqqında yazırdı. Anadoludan süvarilərin Avstriya sərhədlərinə - Niş, Vidin və Xoyneyə, Makedoniyadan isə Bosniyaya qoşun, artilleriya və amunisiyanın Rusiya ilə sərhədə - Azova, həmçininn Diyarbəkir və Ərzurumdan Cənubi Qafqaza göndərilməsi bunu sübut edirdi.[26]

1729-cu ilin əvvəlində Osmanlı sarayının tərcüməçisi Neplyuyevə məxfi olaraq bildirmişdi ki, bütün sərhədyanı paşalar, həmçininn Surxay xan Osmanlı sarayını Rusiyanı Səfəvi torpaqlarından sıxışdırmağa çağırırdılar, çünki rus komandirləri yerli əhalini Osmanlı imperiyasına qarşı qaldırdığına görə o, Cənubi Qafqazda möhkəmlənə bilməzdi.[27]

1729-cu il martın əvvəlində rəis-ül-kittabın dəftərxana katibi Neplyuyevə bəyan etmişdi ki, aprelin sonunda qoşunun Asiyaya göndərilməsi üçün hazırlıq gedir. 50-60 min döyüşçüdən ibarət olan ordu iki yerə bölünərək, Gəncə və Təbriz istiqamətində hərəkət etməli idi. Qoşun üçün azuqə Təbrizə Di-yarbəkirdən, Gəncəyə isə Qara dəniz və Gürcüstan vasitəsilə göndərilirdi.[28]

Neplyuyev 1729-cu il 13 (24) may tarixli məktubunda Rumyansevə yazırdı ki, osmanlılar özlərini sakit aparırlar, bu yalnız ona görədir ki, yaranmış şəraitdə onlar hərbi əməliyyatlara başlamaq iqtidarında deyillər.[29] Doğrudan da münaqişəni hərbi qüvvə ilə həll etmək üçün hələlik imkanı olmayan Osmanlı sarayı Rusiyaya diplomatik təzyiqini davam etdirirdi. 1729-cu il iyulun 13-də rəis-ül-kittab Neplyuyevə bildirmişdi ki, Rusiyanın Muğana heç bir hüququ yoxdur, osmanlılar müqaviləyə uyğun olaraq, yalnız Şirvanda sərhədləri tanıyırlar.[30]

1729-cu il avqustun sonu - sentyabrın əvvəllərində Osmanlı tərəfi Neplyuyevdən rusların dağlarda Ərdəbil və Astara arasında, Qarasu çayının sahilində Bayraqdar adlanan qalanın tikilməsini dayandırmalarını tələb etdi, çünki bu yer Ərdəbildən[31] bir saat yarım məsafədə idi və müqaviləyə əsasən, «mübahisəli yerdə», yəni sərhədin müəyyən olunmadığı yerdə ikitərəfli razılıq olmadan istehkam tikmək olmazdı.[32]

General-feldmarşal V.Dolqoruki özünün imperatriçəyə 1729-cu il 2 (13) iyul tarixli məlumatında osmanlıların işğal etdikləri ərazilərdə öz qoşunlarını artırmaları haqqında hə-yəcanla yazırdı. [33] Bununla əlaqədar, Rusiya da Ukrayna və Xəzərsahilin regionda öz hərbi qüvvələrini artırmaq haqqında qərar qəbul etdi. Osmanlı təcavüzü zamanı Rusiya və Avstriya bir-birilərini ittifaq müqavilələrindəki öhdəliklərinə dəqiq əməl edəcəklərinə əmin etdilər. [34]

Osmanlı tərəfdən müdaxilə təhlükəsinin artması Rusiya hökumətini qabaqcadan əks tədbirlər görməyə məcbur edirdi. Bu vaxt artıq məxfi Şuranın üzvü olmuş V.Dolqoruki 1729-cu il mayın 11-də Osmanlı qoşunlarının rus zonasına soxulması təqdirində yerli əhalini onlara qarşı qaldırmaq üçün 3-4 yüz əsgəri, həmçininn muğanlı Əliqulu xanı öz döyüşçüləri ilə Qarabağa göndərməyi təklif edirdi. Onun

fikrincə, bu, osmanlıların arxasında çaxnaşma törədər və onlar Gəncəni müdafiə etmək üçün qoşunlarını geri göndərməyə məcbur olar. Xəzəryanı bölgələrdə rus qoşunlarının komandanı general Rumyansev Dolqorukinin təklifinə etiraz etdiyinə görə təklif, Ali Məxfi Şurada qəbul olunmadı. Rumyansev öz etirazını, birincisi, Qarabağa göndəriləcək rus dəstəsini ərzaqla təmin etməyin çətinliyi, ikincisi, münaqişə olarsa, Muğanı mümkün hücumlardan qorumaq üçün Əliqulu xanın Muğanda qalmasının zəruriliyi ilə əsaslandırırdı. [35]

Ancaq tezliklə o da Dolqorukinin təklifi ilə razılaşdı, əlavə olaraq təklif etdi ki, osmanlılarla yaxşı münasibətdə olmayan carlıların da qüvvəsindən istifadə edilsin. Yəni «parçala və hökm sür» prinsipinə uyğun olaraq, carlıları Osmanlı dövlətinə qarşı qaldırmaq və Rusiya himayəsində olan avar usmisini də buna təhrik etmək nəzərdə tutulurdu. [36]

Lakin bu zaman Osmanlı tərəfi öz qoşunlarının irəliləməsini dayandırdı və 1729-cu ilin iyulunda danışıqlar aparmaq üçün Moskvaya nümayəndə göndərdi. Nümayəndəyə Rusiya ilə Osmanlı imperiyası arasında Qafqazda sərhəd münaqişələrinin nizama salınması və nüfuz dairələrinin müəyyənləşdirilməsinə aid razılığa gəlmək tapşırılmışdı.[37]

Amma Rusiya-Osmanlı münasibətlərində gərginliyin müəyyən qədər səngiməsinə baxmayaraq, Surxay xanın Xəzəryanı bölgələrə basqınları yenə də davam edirdi. 1729-cu ilin sonunda Dərbənd yaxınlığında Surxayın dəstələri ilə rus hərbçiləri arasında qanlı döyüş baş verdi.[38] Bu döyüşdə Surxay xanın oğlu Qaçay bəy də həlak olmuşdu.[39]

Xəzəryanı bölgədə öz vəziyyətini möhkəmləndirmək üçün rus hökuməti diplomatik addımlara da əl atırdı. 1729-cu il 13 (24) fevralda general Levaşov Rəştdə Əşrəfin nümayəndəsi Mahmud Saydal xanla müqavilə bağladı. Müqaviləyə əsasən, Rusiya Astrabad və Mazandaran əyalətlərini Əşrəfə «güzəştə» gedirdi. Əfqan tərəfi aldığı «güzəşt»in əvəzində digər Xəzəryanı əyalətlər üzərində Rusiyanın hakimiyyətini tanıdı.[40]

Lakin əfqanların hökmranlığına tezliklə son qoyuldu. 1729-cu ilin fevralında II Təhmasib Şiraz istiqamətinə çıxdı və ətraf əraziləri tutaraq, şəhəri mühasirə etdi. Əşrəf Məhəmməd Saydal xanın 30 min nəfərlik korpusu ilə birləşərək, mühasirədə olan əfqanlara kömək etmək üçün tələsik 8 min nəfərlik döyüşçü ilə İsfahandan çıxdı.[41] Bu xəbəri alan II Təhmasib, Nadirin məsləhəti ilə mühasirəni ləğv edərək, Əşrəfin qarşısına çıxdı. Vuruşma baş verdi və əfqanlar məğlub oldular. Əşrəf öz qoşunlarının qalıqları ilə İsfahana, Saydal xan isə 10 min döyüşçü ilə Bəndər Abbasa tərəf çəkildi. Nadir Şiraz yaxınlığında sonuncuya çataraq onu darmadağın etdi.[42] Əfqan ordusunu darmadağın edərək, Nadir Şirazın mühasirəsini bərpa etməyib birbaşa İsfahana hərəkət etdi. Özünün bütün ordusunu itirən Əşrəf İsfahanda durmağa ümid etmirdi və ona görə də şəhəri talan edərək, 1729-cu ilin noyabrında bir ovuc tərəfdarı ilə Qəndəhara qaçdı. Qaçmaq ərəfəsində Butkovun sözlərinə görə, Əşrəfin əmri ilə dustaqda olan şah Hüseyn və hələ də sağ olan böyük oğlu Səfi Mirzə öldürüldülər. Tezliklə Əşrəf özü də yaxın adamları tərəfindən öldürüldü.[43]

Nadirin hakimiyyəti altında İran dövlətinin dirçəlməsi və möhkəmlənməsi ilə əlaqədar təbii ki, İran keçmiş Səfəvi dövlətinin torpaqlarını qaytarmağa cəhd etdi. İsfahana daxil olan kimi II Təhmasib yenidən Osmanlı imperiyasından əvvəllər Səfəvi imperiyasına məxsus olan bütün torpaqların qaytarılmasını tələb etdi. Onun elçisi Vəli Məhəmməd xan əvvəllər təklif olunmuş sülh şərtlərini, bir neçə yeni bənd əlavə etməklə yenidən irəli sürdü. Lakin Təhmasib qulu xanın (Nadirin) İrəvan tərəfə hərəkət etməsi haqqında məlumat alındığından Osmalının hakim dairələri fikirləşdilər ki, şah sarayı sülh haqqında danışıqlarla yalnız diqqəti yayındırmaq və vaxtı udmaq istəyir. Ona görə Vəli Məhəmməd xan onu müşayiət edən şəxslərlə həbs olunub Mardin qalasına salındı.[44]

Bundan sonra hərbi əməliyyatlar yenidən başlandı. Qeyd etmək lazımdır ki, Osmanlı imperiyasının daxilində bu dövrdə siyasi şərait son dərəcə gərgin idi. 1730-cu ilin sentyabrında İstanbulda Sultan III Əhmədin süqutuna səbəb olmuş Patron Xəlilin rəhbərliyi altında üsyan[45] baş vermişdir. Bu çıxış üçün qığılcım Osmanlı komandanlığının Təbrizin İran qoşunlarına təslim edilməsi haqqında gizli sövdələşməsi olmuşdu. Bu sövdələşməyə qarşı çıxan yeniçərilər tezliklə qətlə yetirilmişdilər. Belə ki, daxili ziddiyyətlərlə parçalanan Osmanlı imperiyası hücum edən düşmənə lazımi müqavimət göstərə bilmirdi. Çoxlu Azərbaycan feodallarının Səfəvi dövlətinin bərpa olunması ilə yenidən şah hakimiyyət orqanlarının tərəfinə keçməsi də bunda az rol oynamadı, belə ki, 1730-cu ilin sonunda II Təhmasib Uğurlu xanı 700 nəfərlik dəstə ilə Gəncə tərəfə göndərmiş və o, Bərdə və Bərguşadda 12 min nəfərlik qoşun yığa bilmişdi. İbrahim paşanın yanında qulluq edən «İran çərik» ordusu da Qara bəy başda olmaqla Uğurlu xana qoşuldu.[46]

1730-cu ildə II Təhmasib Təbrizi mühasirəyə alanda, Cəfərqulu xan da ona qoşuldu. Osmanlı qoşunlarının sərəsgəri Köprülü Abdulla paşa, Təbrizin mühasirəsi haqqında məlumat alaraq, mühasirədə olan qarnizona köməyə tələsdi, ancaq yolda onun qoşunları darmadağın edildi və İrəvana tərəf geriyə atıldı.[47] 1730-cu ilin sentyabrında Təbrizdəki Osmanlı qornizonu təslim oldu.[48] Türkiyə tarixçisi İ. H. Danişmənd yazır ki, Təbriz sərəsgəri, hökumətin məxfi əmrini yerinə yetirərək, özünün 70-80 min döyüşçüsünü taleyin hökmünə buraxdı və gecə Təbrizi tərk etdi. Şəhərə daxil olan qızılbaş qoşunları minlərlə osmanlı döyüşçülərini və şəhərdə olan dinc osmanlı vətəndaşlarını qırdılar.[49] Həmin vaxtlarda osmanlılar Həmədanı da itirdilər.[50]

II Təhmasibin qoşunları Ərdəbili də mühasirəyə aldılar, ancaq şəhəri ələ keçirmək cəhdi uğursuzluqla nəticələndi. Gəncəli İbrahim paşa Şirvan hakimi Surxay xandan öz qoşunu ilə ona birləşməyi və Ərdəbilin köməyinə yola düşməyi tələb etdi. Surxay xan cəmi 3 min nəfərlik qoşun yığdı, lakin özü bu yürüşə çıxmaq istəmədi və qoşunu oğlunun komandanlığı altında göndərmək fikrində idi.[51] Bu vaxt Xəzəryanı bölgələrlə həmsərhəd olan Ərdəbildən osmanlıların sıxışdırılmasında maraqlı olan Rusiya hökuməti Gilandakı qoşunlarının komandanı general Levaşova şah qoşunlarına kömək göstərmək haqqında göstəriş verdi.

Rus zabitləri hər vasitə ilə osmanlıların Xəzər sahilindən getməsinə nail olmağa çalışırdılar. Məsələn, general Levaşov 1730-cu ilin oktyabrında imperatriçə Anna İoannovnaya yazırdı ki, o bu məqsədlə yanına çağırdığı iki osmanlı tacirə guya qızılbaşların hər tərəfdən Təbrizə doğru hərəkət etdiyini söyləmiş, bu haqda Təbriz paşasını xəbərdar etməyin zəruri olduğunu bildirmişdi.[52] Levaşovun fikirincə, guya məhz bu xəbərin qorxusu paşanın bir dəstə ilə gecə Təbrizdən çıxıb getməsinə səbəb olmuşdu.[53]

Levaşov həmin tacirlərə iranlılar tərəfindən mühasirəyə alınmış Ərdəbil paşasına, son anda öz dəstəsi ilə Astaraya rusların müdafiəsi altına keçməyi təklif etmələrini məsləhət görmüşdü. Levaşov general-mayor Famitsına osmanlıları Ərdəbili tərk edib rus zonasına keçəcəkləri təqdirdə qəbul edib, mənzil və azuqə ilə təmin etməyi tapşırmışdı.[54]

M.S.İvanov və F.M. Əliyev general Levaşovun ikili oynunu qeyd edib təsdiqləyirlər ki, o, Ərdəbil paşasına sığınacaq təklif etmiş, eyni zamanda isə Nadirə kömək üçün paltarını dəyişmiş bir neçə rus zabiti və artilleriya göndərmişdi.[55] Levaşov 1730-cu il 26 sentyabr (7 oktyabr) tarixli raportunda imperatriçəyə yazırdı ki, Ərdəbildən osmanlıları dəvət edərək, o, belə bir cəhəti də nəzərə alırdı ki, ola bilər, iranlılar, Astaraya da hücum etsinlər, orada isə rusların kifayət qədər qoşunları yoxdur və gələn osmanlılardan əlavə qüvvə kimi istifadə etmək olar.[56]

Qeyd etmək lazımdır ki, Levaşov osmanlıların getməsinin İran tərəfinə də faydalı olacaqanı yazıb Ərdəbilin mühasirəsinə rəhbərlik edən İran sərdarına da bildirmişdi.[57]

Ərdəbil hakimi Əli paşa əvvəlcə şəhəri iranlılara təslim etmək istəmirdi və hətta Levaşova 1500 nəfərdən ibarət rus dəstəsini iki zabitlə Ərdəbilə göndərməyi təklif etdi ki, o, «şəhərin bütün topları və bütün sursatını onlara təhvil verə bilsin.[58] O, zabitlərdən birinin 500 nəfər əsgərlə şəhərdə qalmasını, qalan 1000 nəfərin onları Gəncəyə qədər müşayiət etməsini istəyirdi.[59]

Nəhayət ki, 1731-ci ilin yanvarında osmanlılar Ərdəbildən çıxaraq Astaraya gəldilər. Astara komendantı general-mayor Famitsın osmanlıları müşayiət etmək məqsədi ilə dəstə və yol xərcləri üçün 6 min quruş məbləğində pul (3000 rubl) ayırdı.[60]

Əli paşanın dəstəsi ilə Gəncəyə yollanacağı nəzərdə tutulmuşdu. Lakin Surxay xanın onları müşayiət üçün tələb olunmuş 3000 nəfər döyüşçünü Arazın Kürlə birləşdiyi yerə göndərməməsi onların Bakıdan keçib getməsi ilə nəticələndi və onlar 1731-ci ilin martında Şamaxıya gəldilər.[61]

Osmanlı imperiyasında daxili siyasi vəziyyət 1731-ci ilin əvvəlində müəyyən dərəcədə sabitləşdi və hökumət İran və Qafqaz işləri ilə daha yaxından məşğul olmağa yenidən imkan qazandı. 1731-ci il mayın 7-də qazıkumuklu Surxay xana Sultan İ Mahmudun (1730-1754) «name-yi humayun»u göndərildi. Məktubda deyilirdi ki, göstərdiyi xidmətlərin müqabilində Şirvan vilayəti Surxay xana «yurdluq və ocaklıq» verilmişdir və o, qızılbaşları dəf etmək üçün Gəncə mühafizi İbrahim paşa, İrəvan bölgəsi sərasgəri vəzir Əli paşa ilə birgə hərəkət etməlidir.

1731-ci ildə osmanlı qoşunlarının Cənubi Qafqaza və İrana yeni, bu dəfə qısamüddətli hücumu başladı. 1731-ci il avqustun 10-da Əhməd paşa döyüşsüz Kirmanşahı tutdu. II Təhmasibin uğursuz əməliyyatları da osmanlıların müvəffəqiyyətinə şərait yaratmış. Belə ki, 1731-ci ildə Nadir Xorasanda qiyamın yatırılması ilə məşğul olduğu zaman II Təhmasib öz nüfuzunu qaldırmaqdan ötrü İrəvan və Naxçıvana yürüş etmiş, lakin məğlubiyyətə uğramışdı.[62] Bundan faydalanan Osmanlı qoşunları irəliləyib böyük itki bahasına Urmiya şəhərini tutmuşdu.[63] İstanbuldan alınan məlumata görə, 1731-ci ilin

oktyabrında Həkimoğlu Əli paşa artıq Təbriz şəhərini mühasirəyə almışdı. Əhalinin tərk etdiyi şəhəri bu zaman yalnız şah dəstələrinin qüvvələri çətinliklə müdafiə edirdi. Ələ alınmış sərkərdələrdən birinin xəyanəti sayəsində Əli paşa heç bir çətinlik çəkmədən 1731-ci il dekabrın 15-də Təbrizi ələ keçirə bildi[64] və bu münasibətlə İstanbulda üç gün atəşfəşanlıq edildi. Təbrizin alınması ilə əlaqədar Sultan İ Mahmuda fəxri qazi adı verildi. [65]

Levaşovun və baron Şafirovun 1732-ci il 20 (31) mart tarixli raportundan Təbrizin ikinci dəfə osmanlılar tərəfindən tutulması haqqında məlum olur ki, II Təhmasib şəhəri müdafiəsiz qoymuş, onun idarə edilməsini əvvəlcə xalxallı Məhəmmədqulu xana, sonra isə Bisütun xana həvalə etmiş imiş.[66] Məhəmmədqulu xan özünün vəzifədən götürüldüyünü bilərək karvansaranı və varlı evləri talayıb Xalxala getmişdi. Bisütun xan da Təbrizdə çox davam gətirmədi. Əli paşanın çoxsaylı qoşunlarla yaxınlaşdığını eşidən kimi, öz oğlunu 1500 döyüşçü ilə orada qoyaraq şəhəri tərk etdi. Sakinlərin əksəriyyəti də şəhəri tərk etdi, yalnız iki minə yaxın ən yoxsulu qaldı. Osmanlı qoşunları Təbrizə yaxınlaşanda Bisütun xanın oğlu da döyüşçüləri ilə şəhəri tərk etdi. [67]

1731-ci ilin sonunda Ərdəbil yenidən Osmanlı qoşunları tərəfindən tutuldu və Əli paşa onun hakimi təyin olundu. [68]

Bir neçə şəhəri itirən II Təhmasibin sülh xahişini qəbul edən Osmanlı hökuməti sülh danışıqlarına başlamağı qərara aldı, amma eyni zamanda «sərhədlərdəki qoşunlarının sayıqlığını artırmağı» davam etdirdi.[69] 1731-ci ilin noyabrında rəis-ül-kittabın katibi İ.Neplyuyev və A.Vişnyakova xəbər verdi ki, Osmanlı sarayı şahla əvvəlki şərtlərlə, lakin Təbrizi özündə saxlamaqla sülh bağlamağı arzu edir.[70] 1731-ci ilin sonunda Təhmasibin elçiləri Məhəmməd Riza xan Qorçubaşı, Mustafa xan Bekdilli və Şahqulu Becan bəy artıq Həmədana gəlmişdilər. Onlar Bağdad və Kirmanşah arasındakı və daha sonra Araz çayı boyu xətti sərhəd kimi təsdiq edərək, sülh bağlamağı təklif edirdilər. [71]

1732-ci il fevralın 4-də İstanbulda bağdadlı Əhməd paşanın məlumatı alındı. Bildirilirdi ki, Kirmanşaha onun yanına gəlmiş II Təhmasibin nümayəndəsi 1730-cu ildə razılaşdırılmış əvvəlki şərtlərlə sülh müqaviləsi təklif edir. Bu şərtlərə görə, Osmanlı imperiyası Təbriz, Kirmanşah, Huveyz, Xuzistan və Həmədandan imtina etməli idi, Gürcüstan, Qərbi və Şimali Azərbaycan Türkiyəyə qalırdı. Bağdadlı Əhməd paşa bu şərtləri qəbul etməyi tövsiyə edirdi, hesab edirdi ki, birincisi, Təbriz və Həmədan müflis edilmiş və boşaldılmışdır və ona heç bir gəlir gətirməyəcək, əksinə, bərpa üçün xeyli vəsait tələb edər,[72] ikincisi, əgər sülh bağlanmasa, Məşhəd yaxınlığında əfqanları artıq məğlub edən Təhmasibqulu xan öz qoşunlarını Osmanlı sərhədinə göndərər və bu halda müharibə uzana bi-lər. [73]

Əhməd paşa öz hökumətinin rəsmi razılığını gözləməyərək, təklif olunmuş şərtləri qəbul etdi və 1732-ci il 10 yanvarda Kirmanşahda şah səfiri ilə müqavilə bağladı. Bu müqavilənin şərtlərinə görə, Osmanlı imperiyası Həmədan, Kirmanşah, Ərdəbil və Təbrizi şaha qaytarmağı öhdəsinə götürürdü. Şah isə Şamaxını, Gəncəni, Kartli, Kaxetiya və İrəvanı türklərə verirdi. [74]

XVIII əsrin 30-cu illərinin əvvəllərində Rusiyanın da Cənubi Qafqaz və İranla bağlı vəziyyəti xeyli mürəkkəbləşmişdi. Rus hökuməti Xəzəryanı əyalətlərdən bezmişdi - oradakı hərbi iştirak son dərəcə çətinləşmişdi. Bundan əlavə, şah qoşunlarının uğurları Xəzəryanı ərazilər İrana qaytarıldıqda Osmanlı imperiyasına çatmayacağına əsas verirdi. Bu səbəbdən 1730-cu ilin mayında Xarici İşlər Kollegiyası Rusiyanın Kür çayına qədər torpaqları İrana güzəştə getməyə razılığını II Təhmasibin nəzərinə çatdırmaq barədə Levaşova əmr göndərdi.[75]

1730-cu ilin yayında Təhmasib Qulu xanın Təbrizi tutmaq və sonra Gilana doğru hərəkət etmək niyyəti haqqında məlumat alınandan sonra, Xarici İşlər Kollegiyası general Levaşova məsləhət gördü ki, Kür çayından cənuba Xəzərsahili əyalətləri Təhmasib Qulu xanla rəsmi sülh bağlanmasını gözləmədən öz hakimiyyəti altına qəbul etməsini ona təklif etsin. [76]

İmperatriçə Anna İvanovnanın (1730-1740) 1730-cu il 4 (15) avqust tarixli fərmanı ilə həqiqi gizli müşavir baron P.İ.Şafirov II Təhmasiblə danışıqlarda Levaşovun köməkçisi təyin olundu. Rus hökuməti Levaşov və Şafirova sülh müqaviləsi bağlamaq üçün etibarnamə verdi.[77] Şafirova gizli təlimatda deyilirdi: «Görünür ki, II Təhmasib qüvvə toplayır və İsfahanı artıq geri almışdır, digər yandan, əldə olunan məlumatlara görə, Osmanlı imperiyası, Təhmasibin qələbələrini görərək, şahla barışıq üçün hər cür vasitələr axtarır, ona görə Rusiyanın mənafeyi osmanlılardan əvvəl II Təhmasiblə müqavilə bağlamağı və şahı Osmanlı imperiyası ilə müqavilə bağlamaqdan çəkindirməyi tələb edir». Şaha vəd olunmalı idi ki, bölgədə şərait normallaşandan sonra Rusiya digər Xəzərsahili əyalətləri əvəzsiz olaraq İrana güzəştə gedəcək. [78]

İranı Osmanlı imperiyası ilə sülh bağlamaqdan çəkindirmək üçün rus hökuməti II Təhmasibi inandırmağa cəhd edirdi ki, sonuncu bütün İranın ələ keçirilməsi planını çoxdan fikirləşir və Təhmasibə

qarşı birləşməyi Rusiyaya təklif edir, imperatriçə isə osmanlılarla ittifaqa girmək niyyətində deyil; ona görə mümkün qədər tezliklə Rusiya ilə ittifaq bağlamaq şahın mənafeyinə uyğundur, Rusiya Xəzəryanı bölgələrdə osmanlı ərazilərinin genişləndirilməsinə yol verməyəcək. Levaşov və Şafirov şaha osmanlıların İstanbulda saxlanılan saxta şahzadəni taxta çıxarmaq və onun hakimiyyətini bərpa etmək bəhanəsi altında bütün Səfəvi ərazilərini işğal etmək niyyətində olduğu haqqında xəbər verməli idilər.[79]

Əgər II Təhmasib Rusiya ilə sazişə getməkdən imtina edərdisə, Levaşov və Şafirov ona hədə-qorxu gəlməli və deməli idilər ki, Rusiya bu halda saxta şahzadəni taxtda oturtmaq üçün osmanlılarla birləşəcək, çünki Rusiya Osmanlı imperiyasının təkbaşına «bütün İrana sahib olmasına» yol verə bilməz.[80]

Levaşov və Şafirova İran və Osmanlı imperiyası arasında müqavilə bağlanmasının qarşısını almaq və şaha, çarəsiz qaldıqda osmanlılara «Bağdad tərəfdəki», yəni rus sərhədlərindən uzaq olan torpaqları güzəştə getməyi məsləhət görmək də tapşırılmışdı. Bu onunla əsaslandırılırdı ki, şah sonralar bu əraziləri özünə qaytara bilər, belə ki, orada yaşayan ərəblər tez-tez Osmanlı imperiyasına qarşı üsyan edirdilər. Levaşov və Şarifova bu işdə Rusiyanın köməyini şaha vəd etmək sərəncamı verilmişdi. Onlar İran hökumətini inandırmalı idilər ki, Qafqaz əyalətləri osmanlılara güzəştə gedildiyi təqdirdə İran Rusiyadan təcrid olunacaq, bu da sonralar Osmanlı imperiyasının İrana qarşı münasibətdə öz işğalçı planlarını həyata keçirməsini asanlaşdıracaq.[81]

Rusiya hökuməti oktyabrın 19-da Neplyuyevdən II Təhmasibin Təbriz və Xalxalı vuruşaraq geri alması və Xəzəryanı əyalətlərə yürüşə başlamaq niyyətində olması haqqında xəbər alan kimi Levaşova Gilan və digər Xəzəryanı əyalətlərin osmanlılar tərəfindən tutulmaq təhlükəsi yoxdursa, Kür çayına tərəf geri çəkilməyi və osmanlılar Xəzər dənizinə bitişik ərazilərdən qəti sıxışdırılana qədər orada qalmağı əmr etdi. Sonra o, qoşunlarla Bakıya çəkilməli, ancaq Kür çayının sahilini nəzarətdə saxlamalı idi.[82]

1731-ci ilin ortalarında Osmanlı-İran müharibəsində üstünlüyün yenidən osmanlıların tərəfinə keçməsindən xəbər tutan Rusiya hökuməti Levaşov və Şafirova Gilan torpaqlarının İrana verilməsini İranın qüvvətlənib osmanlıları sıxışdırmağa qadir olacaq vaxta kimi yubatmağı əmr etdi.[83]

Yalnız bir müddət keçəndən, Osmanlı-İran müqaviləsinin hazırlanması xəbəri alınandan sonra, İranın Osmanlı imperiyası ilə Rusiyaya qarşı birləşməsindən ehtiyat edən Peterburq sarayı şahla razılığa gəlməyə tələsdi. 1732-ci il fevralın 1-də (Yuliyan təqvimi ilə yanvarın 21-də) Rəştdə Rusiya-İran müqaviləsi imzalandı. Müqavilənin ikinci bəndində deyilirdi ki, rus imperatriçəsi müqavilənin bağlanması və mətnlərin mübadiləsindən bir az sonra, onların ratifikasiyasını gözləmədən, şahın nümayəndəsi Məhəmməd İbrahimə Səfidrud çayı üzrə Lahican, Ranəkuq mahallarının təhvil verilməsini öz öhdəsinə götürür. Gilan, Astara və habelə Kür çayından cənubdakı digər torpaqları Rusiya ratifikasiyadan 5 ay sonra İrana verməyi öz öhdəsinə götürürdü. Kür çayından şimalda yerləşən əyalətlərə gəldikdə isə, onların yalnız Şah Səfəvilərin Osmanlı imperiyası tərəfindən zəbt edilmiş bütün keçmiş torpaqlarını geri aldıqdan sonra İrana veriləcəyi haqqında razılıq əldə edildi.[84]

Osmanlı sarayı Rusiya-İran yaxınlaşmasından çox narahat idi və İ.Neplyuyevdən şahla sülh müqaviləsinin bağlanması və Osmanlı hökumətinin xəbəri olmadan bir sıra əyalətlərin İrana verilməsi ilə bağlı izahat tələb etdi. Neplyuyev vəzir Əli paşaya cavab olaraq dedi ki, birincisi, Rusiya Xəzəryanı əyalətlərə onların ilhaqı məqsədilə yox, öz sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə daxil olduğunu hələ əvvəllər elan etmişdir; ikincisi, Rusiya hökuməti Osmanlı imperiyasının şahla müqavilə bağladığını və bəzi torpaqları ona güzəştə getdiyini bilərək, özü də İranla sülh müqaviləsi bağlamağı və Xəzəryanı əyalətlərin bir hissəsini qaytarmağı lazım bilmişdir.[85]

Müqaviləni yerinə yetirən rus qoşunları artıq 1732-ci ilin iyulunda Rəşti tərk etdilər.[86]

Rusiya hökuməti çevik hərəkət edərək, Kür çayından cənubdakı Xəzəryanı əyalətləri mübarizəsiz İrana verdi, amma Osmanlı hökumətinə «İran işi» adlandırılan vəziyyətdən itkisiz çıxmaq nəsib olmadı. İ.Neplyuyev və Vişnyakov İstanbuldan xəbər verirdilər ki, Osmanlı imperiyasının hakim dairələri uzanmış müharibədən yorulsalar da, Təbrizi iranlılara verməyə ehtiyat edirlər.[87] Təsadüfü deyil ki, Bağdad hakimi Əhməd paşanın şahın nümayəndəsi ilə bağladığı müqavilə divanda bir neçə dəfə müzakirə olundu.

Əhməd paşanın sülh bağlamaq haqda məlumatı Sultan sarayında 1732-ci il fevralın 4-də alınmışdı. Elə həmin gün Təbriz hakimi Əli paşanın məktubu daxil olmuşdu. O, qəti olaraq Təbrizin iranlılara verilməsinə qarşı çıxaraq bildirirdi ki, bu təhlükəli nəticələrə gətirib çıxara bilər, belə ki, onun döyüşçüləri 1725-ci ildə Təbriz birinci dəfə zəbt ediləndə olduğu kimi, ev və torpaqlar ələ keçirib, mənimsəməyə nail olmuşlar. Məlumdur ki, Sultan III Əhmədin vaxtında, 1730-cu ildə Təbriz şaha qaytarılanda, orada olan yeniçərilər, evlərdən və torpaqlardan məhrum edildiklərinə görə qiyam

qaldırmışdılar ki, bu da 1730-cu ildə İstanbul üsyanının başlanması üçü gığılcım rolunu oynamışdı. Əli paşa hesab edirdi ki, bu dəfə də Təbrizin İranlılara verilməsi Osmanlı qoşunlarının hiddətinə səbəb olar.[88]

Osmanlı imperiyasının 60 ən yüksək əyanı ilə birlikdə divan keçirildi. Bu divanda Əhməd paşa onun İran nümayəndələri ilə bağladığı müqavilə haqqında məlumat verdi. Divan üzvlərinin əksəriyyəti, bəzi tərəddüdlərdən sonra sülh bağlanmasına razılıqlarını bildirdilər Sultan divan iştirakçılarına bu qərar haqda öz tabeliyində onlara xəbər vermək və onların rəylərini aydınlaşdırmaq tapşırığı verdi. Müfti işğal olmuş torpaqların, əgər şərait məcbur edərsə, geri qaytarılmasını məqbul görən fitva verdi. [89]

Fevralın 8-də keçirilən növbəti divanda, demək olar ki, bütün qoşun hissələrinin nümayəndələri İranla tezliklə sülh bağlanmasının zəruriliyini bəyan etdilər. Sultan bildirdi ki, o da sülh arzulayır, lakin Təbriz hakimi Əli paşanın məlumatından görünür ki, Təbrizin İrana qaytarılması təhlükəsiz deyil. Ona görə Sultan qərara aldı ki, Təbriz hələlik verilməsin.[90]

Ancaq Sultanın bu cür israrlı mövqeyi təmiz görüntü səciyyəsi daşıyırdı. 1732-ci ilin əvvəlində Neplyuyev və Vişnyakov xəbər verirdilər ki, Əhməd paşa müqavilənin ratifikasiyasını gözləməyərək, artıq Həmədanı İran qoşunlarına vermişdir və Kirmanşahı tərk etməyə hazırlaşır. [91]

Müqavilənin mətni alınandan sonra 1732-ci il fevralın 29-də keçirilən divanda yenidən Təbrizin verilməsi ilə bağlı qorxu olduğu bildirildi. Neplyuyev və Vişnyakov yazırdılar ki, Sultan Təbrizin verilməsi ilə əlaqədar, bütün günahları Əhməd paşaya müvafiq səlahiyyətlər verdiklərinə görə 1730-cu ildə öldürülmüş vəzir İbrahim paşanın, həmçininn sağ olan müfti Başmakçızadənin üzərinə yıxmaq üçün öz narazılığını açıq ifadə edib. Bu bəhanə ilə də Sultan müftini dəyişdirmişdi. Şahla bağlanmış müqaviləyə gəldikdə isə, Sultan bildirdi ki,onu təsdiq etməyə məcburdur, belə ki, Əhməd paşa onu qanun əsasında, ona verilmiş səlahiyyətlərə əsaslanaraq bağlamışdır. Sultanın bu sözlərini qəsdən açıqlayırdılar ki, Təbrizli yeniçərilər arasında yeni həyacanların qarşısı alınsın, həqiqətdə isə, Sultan və bütün saray müqavilənin bağlanması ilə razı idilər. Sultan, vəzir, yeni müfti Damaqzadə, ruhani, mülki və hərbi silklərin bütün nümayəndələri müqavilənin xeyrinə öz fikirlərini söylədilər. Hər silkdən bir nümayəndə Təbrizə göndərildi ki, oradakı döyüşçüləri şəhəri tərk etmək üçün dilə tutsunlar.[92]

İstanbul sakinləri də sülh bağlanmasından razı idilər, öz dindaşlarına qarşı üzücü müharibənin davam etdirilməsini heç kim istəmirdi. Sultan sarayında Təbrizdə yerləşən osmanlı qoşununun reaksiyasının necə olacağını gözləyirdilər və ona görə də sülh bağlanması haqqında rəsmi xəbər yox idi. [93]

İstanbuldakı rus rezidentləri Neplyuyev və Vişnyakov 1732-ci ilin martında yazırdılar: baş vəzir Osman paşanın rəqibi Qızlar ağası müfti ilə birlikdə Sultanı inandırırdılar ki, Əli paşanı baş vəzir təyin etsin, onu paytaxta çağırıb, Təbrizin verilməsi üçün bütün məsuliyyəti boynuna qoysun. Beləliklə, bir tərəfdən Təbrizin İrana qaytarılmaısına qarşı olan Əli paşanın özünün qiyamının qarşısını almaq mümkün olacaq, digər tərəfdən Təbrizin təslim verilməsi zamanı yeniçərilərin həyacanları başlanarsa, buna görə bütün günahı Əli paşanın üzərinə atmaq mümkün olar. Əgər Əli paşa Təbrizi verməsə, onda İstanbuldakı əhali və qoşun müharibənin davam etdirilməsindən narazı olacaq və onda yenə də Əli paşanı günahlandırmaq olar. [94]

Sultan İ Mahmud, Qızlar ağası və müftinin məsləhətinə əməl edərək, Osmanı vəzifədən kənar edib onu Trabzon paşası təyin etdi, baş vəzir vəzifəsinə isə Təbrizli Əli paşa təyin olundu və ona təxirə salma-dan İstanbula gəlmək əmri verildi. Bu zaman eyhamla bildirildi ki, müharibənin tezliklə kəsilməsi üçün Təbrizi İran qoşunlarına vermək arzu olunur. Ancaq Əli paşanın dostları onu Təbrizi verməkdən çəkindirərək, bu məsələnin həlli üçün divan çağırılmasını məsləhət bildilər. [95]

Osmanlı sarayının Təbrizin verilməsi ilə bağlı ehtiyatlanmasının əsası var idi. Təbrizdə 1730-cu il qiyamının iştirakçılarından bir neçə «sərdəngeçti» (hərfi mənası başından keçənlər) var idi ki, onlardan çoxu təqibdən qurtararaq, bura qaçmışdı. Bu «sərdəngeçti»lər hesab edirdilər ki, Təbriz veriləndən sonra onları aparıb, 1730-cu il üsyanında iştirak etdikləri üçün divan tutacaqlar. Ona görə «sərgənkeçti»lər şəhərin şah qoşunlarına təhvil verilməsinə mane olmaq üçün yenə də Təbrizdə qiyam qaldırmaq istəyirdilər. Ancaq onların niyyətləri haqqında xəbərdar edilmiş Əli paşa qabaqcadan özünə sədaqətli olan yeniçərilər və digər qoşunları toplayaraq, sərəsgərin həyətində yerləşən qiyamçıları əhatə edib qətlə yetirdi. Bu yolla sərbəstlik qazanan Əli paşa tez qonşuluqda yerləşən qızılbaş xanlarına şəhərə daxil olmağı tövsiyə etdi. Beləliklə, Təbriz təslim edildi. Əli paşa isə öz qoşunlarını Araz çayından şimala çəkdi və onları İrəvanda yerləşdirib, özü İstanbula getdi.[96]

1732-ci il aprelin əvvəllərində Təbrizdən qayıdan Dər-gahqulu xan (yəqin ki, keçmiş Bakı hakimi) osmanlıların martın əvvəlində Təbrizi verərək, Araz çayını keçdiyini və şimala yollandığını söyləmişdi.[97]

İranla Osmanlı imperiyası arasındakı sülh çox sürmədi. Xorasandan qayıdan Təhmasibqulu xan (Nadir) Əhməd paşa və şah nümayəndəsi arasında bağlanmış müqaviləni tanımaqdan imtina etdi. Artıq 1732-ci ilin yayında II Təhmasib Osmanlı hakimiyyət orqanlarına Nadirin ona tabe olmaqdan imtina edərək, Osmanlı imperiyasına qarşı silahlandığını xəbər verirdi. II Təhmasib Osmanlı sarayını bu «iğtişaş salanı» ümumi səylərlə cilovlamağa çağırırdı. Lakin Osmanlı hökuməti II Təhmasibə inanmayıb hesab etdi ki, şah Nadirin uğursuzluğu təqdirində Osmanlı imperiyası ilə sülhü qorumaq üçün ikili oyun aparır.[98]

Osmanlı hökuməti İran ordusunun gözlənilən hücumunun dəf edilməsinə ciddi hazırlaşmağa başladı. 1732-ci il iyunun 13-də bütün Asiya əyalətləri paşalarının qoşunlarla 11 gün ərzində Suriyadan Bağdada, Anadoludan İrəvan və Gəncəyə tərəf hərəkət etmələrini əmr edildi. Əmri yerinə yetirməyəni ölüm cəzası gözləyirdi. Bağdadda hakimiyyətdə sərəsgər Əhməd paşa saxlanıldı, keçmiş baş vəzir Osman Gəncəyə, Şahin Mehmet isə Tiflisə paşa təyin olundular.[99]

1732-ci ilin avqustunda Əli paşa İstanbuldan Şamaxıya Şamaxı və Qəbələdə qalaların möhkəmləndirilməsi üzrə xərclərə və Surxay xanın döyüşçülərinə məvacib paylamaq üçün 200 kisə pul, həmçininn 200 kisə qılınc və digər silah gətirdi.[100]

Bu arada II Təhmasiblə Nadir arasında hakimiyyət uğrunda mübarizə kəskinləşdi. Rus rezidenti S.Avramovun məlumatına görə, 1732-ci il sentyabrın 2-də Nadir II Təhmasibi həbs edib, 3 aylıq oğlunu III Abbas adı altında şah,[101] özünü isə vəkil (regent) elan etmişdi.[102] Avramov Təhmasibin devrilməsini aşağıdakı kimi təsvir edirdi: 1732-ci il avqustun 28-də Nadir 30 min nəfərlik seçmə döyüşçülərlə İsfahana daxil olmuşdu və şəhərdən kənarda şah bağında düşərgə salmışdı. Üçüncü gün o, şahla görüşmüş, Təhmasib, ehtimal ki, Nadirin niyyətini anla-yaraq, onu çox soyuq qarşılamışdı. Onda Nadir şahın bir neçə xidmətçisini dustaq götürüb, sentyabrın 1-də axşam Təhmasib həbs olunanları azad etmək məqsədilə Nadirin yanına gedəndə, Nadir onun özünü də həbs etmişdi.[103]

Sentyabrın 2-də Nadir qərargaha gələrək, bütün xanları, minbaşı və yüzbaşıları çağırıb onlara demişdi ki, Təhmasib «əxlaqsız sərxoşdur», o, Həmədan ətrafında uğursuz döyüşün, minlərlə qızılbaşın həlak olmasının günahkarıdır. Heratlı Rəhim xan və daha iki xan Nadirin II Təhmasibi devirmək niyyətini bəyənmişdilər. Bundan sonra şahı gətirmiş və Nadirin əmri ilə onun başından tacı və zərlə bəzədilmiş lələyi götürmüşdülər. Şah hakimiyyətinin bu rəmzlərini alıb öpən Nadir onları öz yanına qoymuş, bundan sonra şahın oğlan anası olan arvadını gətirmiş, tac və zərlə bəzədilmiş lələyi ona vermişdi. Möhür düzəldəni çağıraraq, ona şah Abbasın adına yeni möhür düzətmək əmr edilmişdi. Ruhanilərin nümayəndəsinə yeni şahın adına xütbə oxumaq əmr olunmuşdu. Ruhanilər isə ay təqvimiylə ayın 17-nə kimi (yəni xristian təqvimi ilə sentyabrın 8) gözləməyi xahiş etmişdilər ki, guya bu gün əlverişli gündür. Sentyabrın 8-də Nadir qoşunla İsfahana girərək şah sarayında yerləşmişdi. Taxtda şahın üçaylıq oğlunun olduğu zəngin bəzədilmiş beşik qoyulmuşdu. Beşiyin yanında kiçik mendil, qələm və qılınc qoyulmuşdu. Nadir xanları, minbaşıları, yüzbaşıları və ali ruhaniləri çağıraraq, onları şah III Abbasın taxta çıxması münasibətilə təbrik etmiş və şahın adından hamıya bahalı xələt bağışlamışdı.[104]

Hakimiyyəti tamamilə qəsb edən Nadir tezliklə özünü qəddar bir hökmdar kimi göstərdi. O, təbəələrin əmlakını zorla əllərindən almağa başladı, şahın İsfahandakı xəzinəsini mənimsədi və özünü Xorasana göndərdi, orada Təhmasibin gözləri çıxarıldı.[105]

Təhmasibi devirəndən sonra Nadir Osmanlı imperiyasına qarşı hərbi əməliyyatları genişləndirərək, ümid edirdi ki, qələbələr hakimiyyətini möhkəmləndirməkdə ona kömək edər. O, Uğurlu xanı Gəncəyə göndərdi, özü isə yüzmin nəfərlik ordu ilə İraq tərəfə hərəkət etdi. 1732-ci ilin dekabrında Nadir qoşunla Kirmanşaha daxil oldu və Bağdadı hədələməyə başladı.[106]

İ.Neplyuyev 1733-cü il martın 1-də İstanbuldan yazırdı ki, Nadir bütün ordusu və artilleriya ilə Bağdada yaxınlaşmışdı. Bağdadlı Əhməd paşa ona qarşı Qara Mustafa paşanın komandanlığı altında qoşun göndərmiş, ancaq qoşun şəhərin girəcəyində məğlub edilmiş və Nadir Bağdadın mühasirəsinə başlamışdı.[107]

Nadirin hücumu Osmanlı hökumətində çaşqınlığa səbəb oldu, çünki ondan bu cür sürətli hərəkət gözləməmiş və cəbhədə kifayət qədər hazırlıq görməmişdi. Sultanın yanında çağırılan divanda mümkün qədər tezliklə qoşun toplayıb Nadiri barışığa məcbur etmək məqsədilə əks hücum təşkil etmək qərara alındı.[108]

Ancaq Nadirin hücumunun qarşısını almağa nail olmayan Osmanlı komandanlığı barışıq xahiş etdi və 1733-cü ilin fevralında Nadir və Bağdad hakimi Əhməd paşa arasında hərbi əməliyyatların dayandırılması haqqında saziş bağlandı.[109] Osmanlı imperiyasının döyüşkən əhvali-ruhiyyəli dairələri məğlubiyyətlə barışmaq istəmir və bunun əvəzini çıxmağı tələb edirdilər. İmperiyanın ali mənsəb

sahiblərindən bəziləri divanda vəziri vaxtında Əhməd paşaya kifayət qədər yardım göndərməməkdə məzəmmətləmişdilər. Vəzir isə bu ittihama cavab olaraq bildirmişdi ki, qış fəsli və qoşun pis vəziyyətdə olduğuna görə bunu edə bilməmişdir. Vəzir demişdi ki, özü qoşuna başçılıq etməyə hazırdır, lakin baş sərəsgər vəzir yox, keçmiş vəzir Topal Osman paşa təyin olundu. Fransız diplomatiyası da Osmanlı imperiyasını müharibəni davam etdirməyə təhrik edirdi. Nəticədə hərbi əməliyyatlara yenidən başlamaq qərara alındı və qapıçıbaşı Mustafa ağa ilə Krım xanı Qaplan Gireyə öz qoşunları ilə Cənubi Qafqaza yola düşmələri barədə göstəriş göndərildi.[110]

Neplyuyev və Vişnyakov yazırdılar ki, Cənubi Qafqaz və İrana göndərilmək üçün 12 min Krım tatarı hazırlanıb, təchiz edilmişdir və Xəzəryanı regiondakı rus zabitlərini xəbərdar edirdilər ki, tatarların hərəkətlərini diqqətlə izləsinlər, onların rus ərazilərinə girmələrinə yol verməsinlər.[111]

İ.Neplyuyevin Krım tatarlarının Xəzər sahili ilə Şirvana göndərilməsi haqqında sorğusuna cavab olaraq rəis-ül-kittab bildirdi ki, tatarlar rus sərhədlərinə 19 saatlıq yol məsafəsindən yaxın gəlməyəcək, Qafqaz dağları ilə keçəcəklər. İ.Neplyuyev bu bəyanatı inanılmaz hesab etdi, çünki Qafqaz dağları vasitəsilə yeganə yol rus zonasının hüdudlarından keçirdi. Ona görə o, rəsmi surətdə elan etdi ki, tatarların rus torpaqlarından yürüşü sülh müqaviləsinin şərtlərinin pozulmasından başqa bir şey deyildir və rus komandirləri buna «hərbi qayda» ilə maneçilik edəcəklər.[112]

Rəis-ül-kittab cavab verdi ki, tatarlara, əgər onlar rus ərazisinə daxil olsalar, heç kimə zərər yetirmədən və öz hərəkətlərini rus hakimiyyət orqanları ilə razılaşdıraraq hərəkət etmək göstərişi verilmişdir. Bununla əlaqədar rəis-ül-kittab Neplyuyevdən rus komandirlərinə göstəriş verməyi xahiş etdi ki, «onlar bunu qarşıdurma kimi qəbul etməsinlər», belə ki, Osmanlı imperiyası vaxtın çatışmaması ucbatından rus hökuməti ilə ilkin razılıq olmadan bu cür hərəkətlərə əl atmağa məcburdur.[113]

Martın 13-də Neplyuyevin bu münasibətlə artıq vəzirin özü ilə söhbəti olmuş, vəzir də xahiş etmişdi ki, rus hökuməti tatarların keçməsinə mane olmasın, çünki bu məcburi tədbirə yalnız tatar qoşunlarının Şirvana göndərilməsini sürətləndirmək məqsədilə əl atılır, orada onlar Nadirə arxadan hücum etmək üçün Surxay xanın qüvvələri ilə birləşəcəklər. Vəzir qeyd etmişdi ki, Krım xanına rus komandirləri ilə birgə hərəkət etmək sərəncamı verilmişdir. Lakin bütün bu təminatlara baxmayaraq, Neplyuyev tatarların qarşıdakı yürüşünə qarşı maneçilik törətməkdə davam edirdi, o, general Yeropkinə və fon Veyzbaxa yazmışdı ki, onlar hər cür vasitə ilə həmin yürüşə mane olsunlar.[114]

Krım xanı rus tərəfinin etirazlarına baxmayaraq, mart ayında Fatı Gireyin komandanlığı altında 10 min tatarı yürüşə göndərdi; yolda onlara 5 min noqay və o qədər də kubanlı birləşməli idi. Neplyuyevin məlumatına görə, tatarlar əvvəlcə Noqaya yola düşdülər, oradan isə Kuban vasitəsilə, Kabarda və Kumıkdan keçib yollarını davam etdirməli idilər; Tatarlar Kumık dağlarından birbaşa Tiflisə keçmək fikrində idilər; əgər bu onlara müyəssər olmasaydı, onlar Qaytaqda usmi torpaqlarından Surxay xanın torpaqlarına və oradan isə Şirvana keçməli idilər.[115]

Rusiya hökuməti Krım tatarlarının Xəzəryanı əyalətlərdən Şirvana keçməsinə silah gücünə mane olmağı qəti qərara aldı. 1733-cü il iyunun 20-də Tatartun və Suncu (Terekin qolları) çayları arasında tatar qüvvələri ilə onların yolunu kəsən rus dəstələri arasında vuruşma baş verdi. İnadlı və qanlı döyüşlərdən sonra krımlılar böyük tələfat verərək geri çəkildilər.[116]

Xəzəryanı regiondakı rus qoşunlarının komandanı general Hessen-Hamburqskinin Xarici İşlər Kollegiyasına 1733-cü il 22 və 27 iyul tarixli məlumatlarında xəbər verilirdi ki, Krım tatarları Dərbəndə yaxınlaşmışlar və usmi ilə birləşərək şəhərə hücum etmək niyyətindədirlər. Dərbənd qarnizonuna təcili kömək göndərildi. Hessen-Hamburqski general Levaşovla əvəz edildi, görünür ona görə ki, sonuncu Xəzər sahilindəki şəraitlə daha yaxşı tanış idi.[117]

Krım tatarları məğlubiyyətə uğrayaraq Şirvana digər yolla - Aksay, Endəri və Koysu vasitəsilə keçməyə çalışdılar, lakin Dərbənddən yan keçə bilmədilər.[118] İyulun 29-də gecəyarısı Krım qoşunu usminin və tabasaranlıların qüvvələri ilə birlikdə Dərbənd yaxınlığındakı düşərgədə duran polkovnik Lomanın dəstəsinə hücum etdilər. Atışma 3 saatdan artıq davam etdi.[119] Dərbənd yaxınlığında xeyli itki verərək, Krım qoşunları dağ cığırları ilə Tabasarandan keçərək Şirvana girdilər.[120]

İstanbulda təntənəli surətdə elan olundu ki, tatar korpusu Terekin arxasında rus qoşununu darmadağın etmiş və Şirvana keçmişdir.[121]

Rus zabitlərinin aldığı məlumata əsasən, Krım qoşunu Kür çayından keçərək, şahsevən və kürdlərlə döyüşə girmiş, lakin məğlubiyyətə uğramışdı.[122] Digər məlumatlara görə isə tatarlar iki hissəyə bölünərək Təbrizə və Həmədana yollanmışdılar.[123]

Gəncədən qayıdan Şabran sakini Hacı Məhəmməd 1733-cü il oktyabrın 7-də Bakıdakı rus komandanlığının dəftərxanasına gəlib aşağıdakıları danışmışdı: Hacı Məhəmməd Şamaxıda olarkən

Surxay və Krım xanı 16 min nəfərlik qoşunla Kürə tərəf hərəkət etmişlər, Surxay oradan Şamaxıya qayıtmış, Krım xanı və onunla Surxayın naibi Qaral bəy isə Cavaddan yuxarıda körpü salaraq Kürü keçmişlər. Gəncə hakimi Əli paşa da 6 min nəfərlik dəstəyə komandanlıq edərək ora gəlmişdir. Onlar birləşərək Bərdəyə yola düşüb, orada üç gün qalmışdılar, sonra isə Qarabağdan keçərək Ərdəbilin yay otlaqlarına yollanmışdılar. Burada məlumat alınmışdı ki, iranlılar artıq Ərdəbili tərk etmişlər. Əli paşa, tatar qoşunlarını yay otlaqlarında saxlayıb, osmanlı dəstəsini Ərdəbilə göndərib, özü isə 700 nəfərlik dəstə ilə Gəncəyə qayıtmışdı.[124]

P.Q.Butkov yazır ki, Şirvana gələn Krım tatarları Gilana hücuma hazırlaşırdılar, ancaq Nadirin yaxınlaşmasını bilən kimi Gəncəyə geri çəkilmişdilər.[125]

Tatarlar və rus qoşunları arasında toqquşma Rusiya-Osmanlı münasibətlərini kəskin surətdə gərginləşdirdi. Hər iki tərəf müharibəyə hazırlaşmağa başladılar. İ.Neplyuyev bu vaxt osmanlıların Azova əsgəri təchizat və artilleriya göndərməsi barədə yazır və öz hökumətinə tövsiyə edirdi ki, bütün sərhədyanı ərazilərdə lazımi ehtiyata malik olsun.[126]

Rusiya-Osmanlı ziddiyyətləri digər regionlarda, xüsusilə Polşada da kəskinləşdi. Polşa kralı II Avqustun ölümündən sonra Fransa yenə XV Lyudovikin qaynı Stanislav Leşinsikini Polşa taxtına namizəd irəli sürdü. Rusiya Stanislav Avqustun namizədliyini müdafiə edirdi. Türkiyədəki Rusiya rezidenti Koçubinskinin sözlərinə görə, 1728-ci ildən Fransanın İstanbuldakı nümayəndəsi olan Markiz Vilnev osmanlıların əli ilə Smolensk və Kiyevi Polşaya qaytarmağa can atırdı. Vilnev hər cür yolla Osmanlı sarayını inandırırdı ki, Avstriya, Rusiya və onların «kreaturası» (namizədi) Avqust bütün Avropa əyalətlərindəki türkləri oradan qovmağa çalışırlar.[127]

Artıq yuxarıda adı qeyd olunmuş qraf Bonneval da Osmanlı sarayında özünün antirus fəaliyyətini genişləndirmişdi, 1734-cü ilin əvvəlində Bonneval vəzirə və Vilnevə yazırdı: «Moskvalılar özlərinin sürətli inkişafı ilə bütün Avropa sistemini dəyişdirirlər. Vəziyyəti və mənafeləri onları Avstriyanın ayrılmaz müttəfiqləri, demək, nəticə etibarilə Portanın ıə Fransanın düşmənləri edir. Ona görə, əgər mümkünsə, moskvalıları onların köhnə sərhədlərinə qaytarmaq (redure a leur) və onların Avropa işlərində iştirakını əngəlləmək Türkiyənin, həm də Fransanın xeyrinə olduğu üçün son dərəcə zəruridir».[128]

1733-cü il iyulun 8-də imperatriçə Anna İvanovnanın verdiyi fərmanda Krım tatarları ilə toqquşma, osmanlılarla müharibənin qaçılmazlığı haqqında danışılır. İranı hər vasitə ilə müharibəni davam etdirmək üçün qızışdırmağı, həmçininn osmanlılarla qarşı «güclü təxribat» yaratmağı Rusiyanın mənafeyinin tələb etdyi deyilirdi.[129]

Krım tatarlarının Azərbaycana atılması ilə Osmanlı imperiyası İranla müharibədə üstünlüyə nail olmadı. Sentyabrda, osmanlı qoşunları tərxis olunanda, Nadir Kərkükün yanında göründü. Baş vermiş vuruşmada osmanlı sərəsgəri Topal Osman paşa yaralandı və sonra öldü.[130] Anadolu valisi Körpülü Abdulla paşa onun yerinə təyin olundu.[131]

Nadirlə müharibədə çətin vəziyyətə düşmüş Osmanlı hökuməti 1733-cü ilin dekabrında Surxay xana xələt, qılınc və 100 kisə ağça göndərib, ondan Gəncə mühafizi Əli paşa və İrəvan sərəsgəri Əli paşa ilə xəbərləşərək, yazda öz dəstələri ilə Kərkük və Mosul bölgəsinə getməsini tələb edirdi.[132]

Bu arada isə Nadir Şəhrizuru, Kərkükü və Dərnəni ələ keçirdi. 1734-cü ilin yanvarında, o, artıq Bağdada yaxınlaşdı və nümayəndəsini Əhməd paşanın yanına göndərərək İrəvan, Gəncə, Tiflis və Kaxetiyanın ona verilməsini tələb etdi. Əhməd paşa qalanı müdafiə edə biləcəyinə əmin olmadığı üçün öz hökuməti ilə danışıqlar aparmaq üçün 70-80 gün möhlət xahiş etdi. Bununla razılaşan Nadir İrana qayıtdı.[133]

İ.Neplyuyev və A.Vişnyakov 1734-cü ilin fevralında yazırdılar ki, Əhməd paşa Nadirlə Sultan IV Muradın vaxtında bağlanmış Osmanlı-İran müqaviləsinin şərtləri ilə, yəni keçmiş Səfəvi dövlətinin bütün ələ keçirilmiş ərazilərinin İrana qaytarılması şərtləri ilə müqavilə bağlamışdır. Ancaq fevralın əvvəllərində keçirilmiş geniş divanda, hökumətin tezliklə sülh bağlamaq arzusuna baxmayaraq, müharibəni davam etdirmək qərara alınmışdır.[134] Bu, işğal olunmuş ərazilərdə ev və malikanə sahiblərinə çevrilmiş yeniçərilərin törədə biləcəyi yeni qiyam təhlükəsi ilə əlaqədar idi, çünki, 1730-cu il hadisələrinin təkrarlanması qorxusu qalırdı.

Nadir Mosuldan Şirvana hərəkət etdi və şəhərdə olan şiələrin köməyi ilə 1734-cü ilin avqustunda Şamaxını tutdu. Nadirin əmri ilə şəhər dağıdıldı, onun əhalisi Ağsu çayının sahilinə köçürüldü.[135]

Şamaxını ələ keçirərən Nadir öz elçisi Hüseyn xanı Peterburqa göndərib Rusiyadan Terek çayından cənubdakı bütün Xəzərsahili əyalətlərdən əl çəkməyi tələb etdi.[136] Lakin hələ onun gəlişinə qədər S.Qolısin vasitəsilə Nadirin tələbləri haqqında xəbər tutan rus hökuməti qərara aldı ki, general Levaşovun

da məsləhət etdiyi kimi bütün yeni işğal olunmuş Xəzərsahili əyalətlərin tərk edilməsi məqamı gəlib çatmışdır. Rusi-yanın öz qoşunlarını Bakıdan çıxarmaq haqqındakı qərarını Nadirə xəbər vermək Levaşova tapşırılmışdı, ancaq Nadir Rəşt müqaviləsinin bütün qalan bəndlərini tanımalı idi. Levaşova bütün hərbi istehkamı salamat saxlayaraq Bakını tərk etmək və qoşunu Dərbəndə köçürmək sərəncamı verilmişdi. Dərbəndin təslim edilməsinin hazırlığı da ona həvalə edilmişdi. Rusiya hökumətinin Bakı və Dərbəndi geri verməsindəki tələsiklik onun Osmanlı imperiyası ilə müharibəni labüd hesab etdirməsi və buradakı qoşunlarını tezliklə Xəzərsahilindən Don və Ukraynaya göndərmək istəyi ilə bağlı idi. Bu ərəfədə Şamaxını tutmuş Nadir sonra Qazıkumıka hərəkət etdi. Surxay xan Qəbələ yaxınlığında onun ordusu tərəfindən məğlub edildi və Avarıstana qaçdı.[137] Qışın yaxınlaşması ilə əlaqədar Nadir Dağıstandan qayıtdı və oktyabrın ortalarında Gəncəni mühasirəyə aldı. Bu vaxt Gəncədə Hacı Əli paşa və krımlı Fatı Gire-yin komandanlığı altında böyük bir qarnizon vardı.[138]

Gəncənin mühasirəsi uzandı. 1735-ci ilin yanvarında Nadirin döyüşçüləri qala divarları altına lağım atıb onu partlatdılar, nəticədə dərin bir çuxur yarandı.[139]

Qala divarlarının minalanmasında onlara rus topçuları kömək edirdilər.[140] Burada qeyd etmək lazımdır ki, Nadirin sarayında olan rus səfiri Q.Qolisın hər cür yolla onu osmanlılara qarşı hərbi əməliyyatlara təhrik edir[141] və rus hökuməti gizli surətdə Nadirə kömək göstərirdi. Gəncə qalası üç tərəfdən Gəncəçayın məcrası yönəldimiş bənd ilə əhatə olunmuşdu. Yalnız cənub divarları ciddi surətdə zədələnmiş, qalanın müdafiəçiləri qumbara ilə bəndi dağıtmağa və suyu buraxmağa nail olmuşdular.[142]

Osmanlı hökuməti mühasirədəkilərə köməyə sərəsgər Abdulla paşanı göndərdi.[143] Bu, rus hökumətinin həyacanına səbəb oldu. S.Qolisın 1735-ci ilin əvvələrində yazırdı ki, əgər Abdulla paşa ordu ilə şəhərə yaxınlaşsa, Nadir çətin ki, şəhəri tuta bilər.[144]

İranı Osmanlı imperiyası ilə müharibənin davam etdirilməsinə təhrik etməyə can ataraq, Rusiya 1722-ci ildən sonra ələ keçirdiyi qalan Xəzərsahili əyalətləri də ona güzəştə getdi. 21 mart 1735-ci ildə Novruz günündə-yeni il bayramında Nadirin düşərgəsində İran hökuməti ilə burada olan rus səfiri S.Qolisın arasında müqavilə imzalandı. Bu müqaviləyə uyğun olaraq, Rusiya müqaviləni imzalayandan iki həftə sonra Bakını, 2 ay sonra isə Dərbəndi təsliml etməyi öhdəsinə götürdü.[145] Bu şəhərlər heç bir halda üçüncü bir dövlətin əlinə keçməməli idi. Bundan başqa, Rusiya İranın şamxal, usmi və Dağıstanın digər hakimləri üzərində hüququnu tanıyırdı.[146] Öz növbəsində, İran onun hakimiyyəti altında olan torpaqlarda rus tacirlərinin rüsumsuz ticarətinə, İran və Azərbaycanda rus konsulluqlarının açılmasına icazə verirdi.[147]

1735-ci il Gəncə müqaviləsi 1732-ci il Rəşt müqaviləsi kimi tamamilə Osmanlı imperiyasına qarşı yönəlmişdi. Rusi-yanın «xoş məramına» cavab olaraq, İran «Rusiya imperiyası ilə əbdəi müttəfiq olmağı ...» vəd edirdi. Tərəflər bir-birindən xəbərsiz Osmanlı imperiyası ilə danışıqlar aparmamağı öhdələrinə götürürdülər.[148]

Rus hökumətinin Osmanlı imperiyasının da iddia etdiyi Dağıstan üzərində İranın hakimiyyətini tanıması, təbii ki, Osmanlı hökumətini son dərəcə qıcıqlandırdı.

Vəzirin yanında keçirilən fövqəladə divanda Nadirə qarşı müqavimət təşkil etmək,[149] həmçininn İrana qaytarılmış Terek çayından cənubdakı Xəzərsahili əyalətləri ələ keçirmək üçün Krım xanının qoşunlarını Dağıstana göndərmək qərara alındı.

Gəncə qarnizonuna köməyə göndərilmiş Abdulla paşanın ordusu Cənubi Qafqaz hüdudlarına daxil olanda, Nadir ordusunun Təbrizdə saxladığı hissəsini ona qarşı yeritmişdi. Nadirin yanında olan kapitan Polazovun məlumatına görə, 1735-ci il iyulun 19-da Abdulla paşa, Sarı Mustafa paşa və Teymur paşa 40 min nəfərlik ordu ilə Nadirin Zəngi çayı üzərindəki düşərgəsinin dörd verstliyində dayanmış, o biri gün bir neçə saat davam edən böyük bir döyüş olmuşdu. Osmanlıların inadlı müqavimətinə baxmayaraq, Nadir bütün cəbhə boyu hücuma keçmiş və Osmanlı ordusunu darmadağın edib, onun bütün artilleriyasını (32 top və çoxlu barıt), həmçininn arabaları ələ keçirmiş, bundan sonra osmanlılar geri çəkilməyə başlamışdılar. Abdulla paşa özü və Sarı Mustafa paşa döyüş meydanında həlak olmuşdular. Birincinin başını və ikincinin cəsədini gətirib Nadirə göstərmişdilər. Osmanlı qoşunlarının 15 minə yaxın döyüşçü, o cümlədən çoxu yeniçəri olan piyada hissəsi tamamilə qırılmış, bir neçə yüz əsgər əsir düşmüşdü.[150] İstanbuldan Abdulla paşaya göndərilən 160 kisə pul da Nadirin əlinə keçmişdi.[151]

Rus kapitanının məlumatları, əsasən, digər mənbələr və Türkiyə tarixçiləri tərəfindən də təsdiq olunur. Belə ki, İ.H.Uzunçarşılı yazır ki, 1735-ci ilin iyununda İrəvan yaxınlığında Abdulla paşa 40 minlik ordusu ilə Nadirin ordusuna hücum etmiş, ancaq 5 saatlıq vuruşdan sonra «Qars çayının əks tərəfinə» geri çəkilməyə məcbur olmuşdu. Nadir oradan Arpaçay tərəfə yola düşmüş, Bazakerd rayonunda 1735-il iyunun 22-də Nadirin qüvvələri və onu təqib edən osmanlı ordunları arasında böyük

bir vuruşma olmuşdu. Nəticədə osmanlılar darmadağın edilmiş, sərəsgər Abdulla paşa, habelə Sarı Mustafa paşa öldürülmüşdülər. İ.N.Uzuncarışlı da iranlıların 32 top və xeyli əsir ələ keçirtdiyini təsdiqləyir. Abdulla paşanın ölümündən sonra Arifi Əhməd paşa yenidən sərəsgər təyin olunmuşdu.[152]

Bir-birinin ardınca gələn uğursuzluqdan sonra Osmanlı qoşunları Tiflis, İrəvan və Gəncəni tərk etdilər,[153] Gəncə və Tiflisdəki qornizonlar onlara sərbəst surətdə Türkiyəyə qayıtmaq imkanı verildiyi üçün qalaları döyüşsüz təslim etdilər.[154]

Nadir Osmanlı imperiyasının paytaxtını ələ keçirmək xülyasına düşmüşdü və bu işdə rus hökumətinin köməyinə nail olmağa çalışırdı. 1735-ci ilin birinci yarısında Nadirin Rusiyaya gələn səfiri qoşunların Qara dənizə daşınması üçün gəmilər ayrılmasını xahiş etmiş, həmçininn Rusiyanın Osmanlı imperiyası ilə münasibətləri tam kəsilməsi barədə təklifin qəbul edilməsinə təkid göstərimişdi.[155] Bununla əlaqədar imperatriçə S. Qolisına tapşırmışdı ki, belə bir uzaq məsafəyə bu qədər çox miqdarda gəmi göndərməyin mümkün olmadığını Nadirə bildirsin. Qolisın Nadirə Türkiyənin İstanbulun yolu üstündə yerləşən digər iri şəhərləri ələ keçirməyi, sonra isə paytaxta yaxınlaşmağı məsləhət görməli idi. Nadirə həm də izah etmək lazım idi ki, əgər hətta Rusiya Osmanlı imperiyasına müharibə elan etsə də, əsas hərbi əməliyyatlar Qara dənizdə yox, Kiyev tərəfdə gedəcək. Bundan əlavə, Rusiya ümumiyyətlə bu müharibəyə daxil olmağa hazırlaşmır.

Tarixi mənbələr sübut edir ki, Rusiya hökuməti Nadirin açıq-aşkar kömək haqda xahişini təkcə Osmanlı imperiyası ilə müharibəni arzulamadığına görə yox, Nadirin həddən artıq güclənməsini istəmədiyinə görə rədd etmişdi. 1735-ci ilin yayında Nadir öz qoşunlarının Astrabad əyalətinə daşınması üçün ona gəmi satılmasını, gəmiqayırma ustaları və gəmiləri idarə etməyi bacaran adamlar (muzdlular) ayırılmasını tələb edəndə, hökumətin göstərişi ilə müxtəlif bəhanələr gətirib ona rədd cavabı vermişdilər.[156]

Rusiya hakimiyyət orqanlarının Osmanlı imperiyasının Xəzəryanı və digər bölgələrdə mövqelərinin zəiflədilməsinə yönəlmiş hərəkətləri Osmanlı hökumətini son dərəcə qəzəbləndirdiyi üçün o, hələ 1734-cü ildə bəyan etmişdi:

1. Rusiya müqaviləni pozaraq, öz qoşunlarını Polşaya daxil etmişdir;
2. Dnepr sahilində - Podolskda bufer torpaqlarının bir hissəsini mənimsəmişdir;
3. Rusiya Zaporojye kazaklarını öz tərəfinə çəkmiş və onlar osmanlı himayəsi altında olan yerləri zəbt edib, orada özləri üçün istehkam və qala inşa edirlər;
4. Don çayında 4 gəmi düzəldilmiş və çoxlu hərbi sursat yığılmışdır.
5. İranlılara yarınmaq üçün tatarları Qafqazdan o tərəfə buraxmamış və onlardan çoxu ruslarla toqquşmada həlak olmuşdur;
6. Vaxtanqın oğlu vasitəsilə gürcülərə kömək vəd edərək, onları Osmanlı imperiyasına qarşı qiyama çağırır;
7. Nadiri Osmanlı imperiyasına qarşı müharibəni davam etdirməyə qızışdırır;
8. Türkiyə bütün bunları, həmçininn Rusiyanın Ukraynada və digər yerlərdə hərbi hazırlıqlar apardığını nəzərə alaraq, «silahlanmağa məcburdur».[157]

1735-ci il mayın 12-də Osmanlı divanı imperiyanın Xəzəryanı bölgədə nüfuzunu möhkəmləndirmək üçün Krım xanını Dağıstana və Şirvana göndərməyi qərara aldı.[158] Bununla əlaqədar İ.Neplyuyev qraf A.Ostermana yazırdı ki, Osmanlı imperiyası bütün Dağıstan üzərində himayəsini elan edir və dağıstanlılarla birləşərək, Rusiyanın qoyub getdiyi bütün əraziləri ələ keçirmək, beləliklə, Xəzər dənizi ətrafında möhkəmlənmək, sonra isə Nadiri özünün diqtə etdiyi şərtlərlə sülh bağlamağa məcbur etmək istəyir. Daha sonra İ.Neplyuyev yazırdı ki, Nadir Osmanlı imperiyası ilə sülhdən imtina edərsə ona qarşı əsasən dağıstanlılar və şirvanlıların qüvvələri göndəriləcəkdir, özlərinin sərbəst qoşunlarını osmanlılar Rusiyaya qarşı yönəldəcəklər.[159] Digər rus rezidenti A.Vişnyakov[160] tatarların göndərilməsinə etiraz edirdi, çünki onun fikrincə tatarların yolu rus hakimiyyəti altında olan ərazilərdən keçəcəkdi.[161]

Osmanlı vəziri Vişnyakovu inandırmağa çalışırdı ki, Krım qoşunları Rusiya sərhədlərindən 20 saatlıq yol məsafəsində aralı keçəcək, ona heç bir zərər yetirməyəcək. Söhbətin sonunda, o, qəti bəyan etdi: «Bundan sonra söz demək əbəsdir, belə ki, əlahəzrət Sultanın qətnaməsi ləğv olunmayacaq, qoşun döyüşə hazır vəziyyətə gətirilmişdir və xan rus dostluğuna məhəl qoymayaraq getməlidir».[162]

Fransa səfiri Osmanlı sarayının Rusiyaya qarşı müharibə elan etməsinə nail olmağa çalışaraq onu rusların hücumunun labüdlüyü ilə qorxudurdu. A.Koçubinski yazır: «Rus və fransız diplomatiyasının XVIII əsrin 30-cu illərinin birinci yarısındakı bu qızğın mübarizəsi, nəhayət, 1735-ci il müharibəsinə gətirib çıxardı. . .»[163]

Bəzi müəlliflər hesab edirlər ki, 1735-ci ilin mayında Rusiya, Osmanlı imperiyasının öz qoşunlarını Cənubi Qafqazda cəmləşdirdiyini bilərək, ona müharibə elan etməyə məcbur olmuşdu.[164] Qeyd edək ki, Rusiya tərəfindən müharibənin formal elan olunması o vaxt baş verməmişdir, o zaman ancaq Krıma yürüş təşkil etmək qərara alınmışdı ki, bu faktiki Rusiya-Osmanlı müharibəsinin başlanması demək idi. S.Qolisına tapşırılmışdı ki, Nadirə Rusiyanın İranın məğlubiyyətinə yol verməyəcəyini bildirsin, Xəzəryanı vilayətlərin verilməsi ucbatından ruslar tatarların yürüşünə mane ola bilmir, ancaq «təxribati manevr» edəcək, gələn bütün hazırlıqlar başa çatandan sonra isə Osmanlı imperiyasına qarşı birgə əməliyyatlara başlaya bilərlər. [165]

1735-ci ilin payızında Krım xanı Dərbəndə tərəf hərəkət edəndə rus qoşunları Perekopa tərəf irəlilədi. Ancaq general M.İ.Leontyevin tələsik hazırlanmış və yürüş üçün əlverişli olmayan payız vaxtında başlanmış bu səfəri uğursuzluqla qurtardı. Rus qoşunları 9 min adam itirərək, Perekopa çatmadan Ukraynaya qayıtdı. [166]

Buna baxmayaraq, onların bu yürüşü hərbi əməliyyatların gedişinə müəyyən təsir göstərdi. Belə ki, Krım xanının artıq Dərbənddə olan dəstələri rusların Krıma olan hücumu haqqında xəbər tutan kimi dərhal geri döndü. [167]

Rezident A.Vişnyakov 1736-cı il martın 4-də Osmanlı hökumətinə bildirdi ki, rus qoşunlarının Krım yürüşü Rusiya ərazisindən keçib Şirvana yürüş edən tatarları cəzalandırmaq məqsədilə həyata keçirilmişdir. Vişnyakov iddia edirdi ki, bu yürüş zamanı rus sərhədlərinə «müxtəlif düşmən basqınları» edilmişdir və buna görə rus qoşunları «xanı həmin yürüşdən saxlamaq və tezliklə qayıtmağa məcbur etmək üçün Krıma daxil olmuşlar».[168]

1736-cı il aprelin 23-də Rusiya Osmanlı imperiyasına müharibə elan etdi. Elə həmin gün vitse-kansler Osterman Osmanlı vəzirinə məktub göndərdi. Məktubda osmanlıların Rusiyaya qarşı və guya müharibəni törədən hərəkətləri sadalanırdı.[169]

1736-cı il mayın 2-də keçirilən divanda Azovun rus qoşunları tərəfindən atəşə tutulması, 100 min nəfərlik rus ordusunun Perekopa yaxınlaşması və Krım xanının kömək xahişi etməsi haqqında məlumat verildi, Osmanlı imperiyası da Rusiyaya müharibə elan etdi. Vəzir osmanlı qoşunlarının baş komandanı təyin olundu.[170]

Beləliklə, Rusiya-Osmanlı münasibətlərinin kəskinləşməsi, nəhayət, iki dövlət arasında açıq müharibəyə gətirib çıxartdı. Yuxarıda göstərilən faktlar inandırıcı surətdə subut edir ki, iki imperiya arasında münasibətlərin kəskinləşməsində onların Xəzəryanı regionda, xüsusilə də Azərbaycanda maraq və mənafelərinin toqquşması da çox mühüm rol oynamışdır. Ona görə XVIII əsrin 20-30-cü illərində Azərbaycanda Rusiya-Osmanlı ziddiyyətlərinin 1735-1739-cü illər Rusiya-Osmanlı müharibəsinin əsas səbəblərindən biri olduğunu güman etmək düzgün olar, amma onun başlıca səbəbi, əlbəttə, Rusiyanın Qara dənizdə hökmranlığa can atması idi.

Rusiyanın etirazına baxmayaraq, Nadir Rusiya-Osmanlı müharibəsi başlanandan sonra birtərəfli qaydada osmanlı hökuməti ilə danışıqlar aparmağa başladı və bununla da 1735-ci il Gəncə müqaivləsinin əsas şərtlərindən birini pozdu.

Osmanlı sarayı bu zaman, təbii ki, iki cəbhədə müharibədən qaçınmaq və bütün qüvvələrini hərbi əməliyyatların Avropa teatrına, Rusiyaya qarşı atmaq üçün Nadirlə barışmaqda son dərəcə maraqlı idi. Həmçininn nəzərə almaq lazımdır ki, Osmanlı imperiyasının Asiyada yerələşmiş hərbi hissələri az etibarlı idilər. Bütün bunlar osmanlı hökumətini İran və Osmanlı imperiyası arasında IV Muradın (1623-1640) dövründəki sərhədlərin bərpasına razılaşmağa məcbur etdi. 1735-ci ilin əvvəlində keçirilmiş divanda onun üzvlərinin əksəriyyəti Osmanlı tərəfindən ələ keçirilmiş Səfəvi ərazilərinin səmərəsizliyi haqqında fikir söyləndi və yekdilliklə həmin yerlərdə məskunlaşmış osmanlı təbəələrini digər yerlərə köçürmək barədə qərar qəbul olundu.[171] Gətirilmiş iqtibas bir daha osmanlıların ələ keçirilmiş Səfəvi ərazilərində məskunlaşdıqlarını sübut edir. İ.Neplyuyev 1735-ci ilin əvvəlində yazırdı: «Türklər özləri də bilmirlər ki, həmin yerlərdən necə xilas olsunlar və Sultan da, vəzir də qiyamdan qorxaraq» neçə davranacaqlarını bilmirlər». [172]

Osmanlı hökuməti Nadirlə sülh danışıqları aparmağı Gənc Əli paşaya tapşırdı. Bu vaxt Nadir Dağıstana yürüşdə olduğu üçün o, əvvəlcə Tiflisdə gözləməli oldu, sonra isə Nadirin Muğandakı düşərgəsinə yola düşdü.

Məlum olduğu kimi, 1736-cı ilin martında Nadir dövlətin müxtəlif yerlərindən hakimləri, iri və orta feodalları Kürlə Arazın qovuşduğu yerə - Cavada qurultaya toplamışdı. Qurultayda Nadir şah seçildi. Bununla da Səfəvi sülaləsinin hakimiyyətinə rəsmən son qoyuldu.

Nadir Muğan qurultayında çox mühüm bir qərar da qəbul etdirdi. O, türk xalqları arasında ədavətə son qoymağa çalışaraq sünni və şiə məzhəblərini barışdırmaq istəyirdi. Buna görə Muğan qurultayından İstanbula xüsusi elçilik göndərildi. Nadir Cəfəri məzhəbinin sünnilüyün beşinci məzhəbi kimi tanınmasını istəyirdi.

1736-cı ildən başlayaraq Nadir şah Osmanlı dövləti ilə barışmağa və yaxınlaşmağa çalışırdı. O, Osmanlı imperiyası ilə müharibəni dayandırıb qüvvələrini xalq çıxışlarını yatırmağa və ən başlıcası Orta Asiya, Əfqanıstan və Hindistana yürüşə yönəltmək istəyirdi. Buna görə də şah Nadir öz elçilərini İstanbula göndərdi.[173]

Nadirin sülh təklifindən istifadə edən ingilis diplomatiyası Rusiyaya qarşı yönəlmiş İran-Osmanlı ittifaqı yaratmaqa çalışırdı. Nadirin və Sultanın elçiləri arasında ilkin danışıqlar 1736-cı ilin mayında Ərzurumda başladı. Lakin danışıqlar uğurla nəticələnmədi. Məlum olduğu kimi 1735-ci il Gəncə müqaviləsinin üçüncü maddəsinə görə Rusiya və İran bir-birindən xəbərsiz Osmanlı hökuməti ilə müqavilə bağlamamalı idilər. Lakin Rusiya osmanlılarla müharibə vəziyyətində olduğundan Osmanlı nümayəndələri rus nümayəndələrinin sülh danışıqlarında iştirak etməsinə kəskin etiraz etdiyi üçün danışıqlar dayandırıldı. Bundan ruhlanan rus hökuməti Nadirin Osmanlıya qarşı hərbi əməliyyatları yenidən başlayacağına ümid edirdi. Peterburqdakı İran səfirinə bildirildi ki, Osmanlı hökuməti rus nümayəndələrinin sülh danışıqlarında iştirakına etiraz etdiyinə və Nadir Osmanlı imperiyası ilə əlverişli müqaviləni bağlamaqdan imtina etdiyindən Rusiya da şahın razılığı olmadan osmanlılarla sülh bağlamayacaqdır.[174]

Lakin Nadir əslində Rusiyanın gözündən pərdə asırdı. O, İstanbula göndərdiyi elçisinə Osmanlı sarayı ilə danışıqları ruslardan gizli davam etdirməyi tapşırmışdı.

1736-cı ilin martında Gənc Əli paşa ilə Nadirin nümayəndəsi Mirzə Məhəmməd arasında danışıqlar başlandı. Sultan IV Muradın dövründəki sərhədlərin bərpası haqqında razılıq əldə edildi. İran tərəfi 4 başlıca şərt irəli sürdü:

1. Məkkəyə həccə yola düşən İran tacirlərinin üzərinə «bac» qoyulmayacaq.
2. Şahlıq ərazisindəki əhalinin, o cümlədən azərbaycanlıların etiqad etdiyi şiəlik sünniliyin Cəfəri məzhəbi (beşinci məzhəbi) kimi qəbul edilməli və Kəbədə bu məzhəb tərəfdarlarının mərasimi icra etməsi üçün yer açılmalıdır.
3. Hər iki hökumət İstanbulda və İsfahanda nümayəndəlik açmalı və İran zəvvarları Məkkəyə həccə gedəndə onları İran nümayəndəsi müşayiət etməlidir.
4. Hər iki tərəf hərbi əsirləri azad etməlidir.[175]

Gənc Əli paşa bu cür şərtləri qəbul etməyə səlahiyyəti olmadığını bildirdi. Ona görə Nadir müqaviləni müzakirə etmək, həmçininn özünün tacqoyma mərasimi keçiriləcəyini elan etmək üçün Əbdülbaqi xan, Mirzə Əbdül Qasım və rəisül-üləma Əli Əkbər mollanı İstanbula göndərdi. Nadirin nüma-yəndələri 1736-cı ilin iyulunda İstanbula gəldilər və rəis-ül-kittab İsmayıl əfəndi və Rahib əfəndi ilə görüşdülər.[176]

Sentyabrın 24-də İran nümayəndələrinə 4 şərtdən 1,3 və 4-cünün qəbul olunduğu bildirildi. Cəfəri məzhəbinin sünnilüyün beşinci məzhəbi kimi qəbul edilməsinə dair 2-ci şərtə gəldikdə isə, onu hər iki ölkənin ruhani alim-üləmalarının ümumi müzakirəsinə vermək qərara alındı.[177]

İkinci şərtin müzakirəsi və Nadirin tacqoyması münasibətilə təbriki üçün baş miraxur Qara Mehmet paşanın oğlu Mustafa bəyin rəhbərliyi altında İrana elçilik göndərildi. Bu vaxt Nadir artıq Hindistan yürüşündə idi. Osmanlı nümayəndələri Nadirin Cəfəri məzhəbinin sünnilüyün beşinci məzhəbi kimi tanınmasına israr etdiyini bilərək, Qəndəhardan geri qayıtdılar. Beləliklə, Osmanlı-İran müqaviləsi bağlanmamış qaldı. Lakin Nadir Hindistan yürüşündə olduğuna, Osmanlı imperiyası Rusiya ilə müharibə apardığına görə Osmanlı-İran müharibəsinə bir müddət ara verildi.[178]

1743-cü ildə Nadir şah şiəliyin müqəddəs şəhəri Nəcəfdə daha bir qurultay - üləmaların qurultayını topladı. Cəfəri məzhəbinə keçilməsi, osmanlılara bu məzhəbi sünnilüyün beşinci məzhəbi kimi tanımağı təklif etmək barədə qərar qəbul olundu. Lakin bu təklif də Osmanlı tərəfindən rədd olundu. Osmanlı üləmaları cəfəriliyi sünnilüyün beşinci məzhəbi kimi tanımağı şəriətə uyğun hesab etmirdilər.

Peterburqdakı Fransa səfiri de la Şetardi İran və Osmanlı səfirlərini yaxınlaşdırmağa çalışırdı. O, Osmanlı səfiri ilə söhbətində bildirmişdi ki, Nadir yenidən hərbi əməliyyatlara başlarsa, Osmanlı imperiyası böhranlı vəziyyətə düşər.[179]

Osmanlı hökumətini ruhlandırmaq üçün Peterburqdakı ingilis və fransız səfirləri şaiyə yaymışdılar ki, Rusiya-İran danışıqları uğurla bitməmişdir.[180] De la Şetardi Osmanlı-İran yaxınlaşması ehtimalından

bəhs edərək yazırdı ki, ümumi dini maraqlar bu iki tərəfi birləşdirə bilər və onlar öz baxışlarını keçmiş müsəlman dövləti - Həştərxan xanlığına yönəldə bilərlər.[181]

Nadir şah Sultan Mahmudun elçisi Yusif paşanı çox mehribanlıqla qəbul etmiş, onunla baş vəzirə göndərdiyi məktubda bildirmişdi ki, osmanlıların fərariləri mübadilə etmək haqqında təkliflərini məmnuniyyətlə qəbul edir və Sultanı böyük, özünü isə kiçik qardaşı hesab edir.[182]

Ancaq tezliklə Nadir şahla osmanlılar arasında münasibətlər yenidən pozuldu. Bunun mühüm bir səbəbi Osmanlı sarayının Azərbaycanda Nadir şaha qarşı çıxan qüvvələri dəstəkləməsi idi. Məlumdur ki, 1743-cü ildə Şirvanda İ və II saxta Sam Mirzələrin başçılığı ilə Nadirə qarşı güclü xalq hərəkatı olmuşdu. Şah bu çıxışları çox çətinliklə yatıra bilmişdi. Saxta Səfəvi şahzadələrinin tez bir zamanda xalq içərisində nüfuz qazandığını görən Osmanlı hökuməti özü meydana yeni saxta Səfəvi şahzadələri çıxarmağa başladı.

II Sam Mirzə həlak olduqdan sonra Şirvan üsyançılarının xilas olmuş dəstələri digər saxta şahzadənin - osmanlıların əlaltısı Səfi Mirzənin ətrafında toplaşmağa başladılar. Rzaqulu xan Hidayətin verdiyi məlumata görə Səfi Mirzənin əsl adı Məhəmməd Əli idi. O, Kerman vilayətinin Rəfsancan mahalından idi.[183]

V.Bratişev onun kəndli olduğunu qeyd edir və bildirirdi ki, bütün iranlıların bundan xəbəri vardır.[184] Hələ 1729-cu ildə əfqan Əşrəf şah İsfahanı tərk etməyə hazırlaşdığı zaman, deyildiyinə görə, keçmiş Səfəvi şahı Sultan Hüseyn öz böyük oğlu Səfi Mirzə ilə birlikdə gizli surətdə həbsxanadan qaçmışdı. Sonralar onun haqqında heç bir məlumat alınmadığından istifadə edən Əli Məhəmməd bir ildən sonra özünü Səfi Mirzə kimi qələmə verməyə başlamışdı. O, 1730-cü ildə şəhər yoxsullarını öz ətrafına toplayıb Şuştərdə üsyan qaldırmışdı. Lakin tezliklə Nadirin göndərdiyi qoşunlar tərəfindən məğlub edilmişdi. Əvvəlcə Hüveyzdə gizlənmiş, sonra isə Türkiyəyə qaçaraq 1743-cü ilə kimi burada sakit yaşamışdı.[185]

Osmanlı imperiyasında saxta Səfi Mirzəyə qayğı göstərir və ondan Nadirə qarşı mübarizədə istifadə etmək məqsədi güdürdülər. Sultan Mahmud onu, taxta çıxarmağı vəd edərək, Səfi Mirzəni 20 min nəfərlik ordu ilə Qarsa göndərdi. Əhməd paşa Camaloğlu 70 min nəfərlik ordu ilə burada idi. Paşa usmi Əhməd xana, Surxay xanın oğlu Məhəmməd xana, Tabasaran hakiminə, nufuzlu Şirvan feodallarına Sultanın adından fərmanlar göndərib Nadir şaha qarşı fəaliyyətində Səfi Mirzəyə hərtərəfli yardım göstərməyi təklif etdi.[186] Sultanın 1743-cü il 27 noyabr tarixli fərmanında deyilirdi ki, Şirvan xanı təyin edilən Məhəmməd xana tapşırılır ki, Qaytaq usmisi Əhməd xan ilə birlikdə Ərzurum sərəsgəri Əhməd paşa və Çıldır valisi Yusif paşa ilə əlaqə saxlayaraq Səfi Mirzəyə yardım etsin.[187]

Fərmanların birində deyilirdi ki, Nadirin zülmündən təngə gəlmiş Azərbaycan və İran əhalisi Səfi Mirzənin ətrafında toplaşırlar. İranın hər yanına fərmanlar göndərilərək yerli hakimlərə (elxanlar) Ərzurum sərəsgəri Əhməd paşa və Çıldır valisi Yusif paşa ilə əlaqəyə girib Səfi Mirzəyə hər cür kömək göstərmək təklif olunurdu. Dağıstanlı döyüşçüləri Səfi Mirzəyə qoşulmağa həvəsləndirmək üçün vəd edilirdi ki, Səfi Mirzə «əcdadlarının taxtına» yiyələndikdən sonra «Şamaxı (yəqin ki, Şəki – T.M.), Şirvan, Gəncə, Tiflis və İrəvan vilayətlərini Osmanlı imperiyasına güzəştə gedəcək və bunun sayəsində Dağıstan igidləri» gəlir götürmək imkanı qazanacaqlar.[188]

Əhalinin narazılığından istifadə edən Səfi Mirzə Azərbaycan əhalisinin bir hissəsini öz ətrafına toplaya bildi. Fasiləsiz yürüşlərdən yorulmuş və illərlə məvacib almayan İran döyüşçülərinin bir qismi də Səfi Mirzəyə qoşulmuşdu.[189] Səfi Mirzə Mərkəzi İranda Nadirə qarşı qalxmış üsyançılarla da əlaqə yaratmağa çalışırdı, lakin buna nail olmadı.

Əhalinin Səfi Mirzənin tərəfinə keçməsinə mane olmaq üçün Nadir şah İrəvanla Qars arasında gözətçi məntəqələri qoyulması barədə göstəriş verdi. Azərbaycan elatlarının yuxarı təbəqəsini öz tərəfinə çəkmək üçün Nadir onları xələtlərlə mükafatlandırıb vergiləri ödəməkdən yarım il azad etdi. Bu və digər vasitələrlə Nadir Cənubi Azərbaycanda bir qədər sakitlik yarada bildi. Lakin Şimali Azərbaycan və Dağıstan sakinləri hələ də Səfi Mirzənin dəstələməkdə davam edirdilər. Usmi Əhməd xan da Səfi Mirzənin yanına getmişdi. Tabasaran kəndxudaları da belə hərəkət etmişdilər.[190]

Şirvan üsyanı yatırıldıqdan sonra Nadir şahın vəziyyəti bir qədər yüngülləşmişdi və o, əsas qüvvələrini Səfi Mirzəni dəstəkləyən Osmanlı qoşunlarına qarşı yönəldə bildi. Nadir Osmanlı qoşunlarının Qarsdan Cənubi Qafqaz ərazisinə daxil olmasının qarşısını almaq qərarına gəldi. Qars yolunda Yezdvar adlı yerdə düşərgə salan şah Nəsrulla Mirzəni də öz qoşunları ilə birgə yanına çağırdı. Birləşmiş qoşunlar Naxçıvanı keçərək avqust ayında Qarsa yaxınlaşdı. Nadir Osmanlı qoşunlarının sərkərdəsi Camaloğlundan Səfi Mirzəni təslim etməsini tələb etdi.[191] Əhməd paşa Camaloğlu nəinki bu tələbi yerinə yetirmədi, əksinə düşmənin qalanı dövrəyə almasına imkan verməmək üçün ona həmlə

təşkil etdi. Ancaq onun bu cəhdi uğursuzluqla nəticələndi. Nadir şahın əmri ilə Qars qalasının ətrafında istehkamlar quruldu və səngər qazıldı. İran döyüşçüləri və artilleriyası bu istehkamlarda yerləşdirildi.[192]

Osmanlı qarnizonunun ümidsizliyini görən usmi Əhməd xan qalanı tərk edib qaçdı. Türkiyədən heç bir yardım almayan Əhməd paşa Camaloğlu İstanbul sarayına qasid göndərmək üçün Nadir şahdan izin istədi. Şəkidə İrana qarşı təhlükəli mübarizə ocağı alovlandığı üçün Nadir şah barışmağa razılıq verdi və Osmanlı nümayəndələrinin İstanbuldan gəlməsini gözləmədən Azərbaycana döndü.[193]

1744-45-ci illərdə (1157 h) Nadir şahın göstərişi ilə toplanan üləma məclisində «Şah İsmayıl Səfəvi tərəfindən müsəlmanlar arasına əkilən fitnə toxumunun izaləsi» qərara alınmışdı.[194] İran üləmalarının Osmanlı dövlətinə göndərdiyi məktubda deyilirdi ki, məclis qərara almışdır ki, rəşidi xəlifələrini tanıyır, onlar haqqında heç bir şəkk-şübhəyə yol vermir. Dövlət-i Aliyyədən də xahiş olunurdu ki, Cəfəri məzhəbini təsdiq etsin. Məktubun sonunda bir sıra İran, Bəlx, Buxara, Əfqan üləmalarının imzası vardı.[195]

Bu məsələ ilə bağlı Nadir şahın oğlu İmamqulu Mirzə də iki məktub göndərmiş, həmin məktublar Bağdad valisi Əhməd paşa tərəfindən İstanbula çatdırılmışdı. Osmanlı hökuməti bildirmişdi ki, iranlıların bu iddiası əski əqidə davasıdır, buna bilavasitə şeyxülislam cavab verməlidir.[196] Şeyxülislam tərəfindən Bağdad valisi Əhməd paşaya göndərilən məktubda bildirilirdi ki, Nadir şahın təklif etdiyi beşinci Cəfəri məzhəbi əhli sünnətə ziddir və buna görə onu qəbul etmək olmaz.[197]

Nadir şahın əmri ilə Nəzərəli xan Bağdad valisi Əhməd paşaya İranda şiəliyin aradan qaldırılması və Hənəfi məzhəbinin dəstəklənməsinə aid məsələni hərtərəfli müzakirə etmək üçün Bağdad ümərasından iki nəfərin yola salınması barədə məktub göndərmişdi.[198] Lakin Osmanlı sarayında Nadirin daimi sülh və 50 günlük barışıq bağlamaq təklifinə şübhə ilə yanaşmış, bunu vaxt qazanmaq məqsədilə atılan bir addım kimi qiymətləndirmişdilər.[199]

Ümumiyyətlə, ilk mənbələr Osmanlı dövlətinin Azərbaycanda Nadir şaha qarşı yönəlmiş xalq çıxışlarını dəstəklədiyini mötəbərliklə təsdiqləyir. 1745-ci ilə (1158 h) aid Osmanlı rəsmi sənədindən birində şəkili Hacı Çələbinin ətrafdakı kəndxudaları da öz başına toplayaraq Nadir şahın təcavüzünə qarşı çıxdığı, iki dəfə şahı məğlubiyyətə uğratdığı qeyd olunur, Nadirin özünün harada olduğunun bilinmədiyi və o, Şəki üzərinə yenidən hücum edərsə, Hacı Çələbinin çətin vəziyyətə düşəcəyi vurğulanırdı.[200]

1745-ci il yayın ortalarında Nadir şahla Osmanlılar arasında hərbi əməliyyatlar yenidən qızışdı. Sultan Mahmud Səfi Mirzənin İran taxtına çıxarılması haqqında fərman verdi.[201]

Xalq üsyanlarını yatıra bilməyən Nadir şah öz sarsılmış nüfuzunu bərpa etmək üçün yenə Osmanlı imperiyası ilə müharibəyə başladı. Rus tarixçisi S.M.Solovyov yazır: «Şah Nadirin yanında olan rus diplomatlarının gümanları özünü doğrultdu. Böyük Moğolun qalibi ləzgilərə (dağıstanlılara – red.) heç nə edə bilmədi. . . bu ağır, şərəfsiz mübarizədən əl çəkmək üçün bəhanə axtararaq yeni, daha yüngül və əlverişli müharibəyə başladı».[202] Görünür, osmanlıların Səfi Mirzəni ortaya atması, Şirvan və Dağıstan üsyançılarına kömək etməsi də Nadirin qəzəbinə səbəb olmuşdu. Yəqin ki, osmanlıların narazı tayfaları öz ərazilərinə cəlb etməyə çalışması da şahı qəzəbləndirən səbəblərdən biri idi.[203]

1745-46-cı illərdə yenə də Cənubi Qafqazda İranla Osmanlı dövləti arasında müharibə başladı. Lakin bu müharibə əhəmiyyətli bir dəyişikliyə səbəb olmadı və 1746-cı ilin oktyabrında tərəflər sülh müqaviləsi bağlamağı qərara aldılar. Nadir şahla Osmanlı hökuməti arasında 1746-cı ildə bağlanmış 6 maddəlik müqavilədə (17 şaban 1159 h) IV Murad dövründəki sərhədlərin bərpası nəzərdə tutulurdu. 2-ci maddədə Qurban bayramı zamanı İran, Bağdad, Dəməşq yolları ilə həccə gedib-gələnlərin təhlükəsizliyinin təmin olunması, 5-ci maddədə İran hacılarında ticarət məqsədilə götürülən mallar olmadıqda Bağdadda onlardan bac alınmamasına təminat nəzərdə tutulurdu. 3-cü maddədə tərəflərin əsirləri alıb- satmaları qadağan olunurdu. 4-cü maddədə deyilirdi ki, qızılbaşlar Şah İsmayıl zamanında meydana çıxmış məzhəbdən (şiəlikdən) əl çəkməli, şəb və şəlim kimi bidətlərdən əl çəkməli, Məkkəyə gedib-gələnlərə hüsn-rəğbət göstərməlidirlər. [204]

Müqavilə bağlandıqdan sonra İran elçiləri Mustafa və Mehdi xanlar müqavilənin Nadir şah tərəfindən imzalanmış mətni ilə Bağdada gəlmişdilər. Bağdad hakimi Əhməd paşa bununla əlaqədar təklif edirdi ki, Məhəmməd Mehdi xan Nadir şaha daha yaxın olduğundan rəfiqinə hiss etdirmədən ona daha çox hörmət və qayğı göstərilsin.[205]

1746-cı ildə İstanbula gəlmiş Şah elçilərinin gətirdikləri hədiyyələrin içərisində Nadirin Hindistanda ələ keçirdiyi gözəl bir qızıl taxt da var idi.[206] Həmin taxt hal-hazırda İstanbul şəhərindəki Topqapı sarayı muzeyində mühafizə olunur.

Lakin Nadir şah osmanlılarla yaxınlaşdığı bir vaxtda qətlə yetirildi. Məlum olduğu kimi, Nadir şaha sui-qəsdin təşkilatçısı doğma qardaşı oğlu Əli Qulu xan Sistanda qiyam qaldırmışdı. 16 min nəfərlik

qoşunla bu üsyanı yatırmağa gedən Nadir öz hərəmxanasını və xəzinəsini möhkəmləndirilmiş Kelat qalasına göndərir. Yolüstü Xabusanın yanında Fəthabad adlı yerdə düşərgə salan Nadir ona qarşı sui-qəsd hazırlandığını hiss edərək, daim çadırının yanında yəhərlənmiş at saxlayırdı. O, hətta bir dəfə Kelata qaçmaq istəmiş, lakin bir qrup döyüşçüsü son nəfəsə qədər sədaqətli olacaqlarına Şahı inandırmış və onu fikrindən döndərmişdilər.[207]

Nadir öz mühafizə dəstəsinin rəisi Məhəmmədqulu xan Qacarın və eşikağası Saleh xanın sui-qəsd hazırlaması haqqında xəbər tutaraq onları qabaqlamaq qərarına gəlir və 1747-ci il iyunun 19-dan 20-nə keçən gecə Qəni xan və Əhməd xanın başçılıq etdiyi 4 min nəfərlik əfqan dəstəsinə səhər qəsdçiləri və onların həmfikirlərini öldürməyi tapşırır. Ancaq qəsdçilər şahın niyyətindən xəbər tutur və elə gecə ikən onu öldürmək qərarına gəlirlər. Təxminən 70 nəfər qaranlıq düşəndən bir neçə saat sonra Nadirin gecələdiyi çadıra – Məhəmməd Hüseyn xan Qacarın qızının çadırına yaxınlaşırlar. Nadirdən qorxu o qədər güclü idi ki, qəsdçilərdən yalnız Məhəmməd xan Qacar, Saleh xan və daha bir neçə nəfər çadıra girməyə cürət edirlər. Nadir yataqdan qalxıb qılıncını götürərək Saleh xanın üzərinə atılır, lakin ayağı çadırın ipinə ilişib yıxılır. Saleh xan cəld tərpənib şahın bir qolunu qılınclayır, lakin sonra etdiyinə heyrətindən yerində donub qalır. Yalnız Məhəmməd Qacar xan özünü itirmir və kəskin zərbə ilə Nadirin başını kəsir.[208]

Qatillər və tərəfdarları şah arvadlarının qiymətli daş-qaşını ələ keçirirlər. Nadirin öldürülməsi xəbərini alan Əli Qulu xan dərhal Məşhədə yollanır. Oradan bir hərbi dəstə götürərək Kelatı tutur, Nəsrullanı, Rzaqulunu, İmamqulunu və şahın başqa oğlanlarını qətlə yetirir, hətta Nadirin hamilə qadınlarını belə öldürür, yalnız Nadirin nəvəsi Şahruxa toxunmayır. Onun anası Səfəvi şahzadəsi olduğundan Əli Qulu xan gələcəkdə ölkəni Şahruxun adından idarə etmək niyyətində idi.[209]

Nadirin başı və cəsədini Məşhədə aparıb bir neçə il əvvəl özü üçün inşa etdirdiyi məqbərədə dəfn etdilər. İngilis tarixçisi L.Lokhartın yazdığına görə, sonralar Ağa Məhəmməd xan Qacar Kərim xan Zəndin nəşi ilə birlikdə Nadirin də nəşini qəbirdən çıxartdırıb özünün Tehrandakı evinin kandarında basdırtmışdı.[210]

Göründüyü kimi, XVIII əsrin 20-ci illərinin ikinci yarısında Osmanlı imperiyası həm Rusiyanın, həm də Nadirin başçılığı ilə yenidən dirçələn İranın rəqabəti ilə üzləşir. O, daxili vəziyyətinin gərginləşməsi üzündən Nadirə qarşı lazımi müqavimət göstərə bilməmiş, yalnız 1731-ci ilin əvvəlində ordularının əks-hücumunu təşkil etmişdi. Bundan sonra II Təhmasib Araz çayından şimaldakı bütün Qafqaz torpaqlarında osmanlıların hakimiyyətini tanımaq şərti ilə Kirmanşah müqaviləsini bağlamağa məcbur olmuşdu.

Lakin İranla Osmanlı dövləti arasında sülh çox davam etməmiş, heç bir nüfuzu olmayan II Təhmasibi devirib onun südəmər oğlunu şah, özünü ona qəyyum elan edən Nadir dövlətdə bütün ali hakimiyyəti əlində cəmləşdirib öz mövqeyini möhkəmləndirmiş, şöhrətini artırmaq üçün Səfəvilərə məxsus bütün ərazilərin qaytarılmasını tələb edərək hərbi əməliyyatları yenidən canlandırmışdı. Nadirin qəfil hücumundan şaşıran Osmanlı hökuməti barışıq bağlamaq qərarına gəlmiş, lakin imperiyanın hərbə meylli qüvvələri sülh bağlanmasına mane olmuşdular. Sultanın göstərişi ilə Azərbaycana gələn, lakin o qədər də böyük olmayan Krım qüvvələrini Şirvana keçirməklə Osmanlı hökuməti Nadirlə müharibədə elə bir üstünlük əldə edə bilməmiş, üstəlik Krım tatarları yolda rus hərbi dəstələri ilə toqquşduğundan Rusiya ilə münasibətlərini korlamışdı. Bu, digər regionlardakı Rusiya-Osmanlı ziddiyyətləri ilə birlikdə iki imperiya arasındakı müharibənin yaxınlaşmasına təkan vermişdi.

Rusiya və Osmanlı imperiyaları arasındakı ziddiyyətlərin kəskinləşməsi 1735-ci ildə onların bir-biri ilə müharibəyə başlamasına gətirib çıxardı. Arxiv sənədlərindən göründüyü kimi, onların XVIII əsrin 20-30-cu illərində Azərbaycanla bağlı maraqları da bu müharibənin alovlanmasında az rol oynamamışdı.

1736-cı ildən Osmanlı imperiyasının Azərbaycana münasibətdə yürütdüyü siyasətdə yeni mərhələnin başlandığı hiss olunur. Osmanlı sarayı iki cəbhədə müharibədən qaçmaq üçün Sultan IV Muradın dövründəki sərhədlərin bərpası şərtilə sülh bağlanmasına razı oldu. Lakin 1736-cı ildə özünü şah «seçdirmiş» Nadir artıq bununla kifayətlənməyərək yeni şərtlər, o cümlədən şiəliyin sünniliyə daxil beşinci məzhəb kimi qəbul edilməsi şərtini irəli sürdü. Bu şərt Osmanlı imperiyasının ali ruhaniləri tərəfindən qəbul edilmədiyindən sülh danışıqları uzandı.

1738-ci ildə Nadir şah Hindistana hərbi səfərə çıxdığına, Osmanlı imperiyası isə Rusiya ilə müharibəyə cəlb edildiyinə görə osmanlılarla iranlılar arasında müharibə bir müddət ara verdi. 1743-cü ildən isə müharibə yenidən qızışdı. İki dövlət arasında münasibətlərin pisləşməsinin səbəblərindən biri də Osmanlı sarayının Azərbaycanda Nadir şah istibdadına qarşı çıxan qüvvələri, o cümlədən saxta Səfəvi şahzadələrini dəstəkləməsi idi. Müharibə 1746-cı ildə sülh müqaviləsinin bağlanması ilə başa çatdı.

Lakin bir il sonra Nadir şaha edilən sui-qəsd onun öldürülməsi və zor gücünə qurduğu dövlətin dağılması ilə nəticələndi.

## IV FƏSİL

# AZƏRBAYCAN XANLİQLARİNİN YARANMASİ VƏ OSMANLI DÖVLƏTİ İLƏ MÜNASİBƏTLƏRİ

### 1. *Xanlıqların yaranmasından sonra Azərbaycanın daxili və xarici siyasi durumu*

Nadir şah 1747-ci ilin iyun ayında sui-qəsd nəticəsində həlak olduqdan sonra hər yanda şah taxtına iddiaçılar baş qaldırdı. Məhəmməd Həsən xan Qacar Mazandaran və Astarabadda, Hidayət xan Gilanda, Əhməd xan Abdallı Əfqanıstanda, Teymuraz Kartli-Kaxetidə[1], Əli Qulu xan Sistan və Xorasanda, Kərim xan Zənd İsfahanda, İbrahim Mirzə İran İraqında, Sərəfraz bəy Xudabəndə Həmədanda, Kait Kəlbəli xan Birugirdidə, Hüseyn xan Zənginə Kirmanşahda müstəqil hakim oldular.[2] Eyni zamanda Nadir şahın olümündən sonra Cənubi Azərbaycanda xalq üsyanına başçılıq edən saxta şahzadə III Sam Mirzə daha da fəallaşdı. Sam Mirzə əfşarların qatı düşməni olan Astara hakimi ilə ittifaq bağlayıb ətrafına 15 min nəfərə kimi tərəfdar topladı və qoşununu Rəştin üzərinə yeritdi.

Bu zaman İranda özünü Adil şah adı ilə şah elan edən Əli Qulu xan Sam Mirzənin bu əməlindən xəbər tutub ora qoşun göndərdi. Nizami ordu ilə qarşılaşmaq istəməyən Sam Mirzə əvvəlcə Ərdəbilə çəkildi, Təbrizdə Səfəvi tərəfdarlarının daha çox olduğunu biləndən sonra isə ora getdi. Təbrizə gələn üsyançılar əfşarların buradakı nümayəndələrini qətlə yetirib onu şəhərin hakimi elan etdilər. Sam Mirzə hərəkətlərini qanuniləşdirmək üçün öz adına pul kəsdirdi və Azərbaycanın hər yerinə fərmanlar göndərərək, ali hakimiyyətinin tanınmasına çağırdı.[3]

Azərbaycan xanları, xüsusilə də ölkənin şimalında möhkəmlənmiş xanlar «Sam Mirzənin» fərmanına cavab vermədilər. Belə olduqda saxta şəhzadə sadə xalqa müraciət etdi və xalq kütlələrinin hər bir çıxışını müdafiə etməyə başladı. O, İrəvan sakinlərinin Nadir şahın bölgədə müstəqil hökmdar olmaq həvəsinə düşmüş əmisi oğlu Əmir Aslan xana qarşı üsyan qaldırdığını biləndə üsyançılara kömək məqsədilə İrəvana qoşun göndərdi. Lakin Sam Mirzənin qüvvələri Əmir Aslan xanla mübarizədə məğlub oldular. Bundan sonra Əmir Aslan xanın qoşunları Təbrizə gəldi, və Sam Mirzə tutulub edam edildi.[4]

Sam Mirzəyə qalib gəldikdən sonra Təbrizdə möhkəmlənmiş Əmir Aslan xan mərkəzi Təbriz şəhəri olan müstəqil Azərbaycan dövləti yaratmaq qərarına gəldi. O, qısa müddətdə Ərdəbil və Qaradağ xanlıqlarını özündən asılı etdi. Lakin Şimali Azərbaycan xanları Əmir Aslanın ali hakimiyyətini tanımaqdan qəti imtina etdilər. Şamaxı və Şəki xanlıqlarını silah gücünə tabe etmək cəhdi uğursuz oldu. Bu zaman Adil şah Təbrizə elçi göndərib Əmir Aslan xana onu şah kimi tanımağı təklif etdi. Lakin xan Adil şahın elçisini öldürdü və yardım üçün Osmanlı dövlətinə müraciət etdi, lakin heç bir cavab almadı.[5] 1748-ci ilin sonunda Adil şahın doğma qardaşı İbrahim Mirzə onu taxtdan salıb gözlərinə mil çəkdirdi və özünü şah elan etdi.[6] İbrahim Mirzə ilk növbədə ən təhlükəli düşmən saydığı Əmir Aslan xanı itaətə gətirməyi qərara aldı. Baş verən döyüşdə Əmir Aslan xanın qoşunları İbrahim şahın qüvvələri tərəfindən məğlubiyyətə uğradıldı.[7]

İbrahim Mirzə Məhəmməd Cəfər xan Qacarı İrəvan hakimi təyin etmiş və bu barədə Çıldır valisinə məktub göndərərək Osmanlı imperiyasından gəlib gedən tacirlər üçün şərait yaratmasını Cəfər xana tövsiyə etdiyini yazmışdı.[8]

Əmir Aslan xan 1748-ci ildə İbrahim Mirzə ilə vuruşmada məğlub oldu və yardım almaq ümidiylə Qaradağa qaçdı, lakin İbrahim Mirzənin intiqamından ehtiyat edən Qaradağlı Kazım xan onu tutub İbrahim Mirzəyə göndərdi.[9] Bu qələbədən sonra İbrahim Mirzə Təbrizə daxil oldu. Lakin o, Nadir şahın nəvəsi Şahruhun Xorasanda özünü şah elan etdiyini[10] eşidib, Əfşar sərkərdələrindən birini - Məhəmməd xanı Təbrizə hakim təyin edərək, Təbrizi tərk etdi. Məşhəd yaxınlığında Şahruh ilə döyüşdə İbrahim Mirzə həlak oldu. Bu xəbəri eşidən Təbriz əhalisi üsyan qaldıraraq Məhəmməd xanı öldürdü.[11]

Şahruh şah da hakimiyyətdə çox qala bilmədi. O, Səfəvi sülaləsinin nümayəndəsi, özünü II Süleyman adı ilə İran şahı elan etmiş Məhəmməd tərəfindən taxtdan salındı və kor edildi. Lakin Məhəmmədi də Yusifəli xan taxtdan saldı və İranın şimal-şərqində Şahruxun hakimiyyətini elan edərək, özü faktiki hakim oldu.[12]

Beləliklə, 1751-ci ilə İranda nominal da olsa şah qalmadı, keçmişdə Səfəvilərə tabe olan ölkələr, o cümlədən də Azərbaycan müstəqilləşdi. Lakin Azərbaycanda vahid dövlət deyil, çoxlu xırda dövlət qurumları - 20 müstəqil və yarımmüstəqil xanlıq yarandı. Azərbaycanın lap şimal-şərq sərhədlərində

Dərbənd xanlığı, ondan cənubda Quba xanlığı, Abşeron yarımadasında isə Bakı xanlığı, Kür çayının mənsəbində Salyan, Xəzərin cənub-qərbində isə Lənkəran (Talış) xanlığı quruldu. Şirvan bəylərbəyiliyinin mərkəz hissəsində - Şamaxı ətrafında birdən-birə iki xanlıq yarandı. Yeni Şamaxıda - Ağsuda vaxtilə Nadirin təyin etdiyi hakim Hacı Məhəmməd xan özünü müstəqil xan elan etdi. Sərkərlər nəslindən olan iki qardaş - Məhəmməd Səid və Ağası isə köhnə Şamaxıda öz hakimiyyətlərini qurdular. Bir müddət sonra qardaşlar Hacı Məhəmməd xanı məğlub edib Ağsuda da hakimiyyəti ələ keçirdilər. Kür və Araz çaylarının birləşdiyi ərazidə kiçik Cavad xanlığı yarandı. Kür və Araz çaylarının arasındakı ovalığı və dağlıq hissəsini əhatə edən geniş ərazidə Cavanşir elindən olan Pənahəli xan Qarabağ xanlığının, Ziyadoğlu nəslindən olan Şahverdi xan Gəncəbasarda Gəncə xanlığının əsasını qoydular. Naxçıvan ətrafında Naxçıvan, İrəvan ətrafında isə İrəvan xanlıqları təşəkkül tapdı. Azərbaycanın cənub hissəsində Ərdəbil, Sərab, Təbriz, Urmiya, Marağa, Maku, Qaradağ, Xoy xanlıqları yarandı.

Xanlıqlarla yanaşı İlisu, Qəbələ (Qutqaşen), Ərəş, Qazax və Şəmşəddin sutanlıqları da yaranmışdı. İlisu sultanlığının şimal-qərbində Car-Balakən icmaları yerləşirdi.

Yarandığı gündən Azərbaycan xanlıqları arasında ərazi, rəiyyət və sərvət uğrunda fasiləsiz ara müharibələri gedirdi. Urmiyalı Fətəli xan Əfşar Təbrizi hücumla aldı və öz iqamətgahını bu şəhərə köçürdü. O, bütün Azərbaycan torpaqlarını birləşdirmək niyyətində idi. Digər əfqanlardan ayrılıb Azərbaycanda qalmış Azad xanı öz tərəfinə çəkməklə öz qüvvəsini artırmaq qərarına gəldi. Prinsipsiz Azad növbə ilə hakimiyyətdə olan Əli Qulu xana, Əmir Aslan xana və İbrahim Mirzəyə qulluq etmişdi. İbrahim şah həlak olduqdan sonra Azad xan yenə də ağasız qalmışdı və həvəslə Urmiyalı Fətəli xan Əfşarın qulluğuna girdi.[13]

Təbriz xanlığı Urmiya xanlığına birləşdirildikdən sonra Xoy xanlığı xeyli dərəcədə Fətəli xanın mülklərinin əhatəsində qaldı və Xoylu Şabhaz xan Fətəli xanla ittifaq bağlamağa məcbur oldu. Fətəli xan Qaradağ, Marağa və Sərab xanlıqlarını özündən aslı vəziyyətə saldı. Beləliklə, Ərdəbil istisna olmaqla Cənubi Azərbaycanın çox hissəsi Fətəli xanın təsiri altına düşdü. Bundan sonra Fətəli xan öz təsirini Şimali Azərbaycana və İrana yaymaq qərarına gəldi. Öz qoşunlarının bir hissəsini Azad xanın başçılığı ilə İrəvana göndərdi (1751). İrəvan xanı Kartli-Kaxeti çarı Teymurazdan yardım istədi. Çoxdan İrəvanda öz təsirini yaymağa fürsət axtaran Teymuraz oğlu İraklini əsasən Qazax və Borçalı mahalllarından toplanmış döyüşçülərlə İrəvan xanının köməyinə göndərdi. Azad xan məğlub olaraq geri çəkildi. Bundan xəbər tutan Fətəli xan Azad xanın kömə-yinə əlavə qüvvələr göndərdi. İrakli məğlubiyyətə uğradıldı və Fətəli xanla barışığa getməli oldu, girovlar və hədiyyələr göndərdi. Girovların içərisində II İraklinin bacısı, Aslan bəy və Zal bəy adlı iki gürcü knyazı, iki yüzə yaxın döyüşçü var idi.[15]

Urmiyalı Fətəli xan Azərbaycan torpaqlarını birləşdirmək yolunda ciddi uğurlar qazansa da hadisələrin sonrakı cərəyanı onu bu uğurlarını inkişaf etdirməyə imkan vermədi. İran taxta-tacına namizədlərdən biri olan Kərim xan Zənd İranın cənub hissəsini, Şiraz və İsfahan şəhərlərini ələ keçirdikdən sonra 1752-ci ilin sonlarına yaxın böyük bir qoşunla Azərbaycana hücum etdi. Fətəli xan Əfşarın qoşunları Miyana yanında Kərim xanın yolunu kəsdi. Baş verən ilk döyüşdə Kərim xan darmadağın edildi, özü çətinliklə canını qurtararaq cənuba qaçdı. Kərim xanın ailəsi və xəzinəsi Fətəli xanın əlinə keçdi.

Fətəli xan Kərim xanı təqib edərək İsfahana yaxınlaşdı, qorxuya düşmüş Kərim xan Şirazda möhkəmlənmək ümidi ilə İsfahanı tərk etdi. Lakin Fətəli xanın qəzəbinə gəlməkdən qorxan Şiraz əhalisi qala qapılarını Kərim xanın üzünə bağlamışdı. Kərim xan 3 min atlı döyüşçüsü ilə birlikdə geri dönüb İsfahana qayıtmağa məcbur olmuşdu. Yolda o, Qəminə adlı yerdə Fətəli xanla rastlaşdı va bu zaman baş vermiş vuruşmada məğlubiyyətə uğrayıb əvvəlcə Xürrəmabada, sonra isə Fars vilayətinə qaçdı. Kərim xan hətta İrandan qaçmaq qərarına gəlmişdi. Lakin İranın cənubundakı tayfaların başçıları yardım vəd edərək onu bu fikrindən döndərmişdilər. Bu zaman Məhəmməd Həsən xanın Urmiya şəhərini mühasirəyə alması xəbərini alan Fətəli xan Əfşar Kərim xan Zəndi təqibdən əl çəkib Azərbaycana dönməli oldu. Qacar tayfasının başçısı olan Məhəmməd Həsən şah taxt-tacına namizədlərdən biri idi. O, Mazandaran və Astarabad vilayətlərini tutaraq xeyli qüvvə toplamışdı. Fətəli xan Əfşarın Azərbaycanda olmamasından istifadə edən Məhəmməd Həsən xan böyük qoşunla bura hücum edib Şuşanı mühasirəyə aldı. Lakin bir aya yaxın Şuşa ətrafında qalan Məhəmməd Həsən xan qalanı ala bilməyib, Gilan və Mazandaranda üsyan qalxmasından xəbər tutaraq geri döndü. Geri qayıdarkən oğlu Ağa Məhəmmədi Təbrizdə qoyub, Urmiya şəhərini mühasirəyə alıb, Fətəli xan özünü yetirənədək qalanı ələ keçirmişdi. Məhəmməd Həsən xan Fətəli xan Urmiyaya yaxınlaşanda onun uzaq səfərdən qayıdan yorğun döyüşçilərinə dincəlmək imkanı verməyib, onları döyüşə cəlb etdi. Bir neçə gün davam edən qanlı döyüşlərdə çoxlu adam həlak oldu. Bir sıra sərkərdələri Fətəli xana dönük çıxdı. Onlardan Azad xan

özünün əfqan döyüşçüləri ilə birlikdə Bağdada qaçdı. Şahbaz xan dünbülü Xoy dəstələri ilə birlikdə Məhəmməd Həsən xanın tərəfinə keçdi. Fətəli xanın qüvvələri sarsıldı və Məhəmməd Həsən xandan asılılığı qəbul etməyə məcbur oldu. [16]

Məhəmməd Həsən xan Urmiyada çox qalmadı, Azərbaycan xanlarını və onların hərbi dəstələrini də qatdığı öz qoşununu onun mülklərinə hücum etmiş Kərim xan Zəndin qoşunlarının üstünə yeritdi.

Kərim xan Zənd qardaşı Şıxəli xanın və sərkərdəsi Məhəmməd xanın başçılığı ilə öz qoşunlarını Məhəmməd Həsən xanın qarşısına çıxartdı. Astarabad vilayətində baş verən döyüşdə Kərim xanın qoşunu darmadağan edildi, sərkərdə Məhəmməd xan həlak oldu. Şıxəli xan qaçmaqla canını qurtardı. Vəziyyətin çıxılmazlığını görən Kərim xan Şiraza çəkilərək müdafiyə hazılaşmağa başladı. Lakin Məhəmməd Həsən xan Şiraza yaxınlaşan zaman onunla Azərbaycan xanları arasında ixtilaf düşdü. Sonuncular Fətəli xan Əfşar başda olmaqla Məhəmməd Həsən xanı tərk edib Azərbaycana qayıtdılar. Qüvvəsi azalmış Məhəmməd Həsən xan yenidən qoşun toplamaq məqsədilə Mazandarana getmək istədi. Lakin yolda bir neçə döyüşçüsü tərəfindən qətlə yetirildi. Məhəmməd Həsən xanın ölümündən istifadə edən Urmiyalı Fətəli xan yenidən Azərbaycandakı mövqeyini bərpa etdi. O, Azad xanın yerinə Nəcəfqulu xan Dünbülünü öz qoşunlarının başçısı təyin edib, Təbriz xanlığının idarəsini də ona tapşırdı. Fətəli xan Şabhaz xanın günahını bağışladı və onu Xoy xanı vəzifəsində saxladı. Azad xan Bağdad hakimi Xalid paşadan yardım alıb Marağa şəhərinə yaxınlaşdı. Lakin Binab adlanan yerdə Azad xan məğlubiyyətə uğradı və qaçdı. Fətəli xan çoxlu hərbi qənimət, o cümlədən osmanlıların Azad xana verdiyi 8 topu ələ keçir-di. [17]

Bundan sonra Fətəli xan Əfşar digər Azərbaycan xanlarını itaətə gətirmək yolunda fəaliyyətini davam etdirdi. O, əsas zərbəni Qarabağ xanlığına qarşı yönəltdi. Qarabağ xanı Pənahəli vaxtilə Fətəli xanın ona tabe olmaq təklifini kobudcasına rədd etmiş, hələ üstəlik o, İranda olarkən oğlu İbrahim Xəlil ağanın başçılığı ilə Təbrizə səfər təşkil etmişdi. Fətəli xan 1759-cu ildə Gəncə və Qarabağa hücum edib, Qarabağın bir neçə mahalını tutaraq Şuşanı mühasirəyə aldı. Mühasirənin uzun çəkəcəyini nəzərə alan Fətəli xan şəhərin 6 kilometrli-yində - Ballıca və Xocalı çayları arasında düşərgə saldı. Şuşanın alınması təhlükəsi yarandığından Pənahəli xan zahiri də olsa Fətəli xana tabeçilik göstərməyə məcbur oldu və oğlu İbrahim Xəlil ağanı Urmiyaya girov göndərdi. [18]

Ərəşli Məlik Əli Şəki xanlığında hakimiyyəti ələ keçirmək məqsədilə Fətəli xanın yanına gəldi. Lakin Hacı Çələbi xanın nəvəsi qutqaşenli Hüseyn ağa, Kəlbəli Sultanla və digər tərəfdarları ilə Fətəli xanın yanına gəlmişdi və xan rütbəsini aldı–Hüseyn ağa geri qayıdan kimi ərəşli Məlik Əlini öldürdü. [19]

Fətəli xan Əfşar Azərbaycanda olduğu vaxt Kərim xan Zənd öz qüvvələrini bərpa etdi və 1760-ci ilin payızında Azərbaycana ikinci yürüşə başladı. O, Təbrizi dörd ay mühasirədə saxlamasına baxmayaraq, şəhəri ala bilmədi. Əhalinin inadlı müqaviməti, havaların soyuması Kərim xanı İrana çəkilməyə məcbur etdi. Ciddi hazırlıqdan sonra Kərim xan 1761-ci ilin yazında yeni qəti hücuma keçdi. Uçan düzündə Qaraçəmən yaxınlığında Fətəli xan Kərim xanın qoşunlarını məğlub etməyə nail oldu. Lakin bundan sonra onun döyüşçüləri arxayınlaşıb, düşmənin düşərgəsində qətl-qarətlə məşğul olmağa başladılar. Bundan istifadə edən Şıxəli xan Zənd qəflətən ehtiyat qoşunu ilə hücuma keçdi. Kərim xan hiylə ilə Xoylu Şahbaz xanı Fətəli xana qarşı qaldırmağa nail oldu. Fətəli xanın qoşununda çaşqınlıq yarandı. Belə vəziyyətdə döyüşə girməyin təhlükəli olduğunu anlayan Fətəli xan möhkəm strateji mövqeyi olan Urmiya qalasına çəkildi. [20]

Təbrizi tutan Kərim xan Nəcəfqulu xanı Təbriz xanı kimi təsdiq etdi. Sonra Marağaya gəlib Urmiyaya hücum üçün hazırlaşmağa başladı. Qarabağlı Pənahəli xan kiçik oğlu Mehrəli ağanı Qarabağa müvvəqəti hakim təyin edərək Kərim xanın düşərgəsinə gəldi. 9 aylıq mühasirədən sonra vəziyyətin ümidsizliyni görən Fətəli xan təslim oldu. Kərim xan Fətəli xanın xəzinəsini ələ keçirdi. Qardaşı Zəki xanın Əliməhəmməd xan və Əlimərdan xanla birləşərək İsfahanda ona qarşı qiyam qaldırması xəbərini alan Kərim xan təcili İrana qayıtmalı oldu. O, Fətəli xan Əfşarın uzaq qohumlarından biri olan Rüstəm bəyi Urmiyaya xan təyin edib, Fətəli xanı ailəsi ilə birlikdə götürüb Şiraza tərəf yola düşdü. Kərim xan eyni zamanda köməyinə gəlmiş Azərbaycan xanlarının oğlanlarını onların yerlərinə hakim təyin edərək özlərini girov kimi Şiraza apardı. Kərim xan Azərbaycan xanlarını guya Fətəli xan Əfşar üzərində qələbəyə həsr olunmuş bayram şənliklərində iştirak etmək üçün özü ilə aparmış, mərasim qurtardıqdan sonra onları bahalı hədiyyələrlə geri buraxacağını vəd vermişdi. Kərim xanın tələyə saldığı xanlar arasında Qarabağlı Pənahəli xan, Qaradağlı Kazım xan, Xoylu Şahbaz xan, Nəcəfqulu xanın böyük oğlu Fəzləli bəy, Marağalı Hacı Əlməmməd bəy, Naxçıvanlı Hacı xan Kəngərli, İrəvanlı Hüseynəli xanın qardaşları, Gəncəli Şahverdi xanın qardaşı Rzaqulu xan, nufuzlu əfşar feodalı Əmirgünə xan, Sərablı Əli xan Şəqqaqi və başqaları var idi. [21]

## 2. *Osmanlı imperiyası ilə Azərbaycan xanlıqları arasında əlaqələrin yaranması*

Qeyd edək ki, bir sıra Azərbaycan xanlıqları yarandıqları gündən Osmanlı imperiyası ilə sıx münasibətlər yaratmağa, onun dəstəyini qazanmağa çalışırdı. Şəkili hacı Çələbi xan artıq 1747-ci ildə (1160 h) Osmanlı baş vəzirinə məktub göndərərək, Şirvan və Dağıstan əhalisinin İrana qarşı üsyan etdiyini, bu əsnada Nadir şahın öldürüldüyünü yazır, yeni bir şah taxta çıxdığı halda rusların və qızılbaşların müdaxiləsinə qarşı onların müdafiə olunmasının zərurliyini vurğulayırdı.[1]

Yeri gəlmişkən qeyd edək ki, Türkiyə tarixçisi M.Ə.Çakmak Gəncəli Şahverdi xanın II İrakli və Qarabağlı İbrahim Xəlil xanın basqınlarına qarşı yardım almaq məqsədilə İstanbula məktub göndərərək Osmanlı himayəsini xahiş etdiyini yazır. Məktub xanın Məhəmməd bəy adlı elçisi ilə göndərlmişdi. Adı çəkilən məktubda Şahverdi xan əcdadlarının Türkiyə ilə mehriban münasibətdə olmalarını qeyd etməklə yanaşı, Ərzurum tacirlərinin tez-tez Gəncəyə gəlməsini də xəbər verirdi.[2]

Şahverdi xan 1750-ci ildə (1163 h.) sədrəzəmə göndərdiyi məktubda bildirirdi ki, əvvəllər Gəncə xanlığı onun nəslinə mənsub olmuş, Osmanlı hökuməti tərəfindən alınıb Sarı Mustafa paşanın idarəçiliyinə verilmişdi. Təhmasib Qulu (Nadir şah) peyda olduqdan sonra Gəncə yenidən Ziyadoğlu nəslinin idarəçiliyinə verilmişdi. İndi İranda Şah olmadığından Şahverdi xan Sultana itaət edir.[3]

Şahverdi xan 1751-52-ci (h.1165) ildə yazdığı ayrı bir məktubda Gəncə xanlığının «Mərhum Sarı Mustafa Paşaya verilmiş və nəhayət onun öhdəsinə tərk edilmiş» olduğunu yazırdı. Xan hesab edirdi ki, onun hakimiyyətinin qanuniləşdirilməsi üçün osmanlı hökuməti hansısa bir rəsmi sənəd verməlidir.[4]

Şəkili Məhəmməd Həsən xan 1760-61-ci illərdə (1174 h.) Çıldır valisinin elçisiylə göndərilmiş məktubu aldığını xəbər verirdi. Çıldır valisi gürcü çarı Teymuraz haqqında məlumat verilməsini xahiş edibmiş. Məhəmməd Həsən xan Teymurazın Moskvaya gedib orada öldüyünü, həmçininn Rusiya imperatorunun da öldüyünü yazırdı.[5] 1760-cı ildə Şamaxılı Məhəmməd Səid xandan Çıldır valisi Süleyman paşaya gələn bir məktubda o, Süleyman paşanın ona məktub yazmasından çox məmnun olduğunu bildirərək, Kartli-Kaxeti çarı Teymurazın Rusiyaya yaxınlaşdığına diqqəti çəkirdi.[6] Bəzi mənbələr göstərir ki, Osmanlı hökuməti Şərqi Gürcüstanı özünə tabe etmək istəyirmiş. Rusiyanın İstanbuldakı səfirliyinin müşaviri Pavel Levaşov 1766-cı il fevralın 26-da qraf Paninə Osmanlı sarayının Gürcüstanı özünə birləşdirmək istədiyini, Gürcüstana hücum üçün 50-60 min nəfərlik ordu hazırladığını yazırdı.[7]

Osmanlı sarayı Rusiyanın Gürcüstandan istifadə edərək Cənubi Qafqaza müdaxiləsinin güclənməsindən ehtiyat edirdi. Sultan III Mustafa (1757-1774) öz vəzirinə məktub yazaraq Kartli çarı ilə birləşib Azərbaycan ərazilərini zəbt etmək istə-yən rus çarına qarşı hansı tədbirlər görülməsinin lazım olduğunu müzakirə etmək üçün onunla görüşməsini arzulamışdı. Sultan bildirirdi ki, rus çarının gürcü çarı ilə birgə olduğu tam aydındır. O öz narahatlığını gizlətməyərək yazırdı: «Əgər Dağıstanlılar Çar-i mezkuru bozup beri taraflara geçirmezlerse belasın bulur ve illa geçüp Tiflis hanı ile mülaki olursa Gence ve Şamahı şehirlerini zabt olunmuş bulursa ve sulha riayet ederse, geçüp Revan"a varup ol tarafları zabt eder».[8]

III Mustafa İrəvanın müdafiəsinin çox zəif olduğunu, çarın niyyətinin İran torpaqlarına qəsd edib o tərəfdən Osmanlı imperiyasına zərbə vurmaq olduğunu qeyd edirdi: «Memalik-i İran"a sü"i kasdı ve Devlet-Aliyyeye ol tarafdan kurbiyyet hasil edüp vaktını gözetmek sevdasında olduğu kafi vazıhdır».[9] Sultan hesab edirdi ki, bunun qarşısını almaq üçün bütün əyanların toplaşıb məsləhətləşməsi lazımdır. Qeyd edək ki, Türkiyədə çap olunmuş arxiv sənədləri külliyatında istinad etdiyimiz məktubun 1731-ci ildə və III Əhməd tərəfindən yazıldığı iddia olunsa da bu şübhə doğurur. Çünki əvvəla 1731-ci ildə III Əhməd artıq taxtda deyildi. İkincisi, həmin dövrdə Tiflisi gürcü idarə etmirdi. Tiflis Osmanlı işğalı altında idi. Sənəd 1761-ci ildən sonraya aiddir, görünür, səhvən III Əhmədin kağızları arasına düşüb.

Hələ XVIII yüzilliyin 40-cı illərinin əvvəllərində Osmanlı imperiyasına münasibət məsələsi Rusiyanın antifransız blokun üzvləri, xüsusən Avstriya və İngiltərə ilə danışıqlarında müzakirə edilən əsas məsələlərdən biri idi. 1746-cı ilin yanvarında Rusiya ilə Avstriya arasında ittifaq müqaviləsi təzələnmişdi. Əsas açıq mətndən sonra gələn Osmanlı imperiyası haqqında «çox məxfi artikul»da (maddə – T.M.) Rusiya və Avstriya 25 il müddətinə öhdələrinə götürdülər ki, Osmanlı imperiyası 1739-cu il Belqrad sülhü ilə Cənubi-Şərqi Avropada müəyyənləşmiş statusu pozmaq istəsə bir-birlərini dəstəkləsinlər. 1753-cü ildə bu məxvi müqavilənin müddəti «əbədi müddətə» uzadıldı.[10] Buradan görünür ki, XVIII yüzilliyin ortalarında Rusiya Osmanlı dövlətindən hələ əməlli-başlı çəkinirdi.

Bütün müsəlmanların xəlifəsi sayılan Sultan 1768-1774-cü il Rusiya-Osmanlı müharibəsi ərəfəsində və müharibə dövründə Qafqazın müsəlman hakimlərini öz tərəfinə cəlb etməyə çalışırdı. 1769-cu ildə osmanlı elçiləri III Mustafanın fərmanı ilə Gəncə, Təbriz, Dərbənd, İrəvan, Tiflis, Dağıstan və Kabarda hakimlərinin yanında olub onlardan Xəzər sahilindəki bütün limanlara qoşun göndərmələrini xahiş etdilər.[11] Sultan bütün müsəlmanları Rusiyaya qarşı müqəddəs müharibəyə, cihada qaldırmaq istəyirdi.

Osmanlı imperiyası ilə müharibə başlayarkən Q.A. Potyomkin Qafqazdakı və Qara dəniz ətrafındakı xalqları osmanlıları dəstəkləməkdən çəkindirmək üçün iki qardaşı: briqadir İvan Qoriçi və polyak generalı kiçik İvan Qoriçi bu regiona yolladı. Birinci, Qara dənizdən Kabardaya qədər ərazidə, ikinci qardaş isə Kabardadan Xəzər dənizinə qədər ərazidə fəaliyyət göstərməli idi. Kiçik Qoriç Qafqaz xalqları arasında müxtəlif ədavət toxumu səpərək, onları özündən asılı vəziyyətə saldı. Şeyx Mənsurun qatı tərəfdarı olan knyaz Çopalovu belə ondan ayırdı. [12]

Salyandakı rus konsulu Sulyakovun 1768-ci ilin sonunda Qızlar komendantı Potapova verdiyi xəbərə görə, Van paşası Fətəli xana məktub göndərərək, ona ehtiyatlı olmaq, rus qoşunlarının hücumu ehtimalına qarşı qabaqcadan tədbirlər həyata keçirməyi məsləhət görmüşdü. Sulyakovun yazdığına görə, bütün sünniməzhəb Azərbaycan türkləri Osmanlı dövlətinə hüsn-rəğbət bəsləyir və hətta Osmanlı qoşunları gələrsə çox sevinərlər.[13]

Mənbələrin verdiyi məlumata görə elçilər Sultanın məktubu ilə Fətəli xanın yanına gəlmişdilər ki, Rusiyanın yaxınlığında mülklərə malik olan Fətəli xan, Rusiya qoşunlarını «İranın», yəni Azərbaycanın içərələrinə buraxmasın, onlar yaxınlaşanda isə Osmanlı sarayını məlumatlandırsın.

Çar hakimiyyət orqanları osmanlıların Qızlar və Terek rayonlarında zərbə hazırladıqlarını güman edirdilər. Bu, Həştərxanı və Rusiyanın cənub ərazilərini zərbə altına qoya bilərdi. Azərbaycanlıların və dağıstanlıların Sultanın çağırışlarına münasibətlərini öyrənmək üçün tələsik Vasili Knyazev adlı birisi Azərbaycan və Dağıstana göndərildi. O, gizli surətdə bir sıra materiallar toplayıb onları Xarici İşlər Kollegiyasına göndərdi. Knyazev müsəlman hakimlərinin Qızlara və Gürcüstana basqın etmələri planının mövcüd olduğunu təsdiq etdi. Ənzəlidəki rus konsulu Boqolyubov yazırdı ki, 1770-ci ildə Şirazdakı bir katolik dostundan Ərzurum sərəskərinin (paşası) Təbriz və İrəvan xanlarını artıq öz tərəfinə çəkə bildiyi barədə dəqiq xəbər almışdır. Boqolyubov daha sonra yazırdı ki, 1771-ci ilin sonunda Şiraza Ərzurum paşasının artıq üçüncü elçisi gəlmişdi. Paşa II İraklini osmanlılara qarşı hərbi əməliyyatlarda iştirakdan çəkindirmək üçün Kərim xandan digər güclü İran və Azərbaycan xanları ilə birləşib Gürcüstana basqın etməyi tələb edirdi. Boqolyubovun yazdığına görə, Kərim xan sözdə Gürcüstana 10-12 min nəfərlik qoşun göndərib, yanındakı gürcü şahzadəsi Aleksandr Bakarovu Gürcüstan taxtına çıxarmağa çalışacağını vəd etsə də, əslində bunu etmək fikrində deyil, çünki xanlıqlar arasında mübarizə gücləndiyindən heç kim qüvvələrini kənara göndərmək istəmir.[14]

Osmanlı sarayı böyük hərbi qüvvəsini və siyasi təsirini nəzərə alaraq Quba xanlığını öz tərəfindən müharibəyə cəlb etməyə səy göstərirdi. Knyazev Qubalı Fətəli xanın yanında olarkən onun əyanlarının danışıqlarından öyrənmişdi ki, bu ərəfədə Osmanlıdan üç nəfər Fətəli xanın və dağlı hakimlərinin yanına göndərilib. Sultan həmdin olduqlarına görə Fətəli xan və Dağıstan hakimlərinin Rusiyaya qarşı müharibədə ona kömək göstərilməsini tələb edirdi. Bu məktubu aldıqdan sonra Tarku Şamxalı, Akusa kadisi, Qaraqaytaq və Avar usmiləri məsləhət üçün Dərbəndə Fətəli xanın yanına gəlmişlər. Sultana yardım göstərmək qərara alınmışdır. Bundan sonra Fətəli xan bahalı hədiyyələrlə osmanlı elçilərini geriyə yola salaraq Sultana yazmışdı ki, o, döyüşçüləri saxlamaq üçün lazımi qədər pul göndərsin, bundan sonra Fətəli xan və Dağıstan hakimləri bütün qüvvələri ilə Gürcüstana, yaxud Qızlara hücum edərlər. Dərbənddə yaşayan ermənilər də Knyazevlə danışıqlarında Fətəli xanın Rusiya ərazilərinə basqın etmək fikrində olduğunu təsdiq etmişdilər. Knyazev onun özünün də buna şübhə etmədiyini bildirdi. Onun yazdığına görə hətta Fətəli xan dağıstanlıları öz tərəfinə daha yaxşı cəlb etmək üçün şiəlikdən imtina edərək sünniliyə keçəcəyini bildiribmiş. Deyilənə görə, Fətəli xanın bu hərəkəti qubalı şiələri bərk qəzəbləndirmişdi.[15]

Qızlar ermənisi Anton Antonov da 1771-ci il yanvarın 14 (25)-də yazdığı donosda bir həftə əvvəl üç əsilzadə osmanlının Dərbəndə gəldiyini təsdiq edərək bildirmişdi ki, Sultan Fətəli xanı və Dağıstan hakimlərini birləşib ruslara və onların əlaltısı gürcülərə qarşı mübarizəyə çağırır. Dağıstan hakimləri məktubu alan kimi Sultanın elçilərinə demişdilər ki, onlar Fətəli xanla məsləhətləşməlidirlər və o, hansı qərara gəlsə, eləcə də hərəkət etməyə hazırdırlar. Həmin osmanlılar sonra Dərbəndə gedərək Sultanın məktubunu Fətəli xana da vermişdilər. A.Antonovun yazdığına görə, Fətəli xan Osmanlı nümayəndələrini buraxıb divanda bildirmişdir ki, Sultan kömək istəyir, biz bir müsəlman kimi bunu etməliyik, lakin Sultan uzaqda, Rusiya isə yaxındadır. Buna görə də yaxşı fikirləşib cavab verməliyik.

Sonra Dərbənddən Qubaya gələn Fətəli xan Osmanlı elçilərini burada yenidən qəbul etmişdir, ancaq onlara nə cavab verdiyi məlum deyil.[16]

A.Antonov aşağıdakı məlumatları da yazmışdır: bir müddət əvvəl Sultan Fətəli xana çoxlu pul göndərib ki, xan digər hakimləri də cəlb edib Sultana kömək göstərsin; lakin xəzinə Axısqadan II İraklinin mülklərinin yanından keçirilərkən Çarın adamları basqın edib müşayiətçilərin hamısını ölənədək döymüş, xəzinəni ələ keçirmişdir. Fətəli xan bundan bərk məyusdur və yaxın vaxtda yanındakı Osmanlı təbəəsi Qasım ağanı Sultanın yanına göndərmək fikrindədir. Fətəli xan Sultanın məktubunu alan kimi qasid göndərmiş, Həştərxandakı nümayəndəsi Hacı Ağazelaldan (Ağazeynal-T.M.) 40 günə kimi geri qayıtmasını tələb etmişdi.[17]

Bakıdakı Rusiya konsulunun tərcüməçisi Mustafa Murtazaliyev 1771-ci il yanvarın əvvəllərində danışmışdı ki, o, Şamaxıda olarkən Osmanlı Sultanının nümayəndəsi Fətəli xanın yanına gələrək, həmdin olduğuna görə Rusiyaya qarşı müharibə aparan osmanlılara yardım göstərməyi təkid etmişdi. Mustafa Sultanın məktub, Fətəli xan və Dağıstan hakimləri üçün xəzinə göndərdiyini, ancaq bu xəzinənin II İrakli tərəfindən zəbt olunduğunu, Fətəli xanın Həştərxandakı nümayəndəsini geri çağırdığını təsdiq etmişdi.[18]

Qeyd edək ki, Qafqaz xəttindəki rus qoşunlarının komandanlığı Rusiyaya qarşı çıxmaq üçün Azərbaycan xanlarının qoşun toplayacaqları ehtimalından bərk narahat olmuş, bununla əlaqədar bir sıra xanlara sorğu vermişdi. Rusiyadan ehtiyat edən Qarabağ, Şəki və Gəncə xanları konsul Sulyakova məktub yazaraq, onu Gürcüstana hücum etmək fikrində olmadıqlarına əmin etmişdilər.[19]

Sulyakov 1771-ci il 12 (23) fevral tarixli relyasiyasında Fətəli xanın Qızlar və Həştərxan ətrafında yaşayan müsəlman xalqları ilə birlikdə Rusiya imperiyasına qarşı hansısa bir hərəkətə hazırlaşdığı, Bakıdan Qızlara quru yolunun təhlükəli olmasına baxmayaraq, çapar göndərib Həştərxan qubernatorunu və Qızlar komendantını xəbərdar etməsi barədə yazmışdır.[20]

Azərbaycan xanları ilə Osmanlı imperiyası arasında yaxınlaşmanı narahatçılıqla müşahidə edən Rusiya hökuməti öz qoşunlarını Azərbaycanın hüdudlarının yaxınlığına cəmləşdirdi. 1770-ci il fevralın 28 (martın 11)-də Rusiya Xarici İşlər Kollegiyası konsullarının göndərdiyi məxfi məktublarda İmeretiya və Kartli-Kaxetiya çarlarının Qafqaz cəbhəsində rus qoşunlarına və artilleriyasına bəzi köməklik göstərmək üçün dəvət edildikləri haqqında məlumat çatdırılırdı.[21]

Əks tədbirlər görsə də rus komandanlığı çox narahat idi. Qızlar komendantı dağlı hakimlərin - Tarku şamxalının, Qaraqaytaq usmisinin, Avar xanının, Tabasaran və Akuşa kadilərinin, həmçininn Fətəli xanın Rusiyaya qarşı hərbi əməliyyatlara kömək etməyə hazırlaşdıqlarını Salyandakı Rusiya konsulu Sulyakova istinadən yazırdı.[22]

Qubernator Beketov Xarici İşlər Qollegiyasına 1770-ci il avqustun 24-də Qafqaz hakimlərinin Sultanın çağırışı ilə Gürcüstana və Qızlara basqın etmək qərarına gəldiyini eşitdiyini yenə də yazırdı. Şamaxının bir xristian sakininin sözündən aydın olurdu ki, guya Fətəli xan osmanlı Qasım ağanı vəd olunmuş məbləğdə pulu almaq üçün Sultanın yanına göndərməyi qərara almışdır.[23] Beketov daha sonra keçmiş Qızlar komendantı polkovnik Nemiçin konsul Sulyakovun məlumatı əsasında Dağıstan hakimləri və Fətəli xanın Rusiyaya qarşı hərbi əməliyyata hazırlaşdıqlarını xəbər verdiyini də məruzəsinə daxil etmişdi.[24]

Rusiya hökuməti təşvişə düşərək daha bir sıra əks-tədbirlər gördü, Həştərxan qubernatoru dərhal bir qrup botu (yüngül gəmi) silahlandırıb, komplektləşdirməyi və guya konsul Sulyakovun mallarını daşımaq bəhanəsi ilə ticarət bayrağı altında Xəzərin qərb sahillərinə göndərməyi təklif edirdi.[25] Kazandan və bir sıra digər Volqaboyu şəhərlərdən qoşunların bir hissəsi Osmanlı imperiyası ilə döyüş cəbhəsinə yox, Qızlar və Terek rayonlarına göndərildi.[26]

Lakin mənbələr göstərir ki, 60-cı illərin sonu - 70-ci illərin əvvələrində Osmanlı dövləti Rusiyanın Cənubi Qafqaz istiqamətində hücuma keçəcəyini bir o qədər də gözləmirdi. Çıldır valisi Süleyman paşanın baş vəzirə göndərdiyi 1773-cü il 25 oktyabr (8 şaban 1187 h) tarixli təhriratda İrakli və İmperiya hakimi Solomonun Rusiya ilə ittifaqa girdikləri, rusların Kartli-Kaxeti çarlığı ərazisindən İmeretiyaya top, hərbi sursat və 70-80 min əsgəri gətirməkdə olduğunu həyacanla xəbər verilmişdi.[27] Lakin bu məsələ ilə bağlı sarayda keçirilmiş məşvərətdə bildirilmişdi ki, Tiflisdən şimal tərəfdəki Rusiya ərazisi 7-8 «qonaq» (mənzil) məsafəsində, insanın daimi yaşamadığı yerlər olduğundan buradan qısa müddətə göstərilən miqdarda əsgər, çoxlu hərbi sursat gətirmək mümkün deyil. Bununla belə müəyyən ehtiyat tədbirləri görmək, sərhəd ərazilərini möhkəmləndirmək qərara alınmışdı.[28]

### *3. Kiçik Qaynarca sülhündən sonra Osmanlı dövlətinin Cənubi Qafqazda siyasəti*

Məlum olduğu kimi, 1768-1774-cü illər müharibəsində Osmanlı dövləti məğlubiyyətə uğramış və özü üçün ağır olan şərtlərlə Kiçik Qaynarca sülh müqaviləsini imzalamalı olmuşdu. Bu müqaviləyə əsasən Rusiya Qara dənizdə ticarət donanması saxlamaq hüququ almış, Krım Osmanlıdan asılı olmayan bitərəf dövlət elan edilmişdi. Beləliklə, Sultan ilk dəfə olaraq müsəlmanlarla məskunlaşmış ərazini güzəştə getmək məcburiyyətində qalmışdı. Buna görə Osmanlı imperiyasının sarsılan nüfuzu və mürəkkəbləşən durumundan yararlanmağa çalışan Rusiya öz daxili vəziyyətini bir qədər sabitləşdirdikdən sonra Osmanlı hakimiyyətinin Avropa ərazisindən tamamilə yox edilməsi və «Osmanlı irsi»ni bölüşdərmik məsələsini ortaya atdı. Lakin İngiltərə, Fransa və bir sıra başqa Avropa dövlətləri bu təklifə qarşı çıxdılar.[1] Krım xanlığını itirən Sultan onun vasitəsilə bütün Qafqazda təsir göstərmək imkanından məhrum olmuş, buna görə də Cənubi Qafqazın Osmanlı dövləti üçün əhəmiyyəti artmışdı.[2] Cənubi Qafqaza, ilk növbədə Azərbaycana daha çox diqqət yetirən Osmanlı imperiyası həm də Rusiya təhlükəsinin artdığı bir şəraitdə Azərbaycan xanlıqlarından bir çoxunun yardım üçün üz tutduğu bir dövlətə çevrilməyə başlamışdı.

Sərkərlər nəslindən olan Şamaxı xanları və xanlıq əhalisinin əksəriyyəti qəti surətdə Osmanlı imperiyasına meyl edirdi. Mənbədə bu barədə deyilir: «Sünni məzhəbli şamaxılı Ağası xan nümayəndəsini bizim yüksək saraya qarşı (Rusiyaya - T.M.) yardım istəmək üçün həmetiqadı türklərin yanına göndərmək qərarına gəlmişdir».[3] Kartli-Kaxetiya çarı II İrakli şamaxılı Məhəmməd Səid xana Rusiyanın himayəsini qəbul etməyi təklif etmiş, lakin xan nəinki buna razılıq verməmiş, hətta çarın belə təklif etməsindən əsəbləşmişdi.[4]

1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsindən sonra Azərbaycan xanlıqlarına diqqəti artıran Osmanlı hökuməti Rusiya ilə münasibətlərin yenidən kəskinləşəcəyi təqdirdə onlardan istifadə etmək niyyətində idi. Azərbaycan, xüsusən də onun böyük strateji əhəmiyyətə malik məntəqələri böyük qonşu dövlətlərin diqqət mərkəzində idi. XVIII yüzilliyin ikinci yarısında Dərbənd Rusiya, Osmanlı imperiyası və İran üçün öz üstün strateji və siyasi əhəmiyyətini hələ saxlayırdı. Rusiyanın Kartli-Kaxetidəki nümayəndəsi polkovnik S.Burnaşov yazırdı: «nəinki bütün İranda, hətta türk torpaqlarında da deyilirdi ki, Dərbənd xristianlar tərəfindən alınarsa, bu Məhəmmədin etiqadı və hakimiyyətinin dağılması demək olacaqdır».[5]

Qmelinin ekspedisiyası ilə bağlı münaqişə, rus qoşunlarının Dağıstana yürüşü və Dərbənddə Rusiya hərbi hissəsinin yerləşdirilməsi Avropa ölkələri və Osmanlı dövlətinin ciddi narahatlığına səbəb oldu. Osmanlı sarayı bunu Rusiyanın osmanlılarla bağladığı sülh müqaviləsini pozması və yeni müharibəyə hazırlaşmasının əlaməti hesab edirdi.[6] Rusiya hökuməti yaranmış gərginliyi yumşaltmaq üçün bəyanat verdi və bütün narahatlıqların əbəs olduğunu, Rusiya tərəfindən müqavilənin heç vaxt pozulmayacağını və Dərbənddə yerləşdirilən kontin-gentin sayının 2 min nəfəri ötmədiyini bildirdi.[7]

Dəməşqdən Dərbəndə guya Məkkəyə gedəcək müsəlman zəvvarlarını müşaiyət etmək üçün iki əsilzadə Osmanlı təbəəsi göndərilmişdi. Onlar rus qoşunlarının bura nə üçün gəldiyini, niyə indiyə qədər burada qaldığını aydınlaşdırmalı idilər. Dərbənddə yerləşən rus hissəsinin mayoru rus qoşunlarının Dərbənddə yerləşmisinin səbəblərini izah etməyə çalışaraq demişdi ki, Rusiya Osmanlı dövləti ilə əgər osmanlılar özü buna səbəb verməsə müharibə etməyə hazırlaşmır.[8]

Osmanlı hökuməti Rusiyanın Cənubi Dağıstandakı niyyətləri və Quba xanlığına köməyinin səbəbləri barədə rəsmi sorğu verdi. Buna cavab olaraq II Yekaterinanın səfir N.V.Repninə 1775-ci il 3(14) oktyabr tarixli buyruğunda deyilirdi ki, «türk nazirinin... Dərbənd şəhəri və oradakı xanla bağlı bizim sarayın hərəkətləri barədə rəyi təəccüb doğurur».[9] II Yekaterina Repninə Rusiyanın Dərbənd şəhərini özünə birləşdirmək niyyətində olmadığını, Cənubi Dağıstana yürüşün Rusiyanın nufuzunu yüksəltmək və Rusiya sarayına lazımi hörməti bərpa etmək məqsədi güddüyünü Osmanlı hökumətinə açıqlamağı buyurmuşdu.[10]

XVIII yüzilliyin 70-ci illərinin ortalarında Rusiya hökuməti Yemelyan Puqaçovun rəhbərliyi altında üsyan nəticəsində ölkənin sarsılmış vəziyyətini möhkəmləndirməyə çalışır və çox fəal xarici siyasət yeridə bilmirdi. Rusiya onun üçün əlverişli Kiçik Qaynarca sülhünün şərtlərini pozmaq istəməyərək Osmanlı imperiyasına qarşı mülayim siyasət yeridirdi. Buna görə də bu zaman Rusiya hələ Azərbaycanla bağlı işğalçılıq niyyətini büruzə verməyib gizlətməyə çalışırdı.

İmperatriçə II Yekaterina (1762-1796) Osmanlı dövlətini və İranı sakitləşdirmək üçün general de Medemə Dərbənddə saxlanmış qüvvəni tez zamanda geri qaytarmağı əmr etmişdi.[11] Çar hökuməti Azərbaycan və Dağıstanın işlərinə qarışmaqla və Dərbənddə qoşun saxlamaqla osmanlıların Cənubi

Qafqazda cavab hərəkətlərinə səbəb olacağından ehtiyatlanırdı. II Yekaterina bu münasibətlə yazırdı: «Əgər biz öz sərhədlərimizi Qızlardan İrana tərəf genişləndirmək istəsək, Onda Porta öz növbəsində İranla bilavistə qonşu olduğu üçün, bu cür hərəkət edərək, ona yaxın İran ərazilərini tutar».[12]

II Yekaterina yazırdı ki, beynəlxalq şərait indi həmin ölkələrdə Rusiya qoşunlarının hərəkətlərini davam etdirməyi tamamilə lazımsız edir. Bu, Dağıstan xalqlarını Rusiyaya qarşı qaldırır, bundan əlavə İran və Osmanlı imperiyasında, Rusi-yaya qonşu dövlətlərdə, Rusiyaya qarşı şübhə doğurur.[13] General de Medem mürəkkəb beynəlxalq şəraitdə Dərbənddə qoşun saxladığına görə töhmət aldı. Rus qoşunu Dərbənddən çıxarılıb Qızlara aparıldı.[14]

Rusiyanın işğalçı planlarından ehtiyat edən Azərbaycan xanlıqları bu niyyətin qarşısını almaq üçün Osmanlı dövlətinə daha tez-tez müraciət etməyə başlamışdılar. 1775-ci ildə Xoy xanı Əhməd xanın Çıldır valisi Süleyman paşaya göndərdiyi məktubda «Tatarıstan və Lehi istilasından qüvvət alan Rusiyanın və onunla ittifaq yapan İrakli xanın (II İraklinin – red.) təcavüzünə imkan verilməməsi üçün Azərbaycan və Qafqaz xanlarının «Dövləti-Aliyyə» (Osmanlı imperiyasına - T.M.) əmrində hərbdə iştirak etmələrinin islamçılıq dolaysıyla vacib olduğu» bildirilirdi. [15]

Şəkili Məhəmməd Həsən xan 1775-ci ildə sədrəzəmə yazdığı bir məktubda xəzinə katibi İbrahim bəy vasitəsilə göndərilən məktubun alındığını, gürcülər tərəfindən mühasirəyə alınan Gəncə qalasının «umera ve çivar hakimlerinin ve askeri Osmaniyenin hizmetiyle istibdat edildiyini» (yəni ətraf hakimlərin və osmanlı döyüşçülərinin yardımı ilə davam gətirdiyini) bildiridi. İraklinin oğlu Almaz Mirzə və kürəkəni Davud bəy ilə Şəmsəddinli Əli Sultan böyük qüvvə ilə Gəncəyə hücum etsələr də uğur qazana bilməmişdilər. [16] Digər bir sənəddə bununla bağlı deyilirdi ki, II İrakli bir qədər rus döyüşçüsü, toplarla Sarı Mustafa qalasını (Gəncəni-T.M.) 9 ay mühasirədə saxlamışdı. Sonra Məhəmməd Həsən xan muzdlu dağıstanlı döyüşçülərlə və Çıldır valisilə birgə II İraklini buradan uzaqlaşdırmışdılar.[17]

1775-ci ilin iyunun 25-də (1189 h.) İrəvan xanı Qars mühafizi İzzət Mehmet paşaya yazdığı məktubda Osmanlı dövlətinə sədaqətindən bəhs edir və məktublar göndərdiyini yazırdı.[18]

Osmanlı hökuməti belə hesab edirdi ki, ruslar məqamı əlverişli görüb Türkiyəyə hücum etmək istəyirlər. Buna görə də arzu olunurdu ki, Şəki, Qarabağ xanları, Şamaxılı Məhəmməd Səid xan və digərləri II İraklinin yenə ola biləcək hücumuna qarşı birləşməlidirlər.[19]

Şəkili Məhəmməd Həsən xan 1776-cı ildə Sultana məktubunda bildirirdi ki, «İrakli xanı iblis-sime Rusiyalıya tebaiyyet etmek hesabıyla pişvası olub hüdud-ı memalik-i Azerbaycan ve tahsis kala-i Erivana tecavüz ve tehattüt» edərsə, Azərbaycan xanları və Dağıstan hakimləri ona qarşı vuruşmaq üçün ittifaqa girəcəklər.[20] Məktubda deyilirdi: "İran bisahib ve herkes birer memleket zabtiyle tava-ifi mülük olup hod-be-hod Rusiyalıya mukaiemet ve mukabele edemeyecekleri malum-i saadetleridiz. Cumlemiz merhamet ü şekaf-ı padişahiye mühtacız."[21]

Məhəmməd Həsən xan daha sonra Kabardadan Rusiya ilə Gürcüstan arasında yol salındığından, bu yol ilə Gürcüstana daim artilleriya, cəbbəxana və sair göndərildiyindən bəhs edirdi. Həmin 1776-cı ildə yazdığı digər məktubunda Məhəmməd Həsən xan yenə də İraklinin İrəvan qalasına hücum edəcəyi təqdirdə Azərbaycan xanlarının və Dağıstan hakimlərinin birləşəcəyini bildirirdi. [22]

Məhəmməd Həsən xan daha sonra yazırdı ki, neçə il Gəncəyə nəzarət edən İraklinin buraya rus əsgərlərini yerləşdirmək niyyəti məlum olduqda Şəki xanı əhali tərəfindən Gəncəyə ərzaq aparılmasını qadağan etmiş və bu öz rolunu oynamışdır. [23]

Ərdəbilli Nəzərəli xan da 1776-77-ci ildə (1190 h) göndərdiyi məktubunda ×ıldır valisi Süleyman paşa vasitəsi ilə göndərilən fərman və yardımın alındığını və İraklinin təcavüzünə qarşı mübarizə əzmində olduğunu bildirirdi. Yenə həmin ildə Xoylu Əhməd xan Çıldır valisi Süleyman paşaya Rusiya ilə ittifaqda olan İraklinin təcvüzünə yol verməmək üçün Azərbaycan xanlarının «Devlet-i Aliyye emrinde» müharibəyə hazır olduqlarını və bəzi lazımi sursatı almaq üçün İstanbuldan xəzinədar katibi İbrahim bəy vasitəsi ilə müəyyən miqdarda pul göndərdiyini yazırdı.[25]

1775-1776-cı illər arasında Canikli Əli paşa bir tərəfdən, sərəsgər Yegen Əli paşa digər tərfindən Of üzərinə getmək adı ilə Cənubi Azərbaycan və İran ərazisinə daxil olmuşdular. Lakin osmanlı hökuməti Azərbaycan xanlarının bu anadək «Devlet-i Aliyyelerine düsmanlık fikrinde» olmadığından bu hərəkətin dayandırılmasını lazım bilmişdi. [26]

İstanbuldakı rus səfiri Staxiyev yazırdı ki, 1776-cı ilin dekabrında II İraklinin elçisi İstanbula gəlmişdir. Vəzirlə görüşən elçi bildirmişdir ki, II İrakli və ona qonşu olan 7 Azərbaycan xanı Osmanlı imperiyasına səmimi münasibətlərini saxlayırlar və Kərim xan Zəndin Osmanlı dövlətinə qarşı yönəlmiş hərəkətlərinə mənfi münasibət bəsləyirlər.[27] Qarabağ xanı İbrahim Xəlil xan öz vəziri Molla Həsəni

Osmanlı Sultanın yanına göndərərək ona bildirirdi: «Mərhəmətli Sultanım, əgər Sizdən gözlədiyimiz köməyi alsaq biz düşmənlərimizi tarmar edərik».[28]

A.Staxiyev 1776-cı ilin noyabrında yazırdı ki, osmanlılarla iranlılar arasında münaqişə getdikcə dərinləşir, Osmanlı sarayından sülh danışıqları üçün göndərilmiş nümayəndə Kərim xandan heç bir güzəştə nail olmamışdır, buradan bir qapıçıbaşı Hələbdə təcili olaraq Bağdada hərbi sursat və ərzaq ehtiyacı daşımaq üçün dayaz dibli gəmilər inşa etmək əmri ilə oraya göndərilmişdir.[29]

İki gün sonra göndərdiyi digər raportunda isə A.Staxiyev yazırdı ki, Osmanlı hökuməti Kərim xanı təzminat ödəmək şərti ilə Bəsrəni Türkiyəyə qaytarmağa razı salmışdır.[30]

Lakin görünür osmanlı hökuməti Kərim xan Zəndi tamamilə razı sala bilməmiş və münaqişə yeni qüvvə ilə alovlanmışdı. A.Staxiyev 1776-cı il dekabrın 2-də Osmanlı ordusu Bağdad yaxınlığında darmadağın edildikdən sonra Spanaqçı paşanın şəhəri tərk etdiyi, digər böyük zabitlərin də biri digərinin dalınca həmin yerlərdən qaçdığını yazırdı. Staxiyev daha sonra yazırdı ki, cəbəçi başı bir qədər bundan əvvəl paytaxta qayıtmış və Sultanın əmri ilə boğulmuşdur, oradakı yeniçəri ağasının da aqibəti belə olmuşdur.[31]

Dekabrın 2-də nəinki bütün üləmaların, eləcə də beş baş hərbi və mülki şəxsin iştirak etdiyi böyük divan keçirilmişdi. Divanda baş vəzir iranlıların nəinki Bağdad ətrafına, həmçininn Anıs, Tuxçurma, Tauk, Mosul və Legerkuta (Kərkükə- T.M.) basqın etmələri haqqında məlumat vermişdi. Bağdad paşasına xəbər göndərilmişdi ki, hər cür hazırlıq görsün, çünki iranlılar birbaşa Sivasa hücum etmək niyyətindədirlər.[32]

Bu cür düşmən basqınlarının qarşısını almaq üçün divanda qərara alınmışdı ki, iranlılara rəsmən müharibə elan edilsin və Sultandan bu qərarı yazılı şəkildə təsdiq etmək tələb olunsun. Sultan İ Əbdülhəmid (1774-1789) yazılı şəkildə cavab vermişdi ki, öz sadiq təbəələrini qorumaq üçün bütün xəzinəsini təklif edir, divandan isə tələb edir ki, lazımi sərəncamlar versin.[33] Staxiyev yazırdı ki, buradakı bütün yeniçəri alayları təchiz olunmuşdur, müxtəlif hərbi sursat ehtiyatları komissarlarla birlikdə o tərəflərə göndərilir. Belə məlumat da alınmışdı ki, həmin divandan sonra Asiya əyalətlərində qoşun yığmaq və müxtəlif yerlərə nəqliyyatın hərəkətini asanlaşdırmaq, döyüşçüləri təcili silahlandırmaq üçün qızıl pulları gümüş pula də-yişdirmək haqqında əmr verilmişdir. Hər şeydən görünürdü ki, Osmanlı sarayı iranlılara müharibə elan etmək qərarına gəlmişdir.[34]

Staxiyevin yazdığına görə, adı çəkilən divanda qəbul edilən qərardan aydınlaşırdı ki: 1. İranlıları Bağdad tərfindən sıxışdırmaq üçün İstanbuldan 4 böyük silahdar göndərilir; 2. Canikli Əli paşa Asiyanın sağ tərəfinə Ərzuruma sərəskər tə-yin olunmuş, ona hərbi xərclərə 400 kisə pul verilməsi qərara alınmışdır. Oradakı hakim Gənc Əli paşa Caniklı Əli paşanın tabeçiliyinə keçməli və Qassama şəhərində İran sərhədi yaxınlığında mövqe tutmalı idi. Caniklı Əli paşanın özünə Canik əyalətinin idarəsi tapşırılmışdı;[35] 3. Bundan qabaq Özüdə (Oçakovda) olan Kor Əli Əhməd paşa Diyarbəkrə hakim təyin olunmuş və ilk vaxtlar üçün ona 600 kisə pul ayrılmışdı. Mərdin hakiminə 200 kisə pul ayrılmışdı; 4. Bundan əvvəl Bəndər sərəsgəri, indi isə Mosul hakimi olan Əbdülhəlim paşaya 600 kisə pul, Kürdüstan hakimi Ömər paşaya da bir o qədər pul ayrılmışdı; 5. Bağdad hakimi, yaxud sol Asiya tərəfi sərəsgərinə 800 kisə pul ayrılmışdı.[36]

A.Staxiyevin yazdığına görə, Osmanlı sarayı iranlılara qarşı hərbi əməliyyatlara hazırlaşmaq üçün bütövlükdə 20 min kisə pul ayırıbmış və bankirlərə əmr edilib ki, bu məbləğdə qızıl pullar zərb etsinlər və artıq ilk günlərdə onlara 600 kisəyə kimi gümüş pul verilmişdir.[37] Divanda həm də qərara alınmışdı ki, iranlılarla yalnız müdafiə müharibəsi aparılsın, onları Osmanlı ərazilərindən çıxarmaqla kifayətlənilsin.[38]

Dekabrın 5-də A.Staxiyev yazırdı ki, Mosuldan üç qasid gəlmiş və xəbər gətirmişlər ki, Kərim xan öz qoşunu ilə Kərkükün yanına həmin şəhəri və Mərdini almaq üçün gəlmişdir, bəyan etmişdir ki, həmin yerləri öz xanlarından birinin idarəçiliyinə vermək istəyir. Həmin yerlərin bütün kürdləri artıq Kərim xanın tərəfinə keçmişlər.[39]

Osmanlı sarayı həmin yerlərin uzaqlığı və qış fəslində yeni qüvvələr göndərməyin mümkünsüzlüyünü nəzərə alaraq, bölgədəki sərəskər Canıklı Əli paşaya öz sərəncamında olan qoşunlarla digər yerlərdən yardım gələnə kimi iranlıları dəf etmək, hərbi sursatı hazırlayıb Trabzona dəniz yolu ilə göndərmək əmr olunmuşdu.[40] A.Staxiyev yazırdı ki, dekabrın 5-də alınmış xəbərlərə görə İstanbuldan pulla birlikdə Urfa və Di-yarbəkrə göndərilən iki qapıçıbaşına həmin vilayətlərdə ərzaq alaraq Bilicik, Şat və Murad çayları ilə Bağdada çatdırmaq əmr olunmuşdu.[41] Ərzurumdakı yeniçəri ağasından qasid belə bir xəbərlə gəlmişdi ki, oradakı sakinlər Gənc Əli paşaya qarşı qiyam etmiş və onu böyük itki verməklə, öz arvadlarını da qoyub Qassan şəhərinə qaçmağa məcbur etmişlər.[42] Artıq üç gündür ki, buradan üç qapıçıbaşı - biri Mosula, biri Ərzuruma, üçüncüsü Sivasa göndərilmişdi ki, oralarda qoşun

cəmləsinlər və ərzaq tədarük etsinlər. A.Staxiyevin məlumatına görə Osmanlı hökuməti Arpaçay tərəfindəki İran qoşunlarının İrəvanı mühasirəyə aldığını və Qarsa tərəf yönəlmək istədiyini eşidəndən sonra xəzinədar Kor Əli paşanı ora sərəskər təyin etmişdi.[43]

Dekabrın 7-də alınmış xəbərlərdə Kərim xan Zəndin üç nəfərə xan rütbəsi və hərəsinə 7-8 min döyüşçü verərək Bağdad tərəfə hakim təyin etməsi, Kərkük hakimi Həsən paşanın onun bu hərəkəti haqqında eşidərək öz qoşunu ilə İraqa tərəf irəliləməsi bildirilirdi.[44]

Başbakanlıq Osmanlı Arxivində olan məlumatda Kərim xan Zəndin Qars tərəfə qüvvələr və Nəzərəli xanın başçılığı ilə Bağdada və Şəhrizar tərəfə çoxlu qoşun və hərbi sursat göndərməsi ilə bağlı İranı qorxuzmaq və hərəkətini çətinləşdirmək üçün Azərbaycana ordu göndərilməsinin gərəkliliyi ifadə olunurdu. Məlumatda daha sonra Xoy və İrəvan xanlarına İstanbuldan hədiyyələr aparıldığı, İrəvanlı Hüseynəli xanın hədiyyələri qəbul etmədiyi və osmanlılara münasibətini dəyişdiyi bildirilir, osmanlıların ona qarşı qoşun göndərəcəyi halda yardım üçün Kərim xana müraciət edəcəyi ehtimalı ifadə olunurdu. Qarsa girdikdən sonra ehtiyatlı olmaq və vilayəti idarə etmək üçün təşkil olunan mühafizə qoşunlarından başqa, 10 min piyada və 5 min süvari əsgərin toplanmasının vacib olduğu vurğulanırdı. Qarsa çatdıqdan sonra İrəvanlı Hüseynəli xanla Arpaçay kənarlarında müharibəyə girmək lazım gələrdisə, buna icazə verilməli idi.[45]

1778-79-cu ilə (1192 h.) aid bir sənəddə İrəvan tərəfindən 300 nəfərə qədər süvarinin Bəyazid sancağının Gürcübulaq və Surbulan qəryələrinə basqın edib, talan etdikləri Xoy və Təbriz xanlarına bildirilirdi.[46]

Osmanlı dövləti müharibədən sonrakı dövrdə Rusiya ilə sülh müqaviləsini pozmaqda ittiham olunacağından ehtiyat edərək Azərbaycan xanlıqlarına konkret hərbi yardım göstərə bilmir, lakin Azərbaycan xanları ilə olan yaxşı münasibətləri qoruyub saxlamaq istəyirdi.

1780-ci ildə Sultan İ Əbdülhəmidin əmri ilə Azərbaycan xanlarına və Dağıstan hakimlərinə göndərilən hədiyyələri aparmaq əvvəlcə Süleyman paşanın oğlu Saleh bəyə tapşırılmış, lakin o ləng tərpəndiyi üçün sonra başqa şəxsə etibar edilmişdi.[47]

Bakıda olmuş rus casusu Karp Latınsev 1780-ci ilin avqustunda İstanbuldan gəlmiş elçilərin Şamaxılı Məhəmməd Səid xana məktub göndərdiyi, xanın onlara Rusiyanın artıq Xəzərin cənub sahillərinə hərbi-dəniz eskadrası göndərdiyini zənn etdiyini söylədiyi, Sultandan yardım xahiş etmək üçün geri qayıdan elçilərlə nümayəndə göndərdiyi barədə məlumat toplamışdı.[48]

Osmanlı sarayı həm də Azərbaycan xanları arasındakı çəkişmələrin aradan qaldırılmasına çalışırdı. 1779-cu ilin iyulun 1-də bir sıra Azərbaycan xanlarından Çıldır valisi Süleyman paşa vasitəsilə Osmanlı sarayına göndərilən məktubda Qubalı Fətəli xan və Şəkili Hüseyn xanın Qaytaq usmisi, Şamxal, Qazıkumuk hakimi və Akuşa kazisi ilə birlikdə Qarabağlı İbrahim Xəlil xanın üzərinə hazırdıqları hücumdan çəkdindirmək üçün İstanbuldan onlara gərəkli əmrin göndərilməsi arzulanırdı.[49]

Bu arzu nəzərə alınmış və 1779-cu ilin iyulun 25-də Sultan İ Əbdülhəmidin verdiyi fərmanda Qaytaq Usmisindən, Şamxaldan və Qazıkumuk hakimi Məhəmməd xandan Qarabağ xanlığına qarşı hücumda iştirak etməmək tələb olunurdu.[50] Sultan hücum niyyətinin «Dövləti-i Aliyyəyə zərər verəcək bir vəziyyət almaması üçün» və «onlar müsəlman olduqları üçün» bu hücumun qarşısını almağa çağırırdı.[51]

Lakin Sultan sarayının səylərinə baxmayaraq, Azərbaycan xanları arasında silahlı münaqişələr davam etməkdə idi. Çıldır valisi Süleyman paşanın 1780-ci il 26 oktyabr (27 şəvval 1194 h.) tarixli təhriratında deyilirdi ki, Qubalı Fətəli xan və Şəkili Hüseyn xanla Qarabağlı İbrahim xan arasında ədavət olduğundan İbrahim xan Hüseyn xanın oğlunu, həmçininn Qaradağ və Bakı xanlarını da həbs etmişdi. Fətəli xan Hüseyn xanla birgə İbrahim xanın üzərinə yürüşə hazırlaşarkən Hüseyn xanı öz əmisi Hacı Əbdülqadir bəy İbrahim xanın təhriki ilə qətlə yetirmişdi.[52] Bundan sonra İbrahim xan öz qaynı şahsevənli Nəzərəli xanı Dəşti qarət, Ərdəbil tərəfdən Təbrizə basqın etməyə göndərmişdi. Duruş gətirə bilməyən Təbrizli Nəcəfqulu xan qaçıb Xoylu Əhməd xana pənah aparmış və Xoylu Əhməd xanın adamları ilə II İraklinin yanına minnətçi göndərərək, Nəzərəli xanla aralarını yaxşılaşdırmaq üçün Osmanlı hakim dairələrinə müraciət etməsini xahiş etmişdi.[53]

İranda da ara mübarizəsi davam edirdi. Sadıq xan oğlu Cəfərqulu xanı İsfahanı zəbt etmiş Əlimurad xanı dəf etmək üçün Şiraza göndərmişdi. Məğlub edilmiş Əlimurad xan İsfahandakı arvad-uşağını buraxıb Həmədan tərəfə qaçmışdı. Casuslar xəbər verdilər ki, İran məmələkəti hələləik Sadıq xanın nəzarəti altındadır. Lakin «zemini ihtilali mütemadi olup günde bir hadise zühur ider».[54]

### 4. XVIII əsrin 80-ci illərinin əvvələrində Cənubi Qafqazda Osmanlı-Rusiya rəqabəti

Bu dövrdə Rusiyanın Azərbaycan xanlıqlarının ara mübarizəsindən istifadə edərək, Azərbaycanda işğallar keçirəcəyi ehtimalı Osmanlı hökumətini narahat edirdi. Rusiya doğrudan da 1781-ci ilin iyun ayında qraf Voynoviçin komandanlığı ilə Həştərxandan Astarabada eskadra göndərdi. Bu, general De Medemin yürüşündən sonra Rusiyanın regionda hərbi qüvvə nümayiş etdirən ən mühüm addımı idi.

Rus hökuməti Astarabad körfəzi sahilində, Əşrəf şəhəri yaxınlığında kiçik bir ərazi zəbt edib, burada ticarət məskəni (əslində isə gələcək işğallar üçün dayaq məntəqəsi) salmaq istəyirdi. Voynoviçin ekspedisiyası haqqında xəbər və Rusiya qoşunlarının gələcək yürüşü haqqında şaiyələr Osmanlı dövlətində və İranda böyük narahatlıq doğurdu. Sultan elçisi Qubalı Fətəli xanın yanına gələrək bildirmişdi ki, «əgər xana rus qoşunlarından müdafiə olunmaq üçün qoşun və freqatlar lazımdırsa, yardım üçün qoşun və pul göndəriləcəkdir». Lakin 1775-ci ildə göstərdiyi yardıma görə Rusiyaya borclu olan Fətəli xan bu təklifə cavab vermədi.[2]

Bu zaman Azərbaycan və İranda çox mürəkkəb vəziyyət yaranmışdı. 1780-ci ildə şah taxtına əsas namizədlərdən biri olan Astarabad hakimi Ağa Məhəmməd xan Qacar Cənubi Azərbaycana yürüş etmiş, 1781-ci ildə isə Gilanı tutmuşdu, Gilandan qovulmuş Hidayət xan dəniz yolu ilə Bakıya, oradan da Qubaya gəlmişdi. Ağa Məhəmməd xanın simasında daha təhlükəli rəqib görən Qubalı Fətəli xan dünənki rəqibi Hidayət xana Gilan taxtını yenidən ələ keçirmək üçün yardım etməyi qərara almışdı. Fətəli xan Şəki, Buynak qoşunlarını da cəlb edərək yürüşə başladı. Yolda Kərbəlayı Həsənələnin başçılıq etdiyi Qarabağ xanlığının qoşunları, habelə Cavad, Lənkəran və Ərdəbildən olan dəstələr müttəfiqlərə qoşuldular. Ağa Məhəmməd xandan narazı olan Rusiya hökuməti də xanları ona qarşı mübarizəyə təşviq edirdi. Çünki Ağa Məhəmməd xan Voynoviçin dəstəsinin üzvlərini həbs etmişdi. Lakin Ağa Məhəmməd xan Rusiyanın təzyiqi və xanların yürüşü nəticəsində onları azad etməli oldu. 1782-ci ilin sonunda müttəfiqlər sürətli və güclü hücumla Rəşt şəhərini aldılar. Gilanda yenidən Hidayət xanın hakimiyyəti bərpa olundu.[3]

Voynoviçin eskadrası geri qayıdarkən 1782-ci ilin avqustunda Bakı limanına daxil olmuşdu. Yalnız Qubalı Fətəli xanın diplomatik səyi nəticəsində gərgin münasibətlər nizama salınmışdı.[4] Bu bir daha onu göstərir ki, Q.A.Potyomkinin Xəzəryanı bölgələrin işğalı və böyük knyaz Konstantin Pavloviç üçün Cənubi Qafqazda bufer dövlətinin yaradılması layihəsi Rusiyanın xarici siyasətində mühüm yer tuturdu.

Mənbələr aydın göstərir ki, əslində Qubalı Fətəli xan Rusiyanın təcavüzkar niyyətlərindən xəbərdar idi, amma ona yaxınlıq göstərib, ehtiyatlı hərəkət etməyə məcbur idi. 1782-ci ildə Fətəli xanın qardaşı Məkkəyə ziyarət zamanı vəfat etdiyi üçün onu dəfn etməyə getmiş Saleh bəy adlı nümayəndəsi rusların «iranlılara (yəni, azərbaycanlılara - T.M.) qarşı olan təcavüzkar vəziyyətindən» və Fətəli xanın müdafiə olunması zərurətindən danışmışdı...».[5] Fətəli xan Osmanlı sərhəd hakimlərinə qardaşının ölümü ilə bağlı məktub göndərərək qardaşının cənazəsinin Kərbəlaya aparılması, gözəl bir məqbərə inşa edilməsi və başdaşı qoyulmasına şərait yaradılmasını xahiş etmişdi.[6] Süleyman paşanın 1783-cü il tarixli təhriratından Fətəli xanın Bağdadda vəfat etmiş qardaşının adının Hacı Məlik olduğu aydınlaşır.[7]

Osmanlı sarayının Ərzurum valisinin yanına göndərdiyi Hacı İbrahim adlı bir şəxs 1782-ci ilin yayında İstanbula qayıtmış və Azərbaycandakı vəziyyət haqqında hökumətə məlumatında rusların 10 ildən bəri burada işğala cəhd göstərdiklərini, on iki gəmini Bakıya çıxararaq buranı rəsmən işğal etmək istəmələrini, Dağıstan Şamxalı buna qarşı çıxdığı üçün onların şəhəri tuta bilməyəcəyini anlayıb geri çəkildiyini yazmışdı.[8]

1782-ci ildən Rusiya Krımın birləşdirilməsi uğrunda qəti tədbirlər və Cənubi Qafqazda möhkəmlənmək üçün qəti addımlar atmağa başlayır.[9] Rus hökuməti Cənubi Qafqaza, o cümlədən Azərbaycana xüsusi diqqət yetirməyə başladı. Azərbaycan xanları, Şərqi və Qərbi Gürcüstanla əlaqələr II Yekaterinanın nüfuzlu aşnası knyaz Q.A.Potyomkinə tapşırıldı. Onun yaxın qohumu və etibarlıköməkçisi P.S.Potyomkin Qafqaz işləri üzrə səlahiyyətli nümayəndəsi təyin olundu.

P.S.Potyomkin 1782-ci il noyabrın 15-də Şimali Qafqazın Georgiyevsk şəhərindəki qərargahına gəldi. Q.A.Potyomkin P.S.Potyomkinə hər şeydən əvvəl çar İrakli və ermənilərlə əlaqə yaratmağı tapşırmış və 1783-cü il aprelin 17-də ona yazmışdı: Çar İrakli ilə əlaqələri möhkəmləndirməli və şuşalı İbrahim xanı devirməli, Qarabağda Rusiyanın himayəsi altında müstəqil erməni vilayəti təşkil edilməlidir.[10] Rusiyanın hima-yəsinə arxalanaraq Qarabağ xanlığı ərazisində özləri üçün «xristian dövləti» yaratmaq istəyən ermənilər bu dövrdə daha da fəallaşdılar. Qarabağ məliklərindən Dizaqlı Yesay, Çaraberdli Məclum və Gülüstan məliyi Bəyləryan İbrahim xana tabe olmaqdan imtina etdilər.

Qeyd olunan dövrdə ermənilər Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə əlaqələri haqqında general P.S.Potyomkinə daha tez-tez məlumatlar verirdilər. 1783-cü ilin yazında P.S.Potyomkinin Ənzəliyə göndərdiyi casusu erməni Nikita Yakovlev oradan qayıdarkən yolda Xoylu Əhməd xanın bələdçisi və tərcüməçisinin müşaiyət etdiyi Osmanlı səfiri və məmuruna rast gəlmişdi. N.Yakovlev özünü fars kimi qələmə vermiş və öyrənmişdi ki, «onlar osmanlıların Dərbənd xanı Fətəli xanın yanındakı baş səfiri tərəfindən hədiyyələrlə Hidayət xanın (Gilan xanı-T.M.) yanına gedirlər». N.Yakovlev həmçininn öyrənişdi ki, keçən yay «Dərbəndli Fətəli xan, Xoylu Əhməd xan və Şuşalı İbrahim xan razılığa gələrək Türk Sultanına... Dağıstan hakimləri və İran xanları da əlavə olunmaqla 17 möhürlə imzaladıqları məktub göndərmişlər. Məktubda xanlar, Sultandan onları öz himayəsinə götürməsini xahiş etmişlər».[11] Bundan başqa həmin məktubda onların (yəni Azərbaycan xanlarının) kifayət qədər qoşunu olsa da, dağlı hakimləri öz tərəflərinə çəkmək üçün pul xahişlərinə cavab olaraq, Sultanın Fətəli xana, İbrahim xana və Əhməd xana (hərəsinə) 100 min qızıl onluq, samur xəzi və brilyantla bəzədilmiş saat hədiyyə etdiyi bildirilirdi.[12] Gilanlı Hidayət xana, Urmiyalı Əhmədqulu xana, Təbrizli Salman xana, Naxçıvanlı Cəfərqulu xana, Şəkili Hüseyn xana, Bakılı Mirzə Məhəmməd xana və başqalarına isə 5 min manat pul və saat bağışlanmışdı. Məktubda dağlı hakimlərinin də adları çəkilir, həmçinin guya Hacı Əli paşanın 40 min və Axısqa paşası Süleymanın da bir o qədər döyüşçü ilə İrəvana hərəkət etdiyi xəbər verilirdi.[13]

Beləliklə, Osmanlı imperiyası Qafqazda güclənməkdə olan rus-gürcü-erməni ittifaqının ona və Azərbaycan xanlıqlarına qarşı yönəlmiş təcavüzünün qarşısını pul, hədiyyə və mənəvi təsir vasitəsilə almağa çalışırdı.

Rusiyanın himayəsini qəbul etməyə hazırlaşan Kartli-Kaxeti çarı II İrakli Osmanlı imperiyasının Qafqazdakı fəaliyyətini təşvişlə izləyirdi. Onun Rusiya hakimiyyət orqanlarına göndərdiyi bir məktubda aşağıdakılar deyilirdi: Şirvan (oxu: Quba – T.M.) xanı Fətəli xan, iki qardaş Şəki (oxu: Şamaxı – T.M.) xanları, Usmi və Tabasaran hakimləri yazda yürüşə çıxmağa razılaşıblar. Onlar Gəncə yaxınlığında düşərgə salıb oradan Gürcüstana hücum edəcəklər. Bir söz yayıblar ki, İbrahim xanın üzərinə hücuma kecəcəklər. II İrakli yazırdı ki, onun Anadolu şəhərlərinə göndərdiyi casusu qayıtmış və osmanlıların yazda Gürcüstana hücum edəcəyini təsdiqləyən məlumat gətirmişdir. II İrakli yaxınlaşan təhlükənin qarşısını almaq üçün Rusiyadan iki alay, çoxlu pul və artilleriya göndərilməsini istəyirdi.[14]

Gürcü çarı digər bir məktubunda isə aşağıdakıları yazmışdı: Qarabağlı İbrahim xan öz yanına məşhur dağlı hakimləri başda olmaqla 8000 nəfərdən çox dağıstanlı qonaq çağırmışdır. Əslində onlar osmanlı sərhəddində toplaşıb hücuma keçməyə hazırlaşırlar. Dağıstanlı döyüşçülər qışı İbrahim xanın yanında keçirsələr, yaz gələn kimi İrəvan dağlarından keçib Axısqaya gedəcəklər.[15]

Bir sıra Azərbaycan xanları Rusiya və onun əlaltısı II İrakli tərəfindən gözlənilən təhlükəni hiss edir, ona qarşı birləşməyin və Osmanlı dövlətinin yardım göstərməsinin zərurliyini dərk edirdilər. Təsadüfi deyildi ki, hələ 1782-ci ildə Təbrizli Nəcəfqulu xan Çıldır valisi Süleyman paşaya Rusiyadan Gürcüstana yol açıldığını, Rusiya və Kartli-Kaxeti hakiminin məqsədinin müsəlman xanlıqlarını aradan qaldırmaqdan ibarət olduğunu yazmış, buna görə də «mudafaa hususunda çivar islam hanlarının yekdil ve yekcihet olmasının» zərurətini vurğulamışdı.[16]

Qeyd edək ki, Osmanlı hakimiyyət orqanları da II İraklinin təcavüzkar niyyətlərindən narahat olurdular. Çıldır valisi Süleyman paşanın 1783-cü il 2 aprel (28 rəbi-ül-axer) tarixli təhriratından məlum olur ki, çuxadarı İbrahim paşa zilhiccə ayının 28-də Tiflisə getmiş və bir müddət orada qalmışdır. O, eşitmişdi ki, İrəvanlı Hüseynəli xan ölmüş, 15 yaşlı oğlu Qulaməli atasının cənazisiylə birlikdə şəhərdən çıxarkən Faiq Usmi xan adlı bir şəxs hakimiyyəti zəbt etmişdir.[17] Süleyman paşa ehtiyat edirdi ki, II İrakli fürsətdən istifadə edib İrəvanı ələ keçirər, hələ ötən il o, qoşunla hərəkət edib İrəvanı mühasirə edibmiş.

Rusiya Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə yaxınlaşmasına hər vəhclə mane olmağa çalışırdı. P.S.Potyomkin 1783-cü ilin mayında Q.A.Potyomkinə gön-dərdiyi raportunda yazırdı: «Əgər Fətəli xan osmanlıların köməyinə arxalansa, dağlıları onun əleyhinə qaldırmaq çətin deyil. Onun başını qarışdırmaq lazımdır ki, osmanlılar yadından çıxsın».[18]

II İrakli Rusiya ilə yaxınlaşmaqla yanaşı, osmanlılarla münasibətləri də hələlik kəskinləşdirmək istəmirdi. O, həbs etdiyi Borçalı hakimi Musa sultanı Süleyman paşanın xahişi ilə azad etmişdi.[19]

Beləliklə, 1747-ci ildən Osmanlı-Azərbaycan münasibətlərində keyfiyyətcə tamamilə yeni mərhələnin başlandığı müşahidə olunur.

İran əleyhinə azadlıq hərəkatının nəticəsi kimi 1747-ci ildə Azərbaycanda 20-yə yaxın müstəqil və yarımmüstəqil xanlıq şəklində dövlətçilik bərpa olunur. Rəqibləri ilə mübarizədə qüdrətli himayədara ehtiyac hiss edən Azərbaycan xanlarının bir çoxu xanlıq yarandığı gündən Osmanlı imperiyası ilə sıx münasibətlər qurmağa, onun dəstəyini qazanmağa çalışmışdılar. Onlardan Şəkili Hacı Çələbi xan ilk olaraq Osmanlı dövlətinə rəsmi müraciət etmişdi.

1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsi ərəfəsində Osmanlı imperiyası ilə Azərbaycan xanlıqları arasında yaxınlaşmanın artdığı müşahidə olunur. Belə ki, müstəqillik qazanan Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri 1767-ci ilə qədər yaranmış, 1768-ci ildən sonra isə keyfiyyətcə daha yüksək mərhələyə qalxmışdı.

1768-1774-cü illər müharibəsində Rusiyaya yenilib Krımı itirmiş Osmanlı dövləti üçün Cənubi Qafqazın əhəmiyyəti artdığından onun hakim dairələri bu regiona, Azərbaycana daha çox diqqət yetirməyə başlamışdılar. Rusiya təhlükəsinin artdığı bir şəraitdə Azərbaycan xanlıqlarının bir çoxu da yardım üçün öz nəzərlərini Osmanlı dövlətinə çevirirlər. Qubalı Fətəli xan tərəfindən Şamaxıdan qovulmuş Ağası xan və Məhəmməd Səid xan qardaşları bu dövrdə Osmanlı imperiyasına daha çox meyl edirdilər. 70-ci illərin ortalarında Şəki və Xoy xanlıqlarının da Osmanlı dövləti ilə yaxınlaşmaya böyük maraq göstərmələri müşahidə olunurdu. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətlərində imperiyanın sərhəd vilayətləri, ilk növbədə Çıldır vilayəti və onun valisi Süleyman paşa mühüm rol oynayırdı.

Osmanlı hökuməti Rusiyanın Azərbaycandakı hərəkətlərinə çox həssaslıqla yanaşmış, onun, Qubalı Fətəli xanın yardım xahişindən istifadə edərək, Dərbəndə Rusiyanın hərbi dəstə yeritməsinə çox kəskin reaksiya vermiş-di. 1781-ci ilin iyun ayında rus hökumətinin Xəzərin cənub və cənub-qərb sahilinə hərbi eskadra göndərməsi də osmanlı hökumətini çox narahat etmişdir.

Osmanlı hökuməti həm də Azərbaycan xanları arasında çəkişmələrin aradan qaldırılmasına çalışırdı, çünki Rusiya və Gürcüstanın bundan istifadə edib bəhrələnə biləcəyindən ehtiyat edirdi. Eyni zamanda Rusiyanın himayəsinə arxalanaraq, özlərinə dövlət qurmaq istəyən ermənilər də fəallaşırdılar. Buna görə təbii ki, bir çox Azərbaycan xanları yardım üçün yenə üzlərini Osmanlı dövlətinə çevirmiş, lakin sonuncu daxilən zəiflədiyinə görə Rusiya ilə yeni müharibəyə girməkdən çəkindiyi üçün yalnız pul, hədiyyə və mənəvi dəstəklə yardım göstərmişdi.

70-ci illərin ortalarında Osmanlı dövləti ilə Mərkəzi İrana nəzarət edən Kərim xan Zənd hakimiyyəti arasında münasibətlər korlanmış, hərbi münaqişə həddinə çatmış, lakin nəticədə sülh yolu ilə nizamlanmışdı.

# RUSIYANIN CƏƏNUBI QAFQAZDA ÖZ TƏƏSIRINI YAYMASINA OSMANLI IMPERIYASININ MANE OLMAQ CƏƏHDLƏƏRI (1783-1791)

## *1. 1783-cü il Georgiyevsk müqaviləsindən sonra Osmanlı dövlətinin Cənubi Qafqaza diqqətinin güclənməsi*

Rusiya ilə Kartli-Kaxeti çarlığı arasında 1783-cü il Georgiyevsk müqaviləsinin bağlanması Osmanlı dövlətində böyük narahatlıq doğurdu. Çıldır valisi Süleyman paşa İstanbula gəlmiş məktubunda gürcü çarı ilə rus hökuməti arasında on üç maddəlik bir anlaşma olduğuna görə Azərbaycan və Dağıstan xanlıqlarının son dərəcə narahat olduqları üçün onlara ürək-dirək vermək məqsədi ilə hədiyyələr göndərməyin zəruriliyini qeyd edir, yoxsa bölgədə vəziyyətin osmanlılar üçün pisləşəcəyini yazırdı.[1]

1783-84-cü illərdə Böyük Qafqaz silsiləsindən keçən yolun çəkilməsindən xüsusilə narahatçılıq keçirən Axısqa hakimi Süleyman paşa Qarabağlı İbrahim xana yazırdı: «Lənətə gəlmiş ruslar Qafqazdan keçən yol salmışlar... indi onların saldıqları yol zəruri şeyləri, həm də qoşunlar gətirməyi yüngülləşdirəcək və nəticədə bu lənətə gəlmiş qoşunlar İrana-Osmanlı imperiyası sərhədlərinə girəcəkdir ki, yay seli kimi buranı bürüsünlər». Süleyman paşa daha sonra Mustafa adlı bir şəxsi göndərdiyini, onun şifahi təlimat verəcəyini bildirirdı.[2]

Süleyman paşa 1783-cü il sentyabrın 17-də (h-19 şəvval 1197) Sultana göndərdiy yeni bir qaimədə aşağıdakıları yazırdı: Tiflisə çəkilmiş Ananur yolu dar və yararsız (mazik ü sa bülubur) olduğundan iki aydan bəri təmiri üçün heyət təşkil olunmuş və bu yaxınlarda heyətin Tiflisə gələcəklərini casuslarımız xəbər vermişlər. İrakli Rusiyadan gələn əsgərlərin İran və Dağıstanla əlaqədar bəzi işlərə görə gələcəklərini və Osmanlı torpaqlarına təcavüz etməyəcəklərini, onunla Açıqbaş (İmereti) hakimi Solomon arasında dostluq və xəbərləşmə davam etdiyini bildirsə də, rus emissarlarının Azərbaycan xanlarının yanına gedərək onlara Rusiyaya tabe olmağı təklif etmələri, itaət etməyənləri yürüşlə hədələdikləri barədə məlumat alınmış, ancaq onun doğru olub-olmamadığı hələ yoxlanmamışdır.[3]

Çıldır valisindən gələn 1783-cü il 4 oktyabr (7 zülqədə axer 1197 h.) tarixli digər təhriratda artıq rusların Ananur yolunun açılması işini tamamladıqları və dəstə-dəstə Tiflisə gəlməyə başladıqları xəbər verilirdi. Təhriratda daha sonra rusların Azərbaycan xanlarını tabe etməyə çalışdıqlarından danışılırdı.[4]

Süleyman paşa həmçinin Tiflisdə həbsdə olan Borçalı sultanı Musa xanın azad olunması haqqında yazırdı. Borçalı hakimiının bir oğlu qaçıb Süleyman paşanın yanına gəlib əhvalatı ona bildirmiş, Süleyman paşa İraklidən Musa xanı azad buraxmağı xahiş etmiş, Musa xan ailəsi ilə birlikdə azad olunmuş və Qubalı Fətəli xanın yanına getmişdi. Fətəli xan bu haqda Süleyman paşaya məktub göndərərək öz təşəkkürünü bildirmişdi.[5]

Təəsüf ki sərhəd paşalarının tamahı ucbatından dövlət mənafeyinə zərər yetirilməsi nəticəsində bir sıra hallarda Osmanlı dövlətinin Cənubi Qafqazdakı siyasətinin təsiri hiss olunacaq dərəcədə azalırdı. Belə ki, Azərbaycan xanlarına hədiyyələr aparan qapıçıbaşı və xassə silahşoru Saleh bəy yerində tapdığı xanların hədiyyələrini verib, qalan hədiyyələrlə birlikdə geri qayıdarkən Çıldırdan 8 saatlıq məsafədə gecələdiyi yerdə naməlum şəraitdə qətlə yetirilmişdi. Bu işdə Çıldır valisi Süleyman paşanın da əli olduğu güman edilirdi.[6]

Qeyd edək ki, bir sıra hallarda Osmanlı imperiyasının sərhəd paşalarının mərkəzə bir-birindən fərqli məlumatlar göndərmələri də osmanlı hökümətinin vaxtında lazımi tədbirlər görməsini çətinləşdirirdi. Məsələn, Axısqa hakiminin Vanlı casusu Tuman 1783-cü ildə Tiflisdə olduğunu və burada Rusiya ilə Gürcüstan arsında yolun inşa edildiyini, bu işlə 8-10 min işçinin məşğul olduğunu bildirmişdi. Casus Tuman 30-40 min Rusiya əsgərinin Gürcüstana yönəldiyini söyləmişdi. Onun dediyinə görə, İrəvan, Xoy və Təbriz xanlıqlarına Rusiyaya tabe olunmaq təklifi ilə müraciət olunmuş, əks halda üstlərinə qoşun göndəriləcəyi ilə hədələnmişdilər.[7]

Bəyazid mütəssərrifi İshaq paşanın tatarı Mehmed 1783-cü il (12 zil-hiccə 1197- hicri) 8 noyabr tarixli təhrirində yazırdı ki, guya II İrakli bir neçə yüz gürcüyə rus mundiri geyindirib, Gürcüstana külli miqdarda rus döyüşçüsünün gələcəyini, hələlik bu adamların İrakliyə Azerbaycanı zəbt etməyin həvalə olunduğunu xəbər vermək üçün əvvəlcədən gəldiklərini de-yirmiş. Çar xanların yanına adamlar göndərərək ona tabe olmalarını təklif etmiş, itaət etməzlərsə Rus dövlətinin 40-50 min əsgər, top və

cəbbəxana ilə onlara hücum edəcəyi ilə hədələmişdi. Bu məzmunda məktublar Xoy, Təbriz, Marağa və başqa xanlıqlara göndərlibmiş. Xanlar «biz İslamız kafire inkiyal etmeziz» demişlər. Onlar həm də bunu bildirmişdilər ki, əgər İranın hakimi Əlimurad xan II İrakliyə itaət edərsə, biz də baxar və vəziyyətə uyğun hərəkət edərik.[8] Ancaq İshaq paşanın yazdığına görə, Rusiyanın Ananur dağ yolu ilə Tiflisə 40 min əsgər göndərəcəyi barədə xəbərlər qaraqorxudan başqa bir şey deyildi. Ananur yolu çox ensiz və söylənən yer Tiflisdən 10 mənzil məsafədə yalçın qayalar və üfüqə qalxan ormanlar, uçurumlu yerlər olduğundan dörd-beş dövlət birləşib iki yüz min kisə ağça sərf edib, bu iş üçün 100 min işçi ayırsalar belə 10 il müddətinə buradan araba kecəcək yol aça bilmyəcəkləri gün kimi aydındır. Süleyman və Timur paşalar bu xəbəri həqiqət kimi qələmə verməklə özlərinin sərəsgər təyin olunub xəzinədən çoxlu pul almalarını istəyirlər. İshaq paşanın bildirdiyinə görə, bundan bir qədər əvvəl Süleyman və Timur paşalar məktub göndərib ona da bu cür məlumatı saraya göndərməsini təklif ediblərmiş. Nəslinin 200 ildən bəri Dövlət-i Aliyyəyə xidmətdə olduğunu deyən İshaq paşa «ahiretimi dünyaya değişmem» deyibmiş. İshaq paşa yazırdı ki, Teymur və Çingizxanın keçə bilmədiyi dağlarda Moskvanın 7-8 ayda rahat yol salmasına inanmaq ağılsızlıqdır.[9]

Çıldır valisi Süleyman paşa 1783-cü il 31 dekabr (5 səfər 1198 h.) tarixli təhrirində Şimali Qafqazdakı rus ordusundan göndərilən 3 min rus döyüşçüsünün artıq Gürcüstana gəldiyi (Ananur yolu ilə) haqqında hələ bundan əvvəl xəbər verdiyini xatırladırdı. Süleyman paşa Rusiyadan 80 ədəd top və külli miqdarda silah da gətirildiyini yazırdı. Onun verdiyi məlumata görə, rus əsgərlərindən 1500 nəfəri Kaxetiyə göndərilmiş, qalan 1500 nəfəri Tiflisin ətrafında yerləşdirilmişdi. Süleyman paşa daha sonra yazda 35 min əsgərin Kartli-Kaxeti çarlığına, daha 12 min əsgərin Açıqbaş (İmereti) hakimi Solomonun yanına gələcəyini yazaraq, Osmanlı sərhədləri üçün təhlükə yaranacağını qeyd edirdi.[10] Süleyman paşa 1784-cü il 10 yanvar (16 səfər 1198 h.) tarixli məktubunda alınan məlumatları dəqiqləşdirərək yazırdı ki, Rusiya hökumətinin II İraklinin yanına göndərdiyi 3 min əsgərdən savayı Tiflisdən beş mərhələ aralıda Kurav adlı mahalda bir generalın komandası altında 35 min əsgər, top, hərbi cəbbəxana da cəmləşmişdi. Onlar buradan Kartliyə tərəf, 12 min əsgər də İmeretiya hakimi Süleymanın yanına hərəkət etməliymiş.[11]

Həmçinin məlumat alınmışdı ki, II İrakli gürcü qoşunu və rus generalının başçılıq etdiyi 300-400 rus əsgəri ilə Car-Talaya hücum etmiş, ancaq uğur qazanmayaraq geri qayıtmışdır, guya rus generalının döyüşdə həlak olması haqqında məlumat vardı.[12]

Rusiyanın Kartli-Kaxeti çarlığını öz himayəsi altına almasına Osmanlı hökuməti bütün Azərbaycan xanlarını və Dağıstan hakimlərini Rusiyaya qarşı birləşməyə, Rusiyanı həm Osmanlı imperiyası, həm də Cənubi Qafqaza buraxmamağa, Qafqaz dağlarından keçən yolları dağıtmağa çağırmaqla cavab verdi. 1783-cü ilin sonunda Trabzon, Ərzurum və Axısqa, bir qədər sonra isə Qarsdakı qoşunlara sərkərdələr təyin olundu. Kartli-Kaxeti ilə həmsərhəd paşalıqlarda qoşunlar hazır vəziyyətə gətirildi. Axısqa, Ərzurum, Qars və Bəyazid paşaları İrəvan və digər Azərbaycan xanlıqları ilə əlaqə yaradaraq, onları Rusiyanın Qafqazdakı əlaltısı İrakliyə qarşı birgə çıxış etməyə çağırırdılar.[13]

Ənzəlidəki rus konsulu Tumanovski həştərxanlı tacir, milliyyətçə erməni olan Vasili Abramovun məlumatına əsaslanaraq, Həştərxan qubernatoru Жukova Ərzurum və Bəyaziddə böyük miqdarda qoşun toplandığını, bu qoşunların sərkərdəsinin Azərbaycan xanları ilə əlaqədar olduğunu, onları Osmanlı dövlətinə hərbi yardım göstərməyə çağırdığını, hərbi qulluğa girən hər bir şəxsə ildə 200 rubl verəcəyini vəd etdiyini yazırdı.[14]

1783-cü ilin payızında Xəlil paşanın başçılığı ilə Cənubi Qafqaza göndərilən Osmanlı nümayəndə heyətinin məqsədi Azərbaycan və Dağıstan feodalları ilə Rusiyaya və Kartli-Kaxetiyə qarşı ittifaq bağlamaq idi.[15] Şirvan və Qarabağda olduqdan sonra Xəlil əfəndi İrəvana getdi. Sonra isə yenidən Qarabağa, İbrahim Xəlil xanın yanına gəlib Şuşanı öz qərargahına çevirdi. II İraklinin Qubalı Fətəli xanın yanına göndərdiyi məmuru Mirzə Qurgen Mixaylo qayıdaraq xəbər vermişdi ki, o, xanın yanında olarkən, Süleyman paşanın nümayəndəsi məktub və hədiyyələrlə gəlmişdi. Fətəli xan gürcünün yanında ehtiyat edərək paşanın hədiyyə və məktublarını gizli şəkildə qəbul etmişdi. Paşa 3 min çervon pul, xəz kürk və saat göndəribmiş.[16] II İraklinin nümayəndəsi Andronnikov 1784-cü ilin aprelində çara yazırdı ki, Xəlil əfəndi Şirvan və Dağıstanda olmuş, indi isə Şuşaya gəlmişdir, tezliklə İrəvan yolu ilə Türkiyəyə qayıdacaq.[17] 1784-cü ilin yanvarında Şuşaya 8 min döyüşçü toplanmışdı. Xunzax hakiminin oğlu, Qaytaq usminin qardaşı oğlu, Tarku şamxalının oğlu, Canqutaylı Əli Sultan, Çeçenistandan bir neçə feodal dəstələri ilə bura gəldi. Polk kvavtirmeyesteri Mixail Markov yazırdı ki, bu qoşunlar İbrahim xanın rəqibi Hacı xana (?) qarşı mübarizə adı ilə cəmlənir, əslində isə onları Osmanlı sərhəddinə göndərmək nəzərdə tutulur.[18]

Adı irəlidə xatırlanan Yakovlev Ənzəlidəki rus konsulu Skiliçiyə bildirmişdi ki, eşitdiyinə görə, keçən il Qubalı Fətəli xan, Qarabağlı İbrahim Xəlil xan, Xoylu Əhməd xan və başqa Azərbaycan xanlarından, habelə Dağıstan hakimlərindən cəmi 17 nəfər, Sultanın sarayına nümayəndələrini göndərmişlər. Onların adından Sultana bildirmişdilər ki, Rusiyanın Qafqazda xristian dövləti yaratmaq niyyətini pozmaq üçün kifayət qədər qoşunları var, lakin onların pulları azdır».[19]

Qaraqaytaq usmisi Əmir Həmzə və avar hakimi Ümmə xan da rus komandanlığına məktublarında bunu təsdiq edirdilər. Doğrudur, rus tarixçisi O.P.Markova Azərbaycan xanları və dağlı hakimlərin Xəlil əfəndi vasitəsilə Osmanlı sarayından yardım istəmələri xəbərinin doğruluğuna şübhə ilə yanaşır. Belə hesab edir ki, Əmir Həmzə və Ümmə xan aralarında düşmənçilik olduğuna görə Fətəli xanı Rusiyanın nəzərindən salmaq üçün ona böhtan atmışlar. Rus casusu erməni N.Yakovlevin və Ənzəlidəki rus konsullunun bu barədə məlumatı ilə bağlı isə yazır ki, onların bütün fəaliyyətləri şübhəli xarakter daşımışdır.[20]

Rusiyanın əks-tədbirləri nəticəsində Xəlil əfəndi Cənubi Qafqaz və Dağıstan hakimlərinin Rusiyaya və Kartli-Kaxetiyə qarşı birgə hücumunu təşkil edə bilmədi. Qafqaz xəttindəki rus qoşunlarının komandanı general P.S.Potyomkin sentyabr ayında tələsik Tiflisə gəlmişdi.[21] Eyni zamanda Rusiya hökuməti Azərbaycan xanlıqlarına göndərdiyi «elçiləri və hədiyyələri» ilə yanaşı, «xəbərdarlıq» da etmişdi ki, onlar Gürcüstanla münasibətlərini nizamlamalıdırlar.[22] P.S.Potyomkin Dağıstan hakimlərindən öz oğlanları və qohumlarının, onlarla olan hərbi dəstələrin Gürcüstana basqına yol verməmələrini tələb etdi.[23] Xəlil əfəndi Azərbaycan xanlarının Rusiyanın əlaltısı Gürcüstana qarşı birgə çıxışını təşkil edə bilməsə də, onun səfəri tamamilə nəticəsiz olmadı. İrəlidə qeyd olunduğu kimi, bir sıra xanlar Sultana yardım xahişi ilə müraciət etdilər.

## 2. *Osmanlı dövlətinin Cənubi Qafqazda öz təsirini gücləndirmək cəhdləri*

1784-cü ilin aprelində İstanbula qayıdan Xəlil əfəndi Azərbaycan və Dağıstan hakimlərinin yardım haqqında çağırışlarını Sultana çatdırdı. Yardım xahişi edənlər arasında Qubalı Fətəli xan da var idi.[1]

Qubalı Fətəli xanın yardım xahiş etməsi təsadüfi deyildi. O, bu zaman artıq Cənubi Azərbaycana yürüşə hazırlaşırdı. Fətəli xan ilk növbədə Ərdəbil xanlığını ələ keçirməyə çalışırdı. Ərdəbil Cənubi Azərbaycanda Təbrizdən sonra ikinci böyük şəhər idi. Digər tərəfdən məlum olduğu kimi Fətəli xan öz yanında özünü II Təhmasibin oğlu Abbas Mirzə adlandıran bir şəxsi saxlayırdı. 1783-cü ildə 60-70 yaşlı bir kişi əvvəlcə Salyana, oradan da Bakıya gələrək özünün Şah Hüseynin nəvəsi Abbas Mirzə olduğunu elan etmişdi. Fətəli xan bu şəxsdən öz siyasi məqsədləri üçün istifadə etməyi qərara alıb, onu «həqiqi vəliəhd» kimi qəbul edərək 1783-cü ilin aprelində Rusiya Xarici İşlər Kollegiyasına yazırdı ki, Nadir şahın oğlu Rza Qulu Mirzə Səfəvi şahzadələrini məhv edərkən bəzi ağsaqqalar Abbas Mirzəni xilas edə bilmiş və o bu vaxta kimi gizlənirmiş.[2] Qarabağlı İbrahim Xəlil xan 1784-cü ilin yanvar ayında (1198 h.) Süleyman paşaya yazırdı ki, ötən il bir nəfər Urmiyada zühur edib yalandan Səfəvi şahzadəsi olduğunu iddia etmişdir. Lakin tərəfdar tapmadığından Urmiyadan qaçıb Ərdəbilə gəlib, burada xəstələnib, sonra tam sağalmamış təkbaşına Quba tərəfə getmişdir. Xoylu Əhməd xan həmin şəxsin Fətəli xanın yanında olduğunu yazırdı.[3] Fətəli xan onu İran taxtına oturtmaq, bu yolla nəinki bütün Azərbaycanı öz hakimiyyəti altında birləşdirmək, hətta öz təsirini İrana yaymaq istəyirdi. Buna görə də Fətəli xan bu cür mühüm əməliyyatın həyata keçirilməsində qonşu böyük dövlətlərin–Osmanlı imperiyası və Rusiyanın dəstəyinə nail olmağa çalışırdı. Rusiyanın dəstəyinə nail olmaq üçün o öz elçisi Mirzə Sadıq VƏliyevi Rusiyaya göndərmişdi.[4] Lakin rus hökuməti Fətəli xanın planlarına öz münasibətini dərhal bildirməmişdi.

Fətəli xan Rusiyadan cavabı gözləməyərək, rəqiblərini önləmək məqsədilə 1784-cü ilin yazında yürüşə başlamış və 1784-cü ilin may ayında döyüşsüz Ərdəbili, sonra isə Meşkini ələ keçirmişdi. Qoşunun ön hissələri cənuba doğru hərəkəti davam etdirmişdi.[5]

Lakin Fətəli xanın cənuba yürüşü qonşu hakimlərin və dövlətlərin, ilk növəbdə II İraklinin və rus sarayının kəskin mənfi münasibətinə səbəb oldu. Quba xanının köhnə düşmənləri - Qaraqaytaq usmisi, Avar xanı və bəzi digər Dağıstan hakimləri Quba xanlığını arxadan hücumla təhdid edərək Dərbənd və Qubaya basqın etməyə hazırlaşırdılar.[6] Eyni zamanda Qarabağlı İbrahim xan və Ərdəbildən qovulmuş Nəzərəli xan da Quba xanına qarşı çıxmağa hazırlaşırdılar. Xoylu Əhməd xan da onların sərəncamına 3 min nəfərlik dəstə göndərmişdi.[7] II İrakli Rusiya hökumətini hər vəchlə inandırmağa çalışırdı ki, Fətəli xanın yürüşü Rusiyanın mənafeyinə ziddir. Doğrudan da Fətəli xanın yürüşü Rusiyanın maraqlarına uyğun gəlmirdi. Bu dövrdə rus hökumətində Cənubi Qafqazın bəzi vilayətlərini tutmaq və burada bufer

dövləti yaratmaq məsələsinin müzakirəsi davam etdirildi.[8] Stats-sekretar (dövlət katibi) A.P.Xrapovitski öz memuarlarında yazmışdı: «...mən sandıqda knyaz Potyomkin-Tavriçeskinin İrandakı hərcmərclikdən istifadə edərək, Bakı və Dərbəndi tutub, Gilanı birləşdirməklə böyük knyaz Konstantin Pavloviçə çatmaq üçün Albaniya adlandırcaq dövlət yaratmaq haqqında məxvi layihəsini tapdım».[9] Qarabağ və Qaradağ torpaqlarını da bu dövlətin tərkibinə daxil etmək nəzərdə tutulurdu. Rusiya qoşunlarının cənuba yürüşü 1783-cü ilin yazına planlaşdırılmış, sonra növbəti ilə təxirə salınmışdı. Tərtib olunmuş plana əsasən, rus qoşunları həm Xəzər dənizinin qərb sahili ilə Dərbəndən Ənzəliyə, həm də Gürcüstan tərəfdən Qarabağ, Qaradağ və İrəvan xanlıqlarına yeriməli idi. Bu planın gerçəkləşdirilməsi Qafqaz xəttindəki Rusiya qoşunlarının komandanı P.S. Potyomkinə həvalə edilmişdi.[10]

P.S.Potyomkin hökumətdən Quba qoşunlarının cənuba hərəkətinin davam etdirilməsinin qarşısını almaq direktivi aldı. Q.A.Potyomkinin göstərişi ilə qonşu feodal hakimləri və ilk növbədə Qarabağlı İbrahimxəlil xanı Fətəli xana qarşı qaldırmaq qərara alındı. Q.A.Potyomkinin bu məsələ ilə bağlı buyruqlarında deyilirdi ki, əgər Quba hakimi sözə qulaq asmazsa və öz yürüşünü davam etdirərsə, Dərbəndi tutmaq, yaxud digər xanları Fətəli xana qarşı yönəltmək lazımdır. General-poruçik Potyomkin Fətəli xandan öz qoşunlarını buraxmağı, knyaz Potyomkin isə öz hərəkətlərinin nəticəsi haqqında düşünməyi tələb etdi.[11]

Göstərilən bu səbəblər üzündən Fətəli xan Cənubi Azərbaycandan çəkilməli oldu. Muş mütəssərifi Mahmud paşa da Osmanlı sarayına Qubalı Fətəli xanın ortaya bir şəxs çıxararaq onun Səfəvi şahzadəsi olduğunu iddia edib, şah taxtına oturtmaq üçün qoşun toplayıb Ərdəbilə hücum etdiyini xəbər vermişdi. Mahmud paşanın yazdığına görə Təbrizli Xudadad xan da Fətəli xanı dəstəkləmişdi. Qarabağlı İbrahim xan, Xoylu Əhməd xan və bir sıra başqa xanlar Fətəli xana xəbər göndərib bu fikirdən vaz keçməsini tələb etmişdilər. Xanlar Fətəli xanı geri çəkilməyə məcbur edib Təbrizə daxil olmuşdular. Bu zaman xeyli adam həlak olmuşdu. Təhriratda həmçininn II İraklinin bir miqdar süvari ilə İrəvanda «iqamət etdirdiyi» Mirzə Georgi vasitəsilə İrəvanı «fəsada verdiyi» bildirilirdi.[12]

Sultan Cənubi Qafqaz hakimlərinin müraciətinə cavab olaraq 1784-cü ilin payızında yeni 60 nəfərlik nümayəndə heyətini İbrahim əfəndinin başçılığı ilə bura göndərdi. İbrahim əfəndinin gətirdiyi Sultan fərmanında müsəlmanlar «müqəddəs müharibəyə» və «Rusiya hücumunun qarşısını almaq üçün birləşməyə» çağırılırdı.[13]

S.Burnaşovun verdiyi məlumata görə, İbrahim əfəndi Cənubi Qafqaza gələrkən Azərbaycanda və Dağıstanda paylamaq üçün özü ilə qırx ədəd dördminlik çervon gətirmişdi.[14] Mənbələrdən Qubalı Fətəli xanın, Qarabağlı İbrahim xanın, Xoylu Əhməd xanın hərəsinə yüz çervon məbləğində pul, kürk üçün samur xəzi, daş-qaşla bəzənmiş saat göndərildiyi aydınlaşır. Gilanlı Hidayət xanın, Urmiyalı Əhmədqulu xanın, «... Şamaxılı Məhəmməd Səid xanın, Lənkəranlı Qara xanın, Bakılı Mirzə Məhəmməd xanın hərəsinə, beş min rubl məbləğində pul və bir ədəd saat verilmişdir». Arxiv sənədlərində həm də deyilir ki, yuxarıda qeyd edilənlərdən əlavə daha böyük nüfuza malik olan qubalı Fətəli xan üçün daha 4 min çervon pul ayrılmışdı.[15]

Burnaşov 1784-cü il dekabr ayının 26 da (6.1.85.) general Potyomkinə yazırdı ki, II İraklinin Şuşaya göndərdiyi knyaz Arqunov 1784-cü il dekabrın 20-də Tiflisə qayıdıb bildirmişdir ki, Sultan İbrahim xan və Fətəli xanın hər birinə xəz palto, saat, 4 min çervon pul, Xoy xanına saat, xəz palto və daha çox pul göndərmişdir. Qaradağ, Təbriz, Naxçıvan, Şamaxı, Urmiya, Şəki xanlarına, Ümmə xana da hədiyyələr göndərilmişdi. İrəvan xanına da hədiyyələr göndərilmiş, lakin, o, hədiyyələri qəbul etməmişdir. Azərbaycan xanlarına və Dağıstan hakimlərinə rus qoşunlarının hücumu təqdirində birləşmək tövsiyə olunurdu ki, İrəvan qalasının gürcülər və ruslar tərəfindən alınmasına yol verilməsin.[16]

İbrahim əfəndinin səfəri əsasən uğurlu oldu. Dağıstan feodalları Kartli-Kaxetiyə basqınlarını bərpa etdilər. Şamaxı, Şəki, Xoy, Qarabağ xanları, Çar camaatlarının ağsaqqalları, habelə bir sıra Dağıstan feodalları Axısqa ilə ittifaq yaradıb Rusiyanın təcavüzünə qarşı birgə müqavimət göstərəcəklərinə söz vermişdilər. 1785-ci ilin yazında bağlanmış müqavilə andla möhkəmləndirilmişdi. Müttəfiq xanların nümayəndələri İbrahim əfəndi ilə birlikdə İstanbula yola düşmüşdülər. S.D.Burnaşov P.S.Potyomkinə 1785-ci il 22 aprel (3 may) tarixli məlumatında bu barədə ətraflı xəbər verirdi.[17]

1784-85 (1199 h.)-ci ilə aid bir sənəddə deyilirdi ki, II İrakli Osmanlı, yaxud Azərbaycan torpaqlarına və ələlxüsus İrəvan qalasına hücum etdiyi təqdirdə Azərbaycan hakimlərinin Osmanlı dövləti ilə birlikdə hərbə hazır olmaları lazımdır.[18]

1785-ci ildə Qarabağlı İbrahim Xəlil xan, Qubalı Fətəli xan, Xoylu Əhməd xan Sultana məktub göndərərək Osmanlı imperiyasının himayəsi altında olmağı arzuladıqlarını bildirirdilər.[19] Osmanlı sarayı

buna müsbət cavabını bildirdi, Qarabağ və Xoy xanlarına tezliklə İrəvanı almağı və rusların heç vaxt bu şəhəri almalarına imkan verməməyi tapşırdı.[20]

Görünür, Axısqa paşası ilə bir sıra Azərbaycan və Dağıstan hakimləri arsında ittifaqın bağlanması, Rusiyanın Cənubi Qafqaza yürüşünün baş tutmamasında müəyyən rol oynamışdı.

Sultanın əmri ilə Trabzon, Ərzurum, Axısqa və Qars şəhərlərində osmanlı qoşunları Cənubi Qafqaza yürüş üçün hazır vəziyyətə gətirildilər. Axısqa, Ərzurum, Qars və Bəyazid paşaları İrəvan və digər Azərbaycan xanlıqları ilə sərtləşərək, Tiflis şəhərinə hücum etməyə hazırlaşırdılar.[21] Bundan Rusiya hakim dairələri də xəbər tutdular. Rusiyanın Ənzəlidəki konsulu Tumanovskinin 1784-cü ilin aprelin 18-də Həştərxan qubernatoru Жukova yazdığı məktubda deyilirdi ki, Ərzurum və Bəyazid paşaları Dağıstan hakimlərini də bu işə cəlb etməyə çalışırlar. Onlar bu yürüşdə iştirak edən döüyüşçülərin hər birinə ildə 200 rubl məbləğində pul verməyi vəd etmişdilər.[22]

Sultanın 1784-cü ildə verdiyi bir fərmanda Dağıstan hakimləri və Azərbaycan xanlarının Osmanlı tərəfinə cəlb olunub İrakliyə qarşı birgə müqavimət göstərməsi zərurəti qeyd olunurdu: «Bu bi-din kafir İrakli hanın mukadema Rusyaluya itaatı mesmu oldu. Çıldır valisi Süleyman Paşa hilafına zahib olup taraf-i Devlet-i Aliyyeden heman nevaziş gösterdi, şimdi tasdık eder. İtiza-yı tedbir ne ise heman bir gün akdem ol taraflara takviyyet gerekdir. Yoksa maazallahi teala işler fena bulur ve müşkul olur. Olacağı dahi cümlemizin malumu bir manadır. Bir rabita verilmek şimdiden elzemdir. Dağıstan tarafını ve lezgi kavmini ve hanan-ı İslam taraflarını kavle almak iktizacınca elzemdir zannederim».[23]

Osmanlı hökumətinin Cənubi Qafqazda ən çox diqqət yetirdiyi məntəqələrdən biri İrəvan idi. İrəvan qalası bölgənin strateji əhəmiyyətə malik qalalarından idi. Xəlil əfəndi İrəvan xanlığını Kartli-Kaxeti çarlına qarşı qalxmağa təşviq etmiş, yəqin ki, elə bunun nəticəsi idi ki, Qulaməli xan çara bac verməkdən imtina etmişdi.[24]

Lakin əleyhdarları tərəfindən Hüseynəli xanın qətlə yetirilməsi nəticəsində xanlıq daxilində vəziyyət mürəkkəbləşmişdi. Çıldır valisi Süleyman paşa ehtiyat edirdi ki, II İrakli məqamdan istifadə edib İrəvanı zəbt etsin. Çünki onun çoxdan İrəvanda gözü vardı. Hətta bir neçə il əvvəl toplarla silahlanmış qoşunla İrəvanı mühasirə etmiş, o zaman Hüseynəli xan Süleyman paşadan yardım istəmişdi. Süleyman paşa Tiflisə hücum etməklə hədələyərək, İraklini İrəvanın mühasirəsindən əl çəkməyə məcbur etmişdi. Süleyman paşa yazırdı ki, indi 3 min rus əsgəri Tiflisə daxil olduqdan sonra II İrakli hiylə, yaxud zor yolu ilə İrəvan qalasını, eləcə də bütün Azərbaycanı zəbt etməyə can atır. Buna görə də Süleyman paşa Sultandan xahiş edirdi ki, II İraklini dəf etmək üçün Bəyazid, Muş san-caqları mütəəssəriflərinə Azərbaycan xanlarına yardım etməyi tapşırsın.[25]

II İraklinin İrəvanı ələ keçirməsinin qarşısını almaq məqsədilə hətta bəzi paşalar bu qalanı Osmanlı nəzarəti altına gö-türməyi tələb edirdilər. Kartli-Kaxetiya sarayındakı Rusiya nümayəndəsi S.Burnaşovun P.S.Potyomkinə 1784-cü il 9 (20) fevral tarixli raportu da bu fikri təsdiq edir. Burnaşov yazırdı: «... Mənə çatan məlumata görə Axalsıx (Axısqa) paşasının nümayəndələri bu yaxınlarda İrəvan xanı Qulaməli xanın yanında olmuşlar. Guya məqsəd xanın atasının ölümü ilə bağlı başsağlığı vermək olmuşdur. Əslində isə onlar bura, Qulaməli xanı İrəvan qalasını türklərə verməyə razı salmaq üçün gəliblər. Onlar həmçininn xanlara məktub yazmışlar. Xanlar birləşib bir istiqamətdən, osmanlılar digər istiqamətdən İrakli üzərinə hücuma keçmək fikrindədirlər. Burnaşov hesab edirdi ki, İrakli mütləq əks tədbirlər görməlidir. Çünki İrəvan xanı «cavan və təcrübəsiz» olduğu üçün ondan hər şey gözləmək olar».[26] O.P.Markovanın yazdığına görə, Qulaməli xana II İrakliyə qarşı durmağı məsləhət görən paşalar xana həmçininn müəyyən məbləğdə pul əvəzinə qalanı osmanlılara verməyi təklif ediblərmiş.[27] S.Burnaşov P.S.Potyomkinə yazırdı: «... İrəvan xanlığından gələn məlumatlara əsasən Qulaməli xanın çara (II İrakliyə – T.M.) olan münasibəti birdən-birə dəyişmişdir və indi o, türklərə meyl edir».[28]

1784-cü ilin yayında Qulaməli xan qardaşı ilə birlikdə qətlə yetirildi. Hüseynəli xanın 12 yaşlı oğlu Məhəmməd taxta çıxdı. Məhəmməd xanın anası gürcü əsilli olduğundan II İraklinin ona təsiri güclü idi.

Süleyman paşanın təhririnin üzərində yazılmış dərkənarda qeyd olunurdu ki, Qulaməlini xanın qardaşı ilə birlikdə şəhər əhalisi içərisindən çıxan iğtişaş nəticəsində həlak olması ilə bağlı İraklinin İrəvan qalasına sui-qəsdindən qalanı mühafizə etmək üçün Çıldır valisinə, Bəyazid mütəssərifinə və Qars mühafizinə məktublar göndərilərək, İrakli tərəfindən qalaya təcavüz olarsa, Xoy xanı ilə ittifaqda İrəvanı müdafiə etmələri əmr olunsun.[29]

Bəyazid mütəssərifi İshaq paşa Sultana yazırdı ki, bundan əvvəl Qars mühafizi Mustafa paşa və Hacı Mustafa Əfəndidən gələn qaimələrdə və digər məlumatlarda İrəvanlı Qulaməli xanın və qardaşışın İraklinin fitnəsi ilə qətl edilmələri, İrəvan əhalisinin iki yerə parçandığı, II İraklinin bir miqdar əsgərinin İrəvana varması xəbər verilmişdir. Lakin İshaq paşanın yazdığına görə, Qulaməli xanın

qətlində II İraklinin əli olmamışdır. Qulaməli xana qarşı əyanları və İrəvan əhalisi içərisində narazılıq olduğu üçün əhali onu və qardaşını qətlə yetirib yerinə anadan ögey, on iki yaşda qardaşını - Məhəmmədi hakimiyyətə gətirmişlər. İrəvanda ara qarışan kimi İshaq paşa Xoylu Əhməd xanla əlaqə saxlamış, Əhməd xanın nümayəndəsi Mirzə Əbdülhəsən və İshaq paşanın qasidi Rizvan Ağa İrəvan xanına yazılmış əmri və məktubu İrəvana aparıb, iğtişaş dəf olunub, əhali arasında səmimiyyət yaranmışdır. Yeni İrəvan xanı ona göndərilmiş əmrə və məktuba cavab olaraq təhrirat göndərmiş və bu təhrirat Çıldır valisi tərəfindən Dərsəadətə (saraya) çatdırılmışdır.[30]

Qars mühafizi Mustafa paşanın təhriratından görünür ki, Sultanın İrəvan xanının və qardaşının qətlindən sonra şəhər əhalisi içində çıxan iğtişaşın sakitləşdirilməsi, İraklinin İrəvana, yaxud hüdudlarına təcavüz edərsə, Ərzurum, Çıldır valiləri, Bəyazid mütəssərifi (hakimi – red.) və Xoy xanı ilə əlaqə saxlayaraq, İrəvanın müdafiəsi və əhalinin əmniyyəti üçün tədbirlər görmək barədə əmr və fərmanlarına uyğun olaraq, Mustafa paşa dərhal Bəyazid və Xoya, habelə İrəvana adamlar göndərmişdir. Çıldır valisi və Bəyazid mütəssərifi ilə əlaqədə Diyarbəkr əyaləti və Qarsın «sünüf-i askeriyyesi uc kapusu halkiyla» qaladan xaricə çıxmışlar. Təhriratda daha sonra deyilirdi ki, İrəvan xanına hiləti və İrəvan vəkaləti vermək üçün İrakli mirzə Gürgün adlı bir şəxsi İrəvana göndərmişdir. Mirzə Gürgün hiylə ilə İrəvanı İrakliyə tabe edə bilməyib geri - Tiflisə qayıdıb.[31]

Mustafa paşanın yazdığına görə, karvanların İrəvandan gedib-gəlməsi (amed-süd-i karvan) İraklinin dəstələrinin basqını və İrəvandakı qarışıqlıqla əlaqədar bir müddət ara vermiş, lakin Mustafa paşanın gördüyü tədbirlər sayəsində bərpa olunmuşdu.

Çıldır hakimi Süleyman paşa İrəvan qalasının II İraklinin əlinə keçməsindən ehtiyat edərək, İrəvanın yerli feodallarından Əhməd sultan və Xoylu Əhməd xanla İrəvan qalasını ələ keçirmək barədə razılığa gəldi. Süleyman paşa Sultan Əbdülhəmidin fərmanları və digər osmanlı paşalarının məktublarını İrəvana göndərdi. Həmin məktublarda irəvanlılar II İrakliyə qarşı çıxışa sövq edilirdilər. Eyni zamanda Sultan Ərzurum paşasına pul, Axısqa, Bəyazid və Qars paşalarına fərmanlar göndərərək, onlara İrəvanı II İraklinin təcavüzündən qorumağı tapşırdı. Fərmanda Xoylu Əhməd xanın birləşmiş qoşunların baş sərkərdəsi təyin edildiyi xəbər verilirdi. Süleyman paşa bütün Azərbaycan xanlarına İrəvan xanlığına kömək etməyi tapşırdı.[32] II İrakli həm də Naxçıvanda möhkəmlənmək üçün fürsət axtarırdı. Keçmiş Naxçıvan xanı Abbasqulu xan hakimiyyətini bərpa etməkdən ötrü yardım üçün II İrakliyə müraciət etmişdi. Kartli-Kaxeti çarı bu fürsətdən istifadə edib Naxçıvanda möhkəmlənmək niyyətini gerçəkləşdirmək üçün ora yürüş təşkil etməyi qərara aldı. O, Abbasqulu xanın namizədliyini müdafiə edən Qarabağlı İbrahim Xəlil xanı da ehtiyat xatirinə bu yürüşdə iştirak etməyə dəvət etdi.[33]

O.P.Markovanın yazdığına görə, II İrakli İrəvana 2 min nəfərlik hərbi dəstə göndərmiş, İrəvanlı Məhəmməd xan tələsik Süleyman paşaya yazmışdı ki, o, İrakliyə xidmət edəcəkdir.[34]

II İrakli xeyli qoşun toplasa da nəzərdə tutulmuş yürüşü həyata keçirməyə müvəffəq olmadı. Çünki Osmanlı hökuməti onun təcavüzünün qarşısını almaq üçün əks tədbirlər görürdü. İrəvan ermənisi S.Saakov rus komandanlığına İrəvanda iki qruplaşma yarandığını bildirirdi. Birinci qruplaşmaya İrəvan qalasında oturan Məhəmməd xan başçılıq edirdi. İkinci qruplaşmaya isə Əhməd Sultanın tərəfdarları daxil idi. Bu iki qruplaşma bir-biri ilə mübarizə aparır, bir-birlərinin tabeçiliyində olan kəndləri qarət edirdilər, buna görə də kəndlilər öz ev-eşiklərini buraxıb Osmanlı imperiyasına qaçırdılar. Saakovun yazdığına görə Ararat vadisi təlatümlü dənizdə qalmış adaya bənzəyirdi.[35]

Mənbələr İrəvan xanının xarici meyldə tərəddüd etdiyini göstərir. Belə ki, 1784-cü il sentyabrın 28-də İraklinin İrəvan qalasına edəcəyi hücum təhlükəsi qarşısında İrəvan xanı Osmanlı dövlətinə yenidən məktubla müraciət etmişdi. Bu müraciətə cavab olaraq Çıldır valisi, Qars mühafizi və Bəyazid hakimləri, Xoy xanı Əhməd xan ilə birləşib İrakliyə qarşı birlikdə hərəkət etmək[36] üçün danışıqlar aparmışdılar. Rus tarixçisi O.P.Markova da Məhəmməd xanın digər Azərbaycan xanları, Ərzurum valisi, Bəyazid hakimi ilə birləşib, Osmanlı dövlətinə düşmən hücumuna qarşı hazır olduqları haqda[37] rəsmi müraciət etdiyini qeyd edir. Onun yazdığına görə, «... İbrahim xanın bu dövrdə türklərlə əlaqəsindən Rusiya hakim dairələrinin xəbəri yox idi».[38] (Məlum olduğu kimi Qarabağ xanının nümayəndəsi Mirzə Məhəmməd Türkiyədə olmuşdu). Xanın elçisi Musa Sultan Peterburqdan geri qayıtdıqdan sonra Q.A.Potyomkin məliklərə yazırdı: «Mən sizə bu xanın (İbrahimxəlil xan-T.M.) dediklərinə qulaq asmağı təklif etmirəm, çünki o türklərə çox arxayındır və bizim ermənilərlə birləşib onu əzməyimizdən qorxduğu üçün bizi yuxuya vermək istə-yir».[39]

İrəvandakı vəziyyəti öyrənmək üçün Sultanın göstərişi ilə Qars şəhərindən İrəvana buğda almaq bəhanəsi ilə üç nəfər Osmanlı taciri göndərilmişdi. Onlar irəvanlılara düşmənlərin həmlələri qarşısında dəyanətli olmağı tövsiyyə etdilər və bildirdilər ki, Azərbaycan xanlarına çatdırılmaq məqsədilə

İstanbuldan Qarsa xeyli top gətirilmişdi. Qarsa top gətirilməsi faktı Trabzondakı erməni arxiyepiskopunun İrəvan ermənilərinə məktublarında təsdiq edilirdi.[40]

Osmanlı rəsmi dairələrindən İrəvan xanına (eləcə də digər Azərbaycan xanlarına) göndərilən məktublardan birində deyilirdi: «Siz irəvanlılar təbiətcə türksünüz. Əgər bəd qüvvələr İrəvan qalasını almaq istəsələr müdafiə olunaraq müsəlman qanunçuluğunu qorumalısınız. Sultan Qars, Bəyazid paşalarına həmişə sizi müdafiə etməyi tapşırmışdır. Ən qədim dövrlərdən biz dost olmuşuq. Biz həmişə qonşunu qorumağa hazırıq».[41]

Həmin dövrə aid olan rus arxiv sənədlərindən birində yazılırdı ki, Osmanlı elçiləri Azərbaycana səpələnmişlər. Onlar çalışırlar ki, qoşun toplasınlar və rusların qarşısını kəsib, onları Cənubi Qafqaza buraxmasınlar. Həmin sənədin bir başqa yerində xəbər verilirdi ki, Azərbaycan xanları Rusiyanın təbəəliyini qəbul etməyib, Osmanlı dövləti və İranla müqavilə bağlamışlar ki, cənuba yürüş edə biləcək rus qoşunlarına müqavimət göstərsinlər.[42]

Axısqalı Süleyman paşa İrəvan xanına göndərdiyi məktubda yazmışdı: «Sizi doğma oğlum hesab edərək, həmişə sizin əmin-amanlığınız üçün çalışmışam. Əlahəzrət hökmdarın və Asak (Aslan – T.M.) vəzirin məktubu əsasında qapıçıbaşı Saloxar (Silahşor – T.M.) Mehmet Sal bəyin vasitəsilə sizə və Azərbaycanın digər xanlarına pul və hədiyyələr göndərilmişdir. Onları bu yaxında alacaqsınız. Əgər siz bizim dövlətə sədaqətlisinizsə və bizimlə dostluq münasibətində olmaq istəyirsinizsə, o zaman Dövləti Aliyye bundan xəbərdar olmalıdır. Siz nəinki bizim sadiq bəndəniz olacaqsınız, mənim də sizə qarşı məhəbbətim artacaq, iltifatlı oğlum və dostum, bu məktubu gətirəni yubanmadan geri göndər».[43] Qars paşası İrəvanlı Məhəmməd xana göndərdiyi məktubda Axısqalı Süleyman paşanın İrəvana hədiyyələr göndərdiyini xəbər verərək Məhəmməd xanı «həmişə dost olmağa çağırırdı». Hətta Sultan da İrəvan xanına məktub göndərmişdi. Məktubda deyilirdi: «Bizə gəlib çatıbdır ki, Tiflis sarı Rusiya ilə birləşərək Azərbaycan xanlarının arasını vurmağa, onların arasında Rusiyaya meyl yaratmağa çalışır... Siz bizimlə birləşməyə səy edin. Bizim məqsədimiz odur ki, çar İrakli sizə zərər verə bilməsin. Düşməni dəf etmək üçün birləşin, onu öldürün, dağıdın və güllələyin».[44]

Osmanlı imperiyasının Azərbaycan xanlıqlarına münasibətindən Cənubi Qafqaz xristianları, xüsusilə ermənilər narahat olurdular. İrəvandakı ermənilər 1784-cü ildə nümayəndələri Saakovu Sankt-Peterburqa göndərmişdilər. Ermənilərin Rusiya hökumətinə göndərdiyi məktubda deyilirdi ki, osmanlılar tez-tez irəvanlılara yazırlar ki, xristianlara qarşı möhkəm və mərdliklə dursunlar. Buna görə də ermənilər Rusiyadan onlara yardım göstərməyi xahiş edirdilər.[45] Bu dövrdə İbrahim Xəlil xanla II İrakli arasındakı münasibətlər də korlanmışdı. Məlum olduğu kimi, onlar 1780-ci ildə Gəncəni tutub, gəlirlərini yarı bölmüşdülər. Lakin 1783-cü il Georgiyevsk müqaviləsindən sonra II İrakli Rusiyaya arxalanaraq İbrahim Xəlil xanı Gəncədən sıxışdırmağa çalışırdı. Bu məqsədlə II İrakli 1784-cü ilin payızında Gəncə üzərinə hücum etdi. Bu hərbi səfərində ona polkovnik Burnaşovun başçılıq etdiyi rus qoşunları da kömək edirdi. Ancaq II İraklinin Gəncəni ələ keçirmək cəhdi baş tutmadı.

Şirvan (ola bilsin ki, Şəki) xanına yazılmış 1784-cü il 22 aprel tarixli (1198 cümadiyə axirin sonu) Sultan fərmanında İraklinin Rusiyaya arxalanaraq Azərbaycan xanlarına qarşı təcavüzə hazırlaşdığını Çıldır valisi vəzir Süleyman paşanın və Bəyazid hakimi İshak paşanın Azərbaycan xanlarına bildirdiyi xatırlanırdı.[46] Süleyman paşanın xanların yanına göndərdiyi Süleyman adlı şəxsə onlar, xüsusən Xoylu Əhməd xan Osmanlı dövlətinə sədaqətlərini izhar etmişdilər. Fərmanda deyilirdi ki, Azərbaycan xanları arasında bir sərkərdə seçərək, qoşun toplayıb daim Çıldır və Bəyazid hakimləri ilə xəbərləşərək, «müharebe merasimine reayet» etməli və hər tərəfə «nezaret edecek və bir an qafil olmayarak» hərəkətə hazır olmalıdırlar. İrakli tərəfindən «İran məmləkəti hüdudlarına», bilxassə İrəvan tərəflərə, yaxud Osmanlı hüdudlarına qəsd edilərsə, xanlara öz aralarında ittifaq bağlamaq təklif olunurdu. Fərman Şirvan xanının adına yazıldığı halda əslində Şəki xanına ünvanlanmışdı. Çünki məktubun ünvanlandığı şəxsə Şamaxı xanı ilə ittifaq bağlamaq təklif olunurdu ki, bu da fərmanın Şəki xanına göndərildiyini sübut edir.[47] Yəqin ki, bu Hacı Çələbidən başlayaraq Şəki xanlarının Şirvan hakimliyinə iddia etmələri ilə bağlı idi.

Çıldır valisi, Bəyazid mütəssəfiri, Qars mühafizi və İrəvan xanından gələn təhrirlər əsasında 1784-cü il 28 sentyabr (13 Zilqidə 1198) tarixdə xətti-humayun hazırlanmışdı. Xətti-humayundan məlum olur ki, bir qədər əvvəl Qars, Bəyazid hakimlərinə, «Azərbaycan sipəhsaları» Xoylu Əhməd xana «peyderpey müharibe olunarak İrakli han tarafından Revan kal'asına süi kasd müşahide olunur ise cümle ittifakıyla iraeti sevad-i asker ve tehliy-ui esab-i kar-zar ile müdafıasına ihtimam haqqında» tapşırıq verilibmiş.[48] Xoylu Əhməd xanın nümayəndəsi Hüseynəli bəy İstanbula gəlib Azərbaycandakı vəziyyət barədə

məlumat vermişdi. Hüseynəli bəy üçün 2500 quruş xərcirah (yol xərci), digər 6 nəfər üçün 600 quruş, onu müşaiyət edən qapıçılar kətxudası üçün 750 quruş ayrılmışdı.[49]

Qeyd edək ki, hələ bu hadisələrdən əvvəl Qulam Əli xanın hakimyyətinin xanlıq əyanları və bəylər içərisində nufuzu olmadığından az davam edəcəyini hiss edən Osmanlı nüma-yəndələri keçmiş İrəvan xanı Hüseyn Əli xanın azyaşlı oğlu Məhəmməd ağanın Xoy xanının özündən 30 yaş böyük qızına evlənməsinə nail olmuşdular. Beləliklə, artıq Osmanlıya meyl edən Xoy xanının gələcəkdə İrəvanın daxili işlərinə qarışması üçün zəmin yaradılmışdı.

### *3. Rusiyanın İsfahanlı Əlimurad xanla Azərbaycanı bölüşdürmək cəhdi və Osmanlı imperiyasının mövqeyi*

Kərim xan Zəndin ölümündən sonra Mərkəzi İranda Zənd sülaləsinin nümayəndəsi Əlimurad xan hakimiyyəti ələ keçirmişdi. Lakin o öz hakimiyyətini möhkəmləndirə bilmirdi. Çoxları Əlimurad xanı İran hökmdarı kimi tanımaq istəmirdilər. Buna görə Əlimurad xan Rusiyanın dəstəyini qazanmaq üçün ona ittifaq bağlamaq təklifi ilə müraciət etdi. Hələ 1783-cü ildə general Potyomkinin təbrik məktubunu alan Əlimurad xan öz məmuru Məhəmməd bəyi məktubla Qafqaz xəttinə göndərib rus tacirlərinə hər cür şərait yaratdığını, Peterburq sarayına səfir göndərib Rusiya ilə onun arzuladığı şərtlərlə ittifaq bağlamaq istəyində olduğunu bildirmişdi.[1]

Cənubi Qafqazı öz mülklərinə qatmağı niyyət edən Rusiya onun üçün çox əlverişli olan bu müraciətə həvəslə cavab vermişdi. Q.A.Potyomkin II Yekaterinaya yazmışdı ki, Mərkəzi İranı ələ keçirən Əlimurad xan Rusiya ilə ittifaq axtarır və bundan istifadə edərək «İran Ermənistanını» könüllü alıb, onun əsasında Albaniya quberniyası təşkil etmək olar.[2] O, 1784-cü ilin may ayında isə Əlimurad xanın təklifindən faydalanmaq barədə müsbət rəyini Bezborodkaya bildirmişdi: «Bundan böyük xeyir qazanmaq, Ermənistan ölkəsini və Albaniyanı təşkil etməli olan hissəni, İraklinin çarlığını qurmaq olar».[3] Əlimurad xanla danışıqların sürətləndirilməsinin bir səbəbi də Qubalı Fətəli xanın Cənubi Azərbaycan torpaqlarını birləşdirmək istiqamətində cəhdlər göstərməsi idi.

Əlimurad xan elçisi vasitəsilə bildirirdi ki, göstəriləcək kömək əvəzində vaxtilə Rusiyanın əlində olmuş torpaqlardan (1722-1735-ci illərdə Rusiya idarəçiliyinə keçmiş Xəzəryanı vilayətlər nəzərdə tutulurdu-T.M.) əlavə «Qaradağ, Qarabağ, Naxçıvan və İrəvan vilayətlərini» Rusiyaya güzəştə getməyə hazırdır.[4] Göründüyü kimi Əlimurad xan heç bir hüququ çatmadığı Azərbaycan torpaqlarını Rusiyaya güzəştə getmək hesabına onunla sövdələşməyə çalışırdı. Eyni zamanda Osmanlı dövlətinin Cənubi Qafqazda böyük nüfuza malik olması Azərbaycanı və Şərqi Gürcüstanı özünə tabe etmək niyyətində olan İsfahanlı Əlimurad xanın narazılığına səbəb olmuşdu. O, Sultanın «hansı əsaslarla fərmanlar göndərərək Azərbaycanda çaxnaşma yaratdığını» aydınlaşdırmaq üçün Osmanlı sarayına nümayəndə yollamışdı. İranla münasibətləri kəskinləşdirməmək xatirinə Sultan yumşaq cavab vermişdi: «Gürcüstanı tutmuş Rusiya ordusunun digər yerlərə yayılmasının qarşısını almaq üçün, dinbir qardaşlarımıza - Azərbaycan xalqına ehtiyatlı olmağı məsləhət görmüşük».[5]

Öz növbəsində Osmanlı sarayı Əlimurad xanın Rusiya ilə danışıqlar apardığından xəbərdar idi və ona görə də Rusiya ilə İran arasında ittifaq yaranmasına yol verməməyə çalışırdı. Buna görə də İranla «dostluq» münasibəti yaratmaq üçün diplomatik bir addım atdı. Sultan Bağdaddakı dağıdılmış İran şiə məscidinin bərpa olunmasına icazə verməklə yanaşı, digər tikililərin də bərpa olunması üçün xeyli pul ayırdı.[6]

Osmanlı Sultanı Əlimurad xana və habelə Azərbaycan xanlarına məktublar göndərərək, onları inandırmağa çalışırdı ki, «... rus ordusu İran üzərinə gəlir...», «Rusiya əraziləri ələ keçirməyə çalışır, ancaq müqavilə olduğu (Kiçik Qaynarca Rusiya-Osmanlı sülh müqaviləsi nəzərdə tutulur-T.M.) üçün biz onlara qarşı çıxa bilmirik, lakin nə qədər pul lazım olsa verə bilərik».[7]

Əvvəlcə Əlimurad xanla sövdələşməni tezləşdirməyə çalışan Rusiya hökuməti Əlimuradla Ağa Məhəmməd xan Qacar arasında İranda üstünlük uğrunda qızışmış mübarizənin nəticəsini gözləyərək, Əlimurad xana cavab verməyə tələsməməyi qərara aldı. Nəhayət, 1784-cü ilin payızında polkovnik Tamara Əlimurad xanla danışıqlar aparmaq üçün İrana göndərildi. Q.A.Potyomkinin Tamaraya verdiyi təlimatda deyilirdi: «Dağınıq hissələrin bir dövlət halında birləşdirilməsi oranın çiçəklənmə vəziyyətinə gətirilməsi üçün bir vasitədir. Siz bununla həmin hakimin şəstini tərpəndirə bilərsiniz. Lakin bu zaman ona bu monarxiyanı yalnız iranlılardan təşkil olunmasının məqsədəuyğunluğunu izah edə bilərsiniz. Bu cür birlik möhkəm və sabit olacaqdır, həmişə boynundan əsarəti atmağa çalışan xalqların müxtəlifliyi isə dövlətin gücünü artırmır, əksinə parçalayır və zəifədir. Bunu mən Ermənistan və digər ətraf əyalətlər

haqqında deyirəm: çünki Gürcüstanın özünə gəlincə bu barədə heç nə deməməli; onun müqəddəratı artıq həll olunmuşdur... Buna Portanın barışmazlığını və onun niyyətlərini də əlavə etmək lazımdır. Onun şöhrəti və namusu bu paxıl qonşuya qarşı durmağı və onun niyyətlərini puça çıxarmağı tələb edir. Əgər ermənilər türklərlə iranlılar arasında bufer olsalar bu İranı təhlükəsiz edəcəkdir».[8]

1784-cü il sentyabrın 30-da Bezborodko öz iştahasını daha da artıraraq adı çəkilən təlimata izahatda Əlimurad xandan Osmanlı imperiyası ilə müharibəsi təqdirində əldə edəcəyi «erməni torpaqlarını» da güzəştə getməsini və osmanlılara qarşı müdafiə ittifaqı bağlamaq barədə razılığının alınmasını da təklif edirdi. Potyomkinin göstərişlərini dəqiqləşdirən Bezborodko «Dərbənd və lazım olan digər yerlərin» Rusiyaya ilhaqının tanınmasını da tələb etməyi təklif edirdi. Bundan əlavə, «Alban çarlığı yaxud vilayətini» təşkil edəcək torpaqlar haqqında da aydın qərar qəbul edilməli idi.[9]

1785-ci il yanvarın 1-də Əlimurad xanın elçisi Məhəmməd xan və Tamara Şimali Qafqazdan Tiflisə yola düşürlər. Sonra oradan İsfahana doğru hərəkət etdilər. Lakin bəzi Azərbaycan xanları Əlimurad xanla Rusiya arasında Azərbaycan xanlıqlarının suverenliyinə xələl gətirən sövdələşmə olacağından şübhələndikləri üçün elçilərin hərəkətinə mane oldular. Xoylu Əhməd xan elçiləri üzdə mehribanlıqla qarşılasa da, onları hərəkətlərini davam etdirməyə qoymadı.[10] Bu zaman onların hərəkətlərini davam etdirmələrinə lüzum da qalmadı: 1785-ci il fevralın 18-də İsfahandan 4 günlük məsafədə Həzri (Xəzri) kəndində Əlimurad xan qəflətən vəfat etdi.[11]

Qeyd edək ki, H.Abdullayev Əlimurad xanın özünün Rusiyaya ərazi güzəştləri barədə əvvəllər etdiyi təkliflərdən artıq 1784-cü ilin sonunda imtina etdiyini yazır.[12] Onun mövqeyindəki bu kəskin dönüşdə fransız diplomatiyasının rolu az olmamışdır. Fransa Yaxın Orta Şərqdə öz mövqeyini möhkəmləndirmək üçün ciddi səy göstərirdi və hələ 1784-cü ilin yazında onun İrana göndərdiyi diplomatik agenti de Feriyer Sövbef Əlimurad xanı Rusiya ilə ittifaqdan və ona ərazi güzəştləri etməkdən çəkinməyə çalışırdı.[13] Fransa hökuməti Əlimurad xana Rusiyaya qarşı Fransa və Türkiyə ilə ittifaq bağlamağı təklif edirdi.

V.S.Tamara Əlimurad xanın öldüyünə qəti əmin olduqdan sonra Mərkəzi İranda müvəqqəti hakimiyyəti ələ keçirən Cəfər xana məktub göndərərək, onu Əlimurad xanın siyasətini davam etdirməyə çağırmışdı. Lakin Cəfər xan Ağa Məhəmməd xandan qorxaraq İsfahandan Şiraza qaçdı. Beləliklə, də Rusiyanın Azərbaycanı İranla bölüşdürmək cəhdi baş tutmadı.[14]

### *4. 80-ci illərin ortalarında Azərbaycanda siyasi vəziyyətə Osmanlı hökumətinin münasibəti*

Əlimurad xanın ölümündən sonra Azərbaycanda və İranda ara müharibələri yenidən qızışdı.

Qeyd edək ki, bu zaman Xoy xanlığı Azərbaycanın cənubunda ən qüdrətli xanlıq idi. Xoylu Əhməd xan əvvəlki illərdə Azərbaycanın bir sıra xanlıqlarını, o cümlədən İrəvan, Naxçıvan və Qaradağ xanlıqlarını özündən asılı vəziyyətə sala bilmişdi. Təbrizli Nəcəfqulu xan Dünbüli lazımi vaxtlarda qoşun, pul və başqa vasitə ilə Əhməd xana yardım edirdi. Qarabağ xanlığı Xoy xanlığının yaxın müttəfiqi idi. Onlar Qaradağ xanlığını öz aralarında bölüşdürmüşdülər, qaradağlı Mustafa xan isə Xoy qalasında girov saxlanırdı.[1] Hələ 1780-ci ildə Nəcəfqulu xan vəfat etdikdən sonra oğlu Xudadad xan Əhməd xanın köməyi ilə Təbriz xanı taxtına yiyələnmişdi. Lakin o, Əhməd xanın asılılığından çıxmaq üçün Qubalı Fətəli xanın himayəsini həvəslə qəbul etmişdi. Fətəli xan Cənubi Azərbaycandan getdikdən sonra Xudadad xanı cəzalandırmaq istəyən Xoylu Əhməd xan və müttəfiqi Qarabağlı İbrahim Xəlil xan 1785-ci ilin yayında Təbrizi dövrəyə aldılar. Təbriz xanlığı müttəfiqlərin arasında bölüşdürülməli, həm də Əhməd xan Naxçıvanda Abbasqulu bəyin hakimiyyətini İbrahim Xəlil xandan asılı olması şərti ilə bərpa etməli idi.[2]

Xudadad xan təslim olmaq təklifini rədd etdi. Lakin çox keçmədən şəhər əyanları Xudadad xana xəyanət edərək qala qapılarını açdılar. P.Q.Butkov bu barədə yazır: «... bu ilin yayında Təbriz əyanlarının xəyanəti nəticəsində şəhər gecə Xoy xanına verilmişdir. Xidayət xan (Xudadad xan-T.M) tutulmuş və Təbrizi digər qohumuna Xidayət (Xudadad-T.M.) xanın qardaşına tapşıran və Təbrizdən milyon manat təzminat alan qalibin yanına aparılmışdır».[3] Uğurlu yürüşdən sonra sözünün üstündə durmayıb İbrahim Xəlil xana heç nə verməyən Xoylu Əhməd xan bildirdi ki, bir qohum kimi Təbriz hakimini dəyişməyə onun haqqı vardır.[4]

Əhməd xanın artan nufuzu qonşu dövlətlərin - Osmanlı imperiyası və Rusiyanın diqqətini cəlb edirdi. Əhməd xan özü də bu dövlətlərlə sıx münasibətlər yaratmaqda maraqlı idi. Osmanlı imperiyası da

Xoy xanlığı ilə münasibətlərə xüsusi diqqət yetirirdi. Sultan Xoy xanına İran dövləti tərəfindən təhlükə olduğu təqdirdə yardım edəcəyinə söz verdi, onu yüksək hərbi rütbə - «sərəsgər» rütbəsi ilə təltif etdi.[5]

Əhməd Cövdət paşanın yazdığına görə, 1199-cu hicri tarixində (1785) Xoylu Əhməd xan Ərzurum valisi Hacı Əli paşaya göndərdiyi məktubda rusların İranla saziş bağlayıb Türkiyəyə yaxın yerləri, ilk növbədə Azərbaycanı tutub, sonra Osmanlı torpaqlarına təcavüz etmək niyyətində olduqlarını bildirmişdi. Əhməd xanın divan katibi cavab olaraq şifahi surətdə demişdi ki, Osmanlı sarayının dinbirliyinə görə, azərbaycanlıları köməksiz qoymayacağına əmindir; əgər bu cür yardım göstərilməzsə bir çox müsəlman xalqları düşmən tərəfindən əziləcəkdir.[6] Elçi söyləmişdi ki, hal-hazırda Tiflisdə xeyli rus əsgəri var, əgər Osmanlı sarayı Əhməd xana artilleriya ilə birlikdə 2 min nəfərlik qoşun və ayrılarından fərqləndirmək üçün hər hansı fəxri rütbə versə bu bir yandan «İran sakinlərini» sakitləşdirər, digər yandan Əhməd xanın düşməni yaxınlaşdıqda onunla döyüşmək üçün imkanı olar. Bütün bunlar barədə İstanbula məlumat göndərilmişdi.[7]

Lakin Osmanlı hökuməti fikirləşirdi ki, hələ lüzum olmadığı bir zaman qoşun göndərilməsi və Əhməd xana paşa rütbəsi verilməsi bir qədər təhlükəli ola bilər. Eyni zamanda xanı məyus etməmək üçün Əli paşaya həmin anda Əhməd xana toplar və bir qədər ehtiyat göndərmək tövsiyə olunmuşdu.[8]

Xoylu Əhməd xan öz hakimiyyətini qorumaq xatirinə İran, Osmanlı imperiyası və Rusiya arasında manevr etməli olurdu. O, hətta öz nümayəndələrini Peterburqa göndərərək, Rusiya kimi qüdrətli himayədara malik olduğunu Osmanlıya və İrana göstərməyə çalışmış, II Yekaterinadan təbəəliyə qəbul olunmasını nümayişkaranə surətdə xahiş etmişdi.[9]

Osmanlı sarayı Rusiyanın Kiçik Qaynarca sülhünün şərtlərinə məhəl qoymayaraq Krımı ilhaq etməsindən sonra iki dövlət arasında müharibənin yaxınlaşdığını anlayır, Azərbaycan xanlarını öz tərəfinə çəkib, müharibədə onların dəstəyinə nail olmağa çalışırdı. Rusiyanın arxiv mənbələrində olan bir məlumata görə, Osmanlı sarayı 1785-ci ilin əvvəllərində Axısqa paşası vasitəsilə azərbaycanlılara və dağıstanlılara vəsait göndərirmiş ki, onlar Kartli və Kaxetini tutub, bütün qüvvələrini Krıma tərəf yönəltsinlər.[10]

Osmanlı sarayı hələlik Kiçik Qaynarca sülhünün şərtlərini pozmaqdan çəkinərək, Rusiyanın Azərbaycan xanlıqlarına qarşı yeritdiyi işğalçılıq siyasətinə qarşı açıq çıxış edə bilmirdi, buna görə də əsasən diplomatik vasitələrlə hadisələrə təsir göstərməyə çalışırdı. Rus casusu Nikita Yakovlevin P.S.Potyomkinə göndərdiyi 1785-ci il 3 (14) fevral tarixli məktubunda deyilirdi: «Dərbəndə gəlməyimlə öyrəndim ki, Sultan İbrahim xanın elçisi ilə ona hədiyyə göndərmişdir. İbrahim xan göndərilən hədiyyələri qəbul etmiş və bundan şadlanaraq toplardan atəş açdırmışdır».[11] Kartli-Kaxetiya çarı II İrakli polkovnik S.Burnaşov vasitəsilə Rusiya hökumətinə göndərdiyi 1785-ci il 17 mart tarixli məktubda Osmanlı Sultanının Azərbaycan və Dağıstan xanlarını Rusiya və Gürcüstan əleyhinə qaldırmaq üçün onlara pul və xüsusi hədiyyə göndərdiyini, Süleyman paşa sülh haqqında danışıqlar aparsa da Dağıstanlı Ümmə xan ilə İbrahim Xəlil xanın birləşib Gürcüstan üzərinə hücum etmək istədiyini bildirirdi. Buna görə də İrakli ordu göndərilməsini xahiş edirdi.[12] Casus Yakovlev Sultanın həmin ilin may ayında Ərzurum şəhərindən sərəsgər Süleyman paşanın başçılığı ilə 40000 döyüşçünün İrəvan üzərinə göndərəcəyi və Osmanlı Sultanının Azərbaycan və Dağıstan xanlarına onları Rusiya işğalı təhlükəsinə qarşı birləşməyə çağıran məktub göndərməsi haqqında məlumat çatdırırdı.[13]

Rusiya və onun əlaltısı II İrakliyə qarşı mübarizə üçün Osmanlı hökuməti Qafqazın müsəlman hakimlərinin vahid cəbhəsini təşkil etməyə çalışırdı. 1785-ci ilin martında Şimali Qafqazda Şeyx Mənsurun (Uşurma) başçılığı ilə Rusiyaya qarşı üsyan başladı.[14] Kartli-Kaxeti çarlığına basqına hazırlaşan avar Ümmə xan üsyançılarla əlaqə yaratdı. Qazıkumuk və digər Dağıstan feodalları da Şeyx Mənsurla birgə hərəkət edirdilər. Lakin üsyançıların Qafqaz dağlarından keçən yolu və Qızları tutmaq planı baş tutmadı.[15]

Osmanlı hökuməti Şeyx Mənsurun başçılığı ilə dağlıların Rusiya ərazilərinə basqınlarına əvvəlcə əndişə ilə baxır və bunun Rusiyaya osmanlılarla sülhü pozmaq üçün bəhanə verəcəyindən ehtiyatlanırdı.[16] Digər yandan, Osmanlı dövləti Şeyx Mənsurun çərkəzləri, abxazları və başqa xalqları Osmanlı hakimiyyətindən çıxararaq ayrıca dövlət quracağını ehtimal edirdi. Sonradan Qafqaz əhalisinin Türkiyəyə müsbət münasibət bəslədiyini anlayan Osmanlı hökuməti Şeyx Mənsur hərəkatına münasibətini dəyişdi və ona rəğbət bəsləməyə başladı.

1785-ci ilin yayında Şeyx Mənsur çeçenlərlə hücuma keçib Qızları tutmaq istəyəndə II İraklinin tabeçiliyindəki azərbaycanlılar yaşayan əyalətlərdə həyacan qalxdı. Həmin il Gürcüstana dağıstanlı feodalların basqınları ardıcıl və mütəşəkkil hal aldı. [17]

Ərzurum paşası Hacı Əli bəy Axısqaya Avropa nümunəsində düzəldilmiş 7 top gətirtdi. O, xoylu Əhməd xanı da belə toplarla təchiz etmək istəyirdi, lakin paşanın ölümü buna yol vermədi.[18]

Beləliklə, Qafqaz dağlarından keçən yol üzərində nəzarəti və Qızları ələ keçirmək, Rusiyanın Qafqaz xəttini şimala sıxışdırmaq planını gerçəkləşdirmək mümkün olmadı. Rus qoşunları tərəfindən sıxışdırılan Şeyx Mənsur 1786-ci ilin sonunda Qərbi Qafqaz dərələrinə çəkildi, sonra isə Anapa paşalığına sığındı.[19]

II İrakliyə qarşı birgə hücum hazırlayan Osmanlı sarayı 1785-ci ildə Süleyman paşanı sərəsgər, oğlunu isə paşa təyin etdi. Kartli-Kaxetiyə qarşı osmanlılardan və Şimali Qafqaz döyüşçülərindən ibarət olan 3 min nəfərlik dəstənin böyük cəza ekspedisiyası 1785-ci ilin yazında Surami yanında duran və Kartliyə gələn yolları qoruyan rus-gürcü dəstəsi üzərinə hücumu ilə başladı. Osmanlı hakimiyyət orqanlarından tövsiyə alan dağıstanlı döyüşçülər Kartli-Kaxeti çarlığını talamış, carlılar da Kaxetə basqın etimşdilər. Onların başçısı bir il əvvəl II İraklinin xidmətindən qaçıb, ailəsi ilə birlikdə Carda məskən salmış İbrahim Rəfi oğlu adlı bir şəxs idi.[20] Kartli-Kaxeti çarlığına basqın etmək üçün avar Ümmə xanın başçılığı altında 20 min nəfərə yaxın döyüşçü Carın yaxınlığında toplanmışdı.[21] Onların silahla təhcizatı pis idi, bəzilərinin isə heç tüfəngi də yox idi.

1785-ci ilin sentyabrında Ümmə xan Borçalıya basqın etdi. Buradakı qala, zavod və mədənlər dağıdıldı, çoxlu əsir və qənimət ələ keçirildi.[22] Bu yürüşdə Rəfi oğlu İbrahim ağa, Vəli oğlu Məhəmməd ağa və Həllac Abdullanın başçılığı ilə xeyli Car-Tala və İlisu döyüşçüsü də iştirak etmişdi.[23]

Kartli-Kaxetinin tamamilə viran olunmasının qarşısını almaq üçün general-poruçik P.S.Potyomkin Q.A.Potyomkinin göstərişi ilə Ümmə xanla əlaqələri bərpa etdi və Cənubi Qafqaz hakimlərinə məktublar göndərərək, Kartli-Kaxetinin Rusiyanın himayəsi altında olduğunu onlara xatırlatdı. Ümmə xana zəngin hədiyyələr göndərildi.[24]

Hədiyyələri alan Ümmə xan Gürcüstana daha basqın etməməyə razı oldu. O, II İrakli ilə sövdələşərək, aldığı 10 min rubl birdəfəlik ödəniş, 5 min rubl «məvacib» əvəzində Gürcüstana basqın etməkdən əl çəkdi.[25]

Həmin dövrdə Gəncədən əli çıxan II İrakli yenidən buraya sahib olmaq üçün müxtəlif yollar axtarırdı. «O, İbrahim xanın yanında saxlanılan Məhəmməd xanı (Gəncə xanı olmuş Məhəmmədhəsən xanın (1760-80-ci illər) qardaşı-T.M.) əsirlikdən qurtarıb yenidən Gəncəyə hakim qoymaqla İbrahim xana qarşı müttəfiq qazanmaq arzusunda idi.[26]

Qarabağ xanlığının Kartli-Kaxeti çarlığı ilə münasibətləri kəskinləşdiyi vaxtda Osmanlı dövlətinə meyli artmışdı. II İrakli təşvişlə Rusiya hakimiyyət orqanlarına Azərbaycan xanlarının osmanlılarla daha çox yaxınlaşdıqlarını, İbrahim xanın Sultana məktub yazdığını xəbər verir, onun gürcülərə Gəncəyə qədər irəliləmələrinə imkan vermədiyini bildirirdi.[27] Çıldır valisi Süleyman paşanın yazdığına görə, Fətəli xan və Şəkili Məhəmmədhəsən xan da 1785-ci ilin iyununda öz elçilərini İstanbula göndərmişdilər.[28] II İrakli Azərbaycan və Dağıstan xanlıqlarının Osmanlı himayəsinə sığındıqlarını bildirərək, İrəvan və Gəncə tərəflərini ələ keçirmək üçün hərbi təchizat gətirilməsi üçün Rusiya hökumətindən əlavə yollar açılmasını xahiş etmişdi.[29]

Artan rus-gürcü təcavüzünə qarşı çıxmaq üçün Osmanlı höküməti qoşun toplamağa başladı. Süleyman paşa qafqazlı döyüşçülərə pul paylamağa başladı və onlar dəstə-dəstə Çıldır vilayətinə axışdılar. Qafqazlı döyüşçüləri sakit saxlamaq çətin idi, onların vaxtsız çıxışları isə Rusiya ilə Osmanlı imperiyası arasında mövcüd olan sülhə mənfi təsir göstərə bilərdi. Süleyman paşa bu barədə hökumətə məlumat göndərib necə hərəkət etmək barədə göstəriş verməsini xahiş etmişdi.[30]

Bu zaman İstanbula xəbər çatmışdı ki, pasxa bayramı günü Çıldıra (Axısqaya) yığılmış dağlı və bir qədər yerli döyüşçülər (5 min nəfərə yaxın) Tiflis vilayətinə basqın edərək böyük qənimət əldə etmiş, lakin geri dönərkən artilleriyası olan rusların və gürcülərin pusqusuna düşmüş, xeyli itki vermişlər.[31]

Osmanlı hökumətinin bu olay haqqında dəqiq məlumat verilməsi tələbinə Süleyman paşa cəvab olaraq yazmışdı ki, Çıldıra yaxın yerlərdən min nəfərə qədər dağlı döyüşçü bir qədər «səfil süvari kürdü» özünə qoşaraq Süleyman paşadan icazəsiz Kartli-Kaxeti ərazisinə basqın etmiş, onlar çoxlu qənimət və əsirlər götürərək geri dönmüşlər. Bu zaman zəiflər qənimətlə birlikdə öndə, daha güclülər isə mühafizə məqsədilə arxadan getmişlər. Yolda artilleriyaya malik rus və gürcü döüşçüləri pusqu qurmuş və müsəlmanların ön dəstəsini darmadağın etmişdir. Yalnız arxadan gələn qüvvələr yetişdikdən sonra düşmən dəf edilmişdir. Müsəlmanların itkisi 50 nəfərə yaxın idi. Çıldır valisi həmin hadisəni o qədər mühüm hesab etməyib bu barədə hökumətə xəbər verməmişdi.[32]

İstanbuldakı rus elçisi bu hadisə bağlı rəis-ül-kittab ilə görüşüb Süleyman paşanı dağıstanlı döyüşçüləri Gürcüstana basqına təhrik etməkdə ittiham edərək, vəzifədən kənarlaşdırılmasını tələb etmişdi.[33] Söhbət zamanı rəis-ül-kitab bildirmişdi ki, dağıstanlılarla gürcülər arasında çoxdan bəri ədavət

olduğundan bu işdə Süleyman paşanın günahı yoxdur. İrakli də farağat durmur və əlinə imkan düşən kimi dağıstanlıları qarət edir, «İran sakinlərini» (azərbaycanlıları-T.M.) incidir. O, Gəncəni tutmuşdur.[34]

Bundan sonar Süleyman paşadan dağıstanlıların Gürcüstana yürüşü barədə məlumat (təhrirat) alınmışdı: Rusiyanın əlində başlıca alət olan II İrakliyə tədricən müsəlman vilayətlərini tutduğuna görə dağıstanlılar divan tutmağı qərara almışlar. Dağıstan qoşunu Ümmə xanın (onu Gürcüstanda Ömər adlandırırdılar) başçılığı ilə iyul ayında birbaşa Tiflisə hərəkət etmək fikrindədir. Süleyman paşa bunu onlara qadağan etmək istəsə də, gecikmiş, müsəlmanların artıq Tiflisə hücum etdiklərini eşitmişdi.[35]

II İrakli müsəlmanların basqını xəbərini eşidib yanındakı rus dəstəsini və artilleriya götürüb onların qarşısını kəsmək üçün Kaxetə hərəkət etmişdi. Lakin rəqibin güclü olduğunu görüb yaxşı möhkəmləndirilmiş qalalara sığınmışdı. Dağıstanlılar birbaşa Tiflisə hücum etmiş, lakin özlərilə mühasirə topları götürmədiklərindən Tiflis qalasından yan ötüb ətrafdakı gümüş mədənlərini tutaraq, çoxlu qadın və uşağı əsir götürmüşdülər. Müsəlmanların bir dəstəsi Tiflisdən 4 saatlıq məsafədə olan Lori qalasını mühasirəyə almışdı. Tiflisdəki gürcü dəstələri Lorinin mühasirəsini ləğv etməyə cəhd etmişdi. Baş verən döyüşdə müsəlmanlardan 400 nəfərə qədər həlak olsa da, onlar qələbə qazanmışdılar. Düşmənin itkisi daha çox idi.[36]

Dağıstanlılar Axalkalak düzündə düşərgə salaraq Tiflis qalasını almaq qərarına gəldilər. Bu məqsədlə məktub dalınca məktub göndərərək, Süleyman paşadan artilleriya və mərmi göndərməsini tələb etdilər. Lakin hökumətdən icazəsiz belə hərəkət etməkdən qorxan Süleyman paşa özü Axalkalak düzünə getdi, qalanı almaq üçün vaxt tələb olunduğunu və qışın yaxınlaşdığını bildirərək, bu fikrindən daşınmalarını dağlı döyüşçülərdən xahiş etdi. Dağıstanlılar bildirdilər ki, qış yaxınlaşdığından onlar yaralı və xəstələri Dağıstana daşıya bilmə-yəcəklər. Buna görə də Türkiyə ərazisində qışlamağa icazə verilməsini xahiş etdilər. Dağıstanlı döyüşçülərin qışladıqları vilayətlərdə xeyli əziyyətə səbəb olacaqlarını nəzərə alan Süleyman paşa onların rəhbərləri arsında ixtilaf saldı. Akuşa qazisi və Car kətxudaları 4-5 min nəfərlik dəstləri ilə əsas qüvvələrdən ayrılaraq öz evlərinə qayıtdılar.[37]

Ümmə xan və Əli Sultan isə öz yerlərinə getmək istəmirdilər. Xeyli dilə tutmadan sonra onları da razı salmaq mümkün oldu. Onlar dəstələri ilə geri qayıdarkən yolüstü Dahan qalasını mühasirəyə alıb döyüşdə qələbə çalsalar da, xeyli itkiyə məruz qaldılar. Yaralı da çox idi. Artıq qış düşdüyündən, artilleriya ilə silahlanmış gürcü və rus qoşunları yolu kəsdiyindən müsəlman dəstələrinin öz vətənlərinə dönə bilməsi mümkünsüz idi. Buna görə də onlar Osmanlı imperiyası ərazisində qışlamaq üçün yenidən oraya qayıtmağa məcbur oldular.[38]

XVIII yüzilin 80-ci illərinin ikinci yarısında Osmanlı dövlətinin Cənubi Azərbaycanda təsiri xeyli azaldı. Bu onun burada başlıca dayağı olan Xoy hakiminin Əhməd xanın taxt-tac mübarizəsində qətlə yetirilməsindən sonra zəifləməsi ilə əlaqədar idi. Məlum olduğu kimi, Kərim xan Zənd vəfat etdikdən sonra Azərbaycandan apardığı girovlar, o cümlədən Xoylu Şabhaz xanın oğlanları yurdlarına qayıtmışdılar. Əhməd xan Şahbaz xanın oğlanlarını meribanlıqla qarşılayıb, onları müəyyən vəzifələrə təyin etsə də, onlar əmilərini öldürüb hakimiyyəti ələ almağı düşünürdülər. 1786-ci ildə Şahbaz xanın oğlanları sui-qəsd təşkil edərək Əhməd xanı və oğlanlarının çoxunu öldürdülər. Əhməd xanın oğlu Hüseynqulu bəy əsir edildi. Yalnız Cəfərqulu bəy qaçıb xilas ola bildi.[39]

Əhməd xanın xilas olmuş oğlu Cəfərqulu az müddətdə qüvvə toplayıb xanlıqda hakimiyyət uğrunda mübarizəyə girişdi. Marağalı Əhməd xan, urmiyalı Məhəmmədqulu xan (Əhməd xanın kürəkəni) ona yardım edirdilər. Cəfərqulu qısa bir vaxtda düşmənlərini məğlubiyyətə uğradıb qardaşı Hüseynqulunu azad etməyə nail oldu. Hüseynqulu Xoy xanı oldu.[40]

General Potyomkin 1786-ci ildə knyaz Q.A.Potyomkinə bu barədə yazırdı: İsfahandan Xoya gəlmiş qardaşı oğlanları Əhməd xandan böyük məvacib tələb edirdilər. Buna nail olmadıqda kiçik qardaş Rzaqulu əmisi Əhməd xanı, onun oğlunu çağırıb öz evində qətlə yetirmiş, öz böyük qardaşı Məliyi xan taxtına çıxarmışdı. O, həmçininn Xoyda əsir olan Təbrizli Xudadad xanı azad etmiş, sonuncu Təbrizdə yenidən hakimyyətə gəlmişdi. Lakin sonra Əhməd xanın qətli zamanı xilas olmuş Hüseyqulu xan qoşun toplayıb Xoyu almış, Məliyi öldürərək xanlıq taxtını ələ keçirmişdi.[41]

Xoylu Əhməd xanın öldürülməsi haqqında daha geniş təfsilata S.Burnaşovun S.Potyomkinə göndərdiyi 1786-ci il 22 yanvar (3 fevral) tarixli raportda rast gəlirik. Buradan aydın olur ki, söylənilən hadisə 1785-ci ilin sonu, yaxud 1786-ci ilin əvvəlində baş vermişdi. Burnaşovun yazdığına görə, Əhməd xanın qardaşı oğlu Rzaqulu Əhməd xanın oğlunu, digər əmisi Salmanı və xanın arvadını - İrəvan xanının bacısını qonaqlığa çağırıb qətlə yetirmişdir. Məlik xan elan olunmuşdur. Əhməd xanın böyük oğlu (Hüseyn) qətl zamanı Urmiyada olduğundan salamat qalmışdır. O, Urmiya və Marağada qoşun

toplayaraq Xoya hücum etmiş, Xoy əyanları Məlik xanı öldürmüş və Hüseyni xan kimi tanımışlar.[42] Burnaşov Hüseyn xanın atası kimi Osmanlı dövlətinə meyl edəcəyinidən narahat olurdu.[43]

Əhməd xanın ölümündən sonra asılı xanlıqlar Xoy xanlığının itaətindən çıxdılar. İrəvan xanı tamamilə müstəqilləşdi, Xoyda girov saxlanan qaradağlı Mustafa xan Əhərə qayıtdı və bundan sonra yalnız Qarabağ xanından müəyyən asılılıqda qaldı. Xudadad xan da həbsdən xilas olaraq Təbrizə gəldi və öz hakimiyyətini bərpa etdi.[44]

Əlimurad xanın ölümündən sonra İran taxtı uğrunda mübarizə daha da kəskinləşdi. 80-ci illərin ortalarından başlayaraq bu mübarizədə qacarlar tayfasından olan Ağa Məhəmməd xanın yüksəlməsi müşahidə olunur.

Qacarlar tayfası qədimdən Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikası) məskənləşmişdi. Şah Abbas onları öz tarixi yaşayış yerlərindən sürgün etmiş, xeyli hissəsini Astarabadda yerləşdirmişdi. Qacar tayfa başçısı Fətəli xan şah II Təhmasibin qoşun başçısı vəzifəsinə kimi yüksələ bilmişdi. Lakin tezliklə o, rəqibi Nadirin (gələcək şah) fitnələri nəticəsində qətlə yetirilmişdi. Fətəli xanın oğlu Məhəmmədhəsən xan xeyli tərəfdarı ilə Xəzər dənizinin cənub-şərq sahillərinə - türkmən tayfalarının yanına pənah aparmışdı. Nadir şah saray sui-qəsdi nəticəsində həlak olduqdan sonra hakimiyyəti ələ keçirmiş qardaşı oğlu Əliqulu xan (Adil şah) Məhəmmədhəsən xanı iki azyaşlı oğlunu girov kimi verməyə məcbur etmişdi. Oğlanlardan böyüyü - 6 yaşlı Ağa Məhəmməd Əliqulu xanın göstərişi ilə axtalanmışdı. Əliqulu xan öldürüldükdən sonra Ağa Məhəmməd azad olunmuş və atasının yanına qayıtmışdı. Məhəmmədhəsən xan Kərim xan zənd tərəfindən məğlub edildikdən sonra isə Ağa Məhəmməd Kərim xanın girovuna çevrildi. 1779-cu ildə Kərim xanın vəfatından sonra 36 yaşlı Ağa Məhəmməd Şirazdan Mazandarana qaçdı və özünü müstəqil xan elan etdi.

Lakin bəzi soydaşları, o cümlədən qardaşı Murtuzaqulu Ağa Məhəmmədə qarşı çıxdılar. Əvvəlcə uğur qazanan Ağa Məhəmməd xan, 1791-ci ildə digər qardaşı Rzaqulu xanın xəyanəti nəticəsində əsir alınır. Lakin ona sadiq qardaşları Cəfərqulu və Mustafaqulunun yardımı sayəsində Ağa Məhəmməd xan azadlığa çıxmağa nail olur.

Rzaqulu Məşhədə qaçdı və orada öldü. Murtuzaqulu isə tezliklə Rusiyaya qaçdı və burada rus generalı Qudoviçin əmri ilə qətlə yetirildi.

Ağa Məhəmməd xan hələ bundan əvəl 1786-cı ildə Cəfər xanı asanlıqla darmadağın edərək İsfahanı ələ keçirmişdi. Lakin o, İsfahanı deyil, qacarların daha çox yaşadığı ərazidə yerləşən Tehran şəhərini özünə iqamətgah seçdi.[45] Ağa Məhəmməd 1786-cı ildə Gilanı tutdu, Rusiyadan kömək ala bilməyən gilanlı Hidayət xan məğlubiyyətə uğradı və sonra öldürüldü.[46]

İsfahanı aldıqdan sonra Ağa Məhəmməd xan Q.A.Potyomkinə qələbəsi haqqında xəbər göndərmiş, eyni zamanda İsfahanda zəndlərin vaxtında həbs olunmuş gürcü Allahverdini azad etdiyini, Rusiya ilə ticarəti maneəsiz genişləşdirmək arzusunda olduğunu bildirmişdi.[47] O, 1786-cı ilin iyulunda P.S.Potyomkinə Rusiya ilə dostluğu yaxşı hal saydığını yazır, bununla bərabər, Cənubi-Şərqi Qafqaza iddiasını da gizlətmirdi. Bu iddia həmin regionu işğal etməyi qəti qərara almış Rusiyanın mənafelərinə tamam zidd olduğuna görə də Ağa Məhəmməd xanın elçisi Peterburqa buraxılmadı.[48]

Ağa Məhəmməd xan Qacar ilk növbədə Cənubi Azərbaycan xanlarını özünə tabe etməyə çalışırdı. Xoylu Əhməd xanın ölümündən sonra Urmiya xanlığı Cənubi Azərbaycanda ən güclü xanlıq idi. Bu dövrdə onun hakmi Əli xan yaxınlaşan düşməni qabaqlamaq qərarına gəldi və qoşunlarını xanlığının sərhəddi olan Salmas düzənliyinə gətirdi. Ağa Məhəmməd xan hiylə işlədərək sülh bağlamağı təklif etdi.[49]

Əli xan Ağa Məhəmməd xanın səmimiyyətinə inanıb onunla görüşdü. Lakin görüşdən sonra Ağa Məhəmməd xanın göstərişi ilə tutuldu və kor edildi. Bundan sonra Ağa Məhəmməd xanın qoşunları qəfildən basqın edib Urmiya qoşunlarını darmadağın etdi. Ağa Məhəmməd xan Məmmədqulu xanı Urmiya taxtına əyləşdirdi.[50] Lakin, Ağa Məhəmməd xan Mazandaranda və Astarabadda müstəqil hakim olmağa çalışan qardaşı Murtuzqulu xana qarşı mübarizə etməli olduğundan bu dəfə Cənubi Azərbaycanda möhkələnmə bilmədi, xanlarla ittifaq yaratmağa cəhd etdi. Sərablı Sadıq xan və Xoylu Cəfərqulu xan bu ittifaqa daxil oldular.[51]

Bundan sonra Ağa Məhəmməd xan vaxtilə Səfəvi dövlətinə tabe olan bütün əyalətləri və ölkələri öz hakimiyyəti altına almaq qərarına gəldi. Çünki, ənənəyə görə yalnız dövlətin ərazi bütövlüyünü bərpa etdikdən sonra şah taxtına çıxmaq olardı. Qeyd edək ki, Cənubi Qafqazda hökmranlığa bu zaman Kartli-Kaxeti hakimi II İrakli də iddia edirdi. Ancaq II İrakli Gəncəni ələ keçirmək niyyətini gerçəkləşdirə bilmədi. Gürcü çarının niyyətini duyan İbrahim xan kor etdiyi Məhəmməd xanı edam etdirdi.[52] Eyni zamanda 1786-ci ildə II İraklinin Osmanlı dövlətinə münasibəti kəskin şəkildə dəyişdi. O, Çıldır valisi

Süleyman paşaya məktub göndərərək rusların Fətəli xana qarşı hərbi dəniz ekspedisiyası və Azərbaycana 25 min nəfərlik qoşun göndərməyə hazırlaşdıqlarını xəbər verirdi.[53] Görünür yaxınlaşan Rusiya-Osmanlı müharibəsində Rusiyanın onu müdafiə edə bilməyəcəyini duyan Kartli-Kaxeti çarı öz təhlükəsizliyini təmin etmək üçün manevr etmək qərarına gəlmişdi. Bu zaman Osmanlı dövləti də qüvvələrini parçalamaq istəmədiyindən II İraklinin bu hərəkətinə müsbət yanaşdı. Osmanlı sarayı iki nəfər gürcü knyazının İstanbula əmanət kimi göndərilməsini təklif etdi. 1786-cı ildə Saqaraco kəndində II İrakli Osmanlı nümayəndəliri ilə görüşdü və Sultanın təklifini qəbul etdi.[54]

Rusiya ilə yeni müharibə ərəfəsində Osmanlı dövələti Azərbaycan xanlarını öz tərəfinə çəkmək üçün xüsusi səy göstərirdi. Gürcü knyazı Boran Polvandov 1786-cı ilin sentyabr ayında Çıldırdan II İrakliyə yazırdı: bir az bundan əvvəl bura İstanbuldan bir qapıçıbaşı gəlmiş o, özü ilə xəzinə, artilleriya, üstəlik Azərbaycan xanlarına və Dağıstan hakimlərinə paylamaq üçün 3 min çervon pul gətirmişdir. Azərbaycan xanları osmanlı sarayından təkidlə II İraklinin devrilməsini tələb edərək Osmanlıya sədaqətlə xidmət edəcəklərini bildirdilər.[57]

Lakin tezliklə Azərbaycan xanları arasında ixtilaf yenidən qızışdı. 1786-cı ilin oktyabrın 17-də İrəvan xanı II İrakliyə yazırdı ki, İbarhim xan bir qədər qoşun göndərmişdir ki, bir çox sakinləri İrəvan xanlığından Qarabağa köçürsün. Lakin onlar müqavimətə rast gəlib geri dönmüşlər.[56]

1786-cı il dekabrın 6-da Tiflisdə xəbər alınmışdı ki, 40 min dağıstanlı döyüşçü Fətəli xana və İbrahim xana qarşı mübarizəyə hazırlaşan Şəki xanına köməyə getmişdir.[57] Şəki xanının nümayəndəsi II İraklinin yanına gələrək İbrahim xana qarşı kömək istəmişdir. İrakli gözləyir ki, Andronikov Şuşadan qayıtsın, sonra İbrahim xanla mübarizəyə başlayacaq.[58]

Bəzi kitablarda Osmanlı sənədlərinə əsaslanaraq 1787-ci il yanvarın 23-də Çıldır valisi Süleyman paşanın Osmanlı sarayına göndərdiyi məktubda gürcü və rus qoşunlarının Naxçıvan üzərinə hücum etmələri, Şəmşəddin və Qazax azərbaycanlılarının öz yerlərindən sürgün edilmələri və Kartli-Kaxeti çarının hakimiyyəti altında olan digər Azərbaycan torpaqlarında da müsəlmanlara qarşı belə tədbir görüləcəyi barədə məlumat verdiyi qeyd olunur. Guya buna cavab olaraq, avar Ümmə xan azərbaycanlılardan və dağıstanlılardan ibarət qoşun təşkil edərək Gürcüstan üzərinə hərəkət edibmiş.[59] Ancaq Süleyman paşa saraya göndərdiyi, 1787-ci il 23 yanvar tarixli məktubunda bildirirdi ki, İrakli ilə İbrahim xan arasında ədavət olduğundan Qazax sakinləri Qarabağa cəlb və «telif» edilib.[60] Göründüyü kimi azərbaycanlılar öz yurdlarından qovulmamış, özləri köçmüşdülər.

Süleyman paşa daha sonra yazırdı ki, Azərbaycan tərəfindən bir çoxusu gəlib xəbər verib ki, İrakli qoşunla Qarabağa hücum etmək üçün Gəncə hüdudundakı Tovuz mahalına daxil olub. Fətəli xan da Şamaxıya gəlib, İrakli ilə İbrahim xana qarşı birgə mübarizə haqqında müqavilələri vardır. İbrahim xanla Fətəli xan arasında elçilər gedib-gəlməkdədir.[61] Süleyman paşanın yazdığına görə, Gəncəli Cavad xan da bir neçə min əs-gərlə İrakliyə qarşı 4 saat Şəmkir mahalında durub, Fətəli xanın hansı tərəfə hərəkət edəcəyi hələ aydın deyil.[62]

İbrahim xan məktublarla Mirzə Məhəmməd əfəndi və Əhməd ağa adlı şəxsləri Ərzurum və Çıldır valilərinin, Qars mühafizinin, Bəyazid mütəssərifinin yanına göndərmişdir.[63]

İbrahim xanın məktublarında deyilirdi ki, qapıçıbaşı Mehmed Salih bəy vasitəsilə ona və digər Azərbaycan, Dağıstan xanlarına göndərilən fərmanda onlara Osmanlı dövlətinin sərhəd paşaları ilə ittifaq etmək müsəlman vilayətlərindən hansı hər birinə basqın edən gürcü və rus qoşunlarının dəfi üçün birgə hərəkət etmək tapşırılır.[64] Xanın məktubunda daha sonra deyilirdi ki, İrakli bir miqdar rus və gürcü əsgəri ilə İrəvan tərəfə hərəkət edib, İrəvan xanını özündən asılı hala salıb, onun da qüvvəsini öz qüvvələrinə qatmaqla 8 min döyüşçü toplayıb Naxçıvan xanlığına hücum edib, sakinləri yağmalayıb, İbrahim xan qoşun göndərib, “kafir” məğlub edilib qovulmuşdur.[65]

Bu hadisənin ardınca İbrahim xan qazaxlı Əhməd ağanı göndərib «ülke-yi Kazak ve Şemseddinlüyü kendi mekamından kaldırıp han-i mumaıleyh üzerinine gelmiş olduğunu» yazırdı.[66] Məktubda daha sonra müxalif Xudadad xanın cəzalandırılmasından, Ümmə xanın Gürcüstana yürüşündən bəhs edilir, İrəvan xanına necə cəza verilməsi haqqında soruşulur,[67] həmçininn Fətəli xanın Rusiyanın himayəsini xahiş etməsindən bəhs edilirdi.[68]

Qeyd edək ki, İbrahim xanla İrəvan xanı arasında ədavəti aradan qaldırıb aralarını düzəltmək üçün Bəyazid sancağı mütəssərrüfi İshaq paşa İrəvanlı Məhəmməd xana məktub yazmışdır. Xanın mütəssərifə cavab məktubunda deyilirdi ki, o, Tiflis xanı ilə dostdur və onunla razılıq olmadan İbrahim xanla yaxınlaşa bilməz.[69]

İbrahim Xəlil xan 1787-ci ildə (1201 h.) Mehmed əfəndi adlı bir şəxslə Osmanlı sarayına göndərdiyi məktubda da həmin məlumatları təkrar xəbər verirdi. Süleyman paşa II İrakli ilə İbrahim Xəlil xan

arasındakı ədavət nəticəsində İraklinin qoşunla Qarabağ xanın üzərinə hərəkət edərək Gəncə hüduduna gəldiyini, avar xanının İbrahim xana yardım göndərdiyini yazır. Fətəli xanın hansı tərəfə meyl edəcəyi məlum olmadığını bildirirdi.[70]

İlk mənbələrin məlumatları 1787-1791-ci illər Rusiya-Osmanlı müharibəsi ərəfəsində əksər Azərbaycan xanlıqlarının Rusiyaya deyil, Osmanlı dövlətinə rəğbət bəslədiyini sübut edir. Uzun illər Kartli-Kaxeti çarlığında Rusiya hökumətinin nümayəndəsi olmuş polkovnik Burnaşov 1786-cı ildə tərtib etdiyi məlum əsərində yazırdı ki, bütün müstəqil Azərbaycan xanları Rusiyanın onları hakimiyyətdən məhrum edəcəyindən qorxaraq çox narahat olurlar və bu təhlükə onları rusların Gürcüstanda möhkəmlənib öz təsirlərini yaymasının qarşısını almaq üçün Osmanlı dövləti ilə razılığa gəlməyə vadar edir.[71] S.Burnaşov hətta Rusiyaya ən çox müsbət münasibət bəsləyən Qubalı Fətəli xanın da qəlbən Türkiyəyə rəğbət bəslədiyini, yalnız mülkəri Rusiyaya daha yaxın olduğundan rus işğalına məruz qalmamaq üçün üzdə Rusiyaya meyl nümayiş etdirdiyini yazırdı.[72] Burnaşov həm də qeyd edirdi ki, aralarında ədavət olduğundan Azərbaycan xanları Gürcüstan və Cənubi Qafqazdakı rus mənafeləri üçün təhlükə təşkil edə bilməzlər.[73]

Ərdəbil və Qarabağ xanları 1786-87 (1200 h.)-ci illərdə Çıldır hakimi Süleyman paşaya yazırdılar ki, Rusiya ilə ittifaqa girib Dövləti Aliyyəyə təcavüz niyyətində olan II İrakliyə qarşı istənilən zaman Şərq sərəsgərliyinin başçılığı altında müharibəyə girməyə hazırdılar.[74]

1786-87-ci illərdə II İraklinin təcavüzkar niyyətləri haqqında Azərbaycan xanlarına və Dağıstan hakimlərinə Osmanlı hökumətindən göndərilən məktublara cavab məktublarında xanlar və Dağıstan hakimləri Osmanlıya sədaqətdə davam etdiklərini bildirmişdilər.[75] Xanlara və Dağıstan hakimlərinə pul və həddiyyələr göndərilmişdi.[76] Çıldır valisi Süleyman paşa sədarətə yazırdı ki, II İrakliyə qarşı hərb başlayarsa, ətraf xanları bu hərbi əməliyyatlarda iştirak etməyə hazırdılar.[77]

1787-ci ilin dekabr ayında İrəvanlı Məhəmməd xanın elçisi Zeynalabdin bəy təhriratla İstanbula gəlmişdi. Elçilər səmimi qarşılanmış, onlara 290 quruş xərclik verilmişdi.[78]

II İraklinin rus komandanlığına yazdığı məlumata görə, İbrahim xan öz nümayəndəsi Həzrətqulu bəyi və bir müddət yanında girov sifətilə saxladığı knyaz Andronikovu Tiflisə göndərib bildirmişdir ki, o, gəncəlilərə Cavadın xan taxtına çıxaracağını vəd etmişdir. Və vədini poza bilməz, əvəzinə Cavadın Gəncə xanlığının gəlirinin yarısının II İrakliyə göndərəcəyinə təminat verir. İbrahim xan Şəmkir çayı vadisinin bütünlüklə İrakliyə çatmasına razı olduğunu, İrəvana iddiası olmadığını yalnız, ondan qoparılmış Kolin adlı yerin ona qaytarılmasını istədiyini yazırdı.[79]

1786-cı ilin sonu-1787-ci ilin əvvələrində artıq Osmanlı-Rusiya münasibətləri xeyli gərginləşmişdi. Qafqazda həmsərhəd Osmanlı qalalarına, o cümlədən Axısqaya (Çıldıra) yaxın zamanda Rusiya ilə müharibənin başlanğıcı haqqında Sultan fərmanı göndərilərək 52 min nəfərlik osmanlı qoşununun Arpaçaya yeridiləcəyi xəbər verilirdi. Çıldır valisi Süleyman paşa sərəsgər təyin olunmuşdu.[80]

Eyni zamanda bir nəfər qapıçıbaşı ilə Bəyazid vasitəsilə Azərbaycan və Dağıstana 80 min çervon və 30 xalat göndərildi.[81] Osmanlı Sultanı İ Əbdülhəmid 1787-ci ilin fevralında Qarabağ xanı İbrahim Xəlil xana məktub göndərmişdi.[82] Məktubda İbrahim Xəlil xana Rusiyaya qarşı vuruşmağa hazırlaşmaq təklif olunur və eyni zamanda onun bu məqsədlə Şəki xanı Məhəmmədhəsən xana, Təbrizli Xudadad xana, Ərdəbilli Əli xana, Qubalı Fətəli xana, İrəvanlı Məhəmməd xana, Marağalı Əhməd xana, Xoy xanına və başqalarına müraciət etməsi təkid edilirdi.[83]

### *5. II Rusiya-Osmanlı müharibəsi zamanı (1787-1791) Azərbaycan xanlarının mövqeyi*

XVIII yüzilliyin 80-ci illərinin ortalarından Rusiyanın Osmanlı dövlətinə basqısı yenidən güclənir. Avropada beynəlxalq şərait də rusların xeyrinə idi. Məlum olduğu kimi, XVIII yüzilliyin 60-cı illərinin ortalarından 80-ci illərin ortalarına qədər İngiltərə dəfələrlə ittifaq təklifi ilə Rusiyaya müraciət etmiş, hətta Aralıq dənizində İspaniyadan qopardığı Minorka adasını Rusiyaya təklif etmişdi.[1] 70-ci illərin ortalarından özünün Şimali Amerikadakı müstəmləkələri, eyni zamanda Fransa və Hollandiya ilə müharibə vəziyyətində olan İngiltərə Rusiyanın dəstəyinə ehtiyac hiss edirdi. Rusiyanı öz tərəfinə çəkmək üçün ingilis diplomatiyası imperatriçənin böyük həvəs göstərdiyi «türkləri Avropadan qovmaq və Yunan imperiyası» yaratmaq ideyasını dəstəkləməyə başladı.[2] İngiltərə həmçininn Rusiya-Avstriya yaxınlaşmasına kömək etməyə başladı, çünki bu Avstriyanın öz müttəfiqi Fransa ilə münasibətlərinin pisləşməsinə səbəb ola bilərdi. 1781-ci ilin yazında bağlanmış Rusiya-Avstriya ittifaq müqaviləsi ilə Osmanlı imperiyasının Rusiyaya hücumu təqdirində Avstriya Rusiyaya hərbi yardım göstərməyi öhdəsinə götürürdü.[3] Beləliklə, 1783-cü ildə Rusiyanın Krımı tutması Avropada kəskin müqavimətə rast

gəlmədi. Yalnız Fransa əvvəlcə etiraz etsə də, son nəticədə Krımın Rusiyaya ilhaqı ilə barışmalı oldu. Osmanlı türkləri barışmaz mövqe tutsaydı, Rusiya bundan istifadə edib Şərqdə işğallarını genişlərdirə bilərdi. Bu isə Fransanı qorxurdurdu. Ona görə də İstanbuldakı fransız səfiri Sen-Pri Avstriya nümayəndəsi Herbertlə birlikdə Osmanlı hökumətini 1784-ci ilin yanvarın 8-də Krımın Rusiya tərəfindən ilhaqını tanıyan konvensiyanı imzalamağa təhrik etmişdi.[4] Beynəlxalq şəraiti özü üçün əlverişli sayan Rusiya Osmanlı imperiyasına qarşı işğalçılıq ehtiraslarını alovlandırmaqla idi.

1784-cü ildə Londonda milliyyətcə yunan olan Abeşinin Osmanlı imperiyasının vəziyyətinə həsr olunmuş kitabı çapdan çıxmışdı. Abeşi ehtimal edirdi ki, Rusiya ilə II İrakli arasındakı gizli sövdələşməyə görə, Rusiya II İraklinin İran taxtına yiyələnməyinə kömək etməli, əvəzində Gürcüstan Rusiyanın hakimiyyəti altına keçməli idi. [5] Abeşi Rusiyanın xarici siyasətinin İstanbulu tutmağa yönəldildiyini bildirirdi. Müəllif yazırdı ki, əgər digər dövlətlər ona qarşı birləşməsələr, Rusiya Osmanlını əzər, o bundan ehtiyat edərək, Avropadakı ərazilərini könüllü surətdə Rusiyaya güzəştə gedə bilər. Bu isə Avropada qüvvələr tarazlığını pozar.[6]

1785-ci ildə II Yekaterina ilə fransız maarifçisi Volterin yazışmasının dərc edilməsi Avropada Yaxın Şərq problemlərinə marağın xüsusilə artmasına səbəb oldu. Rusiya imperatriçəsi Avropa ictimai fikri qarşısında Avropanı türklərdən qoryan xilaskar və Yunan imperiyasının yaradıcısı kimi çıxış edirdi.[7]

1787-ci ilin əvvələrində II Yekaterinanın Krıma təntənəli səfəri də ehtirasları bir qədər də qızışdırdı. 1788-ci ildə isə Londonda fransız yazıçısı, Şərqin bilicisi Volneyanın «Türklərin müasir müharibəsi haqqında mülahizələr» adlı kitabı çapdan çıxmışdı. Kitab Avropa ictimayyətinin diqqətini Osmanlı imperiyasını bölüşdürmək haqqında Rusiya və Avstriyanın layihəsinə cəlb edirdi. Volneya türklərin Avropadan çıxarılmasını «mütərəqqi iş» sayır və hesab edirdi ki, Rusiya bu işi yerinə yetirə bilər. Kitabda Osmanlı dövlətinin bölüşdürülməsinə dair nəfis xəritə verilmiş, xəritəni bəzəyən sütunvari şəkildə ikibaşlı qartal, onun çaynaqları altına düşmüş aypara təsvir olunmuşdu.[8]

Kitab Avropada böyük əks-səda doğurdu. O zamankı Avropanın bir çox siyasi xadimləri belə işğalçılıq ideyalarına qarşı çıxış etdilər. Məşhur ingilis siyasi öndəri Kiçik Pit parlamentdəki çıxışlarında Rusiyanın İstanbula dair işğalçılıq planları, onun Misirə iddiaları, Hindistanı hədələməsi barədə danışdı.[9]

Krımın ilhaqını rəsmiləşdirdikdən sonra Rusiya əsas diqqətini Cənubi Qafqaza yönəldir. Əhməd Cövdət paşa yazır ki, 1786-1787-ci illər ərzində Gürcüstan məsələsi ilə bağlı uzun mübahisələr getmişdi. Rusiya dağıstanlıların Gürcüstana basqınlarının dayandırılmasını tələb edir, osmanlı hökuməti isə Rusiyanın Gürcüstana hüquqlarını tanımaq istəmirdi. Əhməd Cövdət paşanın yazdığına görə, 1787-ci ildə Rusiya ilə Osmanlı arasında müharibənin başlanması üçün başlıca səbəb məhz Gürcüstan məsələsi olmuşdur [10]

Müharibə başladıqdan sonra Süleyman paşaya göndərilmiş fərmanda deyilirdi ki, Azərbaycan xanları və Dağıstan hakimlərini birləşdirib, II İraklini cəzalandırmaq lazımdır. Onların bir hissəsi Qızlara hücum etməli idi. Silahdar Mehmed Saleh ağa fövqəladə səlahiyyətlərlə Dağıstana göndərilmişdi.[11] Ümmə xan üçün Gürcüstana daxil olmaq, ruslara basqınlar etmək, Ananur yolunu dağıtmaq çətin deyildi. Lakin Qızlara yürüş çeçenlərlə danışıqlardan asılı idi. Ümmə xan bu barədə Saleh bəyə şifahi, Süleyman paşaya yazılı bildirmişdi. Süleyman paşa Gürcüstana basqında ona kömək etmək üçün Ümmə xanı öz yanına çağırdı.[12] Sultan bir hacıbaşını Dağıstan hakimlərinin ... və Qarabağ xanı İbrahimin yanına çoxlu hədiyyələr və pulla göndərərək onları Rusiya əleyhinə yönəltməyə çalışırdı. [13] Osmanlı hökuməti hərbi əməliyyatlarda çıxış edəcək hər kəsə 40 quruş verməyi öhdəsinə götürürdü. Lakin bu dövrdə Azərbaycan xanları arasında kəskin ara mübahisələri getdiyindən onların Rusiyaya qarşı çıxmaları demək olar mümkün deyildi. 1787-ci ildə Ərzurum və Çıldır valiləri, Qars mühafizi və Bə-yazid mütəssərifləri adından İstanbula göndərilən məktubda xanlar arasında ixtilafların mövcudluğundan bəhs edilir. II İraklinin gürcü və ruslardan ibarət olan qoşunla İrəvan üzərinə hücum etməsi, əhalisini özünə tabe edərək, buradan da döyüşçülər yığaraq Naxçıvan üzərinə hərəkət etməsi xəbər verilirdi. Naxçıvanda II İraklinin əsgərləri kütləvi qırğın törədib qarətə keçmişdilər.[14]

Ümmə xan Osmanlı sarayına məktub göndərərək, əmrinə tabe 30 mindən çox döyüşçüsü ilə Sultanın qulluğuna müntəzir olduğunu bildirir, həm də göstərə biləcəyi xidmətlər barədə təklif edirdi ki, ona Qızlar qalası tərəfə hərəkət etmək daha münasibdir, lakin II İrakli Ananur yolu ilə rus əsgərlərini Cənubi Qafqaza keçirməyi düşündüyündən bu yolun dağıdılması və Tiflis tərəfini viran edilməsi əmr olunarsa, o bunu edər. Sultan İ Əbdulhəmid Tiflisi «kabzai tasarrüfü-mülk eylemek» üçün bu bölgəyə hücum əmrini vermişdi. Daha sonra Canqutay hakimi Əhməd xan, Şamxal, Usmi, Akuşa kadisi, Tabasaran hakimi, Şeyx Rza əfəndi və bir sıra başqa dağıstanlı hakimləri də bu çağırışa qoşulduqlarını bildirmişdilər. Lakin

Çıldır valisi Süleyman paşa hədiyyələr verərək, carlı və dağıstanlı döyüşçüləri geri göndərmişdi.[15] (Səma İşıktan Süleyman paşanın öz şəxsi mənfəətlərinə görə belə hərəkət etdiyini yazır).[16]

Osmanlı hökuməti Azərbaycandakı vəziyyət haqqında dəqiq təsəvvür əldə etmək üçün bura xüsusi casuslar göndərirdi. Belə casuslardan biri II İraklinin Qarabağa hücum etmək niyyətində olduğu və bu məqsədlə Qubalı Fətəli xanla anlaşdığını bildirirdi. Mənbədə həmçininn Qarabağ və İrəvan xanları arasında soyuq münasibətin mövcud olması qeyd edilirdi.[17]

1787-ci ilin iyununda Sultandan Xoy xanlığının yeni hakimi Hüseynqulu xana göndərilən fərmanda deyilirdi: İrandakı başsızlıq ucbatından Tiflis valisi (II İrakli-T.M.) rusları Azərbaycanı və bizim torpaqları qarət etməkdə yardım göstərmək üçün dəvət etmişdir. Lakin o unutmuşdur ki, bizim hakimi olmayan dövləti qorumağa ixtiyarımız var. Biz heç zaman İranın tarmar olunması ilə razılaşa bilmərik. Odur ki, Bağdad, Van və Muşun rəislərinə əmr etmişik ki, sizə qoşun gərək olsa, göndərsinlər, əgər Tiflis valisi sərhəddi keçmək fikrinə düşsə, o zaman Ərzurum paşası Mustafa kömək edəcəkdir». Xoy xanına 1500 çervon məbləğində pul və kürk göndərilmişdi.[18]

Osmanlı imperiyasının bəzi sərhəd paşalarının xəyanətkar hərəkətləri ruslara və gürcülərə osmanlıların niyyətindən xəbər tutmağa və önləyici tədbirlər görməyə imkan verirdi. 1787-ci ildə Qars paşası onun yanında olmuş Helim Sincikov adlı birisinə aşağıdakı məlumatı gizli surətdə II İrakliyə çatdırmağı əmr etmişdi: Sultan Ərzurum paşasını sərəskər təyin etmişdir; Ərzurum, Çıldır, Bəyazid, Van, Diyarbəkir, Muş paşalarına əmr olunmuşdur ki, Gürcüstana qarşı birgə hərəkət etsinlər. Qarabağ, Təbriz, İrəvan xanlarına pul göndərilərək, birləşmələri əmr olunmuşdur. Qubalı Fətəli xanın yanına da elçi göndərilmişdir, lakin Qars paşası Fətəli xanın bu təkliflə razılaşıb-razılaşmadığını hələlik bilmir. Paşa Ümmə xanın dalınca qasid göndərildiyini də söyləmişdi. Sincikov Qızılağac adlı yerdə doğrudan da Ümmə xanın qasidini və Osmanlı çuxadarını gördüyünü bildirmişdi. Onlar Ümmə xanı çağırmağa getdiklərini gizlətmirlərmiş.[19] 1787-ci il iyunun 19-da S. Burnaşovun P.S.Potyomkinə göndərdiyi məktubda Sultanın Azərbaycan xanlarına fərman göndərdiyi təsdiqlənirdi. Məktubda deyilirdi: «Çarın yeni məlumatlar əldə etmək məqsədilə İrəvana göndərdiyi knyaz Çavçavadze bildirmişdir ki, Sultandan Azərbaycan xanlarına göndərilən fərmanda, Sultanın onları həmişə müdafiə edəcəyi, İrəvan şəhəri Azərbaycana mənsub olduğu üçün onu heç zaman Gürcüstanın tabeyilində olması ilə razılaşmayacağı bəyan edilirdi. Sultan Ərzurum paşasına və digər sərhəd paşalarına nəyin bahasına olursa-olsun rus qoşunlarının qarşına çıxmalarını tapşırılmışdı. Çavçavadzenin məlumatında həmçininn deyilirdi ki, Ümmə xan, İbrahim Xəlil xan və digər Azərbaycan xanlıqları əbədi olaraq İrəvanı Kartli-Kaxeti çarlığının təqibindən azad etmək üçün birləşmişlər».[20] Bu xəbərlə əlaqədar olaraq S.Burnaşov P.S.Potyomkindən həmin xanlıqların qüvvələri İrəvana yaxınlaşarsa necə hərəkət etmək barədə təlimat, hərbi əməliyyatlara əl atmağa icazə istəyirdi.

Cənubi Qafqazda siyasi vəziyyət mürəkkəb idi. Cənubi Qafqaz və Dağıstan feodalları Rusiyaya sədaqətlərini izhar etsələr də, onun himayəsini qəbul etməyə tələsmirdilər. Onlar böyük dövlət kimi Rusiyadan ehtiyatlanır, amma dinbir və etnik cəhətdən qohum Türkiyəyə daha çox meyl edirdilər. Xanlar vəziyyətin necə şəkil alacağını gözləyirdilər. Dağıstan hakimləri və Azərbaycan xanları ilə saziş bağlamaq haqqında təlimat Qarabağlı İbrahim Xəlil xana aid edilmirdi. Onun nümayəndəsi Musa xana Peterburqda böyük ehtiram göstərilsə də, rus diplomatiyası onunla münasibətdə qeyri-müəyyənliyə üstünlük verirdi. Çünki ilk növbədə Qarabağ xanlığının torpaqları hesabına Ermənistan dövləti yaratmaq niyyəti ilə İbrahim Xəlil xana yaxınlaşmaq bir-birinə uyğun gəlmirdi. Xoylu Əhməd xanın ölümü İbrahim xanın mövqeyini bir qədər zəiflətmiş, İraklinin mövqelərini isə gücləndirmişdi. 1786-cı ilin yayında İbrahim xanı Fətəli xan və Şəki xanının ittifaqı hədələyirdi. Artıq nesənci dəfə idi ki, Qarabağa qarşı yürüş hazırlanırdı. İbrahim xan II İraklidən kömək istədi, lakin çar onu Gəncənin idarə olunmasında şəriklikdən uzaqlaşdırıldığına görə İbrahim xandan narazı idi. II İrakli Cənubi Azərbaycanda da möhkəmlənməyə (bu regionun Qubalı Fətəli xanın nüfuz dairəsinə daxil edilməsinə baxmayaraq) çalışır, Xoy, Urmiya və Təbriz xanlıqlarına öz casuslarını göndərirdi.[21]

1786-ci ilin sonundan İbrahim xanla İrakli arasında münasibətlər artıq açıq düşmənçilik xarakteri daşıyırdı. 1787-ci ilin əvvələrində 6 min döyüşçüsü olan İrakli S.D.Burnaşova Qarabağa birgə yürüş etməyi təklif etmişdi. Burnaşov Qarabağın «İran ərazisi» olduğunu bəhanə edərək yürüşdə iştirak etməkdən imtina etmişdi.[22]

İrakli İbrahim Xəlil xanla mübarizədə ermənilərə arxalanırdı. S.Burnaşov 1787-ci ilin sentyabrında P.S. Potyomkinə yazırdı ki, uzun illər İbrahim Xəlil xana ədavət bəsləyən məliklər - Abo və Məlik Məclum açıq qiyam qaldırmışlar. Onlar öz qəsrləirində gizlənərək İraklidən Gürcüstana köçməyə icazə istəmişlər. Gəncə xanlığı ərazisində yaşayan ermənilər də məlik Mixailin başçılığı ilə Gürcüstana keçmək

niyyətində idilər.[23] Öz növbəsində İbrahim xan II İrakliyə qarşı mübarizədə Osmanlı hökümətinin dəstəyinə nail olmaq istəyirdi. 1787-ci ilin iyununda İbrahim Xəlil xanın osmanlı Sultanına yazdığı məktub II İraklinin əlinə keçmişdi. Xan Sultana yazırdı ki, əgər Sultan yardım göstərərsə, din düşmənlərini darmadağın edər.[24]

Rus və gürcü qoşunlarının Qarabağa xaç yürüşündə məqsəd İbrahim Xəlil xanı devirmək, Qarabağın xristian məliklərinin başçılığı ilə burada xristian dövləti yaratmaq idi. Lakin Rusiya-Osmanlı müharibəsi başladıqdan sonra Rusiya qoşunlarının Cənubi Qafqazı tələsik tərk etməsi bu məqsədin həyata keçirilməsinə imkan vermədi. Onların düşərgəsinə gəlmiş məliklər də rus qoşunları ilə birlikdə qaçmalı oldular.[25] Rusiya-Osmanlı müharibəsi ərəfəsində və gedişində Osmanlı dövləti tərəfindən təkcə Azərbaycan xanlıqlarına deyil, ümumiyyətlə Cənubi Qafqazın müsəlman əhalisinə böyük ümid bəslənilir,[26] müharibədə iştirak edəcək Cənubi Qafqaz müsəlmanlarına adam başına 20 quruş pul ayırılması nəzərdə tutulurdu. Sultanın əmri ilə Çıldır paşası bir neçə Azərbaycan xanına məktub göndərib müharibədə Osmanlı dövləti tərəfində vuruşmağın zəruriliyini izah edirdi.[27]

Çıldır valisi Süleyman paşanın Osmanlı sarayına göndərdiyi 1787-ci il oktyabr tarixli məlumatda Sultanın müraciətindən sonra Dağıstanlı Ümmə xanın 30 min nəfərlik ordu topla-yaraq Rusiya üzərinə hücuma keçmək üçün[28] hazırlaşdığı qeyd olunurdu.

1781-1791-ci illərdə baş vermiş Rusiya-Osmanlı müharibəsində Azərbaycan xanlıqları tərəfindən Osmanlı dövlətinə bilavistə hərbi yardım edilməsi haqqında məlumat yoxdur. Lakin 1787-ci ilə aid sənəddən Çıldır valisi Süleyman paşanın Azərbaycan və Dağıstandan göndəriləcək əsgərlər üçün hərbi təchizat («top ve mühimat») tədarükü ilə məşğul olduğu aydınlaşır.[29]

Osmanlı dövləti ilə müharibənin yaxınlaşması Rusiya üçün də bu müharibədə Cənubi Qafqazın rolu məsələsini ortaya qoydu. Əlavə qüvvələr göndərib Cənubi Qafqazda hərbi əməliyyatlara meydan açmaq o zaman Rusiyanın real imkanlarına uyğun gəlmirdi. Donanmanın inşası hələ başa çatmamışdı, Cənubi Qafqazla əlverişli nəqliyyat yolları yox idi, ərzaq hətta Gürcüstanda yerləşmiş kiçik hissələrə belə çatmırdı, dövlətin maliyyə imkanları da məhdud idi.

Rusiya hökuməti hərbi qüvvələri özünün sağ cinahında toplayıb, sol cinahda başlıca olaraq siyasi vasitələr (Qafqaz hakimlərini Rusiyanın himayəsi altına almaq) tətbiq etməyi planlaşdırırdı. İmperatriçə Q.A.Potyomkinə fövqəladə səlahiyyətlər vermiş, ona Qafqaz hakimlərini Rusiya himayəsinə cəlb etməyi tapşırmışdı.[30]

Q.A.Potyomkin Dağıstan feodallarından «Zemski qoşunları» (milis) təşkil etməyə girişdi. Bu qoşunların yaradılması daha çox dağlı feodalları asılılıqda saxlamaq məqsədi güdürdü. Həmin qoşunun saxlanması üçün xeyli pul ayrılmışdı. Hakimlərə 120 rubl, döyüşçülərə isə 50 rubl verilməli idi. Rus komandanlığı Ümmə xana xüsusi diqqət göstərirdi. Gürcü qoşunlarının təşkili üçün də 60 min rubl pul ayrmışdı.[31]

Görünür rus komandanlığı hərbi qüvvələri artırmadan Cənubi Qafqazda Gürcüstanın hegemonluğuna nail olmaq xəttinin yanlışlığını başa düşmüşdü. Əgər 70-ci illərdə Rusiya Gürcüstanı osmanlılarla ilə müharibəyə cəlb etməyə tələsirdisə, indi əsas diqqət onun müdafiəsinə yetirilirdi.[32]

Rusiya komandınlığı Qubalı Fəətəli xana da xüsusi diqqət yetirirdi. P.S.Potyomkin 1785-ci ilin sonlarında Fətəli xanın məktubunu şəxsən özü Q.A.Potyomkinə vermiş, xanın elçisi Hacı İbarhimi Peterburqa yola salmışdı.[33]

Rus diplomatiyası Fətəli xanla II İraklini barışdırmağa çalışırdı. Rusiyanın böyük ümidlər bəslədiyi Əlimurad xan öldükdən sonra Fətəli xanın Cənubi Azərbaycanda hərəkətlərinə mane olmaq zərurəti aradan qalxmışdı. Q.A.Potyomkin Fətəli xanı digər Azərbaycan xanlarından ayıraraq II Yekaterinaya yazırdı ki, «digər xanlarla siyasi əlaqələrinə və xeyli geniş mülklərinə görə» Fətəli xan xüsusi diqqətə layiqdir. P.S. Potyomkin də Fətəli xan haqqında bu cür fikirdə idi və güman edirdi ki, əgər o, Rusiyanın himayəsi altında İrana yiyələnərsə Bakı və Dərbəndi Rusiyaya güzəştə gedə bilər.[34] P.S. Potyomkin özü 1787-ci il avqustun 25-də Fətəli xana onun Gürcüstan və Rusiyanın hakimiyyəti altında olan digər xalqlara münasibətdə əsl xeyirxah kimi hərəkət edəcəyinə şübhə etmədiyini yazırdı.[35] Quba xanından təkidlə «ümumi xeyir» naminə İrakli ilə birləşməsini xahiş edirdi.[36] Tiflis taciri S.Yevanqulov həmin məktubu Fətəli xana çatdırmış, lakin geri qayıdarəkən yolda öldürüldüyünə görə Fətəli xanın P.S. Potyomkinin məktubuna necə cavab verdiyi məlum deyildir.[37] Deyəsən, müsbət cavab olub, çünki 1787-ci ilin martında Fətəli xanın elçisi Mirzə Rəhimin Tiflisə getdiyi haqqında məlumat vardır. İrakli gürcü diplomatı Qriqori Sisyanovla (Fətəli xan onu Qurgen bəy adlandırır) cavab məktubunu Fətəli xana yolladı. Fətəli xan Sisyanovu yaxşı qəbul etmiş, Rusiya himayəsində olduğu üçün Kartli-Kaxeti çarlığı ilə ittifaqa razı olduğunu bildirmişdi. Xan öz növbəsində nümayəndəsi Hacı İbrahim bəyi Sisyanovla

birlikdə Tiflisə göndərmişdi.[38] Beləliklə, 1787-ci ildə 30 illik düşmənçilikdən sonra Quba xanlığı ilə Kartli-Kaxeti çarlığı arasında ittifaq bağlandı.

Bu müqavilə əsasən İraklinin xeyrinə idi. Belə ki, Fətəli xanın Cənubi Azərbaycanda hərəkət etməsinə verilən azadlıq əslində onun hərəkətinin İraklinin xeyrinə olması, digər xanları Gürcüstana hucüm etməkdən çəkindirməsi barədə üstünə götürdüyü öhdəlik idi.[39] Digər tərəfdən isə İranda Ağa Məhəmməd xanın hakimiyyəti ələ aldığı, Cənubi Azərbaycan xanlıqlarına yaxınlaşdığı bir zamanda «hərəkət azadlığının» Fətəli xan üçün bir əməli xeyri yox idi. 80-ci illərin əvvələrində Fətəli xanın Cənubi Azərbaycan torpaqlarını öz xanlığına birləşdirmək təşəbbüsünə çox mənfi yanaşan Rusiya indi artıq Ağa Məhəmməd xanın çox gücləndiyi və Rusiyanın hələlik ona qarşı çıxmaq imkanı olmadığı bir dövrdə Fətəli xanın əli ilə onun irəliləməsinin qarşısını almağa çalışırdı. Bu isə Fətəli xan üçün çox təhlükəli idi. Quba xanlığının Kartli-Kaxeti ilə bu ittifaqının Azərbaycan üçün başqa bir mənfi cəhəti də var idi ki, o da onun Qarabağlı İbrahim Xəlil xana qarşı yönəlməsi idi. Bu ittifaq İrakliyə Gəncəni tutmaq, yaxud heç olmasa xanlıq ərazisinin bir hissəsini ələ keçirmək, Qarabağın xristian məliklərinə xanın itaətindən çıxmaq ümidi verirdi. İttifaq Rusiyanın Cənubi Qafqazdakı mövqelərini möhkəmləndirir, onun Osmanlı dövlətinə və Ağa Məhəmməd xana qarşı mübarizəsini yüngülləşdidirdi.

Kartli-Kaxetinin müdafiə etmək imkanı olmayan rus diplomatiyası Cənubi Qafqazdakı gərginliyi azaltmaq üçün İrakliyə Çıldır paşası Süleymanla danışıqlara girməyi tövsiyə etdi. Osmanlı hökuməti də Kartli-Kaxetini Rusiyadan ayıra biləcə-yinə ümid edərək, danışıqlara başlamaq təşəbbüsünə müsbət cavab verdi. Lakin osmanlılar rus qoşunlarının Gürcüstandan çıxarılmasını sülh üçün ilkin şərt kimi qoydular. İrakli buna razılaşmadığından onunla Osmanlı hökuməti arasında danışıqlar baş tutmadı. Süleyman paşa İrakliyə bir-birinə hücüm etməmək haqqında separat saziş bağlamağı təklif etdi. Rus diplomatiyası Süleyman paşanı Sultana qarşı qiyama qaldırmağa sövq etmək fikrinə düşdü, lakin buna nail olmadı. Süleyman paşa ilə II İrakli arasında xatırlanan məzmunda saziş bağlandı.[40]

Bir müddət sonra, Gürcüstanda hərbi qüvvələr saxlamağın onun üçün əlavə problemlər yaradacağını düşünən Rusiya hökuməti özü qoşunlarını buradan çıxardı.

1787-ci il sentyabrın 13-də P.S. Potyomkinin rus qoşunlarını dərhal Gürcüstandan çıxarmaq barədə əmri gəldi. İrakli P.S. Potyomkinin yanına çapar göndərərək, rus batalyonlarının heç olmazsa yaza kimi Gürcüstanda qalmasını xahiş etdi, lakin bu, bir nəticə vermədi. Çünki Potyomkin əmri icra etdiyini, buna görə də heç bir yeni sərəncam vermək səlahiyyətində olmadığını bildirdi.[41]

Rus hərbi dəstəsi Tiflisi tərk etsə də II İrakli hələ də Azərbaycan xanlıqlarına qarşı işğalçılıq niyyətindən əl çəkməmişdi.

Gah osmanlıların, kah da iranlıların Gürcüstana hücum edəcəkləri haqqında yayılan şayiələri bəhanə edən II İrakli Georgiyevsk müqaviləsinə əsasən 1787-ci il 22 noyabr tarixdə rus Qafqaz xəttindəki rus qoşunlarının komandanı A.A.Təkəllidən yardım istəmişdi.[42] İrakli rus qoşunlarınının yardımı ilə nəinki özünü müdafiə etmək, hətta Azərbaycan xanlıqları barəsində çoxdan bəslədiyi işğalçılıq niyyətlərini həyata keçirmək istəyirdi. Onun bu niyyətinin qarşısını almaq üçün 1787-ci il noyabrın 26-da İrəvanlı Məhəmməd xan öz elçisi Zeynalabdin bəy vasitəsilə Osmanlı Sultanından yardım xahiş etmişdi.[43] O, vəziyyətin ciddiliyini və müraciətinin əhəmiyyətini əsaslandırmaq üçün İrəvanı «al Rum"un (Türkiyənin-T.M.) kilidi ve Azerbaycanın derbendi» adlandırmışdı.[44]

Rus batalyonlarının Gürcüstandan çıxarılması və knyaz Potyomkinin başçılığı ilə rus qoşunlarının İstanbula tərəf hərəkət etməsi haqqında qəsdən buraxılan şayiələr öz nəticəsini verdi. Osmanlı tərəfi Cənubi Qafqazda cəbhə açmayaraq, əsas diqqəti Avropadakı ərazilərə yönəltdi.

1787-1791-ci illər Rusiya-Osmanlı müharibəsi ərəfəsində və müharibə dövründə Türkiyə Qafqazın müsəlman əhalisinə böyük ümid bəsləyirdi. Hələ 1783-cü ildə Sucuqqalaya (Novorossiysk) osmanlıların üç hərbi gəmisi yan almış və min nəfərdən artıq əsgər sahildə düşərgə salmışdı. Onlarda bir neçə top və xeyli silahdan ibarət ehtiyat var idi. Onların məqsədi bu silahları Qafqaz əhalisinə paylamaq və onlardan ruslar əleyhinə müttəfiq kimi istifadə etmək idi.[46]

Rusiya-Osmanlı müharibəsi başladıqdan sonra Sultan Azərbaycan xanlarına və Dağıstan hakimlərinə fərmanlar göndərərək, «Moskov keferesi üzerine sefer-i humayun tertib edildiyini» xəbər vermiş, onların Kuban xanı Şahbaz Gəray xanla birlikdə səfərə qatılmalarını əmr edirdi.[47] Bu xüsusda Qarabağlı İbrahimxəlil xana göndərilən 1788-ci il 17 fevral (İ cümadəaxer 1202 h.) tarixli fərmanda onun Osmanlı himayəsində olduğu xatırlanırdı.[48] Eyni məzmunlu fərmanlar Şəkili Məhəmmədhəsən xana, İrəvanlı Məhəmməd xana, Təbrizli Xudadad xana, Ərdəbilli Nəzərəli xana, Xoylu Hüseynqulu xana, Urmiyalı Məhəmmədqulu xana, Qubalı Fətəli xana, Qaradağlı Mustafaqulu xana və Dağıstan hakimlərinə göndərilmişdi.[49]

Bir sıra Azərbaycan xanlarının elçiləri bu fərmandan sonra Bəyazid mütəsərriflərinin yanına gəlmiş, Osmanlı Sultanına sədaqətlərini izhar etmişdilər.[50] Qarabağ xanlığından Mirzə Məhəmməd gəlmiş, ona 300, onu müşayiət edən şəxsə isə 200 quruş yol xərci verilmişdi.[51]

Osmanlı dövləti Quba xanlığının strateji mövqeyinə böyük əhəmiyyət verirdi. 1787-ci ildə tərtib olunmuş bir rəsmi sənəddə «ol havalilerde Moskovluya sedd olacak Feth Ali handan qayri küvvetli kimsenin» olmadığı qeyd olunurdu.[52]

Çıldır valisi Süleyman paşa 1786-87-ci il tarixdə (1202 h) Sultana göndərdiyi təhriratda sevinclə bildirirdi ki, Avarlı Ümmə xan və Qarabağlı İbrahimxəlil xanla Qubalı Fətəli xan arasındakı ədavət aradan qaldırılmış və onlar, lazım gələrsə, Kartli-Kaxeti üzərinə birgə hərəkət etməyi razılaşdırmışlar. Sultan İ Əbdülhəmid təhriratın üzərinə belə bir dərkənar qoymuşdu ki, Çıldır və Ərzurum valilərinə bu barədə yazılsın və qeyrət göstərmələri tövsiyə olunsun.[53]

Sultan III Səlimin (1789-1807) yəqin ki, 1789-cu ilin İ yarısına aid «Elbrus dağından başlayaraq hətta Dərbəndə kimi həmetiqad müsəlmanlara» ünvanlanmış fərmanında deyilirdi:

«İndi kafirə - moskvalılara qarşı müqəddəs müharibə getdiyi üçün bu fərman göndərilir ki, onu alan kimi bir saat belə gecikmədən qəzavata qalxasınız və dərhal düşməni məhv etməyə başlayasınız. Çox məşhur qəhrəman Seyid Hüseyn Battal paşa 60 min nəfərlik qoşunla və çoxlu toplarla, xəzinə ilə bütün zəruri şeylərə Sizin köməyinizə və Sizi xilas etmək üçün yola düşmüşdür. Siz bir-birinə ürək-dirək verə-verə müdafiə olunun, öz torpağlarınızı əzmlə qoruyun, dinimizin düşmənlərini məhv edin, onların vilayətlərini viran edin, arvadlarını və uşaqlarını əsir götürün, kim bunun əleyhinə hərəkət edərsə, Allaha asi olmuş mürtəd kimi arvadına da naməhrəm olacaq».[54]

Lakin o zaman bu fərmana cavab verib Rusiyaya qarşı müharibəyə başlamağa heç bir Qafqaz hakimi cəsarət etməmişdi. Ona görə də Sultan III Səlim 1789-cu ilin avqust ayında (12 zülqədə 1203-cü il) təkrar fərman göndərmiş və onları Allah yolunu müdafiəyə qalxmağa çağırmışdı.[55]

Poruçik Batırev bildirirdi ki, İstanbuldan göndərilmiş qapıçıbaşı Qubalı Fətəli xana 4 min çervon, samur xəzindən kürk və almazlarla bəzədilmiş qılınc gətirmişdi, lakin xan onları qəbul etməmişdir.[56] Digər sənəddə deyilirdi ki, 1787-ci ildə Şamaxıya gələn Sultan elçisi Fətəli xana kürk, qılınc, at və 10 min rubl gətirmiş, onu Rusiyaya qarşı qaldırmağa cəhd etmiş, lakin istədiyinə nail olmamışdı.[57]

Osmanlı hökuməti gürcü çar ailəsinin bəzi üzvlərinin Osmanlı dövlətinə meyl etməsindən istifadə edərək Kartli-Kaxeti çarlığını öz tərəfinə çəkmək istəyirdi. Çıldır valisi Süleyman paşa II İraklinin Rusiyaya meyli olmayan bəzi ailə üzvləri ilə danışıqlar aparmış və 1788-ci il oktyabrın 2-də Tiflis şəhərindən 60 km məsafədə II İrakli ilə Sultan sarayı nümayəndələrinin Rusiyadan gizli görüşü olmuşdu.[58] Bu zaman gürcü tərəfi Osmanlı tərəfinin Georgiyevsk müqaviləsini ləğv etmək, Rusiya ilə əlaqəni tamamilə kəsmək, Hərbi Gürcüstan yolunun inşasını dayandırmaq, Gəncə və İrəvanın daxili işlərinə qarışmamaq şərtləri ilə əvvəlcə razılaşmasa da, sonra müəyyən qüzəştlər daxilində tərəflər arasında razılıq əldə olunmuşdu.[59] 1788-ci ilin sonunda II İrakli Süleyman paşanın nümayəndəsi ilə saziş bağlamış, dağıstanlıların basqınlarına görə ödəniş tələb etməkdən əl çəkmiş və iki knyazı əmanət vermişdi. Lakin bunun əvəzində Osmanlı tərəfi II İraklinin Gəncə və İrəvana iddialarından əl çəkməsi tələbi barədə susmaqla güzəştə getmiş və əslində Kartli-Kaxeti çarı əl-qol açmaq imkanı qazanmışdı.[60]

Lakin II İrakli bu razılaşmalarda səmimi deyildi, o, Osmanlıya yalnız zahiri yaxınlıq göstərib onu bitərəfləşdirməyə, Azərbaycan torpaqları barədə işğalçılıq niyyətlərini həyata keçirməyə çalışırdı. Artıq 1788-ci ilin sonunda Gəncə şəhəri II İraklinin təsiri altına düşmüşdü.[61]

II İrakli hətta Fətəli xanla birlikdə Cənubi Azərbaycanda və İranda öz təsirini yaymağa çalışırdı. Nadir şahın nəvəsi adlandırılan, şah taxtına iddiaçılardan biri olan Nəzərəli xana Tiflisdə sığınacaq verilmişdi.[62]

1789-cu ilin yanvarında Şəmkir çayının sahilində Qubalı Fətəli xan və Şəkili Məhəmmədhəsən xanla II İraklinin görüşü oldu. Görüşdə Qarabağa birgə yürüş etmək haqqında qərar qəbul olundu. Həmçinin Cənubi Azərbaycanda razılaşdırılmış hərəkətlər planı tərtib edildi və ərazilər nufuz dairələrinə bölündü: Cənubi Qafqaz II İraklinin, Cənubi Azərbaycan isə Qubalı Fətəli xanın nüfuz dairəsi elan olundu.[63] Danışıqlar zamanı tərəflər Ağa Məhəmməd xanı qabaqlayaraq Qarabağa və Cənubi Azərbaycana birlikdə yürüş etməyi razılaşdırdılar. Həmin görüşdə II İrakli Azərbaycan torpaqlarından olan Şəmşəddin sultanlığını (Şəmşəddin sultanlığı Borçalı və Qazax ilə birlikdə 1736-cı ildə Nadir şah tərəfindən Kartli-Kaxeti çarı İ Teymuraza verilmişdir-T.M.) Gəncə xanlığına qaytarıcağına boyun oldu. Lakin həmin il Fətəli xanın Bakıda qəflətən vəfat etməsi müttəfiqlərin planlarını pozdu.[64]

Van əyaləti mühafizi Əhməd paşanın 1203-cü hicri tarixdə (1788-89) göndərdiyi təhriratda deyilirdi ki, II İrakli İrəvanlı Məhəmməd xana və Urmiyalı Məhəmməd xana kürəkəni Savitin başçılığı ilə 2 min

gürcü əsgəri verərək, onları Xoylu Hüseyn xanın üzərinə hücuma keçməyə təhrik etmişdir. Hücum zamanı Hüseyn xan Xoy qalasına sığınmışdı. Düşmənlər qalanı almağın mümkün olmadığını görüb, xanlığın bir çox kəndlərini qarət etməklə kifayətlənmiş, Hüseyn xanın qardaşı Cəfərqulu bəyi girov götürüb geri qayıtmışdılar. Əhməd paşa bu hadisənin Azərbaycanda qarışıqlığa səbəb ola biləcəyindən narahat olduğunu yazırdı. Sultan məktubun üzərinə belə dərkənar qoymuşdu: «Söyleşüp münasib vechile cevabin yazasın».[65]

Battal paşanın komandanlıq etdiyi Osmanlı ordusunun 1790-cı ilin oktyabrında Kubanda ağır məğlubiyyətə uğraması 1787-91-ci illər müharibəsində Osmanlı imperiyasının məğlubiyyəti demək oldu.[66] 1792-ci ilin yanvarında iki dövlət arasında sülh müqaviləsi bağlandı.

Beləliklə, tarixi qaynaqların təhlili göstərir ki, 1783-cü ildə göndərilmiş Xəlil əfəndinin başçılıq etdiyi nümayəndə he-yəti xanların və Cənubi Dağıstan hakimlərinin qüvvələrini birləşdirməli idi. Lakin Rusiyanın əks-tədbirləri nəticəsində bu cəhd baş tutmamışdı. Buna baxmayaraq Xəlil əfəndinin səfəri tamamilə səmərəsiz olmamış, onun təşviqi ilə bir sıra Azərbaycan xanları yardım üçün Sultana müraciət etmişdilər.

Bu dövrdə osmanlıların Cənubi Qafqazda ən çox diqqət yetirdikləri və mühüm təsirə malik olduqları məntəqələrdən biri İrəvan xanlığı idi. Lakin II İraklinin fitnələri nəticəsində İrəvan xanı Qulaməli öldürülmüş və onun yerini anası gürcü olan azyaşlı qardaşı Məhəmməd xan tutmuşdu. O, xarici siyasətində gah Osmanlıya, gah da Gürcüstana meyl edirdi.

Sultanın 1784-cü ilin payızında İbrahim əfəndinin başçılığı ilə Azərbaycana göndərdiyi yeni nümayəndə heyəti müsəlmanları «müqəddəs müharibəyə» və Rusiyanın həmləsinin qarşısını almaq üçün birləşməyə çağırmış, xanlara xeyli pul yardımı göstərmişdi. İbrahim əfəndinin səfəri əsasən uğurlu olmuş, Şəki, Xoy və Qarabağ xanları Çıldır hakimi ilə ittifaq yaradıb, Rusiyanın təcavüzünə qarşı birgə mübarizə aparacaqlarına söz vermişdilər. Osmanlı paşalarının çağırışı ilə carlılar və bəzi Azərbaycan hakimləri Gürcüstana hücum edib, hətta Tiflisi ələ keçirməyə cəhd etmişdilər.

Bu dövrdə Osmanlı imperiyası həm də Əlimurad xanla Rusiyanın Azərbaycan torpaqlarını bölüşmək cəhdinə qarşı öz mənfi münasibətini göstərməyə məcbur olmuşdu.

80-ci illərin ortalarından Osmanlı sarayı böyük gücünü və nüfuzunu nəzərə alaraq Xoylu Əhməd xanla sıx münasibətlərin yaradılmasına xüsusi fikir verir, ona toplar və bəzi hərbi sursatla yardım göstərirdi. Lakin Əhməd xanın öz rəqibləri tərəfindən öldürülməsi Osmanlı dövlətinin Cənubi Azərbaycandakı mövqelərini zəiflətmişdi.

Osmanlı-Rusiya münasibətləri yenidən kəskinləşdiyi, onlarda müharibə ab-havası duyulduğu üçün osmanlılar Cənubi Qafqazda daha qətiyyətli hərəkət etməyə başlayırlar. Carlı Ümmə xan 1785-ci ilin payızında böyük qüvvə ilə Gürcüstana basqın edir.

Tarixi faktlar 1785-ci ildən II İraklinin Osmanlı dövlətinə münasibətində kəskin dəyişiklik baş verdiyini göstərir. Yaxınlaşan Rusiya-Osmanlı müharibəsində özünü osmanlıların hücumundan sığortalamağa çalışan çar onlara yaxın münasibət nümayiş etdirmiş, Osmanlı sarayı da öz qüvvələrini parçalamaq istəmədiyinə görə bu reveransa müsbət yanaşmışdı.

Osmanlı hökuməti Rusiya ilə 1787-ci ildə başlayan müharibədə Azərbaycan xanlarının qüvvələrindən istifadə etmək istəmiş, lakin bu dövrdə onlar arasında kəskin ara müharibələri getdiyi üçün Rusiyaya qarşı çıxmaları mümkün olmamışdı.

# VI FƏSİL

## XVIII YÜZİLLİYİN SONU – XIX YÜZİLLİYİN BİRİNCİ OTUZİLLİYİNDƏ CƏNUBİ QAFQAZDA RUSİYA-İRAN RƏQABƏTİNƏ OSMANLI DÖVLƏTİNİN MÜNASİBƏTİ

### *1. Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaza həmləsinə Osmanlı dövlətinin və Rusiyanın münasibəti*

Rusiya 1792-ci il Yassı müqaviləsi ilə onun bu regionda təsirini gücləndirməsinə mane olan Osmanlı imperiyasını Cənubi Qafqazda fəal siyasət yürütmək imkanından məhrum etdi. Eyni zamanda başlıca diqqəti Fransa burjua inqilabına qarşı mübarizəyə yönəldən Rusiya da hələlik Qafqazda kifayət qədər qəti hərəkət etmək imkanına malik deyildi. Belə bir şəraitdə bölgədə qüvvələr tarazlığı əsaslı surətdə dəyişmiş, indi Cənubi Qafqazda hökmranlıq uğrunda mübarizəyə yeni bir namizəd - Ağa Məhəmməd xan Qacar da qoşulmuşdu.

1792-ci ildə iki qardaşını qəti olaraq Gilandan qovan, başlıca rəqibi Lütfəli xana 1793-cü ildə qalib gələn Ağa Məhəmməd xan artıq 90-cı illərin əvvələrində demək olar bütün İranı öz hakimiyyətinə tabe etmişdi. Yalnız Kartli-Kaxeti çarı və Şimali Azərbaycan xanları hələlik onun ali hakimiyyətini tanımamışdılar.

Ənənəyə görə, şah tacını qoymaq istəyən şəxs keçmiş imperiyanın sərhədlərini bütövlükdə bərpa etməli, tacqoyma mərasimi isə Ərdəbildə keçirilməli idi. O zaman İran dövlətinin tərkibinə bəylərbəyliklərlə yanaşı, dörd valilik də daxil idi: Ərəbistan, Gürcustan, Luristan və Kürdistan. Onların hamısının valisi şahın tacqoyma mərasimində iştirak etməli, Əpabistan valisi əlində ciqqa (tacı əvəz edən papağın üstündəki lələk) Gürcüstan valisi qılınc, Luristan valisi balabut (porfir) və Kürdüstan valisi almazlardan toxunmuş iki sarğı tutmalı idilər. Əks halda şah tac qoya bilməzdi. Buna görə Ağa Məhəmməd Gürcüstanı tutmağa can atırdı.[1]

Qacar qoşunlarının təhlükəsi Cənubi Qafqazın bir-biri ilə düşmənçilik edən bəzi feodal hakimlərini birləşməyə sövq etdi. II İrakli və Qarabağlı İbrahim Xəlil xan barışdılar. Avar Ümmə xan da öz qohumu İbrahim Xəlil xanın Ağa Məhəmməd xan Qacara qarşı yönəlmiş siyasətini müdafiə edirdi. Azərbaycan hakimləri öz qüvvələri ilə qorxunc düşmənin qarşısında duruş gətirə biləcəklərinə əmin deyildilər və buna görə də xaricdən də kömək axtarırdılar. Ağa Məhəmməd xanın yüksəlməsi ilə əlaqədar olaraq Qarabağlı İbrahim Xəlil xan və İrəvanlı Məhəmməd xan Osmanlı hökumətinin yardımına nail olmaq məqsədilə hələ 1789-90-cu illərdə İstanbula göndərilmək üçün öz adamlarını Çıldır valisinin yanına göndərmişdilər. Elçilər İstanbula yetişmiş, hətta qapı kəndxudası Sufyan ağanın evində mehman olmuşdular. Çıldır valisi belə hesab edirdi ki, Azərbaycan və İrəvan hakimləri daxilində daim ara müharibələri getdiyindən osmanlıların buna müdaxilə etməsinə ehtiyac yoxdur. Yalnız ehtiyat xatirinə sərhəd paşalıqlarını möhkəmləndirmək gərəkdir.[2]

Ağa Məhəmməd xanın Cənubi Azərbaycandakı hərəkətlərini yaxından izləyən İrəvan xanı onun qısa müddətdən sonra Şimali Azərbaycana yürüş edəcəyini güman etmiş və Qars mühafizinə göndərdiyi məktubda bu barədə məlumat vermişdi. Qars mühafizi bu barədə İstanbula xəbər çatdırmış, İran hakimi İrəvan üzərinə yürüş etdiyi halda Qars ətrafındakı bölgədən xeyli köçkün olacağı, bu səbəbdən İran qüvvələrinin Qars üzərinə yürüş edə biləcəyi ehtimalını bildirmiş, onun reallaşacağı zaman bölgədəki imkanların yetərli olmayacağını nəzərə almağı, əlavə qüvvə ilə hərbi təchizat göndərilməsini tələb etmişdi.[3]

Qacar təhlükəsindən xilas olmaq üçün xaricdən havadar axtaran Azərbaycan xanlarının bəziləri, o cümlədən Qaradağlı Mustafaqulu xan, Marağalı Əhməd xan, Xoylu Hüseyn xan və İrəvanlı Məhəmməd xan hələ 1790-cı ilin əvvəllərində Sultan III Səlimə göndərdikləri məktublarında Sultanın onları müdafiə edəcəyinə ümid bəslədiklərini bildirmişdilər.[4] Təbrizli Rza xan isə Osmanlı sarayından «Azərbaycanda müstəqil bir səltənət təsis edilməsinə» cəhd göstərilməsini xahiş etmişdi.[5]

Ağa Məhəmməd xan ilk növbədə Urmiya xanlığına zərbə endirmək fikrində idi. Onun yaxınlaşmasından xəbər tutan Məhəmmədqulu xan vuruşmaya girişməyib şəhəri tərk etdi və Urmiya gölünün cənub tərəfindəki dağlıq ərazidə yerləşən Uşnu qalasına sığındı. Urmiyaya gələn Ağa Məhəmməd xan yumşaq davranıb heç kimi cəzalandırmadı və Məhəmmədqulu xanı bağışlayacağını vəd etdi. Məhəmmədqulu xan onun hüzuruna gəldi.[6]

1791-ci ildə Təbrizə doğru irəliləyən Ağa Məhəmməd xan yolu üstündəki Seyidabad adlı yerdə dayandı və xanlara elçilər göndərərək, öz uşaqları, qardaşları və arvadlarını ona itaət əlaməti olaraq girov göndərmələrini tələb etdi. Naxçıvan xanı öz qardaşını, Xoy xanı arvadlarından birini və qardaşını, Təbriz xanı 15 əyanını və varlı adamını, Ərdəbil xanı arvadı və oğlunu, Qaradağ xanı arvadını və oğlunu, Qaradağ xanı arvadını və qardaşını, Ərdəbil xanı arvadı və qardaşını girov verdi. Marağa xanı öz arvadı və uşaqları, Şəqaqi Sadıq xan isə öz qoşunu ilə birlikdə Ağa Məhəmməd xanın düşərgəsinə gəldilər. Ağa Məhəmməd xan hər bir xanın üzərinə illik xərac təyin etdi.[7]

Qars mühafizi Kamal paşa 1791-ci ildə Osmanlı sarayına göndərdiyi təhriratda Astarabad hakimi Ağa Məhəmməd xanın Xorasan, Şiraz, İsfahan, Mazandaran və Gilan hakimlərini yanına çağırıb saxladığını, yerlərinə istədiyi adamları təyin etdiyini yazırdı. Mustafa paşanın yazdığına görə, Ağa Məhəmməd xan Təbrizə 6 saatlıq məsafədə olan Müşk-i Ənbər çölünə gələrək Azərbaycan xanlarından Qaradağlı Mustafaqulu xanı, Marağalı Əhməd xanı, Xoylu Hüseyn xanı, Urmiyalı Məhəmmədqulu xanı, və bəzi bir neçə ayrı xanları özünə itaətə razı salmışdı. O, İrəvanlı Məhəmməd xanın da yanına adam göndərib yanına gəlməsini tələb etmişdi. Lakin Məhəmməd xan özü getməmiş, qardaşını hədiyyələrlə onun hüzuruna göndərmişdi. Ağa Məhəmməd xanın İrəvana hücum edəcəyini yəqin edən Məhəmməd xan İrəvan qalasının müdafiəsini möhkəmlətmiş, Qars mühafizinə məktub göndərərək kömək istəmiş, İrəvanın mühasirəyə alınacağı təqdirdə rəiyyətin Qarsdan savayı pənah yeri olmadığından ora köçəcəyiini bildirmişdi. Mustafa paşanın bu barədə məlumatını aldıqdan sonra Sultan həmin təhrirata belə bir dənkənar qoymuşdu: «Bunun sihhat ve havaliden işe yarar talarlar tayinle haber alasın, vakt ü hal göre bu tahrirata dahi münasibi üzre nizam verüb cevab yazasın»[8] (yəni ətrafa bacarıqlı casuslar göndərməklə dəqiq məlumat əldə edib, vəziyyətə müvafiq olaraq təhrirata cavab yazılsın).

Beləliklə də Cənubi Azərbaycan xanları Ağa Məhəmməd xandan asılılığa düşdülər. Lakin bu heç də onların bir dövlət qurumları kimi varlıqlarını tamamilə itirməsi demək deyildi, çünki onlar idarəçilikdəki sərbəstliklərini hələ saxlayırdılar.

Ağa Məhəmməd xan Azərbaycanın cənubunu öz təsiri altına aldıqdan sonra öz nəzərlərini ölkənin şimalına yönəltdi. Şimaldakı xanlar yaxınlaşan təhlükənin ciddiliyini dərk edir və ona qarşı durmağa hazırlaşırdılar.

Qarabağlı İbrahim Xəlil xan Osmanlı baş vəzirinə hicri 1209-cu ilində (1794-1795) Abdulla Çələbi əfəndi ilə göndərdiyi məktubda iyirmi bir ildən artıq bir müddətdə Osmanlı dövlətinə xidmət göstərdiyini xatırladır, Ağa Məhəmməd xanın İrandakı İraq məmləkətini və Fars bölgələrini özünə tabe etdikdən sonra Araz çayını keçib əvvəla onun - İbrahim Xəlil xanın, İrəvanlı Məhəmməd xanın və sonra Gürcüstan üzərinə hücum etmək niyyətində olduğunu xəbər verir, Sultandan Azərbaycan xanlarına öz yardımını əsirgəməməsini xahiş edirdi.[9]

Ağa Məhəmməd xana qarşı Azərbaycan xanlarının yardım istəmələri ilə əlaqədar Səma İşıktanın qeyd etdiyi kimi, Osmanlı hököməti olduqca çətin vəziyyətə düşmüşdü. Bir yandan Ağa Məhəmməd xanla ixtilaf və ya onu qəzəbləndirmək Osmanlı dövləti üçün əlverişli olmayacağı kimi, digər yandan onun ərazisinə köç edənlərin qəbul edilməməsi də dövlətin nüfuzuna xələl gətirə bilərdi.[10]

Azərbaycan xanlarının xahişi ilə əlaqədar, Osmanlı hökuməti İranla həmsərhəd olan əyalətlərin başçılarına bölgə sakinlərindən bəri tərəflərə pənah gətirənlər olubsa, qəbul olunub, ancaq gəldikdən sonra dönmək istəməyənlərə də əngəl olunmaması barədə buyruq göndərmiş və pənah gətirənlərin qəbul edilməsi üçün tədbir görülməsi haqqında fərman verdirmişdi.[11]

İrəvan xanının məktubunu saraya göndərən Qars mühafizi İran qüvvələrinin Qars üzərinə də hücum edə biləcəyini vurğulamış, ölkədəki hərbi qüvvələrin kifayət qədər olmadığını nəzərə alıb buraya əlavə hərbi təchizat və qüvvə göndərilməsinin zərurliyini dövlət başçılarının diqqətinə yetirmişdir.[12]

Tarixi ədəbiyyatda olan məlumatlarda Azərbaycan xanlarının yeni Sultanın (III Səlimin) xanlıqlara qarşı laqeyd münasibətindən gileylənmələri, bunun nəticəsində xanlıqların çaşqınlıq içəricəsində olmaları və bütün bunlara baxmayaraq, Osmanlı dövlətinə sadiq qallmaları təkrar vurğulanırdı. Xanlar və dağlı hakimlər 200 min qüvvə ilə 1795-ci ilin yazı üçün Rusiyaya qarşı müharibə etməyə hazır olduqlarını bildirir, Terek və Kubanı tutaraq Krımın alınması üçün Sultana kömək etməyə söz verirdilər. Məktubda qeyd olunurdu ki, bütün bunların əvəzində Sultan onlarla Osmanlı dövlətinin əvvəlki münasibətini bərpa etməli, onları pul və digər vasitələrlə təmin etməlidir. Çünki onlar Türkiyəyə məxsus olan Asiya vilayətlərinin tutulmasına kömək barədə Rusiyanın xahişini rədd etmişlər.[13] Əlbəttə, Qafqazın feodal hakimləri öz qüvvələrinin miqdarını hədsiz şişirdir, bununla Sultandan mümkün qədər çox pul və hədiyyə qoparmaq niyyətini güdürdülər.

1794-cü ilin avqustunda qubalı Şeyxəli xan elçisi dərbəndli Məhəmməd bəyi yardım xahiş edilən məktub və 12 xidmətçi ilə birlikdə İstanbula yola salmışdı. O, oktyabr ayında mənzil başına yetişmiş, məktub Osmanlı sarayına təqdim olunmuş və 27 gün sonra ona cavab alınmışdı. Cavab məktubunda Sultanın 1795-ci ilin əvvəllərində Dərbənd və Dağıstana xan reqaliyaları ilə birlikdə bir qapıçıbaşını göndərəcəyi, xanların öz qoşunları ilə hazır vəziyyətdə olmalarının vacibliyi bildirilirdi.[14]

Çətin daxili vəziyyətdə olduğundan Qafqaza lazımi diqqət göstərmək imkanında olmayan Osmanlı hökuməti Məhəmməd bəyi etinasız qarşılaşmışdı. Sultanın cavab məktubunda müəyyən vədlər verilsə də, yardım göstəriləcəyi dönə-dönə qeyd olunsa da, onlara əməl edilməmişdi. Quba xanının elçisi ona az pul verildiyindən olduqca hiddətlənmiş və hətta 1795-ci ilin yanvarında İstanbuldakı Rusiya səfiri Koçubinskinin yanına getmiş, Osmanlı hökumətindən gizli surətdə Rusiyaya keçirilməsini xahiş etmişdi. Səfir onu Krım vasitəsilə Georgiyevskə general Qudoviçin yanına göndərmişdi.[15]

Bu hadisədən sonra Osmanlı sarayı Azərbaycan xanlıqlarına, ilk növbədə Quba xanlığına diqqətini bir qədər artırmağa məcbur olmuşdu. Osmanlı komandanlığı dağlı hakimlər vasitəsilə Quba xanlığı ilə əlaqə saxlamağı nəzərdə tuturdu. Osmanlı ordusunun komandanlığı Rusiya qoşunlarının Azərbaycana hərəkətinə mane olmaq məqsədilə karvan yollarını və körpüləri sıradan çıxarmağa çalışır və yerli feodalları bu işə cəlb edirdi. Bu məqsədlə Axısqa (Çıldır) paşası Şamaxı və Şəki xanlıqlarına öz adamlarını göndərmişdi.[16]

Şimali Azərbaycan xanları Ağa Məhəmməd xana tabe olmaq tələbini rədd etdilər. Ağa Məhəmməd xan silah gücünə məqsədinə nail olmaq üçün Şimali Azərbaycana və Şərqi Gürcüstana yürüş etmək niyyətində idi.

Qarabağlı İbrahim Xəlil xanın 1794-95-ci illərdə Sultanın adına göndərdiyi məktubunda Ağa Məhəmməd xanın məqsədinin Araz çayını keçib ilk növbədə Qarabağa, eyni zamanda İrəvana və sonra Tiflisə hücum etmək olduğunu bildirirdi. O, Osmanlı hökumətindən yardımını əsirgəməməyi xahiş edir, həmin məktubda yazırdı: «... bu caniblerde (tərəflərdə-T.M.) vaki olan hadiseleri arz idelim. Keyfiyyet-i ahval bu minval üzredir ki, Kızılbaşdan Ağa Muhammed han huruc edüp İran mülkünde vaki olan İrak memleketini ve Fars beldelerin (bölgələrini-T.M.) taht-ı tasarrufa getirüp. Şimdi ... rudhane-i Arazdan evvela benim üzerimde ve saniyen (sonra-T.M.) Erivan hanı Muhammed han üzre ve salisen Gürcüstan ve ala hazef tertib maksudi manzurin küvve-ti"ile getire,(yəni məqsədi qüvvə ilə bu yerləri itaətə gətirməkdir-T.M.) şimden geri emr şevketli efendimizindir».[17]

Lakin Ağa Məhəmməd xan sarayda hərbi rəislərin arasında ona sui-qəsd hazırladığından xəbər tutaraq bu yürüşü təxirə salmış və Tehrana qayıtmışdı.[18] Qəsdçiləri cəzalandıran Ağa Məhəmməd xan sonra Cənubi Qafqaza hücum planını yenidən həyata keçirməyə tələsmişdi.

Rusiyanın Cənubi Qafqazda möhkəmlənməsini istəməyən İngiltərə və Fransa Ağa Məhəmməd xanı bu regionu tutmağa təhrik edir və hər biri ayrı-ayrılıqda onun Osmanlı hökuməti ilə əlaqələrini möhkəmlətməyə çalışırdı. Osmanlı dövlətini Rusiyanın potensial düşməni hesab edən Ağa Məhəmməd xan İstanbula öz nümayəndəsini göndərib cənub-şərqi Qafqazın qədim zamanlardan İranın tabeliyində olduğunu bildirdi. Osmanlı dövləti Cənubi Qafqaz üzərində öz nəzarətini itirmək istəməsə də, Rusiya ilə müharibədə yenicə məğlub olduğundan burada fəal siyasət yeritmək, Rusiyanın ekspansiyasının qarşısını almaq iqtidarında deyildi. Buna görə də İranın bu regionda ekspansiyasına xeyirxah münasibət bəslədi. 1792-ci il Yassı müqaviləsinə əsasən rəsmi surətdə Cənubi Qafqazdan əl çəkməli olmuş Osmanlı hökuməti bu zaman bir növ düşməni «başqasının əli» ilə vurmaq siyasəti yürüdərək, rusların bura olacaq təcavüzünün qarşısını almaq üçün İrana müəyyən kömək etmək qərarına gəldi.Rusiyanın İstanbuldakı səfiri M.İ.Kutuzov 1793-cü il noyabrın 5-də Peterburqa xəbər verirdi ki, Osmanlı hökuməti İranın Cənubi Qafqazı yenidən tutmaq niyyətini nəzərə alır. Ağa Məhəmməd Gürcüstanı alarsa Sultan onu İran şahı kimi tanımağı vəd edirdi.[19]

Tarixi ədəbiyyatda olan məlumata görə, hələ 1793-cü ilin yazında İranda olan rus dövlətinin nümayəndəsi Şiraz uğrunda mübarizə zamanı Ağa Məhəmməd xanın Sultandan hədiyyələr, o cümlədən hərbi təchizat aldığını qeyd etmişdi.[20]

Ağa Məhəmməd Osmanlı hökumətindən qarşıdakı yürüş üçün maddi yardım göstərməyi xahiş etdi. N.Skarjemskinin 1795-ci il mayın 1-də verdiyi məlumata görə, Ağa Məhəmməd xan Sultandan «xeyli əsgər təchizatı» hədiyyə almışdır... Divanda deyirlər ki, bütün bu hədiyyələri ona qardaşı Türkiyə sultanı göndərmişdir.[21]

İrəlidə qeyd olunduğu kimi, Azərbaycan xanları da Qacar təhlükəsindən xilas olmaq üçün öz nəzərlərini Osmanlı dövlətinə çevirmişdilər. İrəvan xanının 1795-ci il 9 may (19 şəvval 1209 h.) tarixli məktubu ilə Türkiyəyə gələn eşik ağası Hacı Zeynal Ağa məktubu təqdim edərkən şifahi surətdə

bildirmişdi ki, İrəvan xanı uzun müddətən bəridir ki, Osmanlı dövlətinin himayəsindədir və Anadolu beylərbəyliyi rütbəsi alaraq Sultana sidq-ürəklə xidmət edir. Elçi bildirmişdi ki, Ağa Məhəmməd xan İranı özünə tabe edib və ötən il 4-5 aylıq mühasirədən sonra Kirmanı alıb başlıca düşməni Lütfəli xanı əsir alıb, gözlərini çıxartdırmışdır. Tehrana qayıdan Ağa Məhəmməd İrəvan xanına xəbərlər göndərərək ona tabe olmasını tələb etmişdir. İravan xanı isə Qarabağlı İbrahim Xəlil xan, Gəncəli Cavad xan, Şəki (mənbədə yanlış olaraq Şirvan yazılmışdır) xanı Məhəmməd Həsən xan, Şamaxılı (mənbədə yanlış olaraq Şamxal yazılmışdır) Mustafa xan, Dağıstan hakimlərindən Ümmə xan və Kartli-Kaxetiya çarı II İrakli ilə ittifaq bağlayıb Ağa Məhəmməd xana müqavimət göstərməyi qərara almışdır. Qasid və casusların səhih məlumatlarına görə, xan 1795-ci ildə qışladığı Tehrandan çıxıb Qarabağ arasında yerləşən Göyçə yaylağı adlı düzə gələcək. Ramazan ayının axırında adı çəkilən dörd yerdən hansına lazım bilsə hərəkət edəcəkdir.[22] Ağa Məhəmməd xanın Göyçə yaylağındakı düzə gələrək burada adı çəkilən yerlərin birinə hücum etdikdə digərlərinin köməyə gələcəyi aşkar olsa da, böyük qüvvəyə malik olan Ağa Məhəmməd xan yəqin ki, öz fikrindən dönməyəcəkdir. Buna görə də adı çəkilən hakimlərin Sultanın himayəsinə ehtiyacları vardır.[23]

Hacı Zeynal ağa daha sonra bildirmişdi ki, İrəvan xanlığı Qars və Bəyazidlə həmsərhəd, əhalisi isə bir-birinə qohum olduğundan İrəvan xanlığının dağıntıya məruz qalması Türki-yənin Qars, Bəyazid, Ərzurum, Van, Çıldır və digər qonşu mahallarına mənfi təsir göstərəcək. Elçi qeyd etmişdi ki, İrəvan qalası nə qədər möhkəm olsa da, düzənlikdə yerləşdiyindən təhlükə zamanı el və tayfaların, heyvanlarının sığınacağı yer yoxdur. Buna görə də əvvəllər Kərim xan Zəndin, əfqan Azad xanın, Məhəmməd Həsən xan Qacarın İrəvana hücumları zamanında xanlığın əhalisi qonşu Qars hüdudlarına pənah aparmışdı. İndi Ağa Məhəmməd xan İrəvan qalasını mühasirə edərsə, əvvələrdə olduğu kimi, xanlıq əhalisinin Türkiyə ərazisinə sığınacaqlarına maneçilik törədilməməsi barədə Çıldır hakiminə, Qars mühafizinə və Bəyazid mütəsərrifinə Sultanın əmr verməsi gərəkdir. Əgər Ağa Məhəmməd xan bu məsələ ilə əlaqədar Osmanlı hökümətinə öz etirazını bildirərsə, ona keçmişdən belə adət olduğunu, hətta o vaxtlar Türkiyə ərazisinə keçmiş rəiyyət və elatlardan bir çox ailənin Qarsda qalıb məskunlaşdığını nümunə göstərmək olar.[24]

Xanın 1795-ci il 9 may (19 şəvval 1209 h.) tarixli məktubu ilə Türkiyəyə gələn digər elçisi Seyid Abdulla Cələbi də Osmanlı hökümətindən eyni məzmunlu xahişi etmişdi.[25] Elçi bildirirdi ki, İbrahim Xəlil xanın qonşu Dağıstan hakimləri və qohumu Ümmə xanla birləşib 40-50 min əsgər toplayacağı şübhəsizdir. Ancaq Ağa Məhəmməd xanın daima yanında 40-50 min əsgəri olduğu nəzərə alınarsa, belə bir məsul yürüşə ikiqat-üçqat əsgər cəmləşdirəcəyi məlumdur. Buna görə adları çəkilən xanların və hakimlərin Dövlət-i Aliyyəyə ehtiyacları olduğu, Osmanlı sarayı nə əmr, nə göstəriş verərsə ona uyğun hərəkət edəcəkləri bildirildi.[26]

M.Ə.Çakmak yanlış olaraq Mirzə Camal Cavanşirin Qarabağ tarixi kitabında da İbrahim xanın məktub göndərib Ağa Məhəmməd xanın hücumu təhlükəsi qarşısında Osmanlı hökumətindən yardım xahiş etməsi haqqında məlumatın olduğunu yazsa da, qeyd etməliyik ki, adı göstərilən kitabda bu məlumat yoxdur.[27]

Ərzurum valisi Yusif Ziya paşanın köməkçisi Məmiş Ağanın 1795-ci il 15 may (25 şəvval 1209 h.) tarixli məktubunda deyilirdi ki, Ağa Məhəmməd xanın İrəvana hücumu təqdirində təxminən 20-30 min miqdarında elat qala darısqal olduğundan ora sığmayacaq və onların çoxunun Qars, Bəyazid və Ərzurumun sərhəd sancaqlarına pənah gətirəcəkləri aydındır.[28] Məmiş ağanın məktubunda daha sonra deyilirdi ki, Tehranda olan Ağa Məhəmməd xan özündən əvvəl sərdar Süleyman xanı 30 min əsgərlə Təbrizə, 30 min əsgəri qardaşının başçılığı ilə Mazandarana göndərmiş, bilavasitə öz sərancamında 60 min əsgər saxlamışdır. Məmiş onu da bildirmişdi ki, İrakli İrəvanlı Məhəmməd xanı Ağa Məhəmməd xana tabe olmamağa təhrik etmişdir.[29]

Osmanlı hökumətinin İrəvan xanının müraciəti ilə bağlı qəbul etdiyi qərarda deyilirdi ki, bundan əvvəl rusların yürüşü zamanı Azərbaycan xanlarının xahişinə uyğun olaraq, Türkiyə onlara kömək etməyi qərara almışdı. İndi isə İrəvan xanı öz nümayəndəsini göndərərək Sultandan sərhəddəki hakimlərə xana hərbi yardım göstərməyi, lazım olduqda xanlıq sakinlərinin Osmanlı imperiyası ərazisinə keçməyə icazə verilməsini xahiş etmişdir. Lakin bu, Qacarla Osmanlı arasında mövcud olan sülhə ziddir.[30]

Digər Azərbaycan xanları da öz narahatlıqlarını Çıldır valisi Süleyman paşaya bildirmiş, ondan Osmanlı torpaqlarına keçmək məcburiyyətində qalan mühacirələrə qayğı və yardım göstərilməsini xahiş etmişdilər.[31]

Osmanlı hökuməti xanların yardım istəklərinə müsbət yanaşsa da, Ağa Məhəmməd xanın eyni zamanda bölgədə Rusi-yaya qarşı mübarizə apardığını nəzərə alaraq, hələlik xanlara hərbi yardım

göstərməyi məqsədəuyğun saymadı. Azərbaycan xanlarına verilən cavablarda, hələlik İranla Osmanlı hökuməti arasında barış olduğundan, İran hakiminin barışı pozacaq bir hərəkəti görülmədikcə, ona qarşı əsgəri müdaxilə edilmə-yəcəyi bildirildi.[32]

Ağa Məhəmməd xan Süleyman xanı 20 min nəfərlik qoşunla göndərib ona Ərdəbil, Xoy, Naxçıvan, İrəvan, Gəncə və digər xanlıqların hakimlərini öz ətrafına toplayıb, onları və eləcə də İbrahim xanı Ağa Məhəmməd xanın ali hakimiyyətini qəbul etməyə vadar etməyəi tapşırdı. Əks halda Qarabağ mülkləri viran edilməli idi. İbrahim xan İran hakimiyyətini tanıdığı təqdirdə Süleyman xan ətrafında topladığı xanlarla birlikdə Gürcüstana hücum etməli idi. Lakin Azərbaycan xanlarından yalnız Gəncəli Cavad xan bu çağırışa cavab verdi.[33]

Ağa Məhəmməd xan ona itaətsizlik göstərən xanlara qarşı yürüş üçün ordu toplamağa başladı. Ərdəbil şəhəri başlıca toplanış məntəqəsi seçildi. Təbriz şəhərində də müəyyən qədər qüvvə və ehtiyat toplanmışdı.[34]

Ağa Məhəmməd xan öz qoşunlarını üç dəstəyə böldü: qardaşları Cəfərqulu və Əliqulu xanların başçılığı ilə bir hissəsini İrəvana, digər hissəsini Muğana tərəf göndərdi. Onlar Lənkəran, Şamaxı, Şəki xanlarını itaətə gətirb Gürcüstana hərəkət etməli idilər. Ağa Məhəmməd xan özü üçüncü dəstə ilə Qarabağa hərəkət etdi. İbrahim xanı yalnız onu şah kimi tanımaqdan imtina etdiyinə görə deyil, həm də II İrakli ilə itifaqına görə cəzalandırmaq istəyirdi.[35]

Çıldır valisi Şərif paşa 1795-ci il 26 sentyabr (13 ramazan 1210 h.) tarixli məlumatında Tehrandan hərəkət edən Ağa Məhəmməd xan Qacarın Qarabağa gəlib Şuşa qalasını mühasirəyə aldığını, Qarabağın kəndlərini yağmaladığını, ancaq Şuşa qalasını ala bilməyib Tiflisə doğru hərəkət etdiyini xəbər verirdi. Şərif paşa yazırdı ki, Tiflisə doğru hərəkət edən Ağa Məhəmməd İrəvanı almağı tapşırdığı qardaşı sərdar Əliqulu xanın yanına adam göndərib İrəvan xanının itaət razılığı müqabilində onu öz yerində saxlayıb qardaşını, ailəsini və İrəvan əyanlarından 5-10 nəfəri girov kimi alıb Tiflisə göndərməyi, Əliqulu xanın özünün isə qoşunla bərabər Gəncəyə yaxın Şəmkir mahalına gəlməsini əmr etmişdi.[36]

Şərif paşanın bu məlumatından məlum olur ki, Ağa Məhəmməd xan Tiflisə doğru hərəkət edərkən II İrakli topladığı qoşunla şəhərdən çıxaraq Həsən suyu adlı mahala gəlmiş, burada baş vermiş vuruşmada məğlub olub Gürcüstanı tərk etmiş, Kartli-Kaxeti çarlığı əhalisinin bir hissəsi Car, digər hissəsi isə Qars və Çıldır tərəflərə qaçmışdı.[37]

Şərif paşa Ağa Məhəmməd xanın hələlik Osmanlı hüdudlarına zərər yetirmədiyini qeyd edərək, gələcəkdə belə hərəkətin ehtimalını aradan qaldırmaq üçün münasib bir şəxsin Ağa Məhəmməd xanın yanına göndərilməsini təklif edirdi.[38] Osmanlı hökuməti Azərbaycanda baş verən hadisələri izləyirdi, Ərzurum paşasına diqqətli olmaq tapşırılmış, digər sərhəd mühafizlərinin də Ərzurum valisinin iradəsinə uyğun hərəkət etmələri barədə göstəriş verilmişdi. 1796-ci ilin fevralında Yusif Ziya paşanın İstanbula göndərdiyi məlumatda Ağa Məhəmmədin Osmanlı torpaqlarına keçən İran və Azərbaycan əsilzadələrini geri qaytarılmasında israr etdiyi bildirilir, gürcü çarının xahişi ilə bir xeyli rus əsgərinin də Tiflisə gəldiyinə diqqət yönəldilirdi.[39]

1795-ci ilin yayında -Tiflisə hücum ərəfəsində - Ağa Məhəmməd Cənubi Qafqazda olduğu müddətdə sərhəd paşaları çox narahat idilər və onun Osmanlı hüdudlarına daxil olacağından ehtiyat edirdilər. Lakin Ağa Məhəmməd xan heç yerdə Osmanlı sərhədlərini pozmayıb 1795-ci ilin payızında ərzaq çatışmazlığı hiss edən zaman sərhəd paşalarından ordusu üçün xeyli buğda, yağ, qoyun və s. tələb etmişdi. Bu şeylər ona çatdırıldığına görə razı qalmış Ağa Məhəmməd xan məmnuniyyətlə qəbul edərək, özü Sultana 50 nəfər və paşalara bir neçə gürcü əsiri göndərmişdi.[40]

Qeyd edək ki, Rusiya hökuməti Osmanlı sarayı ilə Ağa Məhəmməd xan arasında bir sövdələşmə olduğunu güman edirdi. Rus hökumətinin Cənubi Qafqaza qarşıdakı yürüşlərə başçılıq edəcək general V.Zubova hazırladığı buyruqda deyilirdi ki, Ağa Məhəmməd xan bir çox yerləri özünə tabe etdikdən sonra öz qoşunlarının sayını 200 min nəfərə çatdırmaq qərarına gəlsə də, nə bu, nə də iranlıların Kürdüstana gəlməsi Osmanlı sarayını narahat etməmişdir. Güclü Bağdad paşası öz nüma-yəndəsini Ağa Məhəmməd xanın yanına göndərmişdir. Nəhayət, keçən 1795-ci ildə Ağa Məhəmməd xan öz qoşunlarını Osmanlı sərhədlərinin yanı ilə apararaq, heç yerdə Osmanlı imperiyasının sərhədlərinə toxunmamışdır. Elə görünür ki, Diyarbəkir, Bəyazid. Qars və Ərzurum paşaları bu yırtıcının yürüşündən narahat olmalı idilər. Osmanlı sarayı özünü narahat və qayğılanmış göstərirdi. Lakin bir yandan iranlıların osmanlı torpaqlarına və mənafelərinə toxunmamaları, digər yandan paşaların Ağa Məhəmməd xanın bütün tələblərini yerinə yetirmələri və ona hər zaman rəğbət göstərmələri, hətta onun tələbi ilə qoşunları üçün ərzaq göndərmələri aydın şəkildə onlar arasında razılıq olduğunu göstərir. Rusiya hökuməti belə hesab edirdi ki, osmanlıların öz təhlükəsizliyi adına tədbirlər görməsi, Asiyada sərhəd paşalarına artilleriya,

həyati ehtiyatlar, xüsusən də hərbi sursat göndərməsi «yırtıcının» (Ağa Məhəmməd xanın – T.M.) əli ilə Rusiya mənafelərinə zərbə endirməsi üçün iranlıların əlinə keçməsi məqsədi güdür.[41]

Bölgədəki vəziyyət haqqında İstanbula digər sərhəd mühafizlərindən də məlumat gəlirdi. Yeni Çıldır valisi Mehmet paşa 1795-ci il 28 oktyabr tarixli məlumatında Tiflis yanında gürcü çarı ilə Ağa Məhəmməd xan arasında baş vermiş vuruşma və hələlik Osmanlı sərhədləri üçün bir təhlükə olmadığı haqqında yazır, təcavüz olacağı təqdirdə daha təsirli cavab verə bilmək üçün yardım istəyirdi. Anapa mühafizi Mustafa paşa da öz bölgəsindəki vəziyyət haqqında raportlarla İstanbulu məlumatlandırırdı.[42]

Sərhəd valiləri və mühafizlərindən gələn məlumatları müzakirə edən divanda bildirilmişdi ki, Rusiyaya qarşı Ağa Məhəmməd şahın dəstəklənməsi yeni müharibədən çıxmış Osmanlı dövlətini Rusiya ilə qarşılaşdıra bilər, Rusiyanın dəstəklənməsi də məqbul deyildir, çünki bu bir yandan Osmanlı dövlətinin müttəfiqi olan Azərbaycan xanlarının mənafelərinə zidd olar, digər yandan da Türkiyənin özü üçün təhlükəlidir, çünki rusların Azərbaycana gəldikdən sonra Anadoluya da təcavüzə hazırlaşacaqları məlum idi. Buna görə də divanda hələlik hər hansı bir tərəfə yardım edilməməsi, sərhəd hakimlərinə ehtiyatlı olmaq barədə göstəriş göndərilməsi barədə qərar qəbul edilmişdi.[43]

Türkiyə tarixçisi Çakmakın qeyd etdiyi kimi, bu dövrdə Osmanlı dövləti Azərbaycanda cərayan edən hadisələrə qarşı qəti bir mövqe tutmamış, yəni nə xanların istəklərini yerinə yetirmiş, nə də onun üçün gerçəkdən böyük təhlükə törədən Rusiyaya qarşı İranla birgə hərəkət edə bilməmişdi. Osmanlı dövlətinin bu ehtiyatlılığı müharibədə məğlubiyyətdən sonra ilk baxışda bəlkə normal görünə bilər, lakin Qafqazda baş verən yeni hadisələr rusların xeyrinə nəticələnəcəyi halda durumun onun üçün daha çox fənalaşacağı da labüd idi. Buna baxmayaraq, Osmanlı hökuməti lazım olduğundan daha çox ehtiyatlı davranmış, hadisələrə müdaxilə etməkdən çəkinmişdi.[44]

### 2. V.Zubovun başçılığı ilə Rusiya qoşunlarının Azərbaycana basqını və Osmanlı hökumətinin Cənubi Qafqazda rus işğalçılarına müqavimət təşkil etmək cəhdləri

Yassı sülh müqaviləsi bağlandıqdan sonra Qafqazda yenidən fəallaşmış Rusiya Xəzəryanı vilayətləri zəbt etmək planlarını həyata keçirməyə çalışırdı. Onun müharibədən qalib çıxması Xəzəryanı vilayətləri ələ keçirmək planını sürətləndirdi. Bununla əlaqədar olaraq Rusiya hökuməti Qafqazdakı rus qoşunlarının komandanı general Qudoviçə iki buyruq göndərmişdir. 1792-ci il mayın 8-də (19) verilmiş birinci buyruqda deyilirdi ki, dağlı hakimlərlə yanaşı, Azərbaycan xanlıqlarının rəğbətini qazanmaq ruslar üçün əlverişlidir. Rusiyaya xeyirxahlıqla yanaşan bütün xanların ali himayəyə qəbul olunacaqları barədə arxayın edilmələri gərəkdir.[1]

1793-cü il aprelin 19-da (30) verilmiş ikinci buyruqda isə Xəzəryanı torpaqları Osmanlı imperiyasının məlum marağından uzaqlaşdırmaq, həmin ərazilərdə Rusiyaının mənafeyini möhkəmləndirmək üçün Xəzər dənizində Rusiyanın hərbi donanmasını saxlamaq nəzərdə tutulurdu. Bundan əlavə buyruqda yazılmışdı: əgər qeyri-itaətkar xanlardan hər hansı biri əngəl törətmək, razılaşmayıb üsyan etmək istəsə, onları rus eskadrası vasitəsilə susdurmaq çox da çətin olmayacaqdır.[2] II Yekaterina hökuməti Azərbaycan xanlıqları ilə Kartli-Kaxeti çarlığıyla 1783-cü ildə bağlanmış Georgiyevsk müqaviləsi nümunəsində sənədlər imzalamaq istəyirdi.

İlk vaxtlar Rusiya Ağa Məhəmməd xan Qacara qarşı ikiüzlü siyasət yeridir, ona düşmən münasibət bəsləsə də, hələlik üzdə dost görsənməyə çalışırdı.

İmperatriçənin 1795-ci il tarixli 4 sentyabr fərmanı ilə general Qudoviçə İrakliyə yardım üçün artilleriya ilə birlikdə iki piyada batalyonu göndərmək sərəncamı verilmişdi. Vəziyyət tələb edərdisə, yenə iki batalyon göndərmək olardı.[3] Rusiya hələ də ümid edirdi ki Ağa Məhəmməd xan Gürcüstana hücum etməyəcəkdir. Tarixi ədəbiyyatda belə bir ehtimal var ki, iranlıların Tiflisə yürüşünə İraklinin şaha tabe olmaqdan imtina etməsi ilə yanaşı, iranlılar Şuşanı mühasirə etdikləri zaman İraklinin Gəncəyə ekspedisiya göndərməsi səbəb olmuşdur. Gəncəli Cavad xan şahı Tiflisə yürüşə sövq edirdi. İrakli özü avqustun 29-da Çavçavadzeyə yazırdı ki, Ağa Məhəmməd xan «Gəncəni və İrəvanı qoparmaq üçün» yürüş edir.[4]

Tiflisi zəbt etdikdən sonra Ağa Məhəmməd xan gözlənilmədən Muğan çölünə tərəf çəkildi. Ağa Məhəmməd İrakliyə ona tebe olması şərtilə «sülh və dostluq» təklif etdi. Qudoviç çara, vəd olunmuş yardımı gözləyərək danışıqlarla vaxtı uzatmağı məsləhət gördü. İndi Ağa Məhəmməd xanın Tiflisə ikinci yürüşündən ehtiyat edərək, rus hökuməti Kartli-Kaxeti çarlığına yardım göstərməyə çalışırdı. Tələsik polkovnik Sıroxnevin başçılığı ilə iki atıcı (yeger) batalyonu Mozdokdan Gürcüstana göndərildi.

Təxminən bu sayda digər rus hərbi dəstəsi general-mayor Savelyevin başçılığı ilə payızın sonlarında Qızlardan Cənubi Qafqaza göndərildi.[5]

Qafqazda sözün əsl mənasında tufan qopmuşdu. Bir tərəfdən Ağa Məhəmməd, digər tərəfdən rus komandanlığı öz nümayəndələrini yerli hakimlərin yanına göndərərək tabe olmağı tələb edirdilər. Ancaq qəribədir ki, belə çox təhlükəli anda belə Cənubi Qafqaz hakimləri arasında didişmələr davam edirdi. Ərzurum valisi Yusif paşa Osmanlı sarayına göndərdiyi 1796-cı il 28 may (2 zülkədə 1210 h.) tarixli məlumatında (şukka) yazırdı ki, İrəvanlı Məhəmməd xanın eşik ağası (qapıçılar kətxudası) Məhəmməd bəy Ərzuruma gəlmişdir. Məhəmməd bəylə söhbətdən məlum olmuşdur ki, Ağa Məhəmməd xan Muğandan keçib Tehrana getdikdən bir müddət sonra II İrakli Rusiyadan aldığı bir neçə min və ondan asılı olan qazaxlı və sair bölgələrdən çağırdığı bir neçə min əsgərlə Qarabağlı İbrahim xanla müttəfiq olub Gəncəyə hücum etmişdir. Qalanı ala bilməyən gürcülər Gəncənin ətrafını qarət etmişlər. Gəncə xanı Ağa Məhəmməd xandan yardım etməsini xahiş etmiş, Ağa Məhəmməd xan hələlik Xorasana getməli olduğunu bildirib qardaşı Əliqulu xanı 20 minlik qoşunla Gəncəyə tərəf göndərmişdir.[6]

1807-ci ilə (h. 1221) aid edilən, əslində isə 1797-ci ilə, yaxud 1796-cı ilin sonuna aid olan bir təhriratda Ağa Məhəmməd xanın öz eşik ağası Məhəmməd bəyi Ərzurum valisi Yusif paşanın yanına göndərdiyi xəbər verilirdi. Məhəmməd bəy bildirmişdi ki, Ağa Məhəmməd xan Muğan səhrasından Tehrana qayıtıqdan sonra bir müddət Tehranda qalmış, sonra Xorasana səfər hazırlığı görmüşdür. Bu zaman II İrakli ruslardan aldığı bir neçə min, və Qazax elatlarından topladığı bir neçə min əsgərlə Qarabağlı İbrahim xanla birgə Gəncəyə basqın etmiş, lakin qalanı ala bilməyərək, ətraf yerlərin sakinlərini qarət etmişlər.[7] Bu sənəddə də Gəncə xanının məktub göndərərək Ağa Məhəmməd xandan kömək istəməsi, Ağa Məhəmmədin özünün Xorasana səfərə hazırlaşdığı üçün qardaşı Əliqulu xanı 20 min əsgərlə Gəncə tərəf yola saldığı təsdiqlənirdi.[8]

Bağdad valisi Süleyman paşa Tiflisi alması münasibətilə Ağa Məhəmməd xanı təbrik etmək üçün bir nəfəri Tehrana onun yanına göndərmişdi. Bu şəxs xəbər verirdi ki, Ağa Məhəmməd xanın ordusunda vəba xəstəliyi yayıldığından əsgərlərin çoxu ölmüşdür. Buna görə də o yenidən qoşun toplamağa məcbur olmuşdur. Zülqədə ayının 7-ci günü Xorasana tərəf hərəkət etmək niyyətindədir.[9]

Ağa Məhəmmədin gözlənilmədən Xorasana oradakı qi-yamı yatırmaq üçün yönəlməsi və kütləvi xəstəliklərin yayılması nəticəsində qoşunlarının zəfləməyə başlaması Rusiya hökumətinin cəsarətini artırdı. Məlum olduğu kimi, Ağa Məhəmməd xanın Cənubi Qafqaza yürüşü və Rusiyanın himayəsində olan Kartli-Kaxeti çarlığının paytaxtı Tiflisi alıb yandırıb-yaxması Rusiyanın bu regiondakı maraqları üçün böyük təhlükə təşkil edir və gürcülərin, ermənilərin gözündə nüfuzunu aşağı salırdı. Buna görə də Rusiya həm sarsılmış nüfuzunu bərpa etmək, həm də Cənubi Qafqaza dair çoxdan hazırladığı işğalçı planlarını gerçəkləşdirmək üçün Cənubi Qafqaza nəzərdə tutulmuş hərbi səfərə başlamağı qərara aldı. Lakin general A.V.Suvorov qarşıdakı yürüşə başçılıqdan imtina etdi. Bu vəzifə II Yekaterinanın aşnası knyaz Platon Zubovun qardaşı qraf Valerian Zubova həvalə olundu. 1796-cı ilin yazında qraf V.Zubovun başçılıq etdiyi rus qoşunları Dərbənd istiqamətindən Azərbaycana hərəkət etdilər. [10]

Əvvəlcə rus qoşunlarının 4-5 min nəfərlik dəstəsi gen. Savelyevin başçılığı ilə Dərbəndə yaxınlaşdı. Quba xanı Şeyxəli xan Qazıkumuk hakimin oğlu Xambutay xanla bilikdə Dərbəndi müdafiə etmək qərarına gəldi. Savelyevin dəstəsinin Dərbəndi almağa gücü çatmayacağını görən gen. Zubov əsas qüvvələrlə Dərbəndə tərəf tələsdi. Eyni zamanda general Bulqakovun briqadasına dağ çığırlarından keçərək Dərbənd qalasının cənub tərəfinə çıxmaq əmri verildi.[11]

Dərbənd müqaviməti dayandırmadığından V.Zubov əsas qüvvələrlə bura tələsdi və mayın 13-də şəhərin lap yaxınlığında düşərgə saldı. Qala toplardan güclü atəşə tutuldu. Ətrafındakılar şəhərin dağılmasının və şəhər sakinlərinin kütləvi qırılmasının qarşısını almaq üçün Şeyxəli xanı təslim olmağa vadar etdilər. Qaynaqlar şəhərin süqutunda ermənilərin mənfur rol oynadıqlarını göstərir. Belə ki, gecə ikən şəhərin bir neçə erməni sakini gizlicə rusların düşərgəsinə gəlib qala divarlarının zəif yerləri haqqında məlumat vermişdi.[12]

Bəzi rus tarixçilərinin yazdığına görə, rusların böyük qüvələrinin Dərbəndə yaxınlaşdığını görən Şeyxəli xan 30 min manatlıq hədiyyə və 10 min manatlıq pulla öz elçisini Ərzurum vasitəsilə İstanbula göndərərək yardım xahiş etmişdi. Lakin Osmanlı hökuməti bu xahişi yerinə yetirməmişdi.[13] Dərbənd Rusiya qoşunları tərəfindən zəbt olunduqdan sonra Şeyxəli xanın özünün verdiyi ifadədəyə görə, o, 1796-cı ilin aprelində Hacı adlı bir məmurunu İstanbula yola salınması və yardım xahiş etməsi üçün Ərzuruma göndəribmiş.[14]

Xanlıq əhalisinin Şeyxəli xana sədaqətini və rəğbətini görən gen. Zubov onu Rusiyaya sürgün etməkdən çəkindi. Xanı Dərbənddə qoymaq təhlükəli idi. Xanlığın idarəsini Şeyxəli xanın anadan ögey

bacısı Pəricə xanıma həvalə etdi. Vaxtilə Dərbənd xanı olmuş Məhəmməd Hüseyn xanın qohumu Xıdır bəyi isə ona köməkçi təyin etdi.[15]

Zubov yürüşə bir neçə gün qalmış II Yekaterinadan Azərbaycan türkcəsinə, farsca, gürcücə və ermənicəyə tərcümə olunub çoxaldılmış bəyannamə (manifest) almışdı.. Bəyannamə Cənubi Qafqaz əhalisi arasında yayılmalı idi.[16]

V.A.Zubova xəbər çatmışdı ki, yorulmuş, taqətdən düşmüş qoşunları Tehrana çəkmiş Ağa Məhəmməd Gilandan o yana Xəzəryanı vilayətləri möhkəmləndirir, qüvvəsini bərpa etdikdən sonra yenidən Araz çayına doğru hərəkət etmək niyyətindədir. V.A.Zubov xeyli narahat olduğu üçün qardaşı P.A.Zubovdan ona əlavə hərbi və silah yardımı göndərilməsini xahiş etmişdi.[17]

Rusiya komandanlığının işğalçılıq planlarında çax mühüm yer tutan şəhərlərdən biri Bakı idi. V.A.Zubov sonralar yazırdı ki, Rusiyanın İranla ticarəti üçün Bakı yeganə əlverişli və gəlirli yerdir. Bakını almaqla ticarət genişlənər və bu, Rusiyaya bütün İrana güclü siyasi təsir etmək imkanı verər.[18] V.Zubov həm də belə bir məqama diqqəti cəlb edirdi ki, hindlilərin bir çoxu Bakıdakı atəşgahı ziyarətə gəlir. Bakını inkişaf etdirmək, ticarəti genişlədirmək yolu ilə Bakını hindlilərin Məkkəsinə çevirmək olmazmı?- deyə Zubov ritorik sual verirdi.[19] General V.Zubov 1796-cı il oktyabrın 31-də (noyabrın 2-də) yeni Şamaxı altındakı düşərgəsindən II Yekaterinaya yazırdı ki, Qafqaz korpusu noyabrın 17-də onunla birləşmişdir. Güclü yağışlara görə korpus 15 gün yeni Şamaxı altındakı düşərgədə qalmış, sonra 3 aylıq azuqə ehtiyatı götürərək Gəncəni tutmaq üçün hərəkət etmişdir. Zubov bildirirdi ki, o əsas qüvvələrlə Kür çayını keçib Muğan çölünə gedəcək.[20]

Rusiya hökuməti Arazla Kürün qovuşduğu yerdən bir qədər cənubda Yekaterinaserds adlanacaq qala inşa etmək, burada 2000 nəfər gənc əsgər məskunlaşdırmaq, onları silah və istehsal alətləri ilə təchiz etmək istəyirdi. Gürcülər və ermənilər bu əsgərləri gəlinlə təmin etməli idilər.[21]

Rusiya qoşunları Azərbaycan xanlıqlarını bir-birinin ardınca işğal etsələr də, çox böyük əhəmiyyət verdikləri İrəvan xanlığını tutmağa tələsmirdilər. Çünki İrəvana rus hərbi dəstələrinin göndərilməsi 1792-ci il Rusiya-Osmanlı Yassı müqaviləsinin şərtlərinə zidd idi. Eyni zamanda Təvəkkül xanın başçılığı ilə min nəfərə qədər İran döyüşçüsünün İrəvanda olması, onların osmanlılara ilə əlaqə yaratması V.Zubovu narahat etməyə bilməzdi. Sultanın əmri ilə sərəsgər Yusif paşa beş min nəfərlik qoşunla İrəvan xanlığına yaxınlaşmış, Təvəkkül xanın yanına nümayəndələrini göndərib ona rusların əleyhinə birgə mübarizə aparmağı təklif etmişdi.[22]

Gen. Zubov 1796-cı il noyabr ayının əvvələrində II Yekaterinaya yazırdı ki, Axısqadakı (Çıldır) sərəsgər Yusif paşadan və Osmanlı sarayından Qafqaz hakimlərinə təkliflə müraciət edilmiş, onlara «İrana soxulmuş rusları» silah qaldırıb qovmağın (xüsusən Dərbənddən) vacibliyi xatırladılmış, pul və hədiyyələr göndəriləcəyi bildirilmişdi.[23]

V.Zubovun Azərbaycana yürüş etməsi xəbərindən narahat olan III Səlim bütün vasitələrlə rusların Cənubi Qafqazdakı əməliyyatına mane olmağa çalışırdı. Məhz buna görə də Osmanlı hərbi dairələri Rusiya ordusunun marşrutu və cəmləşdiyi yerləri öyrənmək üçün Azərbaycana casuslar göndərirdi. Gen. Savelyevin aldığı məlumata görə, sentyabrın 28-də Türkiyədən Bayraqdar Osman adlı bir şəxs Qazıkumuklu Surxay xanın yanına gəlmiş, Çıldırdan Anadolu sərəsgərinin məktubunu və 2 dəri kisədə çoxlu qızıl gətirən həmin şəxs avar Ümmə xanın da yanına getmişdi.[24]

Surxay xan paşanın məktubunu alan kimi təbəələrini yığıb məktubu onlara göstərmiş və aldığı hədiyyələri paylamışdı. Qazıkumuk kəndxudaları bildirmişdilər ki, ruslar onlara mal-qarasını düzə endirməyə icazə vermirlər, buna görə də bir yol tapıb onları bu diyardan çıxarmaq lazımdır. Surxay xan Ümmə xandan xəbər gözlədiyini bildirmiş, eyni zamanda döyüşçü toplamağı əmr etmişdi.[25]

1796-cı ilin oktyabrında Rusiyanın işğalı ilə barışmayan feodallar osmanlıların təkidi nəticəsində öz dəstələri ilə Qubada yerləşən rus hərbi hissələrinə hücum etdilər. Rusların əleyhinə çıxan dəstələrə qazıkumuklu Surxay xanın oğulları Bayram, Xanbutay, habelə Molla Tağı, yerli feodallardan Məhəmməd Əli bəy, Ağa Məhəmməd bəy rəhbərlik edirdilər. Onlar Qubaya çatar-çatmaz Molla Tağı dəstənin önünə keçərək III Səlimin fərmanını ucadan oxuya-oxuya yerli əhalini ruslara «cihad» elan etməyə çağırmağa başladı. Qubadakı rus qarnizonu onları yaylım atəşinə tutdu. Buna baxmayaraq, yerli dəstələr Qubaya yaxınlaşmağa cəhd göstərdilər. Rusların nəzarəti altından çıxıb qaçmağa nail olan Şeyxəli xan Qrız kəndinə gəldi və xanlıq sakinlərini ruslara qarşı mübarizəyə təşviq etməyə başladı. Rus işğalçılarından narazı olan bir çox sakinlər xanın ətrafında toplaşmağa başladılar.[26]

İşi belə görən Zubov Şeyxəli xanı tamamilə xanlıqdan məhrum etmək qərarına gəldi və Fətəli xanın Şərəfnisədən olan oğlu (Pəricənin doğma qardaşı) Həsəni xan elan etdi. Şeyxəli xan Qazıkumuk

hakiminin oğlu Xambutayla və onun vasitəsilə Şamaxılı Mustafa xanla və şəkili Səlim xanla əlaqə yaratdı.[27]

Gen. Bulqakov polkovnik-leytenant Bakuninin başçılığı ilə 500 nəfərlik dəstəni 2 topla Alpan kəndində toplanmış yerli qüvvələrə qarşı göndərdi. Bakunin və dəstəsi məhv edildi. Yalnız polkovnik Stoyanovun başçılığı ilə 1 piyada alayı döyüş meydanına göndərildikdən sonra qubalılar və dağıstanlılar meşəyə çəkilməli oldular.[28]

Alpan kəndinin yaxınlığında baş verən əlbəyaxa vuruşma rus qoşununun qələbəsi ilə nəticələndi.Yerli qüvvələrdən cəmi 310 nəfər, o cümlədən Molla Tağı və Surxay xanın oğlu Bayram, döyüş meydanında həlak oldu. Bu döyüşdə 94 əsgər, polkovnik-leytenant Bakunini və 2 nəfər kapitanı itirən rus komandanlığı Qubada yerləşdirdiyi qarnizonunu daha da möhkəmləndirdi.[29] Tarixi ədəbiyyatda yanlış olaraq Xambutayın da həlak olduğu göstərilir. Ancaq Xabutay xilas ola bilib azsaylı tərəfdarı ilə Kürə dağlarına çəkilmişdi.[30]

Ərzurum valisi Yusif paşa 1796-cı il 26 dekabr (25 cümadəvval 1211 h.) tarixli təhrirində aşağıdakıları yazırdı: onun Gəncə, Şamaxı və Dərbənd tərəflərə göndərdiyi casusları Hatəm xan və Abdulla həmin yerlərdən qayıdıb məlumat vermişlər ki, 16 min nəfərlik rus qoşunu ilə Qubalı Şeyxəli xan və Dağıstan hakimlərinin 30 minə yaxın dağlı döyüşçüsü arasında Kumuk mahalında qanlı döyüş olmuş, müsəlmanlar qələbə çalmış və 3 min (bəzi rəvayətlərə görə, hətta 15 min) nəfərə qədər rus əsgəri tələf olmuş, müsəlmanlar 2 top və beş min araba qənimət əldə etmişlər.[31] Əlbəttə, casusların göstərdiyi bu rəqəmlər şifahi mənbələrdən alındığına görə təxminlərə əsaslanırdı və çox şişidilmiş idi.

Şamaxılı Mustafa xan rusların təslim olmaq barədə təklifini qəbul etməyəcək ailəsi və qiymətli əmlakını götürüb Cənubi Azərbaycana keçmiş, Ağa Məhəmməd xana sığınmışdı. Qarabağlı İbrahim xan bundan əvvəl oğlunu rus düşərgəsinə göndərmiş, rus komandanlığı onu qəbul etməyib İbrahim xanın özünün gəlməsini tələb etmişdir.[32] Yusif paşa iki gün sonra təxminən eyni mövzuda təhrirat göndərmişdi. Təhriratın üstündəki dərkənardan anlaşılır ki, 1797-ci il 20 yanvar (20 rəcəb 1211-ci il) tarixdə Yusif paşaya cavab göndərilmişdi.[33]

Özünü 1796-cı ilin payızında şah elan etmiş Ağa Məhəmməd də Cənubi Qafqaza iddialarından əl çəkmir, hələ də Osmanlı dövlətinin yardımına ümid edirdi. 1796-cı il dekabrın 29-da İran şahının İstanbula gələn nümayəndəsi gətirdiyi məktubda Şah bildirirdi ki, Rusiyaya qarşı müharibəyə hazırlaşır və yazda yürüşə çıxacaq. Bunun üçün 150 min nəfərlik qoşun toplayacaq. Türkiyə bu işdə ona kömək etməli, bir sərkərdə ilə II İrakliyə qarşı qoşun göndərməlidir. İstanbuldakı Rusiya səfiri Koçubinskinin yazdığına görə, Osmanlı hökuməti bu təkliflə razılaşmayaraq bildirmişdi ki, Rusiya ilə Türkiyə arasında mövcud olan müqaviləyə zidd olduğu üçün o, II İrakliyə qarşı qoşun göndərə bilməz. Osmanlı hökuməti hər ehtimala qarşı Ərzurumdakı qarnizonu gücləndirdi; keçmiş baş vəzir Yusif paşa sərəsgər təyin olundu.[34] Osmanlı hökumətinin Ağa Məhəmmədin ittifaq təklifinə mənfi yanaşmasının bir səbəbi onun Şaha etibar etməməsi və Avstriya-Osmanlı hərblərində İranın Türkiyəyə yardım etməməsi idi.

Rusiya rezidenti 1797-ci il yanvarın 13-də Peterburqa yazırdı ki, artıq Osmanlı hökuməti də Ağa Məhəmməd şahın hərəkətlərindən narahat olmağa başlamışdır. Osmanlı hökumət adamlarının şaha münasibətində bir dəyişiklik hiss olunmağa başlayır. Koçubinskinin yazdığına görə, Xoy və Sərab xanlarının nümayəndələri İstanbula gəlmişdilər. Lakin xanların nümayəndələrinin İstanbula hansı məqsədlə gəldiyini Koçubinski öyrənə bilməmişdi.[35]

Ərzurum valisi Yusif paşa 1796-cı il 28 dekabr (27 cümadən əvvəl 1211 h.) tarixli qaiməsində Ağa Məhəmməd şahın böyük ordu ilə Tehranda olduğunu və Zəncana hərəkət niyyətində olduğunu yazırdı. Yusif paşanın casuslardan aldığı məlumata görə, Ağa Məhəmməd şah qardaşı oğlu sərdar Süleyman xanı və Xoy xanının qardaşı Cəfərqulu xanı 30 min döyüşçü ilə ruslara qarşı göndərməklə bərabər, Azərbaycan xanları da bu məqsədlə Təbrizə qüvvə toplayırlar. Bundan əvvəl Xorasanda türkmənləri darmadağın edən Ağa Məhəmməd qüvvə toplayıb ətrafa bəyannamələr göndərir. Bundan öncə Ağa Məhəmməd şahın əmri ilə Naxçıvanlı Kəlbəli xan külli süvari döyüşçü ilə Qarabağın ətraf yerlərini viran və qarət edib.[36]

Belə çətin bir məqamda da Osmanlı hökuməti Azərbaycan xanlıqları ilə sıx əlaqələrini davam etdirməkdə idi. Arxiv sənədlərində Türkiyədən Azərbaycan və Dağıstan hakimlərinin yanına tez-tez nümayəndələr göndərilməsi barədə məlumatlar var. Osmanlı sarayından alınan pullardan rus ordusu ilə döyüşmək istəyən hər nəfər üçün 50 rubl dəyərində pul da ayrılmışdı. Bu dəfə rus qoşunlarına qarşı aparılacaq mübarizəyə rəhbərlik etməyi qubalı Şeyxəli xan öz öhdəsinə götürürdü. Şəkili Səlim xanın da ruslara qarşı vuruşmağa hazır olması barədə məlumat vardı. Səlim xanın həlak olmuş məmurunun

cibindən tapılmış məktubdan aydın olmuşdu ki, o, Şeyxəli xana ruslara qarşı vuruşmağa hazır olduğunu bildirir, bunun üçün də Gələsən-Görəsən qalasında möhkəmlənmək istəyirdi.[37]

Lakin Quba ətrafındakı ciddi uğursuzluğdan sonra Azərbaycan feodalları açıq çıxış etməyə cəsarət etmədilər. Qubada baş verən hadisədən sonra Rusiya ordusunun komandanlığı osmanlıların Şimali Azərbaycan və Dağıstanda fəaliyyətinə son qoymaq üçün bir sıra tədbirlər gördü. İlk növbədə ordu arxa hissədən möhkəmləndirildi. Baş komandan qraf Zubov komandirlərə ehtiyatla hərəkət etməyi, qarşı tərəfin hər bir hərəkətinə qarşı hazır olmağı, Qubaya, Bakıya, osmanlılara xüsusi göz olmağı əmr etmişdi. Dərbəndin tezliklə rus qarnizonunun ixtiyarına verilən Narınqalasının müdafiəsi az vaxt içərisində xeyli möhkəmləndirildi. Bakı qalasında saxlanan rus qoşununun sayı artırıldı. Buradakı qarnizona da qoşun hissələri əlavə edildi. Bunula kifayətlənməyən II Yekaterina 1796-cı ilin oktyabrında Bakı qalasındakı istehkamların möhəkəmləndirilməsi barədə xüsusi buyruq verdi. Qalanın ətrafında güclü müdafiə dəstələri yerləşdirildi və Bakı körfəzinə yeni rus gəmiləri yan aldı.[38]

Osmanlı Sultanı Kartli-Kaxeti çarlığının sıxışdırdığı Gəncə xanlığına da təsir göstərmək istəyirdi. V.Zubov anlayırdı ki, Qafqazda osmanlılarla müharibə gedərsə, Gəncəli Cavad xanın onların tərəfinə kecəcəyi şübhəsizdir. Məhz buna görə də V.Zubov hər bir ehtimala qarşı Gəncə xanlığına mayor Rimski-Korsakovun başçılığı altında qoşun hissəsi göndərdi. Müqavimətin əbəs olduğunu anlayan Cavad xan qala darvazasını açmağı məsləhət bildi.[39]

Lakin Rusiya da XVIII əsrin sonlarında Cənubi Qafqazda möhkəmlənə bilmədi. 1796-cı ilin noyabrında anası II Yekaterina öldükdən sonra taxtına çıxmış İ Pavel fərqli siyasət yeridərək, əsas diqqətini İngiltərə ilə mübarizəyə yönəltdi. Digər yandan V.Zubovun yürüşü rus xəzinəsinə çox baha başa gəlmişdi. İ Pavel dövlətin ağır maliyyə durumunu nəzərə alaraq, Cənubi Qafqazdan qoşunlarını çıxartdı.

Ağa Məhəmməd şah 1797-ci ildə Şimali Azərbaycana ikinci dəfə yürüş etdi və Şuşa qalasını ələ keçirdi, lakin orada yaxın adamları tərəfindən qətlə yetirildi. Onun başsız qalmış qoşunu pərən-pərən oldu və döyüşçüləri nizamsız halda qaçdılar. Beləliklə, bütün Şimali Azərbaycan şah istibadının əsarəti altına düşmək təhlükəsindən qurtuldu.

### *3. Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsi və Osmanlı dövlətinin mövqeyi*

XVIII yüzilliyin sonunda iri dövlətlər Cənubi Qafqaza diqqəti bir müddət zəiflətdi. Bu həmin dövlətlərin diqqətinin digər problemlərə yönəlməsi ilə bağlı idi. Osmanlı imperiyası bu dövrdə özünü Napoleon Fransasının təcavüzündən qorumaq barədə düşünürdü və hətta yardım üçün köhnə düşməni Rusi-yaya da müraciət etmişdi. Rusiyanın da başı Avropa müharibələrinə qarışmışdı. 1798-ci ildə fransız generalı Napoleon Bonapart Osmanlı imperiyasına daxil olan Misirə hərbi səfər etdiyi zaman Fransanın Yaxın Şərqdə möhkəmlənməsini istəməyən rus çarı İ Pavel Türkiyə ilə ittifaqa girdi.[1] İranda taxta çıxan Fətəli şah isə hələlik ölkə daxilindəki rəqiblərini aradan qaldırmaq və hakimiyyətini möhkəmləndirməklə məşğul idi. Ağa Məhəmməd şah Şimali Azərbaycana ikinci yürüşünə çıxarəkən vəsiyyət edibmiş ki, başına bir qəza gələrsə vəliəhdi Fətəli (Baba) xan Şirazdan gəlib çıxana qədər Tehranın qapıları heç kimə açılmasın. Baba xan səfər ayının 8-i Tehrana gəldi.[2] Ərzurum valisi Yusif Ziya paşa 1798-ci il 10 avqust (27 səfər 1213 h.) tarixli qaiməsində yazırdı ki, sabiq Xoy xanı Cəfərqulu xan Fətəli (Baba) xana qarşı üsyan qaldırdığından Fətəli xan külli miqdarda qoşunla Azərbaycan tərəfə gəlmiş, Cəfərqulu xan tab gətirə bilməyib ətrafında olan elatlarla Ərzuruma keçmişdi. Fətəli xan Mehrəli bəyi Ərzurum valisinin yanına göndərib Cəfərqulu xanı ona verməyi tələb etmiş, lakin rədd cavabı almışdı.[3]

Yusif Ziya paşanın yazdığına görə, Fətəli xan Azərbaycanda olduğu zaman Şiraz xanı olan kiçik qardaşı Hüseynqulu xan qiyam edib böyük qüvvə ilə Şirazdan Tehrana tərəf hərəkət etmişdi. Fətəli xan sərdar Süleyman xanı və İrəvanlı Məhəmməd xanı da özü ilə götürüb Xoy ətrafından qardaşına qarşı hərəkət etmişdi.[4] Mehmed Sabit paşanın 1800 (1214 h.)-cü il tarixli məlumatında deyilirdi ki, Fətəli xan İraq və Azərbaycan xanlarını özünə tabe edə bilib, lakin Xoylu Cəfərqulu xanla iki ilə yaxındır ki, ədavət aparır. Bu ilin yazında Fətəli xan oğlu Abbas Mirzəni və sərdar Süleyman xanı külli miqdarda əsgərlə Cəfərqulu xana qarşı çıxmaq üçün Təbrizə göndərmişdir. Məhəmməd Emin öz miraxuru Əhməd ağanı dəqiq vəziyyəti öyrənmək üçün Xoya göndərib. 1214-cü il Rəbi-ül-əvvəl ayının 12-də (miladi 1800) geri qayıdan Miraxur Əhməd ağa məlumat verib ki, Abbas Mirzə və Süleyman xan 40 mindən çox əsgərlə Xoydan beşsaatlıq və Vandan üç mərhələ uzaqlıqda olan Salmas mahalına gəlib. Cəfərqulu xan Xoyda dayanmağa cəsarət etməyib, qardaşı Kazım bəyi Xoyda qoyaraq özü Kırbıs qalasına gəlib, orada da tab

gətirməyərək, Van vilayətinin Erçiv sancağı ilə Bəyazid vilayətinin Hapur sancağı arasında Haydaranlı tayfasının məskun olduğu Meydan adlı mahalda gizlənib. İran əsgərləri onu təqib etmək, harda olursa-olsun hücum edib ələ keçirmək əzmindədirlər. Baba xan özü də böyük qoşunla Təbrizdən iki mərhələ aralı yerə gəlmişdir.[5]

Çıldır valisi Mehmed Sabitin 1800-cü il 23 iyul (1 ramazan 1215 h.) tarixli təhrirində deyilirdi ki, onun arpa emini Əhməd ağa Osmanlı ordusunun Qahirəni alması xəbərini və İranla sülh münasibətlərini davam etdirmək arzusunu çatdırmaq üçün Qarabağdan keçməklə Təbrizə şahzadə Abbas Mirzənin yanına göndərilibmiş. Geri qayıdan arpa emininin verdiyi məlumata görə, Abbas Mirzə və Sərdar Süleyman xan məktubu aldıqdan sonra şahın və özlərinin məktubları ilə Hüseyn bəy adlı bir şəxsi İstanbula yola salmışdılar. Arpa emininin verdiyi məlumatda deyilirdi ki, şahzadə Abbas Mirzə və Sərdar Süleyman xan tabeliklərində olan qoşunla Makıya hücum edib Cəfərqulu xanı 5-10 gün mühasirədə saxlamış, Cəfərqulu xan qızını Abbas Mirzəyə verdikdən sonra Xoy xanı vəzifəsində saxlanılmışdır.[6] Bundan sonra İran qoşunu İrəvan üzərinə hərəkət etmiş, xilas olmaq istəyən elat və rəiyyətlərin çoxu Arpaçay və Qarsa yaxın olan Alaca adlı mahala çəkilmişdi. İrəvan xanı və sakinləri hədiyyələr göndərib aman istəmiş, lakin onların hədiyyələri və xahişi qəbul olunmamışdı.[7]

Mehmed Sabit paşa 1800-cü il 20 avqust (29 ramazan 1215 h.) tarixli təhriratında da öz arpa emini Əhməd ağanı Təbrizə göndərməsi və onun gətirdiyi məlumatları yenidən xatırladırdı.[8]

Qars mühafizi Neman paşa 1800-ci il 5 sentyabr (15 ramazan 1215 h.) tarixli qaiməsində Abbas Mirzə və Sərdar Süleyman xanın bir ay İrəvan qalasını mühasirədə saxladıqlarını, İrəvanlı Məhəmməd xanın Osmanlı imperiyası hüdudlarına qaçdığını xəbər verirdi. Mehmet Sabit paşa həm də yazırdı ki, aldığı məlumata görə, Fətəli şah həmin günlərdə Tehrandan Qəzvinə gəlmiş və Marağalı Əhməd xanın qızını oğluna adaxlamış və indi toy tədarükü ilə məşğuldur.[9]

İrəvanlı Məhəmməd xan Qars mühafizi Neman paşanın şahzadə Abbas Mirzə və Sərdar Süleyman xandan qoşunlarını İrəvan xanlığı ərazisindən çıxarılmasını xahiş etdiyini, bu xahişin yerinə yetirildiyini xəbər verərək, bu münasibətlə öz təşəkkürünü ifadə edirdi.[10]

Ərzurum valisi Əbdülrəhman paşanın 1802-ci il 20 fevral (17 şəvval 1216 h.) tarixli qaiməsində yazdığına görə, Xoylu Cəfərqulu xan Bəyazidə gələrək Osmanlı ərazisində məskunlaşmağa icazə verilməsini xahiş etmiş, lakin onun arzusunun bu barədə saraydan göstəriş olmayınca yerinə yetirilə bilməyəcəyi bildirilmişdi. Əbdülrəhman paşa Cəfərqulu xana Türkiyədə məskunlaşmağa icazə verilərsə, bunun iki dövlət arasındakı sülh münasibətlərinə xələl gətirəcəyindən, İran qoşularının həmhüdüd Osmanlı torpaqlarına basqın edəcəklərindən ehtiyat edirdi.[11]

Fətəli şah da, İ Pavelin ölümündən sonra yenicə hakimiyyətə gəlmiş İ Aleksandr da (1801-1825) Cənubi Qafqazı ələ keçirmək siyasətini bərpa etməyə başladılar. Bunun üçün Gürcüstanda yaranan qeyri-sabit siyasi vəziyyət vasitə oldu. Çıldır valisi Sabit paşanın 1798-ci il 8 fevral (21 şəban 1212 h.) tarixli qaiməsində deyilirdi ki, Kaxetə çəkilmiş xəstə II İrakli böyük oğlu Georgini öz yerinə çar təyin etmişdir. Lakin İraklinin digər oğulları bununla razılaşmayıb hakimiyyət uğrunda mübarizəyə başlamışlar.[12]

1801-ci il sentyabrın 12-də Georgiyevskdə bağlanan yeni müqaviləyə əsasən Kartli-Kaxetidə çar hakimiyyəti ləğv edildi və Şərqi Gürcüstan Rusiyanın tərkibinə daxil edildi. Beləliklə, Cənubi Qafqaz uğrunda Rusiya-İran rəqabəti yenidən qızışmağa başladı.

Osmanlı imperiyasının daxilində baş verən bir sıra siyasi sarsıntılar onu Cənubi Qafqaz işlərinə müdaxilə imkanından məhrum etdi. Axısqa (Çıldır) hakimi Şərif paşa Mərkəzi hökumətə tabe olmaqdan imtina edərək Sultanın əleyhinə qiyam qaldırdı. Bundan istifadə edən İrəvanlı Məhəmməd xan Şərif paşaya məktubla onu dəstəklədiyini və lazım gələrsə, ona hərbi kömək göstərməyə hazır olduğunu da bildirdi. Sultan Şərif paşanın qiyamını yatırmağı Ərzurum paşasına həvalə etdi.[13] Osmanlı dövləti «dənizdə batan ilana da sarılır» məsəlindəki kimi hərəkət edərək, hətta özünün köhnə düşməni Rusiyadan da kömək istədi. Rusiya xahişi razılıqla qəbul etdi və ayrı-ayrı paşaları sakitləşdirmək üçün Sultana kömək etməyə hazır olduğunu bildirdi. Sonra Ərzurum paşası Tiflisdəki rus komandanlığından bilavasitə hərbi yardım göstərməyi xahiş etdi. Baş komandan K.F.Knorrinq Tiflisdə olmadığından general İ.P.Lazarev gürcü şahzadələrindən Davidi Borçalıdan və Qazaxdan səfərbər etdiyi dəstələrlə birlikdə Osmanlı sərhəddinə göndərdi.[14] Ərzurum paşası 1801-ci ildə Şərif paşaya qarşı hərbi kömək üçün, eyni zamanda İrəvanlı Məhəmməd xanı Şərif paşaya yardım göstərməkdən çəkindirmək xahişi ilə K.F.Knorrinqə müraciət etdi.[15]

Yeri gəlmişkən, qeyd edək ki, vaxtilə Ağa Məhəmməd şah Qacarın kor etdirdiyi Naxçıvanlı Kəlbəli xan Çıldır hakimi ilə birlikdə Gürcüstanda hakimiyyətdən məhrum olunmuş şahzadə Aleksandra yardım göstərməyi qərara alıbmış. Dubrovinin yazdığına görə, Kəlbəli xan bu məqsədlə 12 min süvari, 2500

piyada və iki topdan ibarət qoşunla Gürcüstana Qars paşalığının sərhəddinə doğru hərəkət etmiş, bundan xəbər tutan gen. Knorrinq polkovnik Karyaginin başçılığı ilə hərbi dəstəni Qars sərhədinə göndərmdi. Kəlbəli xanın qoşunu rusların və Qars paşasının qüvvələrinə hücum etmiş, əvəlcə uğur qazansa da, son nəticədə geri çəkilməli olmuşdu.[16]

Bəzi məlumatlara görə, İrəvanlı Məhəmməd xan Kəlbəli xana kömək edirmiş. Buna görə də Qars paşası ruslara İrəvan qalasını işğal etməyi məsləhət görür, lakin onlar yalnız Gür-cüstan ərazisini qorumaq tapşırığı aldıqlarını bildiribmişlər.[17]

Bir qədər keçdikdən sonra - 1802-ci ilin mayında Məhəmməd xan yenə də öz qoşunları ilə Pəmbək və Qars paşalığı istiqamətində hərəkət etdi. Bundan xəbər tutan K.F.Knorrinq polkovnik Karyaginə onun qarşısını almaq əmri verdi və Qars paşasına öz hərbi qüvvələrini rus qoşunlarına birləşdirməyi məsləhət gördü.[18]

Mayın ortalarında birləşmiş osmanlı-rus hərbi dəstələri Məhəmməd xanın qüvvələrini ikinci dəfə məğlubiyyətə uğratdı. Qars paşası İrəvanı almağı ruslara yenə tövsiyə etsə də, onlar İranla münasibətləri vaxtından əvvəl kəskinləşdirmək istəməyərək və mərkəzdən bu barədə göstəriş olmadığını əsas gətirərək ona əməl etmədilər.[19]

1803-cü ilin iyununda İrəvan xanının elçiləri Hüseyn xan və Əli xan təhriratla İstanbula gəlmişdilər. Elçilərə 500 quruş yol xərci verilmişdi.[20] Yenə həmin ilin avqust ayında Qarabağ xanının iki elçisi İstanbula gəlmiş və onların hər birinə 500 (cəmisi 1000) quruş yol xərcliyi verilmişdi.[21]

Məlum olduğu kimi, 1803-cü ildə Rusiya qəti olaraq Azərbaycanı işğal etmək işinə girişdi. Həmin ilin yayında rus qoşunları Car-Baləkan bölgəsinə soxularaq əhalini ağır xərac vermək öhdəlikləri götürməyə məcbur etsələr də bu bölgədə möhkəmlənə bilmədilər. Çünki carlılar onlara qarşı göndərilən cəza dəstəsini başda rus generalı Qulyakov olmaqla məhv etdilər. 1803-cü ilin sonunda rus qoşunları Gəncəni dövrəyə alıb 1804-cü il yanvarın 2-dən 3-nə (13-dən 14-nə) keçən gecə hücumla şəhər qalasını zəbt etdi. Güclü rus ordusuna müqavimət göstərə bilməyəcəyini tam yəqin edən Qarabağlı İbrahimxəlil xan heç olmasa öz daxili müstəqilliyini saxlamaq xatirinə baş komandan gen. Sisyanovun Kürəkçaydakı düşərgəsinə gəldi və 1805-ci ilin mayında Rusiyanın ali hakimiyyətini tanımaq haqqında müqavilə bağladı. Bir həftə sonra İbrahim xanın arvadlarından birinin qardaşı olan Şəkili Səlim xan da ruslarla eyni məzmunda müqavilə imzaladı.

Osmanlı hökuməti Cənubi Qafqazda Rusiya hakimiyyətinin genişlənməsini təşvişlə izləyirdi və bölgədəki hər bir hadisə haqqında ətraflı məlumat istəyirdi. Kirkor adlı bir erməni casusun, yəqin ki, 1805-ci ildə[22] (Kirkor Cümadü əvvəl ayının 26-da Bağdada gəlmişdi. Tiflisdən Bağdada gəldiyi yol ərzində gördüyü hadisələr haqqında ona sorğu verilmişdi) söylədiyinə görə, səfər ayında Peterburqdan Eşbethar (Sisyanov nəzərdə tutulur – T.M.) adlı bir sərkərdə 50 min nəfərlik qoşunla Tiflisə gəlib, Ovanes adlı bir ermənini 50 süvarinin müşayiətilə elçi sifəti ilə Qarabağlı İbrahim xanın yanına göndərib rus dövlətinin himayəsinə girməsini tələb etmişdir. İbrahim xan bu təklifi qəbul edib, dörd övladı ilə birlikdə Gəncəyə Sisyanovun dü-şərgəsinə gəlmişdir. İbrahim xan geri qayıdarkən Sisyanov 600 nəfər əsgərini Şuşa qalasında yerləşmək üçün onunla birlikdə göndərmişdir. Şəki hakimi Səlim xanın yanına da (sənəddə yanlış olaraq Süleyman xan getmişdir) elçi göndərilib. O da Sisyanovun yanına gəlmiş, geri qayıdarkən onunla birlikdə Şəkidə yerləşmək üçün 700 nəfər rus əsgəri yola salınıb. Şamaxılı Mustafa xan da öz nümayəndəsini göndərib itaətini bildirmişdisə də, Sisyanov onu qəbul etməyib, İbrahim xanın yanına göndəribmiş. Mustafa xan İbrahim xanın yanına adam göndərdikdə isə İbrahim xan onu qəbul etməyib, biz Şamaxını zorla alacağıq, - deyibmiş.[23]

Kirkorun söylədiynə görə, Şamaxıya 700 nəfər əsgər göndərilmiş, Mustafa xan şəhərdən qaçmışdır.[24] Gen. Sisyanov sonra Araz çayı üzərindəki Xudafərin körpüsünün yanındakı Velbaşı məntəqəsində qaravul çəkmək üçün 600 nəfər süvari göndəribmiş. İbrahim xan da 400 nəfər süvari göndərmiş və beləliklə sayı min nəfərə çatmış döyüşçülərdən 800 nəfər körpünün yanında qərar tutublar. İki yüz nəfər çayın o biri sahilinə keçmiş, burada Abbas Mirzə onlara basqın etmiş, qırıb, yalnız 3 nəfəri xilas ola bilib. Bundan xəbər tutan qalan rus qüvvələri o biri sahilə keçərək iki topla Abbas Mirzənin qoşununa böyük zərər yetirmişlər. Şahzadə min nəfər itki vermiş, xeyli adam çayda batmışdır. Bu xəbər şaha çatdıqda o özü hadisə yerinə yönəlmişdir. Gen. Sisyanov şahın özünün körpüyə doğru hərəkət etməsi xəbərini eşidib, özü də 4 min əsgərlə ora yollanmışdır. 4 gün tərəflər arasında heç bir döyüş baş verməmiş, beşinci gün cüzi atışma olmuşdur. Sabahısı gün baş vermiş döyüşdə isə Fətəli şah məğlub olub İrəvana çəkilmişdir. Şah getdikdən sonra İrəvanlı Məhəmməd xan gen. Sisyanovun yanına elçi göndərib Rusiyaya itaətini bildiribmiş. Gen. Sisyanov 2 min nəfər əsgəri İrəvanı mühafizə etmək üçün

göndərmişdir. Kirkorun söylədiyinə görə, guya Gəncə, Şuşa, Şamaxı, Şəki, İrəvan, Naxçıvan, Tiflis, Dərbənd, Bakı və Rəşt artıq rusların əlində idi.[25]

BOA-da Hatt-i Hümayun fondunda saxlanan 6677-A saylı sənəddə olan, farsca yazılmış bir qeyddə deyilir: Kərbəlaya gəlmiş Mirzə Efasi adlı bir nəfərin gətirdiyi məktubdan aydın olmuşdur ki, rus komandanlığı 1400 əsgəri Ənzəliyə göndərmiş, oranın hakimi Mirzə Musa Rəştə qaçmışdır. Rus hərbi dəstəsi onu təqib edərək Rəştin 2 fərsəxliyidə olan Pəribazar məntəqəsinə gəlmişdir. Yerli hakimlər birləşərək qoşunlarını rusların qarşısına çıxartmışdılar. Bundan sonra hərbi dəstəsini Ənzəliyə çəkən ruslar bildirmişlər ki, 6 min tümən pul müqabilində Ənzəlini tərk etməyə razıdırlar. Rəşt əhalisi bu təklifə rədd cavabı vermiş, bir qədər döyüşdən sonra ruslar gəmiyə minib Ənzəlini tərk etmişlər (bəzi xəbərlərə görə, atışmada rus hərbi dəstəsinin başçısı həlak olmuşdu).[26]

Vaxtilə Ərzurum valisi olan Bəyazid mütəsərrifi Mahmud Təyyar paşanın 1804-cü il 22 iyun (13 ramazan 1219 h.) tarixli təhriratında deyilirdi: İrəvan xanı ona məktub göndərərək yazmışdır ki, İran şahı oğlu Abbas Mirzəni qoşunla guya rusların üzərinə göndərib, amma məqsədi İrəvanı tutmaqdır. Mahmud Təyyar paşa sədrəzəmdən soruşurdu ki, Abbas Mirzə İrəvan üzərinə hərəkət etdiyi təqdirdə necə hərəkət etsin.[27] Təyyar paşanın göndərdiyi 1804-cü il 4 iyul (25 ramazan 1219 h.) tarixli təhriratda deyilirdi ki, bundan əvvəl Osmanlıdan İrana göndərilən Əbdürrəhman və Arif adlı iki qasid İran şahının və vəzir (Etimadüddövlə) Mirzə Şəfinin məktublarını gətirən Məhəmməd Rzaqulu xan və Mirzəli adlı səfirlərlə birlikdə geri qayıtmışlar. Səfirlər səfər ayının əvvələrində Ərzuruma varid olub məktubları təqdim etmişlər. Məhəmməd Rzaqulu xan onu müşayiət edən mehmandarla İstanbula göndərilmişdir.[28]

Təhriratda daha sonra deyilirdi ki, İran şahzadəsi külli miqdarda qoşunla İrəvan əyalətini ələ keçirmək, İrəvanlı Məhəmməd xanı və Cəfərqulu xanı tutub edam etmək üçün Azərbaycana gəlmişdir. İran tərəfi Osmanlı sarayı tərəfindən Məhəmməd xanın və irəvanlıların qəbul edilməməsi, Cəfərqulu xanın ona verilməsi şərtilə Şərif paşanı öz hökumətinə qaytarmağa hazır olduğunu bildirir.[29]

Təhriratda həmçininn bildirilirdi ki, keçən il Bağdada gələn İran tacirlərinin karvanı Murad paşa tərəfindən qarət olunmuş, sonra topuzlu, qobunlu və təbrizli 15 taciri tapıb Murad paşa onlara dəyən zərərin bir hissəsini ödəmişdir.[30] Xoy və Təbriz tacirləri İstanbuldan gələrkən Murad paşa qanuna zidd olaraq Muş ərazisində gömrük və bac adıyla zorla onlardan 380 quruş aldığından Mahmud Təyyar paşa bildirmişdi ki, həmin məbləğin adı gedən paşadan alınıb tacirlərə qaytarılması vacibdir.[31] Mahmud Təyyar paşanın bu təhriratı üzərində Sultan belə dərkənar qoymuşdu: «İraniyanın bunda hiç bir kabahati yok ve sözleri doğru. O herifi niçün tesahub eyliyorlar. Cedid ferman gitsün. Elbett def eylemesinler»[32] (Yəni: iranlıların heç bir günahı yoxdur və sözləri doğrudur. Nəyə görə Murad paşa himayə olunur. Tez fərman göndərilib ədalət bərpa olunsun).

Mahmud Təyyar paşanın 1804-cü il 9 iyul (Selb-i Ramazan h.) tarixli təhrirində deyilirdi ki, Abbas Mirzə 40-50 min nəfərlik ordu ilə Tiflisi və İrəvanı tutmaq üçün İrəvan ətrafına gəlib qalanı mühasirə etdiyini bildirmiş və elatların Türkiyəyə keçməsinə imkan verilməməsi xahişi ilə Niftalı adlı elçisini Mahmud Təyyar paşanın yanına göndəribmiş. Qars mühafizi Mahmud paşa bildirib ki, Abbas Mirzə Osmanlı dövlətindən üz döndərmiş Şərif paşanı tabeliyində olan 10 min nəfərə qədər süvari ilə və bəzi başqa xanları Tiflis tərəfə göndəribmiş (?). Rus qoşunları gəlib Şuragöl mahalında iranlıların min nəfərə qədər süvarisini darmadağın edib. Bir osmanlı casusunun verdiyi məlumata görə, iranlılardan cəmi 500-600 nəfəri salamat çıxıb, bütün top və hərbi sursatı itiriblər.[33] Rus komandanlığı İrəvanlı Məhəmməd xana yardım etmək, həm də iranlıları qəti məğlubiyyətə uğratmaq üçün hərəkətə keçib, İrəvanı mühasirədə saxlayan Abbas Mirzənin özünü mühasirəyə alıbmış.[34]

Osmanlı hökuməti sərhəd paşalarına əmr etmişdi ki, elatları Abbas Mirzəyə qaytarsınlar və onları Osmanlı imperiyası torpaqlarına buraxmasınlar.[35] Rus komandanı bir nəfəri Qars mühafizi Mahmud paşanın yanına göndərmiş, ruslar İrəvanı və İranı zəbt edincəyə qədər elatları bir tərəfə verməyib, Osmanlı imperiyası hüdudlarında (hərbi əməliyyatlar bitməyənədək) saxlamağı təklif etmişdi. Mahmud Təyyar paşa hesab edirdi ki, iranlıların ruslara qarşı müqavimət göstərə bilməyəcəyi aydındır və buna görə də Rusiya ilə dost münasibətləri saxlamaq sərfəlidir. O, Rusiya komandanlığının yanına Əhməd Vasim Əfəndini göndərməyi təklif edirdi.[36]

Mənbələrdən məlum olur ki, 1805-ci ilə kimi Osmanlı hökuməti hələ Fətəli xanı İran şahı kimi tanımırmış. Baş vəzir 1805-ci ildə Sultana yazdığı təhrirində Fətəli xanın İstanbula elçi göndərib onu şah kimi tanımağı xahiş etdiyini bildirirdi. Vəzir bunu məqsədəuyğun hesab etməyərək, İrana elçi göndərərkən məktubda Fətəli xanı şah adlandırmamağı təklif edirdi.[37]

1811-12- ci illərdə (1226 h.) Osmanlı hökuməti tərəfindən İrana göndərilən elçi Yasinzadənin şah hökuməti ilə danışıqlarında bir sıra uğurlar qazanıldığından İran tərəfi də Mirzə Məhəmməd xanı

İstanbula elçi kimi göndərməyi qərara almışdı.[38] Ayrı bir məlumatda isə Mirzə Məhəmməd xanın 1806-07 (1218 h.) tarixdə İstanbula göndərildiyi qeyd olunur.[39]

O dövrün Osmanlı mənbələrində Azərbaycan xalqının rus işğalına qarşı mübarizəsi haqqında məlumat var. Ərzurum valisi Osman paşanın 1808-ci il 27 apreldə (1223-cü il Rəbi-ül əvvəl h.) sədarətə göndərdiyi məlumatda deyilirdi ki, farslardan qaçmış Şamaxılı Mustafa xan Hüd dağı deyilən yerdə gizlənirmiş. Xoylu Cəfərqulu xan yanındakı rus əsgərləri ilə onun üzərinə getmişdir. Lakin Xanbutay və bəzi başqa dağıstanlı hakimlərdən yardım alan Mustafa xan onu məğlub edib geriyə qaçmağa məcbur etmişdir. Tiflisdə olan rus generalı Qudoviç bundan xəbər tutub Cəfərqulu xanın yanına daha 2 min rus əsgəri göndərmişdir.[40]

Abbas Mirzə 1810-cü ildə Osmanlı hökumətinə Rusiyaya qarşı ittifaq bağlamağı təklif etmişdi. Osmanlı hökuməti təklifi qəbul etmiş və birgə hərəkətə başlamışdı. Ancaq Şərq sərəsgəri Emin paşaya qarşı sui-qəsd nəticəsində bu təşəbbüs uğursuzluqla nəticələnmişdi.[41]

Osmanlı dövləti nəinki İranla rəsmi ittifaq bağlamamış, həm də bölgədə olan sərkərdələri arasındakı anlaşılmazlıqlar üzündən böyük bir hərbi səfər də təşkil etməmişdir. Doğrudur mənbələrdən görünür ki, 1806-12-ci illər müharibəsi dövründə Osmanlı hökuməti Rusiya ilə müharibə üçün «Azərbaycan səhrası»na da əsgər toplayıbmış. Müharibə bitdiyindən həmin qoşunu tərxis etməkdən söhbət gedirdi.[42]

Osmanlı hökuməti ona sadiq Qafqaz sakinlərinin rus qoşunlarına qarşı mübarizəsini dəstəkləyərək böyük torpaq itkisinə məruz qalmadan Buxarest (1812) sülhünü imzalamışdı. Bunun sayəsində ruslar bir yandan Napoleonun hücumu ərəfəsində osmanlılarla müharibəni dayandırmağa nail olmuş, digər tərəfdən Şimali Azərbaycanı istila etmək üçün hərəkət sərbəstliyi imkanı qazanmışlar.[43]

Xanlıqlara açıq hərbi yardım göstərmək iqtidarında olmayan Osmanlı hökuməti onlara mənəvi dəstək göstərməklə, onlarla diplomatik əlaqə saxlamaqla kifayətlənirdi.

1813-cü il 13 yanvar (Fi Evaili Rəbuül-əvvəl 1228 h.) tarixli xətti-hümayunda Dağıstanlı Surxay xana, Dərbənd (Quba) hakimi Şeyxəli xana, Şəki hakimi Səlim xana və sair xanlara Məkkə, Mədinə və Ciddənin xaricilərdən (vəhabilərdən) geri alınması haqqında müjdə verilirdi.[44]

1813-cü il 13 mart (Fi Evaili Rəbuül-axer 1228 h.) tarixli xətti humayunda Surxay xana, Şeyxəli xana və başqa xanlara yeni Sultanın taxta çıxması münasibətilə Türkiyədə şənlik mərasimləri keçirildiyi xəbər verilir, Dağıstan və Azərbaycanda da bu cür mərasimlərin keçirilməsinin gərəkliliyi qeyd edilirdi.[45] 1813-cü il 13 yanvar (Fi Eva-il-i Ra 1228 h.) tarixli digər bir xətti-humayunda Surxay xan, Şeyxəli xan, Səlim xan və digər xanlara Sultanın oğlu şahzadə Əbdülhəmidin doğulması barədə xəbər verilirdi.[46]

1813-cü il 29 iyun (Evahir-i 6.1228 h.) tarixli xətti-humayunda Məkkə, Mədinə, Ciddə və Taif şəhərlərinin Misir valisi Məhəmməd Əli paşa və oğlu Tosun Əhməd paşa tərəfindən azad oluması ilə əlaqədar Türkiyədə şənliklər keçirilməsi barədə xəbər verilir, Azərbaycan və Dağıstanda da bu cür şənliklərin keçirilməsi arzu odlunurdu.[47]

İrana qalib gələn Rusiya onu 1813-cü il oktyabrın 12-də (23) Gülüstan sülh müqaviləsini imzalamağa məcbur etdi. Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla, bütün Şimali Azərbaycan xanlıqları Rusiyaya ilhaq edilidi. Rusiyanın əsarətini qəbul etməyən bəzi xanlar Türkiyəyə və İrana mühacirət etdilər. Şəkili Səlim xan da Türkiyəyə keçdi. Burada onun üçün lazımı şərait yaradılmış, Ərzurum kömrükxanasından ayda 5 kisə ağça məvacib təyin olunmuş və Ankarada yerləşdirilmişdi. Səlim xan 1822-ci ildə Sultana ərizə yazaraq bu məvacibin onun xərclərini ödəmədiyini, Ankaranın iqliminin ona yaxşı təsir etmədiyini bildirmiş, məvacibinin artırılmasını, yaxud həmin məvaciblə yanaşı, ona Bursada çiftlik ayrılmaqla oraya köçməsiə icazə verilməsini xahiş etmiş, lakin müsbət cavab almamışdı.[48]

XIX yüzilin 20-ci illərinin əvvəllərində Osmanlı hakimiyyət orqanları ilə İranda hakimiyyətini möhkəmləndirmiş Azərbaycan türkü olan Qacarlar sülaləsi arasında münasibətlər yenidən kəskinləşdi. Bunun başlıca səbəbi bəzi köçəri tayfaların gah bu dövlətin ərazisindən digərinin, gah da əks tərəfə keçməsi olmuşdu. 1820-21-ci illərdə (1235 h.) Ərzurum hakimi Osman paşa xahiş edirdi ki, İrəvan və Xoy qoşunları Bəyazidə dörd-beş saatlıq məsafədə sərhəddi keçəcəkləri təqdirdə ona kömək göstərilsin.[49]

İrəvanlı Hüseyn xan 1820-21-ci ildə (1235 h.) Haydaranlı aşirətinin başçısı Qasım ağaya yazırdı ki, onun Osmanlı ərazisinə keçib orada qalması iki dövlət arasında ixtilafa və aşirətin fəlakətinə səbəb olacaq.[50]

1820-21-ci illərə aid bir mənbədə deyilirdi ki, Haydaranlı tayfası adətən Osmanlı imperiyası ərazisində yaşayıb və bəzən də İran ərazisinə keçib, indi həmin tayfanın İrana qaytarılması haqqında iddia yersizdir.[51] Mənbədən aydın olur ki, Haydaranlı aşirəti əvvəllər Osmanlı hüdudlarında yaşamışdır,

həm də sünni məzhəblidir. Bu dəfə qışlamaq üçün Türkiyəyə getdikləri zaman İrəvan hakimi Hüseyn xanın aşirət rəisi Qasım ağaya məktub göndərib İrəvana (yaxud İrana) qayıtmalarını tələb etməsi düzgün deyil.[52] Həmin ilə aid digər bir sənəddə deyilirdi ki, Haydaranlı aşirətinin sərhəddi keçib Muş tərəfdə məskən salması qanunidir və İranın onları zorla tələb etməsi düzgün deyil. Baş vəzirdən soruşulurdu ki, şayəd İran əsgərləri sərhədi keçərlərsə, tayfa müdafiə olunsun, yoxsa yox.[53]

1820-21-ci illlərdə (1235 h.) Ərzurum hakimi Muş hakimi Səlim paşaya məktubunda xəbər verirdi ki, İrəvanlı Hüseyn xan qoşun toplayaraq Osmanlı ərazisinə hücuma hazırlaşır və Səlim paşanı aradan götürmək istəyir.[54]

Qeyd edək ki, Rusiya diplomatiyası da hər vəchlə Osmanlı imperiyası ilə İranı toqquşdurmağa çalışırdı. Osmanlı-İran sərhəd münaqişəsi dərinləşərək hərbi toqquşmaya çevrilmiş və yalnız 1823-cü ildə sülh bağlanması ilə nəticələnmişdi.[55]

Rusiya yalnız Şimali Azərbaycan torpaqlarının ilhaqı ilə kifayətlənmək istəmir, ölkənin cənub torpaqlarını da zəbt etməyə hazırlaşırdı. Eyni zamanda İran şah sarayı da Arazdan şimaldakı torpaqlara iddiasından əl çəkmirdi. İngiltərə və Fransa diplomatları da yardım vədləri verir, İranı Rusiyaya qarşı yeni müharibəyə təhrik edirdilər. Hadisələrin inkişafı 1826-cı ildə ikinci Rusiya-İran müharibəsinin başlanmasına gətirib çıxartdı.

Rusiya qoşunları əsas zərbəni Naxçıvan və İrəvan xanlıqlarına yönəltdilər. İrəvanlı Məhəmməd xanın qardaşı mühafizi olduğu Abbasabad qalasını ruslara təslim etdi.[56]

İran Rusiya ilə müharibədə osmanlılardan yardım almağa çalışırdı. Lakin yenidən Rusiya ilə toqquşmaqdan qorxan Osmanlı sarayı İrana yardım göstərməyə ehtiyat edirdi. Axısqa mühafizi (əvvəlki sənəddə Anapa mühafizi yazılıb) Həkki paşa Qalib paşaya yazırdı ki, (20 sentyabr 1827-ci il tarixdə) İran şahı və şahzadələr böyük miqdarda qoşunla Xoy tərəfə gəlmişlər. Osmanlı nümayəndəsi Əndəruni Xəlil ağa İrəvanlı Hüseyn xanın yanına göndərilibmiş. O, şahzadə Abbas Mirzə ilə rastlaşıb. Şahzadə İrəvanlı Hacı Məhəmməd bəy adlı bir şəxsə məktub verərək onu Xəlil ağa ilə birlikdə Axısqa mühafizi İsmayıl Həkki paşanın yanına göndərib. Məktubda deyilirdi ki, İran ruslara qarşı müharibədə Osmanlıdan yardım istəyir, əvəz olaraq Kartli, Kaxeti, Qori və Zalkini aldıqdan sonra osmanlılara verməyi vəd edir. Həkki paşa İran elçisinə bildirmişdi: O təəccüblənir ki, İran hələ Üçkilsə, Abadan, Naxçıvan və Abbasabadı geri almamış bu yerlərədən yüz saatlıq məsafədə olan ərazilər haqqında danışır. Həkki paşa Ərzurum hakimi Qalib paşaya bildirirdi ki, İranın məqsədi bu yolla Osmanlı ilə Rusiya arasındakı sülhün pozulmasıqdır.[57]

Axısqa mühafizi İsmayıl Həkkinin Sultana göndərdiyi 1827-ci il 7 dekabr (25 ramazan 1241-ci h.) tarixli qaiməsində bildirilirdi ki, İrəvan sərdarı və qardaşı Həsən xan Abadan (Abbasabad-T.M.) qalasını mühasirə etmiş, oradakı ruslar müqavimət göstərə bilməyib Qarakilsə tərəfə çəkilmişlər. İranlılar burada da onların üzərinə hücuma keçərək onları qılıncdan keçirmiş, 700 tərəkəmə elini qaldırıb İrəvan tərəfə göndərmişlər. Sərdar Gümrü qəzasından 4 qəryəni İran tərəfə köçürmüş, 4 qəryənin sakinlərini isə özü aparıb Qars ətrafındakı Maqazberd bəyi Şərif ağaya vermişdir. O aralarda Gümrüdən başqa heç yerdə adam qalmamışdır. Şahzadə külli əsgərlə Tiflis üzərinə getmək niyyətindədir.[58]

Baban və Xoy sancaqları hakimi Mahmud paşa Bağdad valisi Davud paşaya məktubunda bildirmişdi ki, Rusiya qoşunlarının Qafqazdakı baş komandanı gen. Paskeviç Abbas Mirzənin Xoyda topladığı əsgərləri tərxis etməsindən xəbər tutan kimi İrəvan üzərinə hərəkət etmiş və bu qalanın müdafiəsinə məsul olunmuş Marağalı Əhməd xanın oğlu Cəfərqulu xanla sövdələşib şəhəri almış, sonra qoşununu Təbriz üzərinə yeritmişdir.[59]

Bağdad valisi Davud paşanın 1827-ci il 8 dekabr (19 cümədə axır 1243h.) tarixli təhrirində deyilirdi: Baban sancağı hakimi rus qoşunlarının Təbrizi zəbt etdiyi xəbərini vermişdir. Həmsərhədd osmanlı paşaları rusların Süleymaniyyə, Kərkük və Ərdəbilə də təcavüz edəcəyindən narahat olmuşdular.[60]

Sovucbulaq hakimi Abdulla xan rusların Sovucbulağı zəbt edəcəyindən qorxaraq Osmanlı dövlətinə qaçmış və vilayətin Osmanlı ərazilərinə birləşdirilməsini xahiş etmişdi. Osmanlı hakimiyyət orqanları bu xahişin yerinə yetirilməsindən heç bir fayda olmayacağını, əksinə lazımsız söz-söhbətə səbəb olacağını güman edərək rədd cavabı vermişdi.[61]

Rusiya-İran hərbi əməliyyatlarının Osmanlı sərhədlərinə yaxınlaşması bu dövlətin vəzifəli şəxslərini çox narahat edirdi. Ərzurum valisi Qalib paşa 1827-ci il 12 dekabr (23 cümadəaxır 1243 h.) tarixli qaiməsində İran və Azərbaycan əhalisinin Abbas Mirzənin və digər xanların zülmünə məruz qaldıqlarını xəbər verir, rusların qış aylarında Çıldıra hücum edə biləcəyi ehtimalına qarşı Ərdəhan, Ərzurum, Qars və Bəyazid qalalarına 6-7 min nəfər əsgər, hərbi sursat və top göndərildiyini xəbər verirdi.[62]

İkinci Rusiya-İran müharibəsində də İran məğlubiyyətə uğradı. 1828-ci il fevralın 11 (22)-də Təbrizin yaxınlığındakı Türkmənçay kəndində bağlanmış sülh müqaviləsinə əsasən Naxçıvan və İrəvan xanlıqları da Rusiyaya ilhaq edildi.

Azərbaycan parçalandı, ölkənin şimalı Rusiya, cənubu isə İran əsarəti altına düşdü. Bir çox azərbaycanlılar nicat yolunu etnik cahətdən yaxın Osmanlı dövlətinə birləşməkdə görürdülər. Qarapapaq elindən olan Molla Mustafa adlı bir şəxs 1828-ci ilin mayın 15-də Axalkalaka gəlmiş, yerli Osmanlı hakimiyyət orqanlarına bildirmişdi ki, gen. Paskeviç Gürcüstan hüdudlarında yaşayan müsəlman feodallarını Tiflisə yığıb onlardan rus çarına sədaqət tələb etsə və bu sədaqəti təmin etmək üçün onların ailə üzvlərindən və qohumlarından girovlar götürsə də, müsəlmanların çoxusu Rusiyadan üz çevirmişdir. Yalnız osmanlılar hələlik Rusiya ilə hərbə başlamadığından onlar öz hisslərini açıq bildirmirlər. Osmanlı hökuməti Zalkı və Gümrü tərəfə yürüş təşkil edərsə, Gürcüstan ərazisində yaşayan müsəlmanlar Osmanlı qoşunlarına bu yerləri almağa kömək edəcəklərini, əgər bu mümkün olmazsa, Axısqa üzərinə hücum edəcəklərini bildirirdilər.[63]

Osmanlı dövləti Qafqazda nə qədər ehtiyatla hərəkət edərək rus işğalına qarşı ölüm-dirim mübarizəsi aparan Azərbaycan türklərinə açıq hərbi yardımdan çəkinsə də Rusiya ilə yeni hərbdən qaça bilmədi. 1828-1829-cü illərdə yeni Rusiya-Osmanlı müharibəsi baş verdi. Ağır böhran vəziyyətində olan Osmanlı dövləti yenə məğlubiyyətə uğradı və 1829-cü ildə bağlanmış sülh müqaviləsinə görə, Cənubi Qafqazın şərq hissəsinin, o cümlədən Şimali Azərbaycanın Rusiya tərəfindən ilhaqını qəbul etdi.

Beləliklə, 1792-ci ildən Osmanlı imperiyasının Qafqaz siyasətində yenidən, özü də əsaslı dəyişiklik baş verdi. Yeni müharibədə də qalib gələn Rusiya bağladığı sülh müqaviləsi ilə Osmanlı dövlətini Cənubi Qafqazda fəal siyasət yeritməkdən məhrum etdi. İndi bu regionda hökmranlıq uğrunda mübarizəyə yeni bir namizəd – Ağa Məhəmməd xan Qacar qoşulur. O, 1791-ci ildə Təbrizə doğru hərəkət edərək, Cənubi Azərbaycan xanlarını özündən asılı vəziyyətə salmış, sonra nəzərlərini Şimali Azərbaycana və Şərqi Gürcüstana yönəltmişdi. Yassı müqaviləsinə görə rəsmən bu ərazilərə iddialarından əl çəkməli olan Osmanlı hökuməti bu zaman bir növ düşməni başqasının əli ilə vurmaq siyasəti yeridərək, Ağa Məhəmməd xanın Cənubi Qafqazın şərq hissəsini tutmaq niyyətinə müsbət yanaşır, hətta ona müəyyən ölçüdə maddi yardım da göstərirdi. Eyni zamanda Şimali Azərbaycan xanları da Ağa Məhəmməd xana qarşı mübarizədə Osmanlı dövlətindən yardım xahiş edirdilər.

Çətin seçim qarşısında qalan Osmanlı dövləti qəti mövqe tuta bilməyərək, nə xanların yardım istəklərinə müsbət cavab verdi, nə də Ağa Məhəmmədi ruslara qarşı müharibədə dəstəklədi.

Lakin Osmanlı dövləti Azərbaycan əhalisinin Rusiya iş-ğalçılarına qarşı mübarizəsinə tamamilə etinasız da qalmamışdı. Belə ki, Osmanlı hökumətindən alınan yardım hesabına müqavimət dəstələri təşkil olunmuş, və onlar 1796-cı ildə Qubada ruslara qarşı çıxmışdı.

XVIII yüzilliyin sonlarında nə Rusiya, nə də İran Azərbaycanda möhkəmlənə bilmişdir. II Yekaterina öldükdən sonra taxta çıxan oğlu İ Pavel bir sıra səbəblərə görə rus qoşunlarını geri çağırmışdı. 1797-ci ildə Ağa Məhəmməd Şimali Azərbaycana ikinci yürüş təşkil edib Şuşanı alsa da, suiqəsd qurbanı olmuş və İran qoşunları pozulub Azərbaycandan qaçmışdı. Əsrin lap sonunda iri dövlətlərin başı daxili problemlərinə və daha vacib xarici məsələlərə qarışdığı üçün onların Azərbaycanla bağlı planlarına diqqətləri müvəqqəti olaraq zəifləmişdi.

Ancaq tezliklə Azərbaycan yenə iri dövlətlərin, ilk növbədə Rusiyanın və İranın diqqət mərkəzinə düşmüş, 1801-ci ildə Şərqi Gürcüstanı ilhaq edən Rusiya qəti olaraq Şimali Azərbaycanı da işğal etmək işinə başlamışdı.

Daxili böhran keçirən Osmanlı imperiyası nəinki Rusiyanın Azərbaycana həmləsinə müqavimət göstərmək iqtidarında olmamış, hətta bəzi hallarda sərhədyanı paşaların qiyamlarını yatırmaqda rus komandirlərindən yardım istəmişdi. İran daha fəal siyasət yürütməyə çalışmış və 1804-cü ildə Rusiya ilə müharibəyə başlamışdı. Eyni zamanda Osmanlı hökuməti də ciddi-cəhdlə göstərdiyi səylərinə baxmayaraq, Rusiya ilə müharibədən qaçına bilməmişdi.

Eyni düşmənə qarşı mübarizə aparmaq şəraiti İran və Osmanlı dövlətlərinin yaxınlaşması üçün imkan yaratsa da, hətta iki dövlətin birgə hərbi əməliyyatlarını təşkil etməyə cəhd göstərilsə də onlar arasında ümumi düşmənə qarşı birgə fəaliyyət əməli olaraq baş tutmamışdı. Nəticədə həm Osmanlı imperiyası, həm də İran Rusiyaya yenilmiş və hər ikisi Rusiyanın Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla, bütün Şimali Azərbaycan xanlıqlarını ilhaq etməsi ilə barışmalı olmuşdu. Osmanlı-İran yaxınlaşması uzun sürməmiş, bu zaman onların arasında İrandan asılı olan İrəvan xanlığındakı elatların gah bu, gah o biri dövlətin ərazisinə keçməsi ilə bağlı yaranmış ixtilaf dərinləşərək 1822-1823-cü illərdə Osmanlı-İran hərbi münaqişəsinə çevrilmişdi.

1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı vəliəhd Abbas Mirzə Şərqi Gürcüstanı osmanlılara güzəştə getdiyini bildirib yardım xahiş etsə də, Rusiya ilə yeni müharibə başlamağa iqtidarı olmayan Osmanlı hökuməti bu xahişi cavabsız qoymuşdu. Lakin Osmanlı dövləti Rusiya ilə müharibəsiz keçinməyi mümkün edə bilməmiş, yenə də məğlubiyyətə uğra-yaraq Cənubi Qafqaza təsir göstərməyə imkan verən hüquqlarından tamamilə əl çəkməyə məcbur olmuşdu.

## NƏTİCƏ

Beləliklə, XVIII yüzillikdə və XIX yüzilliyin əvvəllərində Osmanlı imperiyası ilə Azərbaycandakı siyasi qüvvələr və dövləti qurumlar arasında mövcud olmuş münasibətləri əks etdirən zəngin sənəd və materialların təhlilindən sonra aşağıdakı nəticələrə gəlmək mümkündür:

XVIII yüzilliyin əvvəllərində Azərbaycan hələ siyasi cəhətdən müstəqil olmadığından iki ölkə arasında yalnız ticari və mədəni əlaqələr mövcud olur, 1722-ci illdə Səfəvi dövlətinin faktiki dağılması ilə Osmanlı imperiyasının Azərbaycana münasibətində köklü dəyişiklik baş verir. Əvvəla, öz müstəqilliyini elan etmiş Şirvan xanlığı ilə onun arasında siyasi münasibətlər təşəkkül tapmağa başlayır. İkincisi, Osmanlı dövləti XVII əsrin sonlarında Avropada məruz qaldığı ərazi itkilərinin əvəzini çıxmaq üçün Səfəvi mirasına yiyələnmək qərarına gəlir. Rusiya çarı I Pyotrun 1722-ci ildə Xəzəryanı regiona işğalçı yürüşü də osmanlıları müsəlmanların yaşadığı qonşu ərazilərin xristianlar tərəfindən işğalına yol verməmək üçün həmin əraziləri öz nəzarəti altına almağa vadar edir.

1723-cü ilin yazında Osmanlı qoşunlarının Cənubi Qafqazda hərbi əməliyyatlara başlaması ilə iki imperiya arasında müharibə təhlükəsi yaranır. Rusiya üçün əlverişli olmadığına görə osmanlılarla müharibədən çəkinən I Pyotr münaqişəni həll etmək üçün diplomatik hiylələrə əl atır. Rus diplomatiyası Fransanın yardımı sayəsində Türkiyə ilə müharibə təhlükəsini tamamilə ləğv edə bilməsə də, onun Avropada Rusiyaya qarşı hərbi əməliyyatlardan müəyyən müddətə çəkindirməsinə müvəffəq olur və osmanlılar 1723-cü ilin yay əməliyyatları kampaniyasına hazırlaşmaq üçün çox qiymətli müddəti - yaz vaxtını itirirlər. Rusiya kimi iri dövlətlə toqquşmadan çəkinən baş vəzir İbrahim paşa Nevşehirlinin qətiyyətsiz mövqeyi də bu vəziyyətin yaranmasında az rol oynamır.

İstanbulda keçirilən Rusiya-Osmanlı danışıqlarında əsas mübahisə mövzusu Azərbaycan torpaqları ilə bağlı idi. Osmanlı tərəfi Rusiyanın heç bir hüququ olmadığı üçün Dərbənd və Bakıdan əl çəkməsini, Rusiya tərəfi isə bütün sahilyanı zonanın özündə, Ərdəbil, Təbriz və Sultaniyyə şəhərlərinin İranda qalmasını tələb edirdi.

Uzun danışıqlardan sonra 1724-cü il iyunun 24-də İstanbulda bağlanmış Rusiya-Osmanlı müqaviləsinə görə, Osmanlı imperiyası Azərbaycanın çox hissəsinə nəzarət hüququ əldə edir, lakin Bakı, Dərbənd və digər Xəzəryanı məntəqələrin isə Rusiya idarəçiliyinə keçməsinə razılıq verir. Şirvan, onun Rusiya idarəçiliyinə keçmiş Xəzəryanı hissəsi istisna olmaqla, Osmanlı Sultanının himayəsi altında yarımmüstəqil xanlığa çevrilir.

Azərbaycan əhalisinin Osmanlı dövlətinə münasibəti ikili səciyyə daşıyır. Bir sıra şəhərlər və mahallar: Qazax, Şəki, Qəbələ, Naxçıvan, Ordubad, Marağa Osmanlı himayəsini könüllü qəbul edir. Gəncə, Təbriz, İrəvan, Ərdəbil, Həmədan və digər şəhərlərin əksərən şiəməzhəb olan əhalisi isə Osmanlı müftisinin şiələri qırmağa çağıran fitvasından qorxub müqavimət göstərərək ümidsizcəsinə vuruşur.

İstanbul müqaviləsi Xəzəryanı regionda Osmanlı-Rusiya ziddiyyətlərini tamamilə aradan qaldırmadı, yalnız bir qədər yumşaltdı. I Pyotrun xələfləri dövründə Rusiyanın regionda fəallığı azalsa da, rus hökuməti hər vasitə ilə özünün əsas rəqibi Osmanlı imperiyasının Xəzəryanı regionda möhkəmlənməsinə mane olmağa çalışır, bu zaman ermənilər və gürcülərdən istifadə edərək, onları osmanlılara qarşı çıxmağa təhrik edirdi.

Rusiya ilə Osmanlı imperiyası arasında münasibətləri kəskinləşdirən amillərdən biri də Cənubi Qafqazda sərhədlərin müəyyənləşdirilməməsi idi. İki imperiya arasında sərhədlər sülh müqaviləsi bağlandıqdan yalnız 3 il sonra - 1727-ci il dekabrın 12-də (23) Şamaxı yaxınlığındakı Nabur kəndində bağlanmış aktla təsdiq olundu.

Osmanlılar həm də Səfəvi mirasını ələ keçirməyə çalışan əfqanların da rəqibinə çevrilib müqavimətinə rast gəlir. Yalnız Həmədan yaxınlığında uğradığı ağır məğlubiyyətdən sonra əfqan hökmdarı Əşrəf şah Cənubi Qafqaz, Təbriz, Həmədan və Kirmanşah üzərində Osmanlı hakimiyyətini tanıyır.

Osmanlı dövləti öz idarəçiliyinə keçirdiyi Azərbaycan torpaqlarında Səfəvilər dövründə mövcud olan inzibati bölgünü yalnız cüzi dəyişiklik etməklə saxlayır. Çox vaxt sancaq adlandırılan yeni əyalətlərin sərhədləri müəyyən dərəcədə keçmiş bəylərbəyiliklərin sərhədlərinə uyğun gəlir, amma bəzi hallarda onların ərazisi bir qədər daralıb kiçilir. Əyalətlərdə ali hərbi-inzibati, həmçinin siyasi hakimiyyət Sultan tərəfindən təyin olunan sərəskərlərə və mühafizlərə aid edilir. Mahal (nahiyyə) naibləri və kəndxudalar isə əsasən yerli feodallardan təyin olunurdu.

Kür çayından şimaldakı Azərbaycan torpaqları (Zahur, İlisu, Ərəş) xüsusi status alıb vassal hakimlər tərəfindən idarə edilir. Keçmiş Şirvan bəylərbəyliyinin mərkəzi hissəsində Osmanlı imperiyasının

himayəsi altında olan yarımmüstəqil xanlıqda hakimiyyət uğrunda mübarizə narahatlıq doğurduğundan Osmanlı sarayı Hacı Davudu devirib Surxay xanla əvəz etmək, bu yolla həm də Dağıstan feodallarının basqınlarının qarşısını almaq qərarına gəlir və onu 1728-ci ildən Şirvan hakimi təyin edir.

Osmanlı idarəçiliyi aqrar münasibətlərin xarakterində mühüm dəyişikliklərə səbəb olan yeniliklər gətirir. Sadəcə olaraq osmanlılara müqavimət göstərən feodalların torpaqları müsadirə olunur, loyal feodalların isə mülkiyyət hüququ təsdiqlənirdi. Osmanlı döyüşçülərinə, xüsusən də yeniçərilərə torpaq mülkiyyəti verilməsi halları da məlumdur. Tarixi sənədlərin öyrənilməsi göstərir ki, osmanlılar əhalinin hədsiz ağır vəziyyətini nəzərə alaraq, iqtisadiyyatın dirçəlməsinə şərait yaratmaq məqsədilə vergilərin bəzilərini müvəqqəti dayandırır, bəzilərini isə ümumiyyətlə ləğv edirlər.

Ticarətə aid rüsum və vergilər Səfəvilər dövründə olduğu kimi saxlanır. Ticarət-maliyyə dövriyyəsində həm Səfəvi, həm də Osmanlı pulları işlənir və ticarətin canlanması üçün bəzi tədbirlər də görülür. İpəyin Türkiyə vasitəsilə tranzit ticarətini genişləndirmək üçün daha az rüsumlar tətbiq olunur. Vergi və rüsumların yığılması əsasən nizama salınsa da, müəyyən özbaşınalıq hallarının baş verdiyini də qeyd etmək lazımdır.

Əhalidən alınan vergilərin mühüm hissəsi qoşunların saxlanılmasına, xeyli vəsait isə strateji əhəmiyyət daşıyan məntəqələrin möhkəmlənməsinə sərf olunurdu.

Osmanlı hakimiyyət orqanları Azərbaycanda sosial-siyasi vəziyyəti sabitləşdirməyə çalışsalar da, buna tamamilə nail ola bilmirdi. Ən narahat bölgələrdən biri Qarabağın dağlıq hissəsi idi. Buranın bəzi lokal ərazisində xristianların qismən çoxluqda olduğu yerin sakinləri təbii şəraitin çətinliklərindən yararlanaraq, vergiləri verməkdən boyun qaçırır, onların silahlı dəstələri əlçatmaz yerlərdə gizlənirdi. Buna görə osmanlılar həmin bölgədə sabitliyi 1726-cı ilədək lazımi dərəcədə bərpa edə bilmirdilər.

Osmanlı idarəçiliyinə qarşı ən böyük üsyan 1727-ci ilin sonunda yerli hakim Əbdürrəzaq xanın başçılığı ilə Qaradağda başlanır. Osmanlı hakimiyyətindən narazı şahsevən tayfaları da bu üsyana qoşulur, üsyançıların sayı on minlərə çatır. Saxta «Səfəvi şahzadə»si «İsmayıl Mirzə» də üsyana qoşulur və tezliklə rəhbərliyi öz əlinə alır. Zəif təşkil olunmuş, pis silahlanmış üsyançıların rəhbərliyi də zəif idi, osmanlılar böyük hərbi qüvvələr cəlb edib, çətinliklə olsa da «İsmayıl Mirzə» və Əbdürrəzaq xanın rəhbərlik etdiyi hərəkatı yatıra bildilər. Maraqlı faktdır ki, Rusiya hakimiyyət orqanları da bu çıxışların yatırılmasında fəallıq göstərirdilər.

XVIII əsrin 20-ci illərinin ikinci yarısında Xəzəryanı regionda Osmanlı imperiyası həm Rusiyanın, həm də Nadir Əfşarın başçılığı ilə yenidən dirçələn şahlıq dövlətinin rəqabəti ilə üzləşir. Rusiyanın hakimiyyət orqanları əvvəlkitək erməniləri şirnikləndirib Türkiyəyə qarşı mübarizəyə çəkir, onları pul və silahla təchiz edirdi. Rusiya-Osmanlı münasibətlərində yaranan ixtilaflar tez-tez yerli sakinlərin bir işğal zonasından digərinə keçməsi ilə bağlı olurdu. Sultanın ali himayəsində olan yeni Şirvan hakimi Surxay xanın rus işğal zonasındakı ərazilərə basqınları da iki imperiya arasındakı münasibətlərə mənfi təsir edirdi.

Yenidən dirçəlməkdə olan şah hakimiyyəti keçmiş Səfəvi dövlətinə məxsus bütün ərazilərə yiyələnməyə cəhd edirdi. Buna görə də Osmanlı imperiyası yenidən Cənubi Qafqaz və İranda hərbi əməliyyatlara başlamağa məcbur olur. 1730-cu ilin sonunda İstanbulda qalxmış üsyan nəticəsində Osmanlı imperiyasında sosial gərginliyin artması onu fəal hərbi əməliyyatlar apamasına mənfi təsir göstərir. Qeyd olunmalıdır ki, həmin çıxışın alovlanmasında Osmanlı hökumətinin Təbrizi iranlılara qaytarmaqla bağlı sövdələşməsi az rol oynamır.

1731-ci ilin əvvəlində Osmanlı imperiyasında daxili siyasi vəziyyət müəyyən dərəcədə sabitləşdiyindən Osmanlı orduları əks-hücuma keçmək imkanı əldə edir, onların yeni, bu dəfə daha qısamüddətli hücumu başlanır. Kirmanşah döyüşsüz, Təbriz və Ərdəbil də çətinlik çəkmədən ələ keçirilir. II Təhmasib sülh xahiş etməli olur. 1732-ci ilin əvvəlində bağlanan Kirmanşah müqaviləsinə görə, Osmanlı imperiyası Həmədan, Kirmanşah, Ərdəbil və Təbrizi İrana güzəştə gedir, şah isə öz növbəsində Araz çayından şimaldakı bütün Qafqaz torpaqlarında osmanlıların hakimiyyətini tanıyır.

Eyni zamanda İranın yenidən güclənməsini görən və onu Osmanlı imperiyası ilə toqquşdurmağa çalışan Rusiya da 1732-ci ilin əvvəlində Rəşt müqaviləsini bağlayaraq Kür çayından cənubda ələ keçirdiyi bütün Xəzəryanı ərazini ona güzəştə gedir.

İran və Osmanlı imperiyası arasında sülh çox davam etmir. Heç bir nüfuzu olmayan II Təhmasibin südəmər oğlu III Abbası şah, özünü qəyyum elan etməklə dövlətdə bütün ali hakimiyyəti əlində cəmləşdirən Nadir öz mövqeyini möhkəmləndirmək, şöhrətini artırmaq üçün osmanlılardan Səfəvilərə məxsus bütün əraziləri geri tələb edərək yenidən hərbi əməliyyatları canlandırır. Nadirin hücumundan şaşıran Osmanlı imperiyası barışığa meyl göstərir. Lakin 1733-cü ilin fevralında Nadir və bağdadlı

Əhməd paşa arasında hərbi əməliyyatların dayandırılması haqqında saziş imzalansa da, döyüşkən ovqatlı müharibə tərəfdarları son nəticədə üstün gəlir.

Krım xanı Qaplan Girey öz qoşunları ilə Cənubi Qafqazdakı Osmanlı ordularına yardım göstərmək üçün hərəkət edərkən yolu Rusiya işğalında olan Dərbənddən keçir. Krım tatarları onların qarşısını kəsən rus dəstələrinin müqavimətini qıraraq Dərbəndin yanındakı dağ cığırlarından keçib Şirvana daxil olur. Lakin onlar sayca az olduqlarına görə Osmanlı hökuməti Nadirlə müharibədə elə bir üstünlük əldə edə bilmir. Amma onların gəlişi Rusiya ilə münasibətləri kəskinləşdirir. Digər regionlarda, o cümlədən Polşada Rusiya-Osmanlı ziddiyyətlərinin kəskinləşməsi ilə birlikdə bütün bunlar iki imperiya arasında müharibəni yaxınlaşdıran amil olur. Nadirin daha da gücləndiyini görən və onu Türkiyə ilə müharibəni davam etdirməyə şirnikdirməyə çalışan Rusiya hökuməti 1735-ci ilin martında Terek çayından cənubdakı bütün Xəzəryanı ərazilərin İrana qaytarılmasını nəzərdə tutan Gəncə müqaviləsini imzalyır. Gəncə müqaviləsi Osmanlı imperiyasına qarşı yönəlir, tərəflər bir-birilərindən xəbərsiz osmanlılarla sülh danışıqlarına başlamamağı öhdələrinə götürürlər. İran Rusiya ilə «əbədi ittifaqda olmağı» vəd edir.

Rusiyanın dəstəyindən ruhlanan Nadir artıq Osmanlı imperiyasının torpaqlarına belə iddia etməyə başlamışdı. Xəzəryanı regionda sarsılmış mövqelərini möhkəmləndirmək üçün Osmanlı sarayı yenidən Krım xanını Dağıstana və Şirvana göndərməyi qərara almışdı. 1735-ci ilin payızında Krım qoşunları Dərbəndə tərəf hərəkət edəndə rus ordusu təxribat məqsədilə Krıma basqın etdi. Bu əslində iki imperiya arasında müharibənin başlanması demək idi. Beləliklə göründüyü kimi XVIII əsrin 20-30-cu illərində Azərbaycanda Rusiya-Osmanlı ziddiyyətlərinin kəskinləşməsi bu müharibənin alovlanmasında az rol oynamamışdı.

1736-cı ildən Osmanlı imperiyasının Azərbaycana münasibətdə yürütdüyü siyasətdə yeni mərhələ başlayır. İki cəbhədə müharibədən qaçan Osmanlı sarayı Sultan IV Muradın dövründəki sərhədlərin bərpası şərtilə Nadirlə yenidən sülh danışıqlarına başladı. Ancaq 1736-cı ilin martında özünü şah «seçdirmiş» Nadir artıq keçmiş Səfəvi ərazilərinin qaytarılması tələbi ilə kifayətlənməyərək, bir sıra yeni şərtlər, o cümlədən şiəliyin sünnilüyə daxil beşinci məzhəb kimi qəbul edilməsi şərtini irəli sürmüşdü. Osmanlı tərəfi, axırıncı şərt istisna olmaqla, qalan bütün şərtləri qəbul etməyə razılıq verdi. Axırıncı şərtin qəbulu haqqında qərar ali ruhanilərin məclisində qəbul olunmalı idi. Buna görə də sülh danışıqları uzanmışdı. Ancaq Nadir şah 1738-ci ildə Hindistana hərbi səfərə çıxdığına, Osmanlı imperiyası isə Rusiyaya qarşı müharibəyə cəlb edildiyinə görə osmanlılarla iranlılar arasında hərbi əməliyyatlara ara verilmişdi.

Osmanlı üləmaları Nadirin dinlə bağlı tələbini yerinə yetirməkdən imtina etdiklərindən 1743-cü ildən Nadirlə osmanlılar arasında müharibə yenidən qızışmışdır. İki dövlət arasında münasibətlərin kəskinləşməsinin səbəblərindən biri də Osmanlı sarayının Azərbaycanda Nadirin müstəbidliyinə qarşı çıxan qüvvələri, o cümlədən saxta «Səfəvi şahzadələrini» dəstəkləməsi olmuşdu.

Müharibə 1746-cı ildə sülh müqaviləsinin bağlanması ilə başa çatmış, Sultan IV Murad dövründəki sərhədlər təsbit olunmuşdu. Lakin Nadir şah osmanlılarla yaxınlaşdığı bir zamanda - 1747-ci ildə sui-qəsd nəticəsində öldürüldü və onun imperiyası dağıldı. O zaman lazımi iqtisadi və siyasi zəmin olmadığından Azərbaycanda vahid dövlət deyil, 20-yə yaxın müstəqil və yarımmüstəqil dövlət qurumları – xanlıqlar yarandı.

1747-ci ildən Osmanlı-Azərbaycan münasibətlərində keyfiyyətcə tamamilə yeni olan bir mərhələ başlayır. Azərbaycan xanlıqları arasında ərazi, rəiyyət və sərvət uğrunda fasiləsiz çəkişmələr gedirdi. Urmiyalı Fətəli xan Əfşarın və Qubalı Fətəli xanın ölkəni birləşdirmək təşəbbüsləri digər xanların və Azərbaycanda gözləri olduğu üçün vahid Azərbaycan dövləti yaradılmasının qatı əleyhdarı olan Rusiya və İran hakimlərinin müqaviməti üzündən uğurla sonuclanmır. Rusiya və onun əlaltısı II İraklinin, şah taxt-tacına iddiaçıların təcavüzünə qarşı mübarizədə qüdrətli himayədara ehtiyac hiss edən Azərbaycan xanlarının bir çoxu yarandıqları gündən Osmanlı imperiyası ilə sıx münasibətlər yaratmağa, onun dəstəyini qazanmağa çalışırdılar. Osmanlı dövlətinə ilk müraciət edən Şəkili Hacı Çələbi xan olmuşdu. Gəncəli Şahverdi xan da 1750-ci ildən Osmanlı dövləti ilə səmimi münasibətlər yaratmağa çalışırdı.

1767-ci ilə qədərki dövr müstəqillik qazanan Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələrinin yaranması ilə, 1768-ci ildən başlanan dövr isə bu münasibətlərin keyfiyyətcə daha yüksək mərhələyə daxil olması ilə səciyyələnir. 1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsi ərəfəsində və dövründə Sultan da Azərbaycanın və Dağıstanın hakimlərini öz tərəfinə çəkməyə çalışırdı. Mötəbər mənbələr Qubalı Fətəli xanın da bu dövrdə Osmanlı dövlətinə rəğbət bəslədiyini göstərir. İrəvan, Qarabağ xanları da Osmanlılarla ittifaqa girməyə hazır olduqlarını bildirmişdilər. Lakin müharibədə

Türkiyənin vəziyyətinin əsaslı surətdə pisləşməsi, görünür, Azərbaycan xanlarını onun tərəfində çıxış etməkdən çəkindirmişdi.

1768-1774-cü illər müharibəsində Rusiyaya yenilib Krımı itirən Osmanlı dövləti üçün Cənubi Qafqazın əhəmiyyəti artdığından Osmanlı hakim dairələri bu regiona, ilk növbədə Azərbaycana daha çox diqqət yetirməyə başlayır. Rusiya təhlükəsinin artdığı bir şəraitdə Azərbaycan xanlıqlarının bir çoxu yardım üçün öz nəzərlərini osmanlılara çevirirlər. Qubalı Fətəli xan tərəfindən Şamaxıdan qovulmuş Ağası xan və Məhəmməd Səid xan qardaşları bu dövrdə Osmanlı imperiyasına daha çox meyl edənlərdən idilər. 70-ci illərin ortalarında Şəki və Xoy xanlarının da Osmanlı dövləti ilə yaxınlaşmaya böyük meyl göstərdikləri müşahidə olunur.

Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətlərində imperiyanın sərhəd vilayətləri, ilk növbədə Çıldır vilayəti və onun hakimi Süleyman paşa mühüm rol oynayırdı. Dağıstan feodallarına qarşı mübarizədə Qubalı Fətəli xanın yardım xahişindən istifadə edərək rus hərbi hissəsinin 1775-ci ildə Dərbəndə daxil olması Osmanlı imperiyasında möhkəm narazılığa səbəb olmuşdu. Osmanlı hökuməti Rusiyanın Cənubi Dağıstandakı niyyətləri və Dərbəndə hərbi hissə göndərilməsi ilə bağlı rəsmi sorğu vermişdi. Osmanlı dövləti ilə münasibətləri vaxtından əvvəl kəskinləşdirmək istəməyən Rusiya imperatriçəsi II Yekaterinanın göstərişi ilə rus qoşunu Dərbənddən çıxarılmışdı.

Osmanlı hökuməti həm də Azərbaycan xanları arasında çəkişmələrin aradan qaldırılmasına çalışırdı. Çünki Rusiya və Gürcüstanın bundan bəhrələnəcəyindən ehtiyat edirdi. 1779-cu ildə Qubalı Fətəli xan, Şəkili Hüseyn xan və bir sıra Dağıstan hakimlərinin Qarabağ xanlığına yürüşə hazırlaşdıqları aydınlaşdıqda Sultan xüsusi fərman göndərərək bu yürüşün dayandırılmasını tələb etmişdi.

70-ci illərin ortalarında Osmanlı dövləti ilə Mərkəzi İranda hakimiyyətə nəzarət edən Kərim xan Zənd arasında münasibətlərin korlanması hərbi münaqişə həddinə çatır və yalnız xeyli səylərdən sonra münaqişə sülh yolu ilə nizamlanır.

1781-ci ilin iyun ayında Rusiya hökumətinin Xəzərin cənubi-qərb sahillərinə hərbi eskadra göndərməsi də Osmanlı hökumətini çox narahat etmişdi. Eyni zamanda Rusiyanın himayəsinə arxalanaraq Qarabağ ərazisində özləri üçün dövlət yaratmaq istəyən ermənilər də fəallaşırlar. Belə şəraitdə təbii ki, bir çox Azərbaycan xanları yardım üçün nəzərlərini yenə Türkiyəyə çevirirlər. Lakin daxilən xeyli zəifləmiş Osmanlı dövləti Rusiya ilə yeni müharibəyə girməkdən çəkinərək pul və hədiyyələr göndərməklə, mənəvi təsir vasitəsilə Cənubi Qafqazda güclənməkdə olan rus-gürcü-erməni ittifaqının ona və Azərbaycan xanlıqlarına qarşı təcavüzünün qarşısını almağa çalışırdı.

1783-cü ildə Kartli-Kaxeti çarlığının Rusiya himayəsinə qəbul edilməsinə cavab olaraq, Osmanlı hökuməti bütün Azərbaycan və Dağıstan feodallarını birləşməyə, Rusiyanı nə Türkiyə tərəfə, nə də Cənubi Qafqaza buraxmamağa çağırmışdı. Bu çağırış müəyyən nəticə vermiş, Cənubi Qafqazda Rusiyaya qarşı bəzi çıxışlar başlamışdı. 1783-cü ilin payızında Xəlil əfəndinin başçılığı ilə göndərilmiş nümayəndə heyəti Osmanlı dövləti ilə Azərbaycan və Dağıstan feodalları arasında ittifaq təşkil etməli idi. 1784-cü ilin yanvarına toplanış mərkəzi olan Şuşaya artıq 8 min döyüşçü toplaşıbmış. Lakin Rusiyanın əks-tədbirləri nəticəsində Azərbaycan xanları və Dağıstan hakimlərinin Rusiya və onun əlaltısı Gürcüstana qarşı birgə çıxışı baş tutmamışdı. Xəlil əfəndinin təşviqi ilə bir sıra Azərbaycan xanları, o cümlədən Qubalı Fətəli xan yardım üçün Sultana müraciət etmişdi.

Bu dövrdə Osmanlı dövlətinin Cənubi Qafqazda ən çox diqqət yetirdiyi və mühüm təsirə malik olduğu məntəqələrdən biri strateji əhəmiyyətə malik İrəvan qalası idi. Lakin II İraklinin fitnələri nəticəsində Türkiyəyə meylli İrəvanlı Qulaməli xan öldürülmüş və yerinə anası gürcü olan azyaşlı qardaşı Məhəmməd keçmişdi. Bu xanın xarici siyasətdə gah Türkiyəyə, gah da Gürcüstana meyl etdiyi müşahidə olunur.

Sultanın 1784-cü ilin payızında İbrahim əfəndinin başçılığı ilə Azərbaycana göndərdiyi yeni nümayəndə heyəti müsəlmanları «müqəddəs müharibəyə» və Rusiya hücumunun qarşısını almaq üçün birləşməyə çağırmış, xanlara xeyli pul yardımı göstərmişdi. İbrahim əfəndinin səfəri əsasən uğurlu olmuş, Şəki, Xoy, Qarabağ xanları Çıldır valisi ilə ittifaq yaradıb Rusiyanın təcavüzünə qarşı birgə mübarizə aparacaqlarına söz vermişdilər. Osmanlı paşalarının çağırışı ilə carlılar və bəzi Azərbaycan hakimləri Gürcüstana hücum edib hətta Tiflisi ələ keçirmək istəmişlər.

80-ci illərin ortalarında Osmanlı hökuməti həm də Kərim xan Zəndin ölümündən sonra Mərkəzi İranda hakimiyyəti ələ keçirmiş Əli Murad xanla Rusiyanın Azərbaycanı bölüşdürmək cəhdlərinə mane olmağa çalışmışdır.

80-ci illərin ortalarından Osmanlı sarayı Xoylu Əhməd xanın böyük güc və nüfuzunu nəzərə alaraq, onunla sıx münasibətlər yaradılmasına xüsusi fikir verir, ona top və bəzi hərbi sursatla yardım göstərirdi.

Lakin az sonra Əhməd xanın öz rəqibləri tərəfindən qətlə yetirilməsi Osmanlı dövlətinin Cənubi Azərbaycandakı mövqelərinin zəifləməsinə səbəb olmuşdu.

Osmanlı-Rusiya münasibətləri yenidən kəskinləşdiyindən, iki dövlət arasındakı münasibətlərdə müharibə ab-havası du-yulduğundan, osmanlılar Cənubi Qafqazda artıq Rusiyadan çəkinməyərək daha qətiyyətli hərəkət etməyə başlayır. Carlı Ümmə xan 1785-ci ilin payızında böyük qüvvə ilə Gürcüstana basqın etmişdi.

1786-cı ildə II İraklinin Osmanlı dövlətinə münasibəti yaxınlaşmağa doğru kəskin dəyişir. Görünür, Rusiya-Osmanlı müharibəsində Rusiyanın onu müdafiə etməyə əli çatmayacağını duyan çar bu yolla təhlükəsizliyini təmin etmək istə-yirdi. Osmanlı sarayı da öz qüvvələrini parçalamaq istəmədiyindən gürcülərin bu reveransına müsbət yanaşdı.

Osmanlı hökuməti Rusiya ilə 1787-ci ildə başlayan müharibədə Azərbaycan xanlarının qüvvələrindən istifadə etmək istəyirdi. Lakin bu dövrdə Azərbaycan xanları arasında kəskin ara mübarizələri getdiyindən onların Rusiyaya qarşı çıxmaları demək olar mümkün deyildi.

1792-ci ildən Osmanlı imperiyasının Qafqaz siyasətində köklü dəyişiklik baş verir. Yeni müharibədə də qalib gələn Rusiya bağladığı Yassı sülh müqaviləsi ilə Osmanlı dövlətini Cənubi Qafqazda fəal siyasət yürütməkdən məhrum edir. İndi bu regionda hökmranlıq uğrunda mübarizəyə yeni bir namizəd–Ağa Məhəmməd xan Qacar qoşuldu. O, 1791-ci ildə Təbrizə doğru hərəkət edərək, Cənubi Azərbaycan xanlarını özündən asılı vəziyyətə salmışdı. Bundan sonra Ağa Məhəmməd xan öz nəzərlərini ölkənin şimalına və Şərqi Gürcüstana yö-nəltmişdi.

Yassı müqaviləsinə görə bu ərazilərə iddiasından rəsmən əl çəkməli olan Osmanlı hökuməti bir növ düşməni başqasının əli ilə vurmaq siyasəti yürüdərək, Ağa Məhəmməd xanın Cənubi Qafqazın şərq hissəsini tutmaq niyyətinə müsbət baxsa da ona çox etibar etmirdi. Ona görə də 1796-cı ildə Rusiya Cənubi Qafqaza hərbi səfər təşkil etdikdə artıq özünü şah elan etmiş Ağa Məhəmmədin ona qarşı yardım istəyinə Osmanlı hökuməti soyuq yanaşmışdı. Ümumiyyətlə, Osmanlı hökuməti Ağa Məhəmməd xan Qacara münasibətdə qəti və aydın mövqe tuta bilməmişdir. Bir yandan, Azərbaycan xanlarının Qacara qarşı yardım diləmələrinə, digər yandan, Ağa Məhəmmədin Rusiyanı regiondan çıxarmaq cəhdinə müsbət yanaşır, amma xanlara real dəstək vermirdi.

XVIII yüzilin sonunda bir müddət başları daxili problemlərə və daha vacib xarici məsələlərə qarışdığı üçün iri dövlətlərin, o cümlədən Osmanlı imperiyasının Azərbaycana diqqəti zəifləyir.

Lakin tezliklə Azərbaycan yenidən iri dövlətlərin - ilk növbədə Rusiyanın və İranın diqqət mərkəzinə düşür. 1801-ci ildə Şərqi Gürcüstanı ilhaq edən Rusiya qəti olaraq Azərbaycanı işğal etməyə başladı.

Daxili böhran keçirən Osmanlı imperiyası nəinki Rusiyanın Azərbaycana həmləsinə müqavimət göstərmək iqtidarında deyildi, hətta bəzi hallarda sərhədyanı paşaların qiyamlarını yatırtmaqda rus komandirlərindən yardım istəyirdi. İran daha fəal siyasət yürütməyə çalışırdı və 1804-cü ildə Rusiya ilə müharibəyə başlamışdı. Eyni zamanda Osmanlı dövləti, münaqişədən yayınmaq üçün göstərdiyi səylərinə baxmayaraq, Rusiya ilə müharibədən qaçına bilməmişdi.

Eyni düşmənə qarşı müharibə İran və Osmanlı dövlətinin yaxınlaşması üçün zəmin yaratmış, hətta iki dövlətin birgə hərbi əməliyyatlarını təşkil etməyə cəhd göstərilmişdi. Həm Osmanlı imperiyası, həm də İran üstün Rusiya ilə müharibədə məğlubiyyətə uğramış, Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Rusiyanın bütün Şimali Azərbaycan xanlıqlarını ilhaq etməsi ilə barışmalı olmuşdu. Osmanlı imperiyası ilə İran arasında yaxınlaşma çox sürməmişdir. Osmanlı sərhəd paşaları ilə bu zaman İrandan asılı olan İrəvan xanlığı arasında elatların bir dövlətin ərazisindən digərinə keçməsi ilə bağlı ixtilaf düşmüş, bu ixtilaf dərinləşərək 1822-23-cü illərdə Osmanlı-İran hərbi münaqişəsinə çevrilmişdi.

1826-28-ci illər Rusiya-İran müharibəsi başladıqda vəliəhd Abbas Mirzə Şərqi Gürcüstanı Osmanlı dövlətinə «güzəştə getdiyini» bildirərək hərbi yardım xahiş etmiş, Rusiya ilə yeni hərbdən çəkinən Osmanlı hökuməti bu xahişi cavabsız qoymuş, ancaq yenə Rusiya ilə müharibədən qaçınmaq mümkün olmamışdı. 1828-1829-cu ildə yeni Osmanlı-Rusiya müharibəsi olmuş, məğlubiyyətə uğrayan Osmanlı dövləti Cənubi Qafqaza hüquqlarından bütünlüklə əl çəkmişdi.

XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətlərinin səciyyəvi xüsusiyyəti bundan ibarət idi ki, Osmanlı imperiyası Rusiyanın Azərbaycanı zəbt etməsi ilə barışmaq istəmir, lakin hərbi qüdrəti zəiflədiyi üçün bu işğala real müqavimət göstərə bilmirdi. Buna görə də Osmanlı dövləti Azərbaycanla əlaqələrdən, demək olar ki, məhrum oldu.

Bütün deyilənləri yekunlaşdıraraq qeyd etmək olar ki, XVIII yüzillikdə - XIX yüzilliyin əvvəllərində Osmanlı dövləti ilə Azərbaycan arasında münasibətlər heç də həmişə eyni səviyyədə olmamış, konkret

dövrdə özünəməxsus xüsusiyyətlər daşımışdı. Ayrı-ayrı xanlıqların Osmanlı dövlətinə münasibəti eyni səviyyədə olmamışdır. Məsələn, Qarabağ, Şəki, Şamaxı, Xoy xanlıqları Osmanlı dövləti ilə daha sıx əlaqə saxlayırdılarsa, Rusiya ilə yaxın məsafədə yerləşdiyi üçün ondan çəkinən Quba xanlığı müəyyən zamanlarda Osmanlı dövləti ilə münasibətlərini ya pərdələməli, ya da soyutmalı olurdu.

## Qeydlər

### Giriş

1. Quliyev Ə.N., Azərbaycan-Rusiya münasibətləri tarixindən (XV-XVIII əsrlər) Bakı-1958; Abdullayev Q., Azerbaydjan v XVIII veke i vzaimootnoşeniya eqo s Rossiey Baku-1965; Abdurraxmanov A.A., Azerbaydjan v vzaimootnoşeniyax Rossii, Tursii i İrana v pervoy polovine XVIII veka Baku-1964; İbraqimbeyli X.M., Rossiya i Azerbaydjan v pervoy treti XIX veka Moskva-1969; Smirnov N.A., Politika Rossii na Kavkaze v XVI-XIX vekax, Moskva-1958; Leviatov V.N., Oçerki iz istorii Azerbaydjana v XVIII veke, Baku-1948 və i.a.
2. Sotavov N.A., Severnıy Kavkaz v russko-iranskix i russko-turetskix otnoşeniyax XVIII veka (Ot Konstantinopolskoqo doqovora do Küçük-Kaynardjiyskoqo mira: 1700-1774 q.), Avtoreferat doktorskoy dissertatsii. Moskva-1989, s.24.
3. Yenə orada, s.28.
4. M.Münir Aktepe 1720-1724 Osmanlı-İran münasibetleri ve Silahsör Kemani Mustafa Ağa"nın Revan Fetihnamesi, İstanbul-1970.
5. «Kafkas Araştırmaları İ», Acar yayınları İstanbul-1988.
6. Cemal Gokçe. Kafkasya və Osmanlı imparatorluğunun Kafkasya siyaseti.(Doktora tezi). İstanbul – 1979.
7. İbrahim Yüksel Carlık Rusyasının Azerbaycanı istilası ve Osmanlı devletinin tutumu. "Kafkas Arastırmaları", İ Acar yayınları, İstanbul- -1988, s.25-33.

### I Fəsil. XVIII yüzilliyin 20-30-cu illərində Osmanlı imperiyası və Azərbaycan

1. Səfəvi dövlətinin süqutu və Osmanlı imperiyasının Qafqaz siyasəti

1. Raxmani A.A., Azerbaydjan v konse XVI i v naçale XVII vv. (1590-1700). Baku-1981, s.89.
2. Djalalyan Yesai Xasan Kratkaya istoriya stranı Albanskoy (1702-1722 qq.) Per. s drevne-armyan. yazıka T.İ.Ter-Qriqoryana (Predislovie i podqotovka k izdaniyu akad. Z.M.Buniyatova). Baku--1989, s.20.
3. Mikluxo-Maklay N.D., İz istorii afqanskoqo vladıçestva v İrane (20-e qodı XVIII veka) «Uçeniye zapiski LQU», 1954, №179, ser. Vostokoved. nauk, vıp.4, s.138.
4. Djalalyan Ye.X., adı göstərilən əsəri (a.g.ə.), s.20.
5. Aliev F.M. Antiiranskiye vıstupleniya i borba protiv turetskoy okkupasii v Azerbaydjane v pervoy polovine XVIII veka. Baku-1975, s.16-17.
6. Tamay A., Vosstaniye 1711-1722 qq. v Azerbaydjane. Uç.zap. İnstituta istorii, yazıka i literaturı im.Q.Sadası Daqestanskoqo FAN SSSR. T.3 – Maxaçkala, 1957, s.77-89.
7. Djalalyan Ye.X., a.g.ə., s.31. Hadisənin şahidi olan Əlibəy Bədrəddinzadə yazır ki, Gürcü çarı VI Vaxtanq böyük qoşunla Gəncənin «etibarsız adamlarına» qarşı yürüş edir ki, Şirvanın hayfını alsın və Bərdə, Şəki və Gəncədə yaşayan sünnilərin qanını töksün, onların əmlakını qarət etsin.-Mamedov Q.M., «Kaime» Bedreddinzade Ali-beya, (statya 1-2) «Azərb. EA-nın xəbərləri». Tarix, fəlsəfə və hüquq ser., 1988, №3. s.74.
8. Bu ən çoxu ona görə baş vermişdi ki, rus tacirləri, onlara və mallarına toxunulmayacağından arxayın olub Şamaxı varlılarının qiymətli əşyalarını da alıb gizlətmişdilər. Bundan xəbər tutan və qəzəblənən üsyançılar Şamaxını tutan günün axşamı rus tacirlərinin dükanlarına girərək onları qarət etdilər. – Bax: Solovyev S.M., Pyotr Velikiy na Kaspiyskom more. «Vestnik Yevropı», 1868, №3, s.172.
9. Mikluxo-Maklay N., a.g.ə., s.139-140.
10. Yenə orada. s.140.
11. Osmanli-İran-Rusiya ilişkilerine ait iki kaynak. Petros di Sarkis Gilanentzin kronoloæisi (turk diline cevireni Q. Andreasyan). İstanbul--1974, s.14.
12. Mikluxo-Maklay N.D., a.g.ə., s.141.
13. Boçvadze T.Dj., a. g. avtoreferatı, s.43.
14. Bax: Aliev F.M., Missiya poslannika russkoqo qosudarstva A.P.Volınskoqo v Azerbaydjane (1716-1718). Baku-1979, s.24.

15. AVPRİ, f.77 (SRP), sp.İ, 1738 q., d.10, l.320.

16. Meyer M.S., Novıe yavleniya v sosialno-politiçeskoy jizni Osmanskoy imperii vo vtoroy polovine XVII-XVIII vv. V kn.: Osmanskaya imperiya (sistema qosudarstvennoqo upravleniya, sosialnıe i etnoreliqioznıe problemı). Moskva-1986, s.158.

17. Smirnov N.A., Politika Rossii na Kavkaze v XVI-XIX vv., Moskva-1958, s.56-57.

18. Şenqeliya N.N., Finansovoe vedomstvo Osmanskoy imperii i eqo dokumentasiya (na primere analiza finansovıx dokumentov «sebeb-i taxrir-i xukum»). V kn.: Osmanskaya imperiya (sistema qosudarstvennoqo upravleniya, sosialnıe i etnoreliqioznıye problemı). Moskva-1986, s. 40-65.

19. XVII-ci əsrin 30-cu illərinə qədər yeniçəri korpusunun əsasını müsəlmanlaşdırılmış xristian uşaqları, sonra isə əsasən qılıncla rəftar etməyi bacaran müsəlman könüllüləri təşkil edirdi.

20. Meyer M.S., Novıe yavleniya, s.169.

21. Aşağı feodal təbəqəsindən çıxan Əli ağa özünün bacarığı ilə feodal nərdivanının yüksəkliklərinə qalxa bilmişdir. 1709-cu il mart ayında Sultan III Əhmədin sevimli qızı Fatiməyə evlənərək onun kürəkəni olur və paşa rütbəsi alır. Sultana böyük təsir göstərən Əli paşa faktiki olaraq sarayda vəzirdən də böyük nüfuza malik idi. 1713-cü ildə baş vəzir təyin olundu. Savadlı şəxs idi və elmə böyük qayğı göstərirdi. İstanbulda kitabxana yaratmışdı, yalnız kataloqu üç cildən ibarət idi. Bax: Vitol A.V., İz istorii Osmanskoy imperii naçala XVIII v. Deyatelnost Damada Ali paşi (1713-1716). «Uçenıe zapiski LQU, №395. Ser.vostokoved.nauk. vıp.20. Vostokovedenie», № 4, s.31-32.

22. Məsələn nümunə kimi Sultan Süleyman Qanuninin üç mənşəcə xristian vəzirini göstərmək olar.

23. Vitol A.V., Osmanskaya imperiya v naçale XVIII veka. Moskva, s.43

24. Yenə orada, s.46-47.

25. Yenə orada, s.34-39.

26. Yeremyev D.E., Meyer M.S., İstoriya Tursii (v sredniye veka i novoe vremya). Moskva-1992, s.182.

27. Baş vəzir İbrahim paşa Sultanın qızına evləndiyinə görə ona Damad (kürəkən) təxəllüsü vermişdilər.

28. AVPRİ, f.89, (SRT), op.1, d.1723 q., d.5, ç.2, l.240 ob.

29. Yeremyev D.E., Meyer M.S., İstoriya Tursii, s.180.

30. Bax.: Vitol A.V., İz istorii turetsko-fransuzkix otnoşeniy (posolstvo yirmisekiz Çelebi Mexmeda Efendi vo Fransiyu v 1720-1721 qq.) «Narodı Azii i Afriki». 1976. №4, s.125.

31. Meyer M.S., Vosstanie qorodskix nizov Stambula v 1730 q. (Priçinı i xarakter), «Narodı Azii i Afriki», 1963, № 4, s. 81.

32. RQADA, f.77 (SRP), 1715, q.d.2. ll.34-35.

33. Yenə orada; vər. 35 və arxa üzü; Aliyev F.M. Missiya poslannika., s.33.

34. RQADA, f.77. 1715. d.2. l.6.

35. L.Lokhart., The fall of the safavi dinasty and afqan occupation of Persia. Cambridge, 1958, p.123; Markova O.P., Rossiya, Zakafkazye i mejdunarodnıye otnoşeniya v XVIII veke. Moskva- 1966, s.24.

36. Popov A.N., Snoşenie Rossii s Xivoyu i Buxaroyu pri Petre Velikom, Sankt-Peterburq-1853, s.365.

37. Yenə orada. s.289, 366.

38. L.Lokhart., a.g.ə., s.121-125.

39. Yenə orada. s.215-216.

40. Yenə orada, s.217.

41. RQADA. f.Kabinet.,Petra İ. Otdeleniye 2, kn.54 l.667; Lısçov Persidskiy poxod Petra İ. 1722-1723. Moskva-1951, s.107.

42. AVPRİ, f. 89 SRT, op. İ, 1722 q., d.6: c.İ; l.30 i ob.

43. Yenə orada, l.33; Armyano-russkie otnoşeniya v pervoy treti XVIII veka. Sbornik dokumentov (pod redaksiey A. Yonisyana). Tom 2, çast 2, Yerevan-1967, s.122.

44. AVPRİ, f. 89 SRT, op. İ, 1722 q., d.6, c.İ, l.73.

45. Yenə orada, l.31.

46. Yenə orada, d.4. ll.3-5.

47. Sbornik İmperatorskoqo Rossiyskoqo İstoriçeskoqo Obşestva, (SBRİO) tom 49, Sankt-Peterburq-1885, s.63.

48. AVPRİ. f. 89 SRT, op. İ. 1722 q., d.6. c.İ. l.72 i ob.

49. Yenə orada l.99.
50. Yenə orada, l.99 i ob., həmçininn bax.: Solovyev S.M., İstoriya Rossii: kn.9 (tt.17-18). Moskva-1963, s.392.

2. I Pyotrun Xəzəryanı regiona yürüşünə (1722-1723) Osmanlı İmperiyasının münasibəti

